Almaniyanın və İtaliyanın siyasi dağınıqlığı bujua Fransasının hərbi uğurlarını təmin edən əsas amillərdən biri idi. Fransanın şərq sərhədlərində mərkəzləşmiş güclü dövlət yox idi. Kiçik alman və italyan hökmdarları Bonaparta ciddi müqavimət göstərə bilmirdilər. Onlar arasındakı ədavətdən istifadə etməklə, Napoleon onları bir – birindən ayıraraq torpaq artımları və digər sədəqələrlə öz tərəfinə cəlb edirdi. İşğal edilmiş vilayətlərin təzminat və müsadirə yolu ilə qarət edilməsi, tabe olan ölkələrin əlverişli kömrük tarifləri ilə istismarı, vassal dövlətlərin yaradılması və onların hərbi kontingentlə təchiz edilməsi Napoleon fransasının vəsaitlərini artırır və qüdrətini gücləndirirdi. Lakin gec və ya tez Avropanın qarət edilməsi onun xalqlarının müqavimətinə səbəb olacaqdı [9]. Digər tərəfdən istila edilmiş ölkələrdə burjua dəyişikliklərinin tərəfdarları ilk dövrlərdə fransızların tərəfində dururdular, bu da Fransadan asılı dövlətlərin yaranmasını asanlaşdırırdı.

İtaliyada və Almaniyanın Reyn vilayətlərində, həmçinin Belçikada fransız ağalığı yerli feodal əyanların hakimiyyətdən uzaqlaşdırılması və bir sıra burjua islahatları ilə müşayiət edilirdi.

Ədəbiyyat

1. Ateş Toktamış, Siyasi tarih (ortaçağdan ondokuzuncu yüzyılın sonlarınadek). İktisat fakültesi yayınları, İstanbul, 2020
2. Ahmet Eyigil, Siyasi tarih (1789-1939). Ankara, 1991
3. Alan Palmer, Osmanlı İmparatorluğu, Bir Çöküşün Yeni Tarihi, İstanbul, 1997
4. Baxışov Məmmədağa. İngiltərənin yeni tarixi. Bakı., 2012, s.112
5. Englund S. Napoleon: A Political Life - Simon and Schuster. 2010. — 592 p.
6. Fahir Armaoğlu. XIX Yüzyıl Siyasi Tarihi. Timaş Yayınları - İstanbul, 2016

[1] Əsgər əvəzinə pul verməyə və ya əsgər düşəni başqasilə əvəz etməyə yol verən əsgər toplama sistemi

DOI:10.30546/gdu.5.2026

7. Henry Kissinger, Diplomasi, Çev: İbrahim H. Kurt, İstanbul, 2002.
8. Lefebvre, G. Napoleon. With an Introduction by Andrew Roberts. Routledge Classics. London and New York: Routledge, 2011. 616 p. ISBN: 978-0-415-61009-4.
9. Новая история стран Европы и Америки XVI – XIX века. В 3 частях, под ред.проф.А.М.Родригеса.М.,2013.
10. «Новая история», под редакцией А. Л. Нарочницкого. Ч. I. , М. 1978
11. Philip Graves, İngilizler ve Türkler (1789-1939), Çev: Y. Tezkan, Ankara, 1999.
12. Тарле Е. В. «История XIX века» , М., 1983.
13. Талейран. Мемуары. Ред. и статья Е. Тарле. М. – Л., 1934.
14. Всемирная история. под ред.академика Г.Б.Поляка, проф. А.Н.Марковой. М., 2013.

КОНФЛИКТЫ МЕЖДУ ФРАНЦИЕЙ И АНГЛИЕЙ В ЭПОХУ НАПОЛЕОНА БОНАПАРТА

Расулова Наргиз Айдын кызы

Резюме

В статье рассматриваются политические, экономические и военные конфликты, возникшие между Францией и Англией во время правления Наполеона Бонапарта. Анализируется борьба сторон за морское и колониальное господство, вопросы Мальты и Египта, отношения с Россией и последствия Амьенского мирного договора 1802 года. Также рассматриваются политика гегемонии Наполеона в Европе, континентальная блокада и основные причины возобновления войн.

CONFLICTS BETWEEN FRANCE AND ENGLAND DURING THE ERA OF NAPOLEON BONAPARTE

Rasulova Nargiz Aydin

Summary

The article examines the political, economic, and military conflicts that arose between France and Britain during the era of Napoleon Bonaparte. It analyzes the struggle between the two powers for naval and colonial dominance, the issues surrounding Malta and Egypt, relations with Russia, and the consequences of the 1802 Treaty of Amiens. Additionally, the article reviews Napoleon's policy of hegemony in Europe, the Continental Blockade, and the primary causes behind the resumption of hostilities.

Rəyçi:dosent Musayev Etibar
Daxil olma tarixi 22 noyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:94(479.24).

AZƏRBAYCANDA SOSİAL XİDMƏT SİSTEMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Alməmmədova Elgünara Fərhad qızı
Bakı Dövlət Universitetinin Qazax filialı
ORCID: https://orcid.org/0009-0004-9967-7261
elmir9530@gmail.com

Xülasə: *Məqalədə XXI əsrin ilk illərindən etibarən Azərbaycan Respublikasında dayanıqlı sosial-iqtisadi inkişafı stimullaşdıran genişmiqyaslı islahatların reallaşdırılmasından, çətin həyat şəraitində olan şəxslərin cəmiyyətə inteqrasiyasını təmin edən sosial xidmət sisteminin yaradılması və müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində əhatəli işlər görülməsindən, Azərbaycan Respublikasının ratifikasiya etdiyi bir sıra beynəlxalq sənədlərin və milli qanunvericiliyin müvafiq müddəalarında mütərəqqi sosial xidmət sisteminin yaradılmasından, sosial xidmətlərin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması kimi əhəmiyyətli məsələlərin həlli nəzərdə tutulmasından, bu məqsədlə növbəti mərhələdə sosial xidmət sisteminin təkmilləşdirilməsindən və daha da gücləndirilməsi istiqamətində dövlət siyasətini müəyyən edən "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramının" hazırlanmasından bəhs edir.*

Həmçinin məqalədə Dövlət Proqramı Azərbaycan Respublikasının sosial xidmət sisteminin, o cümlədən qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi və sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılması üzrə dövlət siyasətinin əsaslarını müəyyən etməklə. Dövlət Proqramında əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılmasından, xidmətlərə əlçatanlığın təmin edilməsindən bəhs edir.

Açar sözlər. Sosial-iqtisadi, ratifkasiya, sosial xidmət, Dövlət Proqramı, həssas qrup, dövlət siyasəti

Keywords: socio-economic development, ratification, social services, state program, vulnerable groups, state policy.

Ключевые слова. Социально-экономические, ратификационные, социальная служба, государственная программа, уязвимая группа, государственная политика

Giriş. Müasir dövrdə sosial xidmətlər əhalinin sosial müdafiəsinin təmin edilməsində mühüm rol oynayır. Azərbaycanda son illərdə sosial xidmət sisteminin təkmilləşdirilməsi, xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi və həssas əhali qruplarının sosial rifahının yüksəldilməsi istiqamətində mühüm islahatlar həyata keçirilir. Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun hesablamalarına əsasən, 2050-ci ildə dünya əhalisinin sayının daha 2 milyard nəfər artaraq 9,7 milyard nəfərə çatacağı proqnozlaşdırılır. Son onilliklər ərzində tibbin inkişafı, səhiyyə xidmətlərinin keyfiyyətinin artması nəticəsində dünyada insanların sağlamlıq və uzunömürlülük səviyyəsi yüksəlmiş, ümumilikdə dünya əhalisinin yaş strukturunda ahıl şəxslərin sayı əvvəlki dövrlərə nisbətən xeyli artmışdır. Lakin son dövrlərdə dünyada baş verən bir sıra mənfi proseslər insanların bir qisminin həyat səviyyəsinə, sosial-psixoloji vəziyyətinə mənfi təsir göstərmiş, onların sosial təhlükəli vəziyyətə düşmələrinə səbəb olmuşdur. Dövlət tərəfindən qəbul edilmiş proqramlar və institusional yeniliklər sosial xidmətlərin daha əlçatan, səmərəli və vətandaşyönümlü olmasına şərait yaradır.

Metod: Bu tədqiqatda Azərbaycanda sosial xidmət sisteminin inkişaf istiqamətlərinin öyrənilməsi məqsədilə keyfiyyət yönümlü tədqiqat metodlarından istifadə edilmişdir.

DOI:10.30546/gdu.5.2026

Araşdırma zamanı elmi ədəbiyyatın təhlili, normativ-hüquqi sənədlərin öyrənilməsi, müqayisəli təhlil, analiz və sintez metodları tətbiq olunmuşdur. Xüsusilə, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, sosial xidmət sahəsinə dair dövlət proqramları, rəsmi statistik məlumatlar və dövlət qurumlarının hesabatları araşdırılmışdır. (R. Babayev (2018). Azərbaycanda dövlət sosial sığorta və sosial təminat sisteminin təşəkkülü və inkişafı. UNEC.)

Müqayisəli təhlil metodu vasitəsilə Azərbaycanın sosial xidmət sistemi beynəlxalq təcrübə ilə müqayisə edilmiş, mövcud problemlər və inkişaf perspektivləri müəyyənləşdirilmişdir. Analiz və sintez metodları sosial xidmətlərin əhatə dairəsi, keyfiyyəti, əlçatanlığı və idarəetmə mexanizmlərinin qiymətləndirilməsində istifadə edilmişdir. Sosial xidmət sahəsində aparılmış elmi tədqiqatlarda da analiz, sintez və müqayisəli təhlil metodlarının tətbiqi geniş yayılmışdır.

Tədqiqatın nəticələrinin formalaşdırılmasında sosial xidmət sisteminin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramında müəyyən edilmiş prioritet istiqamətlər, o cümlədən normativ-hüquqi bazanın təkmilləşdirilməsi, rəqəmsallaşdırma, xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və insan resurslarının inkişafı əsas götürülmüşdür.

Təhlil və müzakirə: Dövlət siyasətinin əsas məqsədlərindən biri sosial xidmətlərdən faydalanan şəxslərin sayını artırmaqdır. Bu istiqamətdə yeni sosial xidmət müəssisələrinin və günərzi xidmət mərkəzlərinin yaradılması, regionlarda xidmət şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulur. DOST mərkəzlərinin fəaliyyəti sosial xidmətlərin göstərilməsində innovativ yanaşmaların tətbiqinə nümunədir. Elektron xidmətlərin genişləndirilməsi və rəqəmsal həllərin tətbiqi vətəndaşların xidmətlərə daha sürətli və rahat çıxışını təmin edir. Azərbaycanda sosial xidmət sahəsində ən mühüm islahatlardan biri ənənəvi tibbi modeldən sosial reabilitasiya modelinə keçiddir. Bu yanaşma əlilliyi olan şəxslərin və digər həssas qrupların cəmiyyətə inteqrasiyasını, müstəqil həyat bacarıqlarının inkişafını və sosial aktivliyinin artırılmasını hədəfləyir. Yaşlılar, əlilliyi olan şəxslər, valideyn himayəsindən məhrum olmuş uşaqlar, məişət zorakılığı qurbanları və insan alverindən zərər çəkmiş şəxslər üçün xüsusi sosial xidmət proqramları həyata keçirilir. Bu istiqamətdə xidmətlərin keyfiyyətinin yüksəldilməsi prioritet məsələlərdən biridir. Sosial işçilərin peşəkarlığının artırılması və beynəlxalq təcrübənin tətbiqi sosial xidmətlərin keyfiyyətinə birbaşa təsir göstərir. Dövlət Proqramında bu sahədə ixtisaslı kadrların hazırlanması əsas hədəflərdən biri kimi müəyyən edilmişdir. Son illərdə Azərbaycan Respublikasında əhalinin etibarlı sosial müdafiəsi istiqamətində mühüm işlər görülmüşdür. Eyni zamanda, Azərbaycan Respublikası müxtəlif səbəblərdən çətin həyat şəraitinə düşmüş insanların sosial müdafiəsinin təmin edilməsi məqsədilə aidiyyəti beynəlxalq və regional təşkilatlar, müxtəlif qurumlar tərəfindən qəbul edilmiş bir sıra dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilə və sazişlərə qoşulmuşdur. Bu da insan hüquq və azadlıqlarının, o cümlədən vətəndaşların sosial hüquqlarının qəbul olunmuş beynəlxalq prinsip və normalar əsasında reallaşdırılmasına təminat vermişdir. (Sosial reabilitasiya modelinə keçidlə bağlı rəsmi məlumatlar.)

Bundan əlavə, XXI əsrin destruktiv texnoloji, sosioloji və digər çağırışları, qlobal rəqabətin bütün müstəvilər üzrə kəskinləşməsi trendləri innovativ üsullara və insan kapitalına söykənən müasir sosial təminat sisteminin tətbiq edilməsi məsələlərini önə çıxarmışdır ki, burada əsas məqsəd başqa sahələrdə olduğu kimi əhalinin sosial müdafiəsi sahəsində də rəqabət aparmaq imkanlarına malik, müasir çağırışlardan sığortalanmış dayanıqlı sosial sistemin qurulmasıdır.

2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf Sammitində Azərbaycanın da iştirak etdiyi BMT-nin üzvü olan dövlətlər tərəfindən "2030-cu ilədək

DOI:10.30546/gdu.5.2026

dayanıqlı inkişaf sahəsində Gündəlik" qəbul edilmiş, Gündəlikdə irəli sürülən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bütün imkanları səfərbər etməklə, "heç kəsi kənarda qoymamaq" prinsipinə əsaslanaraq insan həyatının və fəaliyyətinin bütün istiqamətlərində, o cümlədən yoxsulluğun azaldılması və sosial təminat sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün birgə səylərin göstərilməsi barədə razılıq əldə edilmişdir.

Beləliklə, həm Azərbaycan Respublikasında həyata keçirilən sosial siyasət, həm müvafiq sahədə ratifikasiya edilmiş beynəlxalq sənədlərin müvafiq müddəaları, həm də qlobal çağırışlar əhalinin daha keyfiyyətli sosial xidmətlərlə təmin olunmasını, bu sahədə yüksəkixtisaslı kadr potensialının yaradılmasını, sosial xidmət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsini və innovativ texnologiyaları tətbiq etməklə, sosial xidmət sisteminin də müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur.

Son illərdə həyata keçirilmiş uğurlu sosial siyasət nəticəsində həssas əhali qruplarından olan (valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar, bu səbəbdən sosial xidmət müəssisələrində yaşamış, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmayan şəxslər, əlilliyi olan uşaqlar, baxımsızlığa və sosial təhlükəli vəziyyətə məruz qalmış, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslər, insan alveri qurbanları və belə risklə üzləşən şəxslər, məişət zorakılığından zərər çəkmiş şəxslər, müəyyən yaşayış yeri olmayan, sosial yadırğama və sosial məhrumiyyət vəziyyətində olan və s.) şəxslərin sosial xidmətlərlə təminatında mühüm nailiyyətlər əldə edilmiş, "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunmasından ötən dövr ərzində həyata keçirilmiş tədbirlər nəticəsində çətin həyat şəraitində olan vətəndaşların daha münasib həyat şəraitinə qayıtması imkanları artmışdır.

Sosial-iqtisadi həyatın bütün sahələrində aparılan islahatlar nəticəsində sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi davamlı olaraq genişləndirilmişdir. Bu kateqoriyadan olan şəxslərlə bağlı həyata keçirilən siyasətin əsas məqsədi onların cəmiyyətin digər üzvləri kimi bərabərhüquqlu, dolğun həyat şəraitinə malik olmalarının və cəmiyyətə inteqrasiya olunmalarının təmin edilməsidir.

Çətin həyat şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən olunması və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi məqsədilə qəbul edilmiş "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin müəyyən edilməsi ilə bağlı müvafiq normativ hüquqi aktlar ("Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası", "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası", "Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası" və s.) qəbul edilmişdir. Bununla da Azərbaycan Respublikasında çoxspektrli sosial xidmətlər sistemi formalaşmış və bu sistem həmin şəxslərin məruz qaldıqları çətin həyat şəraitindən müdafiəsinə, sosial reabilitasiyalarına və cəmiyyətə inteqrasiya imkanlarına malik olmalarının təmin edilməsinə yönəldilmişdir. Ötən dövrdə sosial xidmət müəssisələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, müəssisələrin strukturlarının müasir tələblərə uyğunlaşdırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilmiş, yeni sosial xidmət müəssisələri (uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun evi" Sosial Müəssisəsi, həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi və s.) yaradılmışdır. Ahıl şəxslərə dövlət qayğısının artırılması istiqamətində tədbirlər davam

DOI:10.30546/gdu.5.2026

etdirilmiş, onların sosial müdafiəsinin gücləndirilməsini nəzərdə tutan müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı zəruri işlər görülmüşdür.(Sosial Xidmətlər Agentliyinin fəaliyyəti haqqında məlumatlar.)

Hər bir cəmiyyətdə uşaqların sosial müdafiəsi, sağlam və firavan böyüməsi, fiziki və mənəvi inkişafı üçün həyata keçirilən siyasət həmin cəmiyyətin ümumi inkişafının əsas keyfiyyət göstəricilərindən biri hesab edilir. Sivil və ümumbəşəri dəyərləri daim yüksək tutan Azərbaycan Respublikası da uşaqların münasib şəraitdə böyüyərək tərbiyə olunmaları və onların layiqli vətəndaş kimi formalaşmalarının təmin edilməsi sahəsində fəal siyasəti ilə fərqlənir. Hazırda Azərbaycan Respublikasının ixtisaslaşdırılmış sosial xidmət müəssisələri tərəfindən uşaqların münasib yaşayış şəraiti, sığınacaq və reinteqrasiya xidmətləri ilə təmin edilməsi, təhsilin və peşə hazırlığının, sosial reabilitasiyasının təşkili, onlara hüquqi, psixoloji yardımın göstərilməsi və digər tədbirlər həyata keçirilir. Uşaqlarla bağlı dövlət siyasətinin əsas hədəflərindən biri uşaq müəssisələrində yaşayan uşaqların ailə mühitində böyüməsinin təmin edilməsi, eyni zamanda onların stasionar uşaq müəssisələrinə düşməsinin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsidir. Uşaq müəssisələrinə düşmək riski olan 3234 uşaq müxtəlif şəhər və rayonlarda təşkil edilən günərzi qayğı mərkəzlərində xidmətlərə cəlb olunmuş, "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı ilə bağlı 2006–2015-ci illər üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində, eləcə də sonrakı dövr üzrə fəaliyyət nəticəsində 879 uşaq ailələrinə qaytarılmışdır.

Əlilliyi olan uşaqların digər ölkələrdə ixtisaslaşmış bərpa müalicəsinin təşkili diqqətdə saxlanılmış, ötən dövrdə bu kateqoriyadan olan 386 uşağın xarici ölkələrdə ixtisaslaşmış reabilitasiya kursu keçməsi təşkil edilmişdir.

Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin məzunu olan gənclərin yaşayış problemlərinin həlli ilə bağlı ciddi tədbirlər görülmüş, bu məqsədlə çoxmənzilli binalar inşa edilərək həmin kateqoriyadan olan 590 gəncin istifadəsinə verilmişdir. (DOST Agentliyi – Sosial xidmət istiqamətində göstərilən xidmətlər.)

Azərbaycan Respublikasında məişət zorakılığına qarşı mübarizənin kompleks şəkildə həyata keçirilməsi, məişət zorakılığının profilaktikası məqsədilə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun icrası ilə əlaqədar məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyasını həyata keçirən komissiya yaradılmış və həmin komissiya tərəfindən 10 qeyri-dövlət yardım mərkəzi akkreditə edilmişdir. Bu mərkəzlərdə zorakılıqdan zərər çəkmiş 1814 şəxsə sosial, psixoloji, hüquqi, ilkin tibbi yardım, səhiyyə müəssisələrinə yönləndirmə xidmətləri göstərilmiş, ehtiyacı olanlar müvəqqəti sığınacaqlarla təmin edilmişlər.

Qloballaşan dünyanın əsas problemlərindən olan insan alveri ilə mübarizədə müasir informasiya texnologiyalarının imkanlarından geniş istifadə və qurbanlara göstərilən dövlət dəstəyinin artırılması nəticəsində son illərdə Azərbaycan Respublikasında insan alverinin potensial qurbanlarının sayı əvvəlki dövrlərə nisbətən əhəmiyyətli dərəcədə azalmış, 1223 insan alveri qurbanı və risk qrupuna daxil olan şəxsin sosial reabilitasiyası istiqamətində müvafiq tədbirlər görülmüşdür. İnsan alveri ilə bağlı ictimai məlumatlılığın artırılması məqsədilə təhsil müəssisələrində mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilmiş, Azərbaycan Respublikasına gələn və ya Azərbaycan Respublikasından gedən şəxslərin bu və ya digər şəkildə insan alverinin qurbanı olmaq, məcburi əməyə cəlb edilmək təhlükəsindən qorunmaq yolları barədə məlumatlandırılması təmin edilmişdir.

DOI:10.30546/gdu.5.2026

Sosial xidmət sisteminin daha bir istiqaməti penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial müdafiəsi və sosial adaptasiyası ilə əlaqədar tədbirlərin təşkilidir. Hazırda cəza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə minimum aylıq əməkhaqqının 4 misli məbləğində birdəfəlik müavinət ödənilir, həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər kimi məşğulluqlarının təmin olunması və cəzaçəkmə müddəti başa çatmaq ərəfəsində olan şəxslərin peşə hazırlığının təşkili tədbirləri həyata keçirilir. 2018-ci ildən fəaliyyətə başlayan penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi tərəfindən bu kateqoriyadan olan şəxslərin sosial adaptasiyası, qanuni mənafelərinin qorunması, onlara hüquqi, sosial-psixoloji, sosial-məsləhət yardımının göstərilməsi, həmçinin həmin kateqoriyadan olan və müəyyən yaşayış yeri olmayan şəxslərin müvəqqəti yaşayış yeri ilə təmin edilməsi üçün kompleks xidmətlər göstərilir.("Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı".)

Sosial xidmət sahəsində dövlət sifarişlərinin qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarına verilməsi nəticəsində 482 layihə icra edilmiş, layihələr çərçivəsində ümumilikdə 35 mindən artıq çətin həyat şəraitində olan şəxsə və onların ailələrinə sosial-psixoloji, sosial-hüquqi, tibbi-sosial, sosial-məişət xidmətləri, sosial-məsləhət yardımı göstərilmiş, sosial reabilitasiya və müalicələrinin təşkili, reinteqrasiya xidmətlərinin göstərilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasında demoqrafik vəziyyət əhalinin sayının ilbəil artması ilə səciyyələnir. 2000-ci ildə əhalinin sayı 8032,8 min nəfər olduğu halda, 2022-ci il 1 yanvar tarixinə olan məlumata əsasən 10156,4 min nəfərə çatmışdır. Əhalinin ümumi artımı müvafiq olaraq təbii səbəblərdən çətin həyat şəraitinə düşən şəxslərin sayına təsir etmişdir. Həmçinin orta ömür uzunluğunun artması əhalinin yaş strukturunda ahıl şəxslərin payının artmasını şərtləndirmişdir. Azərbaycan Respublikasında ahıl şəxslərin sayı 2000-ci ildə 226,7 min nəfərdən 2022-ci il 1 yanvar tarixinə olan məlumata əsasən 452,1 min nəfərə çatmışdır. Beləliklə, son 22 ildə əhalinin ümumi sayı 26,44 faiz artdığı halda, ahıl şəxslərin sayında 99,4 faiz artım qeydə alınmışdır. Eyni zamanda, əlilliyi müəyyən edilmiş şəxslərin (o cümlədən *əlilliyi olan uşaqların*) sayı artaraq, bu müddətdə 251 min nəfərdən 615 min nəfərə qədər yüksəlmişdir. Azərbaycan Respublikası üzrə nikahdankənar evlilikdən dünyaya gələn uşaqların və boşanmaların sayının artması uşaqların valideyn himayəsindən məhrum olmasına öz təsirini göstərmişdir.

Qeyd edilənlərə əsasən son illərdə əhaliyə göstərilən sosial xidmətlərin həcminin və sosial xidmətlərdən yararlananların sayının ilbəil artmasına baxmayaraq, bu xidmətlərə olan tələbat daha yüksək templə artmaqdadır.

Təqdim olunan sosial xidmətlərin keyfiyyəti, effektivliyi, əlçatanlığı və digər məsələlər üzrə, ümumilikdə isə sosial xidmət sisteminin inkişafına nail olunması məqsədilə Dövlət Proqramının bir sıra prioritet istiqamətləri müəyyən edilmişdir. Sosial xidmət sistemində əldə olunan uğurlara baxmayaraq, bəzi problemlər hələ də qalmaqdadır. Bunlara regionlarda xidmətlərin əlçatanlığının tam təmin edilməməsi, sosial işçi çatışmazlığı, bəzi xidmət növləri barədə əhalinin məlumatlılıq səviyyəsinin aşağı olması və maddi-texniki bazanın daha da gücləndirilməsi ehtiyacı daxildir. Bu problemlərin həlli sosial xidmətlərin effektivliyinin artırılmasına kömək edə bilər.

Nəticə. Azərbaycanda sosial xidmət sisteminin inkişafı dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Son illərdə həyata keçirilən islahatlar, DOST modelinin tətbiqi, sosial reabilitasiya yanaşmasının inkişafı və xidmətlərin rəqəmsallaşdırılması bu sahədə mühüm nailiyyətlər yaratmışdır. Gələcəkdə sosial xidmətlərin əhatə dairəsinin

DOI:10.30546/gdu.5.2026

genişləndirilməsi, keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına xidmət edəcəkdir. Bu istiqamətdə aparılan işlər Dövlət Proqramlarında öz əksini tapır.

Ədəbiyyat

1. R. Babayev (2018). Azərbaycanda dövlət sosial sığorta və sosial təminat sisteminin təşəkkülü və inkişafı. UNEC.
2. N.Quliyev. (2016) Azərbaycanın sosial xidmət sferasının İnkişaf Konsepsiyasının təklifləri. (İqtisadiyyat üzrə fəlsəfə doktoru dissertasiyası).
3. DOST Agentliyi – Sosial xidmət istiqamətində göstərilən xidmətlər.
4. Sosial Xidmətlər Agentliyinin fəaliyyəti haqqında məlumatlar.
5. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı".
6. Sosial reabilitasiya modelinə keçidlə bağlı rəsmi məlumatlar.

DEVELOPMENT DIRECTIONS OF THE SOCIAL SERVICE SYSTEM IN AZERBAIJAN

Alməmmədova Elgünara Fərhad

Summary

The article discusses the implementation of large-scale reforms aimed at stimulating sustainable socio-economic development in the Republic of Azerbaijan since the early years of the 21st century. It highlights the establishment of a social service system that ensures the integration of individuals living in difficult life circumstances into society, as well as comprehensive efforts undertaken to improve the legislative framework in this field. The article examines the creation of a progressive social service system in accordance with the provisions of several international documents ratified by the Republic of Azerbaijan and relevant national legislation. It also addresses the importance of adapting social services to continuously evolving modern requirements. For this purpose, the article refers to the further improvement and strengthening of the social service system through the preparation of the State Program on the Development of Social Services in the Republic of Azerbaijan for 2023–2026, which defines the state policy directions in this area.

Furthermore, the article notes that the State Program establishes the foundations of state policy for improving the social service system of the Republic of Azerbaijan, including legislation and institutional mechanisms, and for creating the necessary conditions for the provision of social services. The State Program also focuses on increasing both the quantity and quality of social services provided to all vulnerable groups of the population and ensuring accessibility to these services.

НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СИСТЕМЫ СОЦИАЛЬНОГО ОБСЛУЖИВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

Альмамедова Эльгунара Фархад кызы

Резюме

С начала XXI века в статье обсуждается проведение масштабных реформ, стимулирующих устойчивое социально-экономическое развитие в Республике Азербайджан, создание системы социального обслуживания, обеспечивающей интеграцию людей в трудных условиях жизни в общество, а также проведение

DOI:10.30546/gdu.5.2026

комплексной работы по совершенствованию законодательной базы в соответствующей области, ряд международных документов, ратифицированных Республикой Азербайджан и национальных В соответствующих положениях законодательства речь идёт о создании прогрессивной системы социального обслуживания, решении важных вопросов, таких как адаптация социальных услуг к постоянно обновляемым современным требованиям, а для этой цели — подготовка «Государственной программы развития социальных услуг в Республике Азербайджан на 2023–2026 годы», которая определяет государственную политику по совершенствованию и дальнейшему укреплению системы социального обслуживания на следующем этапе.

Также в статье Государственная программа определяет основы государственной политики по совершенствованию системы социального обслуживания Республики Азербайджан, включая законодательство и институциональные механизмы, а также создание необходимых условий для предоставления социальных услуг. В Государственной программе говорится о увеличении количества и качества социальных услуг, предоставляемых всем уязвимым группам населения, обеспечении доступа к ним.

Rəyçi: dosent Arif Veyisov
Daxil olma tarixi 06 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:94(479.24).

XIX ƏSRİN İKİNCİ YARISINDA QARABAG BÖLGƏSİNDƏ RABİTƏ VƏ NƏQLİYYATIN İNKİŞAFININ SƏNAYENİN DURUMUNA TƏSİRİ

Nağıyev Elsevər Niyazi oğlu
Gəncə Dovlət Universiteti
https://orcid.org/0009-0004-8717-3525
elsevern942@gmail.com

Xülasə: *Məqalədə XIX əsrin ikinci yarısında Qarabağ bölgəsində rabitə və nəqliyyat sisteminin inkişafının sənaye istehsalına təsiri araşdırılır. Bu dövrdə Rusiya imperyasının iqtisadi və inzibati siyasəti, əmtəə-pul münasibətlərinin genişlənməsi və daxili bazarın inkişafı Qarabağın iqtisadi həyatında müyyən dəyişikliklərə səbəb olmuşdur. Nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi, yol şəbəkəsinin genişlənməsi və poçt-teleqraf rabitəsinin inkişafı bölgədə istehsal olunan məhsulların bazarlara çıxarılmasına, xammal və hazır məhsulların daşınmasına, ticarət əlaqələrinin genişlənməsinə şərait yaratmışdır. Bu proseslər xüsusilə toxuçuluq, xalçaçılıq, ipəkçilik, gön-dəri emalı və digər sənətkarlıq sahələrinin inkişafına təsir göstərmişdir. Bununla yanaşı, nəqliyyat və rabitə infrastrukturunun məhdudluğu, texniki imkanların zəifliyi, kapital çatışmazlığı və istehsalın əsasən kustar xarakter daşıması sənayenin inkişafını ləngidən amillər olaraq qalırdı. Məqalədə nəqliyyat və rabitə sahəsindəki dəyişikliklərin Qarabağın sənaye potensialına təsiri, istehsal və ticarət münasibətlərində yaratdığı yeniliklər, eləcə də mövcud problemlər tarixi baxımından təhlil edilir.*

Açar sözlər: Qarabağ, Azərbaycan, nəqliyyat, rabitə, sənaye
Key words: Karabakh, Azerbaijan, transport, communication, industry
Ключевые слова: Карабах, Азербайджан, транспорт, связь, промышленность

Giriş: XIX əsrin ikinci yarısı Azərbaycan tarixində, xüsusilə Şimali Azərbaycanın Qarabağ bölgəsində iqtisadi, sosial və siyasi dəyişikliklərin sürətləndiyi bir dövr kimi tanınır. Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra Qarabağda inzibati idarəetmə sisteminin yenidən qurulması, yeni kommunikasiya xətlərinin çəkilməsi, poçt-rabitə şəbəkələrinin formalaşması və nəqliyyat yollarının təkmilləşdirilməsi regionun sənaye inkişafına birbaşa təsir göstərmişdir. Bu dövrdə Qarabağ təkcə kənd təsərrüfatı bölgəsi kimi deyil, sənətkarlıq, xammal istehsalı və yeni sənaye sahələrinin yaranması baxımından da mühüm əraziyə çevrilmişdi[1].

XIX əsrin ortalarından etibarən Çar Rusiyası tərəfindən Qafqazın iqtisadi inkişafına ciddi diqqət ayrılmağa başlanıldı. Bu dövr, Qarabağ bölgəsində kənd təsərrüfatı və sənaye sahələrinin inkişaf etdiyi bir zaman kəsiyini əhatə edir. Qarabağ, zəngin təbii sərvətləri və əlverişli coğrafi mövqeyi ilə regionun strateji əhəmiyyətə malik bölgələrindən biri idi. Bu dövrdə bölgə həm iqtisadi, həm də sosial baxımdan böyük dəyişikliklərə məruz qalmışdır.

Bildiyimiz kimi**,** XIX əsrin ikinci yarısı Şimali Azərbaycanın Qarabağ bölgəsində siyasi və iqtisadi münasibətlərin yeni mərhələyə qədəm qoyduğu bir dövr kimi səciyyələnir. Bu mərhələnin ən mühüm xüsusiyyətlərindən biri rabitə və nəqliyyat infrastrukturunun sürətlə təkmilləşməsi və bunun nəticəsində regionda sənaye münasibətlərinin formalaşması, mövcud istehsal sahələrinin genişlənməsi və ticarət əlaqələrinin intensivləşməsidir. Qarabağ XIX əsrin birinci yarısında əsasən kənd təsərrüfatı və sənətkarlıq mərkəzi kimi tanınsa da, ikinci yarıdan etibarən kommunikasiya xətlərinin açılması, poçt sisteminin yaradılması, karvan yollarının yenilənməsi və dəmir yolu xəttinə yaxınlığın təmin etdiyi imkanlar bölgəni Cənubi Qafqazın iqtisadi məkanına daha sıx inteqrasiya etmişdir[3].

DOI:10.30546/gdu.5.2026

Bəhs olunan dövrdə rusiya imperiyasının bölgədə möhkəmlənmək məqsədilə həyata keçirdiyi inzibati islahatlar rabitə şəbəkəsinin inkişafını sürətləndirdi. Şuşa, Ağdam, Xankəndi və digər yaşayış məntəqələrində poçt məntəqələrinin açılması, bu məntəqələr arasında müntəzəm rabitə xəttinin qurulması Qarabağda informasiya mübadiləsinin əvvəlki dövrlərlə müqayisədə xeyli operativləşməsinə səbəb oldu. Tacirlər, sənətkarlar və sahibkarlar ucqar yaşayış məntəqələri ilə Tiflis, Bakı və Gəncə kimi iri şəhərlər arasında yaranmış yeni informasiya axınından istifadə edərək istehsal və satış proseslərini daha düzgün koordinasiya etməyə başladılar. Bu isə ticarət əlaqələrinin yalnız genişlənməsinə deyil, həm də keyfiyyətcə dəyişməsinə gətirib çıxardı; məhsulların bazara çıxarılması üçün tələb olunan vaxt azaldı, sifariş mexanizmləri daha sabit formaya düşdü[4].

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın Qarabağ bölgəsində rabitə sisteminin inkişafı regionun sosial-iqtisadi strukturunda ən mühüm dəyişikliklərdən biri kimi çıxış edirdi. Bu dövr Rusiya imperiyasının Cənubi Qafqazı mərkəzləşdirilmiş idarəetmə modelinə uyğunlaşdırmaq məqsədilə geniş kommunikasiya şəbəkələrinin yaradılmasına xüsusi önəm verdiyi illərə təsadüf edirdi [1]. Rabitə infrastrukturu, xüsusilə poçt sistemi, informasiya axınının sürətlənməsinə, ticarət əməliyyatlarının koordinasiyasına və sənaye istehsalının təşkilinə bilavasitə təsir göstərirdi.

XIX əsrin ortalarında, 1860-cı illərdə, Çar Rusiyası bölgədəki dəmir yollarının inkişafına başlamaqla, Qafqazın iqtisadiyyatını ticarət və sənaye yönündən canlandırmağa çalışırdı. 1870-ci illərin sonlarında, Bakıdan Tbilisiyə gedən dəmir yolunun tikintisi, Qarabağ bölgəsinin də daha geniş iqtisadi sistemə inteqrasiya olmasına şərait yaratdı. Bu yol, xüsusən kənd təsərrüfatı məhsullarının və sənaye mallarının daşınmasında mühüm rol oynadı. Bu yeni nəqliyyat şəbəkəsi, həmçinin Şuşa və Gəncə kimi şəhərləri, digər əhəmiyyətli ticarət mərkəzləri ilə birləşdirərək, regionun iqtisadi canlanmasına səbəb oldu.

Məlumdur ki, Qarabağda rabitə sisteminin formalaşmasının əsasında regionun əsas inzibati mərkəzi olan Şuşada poçt kontorunun yaradılması dayanırdı. Şuşa yalnız Qarabağın deyil, bütövlükdə Cənubi Qafqazın mühüm poçt və rabitə qovşaqlarından birinə çevrildi [3]. XIX əsrin 60–70-ci illərində Şuşadan Tiflisə, Gəncəyə, Bakıya və İrəvana müntəzəm poçt marşrutları işləyirdi. Bu marşrutlar vasitəsilə təkcə rəsmi dövlət yazışmaları deyil, həm də tacirlərin kommersiya məktubları, sənətkarların sifariş məktubları, yarmarkalarla bağlı məlumatlar, xarici bazarlar haqqında xəbərlər və hətta şəxsi yazışmalar müntəzəm şəkildə çatdırılırdı.

Poçt daşımalarının sürəti əvvəlki dövrlərlə müqayisədə xeyli artdı. Əgər XIX əsrin əvvəllərində Şuşadan Gəncəyə məktub karvanla bir neçə günə çatdırılırdısa, əsrin ikinci yarısında atlı poçt şəbəkəsinin qurulması bu vaxtı dəfələrlə azaltdı. Texniki tərəqqinin yayılması ilə teleqraf xətlərinin çəkilməsi də gündəmə gəldi. 1870-ci illərin sonundan başlayaraq Qarabağda teleqraf rabitəsinin tətbiqi regionu imperiya idarəçiliyi ilə birbaşa əlaqələndirdi və bu, mərkəzləşdirilmiş iqtisadi siyasətin həyata keçirilməsini daha səmərəli etdi [2].

Qarabağ bölgəsində teleqraf xətlərinin çəkilməsi yalnız dövlət idarəçiliyini deyil, həm də iqtisadi münasibətləri sürətləndirdi. Şuşadakı idarələr, bazarlar və ticarət müəssisələri Bakı və Tiflis kimi böyük şəhərlərlə daha çevik əlaqə saxlaya bilirdilər. Xalça ixracatçıları, ipək tacirləri və maldarlıq məhsullarının alveri ilə məşğul olan sahibkarlar qiymət dəyişiklikləri, sifarişlər, yarmarka tarixləri barədə məlumatları daha tez əldə edir və bu da istehsal prosesinin koordinasiyasını asanlaşdırırdı. Bir çox tacirlər üçün teleqraf ticarətdə riskləri azaldan mühüm iqtisadi vasitəyə çevrilmişdi [8].

Rabitə sisteminin inkişafı həmçinin mədəni həyatın genişlənməsinə ciddi təsir göstərdi. Şuşaya qəzet və jurnalların gətirilməsi sürətləndi. Bakı, Tiflis və İrəvan mətbuat orqanları

DOI:10.30546/gdu.5.2026

artıq Şuşada mütəmadi oxuna bilirdi ki, bu da bölgədə maarifçilik ideyalarının yayılmasını gücləndirirdi. Ədəbiyyat və mədəni tədqiqatlarla məşğul olan ziyalıların fəaliyyəti kommunikasiya şəbəkələrinin genişlənməsi ilə daha geniş auditoriyaya çıxırdı. Qarabağ aşıqları, şairləri və maarifçiləri üçün regionlararası kommunikasiya yeni intellektual körpülər yaratdı [9].

Bütün bunlarla yanaşı, rabitə şəbəkəsinin inkişafı regionun siyasi inteqrasiyasını da gücləndirdi. Mərkəzləşdirilmiş imperiya idarəçiliyinə daxil olan yeni rabitə xətləri bölgənin sosial-siyasi həyatını nəzarətdə saxlamağa imkan verirdi. Şuşadakı inzibati idarələr teleqraf vasitəsilə Tiflis qubernatorluğuna və Bakıya hesabat göndərir, təcili xüsusi məktub və sənədlər poçt vasitəsilə operativ çatdırılırdı (Kazımzadə, 1964). Bu, Qarabağda inzibati proseslərin səmərəliyini artırdı və regionun imperiya sisteminə daha sıx şəkildə bağlanmasına səbəb oldu.

Rabitənin inkişafı sənayenin yüksəlişinə birbaşa təsir göstərən başlıca amillərdən biri idi. Xalçaçılıq, ipəkçilik, dəri emalı, misgərlik və digər sənətkarlıq sahələri üçün rabitə vasitəsilə gələn sifarişlər, ticarət əlaqələri və bazar xəbərləri istehsalın mövsümlərə görə daha düzgün planlaşdırılmasına şərait yaradırdı. Sənaye istehsalı üçün tələb olunan xammalın sifarişi də artıq poçt və teleqraf vasitəsilə həyata keçirilirdi ki, bu da istehsal prosesində fasilələrin yaranmasının qarşısını alırdı.

Mövcud yolların təkmilləşdirilməsi regionun iqtisadi həyatına daha fundamental təsir göstərdi. Qarabağ tarixən mühüm karvan yollarının üzərində yerləşsə də, XIX əsrin ikinci yarısında bu yolların yenidən qurulması və bərkidilməsi ticarətin həcmini xeyli artırdı. Şuşa–Ağdam–Gəncə, Şuşa–Xankəndi və Qarabağdan Bakıya uzanan əsas ticarət magistralları tədricən daha təhlükəsiz və keçilmə qabiliyyəti yüksək yollarla əvəz olundu. Yolların yaxşılaşması karvansaraların və ticarət dayanacaqlarının sayının artmasına gətirib çıxardı və bu, tacirlərin hərəkət imkanlarını daha əlverişli etdi. Nəqliyyat vasitələrinin çoxalması və yükdaşımaların həcminin yüksəlməsi Qarabağın sənaye məhsullarının geniş bazarlara çıxışını təmin edərək regionun iqtisadi gücünü möhkəmləndirdi[5].

Bu dövrdə dəmir yolu şəbəkəsinin bölgəyə yaxın ərazilərdə formalaşması Qarabağ sənayesinin inkişafına bilavasitə təsir göstərən amillərdən biri oldu. Hərçənd ki, XIX əsrin ikinci yarısında dəmir yolu Qarabağın daxilindən keçmirdi, lakin Gəncə, Yevlax və Bərdə kimi yaxın mərkəzlərdə dəmir yolu stansiyalarının açılması Şuşa və Ağdam kimi şəhərlərdə istehsal olunan məhsulların daşınmasını ucuzlaşdırdı və sürətləndirdi. Dəmir yolu vasitəsilə Qarabağdan göndərilən xalça, ipək, taxıl, üzüm məhsulları, həmçinin misgərlik və toxuculuq məmulatları daha geniş coğrafiyada satış imkanı qazandı. Bu proses bölgə sənayesində yeni iqtisadi davranış modellərinin yaranmasına, istehsal tələbatının artmasına və nəticə etibarilə sənaye sahələrinin keyfiyyətcə yenilənməsinə səbəb oldu[6].

XIX əsrin ikinci yarısında rabitə və nəqliyyat sisteminin inkişafı Qarabağın ənənəvi sənətkarlıq sahələrinin də yüksəlişində mühüm rol oynadı. Xüsusilə xalçaçılıq təsərrüfatı genişlənərək regionun iqtisadi simvollarından birinə çevrildi. Şuşa və Ağdam xalça məktəbləri bu dövrdə öz məhsullarını təkcə yerli bazarlara deyil, Bakı limanı vasitəsilə xarici ölkələrə də göndərməyə başladılar. Xalçaçılıq məhsullarına artan tələbat istehsal prosesinin daha sistemli təşkilini zəruri etdi və istehsalçılar arasında peşəkar əmək bölgüsünün meydana çıxmasına səbəb oldu. Bu dövr Qarabağda ipəkçiliyin də yeni mərhələyə keçidi ilə səciyyələnir. Xammalın bazarlara çatdırılması asanlaşdığı üçün barama istehsalı artır, ipək emalı müəssisələri daha geniş fəaliyyət dairəsi qazanırdı. Regionda sənətkarlıqla yanaşı kiçik sənaye müəssisələrinin formalaşması da məhz rabitə və nəqliyyat imkanlarının genişlənməsi ilə explain olunur[7].

DOI:10.30546/gdu.5.2026

XIX əsrin II yarısında nəqliyyatın yaxşılaşması kənd təsərrüfatı sahələrinin sənaye yönümlü inkişafına da ciddi təsir göstərdi. Qarabağın müxtəlif nahiyələrində yetişdirilən taxıl, pambıq, üzüm və digər məhsullar daha sürətli şəkildə emal mərkəzlərinə çatdırılır, emal olunmuş məhsullar isə bazarlara vaxtında çıxarılırdı. Ağdamın üzümçülük və şərabçılıq sənayesinin yüksəlişi də məhz bu dövrdə baş verdi və burada rabitə-nəqliyyat sisteminin inkişafı həlledici rol oynadı. Şərab və digər kənd təsərrüfatı məhsullarının Bakı, Tiflis və dünya bazarlarına göndərilməsi Qarabağın iqtisadi çəkisini artırdı və regionda kapital dövriyyəsini sürətləndirdi[11]. Yaxşı inkişaf etmiş nəqliyyat şəbəkələri, kəndlərdən şəhərlərə iş üçün miqrasiyanı artırmışdır. Qarabağda şəhərlərin ticarət və sənaye mərkəzlərinə çevrilməsi, işçi qüvvəsinin şəhərlərə axın etməsinə səbəb olmuşdur. Bu da sənaye sahələrinin inkişafını sürətləndirmiş, lakin kəndlərdəki əhalinin həyat şəraitində çətinliklərə yol açmışdır. Qarabağda rabitə və nəqliyyatın inkişafı sosial struktura da ciddi təsir etmişdir. Yaxşı inkişaf etmiş nəqliyyat şəbəkələri, əhali arasında hərəkətliliyi artırmış, yeni iş imkanları yaratmışdır. Bu dəyişikliklər həm kənd yerlərində, həm də şəhərlərdə əhalinin həyat şəraitinin yaxşılaşmasına, yeni həyat tərzinin yaranmasına səbəb olmuşdur.

Bütün bu iqtisadi dəyişikliklər Qarabağın sosial həyatında da mühüm dəyişikliklərə gətirib çıxardı. Şuşa tədricən daha iri ticarət və sənaye mərkəzinə çevrildi, əhali arasında iqtisadi fəallıq artdı, yeni peşələr və istehsal sahələri meydana gəldi. Rabitə və nəqliyyatın inkişafı məlumat mübadiləsini sürətləndirərək maarifçiliyin, mətbuatın və ümumilikdə mədəni həyatın genişlənməsinə şərait yaratdı. Əhali arasında şəhərləşmə meylləri gücləndi və Qarabağ XIX əsrin sonlarına doğru Cənubi Qafqazın iqtisadi-coğrafi sistemində əhəmiyyətli mövqe tutmağa başladı[8].

Qarabağ bölgəsində rabitə və nəqliyyatın inkişafı, XIX əsrin sonlarına doğru sənayenin daha da inkişafını, xüsusilə də kənd təsərrüfatı məhsullarının emalını və bu məhsulların ticarətini daha da genişləndirmişdir. Lakin, bu infrastrukturun inkişafı təkcə iqtisadiyyatla məhdudlaşmamış, həm də sosial həyatın yeni şəraitlərə uyğun dəyişməsinə səbəb olmuşdur. Qarabağda yeni sənaye sahələrinin yaranması və əkinçilik məhsullarının genişlənməsi ilə yanaşı, əhali arasında sosial və iqtisadi fərqlər də artmışdır. Eyni zamanda, bu inkişaflar yerli mədəniyyətə və həyat tərzinə də öz təsirini göstərmiş, Çar Rusiyasının müstəmləkəçi siyasətinin nəticəsi olaraq, yerli xalqlar arasında mədəni və etnik gərginliklərə səbəb olmuşdur.

Bu dövrün uzunmüddətli nəticələri, Qarabağda iqtisadi inkişafın artması, regionun digər bölgələr ilə daha sıx inteqrasiyası, həmçinin yerli əhalinin həyat şəraitinin dəyişməsi ilə əksini tapdı. Həmçinin, bu inkişaflar Qafqazın gələcəkdəki siyasi, iqtisadi və sosial strukturlarına da təsir edərək, XIX əsrin sonu və XX əsrin əvvəllərində regionda baş verən daha böyük hadisələrin təməlini qoymuşdur. Nəqliyyat və rabitənin inkişafı, sənayenin genişlənməsi və iqtisadi həyatın dəyişməsi, Qarabağda yalnız bu dövrün deyil, həm də gələcək sosial-iqtisadi şəraitin formalaşmasında böyük rol oynamışdır.

XIX əsrin ikinci yarısında Qarabağda rabitə və nəqliyyat infrastrukturunun inkişafı, bölgənin iqtisadi, sosial və mədəni həyatında silinməz izlər buraxmışdır. Bu dəyişikliklər, yalnız yerli iqtisadiyyatın deyil, həm də regionun gələcək inkişafının formalaşmasına təsir etmişdir. Qarabağ, bu dövr ərzində sənaye və ticarət sahələrində əldə etdiyi inkişafla Qafqazın mühüm iqtisadi mərkəzlərindən birinə çevrilmiş, bununla da tarixində yeni bir mərhələyə qədəm qoymuşdur.

Beləliklə, XIX əsrin ikinci yarısında Qarabağ bölgəsində rabitə və nəqliyyat infrastrukturunun inkişafı sənayenin yüksəlişinin əsas hərəkətverici qüvvələrindən biri olmuşdur. Poçt sisteminin qurulması, yolların yenilənməsi, dəmir yolu şəbəkəsinə yaxınlığın yaratdığı imkanlar və bunun nəticəsində ticarət əlaqələrinin genişlənməsi regionun sənaye

DOI:10.30546/gdu.5.2026

sahələrinin həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişafına şərait yaratmış, Qarabağın iqtisadi həyatında dərin və uzunmüddətli dəyişikliklərə yol açmışdır.

Ədəbiyyat

1. Axundov, A. (1988). *XIX əsrdə Azərbaycan iqtisadiyyatı*. Bakı: Elm nəşriyyatı.
2. Balaev, A. (1993). *Azərbaycan tarixi üzrə tədqiqlər*. Bakı: Azərnəşr.
3. Bünyadov, Z., & Məmmədov, Y. (1998). *Azərbaycan tarixi (XIX əsr)*. Bakı: Çaşıoğlu.
4. Hüseynov, R. (2004). *Qarabağ: iqtisadi tarixə dair araşdırmalar*. Bakı: Nurlan.
5. İsmayılov, Ə. (2010). *Qarabağ xanlığı və XIX əsr sosial-iqtisadi münasibətləri*. Bakı: Şərq-Qərb.
6. Kazımzadə, M. (1964). *Azərbaycanın XIX əsr tarixi*. Bakı: Maarif.
7. Qafarov, Q. (2012). *Cənubi Qafqazda nəqliyyat və rabitə: XIX–XX əsrin əvvəlləri*. Bakı: Elm və Təhsil.
8. Swietochowski, T. (1995). *Russia and Azerbaijan: A Borderland in Transition*. New York: Columbia University Press.
9. Altstadt, A. (1992). *The Azerbaijani Turks: Power and Identity under Russian Rule*. Stanford: Hoover Institution Press.
10. Byron, J. & Coull, R. (1981). *Azerbaijan: An Economic History*. London: Croom Helm.

THE IMPACT OF THE DEVELOPMENT OF COMMUNICATION AND TRANSPORTATION SYSTEMS ON THE STATE OF INDUSTRY IN THE KARABAKH REGION DURING THE SECOND HALF OF THE 19TH CENTURY

Nagiyev Elsever Niyazi

Summary

This article studies the impact of the development of communication and transportation systems on industrial production in the Karabakh region during the second half of the 19th century. During this period, the economic and administrative policies of the Russian Empire, the expansion of commodity-money relations, and the development of the domestic market brought about certain changes in the economic life of Karabakh. Improvements in transport links, the expansion of the road network, and the development of postal and telegraph services facilitated the delivery of locally produced goods to markets, the transport of raw materials and finished products, and the broadening of trade connections. These processes had a particular influence on the development of weaving, carpet-making, sericulture, leather processing, and other handicraft industries. Nevertheless, limitations in transport and communication infrastructure, insufficient technical capabilities, a lack of capital, and the predominantly artisanal nature of production continued to hinder industrial development. The article provides a historical analysis of how changes in the spheres of transport and communication affected the industrial potential of Karabakh, the innovations they brought to production and trade relations, and the existing problems.

ВЛИЯНИЕ РАЗВИТИЕ СВЯЗНОЙ И ТРАНСПОРТНОЙ ПРОМЫШЛЕННОСТИ НА КАРАБАХСКУЮ ЗОНУ ВО II ПОЛОВИНЕ XIX ВЕКА

Нагиев Эльсевер Ниязи

Резюме

В статье исследуется влияние связной и транспортной системы на развитие Карабаха во II половине XIX века. В этот период экономическая и административная

DOI:10.30546/gdu.5.2026

политика царской России, также развитие внутренной экономики стало причиной и развития экономики Карабаха. В свою очередь это дало повод для развития таких отраслей как шелководство, ковроткачество, вязания, обработка кожных изделий.

В этот же мамент слабое развитие связи, транспорта, технических возможностей, нехватка капитала и кустарное форма производства замедляла развитие промышленности.

Статья иследует последующие этапы развития связи, транспорта на территории Карабаха и их исторические этапы.

Daxil olma tarixi 08 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:94.

1990-Cİ İLLƏRDƏ QAFQAZDA REGİONAL GÜC RƏQABƏTİ: TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİ VƏ ENERJİ-SEPARATİZM DİLEMMASI

t.ü.f.d., dosent Həsənov Urfan Davud oğlu, t.ü.f.d., dosent Musayev Etibar Adil oğlu
Gəncə Dövlət Universiteti
Orcid id: 0000-0001-8567-0692
etibaradiloglu @mail.ru
t.ü.f.d., dosent Babayev Bağır Həmid oğlu
Naxçıvan Dövlət Universiteti
bagirbabayev568@gmail.com
Orcid id: 0000-0001-9765-0892

Xülasə: *1990-cı illərdə Soyuq müharibənin başa çatmasına baxmayaraq, Qafqaz və Qara dəniz bölgəsində regional güc rəqabəti və separatizm meyilləri davam etmişdir. Rusiya ilə Türkiyə arasında münasibətlər iqtisadi əməkdaşlıq və geosiyasi rəqabət balansına əsaslanaraq "ehtiyatlı yaxınlaşma" xarakteri daşımışdır. Bölgədən keçməsi planlaşdırılan strateji neft kəmərləri (BTC və BN) uğrunda gedən mübarizə tərəflərin separatçı qüvvələrdən təzyiq vasitəsi kimi istifadə etməsinə yol açmışdır. Rusiya Çeçenistanın strateji enerji və tranzit mövqeyini qorumaq, həm də daxili parçalanmanın qarşısını almaq məqsədilə hərbi müdaxiləyə əl atmışdır. Türkiyə hökuməti müharibə zamanı Rusiyanın ərazi bütövlüyünü tanımaqla yanaşı, insan hüquqları çərçivəsində sülhün bərqərar olmasını və qaçqınlara yardım edilməsini dəstəkləmişdir. Qərb dövlətləri, xüsusilə ABŞ Rusiyanın Çeçenistandakı hərbi əməliyyatlarını tənqid edərək problemin siyasi dialoq vasitəsilə həll edilməsinin vacibliyini bildirmişdir. Zamanla tərəflər təzyiq alətlərindən (çeçen və kürd kartlarından) istifadənin təhlükəli olduğunu anlamış və münasibətləri iqtisadi maraqlar üzərindən tənzimləməyə çalışmışlar.*

Açar sözlər: Geosiyasət, separatizm, neft kəmərləri, Çeçenistan, Türkiyə-Rusiya.
Keywords: Geopolitics, separatism, oil pipelines, Chechnya, Turkey-Russia.
Ключевые слова:Геополитика, сепаратизм, нефтепроводы, Чечня, Турция-Росси

Soyuq müharibənin başa çatmasına baxmayaraq, regional güc mübarizəsi, daxili separatizm hərəkətləri və siyasi hakimiyyətlər arasındakı gərginliklər 1990-cı illər ərzində Qafqaz və Qara dəniz bölgəsində "maraqlar toqquşması" paradiqmasını qoruyub saxlamağa vadar etdi [1, s. 21]. Bu dövrdə Rusiyanın regiondakı siyasəti əsasən praqmatik və iqtisadi maraqlara əsaslanırdı. Hərçənd ilk illərdə Moskva özünü müdafiəsiz hiss edirdi və cəmiyyətin əhəmiyyətli bir hissəsi imperiya siyasətini dəstəkləmirdi, 1990-cı illər boyunca bəzi rus milliyətçiləri Qara dənizdə artan Türk hərbi potensialından narahatlıq ifadə edir və bölgənin "NATO gölünə" çevriləcəyi təqdimatından istifadə edirdilər [1, s. 22]. 1992–1996-cı illər arasında Türkiyənin yaxın coğrafiyasında güclənməsi Moskva tərəfindən təhdid kimi qəbul olunurdu, 1995-ci ildən etibarən isə Rusiyada güclü dövlətçilik və milliyətçi duyğular yenidən yüksəldi [2, s. 13]. Eyni dövrdə Türkiyədə islamçı qüvvələrin siyasi təsirinin artması iki ölkənin beynəlxalq müstəvidə sıx əməkdaşlıq imkanlarını məhdudlaşdırdı. Buna görə də, 1990-cı illərin əvvəllərindəki ikitərəfli əlaqələri "ehtiyatlı yaxınlaşma" adlandırmaq olar. Hər iki dövlət Avrasiya məkanında bir-birini rəqib kimi görsə də, sürətlə inkişaf edən iqtisadi əlaqələr onları əməkdaşlığa məcbur edir, nəticədə bu dövr əməkdaşlıq və rəqabət balansının tənzimlənməsi ilə keçirdi; zaman-zaman bu münasibətlər "virtual yaxınlaşma" və ya "faktiki yaxınlaşma" kimi xarakterizə olunurdu [9, s. 96-98]. İki ölkə arasında əsas maneə olan

DOI:10.30546/gdu.5.2026

qarşılıqlı etimadsızlıq ortaq iqtisadi maraqlar fonunda aradan qaldırılmağa çalışılsa da, kürd və çeçen problemləri kimi həssas məsələlər münasibətlərə ciddi təsir göstərirdi.

Tanınmış tədqiqatçı professor Robert Olson XX əsrin son iyirmi ilində Türkiyənin daxili və xarici siyasətinə damğa vuran kürd problemi və islamizm kontekstində Ankaranın İran, Suriya, İsrail və Rusiya ilə münasibətlərini tədqiq etmişdir [10, s. 232]. Onun fikrincə, Türkiyənin kürd separatizminə qarşı hərbi ağırlıqlı siyasəti onun digər regionlara yönəlmiş xarici siyasətini məhdudlaşdırırdı. Olson tədqiqatlarında "hərtərəfli balans", "təhlükə balansı" və "düşüncə amilləri" nəzəriyyələrinə istinad edərək qonşu dövlətlərlə əlaqələrin xarakterini izah etmişdir [10, s. 3-4]. Digər tərəfdən, Xəzər dənizindən çıxarılacaq xam neftin Avropaya daşınması üçün planlaşdırılan boru kəmərlərinin marşrutları Ankara və Moskvada güclü lobbi mərkəzlərinin fəaliyyətini aktivləşdirdi. Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Novorossiysk (BN) neft kəmərləri məhz "qaynar nöqtələrdən" — BTC kürd separatizminin aktiv olduğu Türkiyənin şərqindən, BN isə çeçen separatçılarının nəzarətində olan Rusiyanın cənubundan keçirdi. Bu səbəbdən hər iki dövlət qarşılıqlı şəkildə neft kəmərlərinin öz ərazilərindən keçməsi üçün separatçı qüvvələrə dəstək verməkdən çəkinmirdi.

1991-ci il noyabrın 2-də Cövhər Dudayev Çeçenistanın müstəqilliyini elan etdi, lakin Rusiya prezidenti B.Yeltsin konstitusiya nizamını bərpa etmək bəhanəsi ilə fövqəladə vəziyyət elan edərək Qroznıya qoşun yeritdi; nəticədə Dudayevin qətiyyətli cavabı rus qoşunlarının geri çəkilməsinə səbəb oldu [3, s. 392]. Rusiyanın Çeçenistana hərbi müdaxiləsinin əsas səbəbləri buranın strateji tranzit, hərbi və neft-enerji mövqeyi, keçmiş SSRİ coğrafiyasında tək istiqamətləndirici güc olduğunu qəbul etdirmək istəyi və bölgədəki separatizm dalğasının digər respublikalara sıçramasından qorxu idilər [4, s. 169]. Beynəlxalq aləmdə Çeçenistanın müstəqilliyini yalnız Şimali Kipr Türk Respublikası və Əfqanıstandakı Taliban hakimiyyəti tanımışdı. 1994–1996-cı illərdə baş verən I Rus-Çeçen müharibəsi zamanı Türkiyə hökuməti məsələnin Rusiyanın ərazi bütövlüyü çərçivəsində, insan hüquqlarına hörmətlə həll olunmasını müdafiə etmiş, çeçen qaçqınlarına yardımlar göstərmişdir [6, s. 190]. Moskva isə Qroznını və regional enerji kommunikasiyalarını itirməmək üçün hərbi gücə üstünlük vermişdi [5, s. 19]. Rus müəllifləri müharibəni sivilizasiya missiyası kimi qələmə versələr də, Qərb ölkələri insan hüquqlarının kütləvi şəkildə pozulmasını sərt tənqid edirdilər. ABŞ rəsmiləri (məsələn, Riçard Bauçer) Rusiyanın əməliyyatlarını tənqid etməklə yanaşı, problemin ancaq siyasi dialoq yolu ilə həll olunmasının vacibliyini vurğulayırdılar [8, s. 42]. Müharibənin uzanması Rusiya iqtisadiyyatına ağır maliyyə yükü (aylıq təxminən 70 milyon ABŞ dolları) gətirir və ictimai dəstəyin azalmasına səbəb olurdu. Nəticə etibarilə, 1990-cı illərdə baş vermiş Rus-Çeçen müharibəsi və tərəflərin bir-birinə qarşı "Çeçen kartı" və "Kürd kartı"ndan istifadə etməsi Türkiyə-Rusiya münasibətlərində dərin izlər buraxdı. Lakin sonrakı dövrlərdə hər iki ölkəni təhdid edən ümumi təhlükələr göstərdi ki, siyasi rəqabəti fonunda Qafqazda sabitliyin təmin olunması yalnız qarşılıqlı iqtisadi əməkdaşlıq çərçivəsində mümkündür.

Ədəbiyyat

1. Türkiye-Rusya ilişkileri: Rekabetten Çokyönlü İşbiriyine. USAK Raporu №:13-06 iyul 2013 İstanbul s.21
2. Mixayıl Meyer "XVIII yüzyıldan Günümüzə Rusya ve Türkiye ilişkileri, İstanbul Bilgi Universitesi Yayınları. Kasım 2003 Ih. s.13"
3.Cafer Barlas. Dünü ve Bugünü ile Kafkasya Özgürlük Mücadelesi. İnsan Yayınları. İstanbul. 1991. s.392
4.Avrasya Dosyası, Rusya Özel, Kış 2001, cilt:6, sayı:4, Hasan Kanbolat. Rusya Federasyonunun Kafkasya Politikası ve Çeçenistan Savaşı. s.169.

DOI:10.30546/gdu.5.2026

5. Kafkasyadaki Selişmeler ve Türkiye. Bilge Adamlar Kurulu Raporu. Rapor №:60 Nisan 2014 BİLGESAM Yayınları İstanbul. Doç. Dr. Atilla Sandıkllı s.19
6. Savaş Yanar. Türk-Rus ilişkilerinde sirli güc: Kafkasya s.190.
7.Анатолий Куликов, Сергей Лембик. Чеченский Узел. Хроника вооруженного конфликта. 1994-1996. Москва-Дом педогоги. 124 Elmi əsərlər 59 – cu cild
8. Elaine Monaghan, 'Bush Team Renews U.S. Criticism on Chechnya', Reuters, 24 Ocak 2000.
9.Duygu Bazoğlu Sezer. "Turkish-Russian Relations: From Adversity to Virtual Reapprochement" Turkey's New world. ed. A.Makovsky. S.Sayari Washington. 2000. page 96-98
10 . Robert Olson. Turkey's Relations with Iran, Syria, Israel and Russia 1991-2000: The Kurdish and Islamist Questions, Costa Masa, CA. USA: MALDA Publishers. 2001. p,232. s.127

REGIONAL POWER COMPETITION IN THE CAUCASUS DURING THE 1990S: TURKEY-RUSSIA RELATIONS AND THE ENERGY-SEPARATISM DILEMMA

Hasanov Urfan Davud, Musayev Etibar Adil
Babayev Bagir Gamid

Summary

Despite the end of the Cold War, regional power struggles and separatist movements persisted in the Caucasus and Black Sea regions throughout the 1990s. Relations between Russia and Turkey maintained a character of "cautious rapprochement," balancing economic cooperation with geopolitical rivalry. The competition over strategic oil pipelines (BTC and BN) running through the region led both states to utilize separatist forces as leverage against each other. Russia resorted to military intervention in Chechnya to safeguard its strategic energy and transit positions and to prevent internal disintegration. While respecting Russia's territorial integrity, the Turkish government advocated for a peaceful resolution respecting human rights and provided aid to Chechen refugees. Western countries, particularly the US, criticized Russia's military campaign in Chechnya and emphasized the necessity of a political dialogue to resolve the conflict. Over time, both nations realized the dangers of employing pressure tools such as Chechen and Kurdish cards, shifting towards stabilizing relations via economic interests.

РЕГИОНАЛЬНОЕ СОПЕРНИЧЕСТВО СИЛ НА КАВКАЗЕ В 1990-Е ГОДЫ: РОССИЙСКО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ И ДИЛЕММА ЭНЕРГЕТИКИ И СЕПАРАТИЗМА

Гасанов Урфан Давуд оглы, Мусаев Этибар Адил оглы
Бабаев Багир Гамид

Резюме

Несмотря на окончание «холодной войны», региональное соперничество и сепаратистские тенденции продолжались на Кавказе и в Черноморском регионе на протяжении 1990-х годов. Отношения между Россией и Турцией носили характер «осторожного сближения», балансируя между экономическим сотрудничеством и геополитическим соперничеством. Борьба за маршруты стратегических нефтепроводов (БТД и БН) привела к тому, что обе страны использовали сепаратистские силы в

DOI:10.30546/gdu.5.2026

качестве рычагов давления друг против друга. Россия прибегла к военному вмешательству в Чечне для защиты своего стратегического энергетического и транзитного потенциала, а также для предотвращения внутреннего распада. Турецкое правительство, признавая территориальную целостность России, выступало за мирное урегулирование в рамках прав человека и оказывало помощь беженцам. Западные страны, в частности США, критиковали военную кампанию России в Чечне и подчеркивали необходимость политического диалога для разрешения конфликта. Со временем обе стороны осознали опасность использования рычагов давления (чеченской и курдской карт), перейдя к нормализации отношений на основе экономических интересов.

Rəyçi: dosent Saidə İsmayılzadə
Daxil olma tarixi 22 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:94(479.24).

QLOBAL GEOSİYASƏT VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ AZƏRBAYCANIN KARBOHİDROGEN RESURSLARI UĞRUNDA BEYNƏLXALQ RƏQABƏT

Musayev Etibar Adil oğlu
Gəncə Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
Orcid id: 0000-0001-8567-0692
etibaradiloglu @mail.ru

Xülasə: *Azərbaycan Xəzəryanı regionda müstəsna geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeyə malik olmaqla yanaşı, dünyanın ən zəngin karbohidrogen ehtiyatlarına ev sahibliyi edir. SSRİ-nin süqutu və "soyuq müharibə"nin başa çatması fonunda yaranan qlobal dəyişikliklər Xəzər hövzəsini dünya güclərinin maraqlarının kəsişdiyi əsas geosiyasi hədəfə çevirmişdir. Rusiya postsovet məkanında özünün ənənəvi təsir dairəsini və enerji monopoliyasını qorumaq üçün regionda təzyiq və separatizm meyitlərini gücləndirməyə çalışmışdır. ABŞ "Yeni geosiyasət" və Madlen Olbrayt doktrinaları çərçivəsində Xəzər ehtiyatlarının Rusiya təsirindən kənar şəkildə dünya bazarlarına çıxarılmasını və Azərbaycanla strateji tərəfdaşlığı dəstəkləmişdir. Avropa İttifaqı enerji təhlükəsizliyini təmin etmək məqsədilə TACİS, TRASEKA kimi proqramlar və TAP, TANAP kimi layihələr vasitəsilə regionla əməkdaşlığı dərinləşdirmişdir. İran regional təsirini qorumaq və ABŞ-ın siyasətinə qarşı çıxmaqla yanaşı, Azərbaycanın inkişafına mane olmağa və enerji resurslarının Fars körfəzi ilə ixracına çalışmışdır. Türkiyə isə ortaq mədəni-dil bağları və Qərbin strateji maraqları kontekstində Azərbaycanla tərəfdaşlıq edərək transmilli enerji layihələrinin reallaşmasında və Avropanın təchizatının şaxələnməsində həlledici rol oynamışdır.*

Açar sözlər: Azərbaycan, Karbohidrogen resursları, Enerji təhlükəsizliyi, Qlobal geosiyasət, Xəzər hövzəsi, Beynəlxalq rəqabət, Strateji tərəfdaşlıq

Keywords: Azerbaijan, Hydrocarbon resources, Energy security, Global geopolitics, Caspian basin, International competition, Strategic partnership

Ключевые слова: Азербайджан, Углеводородные ресурсы, Энергетическая безопасность, Глобальная геополитика, Каспийский бассейн, Международная конкуренция, Стратегическое партнерство

Azərbaycan Xəzəryanı dövlətlər içərisində müstəsna geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeyə malik ölkədir. Ölkənin geosiyasi əhəmiyyətinin artmasına və xarici dövlətlərlə əlaqələrinin formalaşmasına təsir edən başlıca amillərdən biri məhz onun bu unikal coğrafi məkanda yerləşməsidir. XX əsrin son onilliyində qlobal miqyasda baş verən mühüm tarixi hadisələr nəticəsində Xəzər dənizi regionu yenidən dünya siyasətinin mərkəzi nöqtələrindən birinə çevrildi. Regiondakı strateji güclərin maraq və ambisiyalarının üst-üstə düşməməsi, eləcə də xarici dairələrin təhrikləri XX əsrin sonlarından etibarən Xəzər hövzəsi ölkələrini ciddi geoiqtisadi qarşıdurmaya sürüklədi. Kənar qüvvələrin müdaxiləsi ilə bölgədə qızışdırılan milli-etnik münaqişələr, vətəndaş qarşıdurmaları və Xəzər dənirinin hüquqi statusu məsələsi regionu dövlətlərarası və daxili ziddiyyətlər ocağına çevirdi.

Azərbaycanın yerləşdiyi Xəzər hövzəsi dünyanın ən zəngin karbohidrogen ehtiyatlarına malik bölgələrindən biridir. Təbii ki, bu amil regionun ümumi geosiyasi mənzərəsinə, dünya güclərinin bölgəyə marağına və Xəzəryanı ölkələrin qarşılıqlı münasibətlərinə dərin təsir göstərmişdir. Geoiqtisadi və geosiyasi parametrlər baxımından qiymətləndirmə apardıqda, Azərbaycanın yerləşdiyi hövzədə gedən düşərgələrarası rəqabətin əsas hədəfləri kimi Xəzərin

DOI:10.30546/gdu.5.2026

energetika resurslarına yiyələnmək, onların istehsalı və dünya bazarlarına daşınmasında iştirak etmək, eləcə də ixrac marşrutları ilə nəqliyyat-kommunikasiya sistemlərinin seçiminə nəzarət etmək məqsədlərini göstərmək olar. ABŞ ekspertlərinin hesablamalarına görə, Xəzərin karbohidrogen yataqlarının ümumi həcmi 200 milyard ton, İran istisna olmaqla digər dörd Xəzəryanı dövlətin yanacaq-energetika ehtiyatları isə 51-57 milyard tona bərabərdir. "Nyu-York Tayms" qəzetinin 6 avqust 1997-ci il tarixli sayında Xəzərin sənaye və karbohidrogen ehtiyatları həmin dövrün qiymətləri ilə 4 trilyon ABŞ dolları məbləğində qiymətləndirilmişdir. Bölgənin enerji sərvətləri, Şərq-Qərb istiqamətli nəqliyyat-kommunikasiya dəhlizləri, satış bazarları və geostrateji əraziləri qlobal maraqların kəsişdiyi əsas hədəflərdir.

Professor Ə.Həsənovun da qeyd etdiyi kimi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatları kənar müdaxilələrdən azad olub sərbəst şəkildə Avropa bazarlarına nəql edilərsə, bu, üçüncü minillikdə qitəni ən azı 100 il müddətində fasiləsiz enerji ilə təmin edə və Rusiyanın bu sahədəki monopoliyasına son qoya bilər. Burada mühüm bir məqam odur ki, Azərbaycanın karbohidrogen ehtiyatlarının miqdarı uzun müddət beynəlxalq dairələrdə müzakirə obyekti olmuş, hətta bəzi qüvvələr tərəfindən geosiyasi manipulyasiya vasitəsi kimi istifadə edilmişdir. Bunun əsas məqsədi Qərb investorlarını bölgəyə sərmayə yatırmaq fikrindən yayındırmaq idi. Lakin yerli geoloqların qiymətləndirmələrinə görə, ölkənin quruda və dənizdə kəşf edilmiş neft ehtiyatları 1-1,5 milyard ton (təqribən 7-11 milyard barrel), ehtimal olunan ehtiyatları isə 2-3 milyard tondur [3, s.545]. Neft sənayesinin inkişafı tarixi ərzində Azərbaycanda 67 neft və qaz yatağı kəşf edilmişdir; hazırda quruda 37, dənizin Azərbaycan sektorunda isə 17 yataq istismar olunur. Mütəxəssislərin fikrincə, Azərbaycan sektorunda perspektivli neft-qaz hasilatı zonasının sahəsi 100 min kv.km təşkil edir ki, bunun da 70 min kv.km-i təsdiq olunmuş ərazidir (həmin ərazinin 20 min kv.km-i dayazsulu şelfə düşür). XX əsrin son onilliyində baş verən qlobal dəyişikliklər, təkqütblü dünya nizamının formalaşması və qloballaşma fonunda Xəzər və Qafqaz regionu dünya siyasətinin əsas hədəflərindən birinə çevrildi.

SSRİ-nin dağılması, dünya sosializm sisteminin süqutu, "soyuq müharibə"nin başa çatması və yeni müstəqil dövlətlərin yaranması qlobal miqyasda geosiyasi vəziyyəti kökündən dəyişməklə yanaşı, beynəlxalq münasibətlər sistemində dərin transformasiyaların təməlini qoydu. Bu sistemdə ABŞ və Qərb müttəfiqlərinin güclənməsi fonunda SSRİ və sosialist bloku ağır iqtisadi böhranla üzləşmişdi. 1981-1985-ci illərdə Sovetlər Birliyində sənaye və kənd təsərrüfatı istehsalı 2,5-3 dəfə aşağı düşmüş, əmək məhsuldarlığının illik artımı cəmi 3% təşkil etmişdir [1, s.229]. Azərbaycan SSR-nin daxili, iqtisadi, sosial və xarici siyasət vəziyyəti isə sosialist blokunun digər ölkələrinə nisbətən daha ağır idi. 1980-ci illərdə bütün iqtisadi göstəricilər üzrə geriləyən Azərbaycanda adambaşına düşən milli gəlir və əmək məhsuldarlığı indeksi 1990-cı ildə 85,7% təşkil etmişdir [7, s. 12-13]. Köhnəlmiş iqtisadi model və texnologiyaların çatışmazlığı fonunda dərinləşən enerji böhranı SSRİ kimi superdövləti də silkələdi; 1990-cı ildə ölkənin xarici borcu 5 milyard dolları, 1991-ci ildə isə 8 milyard dolları ötdü [4, s. 60]. M.Qorbaçovun başladığı yenidənqurma siyasəti çərçivəsində sovet respublikalarında bazar iqtisadiyyatının tətbiqinə xüsusi önəm verilir, ABŞ və Qərb müttəfiqləri isə SSRİ-nin zəifliyindən istifadə edərək onun ənənəvi təsir dairələrinə, o cümlədən Xəzər regionuna daxil olmağa çalışırdılar. Həmin dövrdə Qərbi Avropa və Yaponiya iqtisadi göstəricilərdə ABŞ-ı sıxışdırmağa başlamışdı; məsələn, 1990-cı ildə ABŞ-ın dünya əmtəə dövriyyəsindəki payı 6 milyard dollar olduğu halda, Almaniyanın payı 354 milyard dolları keçmişdi. Yeni satış bazarları və xammal mənbələri axtaran Qərb ölkələri iqtisadi böhran keçirən sovet respublikalarının bazar iqtisadiyyatına keçidinə və

DOI:10.30546/gdu.5.2026

müstəqilliyinə böyük ümidlər bəsləyirdilər. Bu baxımdan Azərbaycan ABŞ və Qərbin iqtisadi-siyasi maraqlarının kəsişdiyi əsas nöqtə idi.

1990-cı illərin sonunda SSRİ-nin süqutu ilə beynəlxalq münasibətlər sistemi yeni dünya nizamının formalaşması mərhələsinə qədəm qoydu. ATƏT-in Paris sammiti (1990) ərəfəsində artıq sosializm düşərgəsi mövcud deyildi və Cənubi Qafqazda üç yeni müstəqil dövlət meydana gəlmişdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi [5, Fond 2941, siy.1, iş 264, vv.37] ölkənin beynəlxalq əlaqələrinin xarakterini və Qafqazdakı geosiyasi durumu kökündən dəyişdi. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan cəlbedici transmilli amilə çevrilərək beynəlxalq şirkətləri və Qərb dövlətlərini Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizi kimi fəaliyyət göstərməyə ruhlandırdı. Nəticədə, ölkənin zəngin yeraltı və yerüstü sərvətlərinə qlobal güclərin marağı daha da artdı.

Azərbaycanla əməkdaşlıqda maraqlı olan dövlətlərin özünəməxsus regional və beynəlxalq siyasi hədəfləri mövcuddur. Xəzər hövzəsində əsas transmilli maraq daşıyıcılarından biri Rusiya Federasiyasıdır. Azərbaycan Avropa ilə Orta Asiya arasında körpü rolunu oynamaqla yanaşı, Rusiyanın Qara dəniz və Aralıq dənizinə çıxışını təmin edən strateji məkandır. Rusiya üçün Azərbaycan müsəlman Şərqinə çıxış imkanlarına, zəngin karbohidrogen yataqlarına, etibarlı satış bazarına və hərbi təhlükəsizlik baxımından mühüm coğrafi əhəmiyyətə malikdir. Lakin SSRİ-nin dağılması Rusiyanın daxili böhranını dərinləşdirdi, tranzit əlaqələrini pozdu və ölkəni ciddi iqtisadi problemlərlə üz-üzə qoydu. Bu dövrdə Rusiyanın Xəzər siyasəti praqmatik iqtisadi maraqlardan çox, ənənəvi imperiya yanaşmasına əsaslanırdı. Rusiya bölgədə öz monopolist mövqeyini qorumaq, enerji resurslarının ixracına nəzarət etmək və Qərb strukturlarının təsirini məhdudlaşdırmaq üçün etnik separatizm meyillərini qızışdırmaq siyasəti yeridirdi. 1991-ci ilin dekabrında MDB-nin yaradılması da postsovet məkanında təsir gücünün bərpasına xidmət edirdi. Rusiyanın "yaxın çevrə" doktrinası çərçivəsində Qafqazı özünün əsas prioritet zonası elan etməsi, Ermənistanın işğalçı siyasətini dəstəkləməsi və Azərbaycanın Qərbə inteqrasiyasını əngəlləmə cəhdləri bölgə ölkələrinin ABŞ-ı tərəfdaş kimi görməsinə təkan verdi. 1991-1993-cü illərdə Rusiya-Azərbaycan münasibətləri gərgin olsa da, sonradan rəsmi Moskvada baş verən kadr dəyişiklikləri və Prezident Heydər Əliyevin Rusiyaya rəsmi səfərləri iki ölkə münasibətlərində yeni mərhələnin əsasını qoydu. Buna baxmayaraq, Rusiyanın iqtisadi, siyasi və mədəni təsiri bütün MDB məkanında olduğu kimi Azərbaycanda da hələ də hiss olunmaqdadır.

Regionda əsas geosiyasi aktorlardan biri də ABŞ-dır. Cənubi Qafqaz və Xəzər hövzəsində ABŞ-ın yürütdüyü siyasət 1992-ci ildə qəbul edilmiş "Yeni geosiyasət" strategiyasının tərkib hissəsi idi [3, s.260]. "Soyuq müharibə"nin qalibi kimi ABŞ keçmiş sosialist blokunun coğrafiyasında mövqe qazanmağa başladı. Zbiqnev Bjezinskinin qeyd etdiyi kimi, Qafqaz Amerika üçün həm də Avrasiyanın geosiyasi tarazlığında mühüm əhəmiyyət daşıyan regiondur. ABŞ müstəqillik əldə etmiş dövlətlərin bazar iqtisadiyyatı və demokratiya yolu ilə inkişafını, eləcə də onların Rusiyanın təsirindən çıxmasını dəstəkləyirdi. Corc Buş administrasiyası dövründə dövlət katibinin köməkçisi S.Sestanoviçin qeyd etdiyi kimi, ABŞ-ın Qafqaz siyasətinin arxasında duran əsas səbəblərdən biri məhz neftə əsaslanan strategiya idi [11]. İlkin mərhələdə ABŞ Xəzər regionunda "öncə Rusiya" strategiyasına üstünlük versə də, sonradan Madlen Olbrayt doktrinası ilə bu yanaşma dəyişdi; Rusiyanın bölgədən təcrid olunması, Xəzər ehtiyatlarının alternativ marşrutlarla dünya bazarına çıxarılması əsas hədəfə çevrildi. Azərbaycanla qurulan strateji tərəfdaşlıq Qərbin enerji təhlükəsizliyini təmin etmək baxımından həlledici rol oynadı. Lakin 1992-ci ildə erməni lobbisinin təzyiqi ilə ABŞ Konqresinin "Azadlığa dəstək aktı"na Azərbaycan əleyhinə

DOI:10.30546/gdu.5.2026

ədalətsiz "907-ci düzəliş"i qəbul etməsi ikitərəfli münasibətlərə müəyyən kölgə salmışdı [2, s.49].

SSRİ-nin süqutundan sonra Xəzər regionuna böyük maraq göstərən digər güc mərkəzi Avropa İttifaqı (Aİ) oldu. Qlobal istehsalın 20%-ni və dünya ticarətinin 40%-ni təmin edən Aİ Cənubi Qafqazı özünün enerji təhlükəsizliyi siyasətinin ayrılmaz hissəsi hesab edir. 1990-cı illərin ikinci yarısından etibarən tətbiq olunan TACİS, TRASEKA, İNOGATE və ECHO kimi iqtisadi-texniki proqramlar vasitəsilə Avropadan Qara dəniz və Cənubi Qafqaz üzərindən Mərkəzi Asiyaya qədər uzanan təhlükəsiz nəqliyyat və enerji dəhlizləri yaradıldı. Aİ təkcə TACİS proqramı xətti ilə Azərbaycanın enerji və nəqliyyat infrastrukturuna 30 milyon avrodan çox vəsait yönəltmişdir. Aİ regionda sabitliyin, bazar iqtisadiyyatının və TAP, TANAP kimi mühüm Cənub Qaz Dəhlizi layihələrinin həyata keçirilməsində yaxından iştirak edir.

Regional güc mərkəzlərindən biri olan İran isə İslam Konfransı Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatı vasitəsilə təsirini artırmağa çalışmışdır. Rusiya ilə müttəfiq olmasına baxmayaraq, İran ABŞ-ın regiondakı siyasətinə qarşı sərt mövqe sərgiləyir. Güclü Azərbaycan Respublikasının mövcudluğundan narahat olan Tehran erməni işğalçılıq siyasətinə dəstək verməklə yanaşı [12, s.232], Xəzərin enerji resurslarının Qərb bazarlarına Cənubi Qafqaz deyil, Fars körfəzi vasitəsilə ixrac olunmasına çalışır və Xəzərin hüquqi statusu məsələsində qeyri-konstruktiv mövqe nümayiş etdirir [8, s.120].

Türkiyə Cümhuriyyəti isə Qafqaza özünün Orta Asiyaya açılan qapısı kimi baxır. Dil, din və mədəniyyət oxşarlığı Türkiyənin bölgədəki mövqeyini gücləndirən əsas amillərdəndir. Qərbin strateji maraqlarının reallaşmasında mühüm rol oynayan Türkiyə NATO-nun cənub dayağı olmaqla yanaşı, Qara dəniz və Qafqazda sabitliyin qorunmasında həlledici oyunçudur [3, s.332]. Türkiyə Azərbaycanla birlikdə tranzit layihələrini dəstəkləməklə Avropanın Rusiyadan enerji asılılığının azalmasına və özünün tranzit gəlirlərinin artmasına şərait yaratmışdır.

Nəticə etibarilə, dünyanın aparıcı güc mərkəzlərinin Azərbaycanın enerji resursları uğrunda apardığı mübarizə Xəzər-Qara dəniz hövzəsinin qlobal geoiqtisadi əhəmiyyətini bir daha sübut edir. SSRİ-nin dağılmasından sonra yaranmış nisbi geosiyasi boşluğa baxmayaraq, Cənubi Qafqaz transmilli enerji və kommunikasiya qovşağı kimi beynəlxalq münasibətlər sistemində öz strateji rolunu uğurla qoruyub saxlamışdır.

Ədəbiyyat

1.Azərbaycan Tarixi. 7 cilddə.VII cild. Bakı: “Elm”, 2003, 76s., s.229
2.Quliyev S. Azərbaycan Respublikasının neft strategiyası və Qafqazdsa təhlükəsizlik problemləriş. Bakı: BMU nəşriyyatı,2018,236s./s.49
3.Həsənov .Ə.M. Azərbaycanın Geosiyasəti.Bakı: Zərdabi-LTD,2015,1048s., s.545
4.Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər,Bakı: İqtisad Universiteti,2009,409s.,s.60
5.Azərbaycan Respublikasının Milli Məclisinin Arxivi, Fond 2941, siy.1, iş 264,vv.37
6.Mammadov H.Bölgesel politikalar açılışından Azerbaycan-İran ilişkileri//USAK-OAKA,cilt Na 15,2013,2.45-71 s.83
7.Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября. Статистический сборник,Баку, Азернешр ,1987. s. 12 -13
8.Велиев Е. Каспий остается проблематичным ,газета «Зеркало»,Баку, 26 января 2010г.s.120

DOI:10.30546/gdu.5.2026

9.Жильцов. С.С Трубопроводы Каспийского Региона: Состояние и перспективы // Каспий — Теретория развития. Материалы Международной конференций,Астархан, 15 марта 2011г s.52
10.Roberts J., “Energy reserves, pipeline routes and the legal regime in the Caspian Sea”, http://books.sipri.org/files/books/SIPRI01Chufrin/SIPRI01Chufrin03.pdf (14.06.2014);
11.Safire W. On language:the near abroad //The New York Times ,22 May, 1994.
12.Ghafouri M., “The Caspian Sea: Rivalry and Cooperation”, Middle East Policy, Cilt 15, Sayı 2, Yaz 2008.s.232

INTERNATIONAL COMPETITION FOR AZERBAIJAN'S HYDROCARBON RESOURCES IN THE CONTEXT OF GLOBAL GEOPOLITICS AND ENERGY SECURITY

Musayev Etibar Adil

Summary

Azerbaijan possesses an exceptional geopolitical, geo-economic, and military-geostrategic position in the Caspian region, alongside hosting some of the world's richest hydrocarbon reserves. The global changes triggered by the collapse of the USSR and the end of the Cold War transformed the Caspian basin into a primary geopolitical target where the interests of world powers intersect. To preserve its traditional sphere of influence and energy monopoly in the post-Soviet space, Russia sought to intensify pressure and separatist tendencies in the region. Within the framework of the "New Geopolitics" and Madeleine Albright doctrines, the US supported the transportation of Caspian reserves to world markets free from Russian influence and maintained strategic partnership with Azerbaijan. To ensure its energy security, the European Union deepened cooperation with the region through programs like TACIS and TRACECA, as well as projects such as TAP and TANAP. While seeking to preserve its regional influence and opposing US policies, Iran attempted to hinder Azerbaijan's development and advocated for exporting energy resources via the Persian Gulf. Meanwhile, Turkey, leveraging shared cultural-linguistic ties and Western strategic interests, partnered with Azerbaijan to play a decisive role in realizing transnational energy projects and diversifying Europe's supply.

МЕЖДУНАРОДНАЯ КОНКУРЕНЦИЯ ЗА УГЛЕВОДОРОДНЫЕ РЕСУРСЫ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ ГЛОБАЛЬНОЙ ГЕОПОЛИТИКИ И ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

Мусаев Етибар Адил оглы

Резюме

Азербайджан обладает исключительным геополитическим, геоэкономическим и военно-геостратегическим положением в Каспийском регионе, располагая при этом богатейшими в мире запасами углеводородов. Глобальные изменения, вызванные распадом СССР и окончанием «холодной войны», превратили Каспийский бассейн в главную геополитическую цель, где пересекаются интересы мировых держав. Стремясь сохранить свою традиционную сферу влияния и энергетическую монополию на постсоветском пространстве, Россия пыталась усиливать в регионе давление и сепаратистские тенденции. В рамках доктрин «новой геополитики» и Мадлен Олбрайт США поддержали транспортировку каспийских ресурсов на мировые рынки в обход российского влияния и установили стратегическое партнерство с Азербайджаном. Для

DOI:10.30546/gdu.5.2026

обеспечения собственной энергетической безопасности Европейский союз углубил сотрудничество с регионом посредством таких программ, как ТАСИС и ТРАСЕКА, а также проектов ТАР и ТАНАП. Иран, стремясь сохранить свое региональное влияние и противодействуя политике США, пытался препятствовать развитию Азербайджана и выступал за экспорт энергоресурсов через Персидский залив. Тем временем Турция, опираясь на общие культурно-языковые связи и стратегические интересы Запада, выступила партнером Азербайджана, сыграв решающую роль в реализации трансмировых энергетических проектов и диверсификации поставок в Европу.

Rəyçi:dosent Urfan Həsənov
Daxil olma tarixi 22 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:94.

SOVET İDEOLOGİYASININ MİLLİ MUSİQİ ALƏTLƏRİNƏ VƏ MİLLİ GEYİMƏ TƏSİRİ

Əsgərov Rəşad Vilayət oğlu
resad.esgerov27@gmail.com

Xülasə: *1920–1930-cu illərdə Azərbaycanda sovet rejimi milli kimliyi sıradan çıxarmaq üçün milli musiqini və ənənəvi geyimləri hədəf alan aqressiv kampaniyalar yürütmüşdür.*

Milli musiqi sahəsində tar, saz və kamança kimi alətlər "feodalizm qalığı" elan edilərək qadağan olunmağa çalışılsa da, Üzeyir Hacıbəyli, Əfrasiyab Bədəlbəyli və Mikayıl Müşviq kimi ziyalıların qətiyyətli müqaviməti sayəsində bu irs qorunub saxlanılmışdır.

Eyni zamanda, milli papaq, kəlağayı və çadra kimi ənənəvi geyimlər də "gerilik rəmzi" elan edilmişdir. İnzibati qadağalar və radikal təzyiqlər bölgələrdə ciddi sosial narazılıqlara və faciələrə yol açsa da, dövlət dərnəklər və güzəştli mexanizmlərlə Avropa geyim tərzini cəmiyyətə məcburi şəkildə qəbul etdirmişdir.

Açar sözlər: sovet rejimi, Azərbaycan, milli kimlik, mədəniyyət, siyasət, ideologiya

Ключевые слова: советский режим, Азербайджан, национальная идентичность, культура, политика, идеология

Keywords: soviet regime, Azerbaijan, national indentity, culture, politics, ideology

Azərbaycan xalqı qədim və zəngin tarixə, özünəməxsus milli-mədəni dəyərlərə və çoxşaxəli musiqi irsinə malik xalqlardan biridir. Xalqımızın milli kimliyinin əsas göstəricilərindən olan maddi və mənəvi mədəniyyət nümunələri içərisində milli musiqi mədəniyyəti və xüsusilədə də xalq musiqi alətləri mühüm rola malik olmuşdur. Tarixən Azərbaycan ərazisində istifadə olunan saz, tar, kamança və digər musiqi alətləri xalqın məişəti, mərasimləri və yaradıcılığı ilə sıx bağlı olmuş və mənəvi dəyərləri ifadə etmişdir.

Lakin burada qeyd etməliyik ki, tarixin müxtəlif dövrlərində milli mədəniyyətimiz, mənəvi dəyərlərimiz müəyyən siyasi və ideoloji təsirlərə məruz qalmışdır.

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bolşeviklər yeni ideologiyaya xidmət edən cəmiyyətin qurulmasında maraqlı idilər. Bu məqsədlə də ötən əsrin 20-ci illərinin əvvəllərindən başlayaraq həyata keçirilən sovet milli siyasəti xalqımızın milli musiqi alətlərinə qarşı münasibətdə də özünü göstərməyə başlamışdır. Bu siyasət əsrlərlə xalqımızın mənəvi həyatında mühüm rola malik olan tar, saz, kamança və digər musiqi alətlərinə düşmən mövqedən yanaşmaqla onların sıradan çıxarılmasına xidmət edirdi.

Beləliklə, bu musiqi alətlərinə qarşı müxtəlif kampaniyalar aparılaraq onları insanların gözündən salmaqla cəmiyyətin mənəvi həyatından uzaqlaşdırmağa çalışırdılar. Tarın bir musiqi aləti kimi konservatoriyada tədrisinin dayandırılması 1922-1928-ci illərdə Azərbaycan Xalq Maarif Komissarı və eləcə də 1929-1931-ci illərdə "İnqilab və mədəniyyət" jurnalına redaktorluq etmiş Mustafa Quliyevin göstərişləri əsasında həyata keçirilmişdir. Həmin dövrdə nəşr edilən "İnqilab və mədəniyyət" jurnalının "Tar konservatoriyadan çıxarıldı" başlıqlı məqaləsində qeyd edilirdi: "Azərbaycan dövlət konservatoriyasını qüvvətləndirmək məqsədilə AXMK bir çox qərar qəbul etmişdir. Bu qərarlara görə məcburi dərs kursu olan tarın öyrənilməsi konservatoriyanın bütün dərəcələrində tədris planından götürülür və konservatoriya yanında olan şərq orkestrosu ləğv olunur. Tar ancaq cümə konservatoriyasında keçiriləcəkdir". [2. s 18]

Bolşeviklərin tara qarşı münasibəti 12 yanvar D.Bünyadzadə adına Türk Akademik Dram teatrında keçirilən musiqi və incəsənət işçilərinin ümumi yığıncağında özünü aydın şəkildə göstərirdi. 1929-cu ildə nəşr edilən "inqilab və mədəniyyət" jurnalına baxdığımız zaman Mustafa Quliyev öz məruzələrində tara qarşı əks mövqe tutaraq qeyd edirdi: "Hazır ki, musiqimizin formaları, şəkli və məzmunu gündən günə tərəqqi edən iqtisadiyyatımız ilə uyğun gəlməyir. Havalarımızın çoxusu İran havaları və işlətdiyimiz tar da İran musiqi alətidir. Meydan da olan türk kəndli havaları da yalnız etnoqrafik bir əhəmiyyətə malikdir". Təbii ki, burada başlıca məqsəd bu cür mövqe nümayiş

DOI:10.30546/gdu.5.2026

etdirməklə əsrlərlə xalqımızın həyatında mühüm rola malik olan musiqi mədəniyyətimizin sıradan çıxarılması idi.

Eyni zamanda biz Mustafa Quliyevin məruzələrinə diqqət yetirsək görərik ki, həmin məruzələrdə qeyd edirdi ki, "Biz belə bir musiqi yaratmalıyıq ki, yaradacığımız bu yeni türk musiqisi bu günkü Şura sisteminin möhkəmlənməsinə xidmət etməlidir."

Beləliklə həmin məruzələrə baxdığımız zaman burada bolşeviklərin niyyətinin tam olaraq nədən ibarət olduğunu görürük. Bütün bunlardan əlavə Azərbaycan musiqisinə kəskin münasibət bəsləyən M.Quliyev həm də onu qeyd edirdi ki, "Moskva konservatoriyasının yanında el musiqi alətlərini öyrənən kurslar təşkil edilmişsə də, balalayka, mandalina mütəxəsissləri hazırlayan heç bir şöbə yoxdur. Biz də konservatoriyamızı bu əsas üzərində quraraq, oradan tar mütəxəssisləri buraxmamalıyıq. Bir dəfə burası da düşünülməlidir ki, konservatoriyadan buraxılan tar mütəxəssisləri öz sənətlərindən harda istifadə edə biləcəklər. Konservatoriya elə mütəxəssislər yaratmalıdır ki, onlar orkestrolarda, teatrlarda, məktəblərdə çalışa bilsinlər. Konservatoriya çayxanalar üçün sazandar hazırlamaq məqsədi daşıya bilməz. [3. s 26]

Göründüyü kimi bolşeviklər tara qarşı öz kəskin münasibətlərini göstərməklə onu gözdən salamağa çalışırdılar.

Bununlada tara qarşı aparılan bu cür kampaniyalarda onu farslardan keçən və eləcə də ali zümrənin marağlarına xidmət edən musiqi aləti kimi qiymətləndirirdilər. Buna əsasən insanları tarın heç bir gələcəyinin olmadığına inandırmağa çalışırdılar.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, dövrün bəzi ədəbiyyat xadimləri də bolşeviklərin marağlarına xidmət edərək bu kampaniyalarda iştirak edirdilər. Belə ədəbiyyat xadimlərindən biri də Süleyman Rüstəm olmuşdur. O, tara qarşı münasibətini belə ifadə etdirdi:

Oxuma, tar, oxuma, tar!
İstəmir proletar,
Səndə bulunsun "Qatar"!

Lakin bütün bunlarla yanaşı musiqi alətlərimizi hər vasitə ilə müdafiə edən ziyalılar da öz mövqelərini ortaya qoymuşdular. Belə ziyalılardan biri də Əfrasiyab Bədəlbəyli olmuşdur. O, tarı müdafiə edərək onun muzeyə göndərilməsinə qarşı çıxırdı. Ə.Bədəlbəyli tara qarşı münasibətini "Tar üzərində mühakimə münasibətilə" məqaləsində qeyd edirdi: " Tar Azərbaycan xalqının musiqi instrumentidir. Tarın nota ilə çalınması işində böyük müvəffəqiyyət vardır. Tarı muzeyə göndərmək təşəbbüsü yanlışdır. Tarın tərəqqi yolunu kəsməməli.

Beynəlxalq musiqi alətlərindən başqa, hər xalqın özünəməxsus bir çox musiqi aləti dəxi vardır. Bunlardan bəzisi öz qayrılışı, səsi və dəyərinə görə çox geniş intişar tapdığından (ingilis tütəyi kibi) beynəlxalq musiqi instrumentləri sırasına daxil olur. Bəziləri isə tərəqqi etmir, öz ibtidai halında qalır (saz kibi).

İnqilabdan sonra Şuralar İttifaqında xalq musiqi instrumentləri geniş intişar tapmışlardır. İşçi klubları, kəndli guşələri, qızıl ordu hissələrində xalq musiqi instrumentləri təşkil olunmuşdur.

Avropa və Amerika ölkələrində də hər xalq öz musiqi instrumentinə “mülki hüquq” verməyə, onu beynəlxalq musiqi instrumentləri ailəsinə daxil etməyə çalışır.

Bizim xalq musiqi instrumentlərindən ən çox tərəqqi və intişar edəni tardır. Bir çoxları tarın Azərbaycan musiqi instrumenti olmadığını və rozəxanlar, mərsiyəxanlar ilə birlikdə İrandan gəldiyini və böyləliklə də xalis İran musiqi instrumenti olduğunu söyləyirlər. Bu fikir çox da doğru deyildir.

Əyər tar, Azərbaycana İrandan gəlmişsə, hər halda tarın İranda icad edildiyi dəxi doğru deyildir. Miladdan 2000 il qabaq misirlilərin “nabla” adlı musiqi instrumenti tarın ibtidai bir şəklindən başqa bir şey deyildir. İranda Əbu Nəsir Fərabi tərəfindən təkamül edilmiş, İran tarı halına salınmışsa, Azərbaycanda da İran tarı məşhur tarçalan Sadıq tərəfindən büsbütün dəyişdirilmiş, azərbaycanlaşdırılmışdır...” [5].

Məqaləyə baxdığımız zaman buradan da görünür ki, Əfrasiyab Bədəlbəyli tarın bir musiqi aləti olaraq iranlılardan keçməsi məsələsinə də toxunaraq onu misirlilərin "Nabla" musiqi aləti ilə əlaqələndirmişdi.

Tarın bir musiqi aləti kimi hansı dövrdə meydana çıxması və hansı millətə məxsus olması haqqında müxtəlif fikirlər mövcuddur. Milli mənsubiyyətinə görə tarı ərəb, fars, əfqan və digər

DOI:10.30546/gdu.5.2026

millətlərə aid edənlər yanaşmalar mövcuddur. Bütün bunlarla yanaşı tarın azərbaycanlılara məxsus olduğunu və XII əsrdə, görkəmli şairimiz Nizami Gəncəvinin dövründə Azərbaycanda meydana çıxdığını iddia edənlər də mövcuddur. Hətta bəzi hallarda tarı Füzulinin dövrünə aid edərək həmin dövrdə meydana çıxdığını deyənlərə də rast gəlirik. Tarın yaranma tarixindən bəhs edən Firidun Şuşinski "Azərbaycan xalq musiqiçiləri" kitabında qeyd edir: "Yeri gəlmişkən onu da deyək ki, bir çoxları musiqi irsimiz və milli musiqi alətlərimiz haqqında mətbuatda və istərsə də radioda tərtib etdikləri oçerklərdə tarın guya ərəb, fars, əfqan və başqa millətlərə aid musiqi aləti olduğunu söyləyirlər. Bəziləri isə Nizami Gəncəviyə əsaslanıb guya tarın XII əsrdə Azərbaycanda yarandığını və bir çoxları isə tarın Füzulinin dövrünə aid olduğunu iddia edirlər. Bütün bunlar heç bir elmi və arxiv sənədlərinə əsaslanılmayan sadəcə söz-söhbətdən başqa bir şey deyildir. Mötəbər tarixi vəsiqələrə əsaslanıb deyə biləri ki, tarı Miladın X əsrində Türküstan türklərindən Tərxanın oğlu Məhəmməd Carco şəhərinin Fərab adlı bir kəndində qayırmışdır."[8. s 52]

Tarı müdafiə edən ziyalılardan biri də Üzeyir bəy Hacıbəyli idi. O, ötən əsrin 20-30-cu illərində tara qarşı hücumların olduğu bir vaxtda "Tar haqqında" məqaləsini gizli imza ilə çap etdirmək məcburiyyətində qalmışdır[6. s 71].

Tar əleyhinə aparılan kampaniya zamanı tarı müdafiə edən ziyalılardan biri də Mikayıl Müşviq idi. Ümumiyyətlə qeyd edə bilər ki, Müşviqin bir çox yaradıcılığında tara geniş yer verilmişdir. Həmin şeirlərə "Tarın cavabı" (1930), "Mənim dostum" (1933), "Qəzəl" (1933), "Tar" (1933), "Ədəbiyyat nəğməsi" (1935), "Yüksəliş" (1935), "Nə deməkdir" (1936), "Üç sağlıq" (1936), "Tərtərhes nəğmələri" (1936), "Azadlıq dastanı" (1936), "Duyğu yarpaqları" (1937) kimi şeirləri nümunə olaraq göstərə bilərik. Bu şeirlər içərisində "Tarın cavabı", "Tar", "Nə deməkdir" adlı şeirləri xüsusilə tara həsr edilmişdir. Digər şeirlərində isə tarla bağlı bəzi məqamlara toxunur.

Şair musiqi dinləməyin dində haram olduğunu iddia edən bəzi dindarlara cavab olaraq "Tarın cavabı" şeirini yazır.

Tara qarşı aparılan genişmiqyaslı kampaniya zamanı şair tarı müdafiə edərək "Tar" şeirini yazır. Bu şeir Azərbaycan musiqi mədəniyyətinin simvolu olan tarın şöhrətinin daha da artmasında, onun milli mənsubiyyətinin və bədii qüdrətinin geniş kütlələrə çatdırılmasında tarixi bir rol oynamışdır. Tarı susdurmaq istəyənlərə cavab olaraq şair yazırdı:

Oxu, tar!
Səni kim unudar? [7. s 122]

Cəfər Cabbarlı da tara xüsusi rəğbət bəsləyən ziyalılardan olmuşdur. Görkəmli dramaturq "Aydın", "Almaz" və "1905-ci il" kimi əsərlərində tarla bağlı sahələrə yer verməklə bu musiqi alətinin bədii-estetik imkanlarını nümayiş etdirmiş, eyni zaman da tarın insanların mənəvi həyatında yerini vurğulamışdır.

Bununla da 1920–1930-cu illərdə milli musiqi alətlərinə qarşı həyata keçirilən ideoloji kampaniyalarda tar, kamança və saz kimi fundamental alətlər proletar sinfinin ruhuna yad, feodalizm dövrünün təfəkkür qalığı kimi xarakterizə edilsə də, bu təzyiqlər milli musiqi yaddaşının strukturunu sarsıda bilmədi.

Digər tərəfdən, sovet ideoloji aparatının təzyiqləri yalnız ənənəvi xalq çalğı alətləri ilə məhdudlaşmır, eyni zamanda simfonik janrda qələmə alınmış milli-şərq kompozisiyalarına qarşı bəslənən qeyri-peşəkar və laqeyd münasibətdə də özünü büruzə verirdi. Qərb yönümlü və unifikasiya edilmiş musiqi standartlarını diktə edən sovet tənqidçiləri yerli bəstəkarların simfonik irsini kənarda qoymağa çalışırdılar. Lakin milli musiqi yaddaşının aşınmasına yönəlmiş bu tendensiyalara qarşı Üzeyir Hacıbəyli və Müslüm Maqomayev başda olmaqla, mütərəqqi ziyalılar korpusu qətiyyətli mövqe nümayiş etdirmişlər. Onlar həm elmi-publisistik çıxışları, həm də praktiki fəaliyyətləri ilə simfonik musiqidə Şərq və Qərb sintezinin qanunauyğun olduğunu sübut edərək, bu destruktiv yanaşmalara qarşı açıq şəkildə müqavimət göstərmişlər.

Sovet ideoloji sisteminin formalaşdırdığı yeni cəmiyyət modelində milli kimliyin mühüm göstəricisi olan ənənəvi geyimlər də hədəfə alınmışdı. "Köhnəlik əlaməti" elan edilən bu geyimlərin sıradan çıxarılması və Avropa üslubunun tətbiqi üçün sistemli kampaniyalar aparılırdı. Mübarizənin mərkəzində isə papaq, kəlağayı və yaşmaq kimi milli baş geyimləri dayanırdı. Sovet təbliğat maşını

DOI:10.30546/gdu.5.2026

kəlağayı və yaşmağı bilərəkdən çadra ilə eyniləşdirir və onların fars mədəniyyətinə məxsus olduğunu iddia edərək cəmiyyətdə mənfi rəy formalaşdırmağa çalışırdı.

1929-cu ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən qəbul edilən qərarla kişilərin kino və teatr kimi ictimai məkanlara milli papaqla daxil olması məhdudlaşdırıldı. Bu addımla ənənəvi baş geyimlərinin Avropa üslublu papaqlarla ("şapka") əvəzlənməsi rəsmən tələb olunurdu. İnzibati göstərişlərlə yanaşı, ölkənin müxtəlif bölgələrində əhalini yeni geyim standartlarına uyğunlaşdırmaq məqsədilə xüsusi kampaniyalar həyata keçirilirdi. Məsələn, Göyçay qəzasının Hacı Əlili kəndində təşkil olunan dairə konfransında Avropa üslublu papaqların kütləvi istehsalı və kəndlilərə paylanması barədə xüsusi qərar qəbul edilmişdi.

1929-cu ildə komsomol təşkilatının rəhbərliyi ilə həyata keçirilən "Rədd olsun papaq" kampaniyası çərçivəsində, yerlərdə kəndlilərin və məktəblilərin baş geyimləri "gerilik qalığı" elan edilərək zorla müsadirə olunur və tonqallarda yandırılırdı. Bu növ radikal addımlardan biri də Lənkəran qəzasının Pensər kəndində qeydə alınmışdı. Belə ki, Maarif Komissarlığının birbaşa təlimatına əsasən, yerli məktəb rəhbərliyi şagirdlərin milli papaqlarını məcburi şəkildə əllərindən almışdı [1. s 124].

Dövrün mətbuat orqanları ənənəvi baş geyimlərini gözdən salmaq üçün genişmiqyaslı anti-papaq kampaniyası yürüdürdü. Qəzetlərdə papağın uzun müddət istifadəsinin gigiyenik baxımdan zərərli olduğu, tər və çirk yığaraq saçın inkişafını ləngitdiyi, hətta beyin qan dövranını pozduğu barədə uydurma tibbi iddialar dərc edilirdi. Təbliğatla yanaşı, regionlara ezam olunmuş partiya və dövlət nümayəndələri inzibati təzyiqlərə və sərt üsullara əl atırdılar. Səlahiyyətlərini aşan bu məmurlar papağı "gerilik rəmzi" elan edərək vətəndaşların başından zorla çıxarıb yerə çırpmaqdan belə çəkinmirdilər. Bu cür aqressiv metodlar kənd əhalisi arasında kəskin narazılığa səbəb olduğundan, proseslərin fəsadlarını düzgün qiymətləndirən bəzi partiya rəsmiləri bu növ radikal inzibati tədbirlərin əleyhinə çıxış edirdilər.

1928-ci ilin oktyabrında Bakıda çadra məsələsinə dair keçirilən yığıncaqda Azərbaycan Mərkəzi İcraiyyə Komitəsindən (MİK) çadranın qadağan olunması barədə rəsmi dekret verilməsi tələb olunurdu. Lakin belə bir radikal addımın cəmiyyətdə kəskin və ciddi narazılıqlar doğuracağını düzgün qiymətləndirən MİK, həmin dövrdə belə bir hüquqi sənədin qəbulunu məqsədəuyğun hesab etmədi [1. s 122]. Bununla belə, ideoloji təzyiqlər davam edirdi; Əliheydər Qarayev 1928-ci ilin noyabrındakı müşavirədə kəndli qadınların sovet seçkilərində fəallığının birbaşa çadradan imtina ilə bağlı olduğunu, çünki bu baş geyiminin onların ictimai-siyasi həyata inteqrasiyasına mane törətdiyini vurğulayırdı. Nəticədə, prosesi sürətləndirmək üçün inzibati rıçaqlar işə salındı və Xalq Maarif Komissarlığının (XMK) 1928-ci il 24 noyabr tarixli qərarı ilə təhsil, mədəniyyət və incəsənət sahəsində çalışan bütün qadın mütəxəssislər, eləcə də bu müəssisələrdə oxuyan tələbə qızlar üçün çadranın çıxarılması məcburi addım kimi müəyyən edildi.

Qadınların həm iş yerlərində, həm də ictimai məkanlarda çadra örtməsi qəti şəkildə qadağan olunmuş və bu qaydanı pozanlar üçün xüsusi cəzalar müəyyən edilmişdi. Bolşevik hakimiyyətinin çadraya qarşı radikal mövqeyi elə bir həddə çatmışdı ki, evində çadralı qadın olan ailələr birbaşa sovet rejiminin düşməni elan edilirdi [4. s 37]. Zaman keçdikcə bu kampaniya daha da aqressiv xarakter aldı. Sovet ideologiyasının təsiri altına düşən gənclər küçədə çadralı qadınlara qarşı fiziki güc tətbiq edir, onların baş örtüklərini zorla qoparıb tapdalayır və ya parçalayaraq məhv edirdilər.

1929-cu ilin yayında mərkəzi rəhbərliyə təqdim olunan hesabatda vurğulanırdı ki, türk qızları çadradan tamamilə imtina edənə qədər bu istiqamətdə qətiyyətli tədbirlər görülməlidir. Xüsusilə diqqətə çatdırılmalıdır ki, Lənkəran, Naxçıvan və Gəncə qəzalarında bu kampaniyanı daha da sürətləndirmək məqsədilə xüsusi fəaliyyət planı tərtib edilmiş və işlər məhz həmin proqrama uyğun şəkildə həyata keçirilmişdir [4. s 40].

Çadraya qarşı aparılan təbliğat kampaniyasına yerli sovet orqanları da fəal şəkildə cəlb olunurdu. Bu çərçivədə, sovetlərin hesabat-seçki iclaslarında sözügedən məsələ prioritet mövzu kimi müzakirə edilir və əldə olunan nəticələr əvvəlki illərin göstəriciləri ilə müqayisə olunurdu. Yerli idarəetmə orqanları tərəfindən mərkəzi rəhbərliyə çadradan imtina edən qadınların sayı barədə müntəzəm hesabatlar ötürülürdü. Məsələn, Gəncə qəzasındakı müxtəlif təşkilat və regional bəndlərdən daxil olan məlumatlara əsasən, yağ zavodunda 50, Gəncə şəhərində 603, Şəmkirdə 106, Gədəbəydə

DOI:10.30546/gdu.5.2026

36, Dəliməmmədlidə 250, Qasım İsmayılovda (indiki Goranboy) 40 qadın, kütləvi mitinqlərdə isə 258 qadın baş örtüyünü atmışdı; beləliklə, bölgədə ümumilikdə 1800 nəfər qadın çadradan imtina etmişdi [4. s 41].

Bu kampaniya təkcə çadranı deyil, eyni zamanda yaşmağın da tamamilə ləğv edilməsini hədəfləyirdi. Lakin bu cür kəskin məcburi addımlar bir çox bölgələrdə ciddi ailə daxili münaqişələrə, qadınların fiziki zorakılığa məruz qalmasına və hətta qətllərə yol açırdı. Dövrün rəsmi sənədlərində Quba qəzasında bir kişinin öz həyat yoldaşını məhz çadranı atdığı üçün öldürdüyü qeyd olunurdu. Vəziyyəti ideoloji cəhətdən nəzarətdə saxlamaq üçün Azərbaycan K(b)P MK tərəfindən 1929-cu ildə kütləvi tirajla xüsusi kitabça nəşr edilməyə başlandı. Həmin vəsaitdə çadradan imtina məsələsinə geniş yer ayrılır, ənənəvi baş örtüyündən istifadə edən qadınların hər hansı bir ictimai-siyasi fəaliyyətlə məşğul olmasının qeyri-mümkünlüyü qətiyyətlə vurğulanırdı [4. s 41].

Beləliklə, papaq, kəlağayı, yaşmaq və çadra kimi ənənəvi geyim formalarına qarşı genişmiqyaslı mübarizə aparan bolşeviklər, yerli əhalini Avropa geyim tərzinə uyğunlaşdırmağı hədəfləyirdilər. Bu istiqamətdə həyata keçirilən təbliğat nəticəsində, artıq 1930-cu illərdə qərb üslubunda geyinən azərbaycanlı qadın və kişilərin sayı kütləvi şəkildə artmağa başladı. Çadradan imtina edən qadınların müasir geyimlərlə təmin olunması prosesini sürətləndirmək üçün dövlət tərəfindən xüsusi biçmə və tikiş dərnəkləri təşkil edilirdi. Xüsusilə şəhər mühitində yaşayan gənc azərbaycanlı qadınların qarderobunda kostyum, palto və beret kimi Avropa mənşəli geyimlər üstünlük təşkil edirdi. Hətta qadınların palto ilə təminatını asanlaşdırmaq məqsədilə dövlət tərəfindən onlara xüsusi güzəştli kreditlərin verilməsi də təcrübədən keçirilirdi.

Ədəbiyyat

1. İbrahimli.F "Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930)", Bakı, Mütərcim-2001.168 s
2. Quliyev.M "Azərbaycan musiqi mədəniyyətinin inkişaf yolları", "İnqilab və Mədəniyyət" jurnalı, №3, 1929
3. Quliyev.M "Tar konservatoriyadan çıxarıldı","İnqilab və Mədəniyyət" jurnalı, №2, 1929
4. Quluzadə.M "Azərbaycan SSR-də dövlət və din münasibətləri (1920-1991-ciillər)", Bakı, 2006, 352
5. "Kommunist" qəzeti, № 9 (2515), 11 yanvar 1929
6. Məmmədli.Q "İmzalar" Bakı: Azərnəşr-1977, 145 s.
7. Mikayıl.M "Seçilmiş əsərləri", Bakı, Şərq-qərb-2004, 352 s.
8. Şuşinski.F "Azərbaycan xalq musiqiçiləri", Bakı, Yazıçı-1985, 389 s.

ВЛИЯНИЕ СОВЕТСКОЙ ИДЕОЛОГИИ НА НАЦИОНАЛЬНЫЕ МУЗЫКАЛЬНЫЕ ИНСТРУМЕНТЫ И НАЦИОНАЛЬНУЮ ОДЕЖДУ

Аскеров Рашад Вилаят

Резюме

В 1920-х и 1930-х годах советский режим в Азербайджане проводил агрессивные кампании, направленные против национальной музыки и традиционной одежды, в попытке уничтожить национальную идентичность.

Хотя такие инструменты, как тар, саз и каманча, были объявлены «пережитками феодализма» и пытались быть запрещены в сфере национальной музыки, это наследие сохранилось благодаря решительному сопротивлению таких интеллектуалов, как Узеир Гаджибейли, Афрасияб Бадалбейли и Микаил Мушвиг.

В то же время традиционная одежда, такая как национальная шапка, келагай и чадра, также была объявлена «символами отсталости». Хотя административные запреты и радикальное давление привели к серьезному социальному недовольству и трагедиям в регионах, государство заставляло общество перенимать европейские стили одежды через ассоциации и концессионные механизмы.

DOI:10.30546/gdu.5.2026

THE IMPACT OF SOVIET IDEOLOGY ON NATIONAL MUSICAL INSTRUMENTS AND NATIONAL CLOTHING

Asgarov Rashad Vilayat

Summary

Between 1920 and 1930, the Soviet regime in Azerbaijan waged aggressive campaigns targeting national music and traditional attire in an effort to dismantle national identity.

Although attempts were made to ban instruments such as the tar, saz, and kamancha by labeling them "relics of feudalism," this heritage was preserved thanks to the resolute resistance of intellectuals like Uzeyir Hajibeyli, Afrasiyab Badalbeyli, and Mikayil Mushvig.

At the same time, traditional items of clothing—such as the national papak, kelagayi, and chadra —were branded as "symbols of backwardness." While administrative bans and radical pressure sparked serious social discontent and tragedies in the regions, the state forcibly imposed European styles of dress on society through the use of clubs and incentive-based mechanisms.

Daxil olma tarixi 13 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:94(479.24).

XX ƏSRİN SONUNDA AZƏRBAYCANDA XALQ HƏRƏKATININ DAXİLİ VƏ BEYNƏLXALQ ŞƏRTLƏRİ

Adıgözəlov Veyis Vəli oğlu
Bakı Dövlət Universitetinin Qazax filialı
Orcid// 0009-0000-0904-7348
veyis.adigozelov@gmail.com

Xülasə: *"XX əsrin sonunda Azərbaycanda xalq hərəkatının daxili və beynəlxalq şərtləri" mövzusunda apardığımız araşdırmada , keçmiş SSRİ – nin bir neçə respublikasında o cümlədən Azərbaycanda baş verən xalq hərəkatının bir sıra daxili və beynəlxalq şərtlərinin mövcud olması qeyd edilmişdir.Azərbaycandakı xalq hərəkatının əsas daxili səbəbləri sovet dövründə milli məsələnin həll edilməməsi, Azərbaycanın ərazi bütövlüyünün pozulması, sərt idarəçilik və milli hüquqlara qarşı hörmətsizlik olmuşdur. Azərbaycanda xalq hərəkatının əsas beynəlxalq şərti isə M.Qorbaçovun "yenidənqurma" siyasətinin həyata keçirilməsilə SSRİ – nin dağılmağa başlaması və dünya ermənilyinin Azərbaycan əleyhinə fəaliyyət göstərməsi olmuşdur.Araşdırma zamanı əldə edilən nəticələrdən biri də kütləvi xalq hərəkatının təşkilatlanmasında Baltiksahili ölkələrin təcrübəsinin nəzərə alınması olmuşdur. Azərbaycanda XX əsrin sonunda baş verən xalq hərəkatı süni şəkildə təşkil edilmiş, siyasi göstəriş məqsədli hərəkat deyil , təbii – tarixi prosesin məntiqi nəticəsi, əsl xalq hərəkatı idi.*

Açar sözlər: Xalq hərəkatı, Xalq Cəbhəsi, Qarabağ münaqişəsi, milli təşkilatlanma, milli ideya
Ключевые слова: народное движение, Народный фронт, карабахский конфликт, национальная организация, национальная идея
Keywords: Popular movement, Popular Front, Karabakh conflict, national organization, national idea

XX əsrin sonunda dünyada baş verən ən böyük geosiyasi dəyişiklik SSRİ ilə əlaqədar idi. SSRİ – də yaranmış sosial – iqtisadi və mənəvi – siyasi durğunluq, həmçinin, beynəlxalq münasibətlərdəki "soyuq müharibə" dən irəli gələn yorğunluq yeni dəyişikliklərin əsas səbəbi idi. Daxili böhran və Qərb dövlətlərilə hərbi yarışmada uduzan

SSRİ süqut etdi.SSRİ – nin tərkibinə daxil olan respublikalar, o cümlədən, Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdi.SSRİ – nin dağılması gedişində bəzi respublikalarda xalq hərəkatı baş vermiş, bəzilərində isə bu baş verməmişdi. Bunun səbəbi həmin respublikaların yerləşdiyi coğrafiya, respublikalardakı sosial – iqtisadi şərait , milli məsələnin vəziyyəti, sovet idarəçilik metodlarının kəskinlik dərəcəsi və s. amillər idi. SSRİ – nin süqutu gedişində xalq hərəkatının baş verdiyi respublikalardan biri də Azərbaycan Respublikası idi. Azərbaycanın yerləşdiyi coğrafiya, geosiyasi mühit, milli məsələnin kəskinliyi və 1920 – ci ildən bəri tətbiq edilən sərt idarəçilik metodları xalq hərəkatının meydana gəlməsini şərtləndirmişdi. Bu məqalədə XX əsrin sonunda Azərbaycanda xalq hərəkatının daxili və beynəlxalq şərtlərinin nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik.

Qeyd edək ki, xalq hərəkatının meydana gəlməsi ilk növbədə, daxili amillərlə bağlı idi. Çünki daxili səbəblər mövcud olmadan, yalnız beynəlxalq şərtlərin təsirilə xalq hərəkatı baş verə bilməzdi və müstəqilliyin əldə edilməsi dinc yolla baş verərdi. Ona görə də ilk növbədə daxili amilləri nəzərdən keçirməyi zəruri hesab edirik. Xalq hərəkatının daxili şərtləri içərisində əsas yeri xalqda istiqlal şüurunun artması tutur. 1920-ci il 28 aprel işğalı nəticəsində müstəqilliyin itirilməsinin əsas səbəblərindən biri istiqlal şüurunun zəifliyi idi. Azərbaycan Xalq Cumhuriyyətinin ideoloqu M.Ə.Rəsulzadə Azərbaycan xalqının istiqlal məfkurəsinə qiymət verərkən bu məsələyə toxunmuşdu.

M.Ə.Rəsulzadə 1925-ci ildə yazdığı İstiqlal məfkurəsi və gənclik əsərində Qafqazla Baltiksahili ölkələri müqayisə edərək litvalıların, latışların, estonların və finlərin istiqlal şüurunun daha erkən oyanmasını və bu millətlərdə təşkilatlanmanın daha erkən başladığını, çar hökumətinin süqutu zamanı bu millətlərin istiqlaliyyətə hazır olduğunu qeyd edir. Qafqazda, xüsusilə Azərbaycanda isə bu işin çox yeni olduğunu bildirir. Azərbaycanımızda milli fikrin həyatı nisbətən əski olsa da, sözün aydın

DOI:10.30546/gdu.5.2026

mənasında istiqlalçılıq fikri çox yenidir. Hətta deyə bilərəm ki, bu gün istiqlalçılıqlarında şəkkşübhə olmayan arkadaşlarımızın, həm də yalnız gənc arkadaşlarımızın deyil, bəzi yaşlı arkadaşlarımızın belə istiqlalçılığı Azərbaycan istiqlalından da gəncdir. Yəni, onlar 1918-də elan olunan Azərbaycan istiqlalını özlərinin gözlədikləri xoşbəxt bir hadisə, xəyallarında həsrət çəkdikləri bir fikrin nəhayət gerçəkləşmiş bir məhsulu deyil, gözlənilməyən bir hadisə kimi qiymətləndirmişlər , başa gələn hadisə qəbul etmək zərurətində qalmışlardır." (11. səh: 3)

Qeyd etməliyik ki , 1920-ci ildən XX əsrin 80 – ci illərinin ortalarınadək olan müddətdə həyata keçirilən totalitar idarəçilik, social-iqtisadi və mədəni sahədə həyata keçirilən ədalətsiz siyasət, uğursuz milli siyasət Azərbaycan xalqında istiqlal şüurunun artmasına səbəb olmuşdu. İstiqlal şüurunun yenidən canlanmasını hələ Cumhuriyyətin süqutundan az sonra 20 – ci illərdə görmək olardı. Sovet idarəçiliyi təbii olaraq xalqda mənfi reaksiya doğurmuşdu. M.B.Məmmədzadə 1929-cu ildə "Odlu yurd" jurnalının 2-ci № - də çap etdirdiyi "Müsavatçılar və kommunistlər" adlı məqaləsində yazırdı : "17 eylül tarixli cələsədə Ə.Qarayev Müsavatçılıqla mübarizə" haqqında uzun raportla Müsavat təhlükəsinin daha çox bulunduğunu etiraf edərək , yeni bir həqiqətə dəxi şahid olurdu: müsavatizmin gənc kommunistləri də istila etdiyi meydana çıxırdı. Qarayev gənc kommunistləri Müsavatla mücadiləyə səfərbər etmək məqsədilə "Son vaxtlar müsavatçılar canlanmış, bilxassə ideologiya cəbhəsində bizə hücum edirlər. Bunun üçün müsavatçılar əski sınanmış silahları olan millətçilikdən istifadə edirlər, onlar millətçilik psixologiyası yaratmağa çalışırlar" deyə Müsavat firqəsinə nəzəri – diqqəti cəlb etmək istərkən kommunist gənclər yerlərindən: Bizim neft haraya gedir? Nə üçün bu sərvətdən vergi alınmayır? Azərbaycanın ağası kimdir? Türklərmi, ya ruslar? Nədən idarələrimizin başında lisanımızı bilməyən əcnəbilər otururlar? "(6:səh.15-16). Göründüyü kimi xalqın milli maraqlarının qorunması müsavatçılıq ideologiyası zəminində davam edirdi və kommunistlər də bunu etiraf etməyə məcbur olmuşdular. Qeyd etdiyimiz fakt göstərir ki, sovet idarəçiliyi dövründə Azərbaycanın sərvətlərinin talanması, milli dil və mədəniyyətin sıxışdırılması həmişə etiraza, müqavimətə səbəb olan amillər olmuşdur. Azərbaycanda XX əsrin sonunda baş verən xalq hərəkatının mühüm daxili səbəblərindən biri də milli məsələnin sovet imperiyası tərəfindən həll edilə bilməməsi idi. İmperiya maraqlarından çıxış edən sovet rəhbərliyi xüsusilə ərazi məsələsində həmişə ermənipərəst mövqedən çıxış etmişdir. Məsələ bununla da qalmamış, Azərbaycan ərazilərinin digər respublikalara da verilməsi həyata keçirilmişdir. Belə ki XX əsrin 20-ci illərində Şərur-Dərələyəz, Qərbi Zəngəzur Ermənistana, Borçalı, Qarayazının bir hissəsi, Zaqatalanın bir hissəsi Gürcüstana verilmiş, tarixi Azərbaycan torpağı olan Dərbənd RSFSR – in tərkibində saxlanmışdı. Sonrakı dövrlərdə də Naxçıvandan, həmçinin Ermənistanla sərhəd olan rayonlarımızdan ərazilər qoparılaraq Ermənistana "bəxşiş" verilmişdi. Nəticədə, Naxçıvan ərazi baxımından Azərbaycandan ayrı salınmış, Azərbaycan əhalisi yaylaq yerlərinin xeyli hissəsini itirmişdi. Ən ağrılı məsələ isə Qarabağ məsələsi olmuşdu. 1923 – cü il 7 iyulda Azərbaycanın tərkibində DQMV-nin yaradılması əslində kommunist cildinə girmiş Moskvanın Qafqazda milli münaqişə ocağı yaratmaqla xalqları əsarətdə saxlamaq siyasətindən irəli gəlirdi. Bunu belə bir faktdan görmək olar ki, Qarabağda muxtariyyat əldə edən ermənilər XX əsrin 40-cı illərində, 50-ci illərində, 70-ci illərində Qarabağın Azərbaycandan ayrılması məsələsini irəli sürmüşdülər. Faktlar göstərir ki, sovet dövründə Qafqazda erməni – azərbaycanlı münasibətləri gərgin olmuşdur. Bu da milli məsələnin həll olunmaması deməkdir. 1988-ci ilin fevralında Dağlıq Qarabağda münaqişə başlayanda sovet rəhbərliyi " iqtisadi inkişaf yolu ilə münaqişəni həll etmək "variantına əl atdı. Sov.İKP MK və SSRİ Nazirlər Soveti 1988-ci il 24 martda "1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ muxtar vilayətinin social-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında "qərar verdilər (3.səh. 44). Hadisələrin gedişi bu tədbirin uğursuzluğunu göstərdi. Moskvanın Qarabağ məsələsinə münasibəti Azərbaycanda xalq hərəkatının genişlənməsində əsas yerlərdən birini tutur. Bunu SSRİ rəhbəri M.Qorbaçovun söylədiyi fikirlərdəndə aydın görmək olar. 1988-ci il 7 dekabrda Ermənistanda zəlzələ baş vermiş və M.Qorbaçov bununla əlaqədar bu respublikaya səfər etmişdi. Yerevandan ayrılmazdan əvvəl mərkəzi televiziyanın və Ermənistan televiziyasının müxbirilə müsahibə zamanı (13 dekabr, 1988) verilən suala cavab verərkən M.Qorbaçov bildirir: "Zənnimcə, özlüyündə Qarabağ problemi var. Onun kökləri var və həmin problem ona görə kəskinləşmişdir ki, Azərbaycanın keçmiş rəhbərliyi hansı mərhələdəsə bu əhaliyə düzgün, Lenin ənənələri ruhunda yanaşmamış, sadəcə olaraq bəzən insan kimi yanaşmamışdır. Bu isə

DOI:10.30546/gdu.5.2026

adamları incitmişdir.Biz bunu pisləyirik.Məhz buna görə də köməyə gəldik, sosial – iqtisadi inkişafa yardım üçün qərar qəbul etdik.Belə bir kiçik vilayət üçün 500 milyon manat vəsait ayırdıq". (3.səh:288) Faktdan göründüyü kimi, Qorbaçov həzrətləri" münaqişə ilə bağlı Azərbaycan tərəfini ittiham edərək erməni faşizminin ərazi iddialarını və SSRİ – nin müstəmləkəçilik siyasətini pərdələməklə məşğul olmuşdur. Milli məsələ təkcə Azərbaycanın ərazi bütövlüyünə edilən qəsdlərlə bağlı deyildi, həm də azərbaycanlıların Ermənistandan – tarixi Azərbaycan torpaqlarından deportasiyası ilə də bağlı idi. Zaman – zaman həyata keçirilən bu tədbirin ən ağır mərhələləri 1948-1953 və 1988 – 1991-ci illərdə olmuşdur. XX əsrin 80 – ci illərində Azərbaycanda baş verən xalq hərəkatının səbəblərindən biri də Azərbaycan SSR rəhbərliyinin şəraiti düzgün qiymətləndirməməsi, xalqın, respublikanın mənafeyini müdafiə etmək əvəzinə Moskvanı razı salmaq yolu tutması idi. Azərbaycan SSR rəhbərliyi siyasi iradəsizlik və qətiyyətsizlik göstərərək "dil tapmaq", "güzəştə getmək" mövqeyindən çıxış edirdi. Qarabağ məsələsində Azərbaycan SSR rəhbərliyi hamını razı salmağa çalışır, Lenin prinsipləri və "xalqlar dostluğu" ideallarına sadiqliyini nümayiş etdirirdi. Bunu həmin dövrdə Azərbaycan KP MK – nın birinci katibi olmuş Ə.Vəzirovun (1988 – 1990) çıxışından da görmək olar. Belə ki, Ə.Vəzirov 29 may 1989 – cu ildə SSRİ xalq deputatlarının qurultayındakı çıxışı zamanı bildirmişdi: "Siz bilirsiniz ki , budur artıq qurultayın işə başladığı bu üç gün ərzində, bizim respublikamızın deputatlarının təşəbbüsü ilə deyil, məhz başqalarının təşəbbüsü ilə təkcə DQMV ilə deyil, həm də digər cəhətlərlə əlaqədar məsələlər qaldırılır: açığını deyək ki, bu məsələlər bizi heç də əməkdaşlıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə getməyə aparmır.Biz isə ancaq bu yolla getməliyik.Bu problemdən danışsaq, mən qurultayın bütün deputatlarını əmin etmək istəyirəm ki, biz heç olmasa görüşmək, söhbət etmək və bizim ümumi mövqeyimizi müəyyən etmək imkanı tapmaq üçün bütün cəhdlərə əl atmışıq" (3. Səh: 377)

Azərbaycan SSR rəhbərliyi təkcə DQMV məsələsində deyil, həm də azərbaycanlıların Ermənistandan deportasiyası məsələsində də "xalqlar dostluğu" mövqeyindən çıxış edirdi. Daimi yaşayış yerlərini tərk etmiş vətəndaşlara Azərbaycan SSR və Ermənistan SSR – in sovet rəhbərliyinin 4 yanvar 1989 – cu il tarixli birgə müraciətində deyilir: "Azərbaycan və Ermənistanın partiya və sovet orqanları regionda şəraiti sağlamlaşdırmaq üçün ardıcıl tədbirlər həyata keçirirlər. Biz yol verməməliyik ki, milli ehtiraslar coşub idraka üstün gəlsin. Yaranmış münaqişəni aradan qaldırmağın yolu bir – birindən təcrid olunmaqda və bir – birinə qarşı durmaqda deyildir, mənafelərə qarşılıqlı hörmətdədir, bir – birinə qarşılıqlı güzəştə getməyə can atmaqdadır. "(3.səh: 313)Hadisələrin sonrakı inkişafı SSRİ – nin dağılmasını sürətləndirdi və sübut etdi ki , sovet prinsipləri əsasında bu məsələləri həll etmək mümkün deyildir. Həmin müraciətdə deportasiya olunmuş vətəndaşlar haqqında qeyri – real tədbirdən danışılırdı. "Bu günlərdə rayonların rəhbərləri köçkünlərin öz yurdlarına qayıtmasına imkan yaratmaq üçün birlikdə tədbirlər müəyyən edirlər "(3.səh313) Azərbaycan xalqı 70 illik sovet dönəmində dərk etdi ki , kommunist ideologiyası onun milli kültürünə, dini inanclarına, mənəvi dəyərlərinə və həyat tərzinə uyğun deyil, hətta ziddiyyət təşkil edir. Xalq hərəkatının daxili səbəblərindən biri də baş verən hadisələrdən nəticə çıxararaq xalqı təşkilatlandırmağı bacaran milli ziyalıların mövcud olması idi. Xalq hərəkatının yüksəliş dövrü 1988 – ci il 17 noyabr – 4 dekabr tarixlərində olmuşdur. Həmin dövrdə xalqın tələbləri meydanda aydın şəkildə səsləndirilmişdi.Sonrakı mərhələdə yaradılmış Azərbaycan Xalq Cəbhəsinin sədri və prezident olmuş Ə. Əliyev (Elçibəy) 18 noyabr 1988-ci ildə "Azadlıq" meydanındakı çıxışında xalqın tələblərini ifadə etmişdi:

"Qarşımızda üç problem var:

1. Ermənistan SSR-dən didərgin düşənlərdir. Bəlkə də ağacların (Topxana meşəsi nəzərdə tutulur) yox, on minlərlə insanın taleyini düşünməliyik.

2. Ermənistan SSR-in özündə yaşayan azərbaycanlıların təhlükəsizliyi, mədənimilli varlığı müdafiə olunmalıdır.

3. Dağlıq Qarabağ məsələsidir. Bizə qarşı iftiralar başlayıb. Bütün gücümüzü, ağlımızı toplayıb onlarla mübarizə etməliyik. Xalqımız özü hər şeyi həll edəcək. Tələbimizə radio və televiziyamız laqeyd qalmasın. Xalq bütöv olmasa, heç nə əldə edə bilməz" (5. səh. 11).

Meydan hərəkatının tələbləri aydın şəkildə göstərdi ki, sovet dövründə Azərbaycanın ərazi bütövlüyü və Azərbaycan xalqının milli hüquqları məsələsi Moskva tərəfindən tanınmamış və həll olunmamışdı. Bu da nəticə etibarilə xalq hərəkatını doğurmuşdu. Xalq hərəkatının mühüm daxili

DOI:10.30546/gdu.5.2026

səbəblərindən biri də xalqın təşkilatlana bilməsi idi. XX əsrin 80-ci illərinin sonunda baş verən hadisələr siyasətə laqeyd olan Azərbaycan xalqının siyasi cəhətdən fəallaşmasına gətirib çıxardı. Qarabağ problemi, azərbaycanlıların Ermənistandan deportasiyası, Azərbaycanın suveren hüquqlarının müdafiə olunması məsələlərində Azərbaycan xalqının aktiv fəaliyyətini təmin etmək məqsədilə kütləvi ictimai təşkilatın yaradılması zərurəti meydana çıxmışdı. Belə bir şəraitdə Azərbaycan Xalq Cəbhəsi adlı təşkilatın yaranması ideyası gerçəkləşməyə başladı. Tarixçi A. Balayev "Azərbaycan Xalq Cəbhəsinin yaranması və fəaliyyəti (1988–1991)" adlı məqaləsində Azərbaycan Xalq Cəbhəsinin meydana çıxdığı şəraiti, onu meydana gətirən amilləri, bu təşkilatın Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda apardığı mübarizəni ətraflı şəkildə təhlil etmişdir. Məqalədə, həmçinin bu təşkilatın yaranmasından əvvəl Azərbaycanda fəaliyyət göstərən qeyri-formal təşkilatların və Azərbaycan Xalq Cəbhəsinin yaranmasındakı roluna toxunulmuşdur: "1988-ci ilin yayında Bakı alimlər klubunda birləşmiş Azərbaycan ziyalılarının nümayəndələri tərəfindən SSRİ tərkibində suverenliyə nail olmaq şüarını irəli sürən Pribaltika xalq cəbhələri tipli Azərbaycan Xalq Cəbhəsi yaratmaq üçün Təşəbbüs Qrupu yaradıldı. Təşəbbüs Qrupu bir neçə ay ərzində AXC-nin proqram və nizamnaməsini hazırladı. Yenə həmin müddətdə Təşəbbüs Qrupu respublika təsərrüfat hesabı və Azərbaycan xalqının tarixi keçmişinə həsr olunmuş bir neçə seminar, həmçinin Azərbaycanın digər qeyri-formal təşkilatlarının konfransını təşkil etdi" (7. səh. 3). Faktdan göründüyü kimi, ziyalı təbəqəsi xalqın siyasi maariflənməsində, milli oyanışın baş verməsində, milli hüquqların qorunmasında rol oynamağa başlamışdı. "1988-ci ilin yayından etibarən Azərbaycanda onlarla qeyri-formal qrup və təşkilatlar fəaliyyət göstərirdi. Məhz bunlardan biri olan "Varlıq" qrupu sonralar Təşəbbüs Qrupu ilə birlikdə AXC-nin yaradılması üçün baza oldu. Respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni problemlərinin həllində geniş xalq kütlələrinin fəal iştirakını təmin etmək "Varlığın" əsas məqsədi kimi müəyyən olunmuşdu" (7. səh. 3). 1988-ci il 17 noyabr – 4 dekabrda "Azadlıq" meydanında keçirilən fasiləsiz mitinqlərdə Azərbaycan Xalq Cəbhəsi ideyasının əməli olaraq həyata keçirilməsi başlandı. Həmin günlərdə respublikanın 200dən çox idarə, müəssisə və təşkilatlarında AXC-nin dayaq dəstələri yaradılmışdı. Belə nəticəyə gəlmək olar ki, xalq hərəkatı nəticəsində xalq təşkilatlanmağı və siyasi liderlər yetişdirməyi öyrənmişdi. XX əsrin 80-ci illərində Azərbaycanda xalq hərəkatının beynəlxalq səbəbləri haqqında danışarkən ilk növbədə SSRİ-nin süqutu gedişində Mərkəzi və Cənub-Şərqi Avropada baş verən "məxməri inqilablar"ın, demokratikləşmə prosesinin Azərbaycana təsirini qeyd etmək lazımdır.

Ədəbiyyat

1. Azərbaycan tarixi (sənədlər və nəşrlər üzrə). Bakı, 1990.
2. "Araz" jurnalı. Bakı, 1996, №1.
3. Dağlıq Qarabağ (sənədlər və materiallar). Bakı, 1989.
4. Elçibəy bir il. Bakı, 2010 (Bütöv Azərbaycan Birliyi).
5. Əliyev Ə. Bu mənim taleyimdir. Bakı, 1992.
6. İstiqlal qurbanları. Bakı, 1993.
7. "Qurtuluş" jurnalı. Bakı, 1992, №1.
8. "Qurtuluş" jurnalı. Bakı, 1992, №2.
9. Nəcəfov B. Deportasiya. Bakı, 2006.
10. Paşayev A. Köçürülmə. Bakı, 1995.
11. Rəsulzadə M. Ə. İstiqlal məfkurəsi və gənclik ("Azadlıq" qəzetinin xüsusi buraxılışı). Bakı, 31 dekabr 1990.
12. Tahirzadə Ə. Prezident Elçibəy. Bakı, 2001.
13. Sviqun S. K. Gizli cəbhə. Bakı, 1976.
14. Elşan İzzetgil. Rusiyanın yakın çevre politikasında bir enstrüman olarak etnik temelli sorunlar ve Güney Kafkasya. Ankara, 2015.
15. Social Democracy State Foundation: Estonia, Latvia, Lithuania. Bonn, 2019.
16. Zardablı İ. The History of Azerbaijan. London, 2017.

DOI:10.30546/gdu.5.2026

ВНУТРЕННИЕ И МЕЖДУНАРОДНЫЕ УСЛОВИЯ НАРОДНОГО ДВИЖЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XX ВЕКА

Адигозелов Вейис Вели оглы

Резюме

В ходе нашего исследования по теме «Внутренние и международные условия народного движения в Азербайджане в конце XX века» было отмечено наличие ряда внутренних и международных условий для народного движения, происходившего в нескольких республиках бывшего СССР, включая Азербайджан. Основными внутренними причинами народного движения в Азербайджане были неспособность решить национальный вопрос в советский период, нарушение территориальной целостности Азербайджана, жесткое управление и неуважение к национальным правам. Главным международным условием народного движения в Азербайджане стало начало распада СССР с проведением политики «перестройки» М. Горбачева и деятельность армян всего мира против Азербайджана. Одним из результатов исследования стало рассмотрение опыта стран Балтии в организации массового народного движения. Народное движение, возникшее в Азербайджане в конце XX века, не было искусственно организованным, политически мотивированным движением, а естественным, логическим результатом исторического процесса, подлинным народным движением.

INTERNAL AND İNTERNATİONAL CONDİTİONS OF THE POPULAR MOVEMENT İN AZERBAİJAN AT THE END OF THE 20 TH CENTURY

Adigozelov Veyis Veli

Summary

In our research on the topic “Internal and international conditions of the popular movement in Azerbaijan at the end of the 20th century”, it was noted that there were a number of internal and international conditions for the popular movement that took place in several republics of the former USSR, including Azerbaijan. The main internal reasons for the popular movement in Azerbaijan were the failure to resolve the national issue during the Soviet period, the violation of the territorial integrity of Azerbaijan, strict governance and disrespect for national rights. The main international condition for the popular movement in Azerbaijan was the beginning of the collapse of the USSR with the implementation of M. Gorbachev’s “perestroika” policy and the activities of world Armenians against Azerbaijan. One of the results obtained during the research was the consideration of the experience of the Baltic countries in organizing a mass popular movement. The popular movement that took place in Azerbaijan at the end of the 20th century was not an artificially organized, politically motivated movement, but a natural, logical result of a historical process, a genuine popular movement.

Rəyçi:Almənmədova E.F.
Daxil olma tarixi 21 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

PEDAQOGIKA

UOT:37.

ŞAGİRDLƏRİN TƏLİMDƏ QEYRİ-MÜVƏFFƏQİYYƏTİNİN PSİXOLOJİ-PEDAQOJİ SƏBƏBLƏRİ VƏ KORREKSİYA YOLLARI

Cabbarova Könül Hidayət qızı
Pedaqogika üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
https://orcid.org/0000-0003-2137-2412
kenulcabbarova@gmail.com

Xülasə:*Məqalədə ümumtəhsil məktəblərində şagirdlərin təlimdə qeyri-müvəffəqiyyətinin psixoloji-pedaqoji səbəbləri, ona təsir edən amillər və aradan qaldırılması yolları araşdırılır. Tədqiqatın əsas məqsədi təlimdə qeyri-müvəffəqiyyətin yaranmasında idrak, motivasiya, emosional-iradi və sosial-pedaqoji amillərin rolunu müəyyənləşdirməkdir. Məqalədə təlim motivasiyasının aşağı olması, idrak fəaliyyətində çətinliklər, diqqətin zəifliyi, iradi keyfiyyətlərin kifayət qədər inkişaf etməməsi, müəllim-şagird və valideyn-şagird münasibətlərində yaranan problemlər təhlil edilir. Həmçinin şagirdlərin fərdi xüsusiyyətlərinin kompleks qiymətləndirilməsi, psixoloji diaqnostika və pedaqoji korreksiyanın əhəmiyyəti əsaslandırılır. Araşdırmanın nəticələri göstərir ki, təlim motivasiyasının gücləndirilməsi, idrak fəallığının və müstəqilliyin inkişaf etdirilməsi, uğur situasiyalarının yaradılması, diferensiallaşdırılmış tapşırıqlardan istifadə və fərdi yanaşmanın tətbiqi təlimdə qeyri-müvəffəqiyyətin qarşısının alınması və korreksiyası üçün mühüm əhəmiyyət daşıyır.*

Açar sözlər: təlimdə qeyri-müvəffəqiyyət, psixoloji-pedaqoji amillər, təlim motivasiyası, idrak fəaliyyəti, psixoloji diaqnostika, pedaqoji korreksiya, fərdi yanaşma, uğur situasiyası.

Keywords: academic underachievement, psychological and pedagogical factors, learning motivation, cognitive activity, psychological diagnostics, pedagogical correction, individual approach, success situation.

Ключевые слова: неуспеваемость, психолого-педагогические факторы, учебная мотивация, познавательная деятельность, психологическая диагностика, педагогическая коррекция, индивидуальный подход, ситуация успеха.

Giriş. Müasir dövrdə müəllimlər şagirdlərin təlim prosesinin təşkili ilə bağlı bir sıra problemlərlə qarşılaşırlar. Bu problemlərdən biri eyni tədris materialının şagirdlər tərəfindən müxtəlif səviyyələrdə qavranılması, onların təlimə maraq göstərməməsi, ayrı-ayrı fənlərə, eləcə də ümumilikdə təlim fəaliyyətinə qarşı açıq şəkildə mənfi münasibət nümayiş etdirməsidir. Şagirdlər müəllimin dərs zamanı verdiyi məlumatı diqqətlə dinləməyə, onun məzmunu üzərində düşünməyə və mənimsənilən bilikləri yadda saxlamağa kifayət qədər səy göstərmirlər. Təlim xüsusi bacarıq və vərdişlərin, eləcə də iradi keyfiyyətlərin formalaşdırılmasını tələb edən mürəkkəb və məqsədyönlü fəaliyyətdir.

Şagirdlərin təlimdə uğursuzluğu problemini Y. Babanski, V. Setlin və M. Muraçkovski kimi alimlər geniş şəkildə tədqiq etmişlər. Onların tədqiqatlarına görə, təlim prosesində çətinliklərlə qarşılaşan şagirdlərin payı ümumi şagird kontingentinin təxminən 12,5%-ni təşkil edir ki, bu da müəllimin pedaqoji fəaliyyətini əhəmiyyətli dərəcədə çətinləşdirir. Psixoloji-pedaqoji ədəbiyyatda bu hadisəni xarakterizə edən iki əsas anlayışdan – təlimdə uğursuzluq və təlimdə geridəqalma anlayışlarından istifadə olunur [7].

DOI:10.30546/gdu.5.2026

A.M. Gelmont təlimdə qeyri-müvəffəqiyyətin üç kateqoriyasını fərqləndirir: dərin və ümumi geriləmə kateqoriyası, qismən, lakin nisbətən davamlı qeyri-müvəffəqiyyət kateqoriyası və epizodik qeyri-müvəffəqiyyət kateqoriyası [2]. Şagirdlərin təlimdə qeyri-müvəffəqiyyətinin səbəbləri də məhz bu kateqoriyalar nəzərə alınmaqla nəzərdən keçirilir.

Y.K. Babanski təlimdə qeyri-müvəffəqiyyətin səbəblərini daxili və xarici amillərlə əlaqələndirir. Daxili səbəblərə uşaqların sağlamlığı və inkişafı ilə bağlı problemlər, eləcə də onların bilik, bacarıq və vərdişlərinin kifayət qədər formalaşmaması aid edilir. Xarici səbəblər sırasına isə sosial-pedaqoji xarakterli problemlər daxil edilir [5].

Məqalədə təlimdə qeyri-müvəffəqiyyətin xarici xarakter daşıyan səbəbləri nəzərdən keçirilir, xüsusilə təlim fəaliyyəti ilə bağlı narahatlıq amilləri və kiçik yeniyetməlik yaşında olan uşaqların təlim motivasiyası araşdırılır. Təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlərdə, bir qayda olaraq, motivasiya sferasının kifayət qədər formalaşmaması, idrak fəaliyyətinin üsullarını mənimsəməkdə çətinliklər və təlim fəaliyyəti ilə bağlı yüksək narahatlıq səviyyəsi müşahidə olunur [6]. Belə hallarda yalnız intizam xarakterli təsir vasitələrindən istifadə edilməsi gözlənilən nəticəni vermir.

Təlimdə uğursuzluq və geridəqalma bir-biri ilə qarşılıqlı əlaqədə olan anlayışlardır. Təlimdə uğursuzluq geridəqalma prosesinin nəticəsi kimi çıxış edir və burada ayrı-ayrı geridəqalma hallarının məcmusu ümumiləşmiş şəkildə öz əksini tapır.

Professor Y. Babanski təlimdə uğursuzluğun səbəblərini şagirdlərin təfəkküründün zəif inkişafı – 27%, təlim fəaliyyətinin təşkili üzrə bacarıq və vərdişlərin aşağı səviyyədə olması – 18%, təlimə mənfi münasibət – 14%, ailənin və həmyaşıdların mənfi təsiri – 13%, biliklərdə əhəmiyyətli boşluqların olması – 11%, sağlamlığın zəif olması və tez yorulma – 9%, iradənin zəifliyi və intizamsızlıq – 8% ilə əlaqələndirir [3].

Təəssüf ki, müasir ümumi təhsil sistemi bütün şagirdlərin təlim ehtiyaclarını və fərdi xüsusiyyətlərini eyni səviyyədə nəzərə alaraq onların səmərəli təhsil almasını tam təmin etmək imkanına malik deyildir. Təhsil prosesində mövcud olan müəyyən çatışmazlıqlar artıq ibtidai təhsil səviyyəsində özünü göstərməyə başlayır. Məhz bu mərhələdə formalaşan bilik və bacarıq boşluqlarının sonrakı təhsil pillələrində, xüsusilə də siniflərdə şagird sayının çoxluğu şəraitində aradan qaldırılması əhəmiyyətli çətinliklər yaradır.

Problemin yaranmasına təsir göstərən digər mühüm amillər sırasında pedaqoqların dərs yükünün çox olması, peşə fəaliyyətindən irəli gələn emosional gərginlik və yorğunluq, habelə ayrı-ayrı hallarda şagirdlərlə fərdi iş aparmaq üçün zəruri pedaqoji bacarıq və səbrin kifayət qədər olmaması da qeyd edilə bilər. Bununla yanaşı, cəmiyyətdə təhsilin sosial nüfuzunun aşağı olması, bir sıra təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə tam cavab verməməsi, eləcə də valideynlərin övladlarının təhsil prosesinə kifayət qədər diqqət və nəzarət göstərməməsi də şagirdlərin təlim nəticələrinə mənfi təsir göstərə bilən amillərdəndir.

Lakin təlimdə uğursuzluğun yaranması yalnız sosial-pedaqoji və təşkilati amillərlə məhdudlaşmır. Bu prosesdə psixoloji amillər də mühüm rol oynayır. Belə amillərə şagirdlərin idrak fəaliyyətindəki müəyyən çatışmazlıqlar, tələbat-motivasiya sferasının kifayət qədər formalaşmaması, fərdi-psixoloji xüsusiyyətlər, habelə analiz və sintez kimi əsas əqli əməliyyatların lazımi səviyyədə inkişaf etməməsi aid edilə bilər. Bu baxımdan şagirdlərin təlimdə uğursuzluğunun səbəblərinin kompleks şəkildə araşdırılması onun qarşısının alınması və korreksiyası üçün səmərəli pedaqoji-psixoloji yanaşmaların müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Məktəb şagirdlərinin təlimdə uğursuzluğu, onun qarşısının alınması və aradan qaldırılması yolları uzun müddət pedaqoji fikir tarixinin diqqət mərkəzində olmuşdur. Hələ XVII əsrdə Y. A. Komenski özünün «Böyük didaktika» əsərində bu məsələyə xüsusi diqqət yetirmiş və təlimin bütün uşaqlar üçün əlçatan olması ideyasını irəli sürmüşdür. Komenski

DOI:10.30546/gdu.5.2026

Aristotelin fikirlərinə əsaslanaraq bütün uşaqların təbiətən bilik əldə etməyə meyilli olduqlarını və onların hər birinin təlimə cəlb edilə biləcəyini qeyd edirdi. O yazırdı: «Kim şübhə edə bilər ki, tərbiyə küt düşüncəli insanlar üçün zəruridir»…

Pedaqoq və psixoloqların fikrincə, təlimdə qeyri-kafi nəticələr göstərən şagirdlər bir-birindən fərqlənir və onların hər birinə özünəməxsus psixoloji-pedaqoji xüsusiyyətlər xasdır. Bununla belə, təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlərin davranış və fəaliyyətində bir sıra ümumi xüsusiyyətləri müəyyənləşdirmək mümkündür.

Belə şagirdlər üçün məsuliyyət hissinin zəif inkişaf etməsi, təlim fəaliyyətinə marağın və öyrənmə motivasiyasının aşağı olması, diqqətsizlik, intizamsızlıq, iradənin zəifliyi və tapşırıqları yerinə yetirməyə həvəsin olmaması səciyyəvi xüsusiyyətlər hesab olunur. Onlar, bir qayda olaraq, dərs zamanı verilən tapşırıqları müstəqil şəkildə yerinə yetirməkdə çətinlik çəkir, yoxlama və praktik işlərdə fəal iştirak etmirlər. Bəzən dərs prosesində işləməkdən, müəllimin suallarını cavablandırmaqdan və verilmiş tapşırıqları icra etməkdən yayınırlar.

Təlimdə çətinlik yaşayan şagirdlərdə diqqətin davamlılığının zəif olması da müşahidə edilir. Onlar dərs zamanı tez-tez kənar fəaliyyətlərə yönəlir, diqqətlərini təlim materialına uzun müddət cəmləyə bilmirlər. Bu hal bəzi hallarda intizamsızlıq və məsuliyyət hissinin kifayət qədər formalaşmaması ilə əlaqəli olur. İradənin zəifliyi və məqsədyönlü fəaliyyət vərdişlərinin yetərincə formalaşmaması isə şagirdin təlim prosesində qarşılaşdığı çətinliklərin öhdəsindən gəlməsini çətinləşdirir. Belə şagirdlər problemin həlli üçün ardıcıl səy göstərmək əvəzinə, yaranmış çətinlik qarşısında passiv mövqe nümayiş etdirə və tapşırığın yerinə yetirilməsindən imtina edə bilərlər.

Çox vaxt bu şagirdlər təlim fəaliyyətinin daha asan və minimum səy tələb edən formada həyata keçirilməsinə üstünlük verirlər. Onlar tapşırığı ciddi çətinliklərlə qarşılaşmadan qısa müddətdə yerinə yetirəcəklərini düşünürlər. Lakin tapşırığın icrası zamanı müəyyən çətinliklər yarandıqda, qarşıya çıxan problemi həll etmək üçün əlavə səy göstərməkdənsə, fəaliyyətlərini dayandırmağa meyilli olurlar. Bu isə onların təlim nailiyyətlərinin daha da aşağı düşməsinə və öyrənmə prosesinə münasibətlərinin mənfi istiqamətdə dəyişməsinə səbəb ola bilər.

Təlimdə qeyri-müvəffəqiyyətin yaranmasına təsir edən amillərdən biri də şagirdin dərsdənkənar fəaliyyətlərə həddindən artıq maraq göstərməsidir. Bəzi hallarda şagirdlər məktəb dərslərinə sərf etdikləri vaxtdan daha çox vaxtı kitab oxumağa, film və televiziya verilişlərinə baxmağa, idmanla məşğul olmağa, müxtəlif dərnək və seksiyalarda iştirak etməyə və digər fəaliyyətlərə ayırırlar. Nəticədə təlim fəaliyyətinə ayrılan vaxt və diqqət azalır ki, bu da şagirdin akademik göstəricilərinə mənfi təsir göstərə bilər.

Təlim proqramını mənimsəməkdə çətinlik çəkən şagirdlərdə mənfi xarakter xüsusiyyətlərinin və davranış pozuntularının sistematik şəkildə müşahidə olunması mümkündür. Mənfi xarakter xüsusiyyətlərinin formalaşmasına təsir edən əsas amillərdən biri uşağın oxumaq istəməməsi və ümumilikdə təlim fəaliyyətinə mənfi münasibət bəsləməsidir. Təlim prosesində davamlı çətinliklərin yaranması və uğur hissinin formalaşmaması nəticədə uşağın məktəbə hazırlıq prosesindən və təlim fəaliyyətindən yayınmasına səbəb ola bilər. Belə şagirdlər dərsliklərini gizlədir, dəftərlərində yazılanları cırır və ya yazıları pozur, ayrı-ayrı dərslərdən, yaxud ümumilikdə dərslərdən yayınırlar. Bəzən valideynlərinə ev tapşırığının verilmədiyini, məktəbdə isə dəftərləri evdə unutduqlarını bildirirlər.

Təəssüf ki, təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlərin müəllimlərlə münasibətlərində də kifayət qədər tez-tez konfliktlər müşahidə olunur. Bəzi hallarda müəllimlər belə şagirdlərlə kobud davranır, onlara tez-tez irad tutur, səsini yüksəldir və onların davranışından valideynlərə şikayət edirlər. İlk baxışdan bu cür münasibət müəllimin təlimdə uğursuz şagirdlərə qarşı qərəzli yanaşması kimi qiymətləndirilə bilər. Lakin

DOI:10.30546/gdu.5.2026

müşahidələr göstərir ki, müəllimlərin bu davranışı bəzən belə şagirdlərlə işləməkdə çətinlik çəkmələri, onların təlim ehtiyaclarına uyğun səmərəli yanaşma və iş üsullarını müəyyənləşdirə bilməmələri ilə əlaqədar olur. Bu cür vəziyyətlərin davamlı xarakter alması isə müəllim və şagird arasında qarşılıqlı anlaşmanın zəifləməsinə, konfliktlərin dərinləşməsinə və təlim prosesinin səmərəliliyinin daha da aşağı düşməsinə gətirib çıxara bilər.

Təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlərin valideynləri ilə münasibətlərdə də oxşar problemlər meydana çıxır. Valideynlərin bu məsələyə münasibəti daha mürəkkəb və ziddiyyətli xarakter daşıya bilər. Çox vaxt belə şagirdlərin valideynləri məktəbə qarşı narazılıqlarını bildirir, övladlarının təlimdəki uğursuzluğunda müəllimləri günahlandırır, tədris proqramını tənqid edir və uşaqlarını məhz təlim nəticələri ilə bağlı problemlərinə görə qınayırlar.

Bəzi hallarda valideynlər övladlarını məktəb dərslərindən dərhal sonra ev tapşırıqlarını yerinə yetirməyə məcbur edir, əlavə məşğələlər üçün repetitor yanına göndərir, hətta onlara qarşı kobud davranır, qışqırır və fiziki cəza tətbiq edirlər. Bu cür münasibət nəticəsində valideynlər övladlarının etimadını tədricən itirir və ailə daxilində konfliktlərin yaranmasına səbəb olurlar.

Buna cavab olaraq şagirdlər evdən uzaqlaşmağa, dərsdən sonra evə getməməyə və gec saatlarda evə qayıtmağa başlayırlar. Valideynlərinə qarşı kobud davranır, hörmətsizlik göstərir və etirazkar münasibət nümayiş etdirirlər.

Bundan əlavə, məktəb qiymətlərinə həddindən artıq əhəmiyyət verilməsi ilə bağlı tipik vəziyyətlərə də kifayət qədər tez-tez rast gəlinir. Bir çox hallarda şagird yalnız qiymət almaq xatirinə oxuyur. Beləliklə, qiymətin özünəməxsus şəkildə "fetişləşdirilməsi", yəni ona müstəqil və özünəxas dəyərin verilməsi baş verir.

Məşhur gürcü pedaqoq-novator Ş.A. Amonasvilinin fikrincə, qiymətləndirmə sisteminin davamlılığının əsas səbəbləri təlim prosesinin avtoritar xarakter daşıması ilə bağlıdır. Bu yanaşma belə bir mövqeyə əsaslanır ki, məcburetmə olmadan məktəbliləri təlim fəaliyyətinə cəlb etmək mümkün deyil. Alim-pedaqoqun fikrincə, təlimdə avtoritarlıq müəllimin fəaliyyətinin xarakterinə və şagirdlərə münasibətinə öz təsirini göstərir. İmperativ təlim şəraitində pedaqoqun mövqeyi onun müəllimlik fəaliyyətinin üslubu ilə müəyyənləşir.

Ş.A. Amonasvilinin qeyd etdiyi kimi, avtoritar müəllim izah edir, nümayiş etdirir, danışır, göstərir, diktə edir, tələb edir, yoxlayır və qiymətləndirir. Şagirdlər isə diqqətlə dinləməli, müşahidə etməli, verilən tapşırıqları yerinə yetirməli və suallara cavab verməlidirlər. Müəllifin fikrincə, şagird bu şəkildə fəaliyyət göstərmək istəmədikdə, pedaqoq müxtəlif sanksiyalara və xüsusi məcburetmə tədbirlərinə müraciət edə bilər. Bu tədbirlər arasında qiymətlər xüsusi əhəmiyyət daşıyır və onlar təlim prosesində bir növ "qamçı və kökə" funksiyasını yerinə yetirir [1].

Beləliklə, belə nəticəyə gəlmək olar ki, qiymət avtoritar təlim sistemi adlandırılan sistemin ayrılmaz atributlarından biridir. Öz növbəsində, avtoritar təlim sistemi də daha geniş ictimai quruluş sisteminin ayrılmaz xüsusiyyəti kimi çıxış edir. Tarixi təcrübədən məlum olduğu kimi, dövlət və cəmiyyət quruluşlarının böyük əksəriyyəti uzun müddət avtoritar prinsiplər əsasında formalaşmış və fəaliyyət göstərmişdir.

Təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdə düzgün dəstək strategiyasının hazırlanması üçün, ilk növbədə, problemin səbəblərini və onun özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirmək vacibdir. Bu məqsədlə şagirdin inkişaf xüsusiyyətlərinin, idrak imkanlarının və onların məktəb proqramının tələblərinə uyğunluğunun kompleks qiymətləndirilməsi həyata keçirilməlidir. Kompleks qiymətləndirmə dedikdə, bir qayda

DOI:10.30546/gdu.5.2026

olaraq, pedaqoji müayinə, psixoloji diaqnostika, tibbi müayinə və loqopedik müayinə nəzərdə tutulur.

Pedaqoji müayinə – şagirdin mənimsədiyi bilik, bacarıq və vərdişlərin məktəb proqramının tələblərinə uyğunluğunun, tədris materialını mənimsəmə sürətinin və əldə edilmiş biliklərin davamlılığının qiymətləndirilməsidir.

Tibbi müayinə – uşağın inkişaf xüsusiyyətlərinin və mümkün inkişaf pozuntularının müəyyənləşdirilməsini, mərkəzi sinir sisteminin vəziyyətinin qiymətləndirilməsini və baş beynin funksional vəziyyətinin öyrənilməsini nəzərdə tutur.

Loqopedik müayinə – fonematik eşitmənin, səs tələffüzünün, söz ehtiyatının və dilin qrammatik quruluşundan istifadə bacarığının qiymətləndirilməsini əhatə edir.

Psixoloji diaqnostika – şagirdin intellektual inkişaf səviyyəsinin qiymətləndirilməsini, şəxsiyyət və emosional-iradi xüsusiyyətlərinin, psixoloji reaksiyalarının və iş qabiliyyətinin öyrənilməsini, həmçinin diqqəti cəmləşdirmək və davamlı şəkildə saxlamaq imkanlarının müəyyənləşdirilməsini nəzərdə tutur.

Psixoloqlar çətinliklərin təzahürlərini, onların səbəblərini, psixodiaqnostik metodikaları və korreksiya işinin istiqamətləri ilə bağlı tövsiyələri özündə əks etdirən psixodiaqnostik cədvəllərdən istifadə etməyi təklif edirlər.

Təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlərlə işin məqsədi yalnız onların biliklərindəki boşluqların aradan qaldırılması deyil, həm də idrak müstəqilliyinin inkişaf etdirilməsidir. Şagird sinif yoldaşlarına çatdıqdan sonra gələcək təlim prosesində onlardan geri qalmamalıdır. Müəyyən müddət ərzində təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlərə qarşı tələblərin azaldılmasına yol verilə bilər ki, bu da perspektivdə onların tədris proqramını tədricən mənimsəməsinə və digər şagirdlərin səviyyəsinə çatmasına imkan yaratsın.

Psixoloq və pedaqoqlar tərəfindən təlimdə qeyri-müvəffəqiyyətin səbəblərinin aradan qaldırılması istiqamətində məqsədyönlü iş aparılmalıdır. Müəllimlər şagirdlərin idrak fəaliyyətini və müstəqilliyini maksimum dərəcədə fəallaşdırmalı, təlim prosesində yaradıcı fəaliyyət elementlərini artırmalı və onların öyrənməyə marağını stimullaşdırmalıdırlar.

Bu prosesdə uğur situasiyalarının yaradılması xüsusi əhəmiyyət daşıyır. Belə ki, hətta kiçik uğurlar belə şagirddə təlimə qarşı müsbət münasibətin tədricən formalaşmasına şərait yarada bilər. Psixoloq və pedaqoqlar həmçinin qeyd edirlər ki, təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlərin sorğu və cavablandırılması zamanı onlar üçün xüsusi şərait yaradılmalıdır. Belə şagirdlərə lövhə qarşısında cavab hazırlamaq üçün daha çox vaxt verilməsi, cavabın əvvəlcədən hazırlanmış plan və ya sxem əsasında qurulmasına kömək göstərilməsi məqsədəuyğundur.

Müstəqil işlər zamanı isə təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlər üçün nəzərdə tutulan tapşırıqlar mərhələlərə bölünə və onların yerinə yetirilməsi ilə bağlı daha ətraflı və aydın təlimatlar verilə bilər. Bu yanaşma şagirdlərin təlim fəaliyyətində tədricən müstəqillik əldə etməsinə, öz imkanlarına inamının artmasına və təlim nəticələrinin yaxşılaşmasına şərait yaradır.

T.İ.Boqdanovanın yanaşmasına görə, məktəb psixoloqunun təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlə apardığı iş ardıcıl və sistemli şəkildə təşkil olunmalıdır. Bu proses, ilk növbədə, şagird haqqında zəruri məlumatların toplanması və onların hərtərəfli təhlili ilə başlayır. Növbəti mərhələdə şagirdin təlim fəaliyyətində qarşılaşdığı çətinliklərin və onların yaranma səbəblərinin müəyyənləşdirilməsi məqsədilə müvafiq psixodiaqnostik metodikalardan istifadə etməklə diaqnostik araşdırma aparılır. Daha sonra ilkin mərhələlərdə əldə edilmiş məlumat və nəticələr qarşılaşdırılaraq şagirdin təlimdəki vəziyyəti kompleks şəkildə qiymətləndirilir. Aparılmış təhlilin nəticələrinə əsasən, şagirdə göstəriləcək psixoloji-pedaqoji təsirin uyğun forma, vasitə və istiqamətləri müəyyənləşdirilir. Son mərhələdə isə

DOI:10.30546/gdu.5.2026

təlimdə qeyri-müvəffəqiyyət göstərən şagirdlə məqsədyönlü iş təşkil edilir və onun təlim çətinliklərinin aradan qaldırılmasına yönəlmiş konkret fəaliyyət planı hazırlanır. Belə mərhələli yanaşma şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınmasına, təlimdə yaranan problemlərin səbəblərinin daha dəqiq müəyyənləşdirilməsinə və müvafiq korreksiya tədbirlərinin məqsədyönlü şəkildə həyata keçirilməsinə imkan verir [4].

Psixoloji-pedaqoji ədəbiyyatda məktəbdə təlimdə qeyri-müvəffəqiyyətin qarşısının alınması və aradan qaldırılması kompleks pedaqoji və psixoloji tədbirlərin həyata keçirilməsi ilə əlaqələndirilir. Bu istiqamətdə, ilk növbədə, təlim prosesinin səmərəli təşkili, şagirdlərin fəallığını artıran forma və metodlardan, müasir pedaqoji texnologiyalardan, problemli və proqramlaşdırılmış təlim yanaşmalarından istifadə mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, şagirdlərin təlim nəticələrinin müntəzəm izlənilməsi və qiymətləndirilməsi, onların bilik və bacarıqlarında mövcud olan boşluqların müşahidə və söhbət vasitəsilə müəyyənləşdirilməsi, əldə olunan nəticələrin sistemli şəkildə qeyd və təhlil edilməsi zəruridir. Təlimdə yaranan çətinliklərin aradan qaldırılması məqsədilə şagirdin fərdi ehtiyaclarına uyğun pedaqoji dəstək və korreksiyaedici tədbirlər həyata keçirilməli, onun təlim fəaliyyətində geriləməsinə səbəb olan amillər müəyyənləşdirilərək məqsədyönlü şəkildə aradan qaldırılmalıdır. Bununla yanaşı, təlimdə qeyri-müvəffəqiyyət göstərən uşaqlarla onların fərdi və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla sistemli tərbiyə işinin aparılması da mühüm əhəmiyyət kəsb edir.

Bu prosesdə psixoloji korreksiyanın əsas vəzifələrindən biri şagirddə öyrənməyə və təhsil almağa olan marağın və istəyin yenidən formalaşdırılmasıdır. Korreksiya işi zamanı uşağın idrak və təlim fəaliyyətinə marağı stimullaşdırılmalı, onun göstərdiyi cəhd və nailiyyətlər müsbət şəkildə möhkəmləndirilməli, fəaliyyət göstərməsi üçün əlverişli psixoloji mühit yaradılmalıdır. Belə yanaşma şagirdin öz imkanlarına inamının güclənməsinə, təlim fəaliyyətinə fəal münasibətinin formalaşmasına və öyrənməyə marağının tədricən bərpa edilməsinə imkan verir. Nəticədə pedaqoji profilaktika, diaqnostika, korreksiya və tərbiyəvi təsirin qarşılıqlı şəkildə əlaqələndirilməsi təlimdə qeyri-müvəffəqiyyətin aradan qaldırılması üçün daha səmərəli və məqsədyönlü şərait yaradır.

Aparılan təhlil göstərir ki, təlimdə qeyri-müvəffəqiyyət şagirdin yalnız akademik göstəricilərinin aşağı olması ilə xarakterizə olunan hal deyil, onun idrak, motivasiya, emosional-iradi və sosial-pedaqoji inkişaf xüsusiyyətləri ilə qarşılıqlı əlaqədə formalaşan kompleks psixoloji-pedaqoji problemdir. Bu baxımdan qeyri-müvəffəqiyyətin aradan qaldırılması üçün onun yaranma səbəblərinin erkən mərhələdə müəyyənləşdirilməsi, şagirdin fərdi-psixoloji xüsusiyyətlərinin və təlim ehtiyaclarının kompleks şəkildə qiymətləndirilməsi, eləcə də pedaqoji və psixoloji korreksiya tədbirlərinin sistemli şəkildə həyata keçirilməsi zəruridir. Xüsusilə təlim motivasiyasının gücləndirilməsi, idrak fəallığının və müstəqilliyin inkişaf etdirilməsi, şagirddə özünəinamın formalaşdırılması və müsbət təlim təcrübəsinin yaradılması korreksiya prosesinin mühüm istiqamətləri kimi çıxış edir.

Təklif olaraq, ümumtəhsil müəssisələrində təlimdə qeyri-müvəffəqiyyət riski olan şagirdlərin müəyyənləşdirilməsi və onların inkişaf dinamikasının sistemli monitorinqi məqsədəuyğun hesab edilir. Bu prosesdə müəllim, məktəb psixoloqu və valideyn arasında davamlı əməkdaşlığın təmin edilməsi, fərdi dəstək və korreksiya proqramlarının hazırlanması, təlim tapşırıqlarının şagirdin imkanlarına uyğun diferensiallaşdırılması və mütəmadi olaraq uğur situasiyalarının yaradılması vacibdir. Belə kompleks yanaşma qeyri-müvəffəqiyyətin yalnız nəticələrinin deyil, onu şərtləndirən psixoloji-pedaqoji amillərin də aradan qaldırılmasına, şagirdin təlim fəaliyyətinə müsbət münasibətinin formalaşmasına və təhsil nailiyyətlərinin davamlı şəkildə yüksəldilməsinə imkan verə bilər.

DOI:10.30546/gdu.5.2026

Ədəbiyyat

1. Айдарова Л.И.(2006). Проблемы обучения младших школьников. Изд-во ЛИСТНЬЮ.
2. Бабанский, Ю. К. (1988). Педагогика. М.
3. Бабанский, Ю. К. (1989). Избранные педагогические труды. М.
4. Богданова, Т. Г., & Корнилова, Т. В. (1994). Диагностика познавательной сферы ребенка. Просвещение.
5. Гельмонт, А. М. (2004). О причинах неуспеваемости и путях ее преодоления. Просвещение.
6. Философия образования: Всероссийский научный журнал. (2015). Философия образования, 2(59), 18–24. Изд-во СО РАН.
7. Цетлин, В. С. (2009). Предупреждение неуспеваемости учащихся. Знание.

PSYCHOLOGICAL AND PEDAGOGICAL CAUSES OF STUDENTS' ACADEMIC UNDERACHIEVEMENT AND WAYS OF ITS CORRECTION

Jabbarova Konul Hidayat

Summary

The article examines the psychological and pedagogical causes of students' academic underachievement in general education schools, the factors contributing to it, and ways of overcoming it. The main purpose of the study is to identify the role of cognitive, motivational, emotional-volitional, and socio-pedagogical factors in the development of academic underachievement. The article analyzes low learning motivation, difficulties in cognitive activity, poor attention, insufficient development of volitional qualities, and problems arising in teacher-student and parent-student relationships. It also substantiates the importance of a comprehensive assessment of students' individual characteristics, psychological diagnostics, and pedagogical correction. The findings of the study indicate that strengthening learning motivation, developing cognitive activity and independence, creating situations of success, using differentiated tasks, and applying an individualized approach are of significant importance for preventing and correcting academic underachievement.

ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ПРИЧИНЫ НЕУСПЕВАЕМОСТИ УЧАЩИХСЯ И ПУТИ ЕЕ КОРРЕКЦИИ

Джаббарова Кёнуль Гидаят гызы

Резюме

В статье рассматриваются психолого-педагогические причины неуспеваемости учащихся в общеобразовательных школах, факторы, влияющие на ее возникновение, а также пути ее преодоления. Основная цель исследования заключается в определении роли когнитивных, мотивационных, эмоционально-волевых и социально-педагогических факторов в возникновении неуспеваемости. В статье анализируются низкий уровень учебной мотивации, трудности в познавательной деятельности, недостаточная концентрация внимания, недостаточная сформированность волевых качеств, а также проблемы, возникающие во взаимоотношениях учителя и ученика, родителей и ребенка. Обосновывается значение комплексной оценки индивидуальных особенностей учащихся, психологической диагностики и педагогической коррекции. Результаты исследования показывают, что повышение учебной мотивации, развитие познавательной активности и самостоятельности, создание ситуаций успеха, использование дифференцированных заданий и применение индивидуального подхода имеют важное значение для предупреждения и коррекции неуспеваемости учащихся.

Rəyçi: p.ü.f.d., dosent Əliyev Sahib Hümmət oğlu
Daxil olma tarixi 14 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:37.

RETHINKING OF HOW WE LEARN LANGUAGES

Lecturer Amirov Azar Natig
Department of Foreign Languages
Military Institute named after Heydar Aliyev
ORCID:0009-0008-4645-8849

Annatasion: *This article rethinks English language pedagogy by shifting attention from isolated rule learning toward meaningful language use. It argues that grammar and vocabulary still matter, but they become more effective when learners need English to understand content, complete purposeful tasks, and produce communicative outcomes. Drawing on second language acquisition research and on CLIL and task-based approaches, the paper discusses the limits of decontextualized practice, the balance of form and meaning, classroom sequences that integrate content and language, the teacher's role in scaffolding and assessment, and practical constraints. The central claim is that learners progress more deeply when they learn English through meaningful activity rather than only about English as a formal system.*

Keywords: English language teaching, meaningful use, form–meaning balance, CLIL, task-based learning, pedagogy
Açar sözlər: ingilis dilinin tədrisi, mənalı istifadə, forma–məna balansı, CLIL, tapşırıq əsaslı öyrənmə, pedaqogika
Ключевые слова: преподавание английского языка, осмысленное использование, баланс формы и смысла, CLIL, обучение на основе заданий, педагогика

Introduction. Debates about language pedagogy often return to a familiar tension: should learners first master rules and word lists, or should they use the language for real purposes from an early stage? In many English classrooms the first option still dominates. Grammar is presented as a system to be memorized; vocabulary is treated as discrete items; success is measured by accuracy on tests that reward recognition rather than communication. Yet teachers and learners repeatedly observe a gap between what students know about English and what they can do with it when they must explain an idea, solve a problem, or complete a shared task. This article rethinks that gap for English language education. It argues that lasting progress depends less on accumulating formal knowledge in isolation and more on using English as a tool for meaning-making—through subject-related content, purposeful tasks, and carefully guided attention to form when form supports communication.

The discussion draws on research in second language acquisition and on pedagogical models associated with Content and Language Integrated Learning (CLIL) and task-based approaches. The aim is not to reject grammar or deliberate study, but to relocate them inside activities that give English a reason to be used. The article first examines the limits of rule-centred learning, then outlines a form–meaning balance supported by SLA research, and later turns to classroom practice, the teacher's role, and realistic constraints.

The main part. Traditional English instruction frequently treats language as an object of analysis rather than as a medium of action. Learners may complete gap-fills on the present perfect, recite irregular verbs, or translate sentences without ever needing English to achieve a non-linguistic goal. Such work can produce short-term gains on discrete-item tests, yet transfer to spontaneous speaking and writing remains unreliable. One reason is that knowing a rule is not the same as controlling it under communicative pressure. Another is that vocabulary learned as isolated translations often lacks the collocational, pragmatic, and

DOI:10.30546/gdu.5.2026

discursive knowledge required in authentic use. Nation's account of vocabulary development underlines that incidental learning from meaning-focused input and deliberate study serve different but complementary roles; neither alone is sufficient for a balanced programme (Nation, 2001, p. 232). When classrooms privilege only deliberate, decontextualized practice, learners may recognize words and patterns without being able to retrieve and adapt them for real messages.

A related limitation is motivational. English presented as endless preparation for a future exam can feel remote from students' immediate interests. By contrast, when learners must use English to investigate a topic, prepare a short report, compare sources, or complete a project, the language becomes instrumental. Purpose changes attention: learners notice forms that help them say what they need to say. This does not mean that form-focused work disappears. It means that form is selected and practised in relation to the communicative demands of the task rather than as an independent syllabus running parallel to, and often disconnected from, meaning.

Second language research offers a theoretical basis for this shift. Lightbown and Spada synthesize evidence that meaningful input and interaction are central to acquisition, while explicit attention to form can help learners notice and refine features that might otherwise remain inaccurate (Lightbown and Spada, 2013). Long's distinction between a rigid "focus on forms" syllabus and a more flexible "focus on form" is especially useful here. In the latter, attention to linguistic features arises within communicative or content-oriented activity, when a particular structure becomes necessary for clarity or precision (Long, 1991, pp. 39–52). Spada and Lightbown later argue that both isolated and integrated form-focused instruction can be beneficial, depending on the feature, the learners, and the conditions of learning; integrated practice, in particular, supports the fluency needed outside the classroom (Spada and Lightbown, 2008). For English pedagogy, the implication is clear: grammar and vocabulary teaching remain valuable, but their value increases when they are tied to understanding and producing messages rather than treated as ends in themselves.

Task-based language teaching develops this principle at the level of course design. Ellis distinguishes task-supported teaching, in which tasks enrich a largely language-based syllabus, from stronger task-based teaching, in which tasks themselves organize learning (Ellis, 2003, pp. 27–33). In both cases, a task asks learners to achieve an outcome that is not merely the display of a linguistic form—for example, reaching a decision, assembling information, or creating a product. English is used as the means. During planning, performance, and feedback, teachers can still highlight useful language without returning to a pure grammar drill as the lesson's centre. This logic connects naturally with CLIL, which integrates content learning and language learning so that each supports the other (Coyle, Hood and Marsh, 2010, pp. 27–32). Coyle's 4Cs framework—Content, Communication, Cognition, and Culture—reminds planners that successful lessons engage subject matter, language use, thinking skills, and intercultural or disciplinary perspectives together rather than in isolation (Coyle, Hood and Marsh, 2010, pp. 41–45, 53–65).

Taken together, these perspectives suggest a rethinking of how English is learned: not as the memorization of a code first and its delayed application later, but as progressive capacity to use English for understanding, thinking, and communicating about meaningful content.

In English classrooms this rethinking becomes concrete when content supplies a genuine reason to communicate. A history mini-unit on a local landmark, a science lesson on water quality, or a civic discussion of digital safety can all be taught through English provided that the cognitive load and language support are planned together. Learners read short adapted

DOI:10.30546/gdu.5.2026

texts, classify information, prepare a poster or oral briefing, and negotiate meaning with peers. English is not deferred until "after the content"; it is the medium through which content is processed. Coyle, Hood and Marsh stress that CLIL is a fusion of content learning and language learning rather than a soft version of subject teaching in a foreign language, and that teachers need routes for planning both dimensions (Coyle, Hood and Marsh, 2010, pp. 1–3, 48–53). Even where a full CLIL programme is impossible, English teachers can borrow its logic: choose a theme with substance, design an outcome that requires English, and build in language that unlocks that outcome.

Practical sequences often follow a simple arc. First, activate prior knowledge and preview key terms so that learners are not blocked by unknown vocabulary. Second, engage them with input that is slightly challenging but supported—diagrams, glosses, guiding questions. Third, move to a task with a clear product: a comparison table, a short recommendation, a group presentation, or a written summary for a real or simulated audience. Fourth, return briefly to form: the teacher highlights useful phrases, tense choices, or discourse markers that appeared during the task, and learners refine one or two of them. This cycle keeps meaning primary while preventing accuracy from being ignored. Ellis's account of task methodology shows how pre-task preparation, task performance, and post-task focus can be combined without collapsing the lesson back into a traditional grammar presentation (Ellis, 2003, pp. 243–278).

Examples for English as a foreign language need not be grand. Lower-intermediate learners might plan a healthy school menu using countable and uncountable nouns in context; intermediate groups might evaluate two online news reports and practise hedging language (may, seems, according to); advanced learners might draft a short policy brief on study habits and revise modal verbs of obligation and advice. In each case the grammatical target is selected because the task needs it, not because the textbook page has arrived. The same principle applies to skills work: listening becomes research for a decision; writing becomes a report someone might read; speaking becomes rehearsal for a real communicative event. Language practice is therefore purposeful rather than ornamental.

The teacher's role shifts from transmitter of rules to designer of conditions for use. Planning must anticipate both content difficulty and linguistic demand. Scaffolding—sentence starters, word banks, model paragraphs, visual organizers—allows learners to participate before they control every form independently. Feedback should be selective: not every error needs immediate correction, but recurring obstacles to meaning deserve attention, preferably after learners have attempted to convey their message. Assessment likewise changes. If the only valued evidence is a discrete grammar test, students will treat tasks as entertainment and return to memorization. Product-based criteria—clarity of ideas, appropriate register, successful completion of the communicative goal, and a limited set of accuracy targets—align evaluation with the pedagogy described above (Coyle, Hood and Marsh, 2010, pp. 112–132). Teachers also mediate culture and subject conventions: how evidence is cited in English academic writing, how polite disagreement is expressed, how a scientific claim differs from a personal opinion. These are language issues as much as content issues.

Such an approach has clear limits. First, learners with very low proficiency may struggle if content is dense and support is thin; in that case, language-focused preparation must be stronger, or content must be simplified without becoming empty. Second, materials take time. Ready-made textbooks rarely integrate theme, cognition, and form in equal measure, so teachers need institutional support, shared banks of tasks, or collaboration with subject colleagues. Third, there is a risk of "content without language": lively projects in which English remains shallow because learners rely on a few formulaic phrases or on the

DOI:10.30546/gdu.5.2026

first language for real thinking. Balanced CLIL and task design therefore require explicit language aims alongside content aims (Coyle, Hood and Marsh, 2010, pp. 32–39). Fourth, examination systems that reward only discrete accuracy can constrain innovation; teachers may need a dual strategy—meaningful classroom work plus transparent preparation for high-stakes formats—so that students are not punished for pedagogical change. Finally, not every lesson must be a full project. Shorter meaning-focused tasks, interleaved with focused practice, often fit better into crowded syllabi than continuous large-scale CLIL.

Conclusion. Rethinking how we learn languages, and English in particular, means abandoning the assumption that formal knowledge automatically becomes communicative ability. Rules, word lists, and controlled exercises still have a place, but they work best when subordinated to purposes that make English necessary: understanding content, solving problems, producing texts and talks for audiences, and thinking with others. CLIL and task-based principles offer practical ways to organize that shift without denying the value of form-focused instruction. The teacher's craft lies in selecting content worth learning, designing outcomes that demand English, scaffolding participation, and assessing both meaning and form. Where these conditions are met, habits of rote learning give way to a more coherent pedagogy: learners do not merely study English; they learn through English, and doing so they learn English more deeply.

References

1.Coyle, D., Hood, P., & Marsh, D. (2010). CLIL: Content and Language Integrated Learning. Cambridge University Press. pp.1-3, 27-32, 32-39, 41-45, 48-53, 53-65, 112-132.
2.Ellis, R. (2003). Task-based Language Learning and Teaching. Oxford University Press. pp. 27–33, 243–278.
3.Lightbown, P. M., & Spada, N. (2013). How Languages Are Learned (4th ed.). Oxford University Press.
4.Long, M. H. (1991). Focus on form: A design feature in language teaching methodology. In K. de Bot, D. Coste, R. B. Ginsberg, & C. Kramsch (Eds.), Foreign Language Research in Cross-Cultural Perspective (pp. 39–52). John Benjamins.
5.Nation, I. S. P. (2001). Learning Vocabulary in Another Language. Cambridge University Press. p. 232.
6.Spada, N., & Lightbown, P. M. (2008). Form-focused instruction: Isolated or integrated? TESOL Quarterly, 42(2), 181–207.

DİLLƏRİN ÖYRƏNİLMƏSİNƏ YENİDƏN BAXIŞ

Əmirov Azər Natiq oğlu

Xülasə

Bu məqalədə ingilis dilinin tədrisi pedaqogikası təcrid olunmuş qayda öyrənməsindən mənalı dil istifadəsinə doğru yenidən nəzərdən keçirilir. İddia olunur ki, qrammatika və lüğət hələ də vacibdir, lakin onlar o zaman daha səmərəli olur ki, öyrənənlər məzmunu anlamaq, məqsədyönlü tapşırıqları yerinə yetirmək və kommunikativ nəticələr yaratmaq üçün ingilis dilinə ehtiyac duyurlar. İkinci dilin mənimsənilməsi tədqiqatlarına, həmçinin CLIL və tapşırıq əsaslı yanaşmalara əsaslanaraq, məqalədə kontekstdən kənar məşğələnin məhdudiyyətləri, forma və məna balansı, məzmunla dili birləşdirən sinif ardıcıllıqları, müəllimin dəstəkləmə və qiymətləndirmə rolu, eləcə də praktiki məhdudiyyətlər müzakirə olunur. Əsas fikir budur ki, öyrənənlər ingilis dilini yalnız formal sistem kimi deyil, mənalı fəaliyyət vasitəsilə öyrəndikdə daha dərin irəliləyiş əldə edirlər.

DOI:10.30546/gdu.5.2026

ПЕРЕОСМЫСЛЕНИЕ ТОГО, КАК МЫ ИЗУЧАЕМ ЯЗЫКИ

Амиров Азер Натик оглы

Резюме

В статье пересматривается педагогика обучения английскому языку: акцент смещается с изолированного заучивания правил к осмысленному использованию языка. Утверждается, что грамматика и лексика по-прежнему важны, однако они становятся эффективнее, когда учащимся нужен английский, чтобы понимать содержание, выполнять целенаправленные задания и создавать коммуникативный продукт. Опираясь на исследования по усвоению второго языка, а также на подходы CLIL и task-based learning, автор рассматривает ограничения деконтекстуализированной практики, баланс формы и смысла, учебные последовательности, объединяющие содержание и язык, роль учителя в поддержке и оценивании, а также практические ограничения. Центральный тезис состоит в том, что более глубокий прогресс достигается тогда, когда английский изучают через осмысленную деятельность, а не только как формальную систему.

Rəyçi: ped.ü.f.d., dos. Ş.Quliyeva
Daxil olma tarixi 08 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:37.

RƏQƏMSAL PEDAQOGİKA KONTEKSTİNDƏ ANA DİLİNİN TƏDRİSİ: NƏZƏRİ ƏSASLAR VƏ TƏTBİQ MEXANİZMLƏR

Mikayılzadə Lalə Ağa qızı
Pedaqogika üzrə fəlsədə doktoru
Azərbaycan Milli Elmlər Akademiyası
Akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Orcid id: 0000-0001-9664-115X
Lala-mak70@mail.ru

Xülasə: *Müasir dövdə elmi-texniki tərəqqinin sürətlənməsi və rəqəmsal transformasiya prosesləri bütün sosial institutlar kimi təhsil sisteminin də qarşısında yeni tələblər qoyur. Ilk növbədə ümumtəhsil məktəblərində ənənəvi tədris paradiqmasından rəqəmsal pedaqogikaya keçid labüd xarakter almışdır. Ana dili tədrisi hər bir xalqın milli kimliyinin, mənəvi dəyərlərinin və intellektual potensialının qorunub saxlanılmasında aparıcı rol oynayır. Məqalədə ana dilinin tədrisində rəqəmsal pedaqogikanın tətbiqi mexanizmləri və elmi-metodik əsaslarından bəhs olunur. Rəqəmsal pedaqogika təlim prosesini sadəcə texniki vasitələrlə təmin etməklə məhdudlaşmır; o, şagirdin mətnlə, dil faktı ilə və müəllimlə qarşılıqlı münasibətini kökündən. yenidən qurur. Tədqiqt işində ana dilinin tədrisində rəqəmsal pedaqogikanın elmi-metodik əsaslarını təhlil edilir. Məqaldə məktəblilərin psixoloji və koqnitiv xüsusiyyətləri araşdırılır. Koqnitiv uyğunluq prinsipi əsasında qurulan rəqəmsal ana dili dərsləri şagirdlərdə daxili motivasiyanı gücləndirir. Şagird dili kənar bir məcburiyyət kimi deyil, özünün düşüncə tərzinə uyğun olan dinamik bir ünsiyyət aləti kimi qəbul edir.*

*Məqaldə müasir rəqəmsal mühitdə ana dili dərslərinə daxil olan əsas mətn növləri olan hipertekst və əlaqəli məlumat şəbəkələri, multimodal mətnlər, interaktiv narrativlər, rəqəmsal korpuslar və sair haqqında da ətraflı təhlillər aparılır**.** Onu da qeyd etmək lazımdır ki, rəqəmsal mühit şagirdi passiv informasiya alıcısından fəal tədqiqatçıya çevirir, burada şagird dil qaydalarını əzbərləmir, onları müstəqil şəkildə rəqəmsal korpuslar və mətnlər üzərində kəşf edir. Ana dili dərslərində rəqəmsal pedaqogikanın tətbiqi xüsusi vasitələr və resurslar sisteminə əsaslanır. Bu vasitələr tədrisin həm keyfiyyətini, həm də şagirdlərin marağını artırır.*

Rəqəmsal pedaqogikanın tədrisə tətbiqi kortəbii olaraq deyil, ilk növbədə xüsusi elmi-metodik mexanizmlər vasitəsilə həyata keçirilməlidir. Məqalədə fərdiləşdirmə mexanizmi, əks-əlaqə və avtomatlaşdırılmış idarəetmə və sair nüyanslar təhlil edilir. Texnologiyaların təlim prosesinə pedaqoji baxımdan əsaslandırılmış inteqrasiyası şagirdlərin nitq mədəniyyətinin, tənqidi təfəkkürünün, dilçilik biliklərinin və milli-mənəvi dəyərlərə hörmət ruhunun inkişafına əhəmiyyətli töhfə verir. Gələcək tədqiqatlarda ana dili dərsləri üçün milli rəqəmsal təhsil platformalarının və süni intellekt əsaslı ana dili köməkçilərinin hazırlanması istiqamətində praktiki layihələrin həyata keçirilməsi tövsiyə olunur.

Açar sölər: rəqəmsal pedaqogika, ana dilinin tədrisi, rəqəmsal transformasiya, koqnitiv uyğunluq, təlim prosesi

Ключевые слова: цифровая педагогика, преподавание родного языка, цифровая трансформация, когнитивное согласование, учебный процесс.

Key words: Digital pedagogy, native language instructiong, digital transformation, cognitive alignment, learning process

DOI:10.30546/gdu.5.2026

Giriş

Müasir dövrdə qlobal informasiya cəmiyyətinin formalaşması, elmi-texniki tərəqqinin sürətlənməsi və rəqəmsal transformasiya prosesləri bütün sosial institutlar kimi təhsil sisteminin də qarşısında yeni tələblər qoyur. Xüsusilə ümumtəhsil məktəblərində ənənəvi tədris paradiqmasından rəqəmsal pedaqogikaya keçid labüd xarakter almışdır. Ana dili tədrisi hər bir xalqın milli kimliyinin, mənəvi dəyərlərinin və intellektual potensialının qorunub saxlanılmasında aparıcı rol oynayır. Bu baxımdan, ana dili dərslərində rəqəmsal texnologiyaların tətbiqi məktəblilərin idrak fəallığını artırmaqla yanaşı, dördbucaqlı dil bacarıqlarının — dinləmə, oxu, danışma və yazma bacarıqlarının keyfiyyətcə yeni səviyyədə formalaşdırılmasına imkan yaradır (Həsənov, 2023).

Rəqəmsal pedaqogika təlim prosesini sadəcə texniki vasitələrlə təmin etməklə məhdudlaşmır; o, şagirdin mətnlə, dil faktı ilə və müəllimlə qarşılıqlı münasibətini kökündən yenidən qurur (Qasımov, 2024). Tədqiqatın əsas məqsədi ümumtəhsil məktəblərində ana dilinin tədrisində rəqəmsal pedaqogikanın elmi-metodik əsaslarını təhlil etmək, tətbiq mexanizmlərini müəyyənləşdirmək və bu prosesdə meydana çıxan risklərin aradan qaldırılması yollarını göstərməkdir.

Rəqəmsal pedaqogika rəqəmsal mühitin imkanlarından pedaqoji məqsədlər, təlimin optimallaşdırılması və şəxsiyyətin hərtərəfli inkişafı üçün istifadəni nəzərdə tutan fənlərarası sahədir. İnformasiya əsrində böyüyən, "rəqəmsal nəsil" (digital natives) adlandırılan məktəblilərin psixoloji və koqnitiv xüsusiyyətləri ənənəvi tədris üsullarından fərqli yanaşmalar tələb edir (Məmmədova, 2022).

Koqnitiv uyğunluq: Müasir uşaqlar vizual və interaktiv məlumatları daha sürətli mənimsəyirlər. Buna görə də ana dili dərsləri statik lövhə-təbaşir mühitindən çıxaraq vizual və multimediya elementləri ilə sintez olunmalıdır.

Müasir dövrdə ümumtəhsil məktəblərində təhsil alan məktəblilər əvvəlki nəsillərdən köklü surətdə fərqlənirlər. İnformasiya-kommunikasiya texnologiyalarının, sürətli internetin və multimediya mühitinin əhatəsində böyüyən bu nəsli elmdə "rəqəmsal aborigenlər" və ya "rəqəmsal nəsil" (*digital natives*) adlandırırlar (Məmmədova, 2022). Bu uşaqların idrak (koqnitiv) fəaliyyəti, informasiyanı qəbul etmə, emal etmə və yadda saxlama mexanizmləri ənənəvi məktəb mühitinin tələblərindən əhəmiyyətli dərəcədə fərqlənir. Məhz bu nöqtədə koqnitiv uyğunluq prinsipi meydana çıxır.

Koqnitiv uyğunluq dedikdə, tədris prosesinin, məzmunun və metodika vasitələrinin şagirdlərin bioloji-psixoloji idrak imkanlarına, vizual-qavrayış xüsusiyyətlərinə və informasiya emal sürətinə adekvat şəkildə uyğunlaşdırılması başa düşülür. Ənənəvi ana dili dərslərində uzun müddət birtipli mətnlərin oxunması, qaydaların mexaniki əzbərlənməsi və statik lövhə izahatları rəqəmsal nəsildə müəyyən psixoloji baryerlər və öyrənmə yorğunluğu yaradır.

Rəqəmsal nəsildə məlumatlar xətti (linearnı) deyil, əsasən vizual və mozaik (klip) təfəkkür vasitəsilə qavranılır. Şagirdlər hər hansı bir qrammatik qaydanı və ya sintaktik konstruksiyanı bütöv bir səhifəlik mətndən oxumaqdansa, interaktiv sxemlər, intellektual xəritələr (*mind maps*) və ya qrafik təsvirlər vasitəsilə daha sürətli mənimsəyirlər. Ana dili tədrisində koqnitiv uyğunluğun təmin olunması üçün infoqrafika və qrafik tərtibatdan istifadə zəruridir**.** Mürəkkəb durğu işarələri sistemini və ya feilin şəkillərini qrafik cədvəllər şəklində rəqəmsal mühitə köçürmək şagirdin qavrama sürətini artırır.

Multimodal mətnlərinin yalnız səsdən və yazından ibarət olmaması, eyni zamanda animasiya, simvol və interaktiv elementlərlə dəstəklənməsi koqnitiv yükü optimallaşdırır.

Rəqəmsal mühit şagirdlərdə diqqəti sürətli şəkildə bir obyektdən digərinə keçirmək bacarığını inkişaf etdirmişdir. Lakin bu xüsusiyyət dərin diqqət tələb edən klassik ana dili

DOI:10.30546/gdu.5.2026

dərslərində səthi yanaşma riski yaradır. Koqnitiv uyğunluq mexanizmi burada balans rolunu oynayır:

Mikro-öyrənmə (*microlearning*) formatı: Böyük həcmli qrammatik mövzuların kiçik, lakin məzmunlu rəqəmsal modullara (məsələn, 5-7 dəqiqəlik interaktiv video-izahatlar) bölünməsi şagirdin yaddaş resurslarını həddindən artıq yüklənmədən qoruyur.

Adaptiv templər: Hər bir şagirdin fərdi koqnitiv sürətinə uyğun olaraq tapşırıqların çətinlik dərəcəsinin avtomatik tənzimlənməsi (fərdiləşdirilmiş adaptiv platformalar) təlimin səmərəliliyini kəskin şəkildə artırır (Kərimov, 2022).

Koqnitiv uyğunluq prinsipi əsasında qurulan rəqəmsal ana dili dərsləri şagirdlərdə daxili motivasiyanı gücləndirir. Şagird dili kənar bir məcburiyyət kimi deyil, özünün düşüncə tərzinə uyğun olan dinamik bir ünsiyyət aləti kimi qəbul edir. Bu yanaşma tənqidi təfəkkürün, mətnə yaradıcı münasibətin və nitq mədəniyyətinin formalaşmasında əvəzsiz psixoloji-pedaqoji zəmin yaradır.

Rəqəmsal pedaqogika şəraitində mətn anlayışı dəyişir. Ənənəvi kağız üzərindəki xətti mətnlərl yanaşı, hipertekst, multimodal mətnlər və interaktiv narrativlər tədris prosesinə daxil olur.

Ənənəvi ana dili tədrisində mətn anlayışı dedikdə, kağız daşıyıcı üzərində çap olunmuş, ardıcıl və xətti (*linearnı*) oxunan bədii və ya elmi-kütləvi nümunələr başa düşülürdü. Lakin rəqəmsal pedaqogika şəraitində mətn anlayışı köklü dəyişikliyə məruz qalaraq çoxşaxəli informasiya obyektinə çevrilmişdir. Müasir rəqəmsal mühitdə ana dili dərslərinə daxil olan əsas mətn növləri aşağıdakılardır:

Hipertekst və Əlaqəli Məlumat Şəbəkələri: Elektron formatdakı bədii mətnlər şagirdlərə təkcə oxumaq imkanı vermir, həm də mətn daxilindəki hiperlinklər (*hyperlinks*) vasitəsilə arxaik sözlərin izahına, müəllifin bioqrafiyasına, dövrün tarixi kontekstinə və əlavə lüğət bazalarına birbaşa keçid etməyə imkan yaradır (Əliyev, 2021). Bu isə mətnin sərhədlərini genişləndirərək onu interaktiv ensiklopedik mühitə çevrir.

Müasir məktəblilərin qavrayış tərzinə uyğun olaraq, mətnlər artıq yalnız hərfi işarələrdən deyil, vizual qrafiklərdən, audio elementlərdən, rəqəmsal illüstrasiyalardan və animasiyalardan təşkil olunur. Ana dili dərslərində multimodal mətnlərlə işləmək şagirdlərin vizual savadlılığını və müxtəlif semiotik sistemləri (işarələr sistemini) anlama bacarıqlarını inkişaf etdirir.

Şagirdlərin oxu prosesində passiv müşahidəçi deyil, süjetin inkişafına təsir edən iştirakçıya çevrildiyi rəqəmsal hekayə formatlarıdır. Bu cür mətnlər şagirdin yaradıcı təfəkkürünü və yazılı nitq qurma bacarıqlarını stimullaşdırır.

Ənənəvi pedaqogikada şagirdin rolu əsasən müəllimin təqdim etdiyi və ya dərslikdə yazılmış qrammatik qaydaları, orfoqrafik normativləri və sintaktik sxemləri əzbərləməkdən ibarət olurdu. Rəqəmsal pedaqogika isə bu paradiqmanı tamamilə dəyişərək tədqiqatçılıq mövqeyini (*inquiry-based learning*) ön plana çəkir (Həsənov, 2023).

Müasir ana dili tədrisində şagirdlər dil qaydalarını hazır şəkildə əzbərləmirlər. Onlar rəqəmsal dil korpusları, elektron lüğətlər və mətn bazaları vasitəsilə müəyyən sözlərin işlənmə tezliyini, sinonim sıra xüsusiyyətlərini və üslubi imkanlarını müstəqil şəkildə araşdırırlar. Məsələn, hər hansı bir bədii əsərdə feilin zaman formalarının funksiyasını şagird özü rəqəmsal mətn üzərində axtarış apararaq təhlil edir.

Rəqəmsal mühit şagirdlərə dil hadisələrini müqayisə etmək, müxtəlif mətnlərin üslubi fərqlərini avtomatlaşdırılmış analitika vasitəsilə müəyyənləşdirmək imkanı verir. Bu yanaşma şagirdlərdə tənqidi təfəkkürü, analitik təhlil bacarığını və elmi-tədqiqat vərdişlərini hələ məktəb yaşlarından formalaşdırır (Kərimov, 2022).

DOI:10.30546/gdu.5.2026

Nəticə etibarilə, mətn anlayışının genişlənməsi və şagirdin tədqiqatçılıq mövqeyinin formalaşması ana dili tədrisini əzbərçilikdən xilas edərək onu yaradıcı, analitik və dərketməyə yönəlmiş modern elm sahəsinə çevirir.

Rəqəmsal mühit şagirdi passiv informasiya alıcısından fəal tədqiqatçıya çevirir, burada şagird dil qaydalarını əzbərləmir, onları müstəqil şəkildə rəqəmsal korpuslar və mətnlər üzərində kəşf edir.

Ana dili dərslərində rəqəmsal pedaqogikanın tətbiqi xüsusi vasitələr və resurslar sisteminə əsaslanır. Bu vasitələr tədrisin həm keyfiyyətini, həm də şagirdlərin marağını artırır.

Klassik ədəbiyyat və bədii mətnlərin elektron formatda təqdimatı şagirdlərə birbaşa mətn üzərində hiperlinklər vasitəsilə arxaik sözlərin izahını, lüğətçəni, müəllif haqqında arayışları və əlavə ədəbi kontekstləri dərhal əldə etməyə imkan verir (Əliyev, 2021).

Dinləyib-anlama (audition) və şifahi nitq bacarıqlarının inkişafı üçün səsləndirilmiş bədii nümunələr, görkəmli aktyorların ifasında şeirlər, audio-tamaşalar və nitq mədəniyyətinə dair video-resurslar dərsin təsir gücünü qat-qat artırır. Qrammatik qaydaların, sintaktik normanın və orfoqrafiya qaydalarının mənimsənilməsini yoxlamaq məqsədilə interaktiv test generatorları və rəqəmsal viktorinalardan istifadə şagirdlərin fənnə olan daxili motivasiyasını gücləndirir (Bayramov, 2023). Rəqəmsal pedaqogikanın tədrisə tətbiqi kortəbii olaraq deyil, ilk növbədə xüsusi elmi-metodik mexanizmlər vasitəsilə həyata keçirilməlidir:

Hər bir şagirdin dil səviyyəsinə, anlama sürətinə və bilik boşluqlarına uyğun adaptiv rəqəmsal tapşırıqlar (məsələn, fərdi sintaktik təhlil proqramları, lüğət ehtiyatını zənginləşdirən tətbiqlər) təqdim olunur (Kərimov, 2022). Bu, sinifdə diferensial təlim prinsipinin reallaşmasına şərait yaradır.

Yazılı nitq məşqlərində (esse, inşa, ifadə) rəqəmsal alətlər ilkin qrammatik, punktuasyon və üslubi səhvlərin operativ şəkildə aşkarlanmasına kömək edir. Müəllim mexaniki səhvlərin yoxlanılmasına vaxt sərf etmək əvəzinə, şagirdin yaradıcı təfəkküründün və mətnin ideya məzmununun təhlilinə diqqət ayırır.

Rəqəmsal pedaqogikanın geniş tətbiqi bir sıra çətinlikləri və riskləri də bərabərində gətirir ki, bunları elmi səviyyədə nəzərə almaq zəruridir:

Həddindən artıq rəqəmsallaşma şagirdlərin üzbəüz canlı ünsiyyət bacarıqlarının zəifləməsinə və klassik kitab oxuma vərdişlərinin arxa plana keçməsinə səbəb ola bilər (Hüseynov, 2024).

Avtomatlaşdırılmış tərcümə və mətn generatorlarının nəzarətsiz istifadəsi ana dilinin təmizliyinə, canlı xalq danışıq dilinin zəngin ifadə vasitələrinə mənfi təsir göstərə bilər.

Buna görə də ənənəvi klassik pedaqoji metodika ilə rəqəmsal vasitələr arasında sinerjik balans qorunub saxlanılmalıdır. Texnologiya təkcə məqsəd kimi deyil, təlimin keyfiyyətini artıran vasitə kimi çıxış etməlidir.

Nəticə

Rəqəmsal pedaqogika ümumtəhsil məktəblərində ana dili tədrisinin keyfiyyətini yüksəldən güclü vasitədir. Texnologiyaların təlim prosesinə pedaqoji baxımdan əsaslandırılmış inteqrasiyası şagirdlərin nitq mədəniyyətinin, tənqidi təfəkküründün, dilçilik biliklərinin və milli-mənəvi dəyərlərə hörmət ruhunun inkişafına əhəmiyyətli töhfə verir. Gələcək tədqiqatlarda ana dili dərsləri üçün milli rəqəmsal təhsil platformalarının və süni intellekt əsaslı ana dili köməkçilərinin hazırlanması istiqamətində praktiki layihələrin həyata keçirilməsi məqsədəuyğundur.

DOI:10.30546/gdu.5.2026

Ədəbiyyat

1. Bayramov, A. (2023). *Müasir ümumtəhsil məktəblərində rəqəmsal texnologiyalar və təlimin effektivliyi*. Bakı: Elm və təhsil.
2. Əliyev, R. (2021). Ana dili tədrisində elektron mətnlərin və hipertekst mühitinin rolu. *Pedaqoji Elmlər Xəbərləri*, 4(2), 112–118.
3. Həsənov, M. (2023). *Rəqəmsal pedaqogika və təhsilin transformasiyası*. Bakı Universiteti nəşriyyatı.
4. Hüseynov, T. (2024). Təhsilin rəqəmsallaşdırılmasının metodoloji problemləri və riskləri. *Azərbaycan məktəbi* jurnalı, 1(6), 45–53.
5. Kərimov, Y. (2022). *Fərdiləşdirilmiş təlim texnologiyaları*. Bakı: Mütərcim.
6. Məmmədova, S. (2022). İbtidai və orta siniflərdə ana dili tədrisinin innovativ üsulları. *Elmi əsərlər (Pedaqogika və psixologiya seriyası)*, 3(15), 78–84.
7. Qasımov, E. (2024). *İnformasiya cəmiyyətində pedaqoji yanaşmalar*. Bakı: Təhsil NPM.

ПРЕПОДАВАНИЕ РОДНОГО ЯЗЫКА В КОНТЕКСТЕ ЦИФРОВОЙ ПЕДАГОГИКИ: ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ И МЕХАНИЗМЫ РЕАЛИЗАЦИИ

Микаилзаде Лала Ага кызы

Резюме

В современную эпоху ускорение научно-технического прогресса и процессы цифровой трансформации предъявляют новые требования к системе образования — так же, как и ко всем социальным институтам. Прежде всего, переход от традиционной парадигмы обучения к цифровой педагогике в общеобразовательных школах стал неизбежным. Обучение на родном языке играет ведущую роль в сохранении национальной идентичности, духовных ценностей и интеллектуального потенциала любого народа. В статье рассматриваются механизмы внедрения цифровой педагогики в процесс обучения на родном языке, а также ее научно-методические основы. Цифровая педагогика не ограничивается лишь техническим обеспечением учебного процесса; она кардинально меняет характер взаимодействия учащегося с текстами, языковыми элементами и преподавателем. В данном исследовании анализируются научно-методические основы цифровой педагогики при обучении родному языку. В статье рассматриваются психологические и когнитивные особенности школьников. Цифровые уроки родного языка, построенные на принципе когнитивного соответствия, укрепляют внутреннюю мотивацию учащихся. Ученики начинают воспринимать язык не как нечто навязанное извне, а как динамичный инструмент общения, согласующийся с их собственным образом мышления.

В статье также представлен подробный анализ основных типов текстов, используемых на уроках родного языка в современной цифровой среде: гипертекстов и взаимосвязанных информационных сетей, мультимодальных текстов, интерактивных нарративов, цифровых корпусов и других. Следует также отметить, что цифровая среда превращает учащегося из пассивного получателя информации в активного исследователя: здесь он не заучивает языковые правила, а самостоятельно открывает их, работая с цифровыми корпусами текстов. Применение методов цифровой педагогики на уроках родного языка опирается на систему специализированных инструментов и ресурсов. Эти средства способствуют повышению как качества обучения, так и вовлеченности учащихся.

Применение цифровой педагогики в обучении не должно носить хаотичный характер; напротив, оно должно осуществляться прежде всего посредством конкретных научно-методических механизмов. В статье анализируются такие аспекты, как механизмы

DOI:10.30546/gdu.5.2026

персонализации, обратная связь и автоматизированное управление. Педагогически обоснованная интеграция технологий в учебный процесс вносит существенный вклад в развитие речевой культуры, критического мышления и языковых знаний учащихся, а также в формирование уважения к национальным и нравственным ценностям. Для дальнейших исследований рекомендуется реализация практических проектов, направленных на создание национальных цифровых образовательных платформ и языковых помощников на базе искусственного интеллекта для уроков родного языка.

TEACHING THE NATIVE LANGUAGE IN THE CONTEXT OF DIGITAL PEDAGOGY: THEORETICAL FOUNDATIONS AND IMPLEMENTATION MECHANISMS

Mikayilzadeh Lala Aqa

Summary

In the modern era, the acceleration of scientific-technological progress and processes of digital transformation impose new demands on the education system, just as they do on all social institutions. Above all, the transition from the traditional teaching paradigm to digital pedagogy in general education schools has become inevitable. The teaching of the mother tongue plays a pivotal role in preserving a nation's national identity, spiritual values, and intellectual potential. This article discusses the mechanisms and scientific-methodological foundations for applying digital pedagogy to mother-tongue instruction. Digital pedagogy is not limited to merely equipping the learning process with technical tools; it fundamentally restructures the student's interaction with texts, linguistic phenomena, and the teacher. The study analyzes the scientific-methodological underpinnings of digital pedagogy in mother-tongue education and examines the psychological and cognitive characteristics of schoolchildren. Digital mother-tongue lessons designed around the principle of cognitive alignment strengthen students' intrinsic motivation. Consequently, the student perceives the language not as an external imposition, but as a dynamic tool for communication that aligns with their own way of thinking. The article provides a detailed analysis of key text types encountered in native language lessons within the modern digital environment—such as hypertext and interconnected information networks, multimodal texts, interactive narratives, and digital corpora. It is also worth noting that the digital environment transforms the student from a passive recipient of information into an active researcher; rather than rote-memorizing language rules, students discover them independently through the exploration of digital corpora and texts. The application of digital pedagogy in native language lessons relies on a system of specialized tools and resources. These tools enhance both the quality of instruction and student engagement.

The integration of digital pedagogy into teaching should not occur haphazardly but must be implemented primarily through specific scientific-methodological mechanisms. The article analyzes aspects such as personalization mechanisms, feedback, and automated management. The pedagogically sound integration of technology into the learning process contributes significantly to the development of students' speech culture, critical thinking, linguistic knowledge, and respect for national and moral values. For future research, it is recommended to implement practical projects aimed at developing national digital education platforms and AI-based native language assistants for native language lessons.

Rəyçi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Sevil Hümmətova
Daxil olma tarixi 15 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:37.

DANIŞIQ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ SÜNİ İNTELLEKTİN ROLU

Xanbutayeva Aidə Rasim
Azərbaycan Dillər Universiteti
ORCID ID: 0009-0004-8642-8784
aida.xanbutayeva@adu.edu.az

Xülasə: *Müasir xarici dil təlimində danışıq bacarığının inkişafı əsas kommunikativ məqsədlərdən biri hesab olunur. Xarici dil öyrənənlərin qrammatik bilik və söz ehtiyatına malik olmalarına baxmayaraq, real ünsiyyət şəraitində sərbəst danışmaqda çətinlik çəkmələri geniş yayılmış problemdir. Səhv etmək qorxusu, özünəinamın aşağı olması, tələffüz problemləri və kifayət qədər danışıq praktikasının olmaması bu çətinliklərin əsas səbəblərindəndir. Süni intellekt texnologiyalarının təhsil prosesinə inteqrasiyası danışıq bacarıqlarının inkişafı üçün yeni imkanlar yaratmışdır. Süni intellekt çatbotları, nitqin avtomatik tanınması, real vaxt rejimində rəy, danışıq simulyasiyaları və nitq analitikası öyrənənlərin fərdiləşdirilmiş və davamlı danışıq praktikası əldə etməsinə şərait yaradır. Məqalədə süni intellektin danışıq bacarıqlarının inkişafındakı rolu nəzəri-analitik yanaşma əsasında araşdırılmışdır. Tədqiqatda müqayisəli, məzmun və funksional-pedaqoji təhlil metodlarından istifadə edilmiş, süni intellekt əsaslı platformaların imkanları və məhdudiyyətləri təhlil olunmuşdur. Tədqiqatın nəticələri göstərir ki, süni intellekt tələffüz, səlislik, qrammatika, söz ehtiyatı və kommunikativ kompetensiyanın inkişafına müsbət təsir göstərə bilər. Bununla belə, ən səmərəli yanaşma süni intellektin müəllimi əvəz etməsi deyil, müəllim–süni intellekt əməkdaşlığı əsasında əlavə təlim vasitəsi kimi tətbiq edilməsidir.*

Açar sözlər: süni intellekt, danışıq bacarığı, nitqin tanınması, çatbot, fərdiləşdirilmiş təlim, kommunikativ sərištə.

Ключевые слова: искусственный интеллект, навыки говорения, изучение иностранного языка, распознавание речи, чат-бот, обратная связь в режиме реального времени, персонализированное обучение.

Keywords: artificial intelligence, speaking skills, foreign language learning, speech recognition, chatbot, real-time feedback, personalized learning

Xarici dilin öyrənilməsi müasir təhsil sisteminin mühüm istiqamətlərindən biridir. Qloballaşma, beynəlxalq əməkdaşlığın genişlənməsi, akademik mobilliyin artması və əmək bazarında xarici dil biliklərinə tələbin yüksəlməsi fərdlərin yalnız dil qaydalarını bilməsini deyil, həmin dili real kommunikativ situasiyalarda sərbəst şəkildə istifadə etməsini zəruri edir. Bu baxımdan danışıq bacarığı xarici dil sərištəsinin ən mühüm komponentlərindən biri kimi çıxış edir.

Danışıq bacarığı mürəkkəb və çoxkomponentli bir prosesdir. Effektiv danışıq yalnız sözlərin düzgün tələffüz edilməsini deyil, həm də qrammatik düzgünlük, söz ehtiyatından məqsədəuyğun istifadə, nitqin səlisliyi, intonasiya, vurğu, ritm, nitq sürəti və kommunikativ situasiyaya uyğun ifadələrin seçilməsini tələb edir. Bu komponentlərin eyni vaxtda idarə olunması xarici dil öyrənənlər üçün müəyyən çətinliklər yaradır [1, 5].

Xüsusilə xarici dil öyrənənlər arasında dil bilikləri ilə real danışıq performansı arasında fərq müşahidə oluna bilər. Tələbə qrammatik qaydaları bilməsinə, söz ehtiyatına malik olmasına və yazılı tapşırıqları uğurla yerinə yetirməsinə baxmayaraq, danışıq zamanı tərəddüd edə, fikrini tam ifadə edə və ya səhv etmək qorxusu yaşaya bilər. Belə vəziyyətlərdə yalnız

DOI:10.30546/gdu.5.2026

nəzəri dil tədrisi kifayət etmir; öyrənənə davamlı, təhlükəsiz və məqsədyönlü danışıq praktikası təqdim etmək lazımdır.

Ənənəvi xarici dil tədrisində bu məqsədlə debat, rol oyunu, qrup müzakirəsi, təqdimat, seminar, simulyasiya, dialoq, problem əsaslı tapşırıqlar və digər kommunikativ metodlardan istifadə olunur. Lakin böyük qruplarda hər tələbənin kifayət qədər danışıq vaxtı əldə etməsi və müəllimin hər bir tələbəyə fərdi rəy verməsi çətinləşir. Müəllimin vaxt imkanlarının məhdudluğu xüsusilə tələffüz, səlislik və nitqin fərdi xüsusiyyətlərinin sistemli şəkildə izlənilməsinə mane ola bilər.

Süni intellekt texnologiyalarının inkişafı bu baxımdan yeni imkanlar yaratmışdır. Süni intellekt əsaslı sistemlər insan nitqini qəbul edə, onu mətnə çevirə, linqvistik xüsusiyyətlərini təhlil edə və istifadəçinin cavabına uyğun reaksiya yarada bilir. Bu imkanlar xarici dil tədrisində süni intellektdən istifadənin genişlənməsinə səbəb olmuşdur [2].

Məqalədə əsas məqsədimiz süni intellekt texnologiyalarının xarici dil öyrənənlərin danışıq bacarıqlarının inkişaf etdirilməsində rolunu müəyyənləşdirmək, onun əsas funksional imkanlarını, üstünlüklərini və məhdudiyyətlərini təhlil etmək və süni intellektlə ənənəvi dil tədrisinin inteqrasiyası üçün pedaqoji yanaşmalar irəli sürməkdir.

Danışıq dili insanın sosial qarşılıqlı əlaqəsinin əsas vasitələrindən biridir. Xarici dil tədrisində danışıq bacarığının əsas məqsədi öyrənənin dil vahidlərindən real kommunikativ məqsədlər üçün istifadə edə bilməsini təmin etməkdir. Danışıq səriştəsinin əsas göstəricilərindən biri səlislikdir. Səlis danışan şəxs fikirlərini uzun fasilələr vermədən və həddindən artıq tərəddüd etmədən ifadə edə bilir.

Tələffüz də danışıq bacarığının mühüm komponentidir. Düzgün tələffüz dinləyicinin nitqi anlamasını asanlaşdırır. Burada yalnız ayrı-ayrı səslərin düzgün deyilməsi deyil, söz vurğusu, cümlə intonasiyası, ritm və nitqin melodik xüsusiyyətləri də əhəmiyyətlidir.

Söz ehtiyatı da danışıq fəaliyyətinin mühüm şərtidir. Tələbə kifayət qədər söz bilmədikdə fikrini ifadə etməkdə çətinlik çəkir və kommunikativ prosesdə uzun fasilələr yaranır. Buna görə danışıq təlimi sözlərin ayrı-ayrılıqda əzbərlənməsi ilə məhdudlaşmamalı, onların cümlə və kommunikativ situasiyalarda istifadəsini də əhatə etməlidir.

Danışıq bacarığının inkişafında psixoloji faktorlar da əhəmiyyətli rol oynayır. Səhv etmək qorxusu, həmyaşıdların mənfi qiymətləndirməsindən çəkinmək və özünəinamın aşağı olması tələbənin danışıq fəaliyyətində passivlik yaradır. Bu baxımdan öyrənən üçün təhlükəsiz və mühakiməsiz praktika mühiti yaratmaq mühüm pedaqoji şərtdir.

Danışıq bacarığının inkişafına təsir edən amilləri şərti olaraq daxili və xarici qruplara bölmək mümkündür. Daxili amillərə motivasiya, özünəinam, dil səviyyəsi, yaddaş, söz ehtiyatı, tələffüz qabiliyyəti və səhv etmək qorxusu daxildir. Xarici amillər isə təlim mühiti, müəllimin metodik yanaşması, danışıq praktikasının həcmi, texnoloji resurslara çıxış və kommunikativ situasiyaların müxtəlifliyi ilə əlaqədardır.

Ənənəvi auditoriya şəraitində tələbələrin hamısının eyni dərəcədə danışıq təcrübəsi əldə etməsi həmişə mümkün olmur. Eyni zamanda, müəllimin bütün tələbələrin tələffüzünü və nitq səhvlərini eyni anda qeydə alması və sistemləşdirməsi praktiki baxımdan mürəkkəbdir.

Süni intellekt texnologiyalarının əsas üstünlüklərindən biri bu problemi müəyyən dərəcədə kompensasiya edə bilməsidir. Tələbə dərsdən sonra da virtual danışıq tərəfdaşı ilə məşq edə, nitqini qeydə ala və sistemdən ilkin rəy əldə edə bilər [3].

Süni intellekt təhsil prosesində məlumatların emalı, fərdiləşdirilmiş məzmunun yaradılması, qiymətləndirmə, rəy və interaktiv öyrənmə kimi müxtəlif funksiyaları yerinə yetirə bilir. Xarici dil tədrisində onun əsas üstünlüyü insan dilinin rəqəmsal şəkildə emal edilməsidir. Süni intellekt sistemləri istifadəçinin yazılı və şifahi girişini qəbul edir, həmin məlumatı təhlil edir və cavab yaradır.

DOI:10.30546/gdu.5.2026

Danışıq təlimində bu imkanlar xüsusilə əhəmiyyətlidir. Tələbə virtual sistemlə danışa, suallara cavab verə və müxtəlif situasiyalarda ünsiyyət qura bilər. Sistem isə həmin qarşılıqlı əlaqəni müəyyən parametrlər üzrə təhlil edə bilər və bu baxımdan süni intellekt ənənəvi təlimdə çatışmayan üç vacib elementi dəstəkləyir: 1. davamlı praktika, 2. fərdiləşdirilmiş rəy, 3. kommunikativ simulyasiya [7, 8].

Tələffüz təlimində süni intellektin imkanları xüsusilə genişdir. Tələbənin nitqi analiz edilərək problemli səslər, sözlər və ifadələr müəyyənləşdirilə bilər.Tələffüzün inkişafında seqmental və supraseqmental xüsusiyyətlər fərqləndirilir. Seqmental xüsusiyyətlər ayrı-ayrı səslərin düzgün tələffüzü ilə, supraseqmental xüsusiyyətlər isə vurğu, intonasiya, ritm və nitqin melodik quruluşu ilə əlaqədardır.

Sİ əsaslı platformalar bu komponentlərin bəzilərini avtomatik şəkildə təhlil edə bilir. Bununla belə, texnologiyanın qiymətləndirməsi mütləq həqiqət kimi qəbul edilməməlidir. Xüsusilə müxtəlif aksentlər və regional tələffüz formaları ilə bağlı sistemlərin yanılma ehtimalı nəzərə alınmalıdır.

Süni intellektin ən əhəmiyyətli üstünlüklərindən biri real vaxt rejimində rəy təqdim etməsidir. Ənənəvi tədrisdə müəllim tələbənin danışığını dinləyir, qeydlər aparır və müəyyən vaxtdan sonra rəy verir. Süni intellekt isə cavabdan dərhal sonra müəyyən göstəricilər üzrə rəy təqdim edə bilər.

Real vaxt rejimində rəy üç mərhələli inkişaf modelinə şərait yaradır: danışıq → rəy → təkrar danışıq. Bu üçlük nə qədər çox təkrarlanırsa, tələbənin səhvləri müşahidə etməsi və düzəltməsi üçün bir o qədər çox imkan yaranır.

Çatbotlar öyrənən üçün virtual danışıq tərəfdaşı rolunu oynayır və bu zaman yaranan psixoloji gərginliyin müəyyən qədər azalmasına və praktikanın intensivləşməsinə kömək edə bilir.

Fərdiləşdirilmiş təlim süni intellektin xarici dil tədrisində ən mühüm imkanlarından biridir. Ənənəvi tədris prosesində tələbələr eyni dərs planı ilə işləyə bilmə imkanına malik ola bilir. Süni intellekt isə tələbənin əvvəlki fəaliyyətinə əsaslanaraq növbəti tapşırıqları dəyişə bilir. Məsələn: tələffüz problemi olan tələbəyə tələffüz məşqləri, söz ehtiyatı məhdud olan tələbəyə leksik tapşırıqlar, qrammatik səhvləri çox olan tələbəyə strukturlaşdırılmış danışıq tapşırıqları və

Bu xüsusiyyət öyrənmə prosesini daha fərdi və məqsədyönlü edir. Müasir dil öyrənmə mühitində müxtəlif süni intellekt əsaslı danışıq platformaları fəaliyyət göstərir. Onlara nümunə kimi FLOW Speak, Pronounce, Eduling Speak, Speak, Loora, SmallTalk2Me, ELSA Speak, Praktika, Gabble.ai və Yoodli kimi alətləri göstərə bilərik [5].

FLOW Speak strukturlaşdırılmış və ssenari əsaslı danışıq praktikası təqdim edir. Platforma real həyat və peşəkar ünsiyyət situasiyalarının modelləşdirilməsinə, nitqin və tələffüzün təhlilinə yönəlmişdir. Belə yanaşma öyrənənin dərslikdə öyrəndiyi dili real kommunikativ situasiyaya keçirməsinə kömək edə bilər. Məqalədə bu platformaların bəziləri haqqında məlumat verəcəyik.

ELSA Speak əsasən tələffüz təliminə yönəlmiş Sİ əsaslı platformadır. Onun əsas xüsusiyyətlərindən biri söz və cümlə səviyyəsində tələffüzün təhlilidir. Platformada vurğu, intonasiya və nitqin digər xüsusiyyətləri ilə bağlı məşqlər də təqdim edilir.

Eduling Speak real dünya söhbətlərinə əsaslanan tapşırıqları və müxtəlif iştirak formalarını birləşdirir. Fərdi fəaliyyət, Sİ ilə söhbət və həmyaşıd əməkdaşlığı kimi yanaşmaların bir sistemdə birləşdirilməsi danışıq təcrübəsini daha geniş kommunikativ mühitə çıxarır.

DOI:10.30546/gdu.5.2026

Gabble.ai real söhbət təcrübələrinin simulyasiyasına və tapşırıqların istifadəçi məqsədlərinə uyğunlaşdırılmasına yönəlmişdir. Tələffüz, qrammatika və söz ehtiyatı üzrə rəy imkanları danışıq bacarığının müxtəlif komponentlərini əhatə edir.

Yoodli daha çox ictimai nitq və kommunikasiya bacarıqlarının inkişafına yönəlmişdir. Avtomatik transkripsiya, nitq sürəti, doldurucu sözlər və təqdimat performansının digər göstəricilərinin təhlili istifadəçiyə öz nitqini sistemli şəkildə nəzərdən keçirməyə imkan verir.

Göründüyü kimi bütün platformaların funksiyaları eyni deyil. Bəziləri tələffüzə, bəziləri ümumi danışıq bacarığına, digərləri isə ictimai nitq və peşəkar kommunikasiya kimi xüsusi sahələrə yönəlir. Buna görə platforma seçimi tələbənin məqsədindən asılı olmalıdır.

Danışıq bacarığının inkişaf etdirilməsində süni intellektin üstünlükləri ilə yanaşı, bir sıra məhdudiyyətləri də mövcuddur. İlk problem texniki əlçatanlıqdır. Stabil internet, müasir cihaz və uyğun proqram təminatı olmadan Sİ əsaslı təlimin tətbiqi çətinləşir. İkinci problem qiymətləndirmənin dəqiqliyidir. Nitq tanıma sistemləri müxtəlif aksentlər, dialektlər, regional tələffüz xüsusiyyətləri və səs keyfiyyəti ilə bağlı çətinliklərlə qarşılaşa bilər. Üçüncü problem pedaqoji nəzarətlə bağlıdır. Tələbə Sİ tərəfindən təqdim olunan hər bir cavabı avtomatik olaraq doğru qəbul edə bilər. Halbuki süni intellekt də səhv məlumat və ya qeyri-dəqiq rəy yarada bilər. Bu səbəbdən müəllimin nəzarəti vacibdir. Dördüncü məhdudiyyət insan ünsiyyətinin tam modelləşdirilə bilməməsidir. İnsanlar yalnız sözlərlə deyil, emosiyalar, mimika, jestlər, sosial münasibətlər, mədəni kontekst və spontan reaksiyalar vasitəsilə ünsiyyət qururlar. Sİ bu xüsusiyyətlərin müəyyən hissəsini modelləşdirə bilsə də, insan ünsiyyətini tam şəkildə əvəz edə bilməz. Beşinci məsələ məlumat təhlükəsizliyi və məxfilikdir. Danışıq nümunələrinin rəqəmsal platformalara ötürülməsi zamanı şəxsi məlumatların qorunması, məlumatların saxlanması və istifadəsi ilə bağlı qaydalar nəzərə alınmalıdır [4, 43].

Tədqiqatın nəticələrindən ali məktəblərdə, ümumtəhsil müəssisələrində, dil kurslarında və müstəqil dil öyrənməsində istifadə etmək mümkündür.

Müəllimlər Sİ əsaslı danışıq vasitələrini dərsin əsas hissəsini əvəz etmək üçün deyil, əlavə praktika mərhələsi kimi tətbiq edə bilərlər.

Məsələn, aşağıdakı modeldən istifadə edilə bilər:

I mərhələ – hazırlıq: Müəllim yeni mövzu və lüğət vahidlərini təqdim edir.

II mərhələ – Sİ praktikası: Tələbələr mövzu üzrə süni intellektlə fərdi dialoqlar aparırlar.

III mərhələ – özünüqiymətləndirmə: Tələbələr Sİ tərəfindən verilən rəyi nəzərdən keçirirlər.

IV mərhələ – müəllim rəhbərliyi: Müəllim ümumi səhvləri və fərdi problemləri müzakirə edir.

V mərhələ – canlı kommunikasiya: Tələbələr qrup müzakirəsi, debat və ya rol oyunu həyata keçirirlər.

VI mərhələ – refleksiya: Tələbələr Sİ ilə əvvəlki nəticələri müqayisə edir və növbəti məqsədləri müəyyənləşdirirlər [6].

Belə model Sİ-nin fərdiləşdirilmiş imkanlarını canlı insan ünsiyyəti ilə birləşdirir.

Tədqiqatlar göstərir ki, süni intellekt əsaslı danışıq təliminin gələcək inkişafı bir neçə istiqamətdə baş verə bilər. Gələcəkdə Sİ sistemləri səs, video, mətn, jest və üz ifadələrini birlikdə təhlil edə və kommunikativ situasiyaların daha real simulyasiyasına imkan yarada bilər. Növbəti illərdə süni intellektin təhsil platformalarına güclü inteqrasiyası göslənilir və bu ayrıca tətbiq kimi deyil, universitetlərin və məktəblərin mövcud təhsil sistemlərinin bir hissəsi kimi fəaliyyət göstərə bilər.

DOI:10.30546/gdu.5.2026

Aparılan nəzəri və müqayisəli təhlil göstərir ki, süni intellekt danışıq bacarıqlarının inkişaf etdirilməsində ənənəvi tədrisin bir sıra məhdudiyyətlərini kompensasiya edə bilər. Xüsusilə praktik imkanlarının genişləndirilməsi, ani rəy və fərdiləşdirmə süni intellektin əsas üstünlükləridir.

Sİ-in effektivliyi onun təlim prosesində necə tətbiq edilməsindən asılıdır. Texnologiyanın sadəcə dərsə əlavə edilməsi avtomatik olaraq təlim nəticələrinin yaxşılaşmasına gətirib çıxarmır, onun fəaliyyəti konkret təlim məqsədi ilə əlaqələndirilməli və müəllim tərəfindən istiqamətləndirilməlidir.

Süni intellekt texnologiyalarının inkişafı xarici dil tədrisinin, xüsusilə danışıq bacarıqlarının inkişaf etdirilməsi prosesinin yeni mərhələyə keçməsinə şərait yaradır. Nitqin avtomatik tanınması, tələffüzün təhlili, real vaxt rejimində rəy, süni intellekt çatbotları, danışıq simulyasiyaları və fərdiləşdirilmiş təlim imkanları öyrənənlərin danışıq praktikasını genişləndirir.

Süni intellekt xüsusilə ənənəvi auditoriyada kifayət qədər danışıq vaxtı əldə edə bilməyən tələbələr üçün əlavə imkan yaradır. Tələbə dərsdənkənar vaxtda virtual danışıq tərəfdaşı ilə məşq edə, nitqini təkrar edə və müəyyən səhvlər haqqında dərhal məlumat ala bilər. Bu imkanlar danışıq təcrübəsinin intensivliyini artıra bilər.

Bununla yanaşı, süni intellektin məhdudiyyətləri də nəzərə alınmalıdır. Avtomatik sistemlər müxtəlif aksentləri, regional tələffüz fərqlərini və mürəkkəb kommunikativ xüsusiyyətləri həmişə düzgün qiymətləndirməyə bilər. Bundan başqa, süni intellekt insan ünsiyyətinin emosional, sosial, mədəni və spontan xüsusiyyətlərini tam şəkildə əvəz edə bilmir.

Bu səbəbdən süni intellektin ənənəvi müəllim-tələbə münasibətlərini əvəz edən texnologiya kimi deyil, həmin münasibətləri tamamlayan pedaqoji vasitə kimi tətbiqi daha məqsədəuyğundur.

Süni intellektin danışıq bacarıqlarının inkişafında ən yüksək səmərəliliyi fərdi Sİ praktikası+müəllim rəhbərliyi+canlı insan ünsiyyəti modelində nümayiş etdirmədir. Bu model texnologiyanın fərdiləşdirmə və ani rəy imkanlarını insan ünsiyyətinin emosional, sosial və mədəni xüsusiyyətləri ilə birləşdirir.

Nəticə etibarilə, süni intellekt xarici dil öyrənənlərin danışıq bacarıqlarının inkişafı üçün mühüm potensiala malikdir. Onun düzgün metodik yanaşma əsasında tətbiqi tələbələrin daha çox danışmasına, səhvlərindən öyrənməsinə, özünəinam qazanmasına və real kommunikativ situasiyalara daha yaxşı hazırlanmasına imkan verə bilər.

Ədəbiyyat

1. Abdullaev, Kh., & Mamadkulov, J. S. (2021). Difficulties in teaching and testing speaking skills. Tashkent: Xorazm Ma'mun Akademiyasi Axborotnomasi, No. 12, pp.5–7. https://www.researchgate.net/publication/373926978_
2. Artificial Intelligence and Speech Analysis. European Science. https://europeanscience.org/index.php/4/article/view/
3. How Does AI Provide Real-Time Feedback to Students? Apporto. https://www.apporto.com/how-does-ai-provide-real-time-feedback-to-students
4. Nuryansyah, A. H., & Siti, H. (2024). Enhancing students' speaking skill through a communicative approach with the Simon Says Game. Edulanguage English Education Journal, 10(2), 41–53. https://zenodo.org/records/7248883
5. Wang, Y., Zuyang, J. Z., & Zhou, H. (2026). Artificial intelligence in language learning: A twenty-year scoping review of applications, research methods and outcomes. https://www.tandfonline.com/doi/full/10.1080/29984475.2026.2647961

DOI:10.30546/gdu.5.2026

6. What is Artificial Intelligence?
IBM.https://www.ibm.com/think/topics/artificial-intelligence
7. Zhang, X. (2025). Enhancing oral English learning through AI: A case study on the impact of AI-driven speaking applications among Chinese university students. Frontiers in Psychology, 16, p.1–10.

РОЛЬ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В РАЗВИТИИ НАВЫКОВ ГОВОРЕНИЯ

Ханбутаева Аида Расим

Резюме

В современном обучении иностранным языкам развитие навыков говорения является одной из основных коммуникативных целей. Несмотря на наличие грамматических знаний и достаточного словарного запаса, многие изучающие иностранный язык испытывают трудности при свободном общении в реальных ситуациях. Страх совершить ошибку, низкая уверенность в себе, проблемы с произношением и недостаток разговорной практики являются основными причинами этих трудностей. Интеграция технологий искусственного интеллекта в образовательный процесс создает новые возможности для развития устной речи. ИИ-чат-боты, автоматическое распознавание речи, обратная связь в реальном времени, речевые симуляции и анализ речи обеспечивают персонализированную и непрерывную практику говорения. В статье роль искусственного интеллекта в развитии навыков говорения рассматривается на основе теоретико-аналитического подхода. В исследовании применялись методы сравнительного, контент- и функционально-педагогического анализа, а также были изучены возможности и ограничения ИИ-платформ. Результаты показывают, что искусственный интеллект может положительно влиять на развитие произношения, беглости речи, грамматики, словарного запаса и коммуникативной компетенции. Вместе с тем наиболее эффективным является использование ИИ не как замены преподавателю, а как дополнительного средства обучения в рамках сотрудничества преподавателя и искусственного интеллекта.

THE ROLE OF ARTIFICIAL INTELLIGENCE IN THE DEVELOPMENT OF SPEAKING SKILLS

Khanbutayeva Aida Rasim

Summary

In modern foreign language education, the development of speaking skills is one of the key communicative objectives. Despite having sufficient grammatical knowledge and vocabulary, many foreign language learners experience difficulties in communicating freely in real-life situations. Fear of making mistakes, low self-confidence, pronunciation problems, and insufficient speaking practice are among the main causes of these difficulties. The integration of artificial intelligence technologies into education has created new opportunities for developing oral communication skills. AI chatbots, automatic speech recognition, real-time feedback, speaking simulations, and speech analytics provide learners with personalized and continuous speaking practice. This article examines the role of artificial intelligence in developing speaking skills through a theoretical and analytical approach. Comparative, content, and functional-pedagogical analysis methods were used to examine the capabilities and limitations of AI-based speaking platforms. The findings indicate that artificial intelligence can positively contribute to the development of pronunciation, fluency, grammar, vocabulary, and communicative competence. However, the most effective approach is to use AI not as a replacement for the teacher, but as an additional learning tool within a teacher–AI collaboration model.

Rəyçi: p.e.d., dos. İmanova Sevda
Daxil olma tarixi 02 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

FİLOLOGİYA ELMLƏRİ

UOT:37.

XƏSTƏ HƏSƏNİN YAŞADIĞI DÖVR İLƏ BAĞLI ARAŞDIRMALARIN TƏHLİLİ

Xıdırlı Günel Telman qızı
ADPU-nun doktorantı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://ORCİD.org/0009-0004-4238-0424
xidirligunel91@gmail.com

Xülasə: *Məqalədə XIX əsr Axısqa aşıq mühitinin görkəmli nümayəndələrindən biri olan Xəstə Hasanın həyatı, yaradıcılığı və yaşadığı dövrlə bağlı tədqiqatlarda mövcud olan fikir ayrılıqları araşdırılır. Xüsusilə aşığın doğum və vəfat tarixləri, yaşadığı əsr, ustad-şagird münasibətləri və "Yüzdə bir" divanisindəki tarixlərin hansı hadisəni ifadə etməsi məsələləri müxtəlif tədqiqatçıların fikirləri əsasında müqayisəli şəkildə təhlil edilir.*

Araşdırmada Xəstə Hasanın yaşadığı dövr barədə XVII əsrdən XIX əsrin sonu – XX əsrin əvvəllərinə qədər uzanan fərqli tarixlərin mövcud olduğu göstərilir. Aşığın şagirdi Aşıq Nuru, onun şagirdi Aşıq Şenlik, eləcə də Xəstə Hasanın deyişdiyi sənətkarlarla bağlı məlumatlar bu tarixlərin yoxlanılmasında mühüm meyarlardan biridir. "Yüzdə bir" divanisindəki 1214, 1218 və "səksən üçdə ömrü tamam eylərəm" ifadələri ətrafında yaranmış müxtəlif şərhlər təhlil edilərək, bu tarixlərin doğum, vəfat və ya şeirin söylənmə tarixi kimi qəbul edilməsinin fərqli nəticələr doğurduğu müəyyənləşdirilir.

Məqalədə V.Hacılar, Ə.Şamil, N.Əhmədli, A.B.Alptekin, Ş.Məmmədli, A.Ağbaba, N.Əskər, İ.Kazımov, F.Kırzıoğlu və digər tədqiqatçıların Xəstə Hasanın bioqrafiyası ilə bağlı mülahizələri qarşılaşdırılır. Eyni zamanda cüng-bəyazlar, kameral təsvirlər, şeirlərdəki tarixi işarələr, şifahi məlumatlar nəzərdən keçirilir. Araşdırma göstərir ki, Xəstə Hasanın həyatı ilə bağlı irəli sürülən tarixlərin bir qismi yazılı sənədlərlə tam təsdiqlənmir və bəzi qənaətlər şifahi rəvayətlərə, xatirələrə və mətnlərdəki mübahisəli tarixlərə əsaslanır.

Nəticə etibarilə Xəstə Hasanın doğum və ölüm tarixləri hələ də tam dəqiqləşmədiyi üçün, yeni yazılı mənbələrin araşdırmaya cəlb edilməsinin zəruri olduğu qənaətindəyik.

Açar sözlər: tarix, həyat, Xəstə Həsən, doğum, ölüm, şeir, aşıq
Keywords: hitory, life, Khasta Hasan, birth, death, poetry, ashug
Ключевые слова: дата, жизнь, Хаста Гасан, рождение, смерть, стихотворение, ашуг

Son dövrlərdə Xəstə Həsənin yaradıcılığı, həyatı və ümumilikdə Axısqa aşıq mühiti ilə bağlı müxtəlif tədqiqatlar aparılmışdır. Mövcud araşdırmalarda Xəstə Həsənin həyat və yaradıcılığına dair bir sıra mübahisəli məqamlar diqqəti cəlb edir. Bu məsələləri əsas istiqamətlər üzrə aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

Aşıq İslam Ərdənər qeyd etmişdir ki, Xəstə Hasanın şagirdlərindən biri olan Aşıq Nuru 1870-ci illərdə Hasanı, yəni Aşıq Şenliyi sınağa çəkmək üçün Xəstə Hasanın üç şeirini deyir və Şenlik ona cavab verir. Bu zaman Xəstə Hasan, yəqin ki, dünyasını dəyişmişdi (6, s.272). Deməli, Xəstə Hasanın vəfat tarixi 1870-ci illərdən əvvələ aiddir.

Aşıq İslam aşığın "Yüzdə bir" divanisinin möhürbəndindəki "Sənə min iki yüz on səkkizdi, yox tarixim sayam" misrasındakı tarixin 1802-cü ilə uyğun gəldiyini söyləmişdir (7, s.14-15). A.Barat Alptekin, Aşıq Nuru haqqında yazır: "1811-1885-ci illər arasında Gürcüstanın Axısqa vilayətinin Axalkələk qəzasının Lebis kəndində yaşamış Aşıq Nuru Xəstə Hasanın şagirdidir. Sazı və sözü Xəstə Hasandan öyrənmişdir" (3, s.82). Xəstə Hasanın Aşıq Nurunun ustadı olduğunu nəzərə alaraq onun XIX əsrin I yarısında yaşadığını söyləmək olar.

DOI:10.30546/gdu.5.2026

Bu məsələ ilə bağlı Nazir Əhmədli yazır: "Bu halda Xəstə Hasan şəyirdi Nuridən 29 yaş böyükdür və təbii görünür. Əgər Xəstə Hasan Əli Şamilin yazdığı kimi 1762-ci və ya N.Əskərin yazdığı kimi 1760-cı ildə doğulsaydı, şəyirdi Nuridən 66-68 yaş böyük olacaqdı, bu isə inandırıcı deyil. Nurini təxminən 18-20 yaşlarında şəyirdliyə qəbul etdiyini düşünsək, bu 1846-1848-ci illərə düşür və o vaxt 47-48 yaşında olan Xəstə Hasan vəfat etdiyi 1859-cu ilə qədər, təxminən 10 il Nuriyə ustadlıq etmişdir" (3, s.82). Birinci cümlədən belə düşünmək olar ki, N.Əhmədli Xəstə Hasanın 1782-ci ildə doğulduğunu düşünür. Ancaq belə deyil, çünki müəllif daha əvvəl yazır: "Bu suala cavab vermək üçün professor V.Hacılının və Aşıq Ağbabalı İsgəndərin irəli sürdükləri 1214-cü il hicri-qəməri rəqəmini qəbul etməkdən başqa variant qalmır. Bu isə prof. V.Hacıların dediyi kimi 1800-cü yox, 1799-cu ilə düşür. Bizim qənaətimizə görə, Xəstə Hasan 1799-cu ildə doğulmuş və 1859-cu ildə, 60 yaşında vəfat etmişdir" (3, s.81). Heç də bütün tədqiqatçılar bu fikirlə razılaşmır.

Xəstə Hasanın şeirlərində qocalıqdan şikayət etməsini nəzərə alan Ə.Şamilə görə, səksən üç ifadəsini hicri 1283-cü il (1866) kimi qəbul etsək və bunu aşığın vəfat tarixi saysaq, onda doğum tarixi ən azından 1786-cı ilə düşməlidir (7, s.35). Özünün də qeyd etdiyi kimi Ə.Şamil adətən Xəstə Hasanın doğum və ölüm tarixləri kimi 1762-1848-ci illəri götürmüşdür (7, s.36).

A.B.Alptekinin və N.Əhmədlinin yazdıqlarını müqayisə etsək, onda Xəstə Hasanla şagirdi Aşıq Nuru arasında cəmi 12 yaş fərq olur. Bu isə inandırıcı deyil.

O, 1859-cu il tarixini isə Xəstə Hasanın ailəsində 1858-ci ildə yox, 1865-ci ildə doğulmuş uşağa Hasan adının verilməsi ilə izah edir (3, s.81). Bu barədə digər bir fakt isə kameral təsvirdə 1860-cı ilə aid Xəstə Hasanın adının qabağındakı "ölüb" qeydidir (3, s.80).

Osman Əhmədoğluna görə, "Yüzdə bir" divanisindəki 1218-ci il Xəstə Hasanın doğum tarixidir və aşıq 69 il ömür sürmüşdür. Murtaza Tursunova görə isə Xəstə Hasan bu şeiri 1242-ci ildə, 58 yaşında söyləyib. Ə.Şamil bu fikirlə razılaşmır: "Lebis kimi dağ yerində yaşayanlar adətən sağlam olur və 66 yaşında hələ özünü gümrah hiss edərək fiziki işlə məşğul olurlar. Aşığın toplaya bildiyimiz və variantları olan şeirlərinin əksəriyyətində çox qocaldığından söhbət açılır" (7, s.34). Ə.Şamil aşığın qocalıqdan şikayət etdiyi misralara bunları nümunə göstərir: "Hasta sinnidir, tutmayır bu dizim, doldu sinim, keşdi günüm, ihtiyar əldən gedər, dolufdu ömrümün baratı tarıhlar tamam oler, dolubdur ömür günləri" (6, s.285).

Divanidəki tarix müxtəlif şəkillərdə qəbul olunur: 1214 (miladi 1798), 1218 (miladi 1802), 1240 (miladi 1823), 1290 (miladi 1873) (7, s.37).

Aşıq İslam Ərdənər, Aşıq İsgəndər Ağbabalı və Aşıq Murtaza Tursunovun bu tarixi şeirin söyləndiyi tarix kimi qəbul etmişlər. Ə.Şamil də bu fikirlə razılaşmışdır. Bunu təsdiqləyən bir cəhət də divanidə adı çəkilən aşıqların 1850-ci illərdən əvvəl yaşamasıdır (7, s.37).

Nizamettin Onk Xəstə Hasanın XIX əsrin sonu XX əsrin əvvəllərində yaşadığını yazmışdır (6, s.276). Ancaq bu fikir mübahisəlidir, çünki yuxarıda da qeyd olunduğu kimi Xəstə Hasanın şagirdi aşıq Nuru XIX əsrin sonunda vəfat etmişdir.

Ə.Şamil Xəstə Hasanın həyatı barədə nəvə-nəticəsindən məlumatlar almış, onun şeirlərindəki tarixlərə, həmçinin aşıq Şenliyin Aşıq Nurunun yanına gətirilməsi rəvayətinə əsaslanmış və aşığın 1766-1849-cu illərdə, yaxud hicri 1182-1265-ci (miladi 1768-1849-cu) illərdə yaşadığını göstərmişdir (8, 103-104; 7, s.45). Ancaq sonrakı araşdırmalarında bu barədə yeni qənaətlərə də gəlmişdir. Onun fikrincə, Xəstə Hasan Rusiyanın Axısqanı işğal etdiyi dövrdən (1828) öncə yaşamışdır (7, s.37).

Şurəddin Məmmədli (Məmmədov) Qarapapaq "Borçalı ədəbi mühiti: qaynaqları, təşəkkülü, inkişafı" kitabında və doktorluq dissertasiyasında Xəstə Hasanın həyat hekayəsiylə

DOI:10.30546/gdu.5.2026

bağlı yeni bilgilərdən yararlanmış, yaşadığı dövrü müəyyənləşdirməkdə özündən əvvəl yazan müəlliflərin fikirlərilə razılaşmadığını bildirmişdir. Onun böyük xidmətlərindən biri də ilk dəfə Ziya Borçalının hazırlamış olduğu cüng-bəyazları, Gürcüstan Elmlər Akademiyası K.Kekelidze adına Əlyazmalar İnstitutundakı cüng-bəyazılarıları və b. cüng-bəyazları araşdırmaya cəlb etməsi oldu (7, s.48). Deməli, Ş.Məmmədli bu məsələyə konkret qaynaqlar, yazılı sənədlər əsasında yanaşmışdır.

A.Ağbaba yazır ki, A.Hacılı Xəstə Hasanın yaşadığı dövr kimi XIX əsrin sonu, XX əsrin əvvəllərini göstərir (1, s.77). "Oğuz elindən – ozan dilindən" kitabında isə Xəstə Hasanın XIX əsrin əvvəllərində Axırkələkdə fəaliyyət göstərdiyi qeyd olunur (1, s.77).

V.Hacılar Xəstə Hasanın "Yüzdə bir" divanisinə əsaslanmışdır:

İl min iki yüz on dörd, hesabı yox ki sayam,
Çox aşıqlar gəlib keçdi, Xəstə Hasan yüzdə bir.

O bu tarixi aşığın anadan olduğu il kimi qəbul etmiş hicri 1214-cü ili miladi 1800-cü ilə çevirmişdir (4, s.15). N.Əhmədliyə görə isə hicri-qəməri 1214-cü il miladi tarixlə 1799-cu ilə uyğun gəlir (3, s.78).

Xəstə Hasanın "Yüzdə bir" divanisində deyilir:

Hasta Hasan, qəmli-qəmli söylərəm,
Qara xəncər vurub bağrım teylərəm,
Səksən üçdə ömrü tamam eylərəm,
Sayılmaz tarixi qədərim mənim (6, s.284).

V.Hacılar Xəstə Hasanın "Səksən üçdə ömrü tamam eylərəm" misrasındakı tarixin aşığın vəfat etdiyi tarixi göstərdiyini qeyd etmiş, hicri 1283-cü ili miladi 1866-cı ilə çevirmiş və aşığın 1800-1866-cı illərdə yaşadığını göstərmişdir (4, s.15). Şurəddin Qarapapaq da eyni fikirdə olmuşdur (7, s.33-34).

Nazir Əhmədliyə görə, Xəstə Hasanın 83 yaşında, yaxud hicri tarixi ilə 1283-cü ildə öləcəyini deməsi inandırıcı deyil: "Əvvəla ona görə ki, nə vaxt öləcəyini heç kim illər əvvəl söyləyə bilməz, insan şüuru buna qadir deyil, əgər bilsəydi belə, xiffətdən tezliklə ölə bilərdi. İkinci məsələ həmin şeirin doğrudan da Xəstə Hasana aid olub-olmamasıdır. Hətta şeirin Xəstə Hasana aid olması şübhə doğurmasa belə, həmin misranın sonradan hansısa aşıq tərəfindən dəyişdirilmədiyini heç kim söyləyə bilməz" (3, s.79). Əslində, şeirin sonunun başqa bir aşıq tərəfindən dəyişdirilməsi 83 ədədinin düzgün olmasını göstərə bilər. Xəstə Hasan özü nə vaxt öləcəyini bilməsə də, onun şeirini sonradan söyləyən aşıq bunu bilib, onun nə qədər yaşadığını, yaxud nə zaman öldüyünü deyə bilərdi.

A.Ağbaba aşığın yaşadığı dövrlə bağlı V.Hacıların mülahizələri ilə razılaşır və onun bu fikrini qəbul edir: "Xəstə Hasan XVIII yüzilliyin 60-cı illərində anadan olmuş, XIX əsrin 40-cı illərində vəfat etmişdir" (1, s.77). Halbuki V.Hacılar Xəstə Hasanla bağlı kitabında aşığın 1800-cü ildə anadan olub, 1866-cı ildə vəfat etdiyini bildirmişdir (4, s.15). Buradan da belə nəticəyə gəlmək olar ki, V.Hacılar əvvəlki yazılarında təxmini göstərdiyi tarixləri sonralar dəqiqləşdirmişdir.

Nailə Əskər də aşığın 1760-cı ildə Dırqına kəndində anadan olduğunu, 1840-cı ildə, 80 yaşında orada öldüyünü yazır (3, s.79). Görünür, o da V.Hacıların əvvəlki məlumatına əsaslanmışdır.

Aşığın yaşadığı dövrlə bağlı ən fərqli məlumatı İsmayıl Kazımov vermişdir. O, namizədlik dissertasiyasında Axısqanın XVII-XVIII əsr aşıqlarından biri kimi Axalkələkli Xəstə Hasanın da adını çəkmişdir. Ə.Şamil bu məsələyə etiraz edərək yazır: "Şeirlərində XVIII-XIX əsrlərdə yaşamış Vaqifin, Gövhərinin adını çəkən, Qul Qaranı, Aşıq Urfanı, Usta

DOI:10.30546/gdu.5.2026

Polad kimi sənətkarlarla qarşılaşan, nəvələrinin günümüzədək yaşayan bir insanın 17-ci yüzildə yaşamasını söyləməkdə isə diqqətsizliyə yol verib" (7, s.48). Maraqlıdır ki, türk alimi F.Kırzıoğlu da axalkələkli Xəstə Hasan adlı aşığın XVII əsrin sonu – XVIII əsrin əvvəllərində yaşadığını göstərmişdir (2, s.91). Xəstə Hasanın şeirlərində təsvir olunan hadisələr, deyişdiyi aşıqlar və s. onun XVII əsrdə yox, daha sonrakı dövrdə yaşadığını göstərir.

Burada mübahisə doğuran məqamlardan biri Xəstə Hasan və Aşıq Məhəmməd Səfilinin deyişməsidir. Belə ki, əksər müəlliflərə görə Xəstə Hasan XIX əsrdə artıq vəfat etmişdir. Məhəmməd Səfili isə XIX əsrin ikinci yarısında anadan olmuş və 1937-ci ildə repressiya qurbanı olmuşdur. A.Hacılı yazır Xəstə Hasanın XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşadığını yazmışdır (3, s.79). A.Ağbaba bununla razılaşmır: "Aşıq Şenliyin Aşıq Nurinin, Aşıq Nurinin Xəstə Hasanın şagirdi olduğunu, Aşıq Şenliyin 1850-1913-cü illər arasında yaşayıb yaratdığını nəzərə alsaq, onda Xəstə Hasanın XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşaması faktı özünü doğrultmur" (1, s.77)

Xəstə Hasanın həyatı barədə müxtəlif məlumatlar var və bunların heç də hamısı tarixi sənəd və faktlarla təsdiqlənmir. Bu barədə Əli Şamilin bir mülahizəsini də xatırlamaq yerinə düşər: "Amma nə yazıq ki, nə mənim yazdığımı, nə də Valeh Hacıların yazdığını təsdiqləyən yazılı qaynaq yoxdur. Necə deyərlər, hamımız mülahizə və xatirələrə, aşıqların və şeir həvəskarlarının söylədikləri rəvayətlərə dayanırıq" (7, s.38). Buraya keçmiş zamanlarda şəxslərin doğum və vəfat tarixlərinin tam dəqiqliklə sənədlərə köçürülmədiyini, yaxud aşığın indi həyatda olan qohumlarının XVIII-XIX əsrlərə dair məlumatları tam xatırlaya bilməyəcəklərini də əlavə etsək, Xəstə Hasanın həyatı barədə dəqiq faktların müəyyənləşdirilməsi çətinləşir.

Ədəbiyyat

1. Ağbaba A. Ağbaba-Çıldır aşıq mühiti. Bakı, Elm və təhsil, 2012, 310 s.
2. Əhmədli Nazir. Haqq-nahaqq seçilər Haqq divanında Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafi ya Mərkəzi, 2017, 288 s.
3. Əhmədli N. Xəstə Hasan gəldi deyə, çağırırlar adımı… // Dədə Qorqud, 2020, II, s.72-86.
4. Hacılar Valeh. Xəstə Hasan (Həyatı, şeirlərindən seçmələr). Tbilisi: Universal, 2009, s.86.
5. Hüseyinoğlu A.Ş.Ahıskalı Hasta Hasan Ve Onun Yarattığı Âşık Mektebi // Motif Akademi Halkbilimi Dergisi / 2011-2 (Temmuz-Aralık) (Azerbaycan Özel Sayısı-II), s.267-289.
6. Şamil (Şamilov) Əli Hüseyn oğlu. Axısqalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər), Bakı, Elm və təhsil, 2012, -248 səh.
7. Şamil A. Âşık Şenlik'e etkisi olan Hasta Hasan'ın sürgündeki akrabalarından derlenmiş malzemeler // Kafkas Üniversitesi-Kars İl Kültür ve Turizm Müdürlüğü Âşık Şenlik Sempozyumu 25-27 Mart 2012 Kars, s.99-107.

AN ANALYSIS OF RESEARCH ON THE PERIOD IN WHICH KHASTA HASAN LIVED AN ANALYSIS OF RESEARCH ON THE PERIOD IN WHICH KHASTA HASAN LIVED

Khidirli Gunel Telman

Summary

This article examines the differing views found in scholarly studies concerning the life, literary output, and historical period of Khasta Hasan, one of the prominent representatives of the nineteenth-century Akhiska ashug tradition. Particular attention is paid to discrepancies regarding the ashug's dates of birth and death, the century in which he lived, master–apprentice relationships, and the interpretation of the dates mentioned in his *Yüzdə bir* divani. These issues are comparatively analyzed on the basis of the views expressed by various researchers. The study demonstrates that a

DOI:10.30546/gdu.5.2026

wide range of dates has been proposed for the period in which Khasta Hasan lived, spanning from the seventeenth century to the late nineteenth and early twentieth centuries. Information concerning the ashug's apprentice, Ashug Nuru, Nuru's apprentice, Ashug Shenlik, and the artists with whom Khasta Hasan engaged in poetic exchanges constitutes one of the important criteria for verifying these dates. Various interpretations of the dates 1214 and 1218, as well as the expression "I shall complete my life at eighty-three" (*səksən üçdə ömrü tamam eylərəm*) in the *Yüzdə bir* divani, are examined. The analysis establishes that interpreting these dates as referring to the ashug's birth, death, or the date on which the poem was recited leads to different conclusions. The article compares the views of V. Hacılar, A. Shamil, N. Ahmadli, A. B. Alptekin, Sh. Mammadli, A. Aghbaba, N. Asgar, I. Kazimov, F. Kirzioglu, and other researchers regarding Khasta Hasan's biography. It also examines *cüng-bəyaz* manuscripts, cadastral surveys, historical references in the poems, and oral accounts. The findings indicate that some of the dates proposed in connection with Khasta Hasan's life have not been fully substantiated by written documents, while certain conclusions are based on oral traditions, recollections, and disputed chronological references in literary texts. In conclusion, since Khasta Hasan's dates of birth and death have yet to be established conclusively, we consider it essential to incorporate additional written sources into future research.

АНАЛИЗ ИССЛЕДОВАНИЙ, ПОСВЯЩЁННЫХ ЭПОХЕ ХАСТА ГАСАНА

Хыдырлы Гюнел Тельмановна

Резюме

В статье рассматриваются разногласия, существующие в исследованиях жизни, творчества и эпохи Хаста Гасана – одного из видных представителей ашугской среды Ахыски XIX века. На основе сопоставления мнений различных исследователей анализируются вопросы, связанные с датами рождения и смерти ашуга, веком его жизни, отношениями между наставником и учеником, а также интерпретацией дат, указанных в его дивани «Юзде бир» («Один из ста»).

В исследовании выявляется широкий диапазон датировок жизни Хаста Гасана – от XVII века до конца XIX – начала XX века. Важными критериями для проверки этих дат служат сведения об ученике ашуга Ашуге Нуру, его ученике Ашуге Шенлике, а также о мастерах, с которыми Хаста Гасан состязался в поэтическом искусстве. Анализируются различные интерпретации дат 1214 и 1218 годов, а также выражения «səksən üçdə ömrü tamam eylərəm» («в восемьдесят три года завершу свой жизненный путь»), содержащихся в дивани «Юзде бир». Установлено, что трактовка этих дат как года рождения, года смерти или времени создания стихотворения приводит к различным выводам.

В статье сопоставляются суждения В. Гаджылар, А. Шамиля, Н. Ахмедли, А. Б. Алптекина, Ш. Мамедли, А. Агбаба, Н. Аскера, И. Кязимова, Ф. Кырзыоглу и других исследователей о биографии Хаста Гасана. Наряду с этим рассматриваются джунг-беязи (рукописные сборники стихотворений), материалы камеральных описаний, исторические указания в поэтических текстах и устные свидетельства. Исследование показывает, что часть датировок, предложенных в связи с жизнью Хаста Гасана, не имеет полного подтверждения в письменных документах, а некоторые выводы основываются на устных преданиях, воспоминаниях и спорных датах, содержащихся в текстах.

В заключение приходим к выводу о необходимости привлечения к исследованию новых письменных источников, поскольку даты рождения и смерти Хаста Гасана до сих пор не установлены с достаточной точностью.

Rəyçi: M.Q. Allahmanlı
Daxil olma tarixi 14 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:80.

MƏDƏNİ MÜXTƏLİFLİYİN İDARƏ OLUNMASINDA DİL SİYASƏTİNİN ƏHƏMİYYƏTİ

Allahverdiyeva Aytən Elşad qızı
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nəsimi adına Dilçilik İnstitutu
https://orcid.org/0009-0000-6660-0357
a._ayten@mail.ru
aytanallahverdiyeva@anas.az

Xülasə: *Müasir qloballaşma şəraitində mədəni müxtəlifliyin idarə olunması cəmiyyətlərin qarşısında duran mühüm sosial-siyasi məsələlərdən biridir. Etnik, dini və dil müxtəlifliyinə malik cəmiyyətlərdə dil siyasəti mədəni fərqliliklərin qorunması, sosial inteqrasiyanın təmin edilməsi və qarşılıqlı anlaşmanın gücləndirilməsi baxımından mühüm vasitə kimi çıxış edir. Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda fərdi və kollektiv kimliyin, mədəni irsin və sosial bağlılığın əsas elementlərindən biridir.*

Bu məqalənin əsas məqsədi mədəni müxtəlifliyin idarə olunmasında dil siyasətinin rolunu araşdırmaq, müxtəlif dil qruplarının hüquqlarının qorunması ilə dövlət dili siyasəti arasında qarşılıqlı əlaqəni təhlil etməkdir. Tədqiqat çərçivəsində dil siyasətinin əsas istiqamətləri, çoxdilli cəmiyyətlərdə tətbiq olunan yanaşmalar və dil hüquqlarının sosial inteqrasiyaya təsiri nəzərdən keçirilir. Məqalədə uğurlu dil siyasətinin, bir tərəfdən dövlət dilinin cəmiyyətdə birləşdirici funksiyasını gücləndirdiyi, digər tərəfdən isə milli azlıqların dil və mədəni irsinin qorunmasına şərait yaradığı vurğulanır.

Açar sözlər: multikulturalizm, dil siyasəti, mədəni müxtəliflik, dil hüquqları, sosial inteqrasiya, çoxdillilik

Keywords: multiculturalism, language policy, cultural diversity, language rights, social integration, multilingualism

Ключевые слова: мультикультурализм, языковая политика, культурное разнообразие, языковые права, социальная интеграция, многоязычие

Giriş

Dil hər bir cəmiyyətin mədəni yaddaşını, tarixi təcrübəsini və sosial kimliyini ifadə edən mühüm amildir. Buna görə də dil məsələləri yalnız kommunikasiya çərçivəsində deyil, həm də siyasi, sosial və mədəni münasibətlər sistemində nəzərdən keçirilir. Dövlətlərin həyata keçirdiyi dil siyasəti bir tərəfdən dövlət dilinin inkişafını və ictimai inteqrasiyanı təmin edir, digər tərəfdən isə müxtəlif etnik və mədəni qrupların dil hüquqlarının qorunmasına imkan yaradır.

Multikultural cəmiyyətlərdə dil siyasətinin əsas vəzifəsi dil müxtəlifliyini cəmiyyət üçün qarşıdurma mənbəyinə deyil, mədəni zənginlik amilinə çevirməkdir. Bu məqsədlə dövlətlər dil hüquqlarının təmin edilməsi, ana dillərinin qorunması, çoxdilli təhsilin təşviqi və mədəniyyətlərarası dialoqun inkişafı istiqamətində müxtəlif mexanizmlər tətbiq edirlər. Balanslaşdırılmış dil siyasəti müxtəlif sosial qrupların cəmiyyətə inteqrasiyasını gücləndirməklə yanaşı, milli birliyin və ictimai həmrəyliyin möhkəmlənməsinə də xidmət edir.

Bu baxımdan müxtəlif ölkələrin təcrübəsi göstərir ki, dil siyasəti yalnız ümumi nəzəri prinsiplər əsasında deyil, həm də hər bir cəmiyyətin tarixi, sosial və mədəni xüsusiyyətləri nəzərə alınmaqla formalaşdırılır. Xüsusilə çoxmədəniyyətli dövlətlərdə dil siyasəti milli

DOI:10.30546/gdu.5.2026

birliyin qorunması ilə yanaşı, mövcud mədəni müxtəlifliyin idarə olunmasına xidmət edən mühüm mexanizm kimi çıxış edir.

Azərbaycan kontekstində multikulturalizm siyasəti də bu çərçivədə qiymətləndirilə bilər. Bu siyasət ölkənin "sivilizasiyaların qovşağı" kimi təqdim olunmasını, onun mədəni müxtəlifliyə əsaslanan tarixi və mədəni irsinin vurğulanmasını ehtiva edir. Müvafiq yanaşmalarda multikulturalizm və ayrı-seçkiliyə qarşı mübarizə kimi müasir anlayışlar bəzən tarixi azərbaycanlı kimliyinin ayrılmaz elementi kimi təqdim edilir. Eyni zamanda, bu diskurslarda Azərbaycanın müxtəlif mədəniyyətlərin uzunmüddətli birgə mövcudluğu nəticəsində formalaşmış mədəni mühitə malik olduğu vurğulanır. Milli ədəbiyyat və fəlsəfi irsin humanist xarakteri də bu yanaşmanın əsas sübutlarından biri kimi təqdim olunur [1].

Qeyd olunduğu kimi, multikulturalizm müxtəlif etnik, dini, irqi və dil qruplarının eyni cəmiyyətdə qarşılıqlı hörmət və bərabərlik prinsipləri əsasında birgə yaşamasını təşviq edən yanaşmadır. Bu baxımdan dil siyasəti multikultural cəmiyyətin formalaşmasında mühüm rol oynayır. Dil siyasəti dövlət və ya digər qurumlar tərəfindən dil ehtiyatlarını idarə etmək üçün həyata keçirilən kompleks tədbirlər və qərarlar məcmusudur. Yəni dil siyasəti dövlətin cəmiyyət içində hansı dillərin rəsmi status alacağına, hansı dillərin hansı bölgələrdə istifadəsinə, bu dillərdə danışan insanların hüquqlarının necə qorunacağına dair qəbul etdiyi qaydalar, qanunlar və qərarlar toplusudur.

E. İbrahimov dil siyasəti anlayışının tərifini bu cür təqdim edir: *"Dil siyasəti – bir siyasi vahid içərisində danışılan dillərə, bunların sahələrinə, inkişaf etmələrinə və istifadəsinə istiqamətlənmiş qərar və tətbiqlərin bütövüdür. Dil siyasətinin əsas xüsusiyyəti kənardan şüurlu bir müdaxilənin olmasıdır. Bu kənar müdaxilələr bir dilin daxili quruluşuna yönəlir" [4, s.5].*

M. Əsgərov dil siyasətinin zəruriliyini önə çəkərək yazır: *"Dilin və dilçiliyin səviyyəsini ölkədə aparılan dil siyasəti müəyyən edir. Dil siyasəti milli siyasətin ayrılmaz tərkib hissəsidir" [3, s.57].*

Dil siyasəti cəmiyyətin dilə şüurlu təsiri ilə bağlı olan və bu baxımdan dövlət-siyasi sistemin fəaliyyətinə, inkişafına ideoloji və praktiki münasibətini müəyyənləşdirən metodoloji və sosial əsasların ümumiləşdirilmiş ifadəsi kimi çıxış edir. Bu prosesdə dillərin qarşılıqlı əlaqəsi və onların ictimai həyatda oynadığı rol mühüm əhəmiyyət daşıyır. Dil siyasəti tarixi və nəzəri baxımdan müxtəlif terminoloji yanaşmalarla izah olunur: sovet elmi ədəbiyyatında bu anlayış "dil quruculuğu", Qərbi Avropa və Amerika elmi ənənəsində isə "dil planlaşdırması" kimi işlədilir. Bu terminlər arasında müəyyən yaxınlıq mövcud olsa da, onlar funksional baxımdan eyni məzmunu ifadə etmir.

Dil siyasəti dövlətlərin və ya digər səlahiyyətli qurumların dilin istifadəsi, öyrədilməsi və inkişafı ilə bağlı qəbul etdiyi ümumi strateji istiqaməti müəyyən edir. Bu siyasət dilin cəmiyyətdəki statusunu, funksiyalarını və inkişaf prioritetlərini tənzimləyən normativ-hüquqi və ideoloji qərarları özündə birləşdirir. Dil siyasətinin praktik icrası və texniki mexanizmləri isə dil planlaşdırması vasitəsilə həyata keçirilir.

Dil siyasəti və dil planlaşdırması bir-biri ilə sıx bağlı olsa da, onların funksional səviyyələri fərqlidir. Dil siyasəti daha çox strateji və konseptual xarakter daşıyaraq dövlətin dil məsələlərinə ümumi yanaşmasını müəyyən edir. Bu yanaşma dilin ictimai funksiyalarını tənzimləyən hüquqi-normativ sənədləri və ideoloji qərarları əhatə edir. Dil planlaşdırması isə həmin siyasətin həyata keçirilməsinə xidmət edən tətbiqi fəaliyyət sahəsidir və konkret metodlar, mexanizmlər və vasitələr sistemi kimi çıxış edir. E. İbrahimov dil planlaşdırmasını belə xarakterizə edir: *"Dilplanlaşdırma, ilk növbədə, problemə yönəlmiş və həmin problemin həlli istiqamətində görülən işlərdən ibarətdir" [5, s.126].*

DOI:10.30546/gdu.5.2026

Multikultural cəmiyyətlərdə uğurlu dil siyasəti bir neçə əsas prinsipə söykənir: dövlət dilinin cəmiyyətin birləşdirici amili kimi inkişaf etdirilməsi; milli azlıqların dil hüquqlarının qorunması; xarici dillərin öyrənilməsinin dəstəklənməsi; təhsil sistemində çoxdilli yanaşmanın təşviqi; mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşmanın gücləndirilməsi. Bu prinsiplərin ardıcıl şəkildə həyata keçirilməsi cəmiyyətdə sosial həmrəyliyin möhkəmlənməsinə, müxtəlif etnik və dini qruplar arasında qarşılıqlı hörmətin formalaşmasına, eləcə də mədəni müxtəlifliyin qorunmasına xidmət edir. Dil siyasəti bu baxımdan yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də milli birliyin, sosial sabitliyin və vətəndaş həmrəyliyinin təmin olunmasının mühüm amillərindən biri kimi çıxış edir.

Azərbaycan Respublikasında həyata keçirilən dil siyasəti də məhz bu prinsiplərə əsaslanır. Ölkədə Azərbaycan dili dövlət dili kimi cəmiyyətin əsas inteqrasiya vasitəsi hesab olunur və onun inkişafı dövlət tərəfindən ardıcıl şəkildə dəstəklənir. Bununla yanaşı, ölkədə yaşayan milli azlıqların ana dillərinin qorunması, həmin dillərdə təhsil və mədəni fəaliyyət imkanlarının yaradılması multikulturalizm siyasətinin mühüm istiqamətlərindən biridir. Eyni zamanda, qloballaşma və beynəlxalq əməkdaşlığın genişlənməsi xarici dillərin öyrənilməsini strateji əhəmiyyətli məsələyə çevirmişdir. İngilis, rus və digər xarici dillərin tədrisinə göstərilən diqqət gənclərin beynəlxalq əmək bazarında rəqabət qabiliyyətinin artırılmasına, elmi və peşəkar bilik mübadiləsinin genişlənməsinə, həmçinin ölkənin beynəlxalq əlaqələrinin inkişafına töhfə verir.

Tarixi inkişaf prosesinə nəzər saldıqda aydın olur ki, dil siyasəti və dil quruculuğu məsələləri 1960–1970-ci illərdən etibarən sistemli elmi tədqiqat predmetinə çevrilmişdir. Bu dövrdə aparılan araşdırmalar ilkin mərhələdə əsasən müxtəlif dil siyasəti modellərinin təsviri və təsnifatı ilə xarakterizə olunmuş, daha sonrakı mərhələlərdə isə tədqiqatların əhatə dairəsi xeyli genişlənmişdir [7, s.5]. Nəticə etibarilə, diqqət yalnız modellərin təsvirinə deyil, həm də dilin qorunması, dil hüquqları, dillərin statusu, sosial funksiyaları və təhlükə altında olan dillərin müdafiəsi kimi aktual problemlərə yönəlmişdir.

Dil siyasəti tədqiqatlarının mühüm xüsusiyyətlərindən biri onun vahid nəzəri çərçivəyə tam şəkildə sığmamasıdır. Bu sahənin predmeti yalnız dilin struktur xüsusiyyətlərini deyil, eyni zamanda siyasi, hüquqi, sosial və iqtisadi amilləri də əhatə etdiyindən, ümumi nəzəri əsasların formalaşdırılması müəyyən çətinliklər yaradır. Bu baxımdan dil siyasəti araşdırmaları sosiolinqvistika, hüquqşünaslıq, siyasi elmlər və iqtisadiyyat kimi müxtəlif sahələrlə sıx qarşılıqlı əlaqədə inkişaf edərək fənlərarası (interdisiplinar) xarakter qazanmışdır.

Dil siyasəti tədqiqatlarının mühüm xüsusiyyətlərindən biri onun vahid nəzəri çərçivəyə tam şəkildə sığmamasıdır. Bu sahənin predmeti yalnız dilin struktur xüsusiyyətlərini deyil, eyni zamanda siyasi, hüquqi, sosial və iqtisadi amilləri də əhatə etdiyindən, ümumi nəzəri əsasların formalaşdırılması müəyyən çətinliklər yaradır. Bu xüsusiyyət, xüsusilə multikultural cəmiyyətlərdə daha qabarıq şəkildə müşahidə olunur, çünki multikulturalizm müxtəlif etnik, dil və mədəni qrupların eyni sosial məkanda birgə yaşamasını nəzərdə tutur və bu da dil siyasətinin çoxqatlı və mürəkkəb xarakter almasına səbəb olur.

Belə şəraitdə dil siyasəti yalnız bir dilin statusunun müəyyənləşdirilməsi ilə məhdudlaşmır, həm də müxtəlif dillərin bərabər şəkildə qorunması, inkişaf etdirilməsi və ictimai həyatda funksional istifadəsinin tənzimlənməsi kimi məsələləri əhatə edir. Bu isə dil siyasətinin sosial inteqrasiya, mədəni müxtəlifliyin qorunması və vətəndaşların dil hüquqlarının təmin edilməsi kimi multikulturalizm prinsipləri ilə sıx əlaqədə olduğunu göstərir [2, s.96].

Bu nəzəri çərçivənin praktik və mədəni-siyasi müstəvidə təzahür formalarından biri kimi multikultural dəyərlərin beynəlxalq səviyyədə təqdimatı xüsusi əhəmiyyət kəsb edir. Bu

DOI:10.30546/gdu.5.2026

kontekstdə 2013-cü ildə Heydər Əliyev Fondu tərəfindən Parisdə təşkil olunmuş *"Azerbaijan – Land of Tolerance"* ("Azərbaycan – tolerantlıq yurdu") adlı foto sərgisi xüsusi nümunə kimi qeyd oluna bilər. Sərgi multikulturalizm diskursunun beynəlxalq təqdimat və mədəni diplomatiya çərçivəsində istifadə olunan formalarını əks etdirir. Foto materiallar əsasən fransız-iranlı fotoqraf Rza Diqqəti tərəfindən hazırlanmış və Azərbaycanda müxtəlif dini və etnik qrupların birgəyaşayışını nümayiş etdirən səhnələri əhatə etmişdir. Nümunələr sırasında Ramazan ayında yəhudi ravvinləri ilə müsəlman din xadimlərinin birgə iftar açması, eləcə də Quba şəhərində yəhudi məhəlləsində sinaqoqun yaxınlığında məscidin yerləşməsi kimi simvolik görüntülər yer alır [1].

Bu cür təqdimatlar multikulturalizm və tolerantlıq ideyasının beynəlxalq auditoriyaya çatdırılması baxımından mədəni diplomatiya və qlobal kommunikasiya strategiyasının tərkib hissəsi kimi qiymətləndirilir. Bu diskursun əsas məqsədlərindən biri ölkənin müsbət beynəlxalq imicinin formalaşdırılması, onun təhlükəsiz, sabit və tolerant cəmiyyət kimi təqdim olunması və bu yolla turizm və investisiya potensialının artırılmasıdır.

Multikulturalizm və dil siyasəti, eyni zamanda bir-biri ilə sıx bağlı olan və qarşılıqlı təsir şəraitində inkişaf edən sosial-siyasi fenomenlərdir. Multikultural cəmiyyətlərdə müxtəlif etnik, dini və dil qruplarının mövcudluğu dil siyasətinin daha çevik, inklüziv və çoxfunksiyalı şəkildə formalaşdırılmasını zəruri edir [6, s.59]. Bu baxımdan dil siyasəti yalnız bir dilin rəsmi statusunun müəyyənləşdirilməsi deyil, eyni zamanda cəmiyyətdə mövcud olan dil müxtəlifliyinin qorunması, inkişaf etdirilməsi və harmonik şəkildə tənzimlənməsi funksiyasını daşıyır.

Beləliklə, aparılan təhlillər göstərir ki, multikulturalizmin əsas prinsipləri ilə dil siyasəti arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Bu prinsiplərin dil siyasətində tətbiqi cəmiyyətin sosial inteqrasiyasına, mədəni müxtəlifliyin qorunmasına, çoxdilliliyin inkişafına və əmək bazarının tələblərinə uyğun insan kapitalının formalaşmasına mühüm töhfə verir. Bu baxımdan, multikulturalizmin əsas prinsipləri, onların dil siyasətində tətbiqi və gözlənilən nəticələr müəllif tərəfindən ümumiləşdirilərək aşağıdakı cədvəldə təqdim edilmişdir.

Cədvəl 1. Multikulturalizm prinsipləri və dil siyasətinin əsas istiqamətləri

Multikulturalizmin əsas prinsipləri	**Dil siyasətində tətbiqi**	**Gözlənilən nəticə**
Mədəni müxtəlifliyə hörmət	Ölkədə yaşayan müxtəlif etnik qrupların dillərinin və mədəni irsinin qorunması	Mədəni irsin yaşadılması və cəmiyyət daxilində qarşılıqlı hörmətin formalaşması
Bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi	Bütün vətəndaşlar üçün dil hüquqlarının təmin edilməsi və dil əsaslı diskriminasiyanın qarşısının alınması	Sosial ədalətin və bərabər imkanların təmin olunması
Sosial inteqrasiya	Dövlət dilinin öyrədilməsi və ictimai həyatda istifadəsinin təşviqi	Milli birlik, vətəndaş həmrəyliyi və effektiv ünsiyyət
Ana dilinin qorunması	Milli azlıqların ana dilində təhsil, mədəni tədbir və informasiya əldə etmək imkanlarının dəstəklənməsi	Etnik kimliyin və mədəni müxtəlifliyin qorunması
Çoxdilliliyin təşviqi	Təhsil müəs. bir və ya bir neçə xarici dilin tədrisinin genişləndirilməsi	Beynəlxalq kommunikasiya bacarıq. inkişafı və qlobal əmək bazarına inteqrasiya

DOI:10.30546/gdu.5.2026

Mədəniyyətlərarası dialoq	Xarici dillərin öyrənilməsi və beynəlxalq təhsil-mədəniyyət proqramlarının dəstəklənməsi	Fərqli mədəniyyətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlığın güclənməsi
İnsan kapitalının inkişafı	Xarici dil biliklərinin peşə hazırlığı proqramlarına inteqrasiyası	Əmək bazarında rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanması
İnkl üzivlik	Müxtəlif sosial və etnik qrupların keyfiyyətli dil təhsilinə bərabər çıxışının təmin edilməsi	Təhsildə bərabər imkanların genişlənməsi və sosial inklüzivliyin güclənməsi
Qloballaşmaya uyğunlaşma	Beynəlxalq standartlara uyğun dil proqramlarının hazırlanması və tətbiqi	Elmi, iqtisadi və texnoloji əməkdaşlığın genişlənməsi
Milli kimliyin qorunması	Dövlət dilinin inkişafı ilə yanaşı digər dillərə hörmət prinsipinin qorunması	Milli-mədəni dəyərlərin qorunması və multikultural harmoniyanın təmin olunması

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Multikulturalizm prinsipləri dil siyasətinin həm ideoloji, həm də praktik əsaslarını formalaşdıraraq dil hüquqlarının təmin edilməsinə, milli birliyin möhkəmləndirilməsinə, sosial inteqrasiyanın gücləndirilməsinə, mədəni müxtəlifliyin qorunmasına, vətəndaşların beynəlxalq kommunikasiya imkanlarının genişləndirilməsinə, xarici dillərin öyrənilməsinin təşviqinə, çoxdilli bacarıqların inkişaf etdirilməsinə və əmək bazarının dəyişən tələblərinə cavab verən, yüksək peşə və kommunikasiya səriştələrinə malik insan kapitalının formalaşdırılmasına xidmət edir.

Nəticə

Nəticə etibarilə, mədəni müxtəlifliyin idarə olunmasında dil siyasəti cəmiyyətin sabitliyi, sosial həmrəylik və inklüziv inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Düzgün formalaşdırılmış dil siyasəti müxtəlif etnik, milli və dil qrupları arasında qarşılıqlı anlaşmanı gücləndirir, onların hüquqlarının qorunmasına və ictimai həyata bərabər şəkildə qoşulmasına şərait yaradır. Eyni zamanda, dövlət dilinin mövqeyini möhkəmləndirməklə yanaşı, azsaylı xalqların və etnik qrupların dillərinin qorunması və inkişafı mədəni irsin zənginləşdirilməsinə xidmət edir.

Qloballaşma şəraitində dil siyasəti yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin, mədəni müxtəlifliyin və sosial birliyin qorunmasının əsas alətlərindən biri kimi çıxış edir. Bu baxımdan, balanslı və inklüziv dil siyasətinin həyata keçirilməsi cəmiyyətdə tolerantlığın, qarşılıqlı hörmətin və davamlı inkişafın təmin olunmasına mühüm töhfə verir. Buna görə də, mədəni müxtəlifliyin səmərəli idarə olunması üçün dil siyasəti dövlət idarəçiliyinin strateji istiqamətlərindən biri kimi daim təkmilləşdirilməli və müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməlidir.

Ədəbiyyat

1.Azərb. multikulturalizm https://multiculturalism.preslib.az/en_others-hpt5PRUsV3. Html/].
2.Cəfərova, K.A. İkidilliliyin təsnifatı və inkişafı: fərqli yanaşmaların təhlili (Classification and Development of Bilingualism: Analysis of Different Approaches) // – Bakı:Azərbaycan Universiteti "İpək Yolu" elmi jurnalı– 2025. №2, – s.95-103.

DOI:10.30546/gdu.5.2026

3.Əsgərov, M.B. Demokratik dil siyasəti modelinin prioritet istiqamətləri // "Dilçilik İnstitutunun əsərləri" toplusunun Roza Eyvazovanın 80 illik yubileyinə həsr olunmuş xüsusi buraxılışı, – 2017. № 2, – s.57-70.
4.İbrahimov E. Ə. Dil siyasətinin tarixi baxımdan formalaşması və onun əsas prinsipləri // – Bakı: Tədqiqlər, – 2020. №1-2, – s.3-9.
5.Ibrahimov E. Concepts of language policy and language planning // «Progress in Science», – 2023. №2, – p.123-126.
6.Jafarova, K.A. From words to worlds: Regulating Intercultural Exchange Through Interlingual Communication //Bakı:"İpək Yolu" Turizm və Mədəni İrs Beynəlxalq Universiteti, Pamukkale Universiteti. "İpək yolu və türk dünyası: mədəniyyətlər mübadiləsində dil, ədəbiyyat, tərcümə və qastronomik turizmin inteqrasiyası" mövzusunda beynəlxalq elmi-praktik konfrans. Özbəkistan/ Səmərqənd. International scientific journal **"Science and Innovation" –** 14–17 may 2025-ci il, Special (99) - p. 58-63.
7.Mammadov, A.Y. English in Azerbaijan: Developments and Perspectives: English language education policy and practice in Azerbaijan from the early 1990s to the present day // - English Today, 2022. – p.1-6.

THE IMPORTANCE OF LANGUAGE POLICY IN THE MANAGEMENT OF CULTURAL DIVERSITY

Allahverdiyeva Aytan Elshad

Summary

In the context of contemporary globalization, the management of cultural diversity has become one of the major socio-political challenges facing modern societies. In societies characterized by ethnic, religious, and linguistic diversity, language policy serves as a crucial instrument for preserving cultural differences, promoting social integration, and strengthening mutual understanding. Language is not merely a means of communication; it is also a fundamental component of individual and collective identity, cultural heritage, and social cohesion.

The primary objective of this article is to examine the role of language policy in the management of cultural diversity and to analyze the relationship between the protection of the rights of different linguistic groups and state language policy. Within the framework of the study, the main directions of language policy, the approaches adopted in multilingual societies, and the impact of language rights on social integration are examined. The article emphasizes that an effective language policy, on the one hand, strengthens the integrative and unifying function of the state language within society and, on the other hand, creates favorable conditions for the protection and development of the linguistic and cultural heritage of national minorities.

ЗНАЧЕНИЕ ЯЗЫКОВОЙ ПОЛИТИКИ В УПРАВЛЕНИИ КУЛЬТУРНЫМ РАЗНООБРАЗИЕМ

Аллахвердиева Айтан Эльшад кызы

Резюме

В условиях современной глобализации управление культурным разнообразием является одной из важнейших социально-политических задач, стоящих перед современными обществами. В обществах, характеризующихся этническим, религиозным и языковым разнообразием, языковая политика выступает важным

DOI:10.30546/gdu.5.2026

инструментом сохранения культурных различий, обеспечения социальной интеграции и укрепления взаимопонимания. Язык является не только средством общения, но и одним из ключевых элементов индивидуальной и коллективной идентичности, культурного наследия и социальной сплочённости.

Основная цель данной статьи заключается в исследовании роли языковой политики в управлении культурным разнообразием, а также в анализе взаимосвязи между защитой прав различных языковых групп и государственной языковой политикой. В рамках исследования рассматриваются основные направления языковой политики, подходы, применяемые в многоязычных обществах, а также влияние языковых прав на социальную интеграцию. В статье подчёркивается, что успешная языковая политика, с одной стороны, укрепляет объединяющую функцию государственного языка в обществе, а с другой стороны, создаёт условия для сохранения и развития языка и культурного наследия национальных меньшинств.

Daxil olma tarixi 16 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:811.

AZƏRBAYCAN DİLİNİN İZAHLI LÜĞƏTLƏRİNDƏ İNGİLİS DİLİNDƏKİ QARŞILIQLI ƏLAQƏ, HƏRƏKƏT, İŞGÜZAR KOMMUNİKASİYA ANLAYIŞLI İCTİMAİ-SİYASİ TERMİNLƏR

Babayeva Aytən Müsahib qızı
Gəncə Dövlət Universiteti
Dissertant
Orcid: https://orcid.org/0009-0005-8152-870
aytenbabayeva91@gmail.com

Xülasə: *Müasir dövrdə informasiya aktuallığı sürətlə genişlənir və yayılır. Buna münasib olaraq yeni informasiyaları adlandıran söz və terminlər də geniş yayılma prosesi keçirir. Bu sahədə ingilis dili çox mühüm təsir dairəsinə malikdir. Doğrudur, ingilis dili bütün digər dillərlə ərazi baxımından kontakt yaratmır. Buna görə də başqa dillərlə münasibətdə ingilis dilinin bilinqvist təsirindən bəhs etmək də mümkün deyildir. Lakin ingilis dili müasir dövrdə elə bir geniş informasiya mühiti yaratmışdır ki, başqa dillər yeni anlayışlı söz və terminləri həmin mühitdən qəbul edir. Azərbaycan dilinə də yeni söz və terminlər, o cümlədən, ictimai-siyasi məzmunlu terminlər həmin informasiya mühitindən daxil olur. Yeni terminlər mətbuatda, ictimai-siyasi kommunikasiya şəraitində işlənərək eyni zamanda izahlı tərtib edilmiş lüğətlərdə qeydə alınır. Həmin lüğətlərdə yeni ictimai-siyasi terminlər mənaca aydınlaşdırılır və populyarlaşdırılır. Yeni terminlərin daxil olması sürətli axına çevrildiyi üçün mütəmadi olaraq yeni lüğətlər tərtib edilir. Odur ki, hər bir yeni lüğətdə daha yeni anlayış bildirən terminlər qeydə alınır. Dildə bəzi terminlərin köhnə qarşılığı olsa da beynəlxalq səciyyə daşıyan yeni terminlər daha çox mövqe üstünlüyünə malik olur.*

Açar sözlər: alınma, termin, anlayış, kommunikasiya, informasiya
Ключевые слова: заимствование, термин, понятие, коммуникация, информация
Key word: borwing, term, conseption, communication, information

Müasir informasiya aktuall mərhələsində qarşılıqlı əlaqə və münasibətlərin, o cümlədən, qarşılıqlı və işgüzar kommunikasiyalar artan sürətlə genişlənməsi müşahidə ediliığır. Buna münasib olaraq yeni anlayışları bildirən söz və terminlər işlədilir. Bu sahədə ingilis dili dominant mövqe tutur. Odur ki, bu dildə işlənən yeni söz və terminlər yayılmaqda davam edir. Onların müəyyən bir qismi də Azərbaycan dilinin izahlı lüğətlərinə əks olunur.

İngilis dilində ictimai-siyasi təşkilat, təsisat idarəetmə və vəzifə adları bildirən terminlər daha çox alınmalardan ibarət olduğu halda, qarşılıqlı əlaqə, hərəkət, işgüzar kommunikasiya məzmunlu terminlər əsas etibarı ilə ingilis dilinin özünə məxsus olan dil vasitələrindən ibarətdir. Bunların içərisində əlbəttə ki, Avropa dillərindən daxil olanlar da istisnalıq təşkil etmir. Bütövlükdə bu qrup üzrə təhlil edilən terminlərə beynəlxalq informasiya məkanında geniş işlədilməklə Azərbaycan dilinin orfoqrafiya lüğətlərinə və o cümlədən izahlı tərtib edilmiş lüğətlərinə də daxil olmuşdur. Bu cür terminlərə nümunə kimi aşağıdakıları misal göstərmək olar: *ajiotaj* (ing.adiotage), *insayder* (ing.insider), *disput* (lat.dispute), *brifinq* (ing.briefing), *mitinq* (ing.mecting), *sammit* (ing.summit), *demarş* (fr.demarche), *diler* (ing.dealer), *emissar* (lat.emissary) və s.

Burada qeyd olunan *ajiotaj* termininin ictimai-siyasi anlayış bildirməsi cəmiyyətdaxili, əhali kütləsi arasında hansısa hadisə, əhvalat və ya proseslə bağlı təşviş yaradılmasından ibarətdir. İngilis dilində *ajiotaj* termininin birbaşa mənası da həyəcan, təşviş anlayışı bildirməsindən ibarətdir. Lakin *ajiotaj* termini cəmiyyətdə, əhali arasında baş verən qarma-

DOI:10.30546/gdu.5.2026

qarışıqlıqla bağlı kökü olmayan, əsası, bünövrəsi olmayan ictimai asayişin pozulması mənasını bildirdiyi üçün ictimai-siyasi termin kimi formalaşmışdır.

Ajiotaj termini ingilis dilinə məxsus olduğu üçün beynəlxalq informasiya məkanına da ingilis dilindən keçmiş sözlər sırasındadır. *Ajiotaj* termini "Azərbaycan dilinin orfoqrafiya terminləri lüğəti"ndə (1975) qeydə alınmamışdır. *Ajiotaj* termini "Azərbaycan dilinin izahlı lüğəti"nin I cildində də qeydə alınmamışdır. Ona görə hesab etmək olar ki, bu termin Azərbaycan dilinə ingilis dilinin yaratdığı informasiya məkanından keçmişdir.

Ajiotaj termini ingilis dilinin informasiya məkanından daxil olduğu üçün vasitəli keçid məhsulu da sayılmır. Həminki bu terminin keçidi yeni dövrə aid olduğu üçün son vaxtların lüğətlərində də öz əksini tapa bilir. *Ajiotaj* termini "Azərbaycan dilinin orfoqrafiya terminləri lüğəti"ndə (2021) qeydə (s.37) alınmışdır. O cümlədən, *ajiotaj* termini "Yeni alınma sözlər lüğəti"ndə (s.26), "İzahlı ictimai-siyasi terminlər lüğəti"ndə (s.12), "Məktəblinin alınma sözlər lüğəti"ndə (s.18), "Mediada işlənən alınma sözlər"in izahlı lüğəti"ndə (s.18), həmçinin, "Yeni sözlər və yeni mənalar lüğəti"ndə (s.20) qeydə alınmışdır. *Ajiotaj* termini Azərbaycan dilində ingilis dilindəki anlayışları saxlayır. İngilis dili mənbələrində də *ajiotaj* termini məhz cəmiyyətdə ictimai asayişin pozulması ilə bağlı təlaş yaradıcı məna üzrə qeydə alınır [7].

İnsayder termini də mənşəcə ingilis dilinə məxsusdur. *İnsayder* termininin daşıdığı ictimai-siyasi məzmun *hər hansı bir qrupa, təşkilata üzv olan, həmin təşkilat və qrupda fəaliyyət göstərən gizli, məxfi informasiyaları əldə edə bilən şəxs, əlaqələndirici işçi mənasından ibarətdir* [18, s.153-154]. İngilis dili mənbələrində də *insayder* termini həmin məna anlayışı üzrə izah edilir [16]. *İnsayder* termini informasiya daşıyıcısı və çatdırıcı qrup və ya təşkilat üzvü olan şəxsi bildirmək mənasında Azərbaycan dili üçün yenidir. Ona görə "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nə (1975) düşməmişdir. Müasir informasiya axını mərhələsində isə bu termin xüsusən media vasitəsi ilə Azərbaycan dilinin leksik-terminoloji təkibinə daxil olmuş və izahlı lüğətlərdə də qeydə alınmışdır. *İnsayder* termini yeni olduğundan "Azərbaycan dilinin izahlı lüğəti"nin II cildində qeydə alınmamışdır. "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nə (2021) isə *insayder* termini (s.295) qeydə alınmışdır. *İnsayder* termini, həmçinin xidməti məlumata malik olan şəxs mənasında "Yeni sözlər və yeni mənalar lüğəti"ndə də (s.126) qeydə alınmışdır. *İnsayder* termini "Mediada işlənən alınma sözlər"in izahlı lüğəti"ndə "*Xarici ölkələrdə nüfuzlu strukturlara daxil olan və qapalı informasiyaya əli çatan, ondan bəhrələnən jurnalist" mənasında izah edilir*" [20 s.95].

İnsayder termini "Jurnalistika terminləri lüğəti"ndə (s.96) həmin məna üzrə qeydə alınmışdır. *İnsayder* terminə "İzahlı ictimai-siyasi terminlər lüğəti"ndə, "Məktəblinin alınma sözlər lüğəti"ndə və digər izahlı lüğətlərdə təsadüf edilmir. Görünür, *insayder* termini mediada bu və ya digər informasiya mübadiləsi məsələlərini işıqlandırmaq üçün işlədilmiş olsa da və lüğətlərin bəzilərində əks oluna bilsə də istifadə baxımından populyarlaşmamışdır. *Debat* termini "Azərbaycan dilinin izahlı lüğəti"nin I cildində görünmür. Görünür, *debat* termini lüğətin ilk variantı hazırlanan vaxt Azərbaycan dilinin leksik-terminoloji tərkibində işlək olmamış, dilə sonradan, ingilis dilinin yaratdığı qlobal informasiya mərhələsində keçid almışdır. Lakin *debat* termini "Yeni sözlər və yeni mənalar lüğəti"nə də daxil olmamışdır. *Debat* termini "İzahlı ictimai-siyasi terminlər lüğəti"ndə də *hər hansı yığıncaqda, iclasda, müzakirə və fikir mübadiləsi aparılması və mövqelər arasındakı danışıqlar* mənası üzrə (s.51) qeydə alınmışdır. *Debat* termini həmçinin "Məktəblinin alınma sözlər lüğəti"ndə (s.51), "Mediada işlənən alınma sözlər"in izahlı lüğəti"ndə (s.47), "Jurnalistika terminləri lüğəti"ndə qeyd olunmuşdur (s.33). *Debat* termini "Yeni alınma sözlər lüğəti"ndə digər lüğətlərə nisbətən bir qədər geniş təfsir olunur. Bu onu göstərir ki, artıq *debat* termini Azərbaycan ictimai-siyasi mühitində müzakirə, müsahibə, diskussiya, fikir mübadiləsi arenasında, o cümlədən, sosial şəbəkələrdə özünə geniş bir meydan yarada bilmişdir. *Debat* termininin

DOI:10.30546/gdu.5.2026

"Yeni alınmas sözlər lüğəti"ndə verilən mənası müxtəsə şəkildə aşağıdakı kimidir: "*Debat mübahisə etmək, fikir bildirmək: 1) hər hansı mübahisəli məsələ ilə bağlı müxtəlif mövqe tutanlar arasında aparılan diskussiya foması; 2)şagirdlərdə şifahi nitqi, fikrini əsaslandırmaq bacarığını və tənqidi təfəkkürü inkişaf etdirmək məqsədi ilə tətbiq olunan təlim üsulu*" [18, s.79]. *Debat* termini ictimai-siyasi məzmununu hazırda genişləndirməsinə baxmayaraq məlumat və araşdırma aparmaq üçün istifadə edilən digər lüğətlərdə qeydə alınmamışdır. *Mitinq* sözünün ingilis dilində lüğəti mənası *görüş*, *toplantı* anlayışı bildirməsindən ibarətdir. Lakin *mitinq* sözü özünün ictimai-siyasi mənası etibarı ilə leksik-terminoloji vahid kimi formalaşmış və beynəlxalq terminə çevrilmişdir. *Mitinq* termini Azərbaycan dilində yeni deyildir, ancaq ictimai-siyasi hadisələri ifadə etmək baxımından, zaman-zaman yeni baş verən kütləvi ictimai-siyasi hadisələrə şamil olunmaq baxımından populyardır. İngilis dili mənbələrində də *mitinq* sözünün lüğəti mənası ilə yanaşı kütləvi, ictimai-siyasi məna bildirməsi şərh olunur [22]. *Mitinq* termini ictimai-siyasi mənada cəmiyyətdəki hansısa hadisəni nümayişkəranə qabarıqlaşdırmaq üçün insanların çıxış və tələblərlə müşayiət olunan kütləvi toplantısı anlayışını bildirir. Mitinq şəklindəki kütləvi çıxışlarda ya hansısa problemə dəstək və ya əhalini narahat edən məsələlərlə bağlı nümayiş olunur. *Mitinq* termini Azərbaycan dilində ikidillilik mərhələsində keçmiş sözlər qismindən ibarətdir. Nə zaman keçməsindən asılı olmayaraq *mitinq* termini özünün əsas ictimai-siyasi məzmununu qoruyub saxlayır. *Mitinq* termini Azərbaycan dilinə əvvəl keçmiş olduğundan "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nə (1975) (s.366) daxil olmuşdur. *Mitinq* termini, eyni zamanda, "Azərbaycan dilinin izahlı lüğəti"nin III cildində *hər hansı mühüm gündəlik məsələyə (ən çox siyasi məsələyə) həsr olunmuş kütləvi yığıncaq-mənasında (s.379) qeydə alınmışdır*. *Mitinq* termini "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə (2021) də (s.448) qeydə alınmışdır. *Mitinq* sözü zamanına görə yeni olmadığı üçün "Yeni sözlər və yeni mənalar lüğəti"ndə və "Yeni alınma sözlər lüğəti"ndə qeydə alınmamışdır. Lakin *mitinq* termini anlayışına görə populyar olduğu üçün "İzahlı ictimai-siyasi terminlər lüğəti"nə (s.201), "Məktəblinin alınma sözlər lüğəti"nə (s.155) daxil edilmişdir. *Mitinq* termini "Jurnalistika terminləri lüğəti"nə və eləcə də müqayisə aparmaq üçün cəlb edilən digər humanitar izahlı lüğətlərə düşməmişdir. Görünür, bunun səbəbi *mitinq* termininin yeni alınma olmadığına görədir.

Ədəbiyyat

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, Elm, 1975, 600 s.
2. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, Elm, 2021, 756 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, Şərq-Qərb, 2006, 744 s.
4. Azərbaycan dilinin izahlı lüğəti. 4 ciliddə, II c., Bakı, Şərq-Qərb, 2006, 792 s.
5. Azərbaycan dilinin izahlı lüğəti. 4 ciliddə, III c., Bakı, Şərq-Qərb, 2006, 672 s.
6. Azərbaycan dilinin izahlı lüğəti. 4 ciliddə, IV c., Bakı, Şərq-Qərb, 2006, 712 s.
7. Agiotage. Meaning of adiotage: dictionary cambridge.org/dictionary /english/adiotage.
8.Abbasbəyli A., Cəfərov V., Qafarov Z. Diplomatiya terminləri lüğəti. B., Qismət, 2000, 162
9.Debate. Meaning of debate in English: dictionary.cambridge.org /dictionary/ english/debate.
10.İnsider. Meaning of insider in English. dictionary cambridge.org/ dictionary/ english/insider.
11.Məmmədli N və baş. "Yeni sözlər yeni mənalar lüğəti", Bakı, Elm və təhsil, 2016, 269 s.
12.Məhərrəmli Q.Yeni alınma sözlər lüğəti. Bakı, Azər. Dövlət Tərcümə Mərkəzi.2021, 400 s
13.Məhərrəmli Q., İsmayılov R. Məktəblinin alınma sözlər lüğət. Bakı, Altun kitab, 2014, 240
14.Məhərrəmli Q. Mediada işlənən alınma sözlər. İzahlı lüğət. Bakı, Elm, 2008, 256 s.
15.Məhərrəmli Q., Şıxlı E. Jurnalistika terminləri lüğət. Bakı, Altun kitab, 2016, 272 s.

DOI:10.30546/gdu.5.2026

16.Meeting. Meaning of meeting in English: dictionary.cambridge.org /dictionary/english/meeting.
17.Politologiya. İzahlı lüğət. Şərq-Qərb, 2007, 352 s.
18.Sadıqova S və başqaları. "İzahlı ictimai-siyasi terminlər lüğəti". Bakı, Zərdabi Nəşr MMC nəşriyyatı, 2023, 360 s.
19.Summit. Meaning of summit in English: dictionary.cambridge.org /dictionary/ english/ summit.

СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ТЕРМИНЫ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ СО ЗНАЧЕНИЕМ ВЗАИМОДЕЙСТВИЯ, ДЕЙСТВИЕ, ДЕЛОВАЯ КОММУНИКАЦИЯ В ТОЛКОВЫХ СЛОВАРЯХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Бабаева Айтен Мусахиб

Резюме

В современную эпоху значимость информации стремительно расширяется и распространяется. Соответственно, слова и термины, обозначающие новую информацию, также подвергаются широкому распространению. Английский язык занимает очень важную сферу влияния в этой области. Правда, английский язык не контактирует со всеми другими языками с точки зрения территории. Поэтому невозможно говорить о языковом влиянии английского языка в отношении других языков. Однако английский язык создал в современную эпоху настолько широкую информационную среду, что другие языки заимствуют новые слова и термины из этой среды. Новые слова и термины, в том числе термины с социально-политическим содержанием, также проникают в азербайджанский язык из этой информационной среды. Новые термины используются в прессе, в социально-политической коммуникации и одновременно фиксируются в толковых словарях. В этих словарях новые социально-политические термины уточняются по значению и популяризируются. Поскольку вхождение новых терминов стало быстрым потоком, регулярно составляются новые словари. Поэтому в каждый новый словарь записываются термины, выражающие новые понятия. Хотя некоторые термины в языке имеют старые эквиваленты, новые термины, имеющие международный характер, обладают большим позиционным преимуществом.

SOCIO-POLITICAL TERMS IN ENGLISH WITH THE MEANING OF INTERACTION, ACTION, BUSINESS COMMUNICATION IN EXPLANATORY DICTIONARIES OF THE AZERBAIJANI LANGUAGE

Babayeva Ayten Musahib

Summary

In the modern era, the relevance of information is rapidly expanding and spreading. Accordingly, words and terms that name new information are also undergoing a wide spread process. English has a very important sphere of influence in this area. True, English does not create contact with all other languages in terms of territory. Therefore, it is impossible to talk about the linguistic influence of English in relation to other languages. However, English has created such a wide information environment in the modern era that other languages accept new words and terms from that environment. New words and terms, including terms with socio-political content, also enter the Azerbaijani language from that information

DOI:10.30546/gdu.5.2026

environment. New terms are used in the press, in socio-political communication, and at the same time are recorded in explanatory dictionaries. In those dictionaries, new socio-political terms are clarified in meaning and popularized. Since the entry of new terms has become a rapid flow, new dictionaries are regularly compiled. Therefore, terms expressing newer concepts are recorded in each new dictionary. Although some terms in the language have old equivalents, new terms with an international character have a greater positional advantage.

Rəyçi:prof.Mürbariz Yusibov
Daxil olma tarixi 25 may 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT 821.111

KRİSTİN BRUK-ROUZUN "AMALGAMEMNON" ROMANINDA YUNAN MİFLƏRİNİN DEKONSTRUKSİYASI

Əliyeva Emiliya Natiq qızı
Azərbaycan Universiteti
ORCID: 0000-0002-0275-8419
Emiliya.Aliyeva@au.edu.az

Xülasə: *Məqalədə postmodern ədəbiyyatın görkəmli nümayəndələrindən olan Kristin Bruk-Rouzun "Amalgamemnon" romanında yunan miflərinin dekonstruksiya mexanizmləri təhlil edilir. Tədqiqatın əsas məqsədi müəllifin Esxil faciələrindən, xüsusilə "Oresteya" trilogiyasından götürdüyü Aqamemnon, Kassandra və Klitemnestra mifologemlərini hansı dil, struktur və gender strategiyaları vasitəsilə yenidən yazmasını aşkarlamaqdır. Araşdırmada Derrida dekonstruksiya nəzəriyyəsi, feminist tənqid və intertekstuallıq konsepsiyalarından istifadə olunur. Müəyyən edilir ki, Bruk-Rouz roman boyu xətti zamanı dağıdaraq, fellərin zaman formalarını qarışdıraraq, qadın səslərini isə şizofrenik monoloqlar formasında ön plana çıxararaq mərkəzi kişi fiqurunu mətn səviyyəsində "yoxa çıxarır". Əsas diqqət mətnin feminist yazı nümunəsi kimi Kassandranın susdurulmuş səsini dilin sintaktik qırılmaları ilə diriltməsinə yönəldilir.*

Açar sözlər: Kristin Bruk-Rouz, Amalgamemnon, dekonstruksiya, yunan mifi, feminist yazı, intertekstuallıq, Kassandra, Aqamemnon

Ключевые слова: Кристин Брук-Роуз, «Amalgamemnon», деконструкция, греческий миф, феминистское письмо, интертекстуальность, Кассандра, Агамемнон

Keywords: Christine Brooke-Rose, Amalgamemnon, deconstruction, Greek myth, feminist writing, intertextuality, Cassandra, Agamemnon

Giriş

XX əsr postmodern ədəbiyyatı bədii mətni sabit mənalar daşıyıcısı kimi qəbul edən ənənəvi yanaşmadan imtina edərək onu mənaların daim sürüşdüyü, iyerarxiyaların dağıldığı bir arenaya çevirmişdir. Bu transformasiyanın ən radikal nümunələrindən biri ingilis-fransız yazıçısı, ədəbiyyat nəzəriyyəçisi Kristin Bruk-Rouzun 1984-cü ildə nəşr olunmuş "Amalgamemnon" romanıdır. Əsər postmodern ədəbiyyatın eksperimental ruhunu ən ucqar həddlərə çatdıraraq, Qərb mədəniyyətinin təməl sütunlarından olan yunan miflərini, konkret olaraq Esxilin "Oresteya" trilogiyasındakı Aqamemnon, Kassandra və Klitemnestra süjetini dekonstruksiya obyektinə çevirir.

Romanın adındaca gizlənən söz oyunu – "amalgam" (civə ərintisi, qarışıq) və "Aqamemnon" sözlərinin birləşməsi – müəllifin bütün poetik niyyətinin manifestidir: mərkəzi, patriarxal, qəhrəman kişi fiquru dil içərisində əridiləcək, dağıdılacaq, bir daha bütöv şəkildə bərpa olunmamaq üzrə parçalanacaqdır. Bruk-Rouz bu əsərlə təkcə bir mifi yenidən yazmır; o, mif yaratma mexanizminin özünü, dilin ideoloji funksiyasını, tarix yazımının gender determinantlarını sorğulayır. Mətnin mərkəzində bir yox, iki güclü qadın səsi dayanır: heç kimin inanmadığı peyğəmbər Kassandra və ərini öldürən arvad kimi damğalanmış Klitemnestra. Onların monoloqları vasitəsilə minilliklər boyu kişi qələmindən çıxmış mifoloji hekayənin alt qatlarındakı susdurulmuş, marginallaşdırılmış səslər eşidilməyə başlayır.

Bu məqalənin əsas məqsədi Kristin Bruk-Rouzun "Amalgamemnon" romanında yunan miflərinin dekonstruksiya mexanizmlərini aşkarlamaq, müəllifin istifadə etdiyi dil, struktur və gender strategiyalarını təhlil etməkdir. Tədqiqat poststrukturalist nəzəri çərçivəyə, əsasən Jak Derridanın dekonstruksiya, Elen Siksusun "feminist yazı" (écriture féminine) və Yuliya

DOI:10.30546/gdu.5.2026

Kristevanın intertekstuallıq konsepsiyalarına əsaslanır. Araşdırma zamanı romanın dil qatı, zaman strukturu, xarakter sistemi və janr xüsusiyyətləri analiz edilərək, Bruk-Rouzun mifologemləri hansı yollarla "partlatdığı" sualına cavab axtarılır.

"Amalgamemnon" adının dekonstruktiv potensialı: mərkəzi kişi fiqurunun əriməsi

"Amalgamemnon" adı özlüyündə Derridanın dekonstruksiya layihəsinin bədii təcəssümüdür. Derrida Qərb metafizikasının loqosentrik ənənəsini tənqid edərək göstərirdi ki, məna həmişə diferensasiya və təxirəsalma (différance) prosesindədir, heç vaxt tam mövcudluq halında sabitlənmir (Derrida, 1976). Bruk-Rouz məhz bu prinsipi öz romanının adında maddiləşdirir: Aqamemnon adı özü ilə "civə ərintisi" mənasını verən "amalgam" sözünü birləşdirərək, bu adın daşıdığı tarixi, mifoloji, patriarxal məna yükünü içəridən çürüdür. Bu, sadəcə bir söz oyunu deyil, mətn boyu davam edəcək bir əməliyyatın ilk addımıdır: mərkəzi kişi fiqurunu əridib onun konturlarını itirmək.

Roman boyu Aqamemmonun ənənəvi mifoloji obrazından əsər-əlamət qalmır. Esxilin faciəsində Troya müharibəsindən qalib qayıdan padşah, məğrur hökmdar burada işsiz qalmış, universitetdəki vəzifəsindən çıxarılmaq təhlükəsi ilə üzləşən adsız-sansız bir intellektuala çevrilir. Müəllif onu heç bir birbaşa monoloqla təchiz etmir, onun "hekayəsi" mətndə ancaq aralıq radiostansiya xəbərləri, maliyyə bülletenləri, at yarışı nəticələri fonunda dolayı yolla əks olunur. Mifoloji Troya müharibəsi qlobal iqtisadi böhranla, qəhrəmanlıq isə tədqiqat qrantının uzadılmaması ilə analogiya təşkil edir. Bu reduksiya ilə Bruk-Rouz mifin "böyük povest" (grand récit) statusunu ələ salır, onu Jan-Fransua Liotarın təbirincə desək, "kiçik povestlər" səviyyəsinə endirərək legitimitə qüvvəsindən məhrum edir (Liotar, 1979).

Zamanın dekonstruksiyası: gələcək keçmişdən danışmaq

Bruk-Rouzun dekonstruksiya strategiyasının ən mürəkkəb təbəqəsi mətnin zaman quruluşunda özünü göstərir. Roman futuristik qrammatik çərçivədə yazılmışdır – hadisələr əsasən gələcək zaman formalarında, "olacaq", "edəcək" kimi fellərlə təqdim olunur. Lakin bu gələcək zaman keçmişdə baş vermiş mifoloji hadisələrə istinad edir. Beləliklə, zaman xətti dairəvi hal alır: keçmiş gələcək kimi, gələcək isə artıq yaşanmış keçmiş kimi təqdim olunur.

Bu texnika Derridanın "iz" (trace) konsepsiyası ilə birbaşa əlaqəlidir. Derrida iddia edirdi ki, keçmiş heç vaxt saf halda mövcud olmayıb, o, həmişə gələcəkdə daşıdığı məna izləri ilə çirklənmişdir (Derrida, 1982). Bruk-Rouz məhz bu nəzəri müddəanı bədii praktikaya çevirir: mif keçmişdə donmuş, sabit bir hekayə deyil, daim gələcək kimi yaşanan, hələ tamamlanmamış bir prosesdir. Fellərin zaman formalarının qarışdırılması oxucunu sabit zaman anlayışından məhrum edir, mətnin özü temporal olaraq "amalgam"a çevrilir. Kassandranın gələcəyi görmə qabiliyyəti beləliklə sadəcə mifik süjet elementi yox, romanın öz struktur prinsipinə çevrilir – mətn daim öz gələcəyini peyğəmbərcəsinə xəbər verir, lakin bu gələcək artıq keçmişin izlərini daşıyır.

Kassandranın səsi: feminist yazı praktikası kimi "dəlilik"

Romanın ən güclü və radikal tərəfi Kassandra obrazının yenidən qurulmasıdır. Yunan mifində Kassandra Apollon tərəfindən lənətlənmiş peyğəmbərdir: ona gələcəyi görmə qabiliyyəti verilir, lakin heç kimin ona inanmayacağı şərti ilə. Onun səsi mövcuddur, lakin kommunikativ funksiyası sıfıra bərabərdir. O, danışır, lakin eşidilmir. Bu, kişi qanunu qarşısında qadın səsinin paradoksal susqunluğunun ən dramatik mifoloji təcəssümüdür.

Bruk-Rouz bu susqunluğu qırmaq üçün Kassandranın dilini şizofrenik, fraqmentar, məntiqsiz monoloqlar formasında yenidən qurur. Elen Siksus "Meduzanın gülüşü" essesində qadınların patriarxal dildən kənar, öz bədənlərindən, arzularından qaynaqlanan yeni bir yazı tərzi yaratmalı olduqlarını müdafiə edirdi (Siksus, 1976). Kassandranın monoloqları məhz bu cür "feminist yazı" nümunəsidir: o, felləri isim kimi, isimləri fel kimi işlədir, sözləri

DOI:10.30546/gdu.5.2026

parçalayır, səsləri çoxaldır, radiostansiya dalğaları, kompüter kodları, mifoloji obrazlarla eyni anda danışır.

Onun "dəliliyi" burada ən yüksək müqavimət formasına çevrilir. İriqareyin qeyd etdiyi kimi, patriarxal simvolik düzən qadını ya susdurur, ya da onun dilini irrasional, isterik, "dəli" kimi damğalayır (İriqarey, 1985). Bruk-Rouz bu damğanı qəbul edir, lakin onu alt-üst edir: əgər qadının dili kişi məntiqinə görə "dəlilik"dirsə, Kassandra bu "dəliliyi" yeni bir bəsirət formasına, Apollonun lənətindən azad olunmuş özünəməxsus qadın biliyinə çevirir. O, artıq yunan mifindəki kimi yalnız gələcəyi deyil, keçmişi, indini və gələcəyi eyni anda "görən" bir şüur halını təmsil edir. Onun səsi romanın sonunda susmur – əksinə, son cümlələrdə gələcək zamanda davam edən bir monoloq kimi açıq qalır.

"Never let anyone see you foresee them, keep quiet Cassandra, forecaster of your own pollux, keep your castrations in perpetual cassation for nothing will ever be exactly as you shall one day see it in retrospect, otherwise you would grow big with expectation and sexplode ... Qui vivra verra, che sera sera, you shall see what you shall see and may the beast man wane." (1, səh 29)

"Qoy heç kim səni onları əvvəlcədən görərkən görməsin, sus Kassandra, öz polluksunun peyğəmbəri, axtalamalarını daimi kassasiyada saxla, çünki heç nə bir gün retrospektiv şəkildə görəcəyin kimi olmayacaq, əks halda sən gözləntilər və seks partlaması ilə böyüyəcəksən ... Qui vivra verra, che sera sera, görəcəyini görəcəksən və qoy heyvan-kişi yox olsun." (E.Ə.)

Bruk-Rouzun romanından götürülmüş bu fraqment Kassandranın daxili monoloqu olmaqla yanaşı, bütün əsərin dekonstruktiv poetikasının mikrokosmosu funksiyasını daşıyır. İlk sətirdən etibarən müəllif mifoloji Kassandranın fundamental paradoksunu dil səviyyəsində yenidən qurur: "Qoy heç kim səni onları əvvəlcədən görərkən görməsin, sus Kassandra" – burada bir tərəfdən yunan mifindəki Apollon lənəti (danışıb inanılmamaq) xatırlanır, digər tərəfdən isə susdurulmağa qarşı dilin özü ilə müqavimət göstərilir, çünki bu sətirləri dilə gətirən məhz Kassandranın öz səsidir. "Axtalamalarını daimi kassasiyada saxla" misrası isə romanın feminist strategiyasının ən radikal ifadələrindəndir: burada "axtalama" (castration) patriarxal simvolik düzənə qarşı bir silah kimi təqdim olunur, "kassasiya" isə həm hüquqi termin kimi mənanın daim təxirə salınmasını (Derrida dekonstruksiyasının əsas prinsipi), həm də Kassandra adı ilə assonans təşkil edərək onun bir prosesə, bir əməliyyata çevrildiyini bildirir. "Heç nə bir gün retrospektiv şəkildə görəcəyin kimi tam eyni olmayacaq" cümləsi zamanın dekonstruksiyasını şərtləndirir: gələcəkdə görüləcək hadisə keçmişə baxış anında artıq dəyişmiş, "çirklənmiş" olacaq – bu, Derridanın keçmişin saf halda mövcud olmaması, onun həmişə gələcəkdəki izləri ilə deformasiyaya uğraması barədə nəzəri müddəasının bədii ekvivalentidir (Derrida, 1982). Romandan götürülmüş parçada istifadə edilmiş "seks-partlaması" (sexplode) neologizmi Elen Siksusun "feminist yazı" nəzəriyyəsi ilə səsləşir: qadın bədəni və seksuallığı mətn səviyyəsində partlayıcı, orqazmik bir gücə çevrilir (Siksus, 1976). "Gözlənilənin ekspektorasiya doğurması" ifadəsində isə gözlənti (expectation) ilə bəlğəm, tüpürmə (expectoration) arasında qurulan assosiativ əlaqə mifoloji "böyük povest"in iflasını ironik şəkildə nümayiş etdirir: böyük peyğəmbərlik gözləntisindən geriyə yalnız dil qırıntıları, "tüpürülmüş" mənalar qalır (Liotar, 1979). Finalda üç dildə – fransızca "Qui vivra verra", italyanca "che sera sera", ingiliscə "you shall see what you shall see" – səslənən fatalist müdriklik ifadələri zahirən taleyə təslimiyyət kimi görünsə də, "görəcəyini görəcəksən" formulu gələcək zamanda verildiyi üçün əslində fatalizmi dekonstruksiya edir: gələcək hələ baş verməyib, mətnin sonu açıq qalır. Sonuncu cümlə – "qoy heyvan-kişi yox olsun" – isə bütün bu dil və zaman oyunlarının arxasındakı feminist manifesti bəyan edir: "heyvan-kişi" (beast man) Aqamemnonun, Apollonun, bütün patriarxal mifoloji düzənin

DOI:10.30546/gdu.5.2026

metaforasıdır, “yox olmaq, sönmək” (wane) isə ayın yavaş-yavaş kiçilməsi kimi, bu düzənin tədricən, lakin qaçılmaz şəkildə yox olması arzusunu ifadə edir (Bruk-Rouz, 1984).

Klitemnestra və bədən dilinin reabilitasiyası

Klitemnestra obrazı Qərb ədəbiyyatında ənənəvi olaraq ərini öldürən hiyləgər arvad, “canavar qadın” stereotipi kimi təqdim olunmuşdur. Bruk-Rouz bu obrazı yenidən yazaraq ona danışmaq, öz seksuallığını və hərəkətlərinin motivasiyasını ifadə etmək imkanı verir. Onun monoloqları bədən dilindən, arzulardan, fiziki təcrübədən qaynaqlanır. Bu, Siksusun qadının öz bədəni ilə yazması, bədənini dilə gətirməsi çağırışının birbaşa təcəssümüdür.

Roman Klitemnestranı mifik tale qurbanı olmaqdan çıxararaq şüurlu seçim edən bir subyektə çevirir. Onun Aqamemnonu öldürməsi ilahi ədalətin deyil, şəxsi, siyasi və gender müqavimətinin aktı kimi təqdim olunur. Bruk-Rouz burada mifin ən fundamental ziddiyyətini üzə çıxarır: Aqamemnonun öz qızı İfigeniyanı qurban verməsi “qəhrəmanlıq”, “vətənpərvərlik” kimi kodlaşdırılır, Klitemnestranın isə qisası “cinayət” kimi. Bu ikili standart Derridanın dekonstruksiya etdiyi metafizik iyerarxiyaların klassik nümunəsidir: kişi/qadın, mədəniyyət/təbiət, məntiq/emosiya qarşıdurmalarında birinci termin həmişə imtiyazlı mövqedədir. Bruk-Rouz mətni elə qurur ki, bu iyerarxiya çökür.

Janrın dekonstruksiyası: roman, şeir, yoxsa esse?

“Amalgamemnon” janr baxımından da dekonstruktivdir. Burada nəsr, şeir, esse, radiostansiya yayını, kompüter proqramı təlimatı, maliyyə hesabatı bir-birinə qarışır. Müəllifin öz səsi zaman-zaman mətnə müdaxilə edərək personajların gələcəyi ilə bağlı proqnozlar verir, sonra isə bu proqnozları yalanlayır. Bu cür özünürefleksivlik postmodern ədəbiyyatın tipik xüsusiyyəti olsa da, Bruk-Rouzda o, mifin təbiəti ilə bağlı daha dərin suala xidmət edir.

Əgər mif vahid, tamamlanmış, sabit bir hekayədirsə, Bruk-Rouz onu parçalamaq üçün janrı da parçalamalıdır. Yuliya Kristevanın intertekstuallıq nəzəriyyəsinə görə, hər mətn əvvəlki mətnlərin mozaikasıdır, mənalar məhz bu mozaikanın kəsişmə nöqtələrində yaranır (Kristeva, 1980). “Amalgamemnon” bu nəzəriyyəni həddinə çatdırır: mətn Esxildən, Homerin “Odisseya"sından, qəzet başlıqlarından, iqtisadi nəzəriyyələrdən, feminist manifestlərdən ibarət nəhəng bir mozaikadır. Müəllifin məqsədi bu mozaikanın arasından yeni bir hekayə toxumaq yox, mozaikanın parçalarının bir-birinə necə ziddiyyət təşkil etdiyini, mifin "təmiz” mənasının artıq mümkün olmadığını göstərməkdir.

Nəticə

Kristin Bruk-Rouzun “Amalgamemnon” romanı postmodern ədəbiyyatda yunan miflərinin dekonstruksiyasının ən mürəkkəb və radikal nümunələrindən biri kimi qarşımıza çıxır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, müəllif mifologemləri üç əsas səviyyədə dekonstruksiya edir: birincisi, mərkəzi kişi fiqurunu (Aqamemnonu) mətndən silərək onu fraqmentar diskurslar fonunda əridir; ikincisi, xətti zamanı dağıdaraq keçmişi gələcək, gələcəyi keçmiş kimi təqdim edən temporal amalgam yaradır; üçüncüsü, susdurulmuş qadın səslərini (Kassandra və Klitemnestra) dilin özünü parçalayan “feminist yazı” vasitəsilə dirildir.

Bruk-Rouz göstərir ki, mif sabit keçmişdən gələn səs deyil, daim yenidən danışılan, hər dəfə indinin və gələcəyin şərtləri ilə çirklənən açıq bir prosesdir. Onun dekonstruksiya layihəsi sadəcə yunan miflərini tənqid etməklə kifayətlənmir; o, dilin özünün necə ideoloji bir alət kimi fəaliyyət göstərdiyini, tarixən kimlərin səsini eşitdirib, kimləri susdurduğunu sorğulayır. Romanın son sətirlərində Kassandranın səsi susmur, gələcək zamanda açıq qalır – bu, dekonstruksiyanın heç vaxt tamamlanmayan, daim davam edən bir proses olması fikrinin bədii manifestidir.

DOI:10.30546/gdu.5.2026

Ədəbiyyat

1. Brooke-Rose, C. (1984). Amalgamemnon. Manchester: Carcanet Press.
2. Cixous H.(1976).The Laugh of the Medusa (K.Cohen, P.Cohen,Trans). Signs, 1(4),875-893
3. Derrida J. (1976). Of Grammatology (G. C. Spivak, Trans.). Baltimore: Johns Hopkins University Press.
4. Derrida J.(1982). Margins of Philosophy (A.Bass, Trans.). Chicago:University of Chicago Press.
5. Irigaray, L. (1985). This Sex Which Is Not One (C. Porter, C. Burke, Trans.). Ithaca: Cornell University Press.
6. Kristeva, J. (1980). Desire in Language: A Semiotic Approach to Literature and Art (T. Gora, A. Jardine, L. S. Roudiez, Trans.). New York: Columbia University Press.
7. Lyotard, J.-F. (1979). La Condition postmoderne: Rapport sur le savoir. Paris: Les Éditions de Minuit.
8. Friedman S.S.(1993). Spatialization:A Strategy for Reading Narrative. Narrative, 1, 12-23.
9. Little, J. (1999). The Experimental Fiction of Christine Brooke-Rose. Contemporary Literature, 40(3), 423-449.
10. Esxil. (1964). Oresteya (tərc. M. Rzaquluzadə). Bakı: Azərnəşr.

ДЕКОНСТРУКЦИЯ ДРЕВНЕГРЕЧЕСКИХ МИФОВ В РОМАНЕ КРИСТИН БРУК-РОУЗ «AMALGAMEMNON»

Алиева Емилия Натиговна

Резюме

В статье анализируются механизмы деконструкции древнегреческих мифов в романе Кристин Брук-Роуз «Amalgamemnon» — одной из выдающихся представительниц постмодернистской литературы. Основная цель исследования заключается в выявлении языковых, структурных и гендерных стратегий, посредством которых автор переписывает мифологемы Агамемнона, Кассандры и Клитемнестры, заимствованные из трагедий Эсхила, в особенности из трилогии «Орестея». В исследовании используются теория деконструкции Деррида, феминистская критика и концепция интертекстуальности. Устанавливается, что Брук-Роуз на протяжении всего романа разрушает линейное время, смешивает грамматические времена глаголов и выдвигает на передний план женские голоса в форме шизофренических монологов, тем самым «стирая» центральную мужскую фигуру на уровне текста. Основное внимание уделяется тому, как текст, выступая образцом феминистского письма, воскрешает заглушённый голос Кассандры посредством синтаксических разрывов языка.

THE DECONSTRUCTION OF GREEK MYTHS IN CHRISTINE BROOKE-ROSE'S NOVEL “AMALGAMEMNON”

Aliyeva Emiliya Natig

Summary

The article analyzes the mechanisms of deconstruction of Greek myths in Christine Brooke-Rose's novel *Amalgamemnon*, a prominent representative of postmodern literature. The main aim of the research is to reveal the linguistic, structural, and gender strategies through which the author rewrites the mythologemes of Agamemnon, Cassandra, and Clytemnestra, borrowed from the tragedies of Aeschylus, particularly the *Oresteia* trilogy.

DOI:10.30546/gdu.5.2026

The study draws on Derridean deconstruction theory, feminist criticism, and the concept of intertextuality. It is established that throughout the novel Brooke-Rose dismantles linear time, mixes grammatical tenses of verbs, and foregrounds female voices in the form of schizophrenic monologues, thereby "erasing" the central male figure at the textual level. The main focus is directed at how the text, as a sample of feminist writing, resurrects Cassandra's silenced voice through syntactic ruptures in language.

Rəyçi: f.ü.f.d. İ.A. Məcidova
Daxil olma tarixi 09 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:82-09.

F.KAFKANIN "QƏSR" ROMANINDA REAL BÜROKRATİYANIN ABSURD VƏ MAGİK ELEMENTLƏRLƏ QARIŞMASI

Əliyeva Günel Təvəkkül qızı
Azərbaycan Dillər Universiteti
gunel_eliyeva_81@mail.ru

Xülasə: *Məqalədə Frans Kafkanın "Qəsr" romanında real bürokratik sistemin magik və absurd elementlərlə birləşməsi araşdırılır. Tədqiqatın əsas məqsədi Qəsr, Dəftərxana və məmurlar vasitəsilə təqdim olunan idarəetmə mexanizminin necə qurulduğunu və bu mexanizmin fərdin davranışına, statusuna və dünyanı qavramasına təsirini müəyyənləşdirməkdir. Romanın başlanğıcından etibarən Qəsr həm real inzibati qurum, həm də insan idrakının tam nüfuz edə bilmədiyi qeyri-müəyyən məkan kimi təqdim olunur.*

Məqalədə K.-nın Yerölçən kimi Kəndə gəlməsi və onun bürokratik sistemlə qarşılaşması əsas təhlil istiqamətlərindən biri kimi nəzərdən keçirilir. K.-nın öz peşə statusunu tanıması ilə Qəsrin onu həmin statusda qəbul etməsi arasındakı ziddiyyət bürokratik hakimiyyətin fərdin sosial identifikasiyasını müəyyənləşdirmək gücünü göstərir. Eyni zamanda məktublar, müraciətlər, vasitəçilər və şifahi məlumatlar üzərindən qurulan kommunikasiya sisteminin qərarları aydınlaşdırmaq əvəzinə qeyri-müəyyənliyi artırdığı müəyyən edilir. Bürokratik dil məsuliyyətin konkret şəxsdə cəmlənməsinə imkan vermir və qərarın mənbəyini daim əlçatmaz saxlayır.

Klamm və digər məmurların simasızlığı, Qəsrin dolayı şəkildə təqdim olunması və çoxsaylı katiblərdən ibarət kargüzarlıq sistemi bürokratik aparatın hiperbolik və absurd təsvirini formalaşdırır. Məqalədə yol, koridor, bağlı qapılar və dövri zaman obrazlarının da bu sistemin labirint xarakterini gücləndirdiyi göstərilir. Nəticədə, "Qəsr"də bürokratiya yalnız inzibati idarəetmə modeli deyil, insanın öz statusunu, hüquqlarını və mövcudluğunu təsdiqləmək cəhdlərini sonsuzlaşdıran magik-absurd mexanizm kimi təqdim olunur. Kafka real bürokratik münasibətləri fantastik elementlərlə birləşdirərək fərd və hakimiyyət arasındakı qarşıdurmanı ekzistensial və fəlsəfi problem səviyyəsinə yüksəldir.

Açar sözlər: Frans Kafka, "Qəsr", bürokratiya, absurd, magik elementlər
Ключевые слова: Франц Кафка, «Замок», магический реализм, абсурд, бюрократия.
Keywords: Franz Kafka, The Castle, magical realism, absurd, bureaucracy.

Giriş. Frans Kafka "Qəsr" romanı üzərində işə 1922-ci ilin yazında başlamış və elə həmin ilin avqustunda bu işi dayandırmışdır. O, Maks Broda sentyabrın 5-də yazdığı məktubda yazırdı ki, "görünür mən Qəsrlə bağlı yazıya birdəfəlik son qoymuşam" [1, s. 104]. Bununla belə, əsər bitməmiş qalsa da, F.Kafkanın magik realizm metodunun ən yetkin nümunələrindən birinə çevrilmişdir.

Romanın elə ilk səhifəsindən başlayaraq oxucu Kafka təsvirinin bədii-ideya sıxlığı ilə üzləşir: "K. gəlib çatanda axşamdan xeyli keçmişdi. Kənd qar içində itib batmışdı. Dumana, qaranlığa bürünmüş qəsrdən əsər-əlamət görünmürdü, o böyüklükdə qaladan heç işartı da gəlmirdi. K. kəndin girəcəyindəki taxta körpünün üstündə dayanıb qarşısındakı aldadıcı boşluğa baxırdı" [5, s. 93].

Kafka magik realizminin aparıcı xüsusiyyətləri artıq bu kiçik parçada özünü bütün dolğunluğu ilə büruzə verir. Hər baxışdan bu son dərəcə realist təbiət təsviridir; lakin elə həmin təsvirin arxasında insan idrakının nüfuz edə bilmədiyi, qeyri-müəyyən və qaranlıq bir

DOI:10.30546/gdu.5.2026

aləm – Qəsr – dayanır. Məhz bu məqalədə "Qəsr" romanı timsalında F.Kafka yaradıcılığında real bürokratiyanın absurd və magik ünsürlərlə necə qarışdığı araşdırılır.

"Qəsr" romanında real bürokratik aparatın təsviri.

Vaxtı ilə Allahın qərarlaşdırdığı və insanlarla əlaqə yaratdığı, öz ehkamları ilə ona doğru yol göstərdiyi əzəmətli və dəbdəbəli məbədlər və kilsələr indi adi Dəftərxanaya çevrilmişdir: "Bu, nə qədim cəngavərlik qəsri, nə də yeni, cah-calallı tikiliydi, çoxusu bir-birinin qoynuna qısılmış evlərdən, az qismi isə ikimərtəbəli binalardan ibarət ətrafa yayılmış bir qalaydı. Qəsrliyini bilən olmasaydı, elə hesab edərdi ki, balaca bir şəhərcikdir, …" [5, s. 98].

Qəsrdə Dəftərxana yerləşirdi. Orada Qəsrə tabe olan Kəndin sakinləri zəli kimi istismar edən, qanlarına girən məmurlar qərarlaşmışdılar. Kəndin bütün sakinləri məmurlardan asılı idilər. Lakin onlar vassal yox, öz talelərindən tamamilə məmnun olan zülmə tabe kölələr idilər. Əslində Qəsrdə bircə nəfər də olsun əsl feodal yox idi. Onları bütöv bir məmurlar ordusu əvəz edirdi: Məhz bu məmurlar Kəndi idarə edirdilər.

Bu idarəetmənin qəribəlikləri özünü artıq Dəftərxana məmurlarının K.-ya münasibətlərində özünü büruzə verir. Qəsrin özü-bilgiləri və bilgisizlikləri mistik dumana büründüyünə baxmayaraq belə bir təsəvvür yaranır ki, Qəsr bir növ Yerölçənin gəlişindən, onun missiyasından xəbərdardırlar, lakin burada məmurlar özlərini görməməzliyə, eşitməməzliyə vurmuşlar. Qəsr özünün ikibaşlı münasibətini ifadə etmək üçün Yerölçənin yanına iki nəfər köməkçi göndərir. Lakin onlar əslində Yerölçənin hərəkətləri, düşündükləri, deyib-eşitdikləri haqqında qəsrə, Dəftərxanaya məlumat ötürmək üçün təyin olunmuş xəfiyyələrdir. Dəftərxanadan Yerölçənə məktub göndərirlər, lakin bu məktubun məzmunu da Dəftərxananın ona olan münasibəti kimi qeyri-müəyyəndir-istədiyin yerə yoza bilərsən. Yerölçəni nə qəsrə buraxırlar, nə də iddiasında olduğu vəzifə ilə təmin edirlər. Hər hansı bir məntiqə söykənən hərəkətdən daha artıq xəstə adamın qarabasmalarını xatırladan fantasmaqoniya tipli bürokratik oyunlar başlayır: K. təkidlə bütün mövcud olan vasitələrdən istifadə edib qəsrə daxil olmağa, məmurlarla müəyyən əlaqə və münasibətlər qurmağa cəhd edir. Ona elə gəlir ki, bircə dəfə dəftərxanada ən aşağı vəzifədə çalışan məmuru görə bilsə, problemlərini ona çatdıra bilsə, niyyətinə çata biləcəkdir.

K.-nın bürokratik sistemlə qarşılaşması yalnız onun qarşısına çıxan inzibati maneələrlə məhdudlaşmır. Bu sistem onun özünü necə müəyyənləşdirməsinə də təsir göstərir. K. Kəndə Yerölçən kimi gəlir və bu peşənin onun Qəsrlə münasibətini əsaslandıracağına inanır. Lakin onun peşə statusu Qəsrin bu statusu qəbul edib-etməməsi ilə müəyyənləşir. Yəni K.-nın özünü Yerölçən kimi tanıması ilə bürokratik sistemin onu bu statusda tanıması arasında fərq yaranır.

Bu vəziyyət bürokratik hakimiyyətin fərdin sosial mövqeyini müəyyənləşdirmək gücünü göstərir. K. özünün hansı vəzifəyə malik olduğunu bildiyini düşünsə də, onun bu vəzifəyə sahib olub-olmaması Qəsrin qərarından asılı vəziyyətə düşür. Fərdin öz haqqında verdiyi məlumat artıq kifayət etmir. Onun kimliyi və statusu inzibati sistem tərəfindən təsdiqlənməlidir.

Burada Kafka bürokratik sistemin absurdluğunu başqa bir müstəvidə göstərir. Normal idarəetmə şəraitində inzibati prosedurlar müəyyən fəaliyyətin həyata keçirilməsinə xidmət edir. "Qəsr"də isə prosedurun özü fəaliyyətin qarşısını alan mexanizmə çevrilir. K.-nın Yerölçən kimi fəaliyyət göstərməsi üçün əvvəlcə onun Yerölçən kimi qəbul edilməsi tələb olunur. Bu statusun qəbul edilməsi üçün isə Qəsrin qərarına ehtiyac yaranır. Qəsrin qərarına çatmaq üçün isə K. yenidən həmin bürokratik sistemin vasitələrindən istifadə etməli olur.

K. sistemə qarşı çıxmaq istədikcə onun qaydalarından asılı vəziyyətə düşür. O, öz hüququnu əsaslandırmaq üçün sistemin tanıdığı vasitələrdən istifadə etməli olur və bu vasitələr onu getdikcə daha çox bürokratik münasibətlər şəbəkəsinə daxil edir. Buna görə K.-

DOI:10.30546/gdu.5.2026

nın mübarizəsi sadəcə fərd ilə hakimiyyət arasındakı qarşıdurma deyil. Bu, fərdin öz məqsədinə çatmaq üçün qarşı çıxdığı sistemin mexanizmlərindən istifadə etməyə məcbur olduğu paradoksal vəziyyətdir.

"Qəsr"də bürokratik hakimiyyət inzibati qərarlar ilə birgə dil vasitəsilə də həyata keçirilir. Məktublar, müraciətlər, məlumatlar və məmurların verdiyi cavablar Qəsrlə Kənd arasında əlaqə yaradır. Lakin bu dil çox vaxt qərarın mənbəyini və məsuliyyət daşıyan şəxsi konkretləşdirmir. Nəticədə, bürokratik ünsiyyət məsuliyyəti sistem daxilində yaymaq vasitəsi kimi də çıxış edir.

K.-nın konkret cavab almaq cəhdlərində bu xüsusiyyət aydın görünür. O, qarşısındakı şəxsdən qərarın əsasını və həmin qərara kimin cavabdeh olduğunu öyrənmək istəyir. Lakin məmurların özləri də çox vaxt daha yüksək səviyyədə yerləşən başqa bir inzibati quruma və ya şəxsə istinad edirlər. Qərarın mənbəyi bir məmurdan digərinə keçir və onun son nöqtəsini müəyyənləşdirmək mümkün olmur.

Bu vəziyyət bürokratik hakimiyyətin məsuliyyəti şəxsiləşdirməyən xarakterini ortaya çıxarır. Əgər konkret qərarın müəllifi müəyyənləşsəydi, ona etiraz etmək və qərarın əsaslandırılmasını tələb etmək mümkün olardı. "Qəsr"də isə qərarın arxasında daim başqa bir mərhələnin, başqa bir məmurun və ya başqa bir inzibati strukturun dayandığı təsəvvürü yaranır. Buna görə K.-nın etirazının da konkret ünvanı müəyyənləşmir.

Bürokratik dilin paradoksu da məhz burada meydana çıxır. Məlumatın çoxalması qərarın aydınlaşmasına gətirib çıxarmır. Hər bir izah başqa bir izah tələb edir və hər bir cavab yeni bir inzibati əlaqənin mövcudluğunu göstərir. Dil özünün əsas kommunikativ funksiyasından uzaqlaşır, informasiya vermək əvəzinə qeyri-müəyyənliyi davam etdirir.

Bu baxımdan, "Qəsr"də bürokratik dil hakimiyyətin fəaliyyət mexanizmlərindən biridir. Məmurların danışığı vasitəsilə qərarlar şəxsi iradədən uzaqlaşdırılır, məsuliyyət konkret şəxsdə cəmlənmir və fərd sistemin bütöv mexanizmi qarşısında cavab axtarmağa məcbur olur. Kafka real bürokratik ünsiyyətin bu xüsusiyyətlərini həddindən artıq genişləndirərək onu absurd səviyyəyə çatdırır.

Bürokratik sistemin anlaşılmazlığı yalnız Qəsrin gizli strukturu ilə bağlı olmur. Bu anlaşılmazlıq onun dilində də özünü göstərir. Qəsrin dili K.-ya sistemin necə işlədiyini tam şəkildə izah etmir, əksinə, onu daha çox izah tələb edən vəziyyətə salır. Bürokratik dil insanın sistemi anlamaq cəhdini sonsuz kommunikasiya prosesinə çevirir və hakimiyyətin əlçatmazlığını qoruyan əsas vasitələrdən birinə çevrilir.

Qəsrlə Kənd arasındakı əlaqənin məktublar, vasitəçilər və şifahi məlumatlar üzərindən qurulması bürokratik sistemin mühüm xüsusiyyətlərindən birini meydana çıxarır. Bu cür ünsiyyət formasında məlumatın mənbəyi ilə onun ünvanlandığı şəxs arasında məsafə yaranır və nəticədə, əldə edilən məlumat ilkin məzmunundan uzaqlaşaraq müxtəlif yozumlara gətirib çıxarır. K.-nın Dəftərxanadan aldığı məktub da bu baxımdan aydınlaşdırıcı sənəd funksiyasını yerinə yetirmir. Əksinə, onun məzmununun müxtəlif cür yozula bilməsi Qəsrlə bağlı qeyri-müəyyənliyi daha da artırır. Bununla da bürokratik sistemdə ünsiyyət problemi həll edən vasitə olmaqdan çıxaraq qeyri-müəyyənlik yaradır.

K.-nın Qəsrlə münasibətini müəyyənləşdirmək cəhdləri də eyni məntiqə əsasən nəticəsiz qalır. O, Yerölçən kimi dəvətinin həqiqiliyini, vəzifəsinin mövcudluğunu və Kənddə qalmaq hüququnun əsasını aydınlaşdırmağa çalışsa da, aldığı məlumatlar bu məsələlərə qəti cavab vermir. Hər bir yeni məlumat onun qarşısında başqa bir sual yaradır. Məlumat çoxaldıqca yenə də qeyri-müəyyənlik artır.

Lakin K.-nın arzusu ürəyində qalır. Bu hər şeydən əvvəl onunla bağlıdır ki, dəftərxananın rəisi insan simasından məhrumdur. Demək Yerölçən onunla heç cür üz-üzə gələ bilməzdi. Bu mistik simasızlıq özünü təkcə məmurların sifətində deyil, adlarında da öz əksini

DOI:10.30546/gdu.5.2026

tapmışdı: sənətkar məmurların adlarının son dərəcə şərti xarakter daşıdığını, onların mahiyətsizliyi ilə üzvi vəhdət təşkil etdiyini ustalıqla vurğulamağa nail olmuşdur. F.Kafka onların eyni xarakterə, eyni dünyaduyuma və dünyagörüşə malik olduqlarını nəzərə çarpdırmaq üçün adlarında cüzi dəyişikliyə yol verir. Məmur soyadları "Sordini-Sortini" buna misal ola bilər: "Bu simasızlıq, məmurların əlçatmazlığı sanki Qəsrin ətrafındakı keçilməz divardır" [7, s. 144].

Klamm baş qəhrəman K.-nın birbaşa rəisi təyin olunur. Oxucu dumanlı şəkildə hiss edir ki, Klamm Qəsrdə çox yüksək vəzifə tutur. Amma Klamm kimdir, nəçidir? Müəllif nəinki özü onu təsvir etmir, hətta onunla təmasa girənlərin Klammın simasını görmədiyini vurğulayır. Görəsən bu yüksək vəzifə tutan məmur Qəsrdə hansı funksiyanı icra edir? Bu haqda da romanda heç bir məlumat yoxdur. F.Kafka xüsusilə qeyd edir ki, Klammın hansı işlə məşğul olması ilə bağlı heç nə bilmir. Maraqlıdır ki, Klammın birbaşa nümayəndəsi və qasidi olan Varnava da öz rəisini görə bilməmişdir. Nəticədə insanların gözünə görünməyən, varlığı və yoxluğu məlum olmayan Klamm Kəndin bütün sakinlərini özünə tabe edir. Yerölçənin özü də belə hesab edir ki, yalnız Klamm vasitəsilə o, Qəsrə yol tapa bilər. Bununla yanaşı bir sıra tədqiqatçılar Klammın simvolik məqamda Allah statusuna malik olmasını iddia edirlər [3, s. 42].

Kafka qəribə bir şəkildə oxucularını nəhəng bürokratik maşın olan Qəsrin fəaliyyəti ilə tanış edir: burada hər bir məmurun bir neçə katibi var, ən xırda işlərlə belə sonsuz kargüzarlıq işləri həyata keçirilir. Lakin müəllif heç zaman Qəsrin fəaliyyətini birbaşa təsvir etmir; oxucu bu haqda məlumatı yalnız Kənddə işləyən məmurların dedikləri əsasında əldə edir.

Kafka oxucunu da K.-nın düşdüyü epistemoloji vəziyyətə daxil edir: hər ikisi Qəsrin fəaliyyəti haqqında yalnız dolayı və parçalanmış məlumatlara malikdir. Oxucu da K. kimi sistemin bütöv mənzərəsini əldə edə bilmir və ayrı-ayrı məlumatlar arasında əlaqə yaratmağa məcbur olur. Bu üsul bürokratik sistemin anlaşılmazlığını romanın oxunma prosesinin özündə də yaradır.

Adi kargüzarlıq prosedurlarının bu dərəcədə genişləndirilməsi bürokratik sistemin hiperbolik təsvirini yaradır. Ən xırda məsələlərin belə çoxsaylı katiblər, yazışmalar və prosedurlar vasitəsilə həll edilməsi idarəetmə aparatını öz funksional məqsədindən uzaqlaşdırır və onu öz-özünü davam etdirən mexanizmə çevirir. Kafka real bürokratik proseduru tamamilə fantastik bir sistemlə əvəz etmir, onu həddindən artıq böyüdərək absurd həddə çatdırır.

Bürokratik labirint: yol, koridor və dövri zaman.

Kafka aforizmlərindən birində söyləyir ki, "Həqiqi yol kanat üzərində gedir. Bu kanat yuxarıda yox, düz yerin üzəri ilə gedir. Adama elə gəlir ki, o, üstü ilə getməkdən daha çox büdrəməkdən ötrüdür" [4]. Yerölçən K.-nın yolu məhz belə bir yoldur. Kənddə məskunlaşmaq üçün ona Qəsrin icazəsi tələb olunur, lakin Qəsrə yol yoxdur, daha dəqiq desək, yol mövcuddur, lakin onunla Qəsrə gedib çıxmaq mümkün deyil. Kafka göstərir ki, Kəndin baş küçəsi heç də Qəsrin yerləşdiyi dağa yox, yalnız ona doğru gedir. Yol dağın ətəyinə çatar-çatmaz başqa tərəfə dönür, lakin bir növ nə Qəsrdən uzaqlaşır, nə də ona yaxınlaşır. Beləliklə müəllif əsərdə heç yerə aparmayan yol obrazını yaratmışdır.

K.-nın Yerölçən kimi seçilməsi bu məkan paradoksunu daha da dərinləşdirir. Yerölçənin əsas vəzifəsi məkanı müəyyənləşdirmək, məsafəni ölçmək və sərhədləri dəqiqləşdirməkdir. Lakin Kafka məhz məkanı ölçmək və müəyyənləşdirmək funksiyasına malik olan şəxsi sərhədləri və ölçüləri müəyyən edilə bilməyən Qəsrin qarşısına qoyur. K. məkanı müəyyənləşdirmək üçün gəlir, amma özü bu məkanın daxilində istiqamətini itirir. Bu ziddiyyət K.-nın Qəsrlə münasibətini də müəyyənləşdirir. O, öz statusunu, Yerölçən kimi vəzifəsinin əsasını və Kənddə qalmaq hüququnu dəqiqləşdirməyə çalışır, lakin qarşılaşdığı

DOI:10.30546/gdu.5.2026

bürokratik sistem onun heç bir sualına qəti cavab vermir. Dəqiqlik və ölçü üzərində qurulan peşə ilə qeyri-müəyyənlik üzərində qurulan bürokratik dünya arasında paradoks yaranır. Buna görə Yerölçən obrazı yalnız K.-nın peşəsini müəyyənləşdirən detal deyil. O, romanın əsas ziddiyyətlərindən birini ifadə edən bədii vasitədir. Sərhədləri müəyyənləşdirməli olan insan özü sərhədləri müəyyənləşdirilə bilməyən bir sistemin içində qalır.

Kafkanın bütün romanları məkan labirint xarakteristikasına malikdir: "Amerika" romanında protaqonist Karl Rosman məskunlaşdığı Pollanderin evində sonsuz koridorlarda gəzişir, "Proses"də Yozef K. məhkəmə dəftərxanalarında azıb qalır. Bu cəhətdən labirint mövzusu "Qəsr" əsərində də davam və inkişaf etdirilir. Mehmanxananın bitib-tükənməyən koridorları ilə Kəndin baş küçəsi arasında tipoloji yaxınlıq mövcuddur. Yerölçən K. hələ romanın əvvəlində Kəndin baş küçəsinin uzandıqca uzandığını təəccüblə müşahidə edir. Onu da qeyd etmək lazımdır ki, əsərdə koridorların və küçənin sonsuzluğu onunla açılmalı olan bütün qapıların bağlı olması ilə müşayiət olunur.

Kafkanın əsərlərində əşyaların əsərin ideya məzmununun açıqlanmasındakı rolu ilə bağlı iki bir-birinə zidd nəzər nöqtəsi mövcuddur. Belə ki, R.Korst belə hesab edir ki, yazıçının əsərlərində əşyalar rekvizitdən, yəni teatrda tamaşa prosesində istifadə olunan əşyalardan başqa bir şey deyildir və onlar oxucunun diqqətini əsərdə cərəyan edən hadisələrdən və personajlardan yayındırmamalıdır. Onun fikrincə Kafkanın əsərlərində binaların bir-birinə bənzəməsi, eyni detallarını dəfələrlə təkrar olunması məhz bununla izah olunmalıdır [8, s. 138]. Onu da qeyd etmək lazımdır ki, Qəsrdə və Kənddə binaların faktiki olaraq bir-birinə bənzəməsi və eyni zamanda bu vahid dünyanın iki bir-birinə zidd qütbünün bir-birinin əksi olması müəllifə magik realizm prinsipləri əsasında dünyada bənzərliklərin ziddiyyəti haqqında təsəvvür yaratmağa xidmət edir. Bununla yanaşı, bu iki məkanın funksional mahiyyəti eyni deyil. Kənd gündəlik həyatın və insanların birbaşa münasibətlərinin məkanı olduğu halda, Qəsr həmin həyatın üzərində dayanan və onu inzibati qaydalar vasitəsilə tənzimləyən hakimiyyət məkanıdır. Onların fiziki oxşarlığı ilə funksional fərqliliyi arasındakı ziddiyyət real məkanın öz daxilində bürokratik hakimiyyətin görünməz sərhədini yaradır.

Bürokratik dövri zaman anlayışında da özünü göstərir. Qış "Qəsr" romanında ilin fəslinin realist təsviri yox, magiya nəticəsində insanın daxili aləminin soyuqluğunun, əbədi qışının xariciləşməsinin ifadəsidir. Romanda əbədi qış yalnız fəsillərin bir-birinə normal keçidini, bir-birini əvəz etməsini deyil, həmçinin zamanın da hərəkətini dayandırmışdır. Belə bir vəziyyətdə ilk baxışdan hərəkət etməyə, dünyada nəyi isə dəyişdirməyə can atan insan əslində Kəndlə Qəsr arasında əbədi gediş-gəlişə məhkumdur. Belə bir yeknəsəq, insanı tədricən yorub əldən salan hərəkət çox qəribə bir şəkildə magiya nəticəsində bərqərar olmuş hərəkətsizliyə çevrilir. Tədqiqatçılar həmçinin belə bir fakta da diqqət yetirirlər ki, "Qəsr" əsərində təsvir olunan hadisələr altı gün ərzində davam edir, altı rəqəmi isə yəhudi ənənəsində sonsuzluğun simvoludur [2, s. 76].

Nəticə. "Qəsr" romanında bu kənddən və qəsrdən ibarət olan yığcam dövləti idarə edən məmurlar universal iqtidar prinsipini təmsil edirlər. Onlar mahiyyət etibarilə bir-birindən fərqli, lakin magiyanın prinsipləri ilə bir araya gətirilən iki funksiyanı – dövlət funksiyasını və tale funksiyalarını icra edirlər. Onlar məmur qismində Kənddə yaşayan "rəiyyət"in hərəkətlərini tənzimləyir və məhdudlaşdırır, qəti qadağalar qoyur, insanları sıxışdırır, alçaldır, aldadırlar, bugünün işini sabaha saxlamaqla insanları çək-çevirə salırlar. Bu məmurlar hüquqsuzluğa, ədalətsizliyə söykənən cəmiyyətin normal fəaliyyətini təmin edirlər, lakin eyni zamanda bir növ hansı isə guya qayda-qanuna, ədalətə əsaslanan sistemin imitasiyasını yaradırlar. Məmurlar antihumanist və absurd qurumlarla idarə olunan dünyanın ideal idarəetmə qanununu təşkil edirlər.

DOI:10.30546/gdu.5.2026

T.Mannın sözləri ilə desək: “Bütün kitab boyu müəllif yorulmadan, əlində olan bütün imkanlardan istifadə edərək, bütün rəngləri köməyinə çağıracaq bəşəri və transsendental varlıqların qrotesk şəkildə bir araya gələ bilməməsi, ilahiliyin intəhasızlığı, yadlıq, amansızlıq, sanki başqa dünyadan əxz olunmuş məntiqsizlik, özünü ifadə etməkdən vaz keçmək istəyir, qəddarlıq, insan anlayışlarına uyğun gəlməyən ali hakimiyyətin mənəviyyatsızlığı təsvir olunur” [6, s. 376].

Beləliklə, F.Kafkanın “Qəsr” romanında real bürokratik aparat – Dəftərxana, məmurlar, kargüzarlıq prosedurları – həm son dərəcə tanış və gerçək təsir bağışlayır, həm də eyni zamanda simasızlıq, əlçatmazlıq, sonsuz labirint və dövri zaman kimi magik-absurd ünsürlərlə üzvi şəkildə qovuşur. Məhz bu qovuşma sayəsində Kafka gündəlik bürokratik gerçəkliyi insan varlığının köklü absurdluğunun bədii-fəlsəfi ifadəsinə çevirməyə nail olur. M.Brodun xatirələrinə görə Kafka romanı Yerölçənin ölümü ilə bitirmək niyyətində olmuş, lakin “Kəndin sakinləri onun ölüm yatağının ətrafında yığışırlar və bu zaman Qəsrdən belə bir sərəncam gəlir ki, K.-nın Kənddə yaşamağa hüquqi iddiasına əsas olmamasına baxmayaraq ona burada yaşamaq və işləmək hüququ verilir” [1, s. 149] – bu planlaşdırılan final əsərin əsas ideyasını, yəni bürokratik-magik mexanizmin sonsuzluğunu və insan taleyinin bu mexanizmdən asılılığını bir daha təsdiqləyir.

Ədəbiyyat

1. Brod, M. Franz Kafkas Glauben und Lehre / M.Brod. - Munchen, - 1948. - 321 p.
2. Buber, M. Brief wechsel M. Buber Hrsg / M.Buber. - Von Tuvia Rübner und Dafiia Mach, - 1913-1953, - 471 p.
3. Gray, K. Franz Kafka / K.Gray. - Cambridge: Cam.Univ.Press. - 1937. - 240 p.
4. https://www.aphorismen.de/zitat/81893
5. Kafka, F. Seçilmiş əsərləri / F.Kafka, - Bakı: Şərq-Qərb, - 2006. - 300 s.
6. Mann, T. Gesammelte Werke / T.Mann. - Berlin: - 1955. Bd. 11. - 740 p.
7. Sussman, M. Das Hiob-Problem bei Franz Kafka, Wien Böhlan, - 1996, - 349 p.
8. Zischler, H. Kafka geht ins Kino / H. Zischler. - Hamburg: Rowohlt, - 1998. - 158 p.

СОЧЕТАНИЕ РЕАЛЬНОЙ БЮРОКРАТИИ С АБСУРДНЫМИ И МАГИЧЕСКИМИ ЭЛЕМЕНТАМИ В РОМАНЕ Ф. КАФКИ «ЗАМОК»

Алийева Гунель Таваккул кызы

Резюме

В статье исследуется сочетание реальной бюрократической системы с магическими и абсурдными элементами в романе Франца Кафки «Замок». Основная цель исследования заключается в определении того, каким образом формируется механизм управления, представленный посредством Замка, Канцелярии и чиновников, и как этот механизм влияет на поведение, статус и восприятие мира человеком. С самого начала романа Замок представлен одновременно как реальное административное учреждение и как неопределённое пространство, недоступное для полного постижения человеческим сознанием.

Одним из основных направлений анализа является прибытие К. в Деревню в качестве землемера и его столкновение с бюрократической системой. Противоречие между признанием К. собственного профессионального статуса и признанием этого статуса Замком демонстрирует способность бюрократической власти определять социальную идентичность человека. Вместе с тем показано, что коммуникационная система, основанная на письмах, обращениях, посредниках и устной информации, не

DOI:10.30546/gdu.5.2026

способствует прояснению решений, а, напротив, усиливает неопределённость. Бюрократический язык препятствует закреплению ответственности за конкретным лицом и делает источник решений постоянно недоступным.

Безликость Кламма и других чиновников, косвенное изображение Замка и канцелярская система, состоящая из многочисленных секретарей, формируют гиперболическое и абсурдное изображение бюрократического аппарата. В статье также показано, что мотивы дороги, коридоров, закрытых дверей и циклического времени усиливают лабиринтный характер этой системы. В конечном итоге бюрократия в «Замке» представлена не просто как административная модель управления, а как магико-абсурдный механизм, превращающий попытки человека утвердить свой статус, права и существование в бесконечный процесс. Соединяя реальные бюрократические отношения с фантастическими элементами, Кафка поднимает конфликт между человеком и властью до уровня экзистенциальной и философской проблемы.

THE INTERPLAY OF REAL BUREAUCRACY WITH ABSURD AND MAGICAL ELEMENTS IN F. KAFKA'S "THE CASTLE"

Aliyeva Gunel Tavakkul

Summary

This article examines the combination of a real bureaucratic system with magical and absurd elements in Franz Kafka's The Castle. The main objective of the study is to determine how the mechanism of governance represented through the Castle, the Chancellery, and the officials is constructed and how this mechanism affects the individual's behavior, status, and perception of the world. From the very beginning of the novel, the Castle is presented both as a real administrative institution and as an ambiguous space beyond the full reach of human understanding.

One of the main analytical focuses of the article is K.'s arrival in the Village as a land surveyor and his encounter with the bureaucratic system. The contradiction between K.'s recognition of his professional status and the Castle's recognition of him in that capacity demonstrates the power of bureaucratic authority to determine an individual's social identity. At the same time, the communication system established through letters, petitions, intermediaries, and oral information is shown to increase uncertainty rather than clarify decisions. Bureaucratic language prevents responsibility from being attributed to a specific individual and keeps the source of decisions permanently inaccessible.

The facelessness of Klamm and the other officials, the indirect representation of the Castle, and the clerical system consisting of numerous secretaries create a hyperbolic and absurd representation of the bureaucratic apparatus. The article also demonstrates that the motifs of roads, corridors, closed doors, and cyclical time reinforce the labyrinthine nature of this system. Ultimately, bureaucracy in The Castle is presented not merely as an administrative model of governance but as a magical-absurd mechanism that renders endless the individual's attempts to establish their status, rights, and existence. By combining real bureaucratic relations with fantastic elements, Kafka elevates the conflict between the individual and authority to an existential and philosophical level.

Rəyçi: fil.e.d., prof. Aynur Zakir qızı Sabitova
Daxil olma tarixi 05 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:80.

NOMİNATİV SEMANTİKANIN FORMALAŞMASINDA PRAQMATİK-KOMMUNİKATİV AMİLLƏRİN ROLU

Əsgərova Münəvvər Ehtibar
Azərbaycan Dövlət Aqrar Universiteti
Dillər Tədris Mərkəzi
munavvarasgarova@adau.edu.az

Xülasə: *Məqalədə Azərbaycan dilinin leksik sistemində nominativ semantikanın formalaşmasına praqmatik-kommunikativ amillərin təsiri araşdırılır. Tədqiqatın əsas məqsədi nominativ vahidlərin semantik strukturunun yalnız dilin daxili qanunauyğunluqları ilə deyil, onların real kommunikativ şəraitdə işlənməsi, danışanın kommunikativ niyyəti, adresatın sosial statusu, nitq situasiyası, kontekst, ünsiyyət məqsədi və kollektiv kommunikativ təcrübə ilə şərtləndiyini əsaslandırmaqdır. Tədqiqatın materialını Azərbaycan dilində işlənən leksik vahidlər və onların müxtəlif kommunikativ kontekstlərdəki semantik reallaşmaları təşkil edir. Araşdırmada kontekstual, praqmatik, semantik-interpretativ, komponent və nominativ təhlil metodlarından istifadə edilmişdir. Təhlil göstərir ki, nominativ vahidin lüğəvi mənası onun kommunikativ istifadəsi zamanı əlavə praqmatik komponentlər qazana, neytral məna emosional-qiymətləndirici məzmunla zənginləşə, konkret leksik vahid isə müəyyən kommunikativ məqsədə xidmət edən nominativ vasitəyə çevrilə bilər. Məqalədə nominativ semantikanın formalaşmasında "kommunikativ situasiya – danışanın niyyəti – kontekstual seçim – praqmatik məna – semantik sabitləşmə" ardıcıllığı təklif olunur. Nəticədə əsaslandırılır ki, praqmatik-kommunikativ amillər nominativ semantikanın yalnız istifadəsinə deyil, onun inkişafına və müəyyən semantik komponentlərin dil kollektivində sabitləşməsinə də təsir edən mühüm determinantdır.*

Açar sözlər: nominativ semantika, nominasiya, praqmatika, kommunikativ amil, kommunikativ niyyət, kontekst, adresat, leksik vahid, praqmatik məna, Azərbaycan dili.

Ключевые слова: номинативная семантика, номинация, прагматика, коммуникативный фактор, коммуникативная интенция, контекст, адресат, лексическая единица, прагматическое значение, азербайджанский язык.

Keywords: nominative semantics, nomination, pragmatics, communicative factor, communicative intention, context, addressee, lexical unit, pragmatic meaning, Azerbaijani language.

Giriş

Dil vahidlərinin semantik xüsusiyyətlərinin müəyyənləşdirilməsində ənənəvi olaraq onların lüğəvi mənası, struktur-semantik əlaqələri və dil sistemindəki mövqeyi əsas götürülür. Lakin real kommunikasiya prosesində sözün mənası yalnız lüğəvi məzmunla məhdudlaşmır. Eyni leksik vahid müxtəlif kommunikativ situasiyalarda fərqli semantik və praqmatik çalarlar qazana bilir. Bu baxımdan nominativ semantikanın tədqiqi dil vahidinin nəyi adlandırması ilə yanaşı, onun nə məqsədlə, hansı situasiyada, kim tərəfindən və kimə münasibətdə işlədilməsi məsələlərinin də araşdırılmasını tələb edir.

Nominasiya gerçəkliyin dil vasitəsilə adlandırılması prosesidir. Lakin adlandırma aktı real ünsiyyət şəraitindən təcrid olunmuş şəkildə baş vermir. Danışan müəyyən obyekt, şəxs, hadisə və ya vəziyyəti adlandırarkən yalnız həmin reallığa işarə etmir; eyni zamanda öz kommunikativ mövqeyini, münasibətini, məqsədini və adresata yönəlmiş münasibətini də ifadə edə bilər. Məsələn, *adam* sözü ilkin nominativ baxımdan insan anlayışını ifadə edir. Lakin "O, əsl adamdır" cümləsində *adam* sözü yalnız insanı bildirmir, həm də "dürüst,

DOI:10.30546/gdu.5.2026

etibarlı, mərd, ləyaqətli şəxs" kimi praqmatik-qiymətləndirici məzmun qazana bilir. Eyni leksik vahid "Orada bir adam gözləyir" cümləsində isə əsasən neytral nominativ funksiyada işlənir. Bu fərq göstərir ki, nominativ semantikanın real kommunikasiya prosesində formalaşması və inkişafında praqmatik-kommunikativ amillərin rolu xüsusi əhəmiyyət daşıyır.

Əsas hissə

Nominativ semantika leksik vahidin gerçəklikdə müəyyən obyekt, hadisə, proses, əlamət və ya münasibəti adlandırması ilə bağlı semantik məzmunu əhatə edir. Lakin kommunikasiya prosesində həmin vahidin mənası yalnız denotativ münasibətlə məhdudlaşmır. Sözün kommunikativ istifadəsi onun əlavə semantik və praqmatik komponentlərlə zənginləşməsinə səbəb ola bilər. Belə hallarda lüğəvi məna kommunikativ situasiyanın təsiri altında konkretləşir və ya transformasiya olunur. Məsələn: *"O, müəllimdir."* Burada *müəllim* sözü əsasən peşə və sosial fəaliyyət bildirən nominativ vahiddir. *"O, əsl müəllimdir."* İkinci nümunədə *müəllim* sözü yalnız peşəni bildirmir. "əsl" komponentinin və bütöv kommunikativ situasiyanın təsiri ilə söz "öz peşəsinə sadiq, tələbəyə düzgün münasibət göstərən, yüksək pedaqoji keyfiyyətlərə malik şəxs" mənasında interpretasiya edilə bilər.

Bununla belə, eyni nominativ vahid müxtəlif situasiyalarda fərqli semantik yük daşıya bilər. Məsələn, *qonaq* sözünü nəzərdən keçirək: *"Bu gün bizə qonaq gələcək."* Burada söz əsas nominativ mənada – evə gələn şəxs – işlənir. Lakin: *"Qonaq qarşısında belə danışmaq olmaz."* cümləsində *qonaq* yalnız fiziki olaraq evə gələn şəxsi deyil, müəyyən sosial statusu və həmin statusla bağlı davranış normalarını da aktuallaşdırır. Daha fərqli kommunikativ situasiyada: *"Qonaq bizim üçün əzizdir."* ifadəsində *qonaq* sözü Azərbaycan kommunikativ-mədəni mühitində hörmət və qəbul etmə münasibətini ifadə edən praqmatik komponent qazanır.

Kontekst praqmatik-kommunikativ amillər içərisində xüsusi yer tutur. Eyni leksik vahidin müxtəlif kontekstlərdə müxtəlif semantik komponentlərlə çıxış etməsi nominativ semantikanın kontekstual dinamikliyini göstərir. Məsələn, *baş* sözünün istifadəsinə nəzər salaq*:* **"***Onun başı ağrıyır."* Burada *baş* somatik nominasiya funksiyasında çıxış edir. *"O, ailənin başıdır."* Bu halda *baş* sözünün nominativ-semantik strukturu məcazi istiqamətdə genişlənir və rəhbərlik, idarəetmə, əsas fiqur anlayışlarını ifadə edir. "İşin başında duran adam məsuliyyət daşıyır." Burada isə *baş* sözünün məkan və ya bədən üzvü ilə bağlı ilkin mənasından uzaqlaşaraq "idarə edən, rəhbərlik edən" semantik komponentini ifadə etdiyi görünür. Kontekst nominativ vahidin hansı semantik komponentinin aktuallaşacağını müəyyənləşdirir. Bu səbəbdən nominativ semantikanı yalnız lüğət vahidi səviyyəsində deyil, kontekst daxilində reallaşan semantik struktur kimi də nəzərdən keçirmək zəruridir.

Kommunikasiya iki və ya daha çox iştirakçının münasibətinə əsaslandığından nominativ seçim adresatın sosial və kommunikativ statusundan da asılıdır. Məsələn, Azərbaycan dilində şəxsin adlandırılması zamanı *sən*, *siz*, *cənab*, *xanım*, *müəllim*, *ağsaqqal*, *ana*, *bacı*, *qardaş* kimi vahidlərin seçilməsi yalnız referensial ehtiyacla bağlı deyildir. *"Müəllim, bir dəqiqə baxa bilərsiniz?"* müraciətində *müəllim* konkret şəxsin peşəsini bildirməkdən daha çox, hörmət və müraciət funksiyasını yerinə yetirir.

Burada nominativ vahid referensial funksiyadan kommunikativ-müraciət funksiyasına keçir. Beləliklə, adresat faktoru nominativ vahidin semantik və funksional strukturuna praqmatik komponent daxil edir.

Praqmatik-kommunikativ faktorların nominativ semantikaya təsirinin mühüm istiqamətlərindən biri nəzakət və evfemizasiya prosesləridir. Danışan müəyyən reallığı birbaşa adlandırmaq əvəzinə kommunikativ məqsədə uyğun daha yumşaq və sosial baxımdan məqbul

DOI:10.30546/gdu.5.2026

nominativ vahid seçə bilər. Məsələn: "qoca" – "yaşlı insan" qarşılaşdırmasında referensial obyekt eyni ola bilər. Lakin kommunikativ təsir baxımından bu vahidlər eyni deyildir. "Qoca" sözü müəyyən kontekstdə neytral yaş göstəricisi kimi işlənə bilsə də, bəzi situasiyalarda kobud və ya mənfi qiymətləndirici çalar yarada bilər. "Yaşlı insan" ifadəsi isə daha neytral və nəzakətli nominasiya yaradır. Bu fakt göstərir ki, nominativ seçim danışanın adresatla münasibətini və kommunikativ məqsədini nəzərə alır.

Nominativ vahidlər kommunikativ situasiyada emosional və ekspressiv məna da qazana bilər. Məsələn, *balaca* sözü: "Balaca uşaq həyətə çıxdı." cümləsində ölçü və yaş xüsusiyyətini bildirir. Lakin:*"Bizim balaca da universitetə qəbul oldu."*

ifadəsində *balaca* konkret ölçü bildirmir. Burada yaxınlıq, məhəbbət və emosional münasibət komponentləri ön plana çıxır.

Praqmatik-kommunikativ amillərin nominativ semantikaya təsirinin daha mürəkkəb formalarından biri ironiyadır. Məsələn: *"Böyük alim yenə işini son günə saxladı."* ifadəsində *böyük alim* nominativ olaraq yüksək elmi statusu bildirir. Lakin situasiya həmin şəxsin məsuliyyətsiz davranışını göstərirsə, ifadənin real kommunikativ funksiyası tərif deyil, ironiya ola bilər.

Burada leksik vahidin lüğəvi mənası saxlanılır, lakin kommunikativ niyyət onun interpretasiyasını dəyişir. Deməli, nominativ semantikanın kommunikativ aspektini yalnız sözün "nə ifadə etməsi" ilə deyil, danışanın həmin sözü hansı məqsədlə seçməsi ilə birlikdə araşdırmaq lazımdır.

Müasir kommunikasiya vasitələri – media, sosial şəbəkələr, internet platformaları və rəqəmsal kommunikasiya – nominativ vahidlərin praqmatik yüklənməsinə və yayılmasına ciddi təsir göstərir. Məsələn, *trend*, *viral*, *bloqer*, *izləyici*, *paylaşım*, *platforma*, *kanal* kimi vahidlər müasir kommunikativ praktikada əvvəlki mənalarından əlavə yeni kommunikativ funksiyalar qazanmışdır. *İzləyici* sözü bunun maraqlı nümunəsidir. Ənənəvi olaraq "izləyən şəxs" mənasında başa düşülə bilən vahid müasir rəqəmsal kommunikasiya mühitində müəyyən platformada konkret istifadəçinin hesabını izləyən şəxsi ifadə edən terminoloji-pragmatik nominasiya kimi sabitləşmişdir. Eyni şəkildə *paylaşım* sözü də ümumi "bir şeyi bölüşmək" məzmunundan çıxaraq rəqəmsal kommunikasiya sistemində konkret kommunikativ aktın adına çevrilmişdir. Bu proses göstərir ki, kommunikativ praktikanın dəyişməsi nominativ semantikanın da dəyişməsinə səbəb ola bilər.

Azərbaycan dilinin leksik vahidləri əsasında aparılan təhlil göstərir ki, nominativ semantikanın formalaşmasında praqmatik-kommunikativ amillər mühüm determinant kimi çıxış edir.

Beləliklə, nominativ vahid real kommunikasiya prosesində yalnız obyekt və hadisələrin adlandırılması funksiyasını yerinə yetirmir. Danışan nominativ vasitəni seçərkən kommunikativ məqsədini, adresatın sosial statusunu, situasiyanın xarakterini, emosional münasibətini, nəzakət normalarını və gözlənilən kommunikativ effekti nəzərə alır.

Ədəbiyyat

1. Austin J.L. How to Do Things with Words. Oxford: Clarendon Press, 1962.
2. Fillmore Ch.J. Frame Semantics // Linguistics in the Morning Calm. Seoul: Hanshin Publishing Company, 1982. P. 111–137.
3. Grice H.P. Logic and Conversation // Syntax and Semantics. Vol. 3: Speech Acts. New York: Academic Press, 1975. P. 41–58.
4. Levinson S.C. Pragmatics. Cambridge: Cambridge University Press, 1983.
5. Lyons J. Semantics. Vol. 1–2. Cambridge: Cambridge University Press, 1977.

DOI:10.30546/gdu.5.2026

6. Searle J.R. Speech Acts: An Essay in the Philosophy of Language. Cambridge: Cambridge University Press, 1969.
7. Cruse D.A. Lexical Semantics. Cambridge: Cambridge University Press, 1986.
8. Wierzbicka A. Semantics, Culture, and Cognition: Universal Human Concepts in Culture-Specific Configurations. New York: Oxford University Press, 1992.
9. Ягафарова Г.Н. The Factors That Influence the Process of Language Nomination // Fundamental Research. 2014. № 12 (11). С. 2505–2508.
10. Azərbaycan dilinin izahlı lüğəti. I–IV cild. Bakı: Şərq-Qərb, 2006–2011.

ПРАГМАТИКО-КОММУНИКАТИВНЫЕ ФАКТОРЫ В ФОРМИРОВАНИИ НОМИНАТИВНОЙ СЕМАНТИКИ

Аскерова Мунаввар Эхтибар

Резюме

В статье исследуется роль прагматико-коммуникативных факторов в формировании номинативной семантики лексических единиц азербайджанского языка. Основное внимание уделяется влиянию коммуникативной ситуации, интенции говорящего, контекста, социального статуса адресата, характера взаимоотношений участников коммуникации и предполагаемого коммуникативного эффекта на выбор и семантическую актуализацию номинативных единиц. Материалом исследования служат лексические единицы азербайджанского языка, функционирующие в различных коммуникативных контекстах. Использованы методы контекстуального, прагматичес кого, семантико-интерпретационного, компонентного и номинативного анализа. Установлено, что прагматико-коммуникативные факторы способны актуализировать дополнительные семантические компоненты лексической единицы, обусловливать ее эмоционально-оценочную интерпретацию, определять характер номинативного выбора и в отдельных случаях способствовать закреплению прагматически обусловленного значения в семантической структуре слова. В статье предлагается модель формирова ния номинативной семантики «коммуникативная ситуация-коммуникативная интенция -номинативный выбор-контекстуальная актуализация-прагматическая интерпретация-семантическая стабилизация». Делается вывод о том, что прагматико-коммуникативне факторы следует рассматривать не только как условия реализации номинативного значения, но и как один из механизмов его формирования и развития.

PRAGMATIC-COMMUNICATIVE FACTORS IN THE FORMATION OF NOMINATIVE SEMANTICS

Asgarova Munavvar Ehtibar

Summary

The article examines the role of pragmatic-communicative factors in the formation of nominative semantics of lexical units in the Azerbaijani language. Particular attention is paid to the influence of communicative situation, speaker intention, context, addressee status, social relations between communication participants, and the intended communicative effect on nominative choice and semantic actualization. The research is based on lexical units of the Azerbaijani language functioning in different communicative contexts. Contextual, pragmatic, semantic-interpretive, componential and nominative methods of analysis are applied. The analysis demonstrates that pragmatic-communicative factors may actualize additional semantic components of lexical units, determine their emotional and evaluative interpretation,

DOI:10.30546/gdu.5.2026

influence nominative choice and, in certain cases, contribute to the stabilization of pragmatically conditioned semantic components within the lexical meaning. The article proposes a model of nominative-semantic formation: “communicative situation – communicative intention – nominative choice – contextual actualization – pragmatic interpretation – semantic stabilization”. It is concluded that pragmatic-communicative factors should be regarded not merely as conditions for the realization of nominative meaning, but also as one of the mechanisms contributing to its formation and development.

Rəyçi:f.ü.f.d.Aslanova Gülnara
Daxil olma tarixi02 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:81.

PHRASAL VERBS AND THEIR RUSSIAN EQUIVALENTS

Gerayzade Malahat AgaBaba
Ph.D., Accociate Professor
https://orcid.org/0009-0002-1486-8196
qerayzademalahat1955@gmail.com
Hajieva Vafa Akif, Gazibayova-Mammadova Aysel Jamil
https://orcid.org/0009-0000-6563-6841; https://orcid.org/0009- 0004-6238-676X
vafa.haciyeva80@gmail.com; kazibekova94@gmail.com
Azerbaijan Medical University

Annatasion: *This article defines phrasal verbs and emphasizes their important role in the study of modern English. The authors emphasize that phrasal verbs do not have a literal translation and are not always perceived as a whole. They examine examples of the formation of phrasal verbs with various prepositions that radically change the meaning of the expression, and provide examples of their use.*

Keywords*: transitive, intransitive, new meaning, equivalent, inhere part of the language.*

Ключевые слова: переходный, непереходный, новое значение, эквивалент, неотъемлемая часть языка

Açar sözlər: keçid, keçilməz, yeni məna, ekvivalent, dilin tərkib hissəsi

"Phrasal verb is a verb combined with an adverb or a preposition, or sometimes both, to get a new meaning" (3).

Phrasal verbs consist of any often used verb (bring, rush, break, hand, do, set, get, run, turn, drop, hold, etc.) and prepositions (about, along, down, in, off, on, out, over, up and others).

Any of these verbs in combination with various prepositions may form different phrasal verbs with different meanings.

Phrasal verbs are divided into transitive and intransitive. Transitive phrasal verbs are those which can have a direct object. Unlike transitive, intransitive phrasal verbs can not.

For example:

call on (transitive) – *my daughter will call on you next Monday/ Моя дочь посетит вас в следующий понедельник.*

call in (intransitive) Peter **will call in** to see you if he is free/Петр навестит вас если он будет свободен.

Unfortunately, there is not a rule of define if the phrasal verb is transitive or not. It can be done only with the help of a dictionary.

Phrasal verbs fulfill an important function in the sphere of conversational and scientific debates.

Nowadays, the phrasal verbs become inhere part of English language learning. These expressions are widely used in conversations speech. Without phrasal verbs it is impossible to understand the speech of informant.

Let's look through some phrasal verbs, their Russian equivalents and their use in sentences.

To rush: -to rush at; to rush in; to rush out; to rush to

1. to rush at – наброситься, накинуться на кого-либо

Don't rush at conclusions *(Не торопитесь с выводами.)*

DOI:10.30546/gdu.5.2026

As soon as he entered the room, the children rushed at him with many questions.

2. to rush in / into – торопливо войти, ворваться

John rushed into the room and cried:*"Oh! I had successfully passed the exams and entered the university!"*

3. to rush out / off – торопливо выйти, уйти прочь

As soon as the bell rang, all students rushed out of the classroom.

4. to rush to – броситься, спешно отправиться

Seeing that her son's temperature was too high, Mrs. Hall rushed to the hospital.

To run: -to run away / off; to run down; to run out; to run over; to run in

1. to run away / off – убегать, удрать

On hearing the news, she ran off immediately.

You should help me. Please, don't run away.

2. to run down - a) останавливаться (о механизмах, часах)

My mobile has run down. It needs urgent charging.

б) говорить с пренебрежением.

He never runs down his groupmates.

3. to run out – кончиться, иссякнуть

Your time has run out. Please, hand in your papers.

My patience has run out.

On your way home, please, buy a loaf of bread. We have run out of it.

4. to run over - a) переехать, задавить

The dog was run over by a bus.

Be careful crossing the street in this place. There is always a danger to be run over.

б) перелиться через край, убежать.

Be careful! The milk may run over, turn off the gas on time.

5. to run in – заглянуть, заехать, забежать

On his way home, he ran in to his friend to ask if he needed anything.

To drop: - to drop in; to drop off; to drop on; to drop out

1. to drop in – навестить, зайти, заглянуть (куда-то, к кому-то)

After the lessons are over, we may drop in at a café for a cup of coffee.

2. to drop off - a) выходить, высадить (из машины)

Where will you drop off? b) оставить, забросить (вещь) куда-либо

Wait a little, I'll just drop a letter off.

3. to drop on somebody - a) наброситься, нападать на кого-либо

Don't drop on the child. It's not his fault. -b) случайно наткнуться на кого-либо (или что-либо)

Looking through this album, I dropped on this photo of my childhood.

4. to drop out – выбывать, выходить из чего-либо; бросить (например, школу)

My son will not take part in this competition. He dropped out of the game at the very beginning.

To turn: **turn around; turn out; turn over; turn up; turn into; turn inside out; turn upside down; turn on; turn off; turn down**

1. to turn around – повернуться, обернуться

2. to turn out – оказаться

This film turned out not to be interesting at all.

3. to turn over - a) перевернуться

That event had turned over Mrs. Brown's life.

Having heard the news, she couldn't sleep and turned over in her bed until dawn.

DOI:10.30546/gdu.5.2026

4. to turn up – появиться, очутиться

When Susan turns up, please give her this envelope.

5. to turn into – превратиться

The night was frosty, and the water in the lake turned into ice.

The witch turned the prince into a frog.

6. to turn inside out – вывернуть наизнанку

7. to turn upside down – перевернуть вверх тормашками

The police turned the room upside down searching for the criminal.

8. Other common phrasal verbs with turn:to turn up – сделать громче; to turn down – сделать тише; to turn on – включить; to turn off – выключить

Turn on the light, please. It is getting dark.

Turn off the TV. I'm not watching it.

Turn down the radio. It is too loud.

To Break. Common phrasal verbs: **break away; break down; break into; break out**

1. to break away – освободиться бегством, вырваться; избавиться (от чего-либо)

It's time to break away/ to get rid of/ from this bad habit.

The criminal broke away on the way to the police station.

2. to break down - a) ломаться, рушиться

My pen has broken down. May I use yours?

b) потерять контроль над собой, раскиснуть

When Lucy failed the exam, she broke down and cried.

3. to break into - a) врываться, вламываться

The day before yesterday my sister's house was broken into while she was at the wedding party.

b) to break into a run, a smile, laughter, song, tears – неожиданно начать делать что-либо

At the sight of her son's photos tourned-apart, Mrs. Black broke into tears.

4. to break out – разразиться, начаться

Yesterday the fire broke out in the factory.

To Hand: hand down; hand in; hand out; hand over

1. to hand down – передавать (знания, опыт, традиции и т. п.) из поколения в поколение

The skill of gold work is handed down from generation to generation.

2. to hand in – сдавать (работу, документы)

"Your time is over, please, hand in your examinational papers," said the inspector.

3. to hand out – раздавать

Ann, would you like to hand out these cards to all your groupmates?

4. to hand over – передавать

Could you hand over the journal, please? I can't reach it.

Don't worry. I'll hand this telegram over to him.

To Do: do away with; do out; do up; do with

1. to do away with (something) – покончить с чем-либо, избавиться от чего-либо

After the doctor told him the diagnosis, he had to do away with smoking.

2. to do out – вычистить, тщательно убрать

The maid did out all the rooms in the department yesterday.

3. to do up – застегиваться, прихорашиваться

a) застегнуть (одежду)

DOI:10.30546/gdu.5.2026

You should do your coat up if you don't want to catch a cold.
b) прихорашиваться, приводить себя в порядок
Mrs. Walter is invited to the party, so she is doing herself up.
4. to do with – хотеть, нуждаться (в чем-либо)
He is thirsty and can do with a glass of water.
To Set: set about (doing something); **set somebody to do something; set somebody to something; set out; set off**
1. to set about (doing) something – приниматься за что-либо, начать что-либо делать
I set about translating this article on Monday.
We are going to set about our business next month.
2. to set somebody to do something / to set somebody to something – заставить, поручить кому-либо заняться чем-либо
She is doing her best to make her son set about his homework.
Who set you to do this?
3. to set out / to set off - a) помещать, выставлять (на обозрение, для продажи)
The latest models of the car were set out for sale.
b) отправляться (в путь, в путешествие, в экспедицию)
Bobby set off at dawn.
They had to walk there, so they set off early in the morning.
To Get: get on; get off; get along; get out; get up; get away; get over; get down to (work/business)
1. to get on - a) сесть на общественный транспорт (кроме автомобиля)
to get on the bus — сесть в автобус;
to get into the car — сесть в машину.
to get off the bus — выйти из автобуса;
to get out of the car — выйти из машины.
b) делать успехи, продвигаться вперед.
2. to get off – сойти с общественного транспорта (кроме автомобиля)
You should get off the bus at the next stop.
3. to get along – уживаться, ладить с кем-либо
He is a very kind person and gets along with all his friends.
4. to get out – выйти наружу
"Stop kidding and get out," cried the father to his son.
5. to get up – подниматься (с постели)
Alan gets up early every morning as he lives far from school.
6. to get away – удрать, улизнуть, сбежать
Ann's boyfriend snatched all her jewelry and got away.
7. to get over – справиться с чем-либо, преодолеть
If you don't stop smoking, you will never get over your illness.
The fact of his death was a real shock, and we still can't get over it.
8. to get down to work / business – приниматься за работу, за дело
It's already evening, and it's high time to get down to your home task.

References

1. Афанасьева О. В., Михеева И. В. *English VIII.* Учебник английского языка для VIII класса школ с углублённым изучением английского языка, лицеев, гимназий и колледжей.
Москва: Просвещение, 2006.

DOI:10.30546/gdu.5.2026

2. Митрошкина Т. В. *Английские фразовые глаголы.* Учебный справочник. Pocket English, 2011.
3. Hornby A. S. *Oxford Advanced Learner's Dictionary of Current English.* Seventh Edition. Chief Editor: Sally Wehmeier. Oxford: Oxford University Press, 2002.
4. McCarthy Michael, O'Dell Felicity. *English Collocations in Use. Intermediate.* Cambridge: Cambridge University Press, 2017.

ФРАЗОВЫЕ ГЛАГОЛЫ И ИХ ПЕРЕВОД НА РУССКИЙ ЯЗЫК

Герайзаде Мелахат АгаБаба кызы, Гаджиева Вафа Акифовна,
Газыбекова-Меммедова Айсель Джамил кызы

Резюме

В статье даётся определение фразовых глаголов, подчёркивается их немаловажная роль в изучении английского языка в настоящее время. Авторами указывается на то, что фразовые глаголы не имеют дословного перевода и не всегда воспринимаются целиком. Рассматриваются модели образования фразовых глаголов с различными предлогами, которые радикально меняют значение словосочетания, а также предлагаются примеры их употребления.

FRAZALI FEİLLƏR VƏ ONLARIN RUS DİLİNƏ TƏRCÜMƏSİ

Gərayzadə Məlahət AğaBaba qızı, Hacıyeva Vəfa Akif qızı,
Qazıbəyova-Məmmədova Aysel Cəmil qızı

Xülasə

Bu məqalə fraza feli müəyyən edir və onların müasir ingilis dilinin öyrənilməsində mühüm rolunu vurğulayır. Müəlliflər vurğulayırlar ki, fraza feli hərfi tərcüməyə malik deyil və həmişə bütövlükdə qavranılmır. Onlar ifadənin mənasını kökündən dəyişdirən müxtəlif ön sözlərlə fraza felin əmələ gəlməsi nümunələrini araşdırır və onların istifadəsinə dair nümunələr təqdim edirlər.

Rəyçi: dosent Sevda Kadıyeva
Daxil olma tarixi19 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:82-09.

AZƏRBAYCAN VƏ DÜNYA ƏDƏBİYYATINDA REALİZM VƏ SOSİAL DÜŞÜNCƏ ANLAYIŞI

Həsənova Aynur Məzahir qızı
Azərbaycan Universiteti
https://orcid.org/0009-0004-3219-3123
aynur.hasanova@au.edu.az

Xülasə. Realizm dünya ədəbiyyatında gerçəkliyin bədii dərkinə, insanın konkret tarixi və sosial mühit daxilində təqdim edilməsinə, cəmiyyətin daxili münasibət və ziddiyyətlərinin estetik təhlilinə əsaslanan mühüm yaradıcılıq istiqamətlərindən biridir. XIX əsrdə müstəqil ədəbi cərəyan səviyyəsindəsistemləşən realizm müxtəlif milli ədəbiyyatlarda eyni estetik prinsipləri təkrarlamaqla kifayətlənməmiş, hər bir xalqın tarixi, sosial-mədəni və mənəvi təcrübəsinəuyğun spesifik xüsusiyyətlər qazanmışdır. Dünya ədəbiyyatında Balzak, Dikkens, Tekkerey, Qoqol, Saltykov-Şedrin və Çexov kimi realistlərin yaradıcılığında cəmiyyətin sosial quruluşuna, ictimai ədalətsizliklərə və mənəvi ziddiyyətlərə münasibət diqqət mərkəzindədir. Azərbaycan ədəbiyyatında isə maarifçi realizmdən tənqidi realizmə keçidin tarixi-estetik şərtləri, MirzəFətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və digər realistlərin yaradıcılığında sosial düşüncənin bədii ifadə formaları diqqət cəlb edir.

Açarsözlər:realizm, sosial düşüncə, tənqidi realizm, maarifçi realizm, sosial problematika, milli özünüdərk.

Keywords: realism, social thought, critical realism, Enlightenment realism, social issues, national self-awareness

Ключевые слова: реализм, общественная мысль, критический реализм, просветительский реализм, социальная проблематика, национальное самосознание

Giriş. Ədəbiyyatın sosial həyatla münasibəti bədii fikrin tarixi boyunca dəyişən formalarda meydana çıxmışdır. Müxtəlif ədəbi cərəyanlar insan və cəmiyyət problemini fərqli estetik prinsiplərlə mənalandırsalar da, gerçəkliyin konkret sosial münasibətlər sistemi kimi bədii tədqiqi realizmdəxüsusilə ardıcıl xarakter almışdır. Realist ədəbiyyat üçün insan zamanın,sosial mühitin, iqtisadi münasibətlərin,mənəvi dəyərlərin və ictimai düşüncəsisteminin iştirakçısıdır. Buna görə realist əsərdə fərdi taleyin təhlili çox zaman bütöv cəmiyyət haqqında düşüncənin formalaşdırılması vasitəsinə çevrilir.

Ədəbiyyat nəzəriyyəsinədair araşdırmalarda realizmin XIX əsrdə müstəqil yaradıcılıq istiqaməti kimi sistemləşdiyi, lakin onun ilkin əlamətlərinin daha əvvəlki ədəbi mərhələlərləbağlı olduğu göstərilir. Realizmin mühüm xüsusiyyətlərindən biri onun müxtəlifmilli və regional mühitlərdə ümumi estetik prinsiplərini qorumaqla bərabər, *"həmin mühitlərin tarixi-mədəni xüsusiyyətlərinə uyğun yeni keyfiyyətlər"* qazanmasıdır [1, s. 187]. Bu baxımdan Azərbaycan realizminin dünya realizminin sadə surəti kimi deyil, ümumi realist estetika ilə milli ədəbi ənənənin qarşılıqlı əlaqəsindən yaranmış xüsusi tip kimi öyrənilməsi daha məqsədəuyğundur.

Realizm və sosial düşüncə probleminin birgə araşdırılması ona görə əhəmiyyətlidir ki, sosiallıq realist xarakterlərin qurulmasını, konfliktin mahiyyətini, müəllif mövqeyini, satira və ironiyanın funksiyasını, məkan-zaman münasibətlərini müəyyənləşdirəbilir. Sosial düşüncə anlayışı bu məqalədə müəyyən siyasi və ya iqtisadi nəzəriyyənin bədii mətnə tətbiqi kimi deyil, fərd ilə cəmiyyət arasındakı münasibətlərin, sosial bərabərsizliklərin, mənəvi problemlərin, təhsil və maariflənmənin, qadının sosial mövqeyinin, insan hüquqlarının, milli-mədəni özünüdərkin vəictimai tərəqqi ideyasının ədəbi-estetik dərki mənasında işlədilir.

DOI:10.30546/gdu.5.2026

Realizmin nəzəri-estetik mahiyyəti və sosial gerçəkliyin bədii dərki. Realizmin əsas xüsusiyyəti gerçəkliyi fotoqrafik dəqiqliklə təkrarlamaq deyil. Realist sənət müşahidə olunan həyat hadisələrini seçir, ümumiləşdirir və onların arxasında dayanan sosial, psixoloji və mənəvi qanunauyğunluqları bədii modelə çevirir. Buna görə də realist mətnin həqiqət anlayışı gündəlik faktların sadə toplusundan daha genişdir. Fərdi hadisə tipik vəziyyətə, konkret insan müəyyən sosial-mənəvi mühitin xarakterik nümayəndəsinə çevrilə bilir.

T.Məmməd realizmin əsas prinsiplərindən danışarkən onun həyat hadisələrini konkret zaman və məkan daxilində, gerçəkliyinqanunauyğunluqları ilə əlaqədə təqdim etməsini xüsusi vurğulayır. Realist obraz real zəminlə əlaqəsini itirmir, bununla belə, "*sənətkarın məqsədi görünən həqiqəti mexanikişəkildə təkrarlamaq deyil*", müşahidə etdiyi hadisələrdəki ümumi mahiyyəti aşkara çıxarmaqdır [1, s. 188].

Realizmlə romantizmin estetik fərqini ifadə etmək Jorj Sandın Balzaka müraciətini misal gətirə bilərik: "*Siz insanı onun sizin nəzərinizə göründüyü kimi götürürsünüz, mən isəözümdəki istəyə görə hiss edirəm ki, onun təsvirini görmək istədiyim kimi verməliyəm*" [1, s. 187]. Bu fikir realizmdə mövcud olanla arzu olunan arasındakı münasibətin xarakterini aydınlaşdırır. Realist sənətkarın diqqəti ideal insan modelindən əvvəl, real şəraitdə formalaşmış insanın mürəkkəbliyinə yönəlir.

XIX əsrdə pozitiv elmlərin, müşahidəyə əsaslanan düşüncənin və sosial həyatın sürətli dəyişməsinin təsiri ilə realizmin ədəbi mövqeyi daha da möhkəmlənmişdir. Stendal, Balzak, Çarlz Dikkens, Qoqol, Dostoyevski, Tolstoy vəbaşqa müəlliflərin dünya realist ədəbiyyatının "*əsas nümayəndələri*" sırasında təqdim edilməsi də realist estetikanın müxtəlif milli ədəbiyyatlarda geniş yayılmasını göstərir [1, s. 189].

Burada mühüm məqam realizmin sosial düşüncə ilə əlaqəsinin avtomatik şəkildə "*mövcud cəmiyyətin bütövlükdə inkarı*" demək olmamasıdır. T.Salamoğlunun tənqidi realizm haqqında mülahizələrində Balzak, Dikkens və Tekkerey yaradıcılığı məhz bu baxımdan nəzərdən keçirilir. Tədqiqatçı "*həmin sənətkarlarda yaşadıqları ictimaimühitin ziddiyyətlərinin sərt tənqid edildiyini, lakin həmin mühitin bütövlükdərədd edilməsinin onların estetik məqsədi olmadığını*" vurğulayır [2, s. 17-18]. Sosial düşüncə realist ədəbiyyatda iki mühüm istiqamətdə üzə çıxır: bir tərəfdən cəmiyyətin problemlərinin aşkarlanması, digər tərəfdən isə insanın, ictimai münasibətlərin və mənəvi dəyərlərin dəyişə bilməsi imkanının axtarılması. Məhzikinci cəhət realizmi yalnız "*ifşa ədəbiyyatı"*
kimi şərh etməyə imkan vermir.

Dünya realist ədəbiyyatında sosial tənqid və insan problemi. Dünya ədəbiyyatında realizmin yüksəlişi sosial münasibətlərin mürəkkəbləşməsi, şəhərləşmənin genişlənməsi, yeni sosial təbəqələrin formalaşması və fərdin ictimai sistem daxilində mövqeyinin dəyişməsi ilə eyni tarixi dövrə təsadüf edir. Bu şərait realist yazıçı üçün daxili aləmi formalaşdıran sosial mühiti də bədii araşdırmanın predmetinəçevirirdi.

Fransız və ingilis tənqidi realizminin mühüm xüsusiyyəti fərdi mənəvi naqisliklə sosial münasibətlər arasında əlaqənin göstərilməsidir. T.Salamoğlunun araşdırmasında Balzak, Dikkens və Tekkereyin yaradıcılığı iləbağlı əvvəlki ədəbiyyatşünaslıq qənaətləri təhlil edilərək realistlərin ictimai ədalətsizliklərə və mövcud sosial sistemin qüsurlarına qarşı kəskin münasibətinin olduğu göstərilir. Tədqiqatçının mülahizələrindən belə nəticəyə gəlmək mümkündür ki, *"onların sosial tənqidindəki əsas məqsəd cəmiyyət haqqında abstrakt nəzəri model yaratmaq deyil, konkret insan taleləri və xarakterlər vasitəsilə ictimai münasibətlərin insan üzərindəki təsirini göstərmək olmuşdur"* [2, s. 17].Dikkensin *"insanınyenidən tərbiyəsi və cəmiyyətin mənəvi islahı imkanı"na inamının xüsusi vurğulanması diqqətəlayiqdir* [2, s.

DOI:10.30546/gdu.5.2026

18]. Bu fakt tənqidi realizmdə tənqid vəhumanist idealın bir-birini istisna etmədiyini göstərir. Əksinə, sosial eybəcərliyin göstərilməsi çox zaman insanın daha ədalətli və mənəvi münasibətlərəehtiyacının təsdiqinə çevrilir.

Rus klassik realizmi ilə Azərbaycan realizminin tipoloji münasibətləri dəsosial düşüncənin müqayisəsi üçün mühüm material verir. Bu yaxınlıq oxşar estetik problemin müxtəlif milli ədəbiyyatlarda fərqli formalarda həlli kimi də dəyərləndirilə bilər. Qoqol, Saltykov-Şedrin və Çexov rus ictimai-mənəvi mühitinin ziddiyyətlərindən çıxış etdiyi kimi, Cəlil Məmmədquluzadədə öz dövrünün Azərbaycan cəmiyyətində müşahidə etdiyi sosial, məişət, təhsil vəmənəviyyat problemlərini milli həyatın konkret reallıqları vasitəsilə bədii ümumiləşdirməyə çevirmişdir. Deməli, dünya realist ədəbiyyatlarının müqayisəsindəəsas ortaq cəhət konkret sosial mühitdə yaşayan insanın bədii təhlilidir. Fərq isə həmin sosial mühitlərin tarixi strukturu, mədəni ənənələri, problemləri vəonların bədii ifadə üsulları ilə bağlıdır. Realizmin ümumbəşəri mahiyyəti iləmilli xüsusiyyəti məhz bu nöqtədə birləşir.

Azərbaycan realizminin təşəkkülü və maarifçi sosial düşüncə. Azərbaycan ədəbiyyatında realizmin formalaşması milli ədəbi ənənənin, Şərq bədii düşüncəsininvə XIX əsrdə güclənən Avropa və rus ədəbi-mədəni əlaqələrinin qarşılıqlı təsiri şəraitində baş vermişdir. Bu proses cəmiyyətə, insana, təhsilə, dilə və ictimai tərəqqiyə baxışda yeni düşüncə sisteminin formalaşması idi.

T.Məmməd Azərbaycan ədəbiyyatında maarifçi realizmin inkişafını bir neçə mərhələ ilə əlaqələndirir. Bakıxanov, Qutqaşınlı və Zakir yaradıcılığında görünən ilkin realist elementlər M.F.Axundzadəyaradıcılığında daha sistemli və mükəmməl estetik ifadəyə çevrilmiş, XIX əsrin sonlarında isə maarifçilik daha geniş "*mədənihərəkat*" mahiyyəti qazanmışdır [1, s. 191-192]. XX əsrin başlanğıcında isərealist metod maarifçi və tənqidi realizm istiqamətlərində yeni inkişaf mərhələsinədaxil olmuşdur.

Maarifçi realizmin sosial düşüncəsinin mərkəzindəinsanın dəyişdirilə bilməsi ideyası dayanır. Burada təhsil, ağıl, dünyəvi bilik və mənəvi islah ictimai tərəqqinin əsas şərti kimi çıxış edir. Maarifçi realistlərin xüsusilə "*sosial cəhətdən zəifvəziyyətdə olan yoxsul əhali və qadınların hüquqları*" məsələsinə diqqət yetirməsi göstərilir [1, s. 191]. Bu, realist ədəbiyyatın insanın fərdi problemlərindən sosial struktur problemlərinə doğru genişlənməsinin əlamətidir.

M.F.Axundzadənin realizmində tənqid daha çox maarifçi məqsədləbirləşir: problem göstərilir, lakin insanın ağıl, təhsil və mədəni yeniləşmə vasitəsilə dəyişməsi mümkünsüz hesab edilmir.

Azərbaycan maarifçi-tənqidi realizminin daha geniş inkişafında müxtəlif janrların meydana çıxması da mühüm əhəmiyyət daşıyır. T.Əliyevanın fikrincə, "*yeninəsr, dram, komediya, faciə, publisistika, hekayə, povest, roman və digərjanrların inkişafı maarifçi-realist düşüncənin genişlənməsi ilə bağlı olmuşdur*"[3, s. 127]. Realist nəsrdə xəlqilik, həyatilik, sosial ədalət, bərabərlik, elm, dünyəvilik və millilik ideyaları ön plana çıxmışdır. Müəllif bunu beləümumiləşdirir: "*Bu və digər maarifçiyazıçıların nəsrində bütövlükdə maarifçilik idealları, xəlqilik, həyatilik,tarixilik meyarları, sosial ədalət, bərabərlik, bilik və elm, dünyəvilik,millilik bədii mətnin aparıcı ideyalarıdır*" [3, s. 129].

Tənqidirealizm: sosial strukturun bədii təhlili. Maarifçi realizmdən tənqidi realizmə keçid sosial problemlərin bədii təqdimatının daha kəskin və çoxqatlı xarakter alması iləmüşayiət olunur. Tənqidi realist artıq yalnız insanın savadsızlığına və yanlışdavranışına deyil, bu davranışı formalaşdıran ictimai münasibətlərə də diqqət yönəldir. Lakin tənqidi realizmin mahiyyətini cəmiyyətin qüsurlarını sadalamaqla izah etmək kifayət etmir. Burada əsas məsələ sosial problemi estetik sistemə çevirməkdir. Obraz, konflikt, ironiya, satira, məişət detalı və danışıq dili sosial məzmunun daşıyıcısına çevrilir. Bu baxımdan sosial

DOI:10.30546/gdu.5.2026

düşüncənin bədii təsiri birbaşa müəllif şərhindən daha çox obrazlarındavranışı, nitqi və qarşılıqlı münasibətlərində meydana çıxır. T.Salamoğlu Azərbaycan tənqidi realizminin estetikasını araşdırarkən əvvəlki ədəbiyyatşünaslıqda onun əsasən inkar və ifşa pafosu ilə izah edilməsini problemli hesab edir. Monoqrafiyada Cəlil Məmmədquluzadə və Sabirin yaradıcılığında "*tənqidpafosu ilə yanaşı təsdiq, tərbiyə və mənəvi yeniləşmə ideyasının*" da nəzərəalınmasının zəruriliyi irəli sürülür [2, s. 5]. Tənqidi realizmdə sosial düşüncəüç səviyyədə meydana çıxır: mövcud problemin göstərilməsi, həmin probleminin xarakterində yaratdığı nəticələrin açılması və mövcud vəziyyətin alternativ mənəvi-mədəni dəyərlərlə müqayisəsi. Sonuncu məqam realist tənqidin arxasında müəyyən idealın mövcud olduğunu göstərir.

Cəlil Məmmədquluzadə realizmində sosial oyanış vəinsanın "şəxsiyyət olmaq haqqı". Azərbaycan tənqidi realizminin sosial düşüncəsistemini Cəlil Məmmədquluzadə yaradıcılığı olmadan tam təsəvvür etmək mümkün deyil. Onun nəsri və dramaturgiyasında sosial problemin miqyası məişət hadisəsindən milli-mənəvi məsələyə qədər genişlənir. Yazıçı kiçik, zahirən adi hadisənin daxilində böyük ictimai problemin mahiyyətini görmək və onu yığcam bədii detal vasitəsiləifadə etmək bacarığı ilə seçilir.

E.Qaragözova Cəlil Məmmədquluzadə realizminin səciyyəvi xüsusiyyətlərini belə ümumiləşdirir: "*Cəlil Məmmədquluzadə yaradıcılığına nəzər saldıqda tənqidi realizm üçün xarakterik olan obyektivlik, tipiklik, konflikt, detallara enmə, bədii dilin sadə danışıq dilinə yaxınlaşdırılması, cəmiyyətin inkişaf tempinə və tendensiyalarına əlahiddə maraq diqqəti cəlb edir*" [6, s. 6].

"Poçt qutusu" hekayəsi bu mənada xarakterik nümunədir. Əsərin ənənəvi şərhlərində Novruzəlinin poçt qutusunun funksiyasını bilməməsi onun savadsızlığının, ictimai geriliyinin və passivliyinin göstəricisi kimi təqdim edilmişdir. Salamoğlu isə obrazı tarixi və sosial kontekstdən ayırmamağı təklif edir. "*Novruzəli konkret tarixi şəraitin estetik ifadəsi olaraq Azərbaycan kəndlisinin ictimai şüurunda yaranan oyanışın təmsilçisi kimi meydana çıxır*" [2, s. 84].

Novruzəlinin şəhər mədəniyyətinin yeni kommunikasiya vasitələrindən xəbərsiz olması müəyyən tarixi-mədəni məsafənin nəticəsidir. Onun situasiyası fərdi intellekt çatışmazlığından çox, kəndlə şəhər, ənənəvi həyatla modernləşən sosial məkan arasındakı fərqi görünən edir. Lakin yazıçı onu, müti, aciz obraz kimi vermir. O, camaata baxıb nəticə çıxara və məktubu uğrunda *"mübarizə apara"* bilir ki, bu da onu əsərlə bağlı klassik şərhlərdən uzaqlaşdırır. Salamoğlu Novruzəli - Vəli xan münasibətlərində də dövrün kənd həyatında mövcud olan iqtisadi və mənəvi münasibətlərin əksini görür [2, s. 84]. Bu kontekstdə Novruzəli sadəcə gülüş obyektinə çevrilmir. Oxucu həm onun davranışındakı komikliyi görür, həm də həmin komikliyi yaradan ictimai şərait haqqında düşünməyə vadar edilir. Realist satiranın sosial gücü də məhz burada ortaya çıxır: gülüş bir tərəfdən problemə məsafə yaradır, digər tərəfdən həmin problemin mənəvi ağırlığını artırır.

Cəlil Məmmədquluzadənin "Ölülər", "Danabaş kəndinin məktəbi", "Anamın kitabı", "Dəli yığıncağı" kimi əsərlərində sosial düşüncənin əhatə dairəsidaha da genişlənir. Maarif, dil, mənəvi passivlik, ziyalının cəmiyyət qarşısında məsuliyyəti, xurafat və ictimai biganəlik kimi problemlər fərqli bədii situasiyalarda təqdim olunur. T.Məmməd tənqidi realizmdə sosial-siyasi vəziyyətləyanaşı "insan-millət" amilinin dəmühüm mövqe qazandığını qeyd edir [1, s. 195].

Sona Vəliyeva yazır: *"C. Məmmədquluzadə özünün böyük mənəvi irsi ilə, xüsusilə "Molla Nəsrəddin" jurnalı ilə Azərbaycan xalqı üçün həmişə öyrənilməsi və nəzərə alınması vacib olan, dünənin, bu günün, sabahın milli düşüncə və fəaliyyət tarixiniyaratmışdır*" [5, s. 66]. Kitabın ayrıca bir hissəsinin "CəlilMəmmədquluzadəvə milli ideya" probleminəayrılması

DOI:10.30546/gdu.5.2026

bu əlaqənin müəllifin tədqiqat konsepsiyasında mühüm yer tutduğunu göstərir. Məmmədquluzadə realizmində sosial düşüncə insanın öz mövqeyini, hüququnu və mənəvi məsuliyyətini dərk etməsi problemi ilə birləşir. Burada satirik tənqid insanı alçaltmağa deyil, onu ictimai və mənəvi fəaliyyətsizlikdən çıxarmağa yönəlmiş estetik mexanizm kimi çıxış edir.

Mirzə Ələkbər Sabir satirasında sosial özünüdərk vəmilli intibah ideyası. Mirzə Ələkbər Sabir yaradıcılığında sosial düşüncə poetik satiranın imkanları bvasitəsilə xüsusi intensivlik qazanır. Sabirin satirasında cəmiyyətin ayrı-ayrı təbəqələri, onların düşüncə və davranış formaları, təhsilə, əməyə, qadına, ictimai məsuliyyətə və yeniləşməyə münasibəti çoxsaylı danışan səslər vasitəsilə təqdim olunur. Bu səbəbdən Sabir satirasını müxtəlif sosial mövqelərin ironik şəkildəüz-üzə gətirildiyi çoxsəsli poetik struktur kimi oxumaq daha məhsuldardır.

T.Salamoğlunun tədqiqatının diqqətəlayiq cəhətlərindən biri Sabir realizmini tənqidi realizmlə maarifçi realizmin sərhədində nəzərdən keçirməsidir. Bu mövqeyə görə, "*Sabirdə tənqidi gülüş maarifçi idealı tamamilə aradan qaldırmır, əksinə, tənqid insanın və cəmiyyətin dəyişməsi zərurətini daha kəskin şəkildə görünən edir"* [2, s. 96].

Sabir poeziyasında əməkçi insanın sosial özünüdərki də xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatçı şairin işçini öz sosial mövqeyini dərk etməyə, hüquqlarını qorumağa və ictimai həyatın fəal iştirakçısına çevrilməyəçağırmasını *"milli oyanış və ictimai təkamül konteksti"*ndə qiymətləndirir [2, s. 172]. Bu baxımdan fərdi sosial şüurun inkişafı daha geniş ictimai və milli özünüdərk prosesinin bir hissəsinə çevrilir.

XX əsrin başlanğıcındakı Azərbaycan ədəbiyyatının ümumi ideya istiqamətini izah edən mülahizələrdədeyilir: "*XX əsrin başlanğıcı Azərbaycan ədəbiyyatı hansı yaradıcılıq metodu ilə yaranmasından asılı olmayaraq, milli mübarizə vəoyanış ruhu öndə gəlirdi*" [2, s. 173]. Bu fikrin Sabir yaradıcılığına tətbiqi göstərir ki, sosial düşüncə burada sinfi münasibətlərin sadəsxeminə sığmır. Maarif, milli tərəqqi, insan hüquqları və mənəvi dəyişmə məsələləri bir-birinəbağlanır.

Sabir satirasının tənqid pafosu ilə bərabər təsdiq pafosunun da nəzərə alınması xüsusilə vacibdir. Satirik gülüşün arxasında daha savadlı, məsuliyyətli, öz hüquq və vəzifələrini bilən insan idealı dayanmasa, tənqid öz estetik istiqamətini itirərdi. Buna görə Sabirin sosial düşüncəsinin mahiyyəti yalnız "nəyə qarşı çıxması" ilədeyil, eyni zamanda "nəyi təsdiq etməsi" ilə müəyyənləşdirilməlidir.

Azərbaycan və dünya realizminin müqayisəli-tipoloji xüsusiyyətləri. Dünya və Azərbaycan realist ədəbiyyatlarının müqayisəsi həm ümumi estetik qanunauyğunluqları, həm də milli fərqləri üzə çıxarır. Realist metodun bütün milli formaları üçün gerçəkliyə bağlılıq, sosial mühitin xarakterlərin formalaşmasında rolunun göstərilməsi, konkret zaman və məkanın əhəmiyyəti, tipikləşdirmə və psixoloji əsaslandırma xarakterikdir. Lakin hər milli ədəbiyyat həmin prinsipləri öz tarixi təcrübəsinə uyğun şəkildə reallaşdırır.

İ.Əhmədova magik realizmin Azərbaycan nəsrindəki tarixi əsasları ilə bağlı yazır: "*Azərbaycan bədii nəsrində hələ XX əsrin ortalarından etibarən magik realizm nümunələrinə rast gəlinməsi, əslində, qeyri-adi, fövqəl bir ədəbi hadisə hesab olunmamalıdır*" [7, s. 6].

Müasir Azərbaycan hekayələrinə dair araşdırmalarda da *"ailə münasibətlərinin, fərdlə cəmiyyətarasındakı gərginliyin, sosial təzyiqin, mənəviaxtarışların və müxtəlif sosial təbəqələrin həyat tərzinin təsviri"*nə diqqət yetirilir [4, s. 17-18].Sosial problemlərin bədii ədəbiyyatın mühüm mövzularından biri kimi davam etməsirealizmin əsas estetik funksiyasının dəyişmədiyini, lakin həmin funksiyanın yeni formalarda həyata keçirildiyini göstərir.

DOI:10.30546/gdu.5.2026

Postsovet ədəbi prosesində neorealizm, magik realizm, sosial-psixoloji nəsr və digər istiqamətlərin yanaşı mövcudluğu realizmin artıq sərt sərhədləri olan vahid poetik sistem kimi deyil, gerçəkliyin müxtəlif bədii dərketmə üsullarını öz ətrafında birləşdirən çevik estetik ənənəkimi fəaliyyət göstərdiyini göstərir. Ədəbiyyatın ideoloji modeldən uzaqlaşmasımüəllifə sosial reallığı daha fərdi, çoxsəsli və psixoloji baxımdan mürəkkəb şəkildətəqdim etməyə imkan vermişdir [3, s. 131-132]. Bu dəyişiklik sosial düşüncənin də xarakterini yeniləşdirir. Klassik realizmdə sosial təbəqə və ictimai quruluş daha görünən müstəvidə idisə, müasir realist və neorealist nəsrdə fərdin sosial sistemlə konfliktinin psixoloji nəticələri daha çox diqqət mərkəzinə keçir. Bununla belə, insan və cəmiyyət münasibəti realizmin əsas problem sahələrindən biri olaraq qalır.

Nəticə. Sosial düşüncə realist estetikanın təsadüfi mövzularından biri deyil, onun dünyanı və insanı dərk etmə prinsipinin mühüm tərkib hissəsidir. Realist sənət insanı konkret sosial-tarixi mühitdə təqdim etdiyiüçün fərdi xarakterin və taleyin arxasında daha geniş ictimai münasibətlə rsistemi görünür. Buna görə yoxsulluq, sosial bərabərsizlik, təhsil, qadının cəmiyyətdəki mövqeyi, mənəvi yadlaşma, hüquq, ictimai məsuliyyət və mədəni tərəqqi kimi məsələlər realizmin müxtəlif milli formalarında davamlı şəkildə meydana çıxmışdır. Realizmin XX əsrdə və postsovet ədəbi prosesində sosial-psixoloji, mifopoetik, magik vəneorealist formalarla qarşılıqlı əlaqəyə daxil olması onun estetikpotensialının tükənmədiyini göstərir. Formalar dəyişsə də, realist düşüncənin əsas sualı aktuallığını qoruyur: insan konkret sosial gerçəklik daxilində necəyaşayır, həmin gerçəklik onun düşüncəsinə vədavranışına necə təsir edir və fərd bu münasibətlər sistemində öz mənəvi mövqeyini necə müəyyənləşdirir? Məhz bu suallar realizmi dünya və Azərbaycan ədəbiyyatında sosial düşüncənin ən davamlı bədii ifadə sistemlərindən birinə çevirir.

Ədəbiyyat

1. Məmməd T. Realizmin tipoloji xüsusiyyətləri və Azərbaycan ədəbiyyatında inkişaf mərhələləri // Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemləri. I cild. Elmi redaktor İsa Həbibbəyli. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018, s. 187–207.
2. Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C. Məmmədquluzadə və M.Ə. Sabir yaradıcılığı əsasında). Bakı: ORXAN NPM, 2018, 184 s.
3. Əliyeva T. “Postsovet dövrü Azərbaycan və rus nəsrində realizmin ədəbi-estetik tipologiyası və poetik modifikasiyaları (müqayisəli aspektlər)” İpək Yolu, 2024, № 3, s.125 133.
4. Quliyeva N., Bekova N. “XX əsr Azərbaycan ədəbiyyatında reallıqların və sosial problemlərin təsviri.” XII Uluslararası Türk Dünyası Sempozyumu, Niğde, 21–23 may 2025, s. 17–22.
5. Vəliyeva S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi: məsələnin qoyuluşuna dair. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2002, 140 s.
6. Qaragözova E. “XX əsr Azərbaycan ədəbiyyatında ədəbi cərəyanlar: sentimentalizm, tənqidi realizm və sosrealizm”, Filologiya məsələləri, № 4, 2023,16-29 s.
7. Əhmədova İ.Ş. “Yusif Səmədoğlu yaradıcılığında magik realizm ünsürləri” Əlyazmalar yanmır, 2022, s.87-96.

DOI:10.30546/gdu.5.2026

THE CONCEPT OF REALISM AND SOCIAL THOUGHT IN AZERBAIJANI AND WORLD LITERATURE

Hasanova Aynur Mazahir

Summary

Realism is one of the major literary movements in world literature, based on the artistic interpretation of reality, the portrayal of individuals within specific historical and social environments and the aesthetic analysis of the internal relationships and contradictions within society. Consolidated as an independent literary movement in the nineteenth century, realism did not merely reproduce the same aesthetic principles across different national literatures; rather, it acquired distinctive characteristics shaped by the historical, sociocultural and spiritual experiences of each nation. In world literature, the works of such realists as Balzac, Dickens, Thackeray, Gogol, Saltykov-Shchedrin and Chekhov focus on social structures, social injustice, and moral contradictions. In Azerbaijani literature, particular attention is drawn to the historical and aesthetic conditions underlying the transition from Enlightenment realism to critical realism, as well as to the artistic forms through which social thought is expressed in the works of Mirza Fatali Akhundzadeh, Jalil Mammadguluzadeh, Mirza Alakbar Sabir and other realist writers.

.

РЕАЛИЗМ И КОНЦЕПЦИЯ СОЦИАЛЬНОЙ МЫСЛИ В АЗЕРБАЙДЖАНСКОЙ И МИРОВОЙ ЛИТЕРАТУРЕ

Гасанова Айнур Мазахир

Резюме

Реализм является одним из важнейших художественных направлений мировой литературы, основанным на художественном осмыслении действительности, изображении человека в конкретной исторической и социальной среде, а также эстетическом анализе внутренних отношений и противоречий общества. Сформировавшись в XIX веке как самостоятельное литературное направление, реализм не ограничивался воспроизведением единых эстетических принципов в различных национальных литературах, а приобретал специфические черты в соответствии с историческим, социокультурным и духовным опытом каждого народа. В мировой литературе в творчестве таких представителей реализма, как Бальзак, Диккенс, Теккерей, Гоголь, Салтыков-Щедрин и Чехов, особое внимание уделяется социальной структуре общества, общественной несправедливости и нравственным противоречиям. В азербайджанской литературе особый интерес представляют историко-эстетические условия перехода от просветительского реализма к критическому реализму, а также художественные формы выражения общественной мысли в творчестве Мирзы Фатали Ахундзаде, Джалила Мамедгулузаде, Мирзы Алекпера Сабира и других представителей реализма.

Rəyçi: f.ü.f.d.Hüseyn Hüseynli
Daxil olma tarixi 12 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:82.

HÜSEYN NİHAL ATSIZ VƏ RÜSTƏM BEHRUDİ YARADICILIĞINDA BOZ QURD SİMVOLU

Hicran Əhməd Əhməd qızı
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
ahmedova_hicran@mail.ru
ORCİD ID: https://orcid.org/ 0009-0007-6435-494X

Xülasə: *Bu məqalədə Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin yaradıcılığında Boz Qurd simvolunun ideya-estetik və poetik xüsusiyyətləri araşdırılır. Boz Qurd türk mifologiyasında azadlıq, güc və milli dirçəliş anlayışlarını özündə birləşdirən mühüm simvollardan biridir. Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin yaradıcılığında bu obraz türkçülük ideologiyası, milli kimlik, qəhrəmanlıq və tarixi yaddaş kontekstində xüsusi məna kəsb edir. Hər iki müəllifin yaradıcılığında Boz Qurd yalnız mifoloji obraz kimi deyil, həm də milli düşüncənin və mənəvi dəyərlərin ifadə vasitəsi kimi çıxış edir. Atsızın əsərlərində Boz Qurd daha çox qəhrəmanlıq və milli idealın simvolu kimi ön plana çıxarkən, Behrudinin poetikasında bu obraz fəlsəfi, emosional və simvolik çalarlarla zənginləşir. Araşdırmada müəlliflərin Boz Qurd obrazına müraciəti, onun semantik yükü və bədii funksiyaları müqayisəli şəkildə təhlil edilir.*

Açar sözlər: Boz Qurd, türkçülük, türk mifologiyası, milli kimlik
Keywords: Grey Wolf, Turkism, Turkic mythology, national identity
Ключевые слова: Серый Волк, тюркизм, тюркская мифология, национальная идентичность

Giriş

Türk millətinin çoxəsrlik tarixində azadlıq və müstəqillik idealını Boz Qurd qədər parlaq şəkildə təcəssüm etdirən ikinci bir simgə tapmaq çətindir. Əsrlərin sınağından keçən bu müqəddəs rəmz türk xalqlarının sarsılmaz gücünü, əyilməz iradəsini və milli kimliyini özündə birləşdirir. Boz Qurd sadəcə mifoloji dastanların bir personajı deyil, həm də Türk tarixinin ən cətin məqamlarında türkün yolunu aydınladan əbədi bir xilaskarlıq və rəhbərlik simvoludur. Qədim Çin mənbələrində qeyd olunan dastanlarda türk soyunun məhz Boz Qurddan törədiyi bildirilir. Bu konteksdə iki əsas dastanın adını çəkə bilərik: "Boz Qurd və Ərgənəkon" dastanları. "Türk xalqları ədəbiyyatı" kitabında ifadə etdildiyi kimi: "Boz Qurd" dastanları Göytürklərin yeni nəslinin yaranması və formalaşması haqqında 3 variantlı rəvayətlərdən ibarətdir. (...) Çünki burada dünyanın ilk yaranmış insanlarından yox, düşmənin qəddarlığı nəticəsində bütünlüklə öldürülmüş (ayaqları kəsilmiş 10 yaşlı oğlandan başqa) Göytürklərin sonrakı soy artınından söhbət gedir. Bu artımda Boz Qurd Ana qurd vəzifəsini icra edir (Quliyev, 2014. s.13). Oxucu diqqətinə çatdırılacaq ikinci dastan isə "Ərgənəkon" dastanıdır. "Təxminən I minilliyin ortalarında formalaşmış "Ərgənəkon" dastanındakı hadisələr müəyyən mənada "Boz Qurd" dastanları ilə səsləşir. Daha doğrusu, bu dastanda türk xalqlarının soykökü, qəbilə qrupları şəklində birləşməsi, qədim həyat tərzləri barədə verilən fikirlər təxminən "Boz Qurd" dastanlarındakı fikirlərə yaxındır" (Quliyev, 2014. s. 13-14). Bu dastanların təməlində dayanan və türkün xilaskarlıq missiyasını simvolizə edən ən mühüm rəmz şübhəsiz ki, Boz Qurddur. Məhz bu simvol XX əsr türk dünyasının böyük mütəfəkkirlərinin və şairlərinin yaradıcılığında yeni bir nəfəslə yenidən doğulmuşdur.

Türkçülük məfkurəsinin böyük ideoloqu Hüseyn Nihal Atsız yaradıcılığında Boz Qurdu mistik və tarixi bir qəhrəmanlıq simvolu kimi canlandırır. Müəllifin nəzərində Boz Qurd türkün əyilməz iradəsi, milli mənliyin qorunmasında bir çağırış simvoludur. Azərbaycan

DOI:10.30546/gdu.5.2026

ədəbiyyatında isə millətin azadlıq yanğısını və milli oyanışını tərənnüm edən Rüstəm Behrudi kimi böyük sənətkarların yaradıcılığında Boz Qurd asılılığa qarşı üsyanın, milli kimliyə qayıdışın zirvəsi olaraq çıxış edir. Rüstəm Behrudi müasir poeziyada şamanizm motivləri və ruhu ilə Boz Qurd simvoluna fərqli, poetik və fəlsəfi bir rəng qataraq onu türkün ulu ruhunun daşıyıcısı kimi təqdim edir. Mifoloq Mirəli Seyidovun dediyi kimi; "Türk mifik düşüncə tərzi, Turan ideyası və türk milliyyətçiliyi XX əsrin sonlarında Rüstəm Behrudinin şeirləri ilə yenidən həyat qazandı" (Behrudi, 2017, s.37) Məhz bu mifik düşüncənin mərkəzində Boz Qurd simvolu durur.

Hüseyn Nihal Atsız "Bozqurd Qorxusu" məqaləsində yazır ki, "Boz Qurd türklərin milli simvoludur. Qədim dövrlərdə, totemizm inancının geniş yayıldığı çağlarda türklər öz soylarının Boz Qurddan gəldiyinə inanırdılar. Bu inanca görə, Göytürklər dişi Boz Qurdun, Doqquz Oğuz və On Uyğurlar isə erkək Boz Qurdun nəsli sayılırdı. Totemlər hər bir xalqın və millətin tarixində, milli şüurunda kök salmış, milli təfəkküründə dərin iz qoymuşdur. Müasir elmin inkişafı insanların qurddan törəmədiyini bildirsə də, Boz Qurd milli simvol statusunu qoruyub saxlamışdır. Bu baxımdan, Boz Qurda sadəcə sıradan bir heyvan kimi yanaşılması kökündən yanlışdır. Əgər belə yanaşsaq, dünyada heç bir şeyin mənəvi dəyəri qalmazdı" (Atsız, 2022. s.126).

XX əsrin sonları və XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında milli istiqlal ideyalarının, tarixi köklərə dönüş və mifoloji yaddaşın bərpası prosesi ilə səciyyələnir. Bu ədəbi-fəlsəfi hərəkatın öncüllərindən biri olan Rüstəm Behrudi Hüseyn Nihal Atsız kimi bütün yaradıcılığı boyu şifahi xalq yaradıcılığının arxetiplərinə, xüsusilə də qədim türk mifologiyasına istinad etmişdir. Şairin poetik düşüncələrində mərkəzi yer tutan Boz Qurd simvolu müstəsna semantik yükə malikdir. Bu simvol Rüstəm Behrudi yaradıcılığında zaman və məkan sərhədlərini aşaraq milli ruhun dirçəliş simvoluna, metafizik bələdçiyə və azadlıq carçısına çevrilmişdir. Rüstəm Behrudi bu qədim arxetipi məhz özünün ilkin, mifoloji funksiyasında-xilaskar və bələdçi rolunda dirildir. Behrudi "Göz Yaşından Baxan Allah" kitabında yazır: "Qədim türklər bu cəsur heyvana ən əvvəl tanrı demiş, daha sonra özlərinin bir Boz Qurddan doğulduqlarına,"qurd" olduqlarına inanmışlar. Əski türk dastanlarından "Dədə Qorqud"a qədər bütün dastanlarımızda qurd müqəddəs sevgi ilə yad edilmiş, dastan qəhrəmanlarımız döyüş meydanlarında özlərini öyərək qurda bənzətmişlər" (Behrudi, 2007. s.29) Şair Oğuz dastanına görə Oğuz Xaqanın qamətinin qurda bənzədiyini, yürüşlərə gedərkən qurd səsini özlərinə döyüş işarəsi seçmələrini, elə həmin dastanda bir səhər Oğüz çadırına mavi və müqəddəs bir işığın düşməsi və bu işıqdan doğulan Boz Qurdun türk ordusunun önündə gedərək onları qələbələrə aparmasını, yaxud Uyğur dastanına görə tanrının bir erkək qurd şəklində yer üzünə enərək türk hökmdarlarının birinin iki qızı ilə evlənməsi və bu izdivacdan türk millətinin törədiyini xatırlayaraq üzünü mavi işığa tutub ona xitab edir:

Bir vaxt gündoğandan bədöy atları,
Günəşin dalınca baş alıb gedən,
Geriyə dönməyən ulu yurd elə.
Ver oxu, qoy çəkim bu yayı bir də,
Döndər öz əslimə-məni qurd elə,
Təzədən başlayım hər şeyi bir də. (Behrudi. 2007. s. 30)

Hüseyn Nihal Atsızın "Türk Ədəbiyyatı Tarixi" əsərinin "İslamiyyətdən Öncə Türk Dastanı" bölməsində yer alan Göytürk dastanı haqqında yazısında oxuyuruq ki, Göytürk dastanının üç rəvayətində gözə çarpan ortaq motif "Qurd"dur. Ərgənəkon rəvayətində qurd birbaşa görünməsə də, hökmdarlarının adının Börte Çine, yəni "boz qurd" olması, qurd ideyasının İslamiyyətdən sonra belə unudulmadığını göstərir. Çünki Ərgənəkon rəvayəti

DOI:10.30546/gdu.5.2026

İslamiyyətdən sonra, yəni 13-cü əsrdə qeydə alınmış bir Göytürk dastanıdır" (Atsız, 2018, s.69)

Azərbaycanda Sovet ideologiyasının və totalitar rejimlərin milli yaddaşı silməyə çalışdığı dönəmlərdə və sonrakı keçid mərhələsində Rüstəm Behrudinin şeirlərində səslənən Boz Qurd bir etiraz səsi, milli oyanış çağırışı idi. Şairin misralarında Boz Qurd simvolu keçmişdəki şanlı tariximizlə gələcəyin arzuları arasında körpü rolunu oynayır. Behrudi yazır: "Boz Qurd əfsanəsi təkcə türklüyün simvolu deyildir! O həm də türklüyə düşmən kəsilən bütün qüvvələrin qarşısında dayanan mistik bir gücdür! SSRİ - nin yarandığı ilk illərdə türkün və türklüyün düşməni olan V. İ. Lenin türkiyəli araşdırmaçı yazar İlhan Bardakçıya baxın - görün nə deyir: "Türkiyədə kommunizmı yaymaq üçün onlara ilk öncə dinlərini, milliyətlərini unutdurmaq və qafalarına yerləşmiş bu Boz Qurd əfsanəsini söküb atmaq lazımdır (Behrudi, 2021. s.66) Rüstəm Behrudinin bu sitatı Atsızın "Tarixin barışmaz düşmənləri" məqaləsindəki fikirlərlə eyni müstəvidədir: "Kommunizm mənəvi və xarakter baxımından degenerasiyaya uğramış, minlərlə casusu olan bir **Moskva imperializmidir**. Onun ambisiyalarının heç bir sərhədi yoxdur. Aralıq dənizinə, Atlantik okeanına və Hind okeanına çıxmaq, bütün dünyanı ələ keçirmək xülyasının arxasınca qaçan mahiyyəti etibarilə kobud və Moskvaya xas bir imperializmdir. Bütün bu doymaq bilməyən ambisiyaların əsaslandırılması isə guya dünyaya **ictimai ədalət gətirmək** əfsanəsidir" (Atsız, 2018, s.283). O, fransız və italyan kommunistlərinin rus casusu olduqlarını iddia edərək düşmənlərin hiyləgər mövqelərinə qarşı çıxır, Boz Qurd kimi döyüşməyi, mübarizə ruhunda əyilməzliyi və milli azadlıq uğrunda hər cür fədakarlığa hazır olmağı təbliğ edir, onun üçün şərəfli mübarizə Boz Qurd kimi açıq, cəsur və qürurlu döyüşməkdir. İtaliyanın təhdidlərinə cavab olaraq yazdığı "Davetiye" şeirində İtalya siyasətçisi, diktator Benito Mussoliniyə xitabında bu müqayisəni xüsusi vurğulayır.

Haydı, hamle kafirindir...İlkönce sen gel
Ecel ile zaman bize olmadan engel!
Burda tanklar yürümezse etme çok tasa;
Süngülerle çarpışmadır savaşta yasa.
Olma öyle sinsi çakal,yahut engerek! (Atsız, 2023. s.66)

Rüstəm Behrudi yaradıcılığına nəzər saldıqda görürük ki, Boz Qurd arxetipi bütün yaradıcılıq boyu qırmızı xətt kimi keçən, ayrı-ayrı şeirləri bir-birinə bağlayan mərkəzi mifopoetik və ideya-estetik konsentrasiya nöqtəsidir. Müəllifin bu motivi leytmotiv səviyyəsindən sistemli fəlsəfi konsepsiyaya yüksəltməsi onun poeziyasını ayrı-ayrı şeirlərdən ibarət olaraq deyil, Hüseyn Nihal Atsızın "Bozqurdlar" əsəri kimi vahid, polifonik və monoqrafik bir **"**böyük əsər" olaraq dəyərləndirməyə əsas verir.

Səni and verirəm qolça qopuzun
Bitib-tükənməyən ölməz dərdinə
Məni öz əslimə, kökümə qaytar,
Qaytar "Bay gölü"ndə təmizlənməyə,
Məni Urmiyada, Savalandakı
Ulu Altaydakı kürkümə qaytar.
Keçir köynəyindən, a qeyrət, məni,
Qaytar birdəfəlik ilkimə, qaytar. (Behrudi, 2022. s.27).

Bu misralardakı qolça qopuz, Bay gölü, Urmiya, Savalan və Ulu Altay kimi tarixi-mədəni toponim və simvollar türk dünyasının qədim yaddaşını, etnik-mədəni bütövlüyünü və ilkin vətən anlayışını təcəssüm etdirir. "Təmizlənmək" və "kürkümə qayıtmaq" mənəvi özünüdərk və tarixi kimliyin bərpası mənasında işlənmişdir. Bu motivlər Atsızın

DOI:10.30546/gdu.5.2026

“Bozqurdlar” əsərindəki “ölüm və diriliş”, “yenidən doğuş” motivləri ilə səsləşir, sanki onu poetik üslubda tamamlayır.

Türklərin qədim döyüş taktikalarında qurdun hərəkət dinamikası əsas götürülürdü. Saadettin Yağmur Gömeç yazır ki, “Məlum olduğu kimi, qurdlar ovlarına və ya düşmənlərinə o qədər sürətlə hücum edirlər ki, onların baş verənləri anlamasına imkan vermirlər. Qurdların bu hərəkəti türklər tərəfindən "qurd qapanı" və "ac qurdlar kimi hücum etmək" şəklində deyimləşdirilmiş və Atsız bəy də bunlardan əsərlərində zaman-zaman istifadə etmişdir. Mənbələrdə yenə də bu döyüş üsuluna Turan taktikası deyildiyinin də şahidi oluruq” (Gömeç, 2025. s. 495). Hüseyn Nihal Atsız “Dəli Qurd” romanında romanın qəhrəmanı “Dəli Qurd” ləqəbli Muradın döyüşlərdəki idarəolunmaz gücünü onun daxilindəki bu qədim “savaş ruhu” ilə əlaqələndirir.

Hüseyn Nihal Atsızın poeziya yaradıcılığında Boz Qurd və ya Börü simvolunun xüsusi yeri vardır. Atsız “Bozqurdların ölümü” əsərində Qara Ozanın dili ilə bayatı üslübündə Boz Qurdu türk milli kimliyinin, soy-kökünün, azadlıq ruhunun, şan-şöhrətinin və cəsarətinin təcəssümü kimi təsvir edir.

Bozqurd bizim ünümüz,
Şan doldur dünümüz,
Yetincə son günümüz,
Başdan çıxan huş olur (Atsiz, 2020. s. 351).

Bayraq və ya sancaq, tuğ qədim türk ənənəsində, xüsusilə də qədim türk-oğuz coğrafiyasında "tuğ" - hakimiyyət, müstəqillik, suverenlik, ordu və bayraq simvolu idi. Göytürklərdən bəri qurdbaşlı bayraqlar müqəddəs sayılmış, döyüş meydanında alplara cəsarət verən, düşmənə isə qorxu salan bir “əcdad ruhu” rolunu oynamışdır. Hüseyn Nihal Atsız “Türkçülük bayrağı” şeirində Boz Qurd simgəsini Türk millətini və Türkçüləri bir araya toplayan, itirilmiş torpaqları və milli şüuru bərpa edən mənəvi bayraq kimi təsvir edir.

Türk duygusu her Türkçüye en tatlı kımızdır;
Türk ülküsü candan da aziz bayrağımızdır.
Bayrak ki onun gölgesi Bozkurtları toplar;
Bayrak ki bütün kaybedilen yurtları toplar (Atsız, 2023. s.95).

Rüstəm Behrudinin yaradıcılığında da “qurdbaşlı tuğlar” ifadəsinə rast gəlinir. Şairin yaradıcılığında bu iki anlayışın (qurd və tuğ) vəhdəti “Qurd başlı tuğlar bizim” sərlövhəli şeirində geniş şəkildə öz əksini tapmışdır:

Qurdu ölən dağ bizim,
Ötən ötüb, çağ bizim,
Qurd başlı tuğlar bizim,
Gəlsin, doğan dan olsun! (Behrudi, 2017 s.20)

Yaxud Behrudi Əhməd Bican Ercilasuna yazdığı “Turan Qalxıb Ayağa” şeirində yazır:

Bayrağına qurd yapan,
Turan adlı yurd yapan,
Min ildir gözləyən can,
Səbirdən cana gəlməz (Behrudi, 2022. s.62).

Mənəvi və siyasi dirçəliş üçün tarixi miflərə dönüş, yaddaşın oyadılması məqsədilə şüuraltında yer alan "Gök Börü" simvolu vasitəsilə milli kimliyin bərpası, igidliyin və ədalətin hökm sürdüyü ideal Vətən (Turan) arzusu kimi məfkurələr Atsızın “Komen” adlı şeirinin aşağıdakı misralarında öz əksini tapır.

Yok sayıp sen de bu ruhsuz sürüyü
Kılavuz yap ebedi Gök Börü’yü.
Çıkarıp Ergenekondan ulusu

DOI:10.30546/gdu.5.2026

Türk'ü kılsın yine dünya ulusu (Atsız, 2023.s.71).

Rüstəm Behrudi yaradıcılığında Vətən anlayışı coğrafi sərhədlərdən qat-qat genişdir. O, bütöv Azərbaycan, Turan coğrafiyası və ümumtürk düşüncəsinin şairidir. Bu coğrafi-mənəvi arealın keşiyində duran mənəvi keşikçi isə məhz Bozqurdur.

Mənə üz tut-yurda ocaq qurana,
"Turan"-deyib Boz Qurd kimi durana.
Sonun yoxdu, çevilməsən Turana-
VƏTƏN!
Mənim andım"Ya bütövlük, ya qandı",
Zalım dostlar, qəbul edin bu andı,
Qara başım bu yol üstə qurbandı,-
VƏTƏN! (Behrudi, 2012, s.7).

Rüstəm Behrudinin "Vətən" şeirində **"**Turan və Boz Qurd" mifoloji-ideoloji konseptualizasiya təşkil edir. Şair nəinki zehnində formalaşdırdığı, hətta ruhunda yaşatdığı Boz Qurd kimi məğrurluğu, müqaviməti və tarixi yaddaşı əks etdirərək vətənin Turana çevrilməsə sonu olmadığını şərt qoyur və bütöv türk birliyini, milli-ideoloji konsepsiyanı fərdi fədakarlıq aktı ilə vəhdətdə təqdim edir. Behrudi "ocaq qurmaq" metaforasından istifadə edərək qədim türk-oğuz düşüncəsində "ocaq" anlayışının sadəcə məskən deyil, nəsil və dövlətçilik rəmzi olduğunu da əks etdirir. Behrudi "ya bütövlük, ya qan" ifadəsində mübarizəsinin güzəştsiz və radikal xarakterini göstərir, parçalanmış coğrafiyanın yalnız tam bütövlük şərtində qəbul oluna biləcəyini bildirir. Akademik İsa Həbibbəylinin dediyi kimi Rüstəm Behrudidə "Vətən" anlayışı ümumi (türk dünyası. yaxud dünya) ilə xüsusinin (Azərbaycanın) nəinki vəhdətindən, hətta zərurətindən yoğrulmuşdur" (Behrudi, 2017.s.17).

Hüseyn Nihal Atsız və Rüstəm Behrudi poeziyasında bəzən "Boz Qurd" kəlməsi birbaşa işlənməsə də yalnızlıq, təslim olmamaq, Tanrı Dağına üz tutmaq və əsarətə baş əyməmək ruhu bu iki şairin bütün şeirlərinə nüfuz etdiyini, şeirlərində işlənən "Kür Şad" və "Tanrı Dağı" üçün bir Boz Qurd arxetipi mövcud olduğunu görürük. Bu baxımdan Atsızın "Yakarış" şeirində əsas leytmotiv türkçülük, tarixi yaddaş, milli ruhun qorunması olmaqla yanaşı Tanrı Dağı şeirdə bütün Türk dünyasının ulu beşiyi, ata yurdu və gələcəyə hesablanmış əbədi görüş yeri, Türk mitologiyasında və inancında müqəddəs sayılan, ucalıq, qədimlik və əbədiyyət simvolu olan məkandır.

Tanrı Dağı! Tanrılar, tanrılaşanlar dağı!
Orda on üç asırdır bizi bir gözleyen var.
Savaş türküleriyle aylı kızıl bayrağı,
Kefensiz ölülerin ruhunu izleyen var (Atsız, 2023. s.43).

Şair bu misralarla oxucusuna xatırladır ki, türk ruhu heç vaxt ölmür, əksinə, ulu dağların zirvəsində əbədi olaraq öz övladlarını gözləyir.

Behrudinin "Salam, dar ağacı" şeirində də Boz Qurd birbaşa obraz kimi yer almasa da, həm şeirin leytmotivi olan azadlıq və fədakarlıq ruhu, həm də Boz Qurd arxetipi əyilməzlik və ölümə meydan oxumaq müstəvisində üst-üstə düşür. Hər iki müstəvidə əsas ortaq fikir məğlubedilməz mənəvi gücün və əsarəti rədd edən milli-tarixi yaddaşın qorunub saxlanılmasıdır. Rüstəm Behrudi içində böyütdüyü Boz Qurd ilə birlikdə Azərbaycan xalqının milli azadlıq və bütövlükdə türk millətinin Turan sevdasını 1988-ci ildə Azadlıq meydanında Boz Qurd işarəsi göstərməklə və "Salam, Dar ağacı" şeirini yazmaqla bir daha körüklədi və xalqın azadlıqdan və Boz Qurddan danışmaq qorxusunu məhv etdi. Şeirdə Dar ağacı müstəmləkəçiliyin, İsa Həbibbəylinin dediyi kimi "qırmızı qaranlıqların" mənfur bir kabusudur. (...) Bu, Azərbaycan ədəbiyyatında Dar ağacına meydan oxuyan üsyankar şeirdir. Üsyankar Meydan Ədəbiyyatında "Salam, Dar ağacı" şeiri Dar ağacına poetik ittiham

DOI:10.30546/gdu.5.2026

meydanı açan, ona hökm oxuyan nadir ədəbiyyat məhkəməsi nümunəsidir" (Behrudi, 2017.s. 14).

Rüstəm Behrudi 1992-ci ildə ilk dəfə nəşr etdirdiyi "Salam, Dar ağacı" kitabını Hüseyn Nihal Atsıza ithaf etmiş və kitabı Atsızın "Əgər məni Türkçülük və Turançılıq davası ilə məhkum edərsiniz: bu mənim övladlarıma buraxacağım ən böyük miras olar" sözləri ilə başlamış və oxucusuna yazmışdır: "Gördüm ki, ruhum bədənimdə əziyyət çəkir. Anladım ki, bədənim ruhumun dar ağacına çevrilib. Bu kitabla iztirablar yuvası bədənimdən qopub ruhuma qovuşmaq istədim. Ruhum bədənimdən tilit (tamamilə, başdan-başa-H.Ə.) qan içində çıxdı (Behrudi, 1992, s. 3).

İstər Atsızın türkçülük davasını məhkəmə kürsüsündə şərəflə üstələməsi, istər Rüstəm Behrudinin bədəni ruhun dar ağacı adlandırması, istərsə də "Salam, dar ağacı" fəlsəfəsi onu göstərir ki, böyük ideallar və uca ruhlar üçün fiziki əzablar, məhkəmələr və hətta ölüm belə bir qorxu mənbəyi deyil, əksinə əbədiyyətə qovuşma və şərəf yoludur. Bu yol təbii ki, Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin ruhlarında və sözlərində daşıdığı Boz Qurddan gəlir.

İsa Həbibbəyli yazır ki, milli azadlıq hərəkatı dövründə (1988-1990-ci illər) Rüstəm Behrudinin "Salam, dar ağacı" şeiri ilə müqayisə edilə biləcək və örnək ola biləcək yazılmış şeir misal göstərmək çətindir. Bu şeir onun yaradıcılığı üçün xarakterik olan milli-mənəvi bütövlük və genişlik anlayışlarını özündə əks etdirir. "Ümumiyyətlə, Rüstəm Behrudi Azərbaycanı böyük türk dünyası ilə birlikdə dərk və vəsf edir. "Salam, dar ağacı" şeiri də Azərbaycanın azadlıq arzusunu türk dünyası xalqlarının böyük ümidləri səviyyəsində bütün genişliyi ilə ifadə edə bilən, mühüm ümumiləşdirmə imkanlarına malik olan mükəmməl şeirdir" (Behrudi, 2017. s.16). Məhz ona görə də bu şeir hələ yazıldığı illərdə Azərbaycanın hüdudlarını aşaraq digər türk dövlətlərində-Daşkənddə, Almatıda, Aşqabadda, Bişkekdə azadlıq meydanlarında səslənmişdir.

O, hansı millətdir-tarixi sirdir?
Yüz adla bölündü ...yenə də birdir!
Məni hüzuruna bu dərd gətirdi,
Salam, Dar ağacı!
Əleyküm-salam (Behrudi, 2017. s.12).

Rüstəm Behrudi özü haqqında yazır: "Anam deyir ki, bir sonbahar sabahı qurd ulayanda doğuldum. İlk dəfə idi səhər-səhər qurd ulayırdı".

Hardasa bir qurd uladı,
Tanrım, sənnən xəbərmi var?
Qurdların ulaşsın, Tanrım,
Qapansın bütün hesablar. (Behrudi, 2022. s.75)

Saadettin Yağmur yazır: "Bəzi rəvayətlərə görə qurdun ulaması Tanrıdan ruzi göndərməsini diləməsi və ya o gün sahib olduğu yemək üçün Tanrıya şükür etməsi şəklində yozulur. Bəzi qədim mənbələrdə bu gün olduğu kimi türklərin də hər yeməkdən əvvəl bəxş etdiyi nemətlərə görə Tanrıya dua etdikləri yazılmışdır. Qısacası, türk də qurd kimi yalnız Tanrıdan qorxur və Onun qarşısında boyun əyir" (Gömeç, 2025. s. 497).

Əhməd Bican Ercilasun Rüstəm Behrudi haqqında yazır: "Qoy Behrudi danışsın və yazsın. O danışanda qurd ağzından danışır. Ulayırmı desəm? (Behrudi,2021. s.4)

Səndən də bil daha dönübdür üzüm,
Min ildir içimi göynədən dözüm.
Mənim qərib-qərib uluyan sözüm
Atilla gözləyən Boz Qurddan gəlir. (Behrudi, 2012 . s.24)

Behrudi "Nədən uladı bu yalquzaq?" şeirində yazır:

Qurdların ulaşsın , Tanrım,

DOI:10.30546/gdu.5.2026

Yerə güzgü elə göyü.
Bağışla yalquzağına,
Yenidən başla hər şeyi. (Behrudi, 2022. s.75)

Hüseyn Nihal Atsızın "Türkistan İhtilalçıları" şeirində də hər şeyin yenidən başlanması, yəni soya, kökə, birliyə dönüşün ifadəsini görürük:

Mazideki zaferlerden kalmadı bir iz
Döktüyünüz kanlar oldu bir deniz....
Bir gün elbet yeni baştan birleştiririz:
Türkmen, Kırgız, Uygur, Başkurt, Özbek, Kazağı (Atzız, 2023.s. 144)

Əhməd Bican Ercilasun "Zamanlar üzərində yaşayan şair" məqaləsində yazır ki, Rüstəm Behrudi mütləq Hüseyn Nihal Atsızı oxumuşdur, əks halda, Bozqurd obrazının ruhunu bu dərəcədə dolğun və təsirli şəkildə ifadə etməsi mümkün olmazdı." (Behrudi, 2017 s. 55).

Türkçülük ideyası, Bozqurd protetipi, qəhrəmanlıq kultu və əbədiyyət motivləri Hüseyn Nihal Atsız yaradıcılığının aparıcı leytmotivini təşkil edir. Saadettin Yağmur Gömeçin yazdığı kimi "nəticə etibarilə, Atsız Hoca əsərlərində türklər üçün maddi və mənəvi hər şeyi ifadə edən Göy Börünü və ya Boz Qurdu türk gənclərinin öyrənməsi üçün şüurlu şəkildə istifadə etmiş və özü də "Türk Millətinin Dəli Qurdu" olaraq tarixə düşmüşdür (Gömeç, 2025. s. 498).

Türk kültürü və etnoqrafiyası kitabında qeyd olunur ki, qurd bir çox türk xalqları üçün totem heyvanıdır, qurd başı Atilla, Bulqar, qədim türk, Qıpçaq, Oğuz türkləri və Qızıl Orda xanlarının bayraqlarını bəzəyir. Qurd türk xalqlarının əcdadı hesab olunurdu. Qurd kultunun qalıqları bir çox türk xalqları tərəfindən dəfələrlə qeydə alınmışdır. Çin salnamələrində türk döyüşçüləri canavar kimi xatırlanır (Rüstəmov, İmanov, 2024.s.44).

Hüseyn Nihal Atsız yaradıcılığında olduğu kimi Rüstəm Behrudi yaradıcılığında da daxili monoloq və özünəqayıdışın təzahürünü görürük. Kamran Əlievin dediyi kimi "Rüstəm Behrudi öz ruhunu dinləyən şairdir. O, ruhun söyləmədiyini, yaşamadığını poeziyaya gətirmir" (Behrudi, 2017 s.64) "Ruhunda qurd ulayan" şair yazır:

Ya Qurd olacaqsan, ya da başqa bir şey!
Ya ufacıq Hirasan, ya da başı dumanlı Tanrıdağı!
Ya Ötükən, ya Məkkə!
Ya göydən gəldiyinə inanacaqsan,
Ya da Adəm –Həvva nağılına!
Bu ikiliyin arasında seçim eləyə bilməyən adam Türk deyil! (Behrudi, 2021. s.196)

Mifoloji Kontekstdən yanaşdıqda görürük ki, Türk mifologiyasında və etnik yaddaşında Bozqurd arxetipi böhranlı və həlledici məqamlarda etnosu təhlükələrdən qurtararaq yeni yaşayış məskəninə (Turan coğrafiyasına) çıxaran ilahi bələdçi-xilaskar funksiyasını yerinə yetirir. Behrudi də qurdun öndə gedərək yol göstərməsini, türk düşüncəsində istiqamətverici liderlik fenomenini, milli iradənin və hədəfə doğru şüurlu irəliləyişinin metaforik təcəssümünü modern estetik müstəviyə daşıyaraq azadlıq axtarışında və itirilmiş kimliyin bərpasında istinad nöqtəsinə çevirir:

Üstümə qəm gələr əjdahalartək,
Yuxumda bir ağız qurd ular, keçər.
Nədənsə həmişə yuxularımdan
Önündə qurd duran ordular keçər. (Behrudi, 2022. s. 14)

Behrudi poeziyasında Boz Qurd simvolu coğrafi məhdudiyyətləri tanımır. O, bütöv Türk dünyasının ruhunu özündə birləşdirir. Şair parçalanmış, yurdu talanmış türk

DOI:10.30546/gdu.5.2026

coğrafiyasının ağrılarını Boz Qurdla bağlı yuxuları vasitəsilə ifadə edir. Bu baxımdan onun "Boz Qurd " şeiri xüsusi çəkiyə malıkdir:

Hər gecə, hər gecə yuxularımda
Bu yurdla yanaşı, bu yurd boyunca
Ulaya-ulaya dolaşıb gəzən,
Obu, Yeniseyi, İtili keçib
Altaytək, Ağrıtək dağ aşıb gəzən
Üzü mavi,
Gözü göydən daha mavi,
Ağzı atəş kimi bir qurd.
Hər gecə, hər gecə yuxularımda. (Behrudi, 2017. s.15)

Bu şeirdə Qurdun gözünün "göydən daha mavi" olması və ağzının "atəş kimi" təsviri onun ilahi mənşəyinə-Göy Tanrı inancına və göylə birbaşa bağlarına işarə edir. Kamran Əliyev Behrudi yaradıcılığında Boz Qurdun mahiyyəti haqqında yazır: "Boz Qurd obrazı Rüstəm Behrudi yaradıcılığında bədii mətnin ruhunun təminatçısıdır. Ona görə də şairin şeirlərində Qurd özünə rahatca yer tapa bilir. Onun poeziyasında Boz Qurd ölməyib, diridir. Rüstəm Behrudinin şeirlərində yalnız Boz Qurd ulamır, təkliyin, tənhalığın, yalqızlığın ağrısını yaşayan sözlər, misralar da ulayır. Həssas oxucu Rüstəm Behrudinin şeirlərində onun özünün Boz qurd kimi uladığını eşidə bilər (Behrudi. 2017 s.65) Şair haqqında söylənilən bu fikir və Rüstəm Behrudi poeziyasında Boz Qurdun tutumu və mahiyyəti onu deməyə imkan verir ki, Rüstəm Behrudi "təpədən-dırnağa" elə Boz Qurdun özüdür.

Mən tənha , qurd yalqız, o Tanrı təkdi,
Yalqızlıq içimdə bir sevda əkdi.
Təkcə mən bilirəm, Boz Qurd nə çəkdi
Nə yaxşı, yazdığım umuddan gəlir. (Behrudi, 2022. s.47)

Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin yaradıcılığında Boz Qurd obrazı zaman və məkan anlayışlarını birləşdirən universal bir kod rolunu oynayır. Müəlliflərin müxtəlif illərdə yazdıqları lirik nümunələr bu kod vasitəsilə mərkəzləşir və vahid bir semantik sahə formalaşdırır, bu da həmin şeirləri parçalanmış lirik lövhələr deyil, monolit bir bədii əsər kimi qiymətləndirməyə əsas verir. Hər iki müəllifin yaradıcılığında bələdçi və uzaq olsa da mənzil məlumdur. Rüstəm Behrudinin yazdığı kimi:

Sevda dəlisiyəm, adım
Qurddu, yalquzaqdı mənim.
Kim mənimlə yol gedəcək?!
Mənzilim uzaqdı mənim (Behrudi, 2012. s.74).

Nəticə: Bu məqalədən belə bir nəticəyə gəlmək olar ki, Hüseyn Nihal Atsız və Rüstəm Behrudinin yaradıcılığında Bozqurd simvolu xalqın tarixi yaddaşının, milli qürurunun və azadlıq uğrunda mübarizə əzminin ifadəsidir. Bu müəlliflər mifoloji obrazı bədii təfəkkürlə zənginləşdirərək onu folklor motivindən çıxarmış, qlobal türk birliyinin - Turan ideologiyasının simvoluna çevirmişlər. Xüsusilə də, bu müəlliflərin poeziyasında Bozqurd həm keçmişin əfsanəsi, həm bu günün milli dirəniş ruhu, həm də gələcəyə yönələn xilas yoludur. Müəlliflərin əsərlərində vətən sevgisi, yurd anlayışı və Türk birliyi ideyası Boz Qurd simvolu ətrafında birləşir. Atsız və Behrudi poeziyasında forma və məzmun birliyi elə sıx qurulmuşdur ki, hər misra bütöv Türk dünyasının ağrılarını və azadlıq mübarizəsini ifadə edir. Hüseyn Nihal Atsız və Rüstəm Behrudi fərqli coğrafiyalarda və zamanlarda yaşasalar da, eyni tarixi yaddaş kodlarını oxşar poetik dillə açmışlar. Beləliklə, Rüstəm Behrudi və Hüseyn Nihal Atsız poeziyasını birləşdirən başlıca cəhət **tarixi yaddaş, milli ruh, türkçülük və mənəvi davamlılıq ideyalarının bütün yaradıcılığı idarə edən vahid poetik məna**

DOI:10.30546/gdu.5.2026

nüvəsinə çevrilməsidir. Onların yaradıcılığında keçmiş, bu gün və gələcək eyni milli yaddaş xəttində birləşir, hər yeni fikir əvvəlki poetik düşüncənin davamı kimi meydana çıxır. Tədqiqat göstərir ki, Boz Qurd motivi hər iki müəllifin yaradıcılığında keçmişlə bu gün arasında mənəvi bağ yaradan və milli kimliyi ifadə edən mühüm poetik vasitədir.

Ədəbiyyat

1.Atsız,H.N (2022) Turançılık, Milli Değerler ve Gençlik.Ötuken.İstanbul. s. 126
2.Atsız, H. N. (2018) Türk Edebiyatı Tarihi. İrfan. İstanbul s.69
3.Atsız, H. N. (2018) Makaleler III İrfan. İstanbul s.283
4.Atsız, H.N. (2023) Yolların Sonu. Ötüken. İstanbul. s.43. s.66.s.71.s.95.s.144.s.
6.Atsız,H.N.(2020) Bozqurdlar ölür,dirilir.Xan.Bakı.s.351çevirəni: M.İsmayıl.
8.Behrudi, R. (2007) Göz Yaşlarından Baxan Allah. Azərnəşr. Bakı. s.29.s.30.s.
9.Behrudi, R. (2021) Mükəmməl Yalan. Xan. Bakı. s.4. s.66. s.196
10.Behrudi, R. (2022) Qızıl Alma. Xan. Bakı. s.14.s.27.s.47.s.62.s.75.
11.Behrudi, R. (2017) Şaman Duasından Dar Ağacına.s.12. s.15. s.20
12.Behrudi, R.(2017) Rüstəm Behrudinin Özü Haqqında Bilmədikləri. Hədəf. Bakı. s.14.s. 16.s.17. s.37. s.55. s.64-65.
13.Behrudi, R. (1992). Salam, dar ağacı! Şeirlər və poema. Gənçlik. Bakı. s.3.
14.Behrudi, R. (2012) Yeddi Rəng Bir Rəngdi Daha. Araz. Bakı. s.7. s.24.s. 74.
15.Gömeç, S.Y. (2025) Uluslararası Türk Dünyasında Bozkurt Sempozyumu (bildiri kitabı). Türk tarihinin Deli Kurtu Hüseyin Nihal Atsız'ın Eserlerinde Kurt. s. 495.s.497.s.498
16. Quliyev, E. (2014) Türk Xalqları Ədəbiyyatı. Apostoroff Bakı. s.13.s.14
17.Rüstəmov, R. və İmanov. G. (2024) Dərslik. Ankara. Türkiyə s.44

THE SYMBOL OF THE GREY WOLF İN THE WORKS OF HÜSEYIN NIHAL ATSIZ AND RUSTAM BEHROUDI

Hicran Ahmad Ahmad

Summary

This article examines the ideological-aesthetic and poetic characteristics of the Grey Wolf (Boz Qurd) symbol in the works of Hüseyin Nihal Atsız and Rustam Behroudi. The Grey Wolf is one of the important symbols in Turkic mythology, embodying the concepts of freedom, strength, and national revival. In the works of Hüseyin Nihal Atsız and Rustam Behroudi, this image acquires particular significance in the context of Turkism, national identity, heroism, and historical memory. In the works of both authors, the Grey Wolf functions not merely as a mythological figure, but also as a means of expressing national consciousness and spiritual values. While in Atsız's works the Grey Wolf primarily emerges as a symbol of heroism and the national ideal, in Behroudi's poetics this image is enriched with philosophical, emotional, and symbolic nuances. The study comparatively analyzes the authors' use of the Grey Wolf image, its semantic significance, and its artistic functions.

СИМВОЛ СЕРОГО ВОЛКА В ТВОРЧЕСТВЕ ХУСЕЙНА НИХАЛА АТСЫЗА И РУСТАМА БЕХРУДИ

Хиджран Ахмед Ахмедовна

Резюме

В данной статье исследуются идейно-эстетические и поэтические особенности символа Серого Волка в творчестве Гусейна Нихала Атсыза и Рустама Бехруди. Серый Волк является одним из важнейших символов тюркской мифологии, воплощающим в

DOI:10.30546/gdu.5.2026

себе понятия свободы, силы и национального возрождения. В произведениях Гусейна Нихала Атсыза и Рустама Бехруди данный образ приобретает особое значение в контексте идеологии тюркизма, национальной идентичности, героизма и исторической памяти. В творчестве обоих авторов Серый Волк выступает не только как мифологический образ, но и как средство выражения национального сознания и духовных ценностей. Если в произведениях Атсыза Серый Волк преимущественно выступает как символ героизма и национального идеала, то в поэтике Бехруди этот образ обогащается философскими, эмоциональными и символическими оттенками. В исследовании в сравнительном аспекте анализируются обращение авторов к образу Серого Волка, его семантическая нагрузка и художественные функции.

Rəyçi: filologiya elmləri doktoru Eşqanə Babayeva
Daxil olma tarixi 01 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT: 821.111.

VİKTORİYA DÖVRÜ İNGİLİS ƏDƏBİYYATINDA TƏRBİYƏ ROMANININ NƏZƏRİ-FƏLSƏFİ ƏSASLARI

Hüseynli Gilə Mehdi qızı
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0002-1754-865X
gilehuseynli@gmail.com

Xülasə: *Məqalə Viktorian dövrü ingilis ədəbiyyatında tərbiyə romanının (bildunqsroman) nəzəri-konseptual təhlilini təqdim edir. Viktoriya dövrü roman diskursu kontekstində intellektual, mənəvi-əxlaqi və sosial-psixoloji yetkinləşmə dinamikasının yaranması, təkamül dəyişiklikləri tədqiqatda ətraflı şəkildə araşdırılır. Tədqiqatın nəzəri-metodoloji çərçivəsi subyektin daxili təkamül proseslərinə, kimliyin axtarışına və baş qəhrəmanın XIX əsrin sərt mənəvi-sosial normaları, institusional çərçivələri və dini-əxlaqi doqmaları ilə ekzistensial qarşılıqlı əlaqəsinə diqqət yetirir. Müasir ədəbiyyatşünaslıq nəzəriyyələrinə əsaslanan məqalədə janrın əsas struktur elementləri, qəhrəmanın yetkinliyə doğru təkamül trayektoriyası və bu yolda ortaya çıxan dağıdıcı sosial-psixoloji ziddiyyətlər, psixoloji travmalar və affektiv halları təhlil edilir. Viktoriya dövrünün transformasiya edən sosial-mədəni, sənaye və şəhər mühitinin fərdi subyektivliyə təsiri, fundamental nəzəri anlayışların və dövrün klassik əsərlərinin bədii matrisinin üzvi sintezi vasitəsilə araşdırılır. Tədqiqatın nəticələri göstərir ki, Viktoriya dövrü bildunqsromanı sadəcə baş qəhrəmanın xətti inkişafı və sosiallaşmasının xronoloji, bioqrafik modelini əks etdirmir, həmçinin fərd və cəmiyyət arasındakı qaçılmaz və gərgin dixotomiya çərçivəsində özünüreallaşdırma, refleksiya və adaptasiyanın mürəkkəb mexanizmlərini müəyyən edən fundamental, çoxqatlı ədəbi-fəlsəfi konstruksiyaları əhatə edir.*

Açar sözlər: tərbiyə romanı, Viktoriya dövrü, fərd-cəmiyyət dixotomiyası, şəxsiyyətin formalaşması, kimlik axtarışı

Ключевые слова: роман воспитания, викторианская эпоха, дихотомия личность-общество, становление личности, поиск идентичности

Key words: bildungsroman, Victorian era, individual-society dichotomy, personal development,

İngilis ədəbiyyatında XVIII əsrdə təşəkkül tapan roman janrı əvvəlki dövrlərdə mövcud olan romans, pikaresk və səyahət romanlarının təsiri ilə formalaşmışdır. P.Qolbanın qeyd etdiyi kimi, XVIII əsrdə hələ inkişafının ilkin mərhələsində olan ingilis romanının mürəkkəb sturktura malik olması onun bir neçə janrın izlərini özündə ehtiva etməsindən qaynaqlanır [9, s. 9-10]. Heliodorun "Efiopiya tarixi", Petroninin "Satirikon", Apuleyin "Qızıl eşşək", Lonqun "Dafnis və Xloya" kimi əsərləri intibah dövründə bir çox müəlliflər tərəfindən təqlid edilmiş, R.Qrin və T. Nəşin ilham mənbəyi olmuşdur. Orta əsr romansları, ispan pikaresk romanları dərin təsvirləri və insanı sosial varlıq kimi realist nöqteyi nəzərdən təsvir etmək baxımından xüsusilə seçilirdi. Digər tərəfdən, Riçardson, Fildinq kimi XVIII əsr yazıçıları romanslardan ciddi şəkildə fərqlənən yeni roman növü yaratdıqlarının fərqində idilər. Bu dövrün yazıçıları öz əsərlərini sadəcə uydurma hekayə deyil, real həyatın və tarixin ümumiləşdirilmiş qanunauyğunluğu kimi təqdim etməyə çalışırdılar. D.Didro "Riçardsonun tərifinə" (1762) adlı məqaləsində bu yanaşmanı belə qiymətləndirirdi: "Cəsarət edib deyərdim ki, tarix çox vaxt sadəcə pis bir romandır, sizin yazdığınız roman isə yaxşı tarixdir" [7, s. 9]. Bu dövrün realist romanları fərdi təcrübələrdən çıxış edərək ümumi tarixi həqiqətləri ifadə

DOI:10.30546/gdu.5.2026

etmək məqsədi güdürdü. Tədqiqatçıların qeyd etdiyi kimi, Fildinq, Riçardson və onların müasirlərinin öz romanlarını sadəcə bədii əsər deyil, məhz tarix kimi təqdim etmək barədə şüurlu qərarı bədii ədəbiyyat sahəsində cəsarətli addım olub, ədəbiyyatdakı realist inqilabın tam mərkəzinə işarə edir. Realizm gündəlik təcrübələri birləşdirən ümumi qanunauyğunluqları təqdim etməyi hədəfləyir və tarixi mənanın zərif xülasəsi rolunu oynayır.

Rasionallıq və maarifçilik ovqatında başlayan XVIII əsrdə düşünmək, anlamaq, hətta başqalarının anlamasına kömək etmək ön plana keçdi. Bu baxımdan oxucunun dünyanı daha aydın dərk etməsi üçün süni estetik elementlərdən uzaq, sadə, yığcam bədii dilə, hissləri ilə deyil, ağılları ilə hərəkət edən obrazlara müraciət olunurdu.

Ədəbi tənqidçi Y. Uotun fikrincə, XVIII əsr romanının kökündə fərdi təcrübələrə sadiq qalmaqla həyata keçirilən axtarışlar dayanır. Əgər roman fərdin yaşadıqlarını nəql edəcəksə, dil də bu məqsədə xidmət etməli, real dünya ilə əlaqə yaratmalıdır [18, s. 174.] Bundan əlavə, Y.Uot XVIII əsr romanının yüksəlişini onun Dekart metodu və Lokun empirik skeptisizmini təqlid etməsi ilə əlaqələndirir. Belə ki, bu yanaşmada həqiqət fərdi müşahidəçilərin imkanları və məhdudiyyətləri ilə çərçivələnir. Məhz bu empirik ənənə 1780-ci ildən əvvəlki Avropa romanlarını məktub və etiraf janrlarına geniş şəkildə əsaslanmağa, yaxud oxucuların inamsızlığının qarşısını almaq məqsədilə faktiki sənədləri olduğu kimi təqdim etdiklərini iddia etməyə sövq etmişdir.

Qolbanın da vurğuladığı kimi, bu dövrdə qələmə alınan ilk romanlarda real həyat motivlərini təqdim etmək üçün xatirələr, yaşanmış əhvalatlar, məktublar və əlyazmalar kimi fərqli formalardan istifadə edilmişdir. Fərdi təcrübələrin diqqət mərkəzində olması və hər fərdin fərqli həyat təcrübəsi vahid janr çərçivəsinin formalaşmasına mane olmuşdur. Bu baxımdan dövrün romanlarını müxtəlif kateqoriyalar altında tədqiq etmək olar. Məsələn, D.Defonun "Moll Flenders" (1772) romanı həm avtobioqrafik, həm də pikaresk roman hesab olunur; H.Fildinqin "Cozef Endryus" romanı həm parodiya, həm yumoristik, həm də pikaresk xüsusiyyətləri daşıyır; S.Riçardsonun məktub formasında yazılmış "Pamela" romanı etiraf romanı kimi tanınır; H.Fildinqin "Tom Cons" romanı isə isə həm tərbiyə romanı, həm də pikaresk xarakterli roman kimi bilinir.

L.Hartveytə görə pikaresk romanın mərkəzində xaotik dünyada başqaları ilə mübarizədə olan, lakin qəhrəmanlıq xüsusiyyətləri daşımayan obraz dayanır [10, s. 10-13]. Bu obraz adətən yaşadığı dünyadan fərqli, özünü təhlükəsiz hesab edəcəyi bir dünya arzulayır. Onun bu arzusu əslində bütün cəmiyyətin arzusudur. Obrazın uşaqlığından başlayaraq yetkinliyə qədər keçdiyi yolun təsviri üzərində qurulan pikaresk romanlar adətən obrazın ailəsinin təqdimatı ilə başlayır. Daha sonra ailəsi ilə arasındakı ziddiyyətləri dərk edən obraz gerçək dünyaya atılır və bu onun ikinci doğuluşu kimi ifadə olunur. Real dünyada təcrübəsizliyi ilə baş çıxarmağa çalışan obraz dəyişən proseslərə uyğunlaşmağı öyrənir. Pikaresk romanının sonluğunun açıq olması tərbiyə romanında olduğu kimi qəhrəmanın formalaşmasının müsbət sonluq ilə nəticələnəcəyinə dair işarə verir [10, s. 15].

Fərdi təcrübəyə verilən dəyər, XVII əsr Avropa roman ənənəsinin davamı olaraq, XVIII əsrdə də avtobioqrafik romanların ön plana çıxmasına rəvac verdi. Bunun əsas səbəbi avtobioqrafiyalarda fərdin həyatının və özünütənqidinin ön planda olması idi. Avtobioqrafik romanlar daha sonra birbaşa birinici şəxsin dilindən qələmə alınan əsərlərin yazılmasına yol açmışdır. Dövrün avtobioqrafik romanlarından olan "Moll Flenders"in qəhrəmanı Moll zindanda doğulan, oğurluq edən, müxtəlif aşiqləri olan nəhayət sürgün edildiyi Virciniyada həm maddi, həm də mənəvi səadətə qovuşan bir qadındır. Moll dini dəyərləri kəşf etməzdən, dürüst yolla pul qazanmazdan və ailə qurmazdan əvvəl dini və əxlaqi anlayışa sahib deyildi. Macəra süjetli əsər bir çox cəhətdən pikaresk romanın cizgilərini və həmçinin tərbiyə romanı elementlərini ehtiva edir. D. Defonun "Robinzon Kruzo"su kimi əvvəlki pikaresk formalardan

DOI:10.30546/gdu.5.2026

süjeti tarixi zamanı təkrarlanan, statik təcrübə dövrlərinə çevirmək cəhdlərinin təsvirindən ibarət olan əsərlərdən fərqli olaraq bildunqsroman ənənəsi tarixin elə bir dinamik anlayışını təqdim edir ki, bu, mövcud sosial qəlibləri fəal şəkildə pozur və baş qəhrəmanı özünü formalaşdırmaq istiqamətində təcrübələr aparmağa sövq edir.

Bildunqsroman termini 1817-ci ildə Karl fon Morgenştern tərəfindən irəli sürülsə də, ədəbiyyatşünaslıqda yalnız XIX əsrin sonlarına doğru geniş yayılmışdır. Estetika professoru Morgenştern bildunqsroman terminini irəli sürməklə yanaşı onu müasir romanın alt-janrı kimi müəyyənləşdirmişdir. Morgenştern bu janrın "müasir avropalının inkişafının və formalaşmaqda olan şəxsiyyətinin ən gözəl cəhətlərini" təsvir etdiyini bildirir, janrın şəxsi inkişafın modelləşdirilməsi, fərdlə cəmiyyət arasında vasitəçilik, həmçinin etik düşüncə və mədəni tərbiyənin aşılanması kimi pedaqoji dəyərlərini xüsusi vurğulayır [15, s. 653]. Götenin romanını janrın ilkin nümunəsi kimi qiymətləndirən Morgenştern qeyd edir ki, "Vilhelm Meysterin təhsil illəri" əsərinin vəzifəsi daxili meyillərin xarici şəraitlə qarşılıqlı əlaqəsi sayəsində öz həqiqi təbiətinə doğru inkişaf edən bir insanı təsvir etməkdən başqa bir şey deyil" [15, s. 656]. Morgenştern barışdırıcı paradiqmanı janrın əsas prinsipi kimi qəbul etsə də, etiraf edir ki, transsendental bir ideal tapmaq qeyri-mümkündür; əvəzində, biz hər yerdə məhdudiyyətlərin və insan təbiətinin kövrəkliyinin izlərini görürük.

"Vilhelm Meysterin təhsil illəri" əsəri "Alman maarifçiliyi düşüncəsinin geniş humanist prinsipləri çərçivəsində fərdi inkişafı nəzərdə tutan tərbiyə romanı olsa da, sözügedən bu ilkin nümunədə təsəvvür edilən inkişaf prosesi XVIII əsrin sonlarına aid ideologiyaya əsaslanır və buna görə də janr kateqoriyası yaratmaq üçün kifayət qədər əhatəli deyil" [17, s. 162-163]. Bununla belə, Maykl Beddou kimi bəzi tənqidçilər bu terminin almanşünaslıq sahəsindən kənarda istifadəsinə qarşı çıxırlar; çünki terminin sərbəst və ya qeyri-dəqiq istifadəsi, qəhrəmanın (istər kişi, istərsə də qadın) inkişafından bəhs edən istənilən romanın tərbiyə romanı kimi təsnif edilməsinə səbəb ola bilər.

İngilisdilli ədəbi mühitdə Vilhelm Diltey Morgenşternin mövqeyinə və onun "insan təbiətinin məhdudiyyətləri və kövrəkliyi"nə etdiyi vurğuya əsaslanaraq bildunqsroman terminini geniş yaymışdır. Janrı ədəbi tənqid tarixinə daxil edən tənqidçi kimi, Diltey özünün "Poeziya və təcrübə" əsərində insanların bir-biri ilə münasibətləri və sosial məsələlərdən daha çox, daxili aləmə və şəxsiyyətə diqqət yetirmişdir: Onların (bildungsromanların) hamısı dövrün gəncinin sadəlövhlük içində həyata qədəm qoyaraq ruhən yaxın insanlar axtarmasını, dostluq və məhəbbət tapmasını, dünyanın sərt reallıqları ilə toqquşmasını, müxtəlif həyat təcrübələri sayəsində yetkinləşməsini, özünü dərk etməsini və dünyadakı məqsədi ilə bağlı əminlik qazanmasını təsvir edir [8, s. 320].

Dilteyin təsvir etdiyi bu inkişaf yolu, janrın baş qəhrəmanın psixoloji/emosional və mənəvi tərəqqisi kimi ümumi tərifinə zəmin yaradır. O, həmçinin qeyd edir ki, tərbiyə romanı janr kimi Leybnitsin yeni inkişaf psixologiyası ilə, xüsusilə də "psixikanın inkişafına uyğun tərbiyə" ideyası ilə sıx bağlıdır [8, s. 336].

Bununla belə, daxili inkişafa dair bu nikbin mövqe ilə yanaşı, Diltey vurğulayır ki, janr təbiət və bağlılıq arasındakı ziddiyyətdən doğan əzabın təcrübəsi ilə də dərindən bağlıdır. Russonun "Emil" əsəri əzablar vasitəsilə baş verən psixoloji inkişafın mükəmməl nümunəsidir: Həyatın acı və məşəqqətli reallıqlarına müasir dövrdə göstərilən xüsusi diqqət (xüsusilə də Şopenhauerin fəlsəfəsində) bir çox cəhətdən məhz həmin sələflərlə bağlıdır. Lakin Russodan bəri insan varlığının gətirdiyi əzabların hiss olunmasındakı o özünəməxsus intensivlik yeni mədəni şəraitlə uzlaşırdı. Təbiət ilə şərti normalar arasındakı ziddiyyət sosial inkişafın gedişatı nəticəsində daha da kəskinləşmişdi. Avropa cəmiyyəti ideallara və xoşbəxtliyə olan sonsuz bağlılığın, sosial quruluşa, hətta təbiətin öz nizamına qarşı irəli

DOI:10.30546/gdu.5.2026

sürülən inanılmaz tələblərin, habelə sonsuzluğa və misli görünməmiş xoşbəxtlik şərtlərinə can atan arzunun təsiri altına düşmüşdü [8, s. 337].

Modernliyin təsiri altında janrın fəlsəfi əsası Alman idealizmindən XIX əsr realizminə doğru dəyişməsi janra fərqli bir mürəkkəblik qatır. Lukaçın vurğuladığı kimi, "hər bir forma mövcudluğun fundamental uyğunsuzluğunun həllidir" [13, s. 61]. Morettinin ifadəsi ilə desək, "modernliyin simvolik forması" olan XIX əsr bildunqsromanı 'bildunq' anlayışının təməlindəki fəlsəfəni dəyişdirir. Janrın transformasiyası təkcə həmin formada yazılmış yeni romanlar vasitəsilə deyil, həm də müxtəlif tənqidçilərin daim irəli sürdüyü ədəbi tənqidlərə əsasən formalaşmışdır. Eyni zamanda bəzi tədqiqatçılar bildunqsroman altjanrın inkişaf romanı (Entwicklungsroman), tərbiyə və ya təhsil romanı (Erziehungsroman), sənətkarın formalaşmasını təsvir edən roman (Künstlerroman) və dövrün tarixi təkamülü ilə baş qəhrəmanın şəxsi inkişafının iç-içə keçdiyi roman (Zeitroman) kimi bir neçə əsas növü əhatə etdiyini də qeyd edirlər.

Mixail Baxtin bildunqsroman haqqında tədqiqatında janrın fərdin inkişafı ilə tarixin təkamülünü qırılmaz zəncirlərlə birləşdirdiyini qeyd edir: "Man's individual emergence is inseparably linked to historical emergence" [2, s. 149]. Beləliklə, tərbiyə romanında qəhrəmanın yetkinləşməsi həm də onun milli-tarixi zaman çərçivəsində formalaşması deməkdir.

Alman nəzəriyyəsində fərdin içində formalaşan 'bildunq' ideyası İngiltərədə Sənaye İnqilabının gətirdiyi sərt sosial reallıqlarla toqquşaraq transformasiyaya uğradı. Alman və ingilis ədəbi ənənələri arasındakı əsas fərq ondan ibarətdir ki, alman müəlliflər diqqəti baş qəhrəmanın daxili psixoloji ziddiyyətlərinə yönəltdikləri halda, ingilis yazıçılar personajın kimlik uğrunda mübarizəsini xarici sosial və mənəvi konfliktlərlə daha da mürəkkəbləşdirirlər.

S.Hou XIX əsr ingilis tərbiyə romanının formalaşmasında alman bildunqsromanı və Göte ilə bərabər Russo, Karlayl və Bayronun da təsiri olduğunu qeyd edir. Onun fikrincə, ingilis bildunqsroman müəllifləri əsasən, alman ədəbiyyatı və təfəkkürü ilə yaxından tanış olan və ya müəyyən müddət Almaniyada yaşamış yazıçılardır. İngilis tərbiyə romanındakı avtobioqrafik ünsürlərdə Russonun və "Etiraf" (Confession) ədəbiyyatının izləri aydın görünür. "Etiraf" ədəbiyyatının nümayəndələri özünütəhlil metoduna əsaslanaraq fərdin romantik ədəbiyyatın duyğularından sıyrılıb yeni dövrün mexaniki insanına çevrildiyini göstəririr. Bu ədəbi cərəyanın gətirdiyi "daxili aləmi və hissləri büruzə vermə" ənənəsi həyat şərtləri ağırlaşdıqca daha da böyük əhəmiyyət kəsb etməyə başladı [11, s. 6-9].

XIX əsrdə İngiltərədə Sənaye İnqilabının səbəb olduğu maşınlaşma, texniki tərəqqi və şəhərlərin sürətlə böyüməsi fərdin həyatına və yaşayış səviyyəsinə bilavasitə təsir göstərdi. Sənayeləşmənin səbəb olduğu ziddiyyətlər, ictimai şüurdakı dəyişikliklər və həyatın dinamikləşməsi insanın özünü ifadə etmə ehtiyacını artırdığından roman janrının mövzu dairəsi daha da zənginləşdi. XIX əsrin sürətli inkişafı və dəyişikliyi fonunda fərd yeni şərtlərə uyğunlaşmaqda çətinlik çəkirdi: Sənaye İnqilabına qədər aqrar cəmiyyətin üzvü olan insan qəfil özünü ona yad olan sənaye mühitində tapır, texnoloji tərəqqinin təkan verdiyi modern həyat tərzi onun köhnə dəyərləri ilə ziddiyyət təşkil edir. Yeni həyat tərzinə uyğun dəyərlər formalaşdırmaqda aciz qalan fərd köhnə dünya ilə yeninin arasında sıxışıb qalır və bu hal onun mövcudluğunun mənasını itirməsi ilə nəticələnir.

Erkən Viktoriya dövründə (1830-1850-ci illər) sənayeləşmə və urbanizasiya, savadlılığın artması və çap mədəniyyətinin yayılması, eləcə də utilitarizm və elmi təfəkkürün yüksəlişi kimi proseslər dini nüfuzun zəifləməsini sürətləndirdi və özünü inkişaf, fərdi təkmilləşmə və sosial mobillik kimi dünyəvi məqsədlərə əsaslanan tərəqqi və xoşbəxtlik idealları ilə yoğrulmuş daha dünyəvi bir cəmiyyətə yol açdı. Fabriklərin çoxalması və

DOI:10.30546/gdu.5.2026

şəhərlərə kütləvi miqrasiya sosial sarsıntılara və yeni sinfi narahatlıqlara səbəb oldu. Romanların və dövri nəşrlərin ucuz qiymətə və hissə-hissə yayımlanması ilə yanaşı, fərdi inkişafa dair ədəbiyyat insanların əxlaqi və emosional dünyagörüşünü formalaşdırmağa başladı. Ceremi Bentam, Ceyms Mill və Oqüst Kontun təsiri altında utilitarizm və elmi pozitivizmin təşviqi tərəqqi və empirik müşahidəni emosiya və intuisiyadan üstün tuturdu [4, s. 118]. Bütün bu proseslərin təsiri ilə Viktoriya dövrü cəmiyyəti vəzifə hissini, təmkinliliyi və nəfsin cilovlanmasını təşviq edən mədəni nizamlayıcı qüvvə rolunu oynayan, dünyəvi ideallara əsaslanan möhkəm əxlaqi çərçivəni mənimsəməyə başladı. Bu dünyəvi və əxlaqi ideallar fərdlərin daxili istəkləri ilə ziddiyyət təşkil edirdi. İslahatçı əxlaqi çərçivəyə və nizamlayıcı xarakterə malik Viktoriya dövrü tərbiyə romanı bu gərginliyi öz qəhrəmanları vasitəsilə təsvir edir; həmin qəhrəmanlar özünü ifadəyə və şəxsi təkmilləşməyə can atsalar da, istəklərini başqa istiqamətə yönəldən idealların daim nizamlayıcı təzyiqi ilə üzləşirlər və bu iki amil heç vaxt ahəngdar şəkildə üst-üstə düşmür. Dövrün yazıçıları fərdin yeni dəyərlərlə barışması və varlığına yeni məna qatması üçün ona yol göstərmək üçün müxtəlif yollara əl atırdılar: bəziləri sənaye cəmiyyətinin mənzərəsini və problemlərini əks etdirən romanlar, bəziləri isə dəyişən dəyərlərə adaptasiya olunmağa kömək etmək, yeni cəmiyyət modelində yetişəcək fərdlərə istiqamət vermək üçün tərbiyə romanları qələmə alırdılar.

İngilis tərbiyə romanında fərdin hisslərini bəyan etməsi, Hounun da bildirdiyi kimi, Bayronizm ilə də sıx bağlıdır. Yazıçıların Bayronun təsiri ilə yaratdıqları roman qəhrəmanları, adətən, başqaları tərəfindən səhv başa düşülən və cəmiyyətə adaptasiya ola bilməyən tiplərdir. Çox vaxt ailələri tərəfindən diqqətdən kənar qalan bu obrazlar xarici dünyaya qarşı qərəzlə dolurlar. Lakin Bayronizm ovqatı onları bütün bu mənfiliklərdən xilas edir. Bu ovqat M.Drabblın da dediyi kimi, onların sahib olduğu qürur, teatr/incəsənət sevgisi və kainatdakı hər şeyin faydasız və praqmatik olduğuna dair inamlarla bağlıdır. Onların bir qismində yumor hissi və zərif zövq inkişaf etmişdir, hər birində yeni yerlər görmək və kəşf etmək ehtirası var. Lakin tərbiyə romanının qəhrəmanının seçimi daha çox tufanlı, çovğunlu məkanlar olur; çünki çəkdiyi əzab ancaq belə yüngülləşə bilər. Bu seçim birbaşa Bayronizmin təsiri ilə əlaqədardır. Qəhrəmanın əzablara sinə gərməsinə kömək edən başqa bir ünsür isə iş əxlaqı və əməksevərlikdir. Bütün bu keyfiyyətlər sayəsində roman qəhrəmanı İngiltərədə, düşdüyü mühitdə əvvəlcə bir şagird, sonra isə çətin həyat sənətinin kamil ustasına çevrilir.

M.Olifant "İngilis ədəbiyyatının Viktoriya dövrü" adlı məqaləsində bildirir ki, zəhmətin sağaldıcı, bərpa edici təsirə malik olması ideyası T.Karlaylın ingilis bildungsromanına ən böyük töhfəsidir [16, s. 27-28]. Əməyin ön plana keçməsində XVIII əsrdə Götenin şəxsi inkişaf ilə bağlı fikirləri də böyük rol oynamışdır. Karlayldan bəhrələnən ingilis yazıçıları qəhrəmanlarını başlarını qatacaq məşğuliyyət axtarışında təsvir etməklə yaşamağı estetik və yaradıcı proses kimi təqdim edirdilər. Beləliklə, roman qəhrəmanları Bayronizmin gətirdiyi bədbin ruh halından sıyrılaraq, həyatda lazımlı bir iş tapmalı olduqlarına inanaraq hərəkət edirdilər.

Müasir tədqiqatçılar bu problematik yanaşmaya əsaslanaraq iddia edirlər ki, özünə hakim olma və özünə güvənmə kimi Viktoriya dövrü ideallarının zahirən əlçatmazlığını onları dəstəkləyən affektiv mexanizmlər prizmasından təhlil etmək Viktoriya dövrü bildunqsroman janrında xarakterin formalaşması ilə bağlı anlayışları əhəmiyyətli dərəcədə genişləndirir. Viktoriya dövrü tədqiqatları ilə affekt nəzəriyyəsinin kəsişməsinə əsaslanan bu yanaşmadan çıxış edərək Elişa Kon qeyd edir ki, ədəbiyyatşünaslar 'affekt' terminini "özünü və sosial reallığı dərk etməyin standart prosedurlarından kənarda qalan minimal subyektivlik" mənasında işlədirlər. Başa düşülməsi çətin və qeyri-şəxsi xarakter daşıyan affektiv hallar fərdin iradəsindən kənarda dövr edir [5, s. 563]. Bundan əlavə, affekt nəzəriyyəsi Viktoriya dövrü tədqiqatlarını qeyri-ənənəvi konseptual vasitələrlə zənginləşdirir ki, bu, da Viktoriya

DOI:10.30546/gdu.5.2026

dövrü insanlarının "təbiətən narahatlığa və inadkarlığa meyilli" olması barədə təsəvvürlərə alternativ təklif edir. E. Konun "Natürmort: Viktoriya dövrü romanında dayandırılmış inkişaf" (2015) adlı əsəri, xüsusilə XIX əsrdə fizioloji psixologiya sahəsindəki elmi nailiyyətlərə diqqət yetirməklə, Viktoriya dövrü tərbiyə romanını affektiv dönüş prizmasından yenidən nəzərdən keçirmək meylinə nümunədir. Şüurun zəiflədiyi halları araşdıran Kon iddia edir ki, bu romanlar mütləq şəkildə 'bildunq' (özünü formalaşdırma) estetikasına zidd olan alternativ subyektivlik modeli təqdim etmir. Əksinə, "özünü təkmilləşdirmə ehtiyacı ilə bağlı təzyiq heç vaxt tamamilə yox olmur, sadəcə müəyyən çərçivədə saxlanılır" [6, s. 5]. Beləliklə, bu yanaşma Viktoriya dövrü bildunqsroman janrını dövrün sərt ideoloji tələbləri (xüsusilə əmək, vəzifə borcu, özünü cilovlama, mükəmməllik və Protestantlıq və s.) kontekstində yerləşdirir.

Konun tədqiqatlarına əlavə olaraq, subyektivlik, affekt və Viktoriya dövrü bildunqsroman (şəxsi inkişaf romanı) janrı arasındakı qarşılıqlı əlaqəni təhlil edən əsərlər bu janrın emosional və ideoloji əsaslarının anlaşılmasına mühüm töhfə verir. J.Enen, A. Svirlayn, N. Haffels və E. Cey kimi tədqiqatçılar belə bir fikir irəli sürürlər ki, "Viktoriya dövrünün bir sıra elmi nəzəriyyələri şəxsi inkişaf idealının əsaslandığı Maarifçilik dövrü nikbinliyini sarsıtmışdır" [14, s. 13]. Bronte, Eliot, Hardi, Meredit və Kollins kimi görkəmli yazıçıların əsərlərini təhlil edərkən, bu alimlər Viktoriya dövrü yazıçılarının subyektivliyin özünəməxsus təbiətini və kövrəkliyini araşdırmaq üçün tərbiyə romanından istifadə etdiklərini vurğulayırlar. Məsələn, Haffels qeyd edir ki, U. Kollinsin "Ağ paltarlı qadın" əsəri yaddaş və şüurun parçalanması anlayışları ətrafında qurulmuşdur; bununla da əsər, psixoloji travmanın ağırlığı altında vahid kimliyə (şəxsiyyətə) nail olmağın mümkünsüzlüyünü üzə çıxaran bir növ "kölgə bildunqsroman"ı yaradır. Eynilə, Svirlayn xüsusilə Dikkens və Hardinin romanlarında sosial sinfi problemlərin təsvirinə diqqət yetirməklə XIX əsr elmi və psixoloji kəşflərin təsirini araşdırır, elmi diskursun muxtariyyət və özünü təkmilləşdirmə kimi liberal ideallara meydan oxuduğunu göstərir. Emosiyalar və formalaşma idealı arasındakı qarşılıqlı əlaqə mövzusunu genişləndirən Amanda Auerbaxa görə, Lusi Snou, Meqqi Talliver və Marqaret Heyl kimi qadın qəhrəmanlar özünütərbiyə və ya intizam axtarışından daha çox, insanlararası münasibətlərin təsiri ilə hərəkət edirlər; onlar çox vaxt müəyyən emosiyaları uydurma obrazlara və ya obyektlərə yönəltməklə həmin hisslərdən uzaqlaşmağa çalışırlar. Bununla da Auerbax belə qənaətə gəlir ki, subyektin xarici reallıqları mənimsəməsi yolu ilə cəmiyyətə inteqrasiyası mahiyyət etibarilə natamam qalır [1, s. 671]. Kölgə bildunqsroman və ya natamam inteqrasiya iddiaları Viktoriya dövrünün Dikkens və Hardi kimi yazıçıların əsərlərində öz əksini tapır.

Ümumilikdə, bildunqsroman janrının strukturu təkrarlanan əsas motiv və mövzular üzərində qurulub: Şəxsiyyət və 'mən'lik; Yetkinləşmə; Təhsil; Sevgi; və Həyatın mənasını axtarış. Tipik bildunqsromanın süjetində həssas və istedadlı baş qəhrəman kənddəki və ya əyalətdəki evini tərk edərək geniş şəhər mühitinə (çox vaxt Londona) doğru səyahətə çıxır, burada həyatın sınaqları, romantik münasibətlər və sosial ziddiyyətlər arasında yol tapmağa çalışarkən xarakteri formalaşır.

Tərbiyə romanı qəhrəmanlarının müxtəlif məşğuliyyətləri onların formalaşma prosesinə rəngarənglik qatır. Hounun dediyi kimi, İngiltərədə sənayeləşmə, siyasi islahatlar, dini ziddiyyətlər və imperialist dəyişikliklər arasında sıxışıb qalan qəhrəmanlar düşdükləri mürəkkəb həyat situasiyasına uyğunlaşmağın fərqli yollarını tapırlar [11, s. 10]. Bəzisi doğru qadınla evlənir, ailə mirasına sahib çıxır; bəzisi məmur, həkim, yazıçı kimi müxtəlif peşələrə yönəlir və səhvlərindən sonra uğur qazanırlar. Bu müxtəliflik yazıçıların ictimai narahatlıq və böhrana qarşı təklif etdikləri həll yollarının fərqliliyindən irəli gəlir. Lakin müəllifindən asılı olmayaraq, bütün roman qəhrəmanlarının ortaq cəhəti həyatı dinamik, dəyişkən və axıcı proses kimi qəbul etmələridir. Hər biri yaşamağın və var olmağın fərqində olsalar da

DOI:10.30546/gdu.5.2026

seçdikləri peşədə uğur qazanmaları onların həyata tamamilə adaptasiya olunduqları demək deyil. Onlar kainatın sirli bir aləm olduğunun, özlərinin bu böyük aləmdə kiçik zərrə olduqlarının və həyatın hər an yeniliklər təqdim edə biləcəyinin fərqindədirlər.

Qadın yazıçılar da janrın inkişafına əvəzsiz töhfələr vermişlər. Qadın tərbiyə romanına nümunə kimi Şarlotta Brontenin baş qəhrəmanın yetkin və müstəqil şəxsiyyətə çevrilməsi prosesini əks etdirən "Ceyn Eyr" əsərini göstərmək olar. XX əsrdə Silviya Plat da peşəkar özünüifadəyə can atan gənc qadından bəhs edən, qismən avtobioqrafik xarakterli "Şüşə fanus" romanında klassik tərbiyə romanı modelindən istifadə etsə də ənənəvi xoşbəxt sonluqdan imtina etmişdir.

S.Hou XIX əsrin sonuna doğru sosial narazılıqların daha da dərinləşməsinə diqqət çəkərək bunun fərdə mənfi təsir etdiyini iddia edir. Zamanın axınına qoşulan insan özünü sosial, siyasi və dini ziddiyyətlərin ağuşunda tapır. Bu səbəbdən əsrin sonlarına doğru dindəki qeyri-müəyyənlik və elmi biliklərin artması fonunda daha çox fikir ayrılıqları və ya itirilməkdə olan inanc haqqında romanlar yazılmağa başlandı. Bu əsərlər də müəyyən mənada tərbiyə romanı kimi qəbul edilə bilər.

Viktoriya dövrü ədəbiyyatı kontekstində Tomas Hardinin "Naməlum Cud" romanı fatalizm anlayışını əks etdirməsi baxımından da diqqətəlayiqdir: əsərin qəhrəmanı Cud Foli çətin şərtlərlə üzləşərək elə bir yetkinləşmə yolu keçir ki, bu yol onu gerçəkləşməmiş ambisiyaların faciəsinin təsiri ilə məhvə aparır. Peşəcə daşyonan olan Cud Fauli iki qadınla - kobud təbiətli Arabella və intellektual Syu ilə qurduğu münasibətlər nəticəsində öz mənəvi və intellektual ambisiyalarından imtina edir. Cud Arabella ilə evlənir və onların bir övladı olur; Syu ilə isə rəsmi nikah bağlamasa da, ondan iki övladı dünyaya gəlir. Nəhayət, alkoqolizmə düçar olan Cud yoxsulluq və ümidsizlik içində dünyasını dəyişir.

Digər tərəfdən, eyni dövrdə yazılan və bildunqsroman nümunəsi sayılan "Devid Kopperfild" və "Böyük ümidlər" əsərlərinin qəhrəmanlarının Fildinq və Smolletin XVIII əsr pikaresk ənənəsinə daha yaxın olmaları onları fərqli qrupa aid etməyə imkan verir. Çarlz Dikkensin yetkinlik dövründən bəhs edən "Böyük ümidlər" romanında Pip adlı gənc qəhrəman əsilzadə olmaq və xəyallarındakı qızın qəlbini fəth etmək məqsədilə doğma evini tərk edir. Bu janrdakı əsərlərin əksəriyyətində qəhrəmanlar həyat yollarını özləri cızmalı olduqları halda, Pip ona xoşbəxtlik gətirəcəyinə inandığı sərvəti təmin edən sirli bir himayədar qazanır. Nəhayət, Pip həqiqi dəyərləri kəşf edir və anlayır ki, xoşbəxtlik pulda deyil, daxili ləyaqət və sosial mövqeyindən asılı olmayaraq sadiq dostların qədrini bilmək kimi keyfiyyətlərdədir.

Dikkens kimi yazıçılar XIX əsrdə tərbiyə romanının klassik hekayə strukturunu qoruyub saxlamaq üçün yetkin təhkiyəçi obrazına müraciət edirdilər. Tomas Boesin qeyd etdiyi kimi, XIX əsr bildunqsromanında "Baş qəhrəman öz inkişafının son nöqtəsində nəhayət elə bir ontoloji sərhədi keçir ki, orada tarixi təsadüfilik yerini tamamilə fərqli bir şeyə verir, təhkiyə olunan subyekt isə yerini təhkiyəçi subyektə buraxır" [3, s. 184]. Yəni əsərin sonunda qəhrəman artıq yaşadığı tarixi prosesləri dərk edib nəql edən yetkin bir subyektə çevrilir. Bu transformasiya Vilhelm fon Humboldtun "Tarixçinin vəzifəsi haqqında" (1821) əsərindəki nəzəri yanaşmasını əks etdirir. Həmin yanaşmaya görə, tarixi dərk etmək subyektlə obyekt arasında ilkin bir uyğunluq tələb edir və bu zaman tarixin qeyri-şəxsi qüvvələri fərdlərin həyatındakı əks-sədaları vasitəsilə əlçatan olur [12, s. 62].

Ç. Dikkensin avtobioqrafik xarakterli "Devid Kopperfild" və "Böyük ümidlər" romanlarının qəhrəmanları əsər boyu böyüyən, yaşayaraq öyrənən gənc kişilərdir. Lakin onların öyrənmə prosesi daha çox təsadüfi xarakter daşıyır. Devid və Pip romanın sonunda yetkin fərd kimi görünsələr də, bu yetkinlik öz istedadlarını və ya güclərini kəşf etmələrinin nəticəsi deyil. Belə ki, onlar sadəcə bir manea ilə qarşılaşır, ondan xilas olur və eyni səhvi

DOI:10.30546/gdu.5.2026

təkrarlamamağa çalışırlar. Başlarına gələnlərdən dərs çıxaracaq və bu dərsi həyatın digər sahələrinə tətbiq edəcək qədər geniş təxəyyülə malik deyillər. Bu səbəbdən romanın sonunda nə Devidin, nə də Pipin gözlənilən kamilliyə çatmadıqlarını demək olar. Elə buna görə də hər iki qəhrəmanın əsərin sonunda çatdıqlarını iddia etdikləri "səadət" anlayışı mübahisəlidir.

XX əsrdə dünyada baş verən iqtisadi və sosial dəyişikliklər yazıçıları insanın daxili aləminə yönəlməyə vadar edir. Ənənəvi dəyərlərin alt-üst olduğu müasir dünyada sənətkarlar fərdin ruhi narahatlığını bəyan etməyin yeni yollarını axtarırlar. Modernist yazıçılar XVIII və XIX əsrdəki sələfləri kimi insanı cəmiyyətdəki mövqeyinə görə deyil, öz daxili aləminə uyğun təsvir edirlər. Bu məqam XX əsr bildunqsromanına da təsir edir. "Tom Cons" və "Böyük ümidlər"dəki qəhrəmanın cəmiyyətdə öz yerini tapmaq cəhdi XX əsr tərbiyə romanında fərdin öz içindəki bütövlüyü, daxili ahəngi axtarması ilə əvəz olunur. Roman qəhrəmanı öz mənliyini, potensialını, arzularını kəşf edərək mənəvi bütövlüyə çatır və yalnız bundan sonra yetkinləşir.

XX əsr modernist və postmodernist bildunqsroman janrının əsas nümunələrinə Ceyms Coysun sürgün və sosial təcrid metaforasının yaradıcı şəxsiyyətin inkişafı üçün zəruri şərt kimi təqdim olunduğu "Sənətkarın gənclik portreti" və D.H. Lourensin yetkinlik dövrünə qədəm qoyma prosesini psixoanaliz və fərdi kimlik uğrunda mübarizə prizmasından araşdıran "Oğullar və sevgililər" əsərləri aiddir.

Zaman keçdikcə ingilis tərbiyə romanı insan təcrübəsinin kövrəkliyini, müasir dövrün sosial-psixoloji böhranlarını və subyektivliyin çoxqatlı təbiətini əks etdirən universal ədəbi-fəlsəfi struktur qazanmışdır. XVIII əsrin realistik sosial müşahidələrindən XX əsrin dərin şəxsiyyət axtarışlarına doğru inkişaf edən bu ədəbi ənənə, müasir fərdin dəyişən dünya ilə münasibətini və özünəməxsus şəxsiyyət formalaşdırmaq uğrunda mübarizəsini ədəbiyyatın mərkəzi mövzusuna çevirmişdir.

Ədəbiyyat

1. Auerbach, A. Affective Transmission and the Invention of Characters in the Victorian Bildungsroman. Victorian Literature and Culture, vol. 48, no. 4, 2020, pp. 665 – 691. https://doi.org/10.1017/S1060150319000214
2. Bakhtin, M. The Bildungsroman and Its Significance in the History of Realism., Parasitic Ventures Press. 2008. 236 p.
3. Boes, T. Formative Fictions: Nationalism, Cosmopolitanism, and the Bildungsroman. Cornell University Press and Cornell University Library. 2012. 214 p.
4. Brantlinger, P. The Reading Lesson: The Threat of Mass Literacy in Nineteenth-Century British Fiction. Indiana University Press, 1988. 254 p.
5. Cohn, E. Affect.Victorian Literature and Culture, Volume 46, Issue 3-4. 2018. pp. 563 567.
6. Cohn, E. Still Life: Suspended Development in the Victorian Novel. OUP USA. 2016. 274.
7. Diderot, D. Eloge de Richardson. Ligaran. 2014. 19 p.
8. Dilthey, W., Makkreel, R. A., & Rodi, F., editors. Poetry and experience. 1911. Princeton University Press, 1985. 396 p.
9. Golban, P. The Victorian Bildungsroman, Kütahya, Dumlupınar Üniversitesi Yayınları, 2003. 20 p. https://dergipark.org.tr/en/download/article-file/55280
10. Hartveit, L. Workings of the Picaresque in the British Novel, Oslo, Humanities Press International, 1987.
11. Howe, S. Wilhelm Meister and His English Kinsmen, Apprentices to Life, New York, AMS Press, 1966. 331 p.
12. Humboldt W. Über die Aufgabe des Geschichtschreibers. Forgotten Books. 2024. 74 p.

DOI:10.30546/gdu.5.2026

13Lukács, G. The Theory of the Novel.1916.translated by Anna Bostock. Merlin Press,1971.
14.Lyons, S. Recent Work in Victorian Studies and the Bildungsroman. Literature Compass, vol. 15, no. 4, 2018. 16 p. https://kar.kent.ac.uk/66870/1/revised%20bildung.pdf
15.Morgenstern, K. On the Nature of the Bildungsroman. PMLA Criticism in Translation‘, vol. 124, no. 2, 2009, pp. 647–59.
16.Oliphant, M. “The Victorian Age of English Literature”, The Critical Response to Thomas Carlyle’s Major Works, Der.D.J. Trela ve Rodger L.Tarr, Connecticut, Greenwood Press1997
17.Stevic, A. Falling Short:The Bildungsroman and the Crisis of Self Fashioning. Virginia UP, 2020. 262 p.
18.Watt, I. “Private Experience and the Novel”, The Rise of the Novel : Studies in Defoe, Richardson and Fielding, London, Hogarth Press, 1987, 207 p. http://www.ricorso.net/tx/Courses/UFRN_BR/LEM2014/Critics/Watt_Ian/Rise_Novel.pdf

ТЕОРЕТИКО-ФИЛОСОФСКИЕ ОСНОВЫ ЖАНРА РОМАНА ВОСПИТАНИЯ В АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЕ ВИКТОРИАНСКОЙ ЭПОХИ

Гусейнли Гила Мехди

Резюме

В данной статье представлен теоретико-концептуальный анализ жанра романа воспитания в английской литературе викторианской эпохи. Подробно рассматриваются возникновение и эволюция динамики интеллектуального, нравственно-этического и социально-психологического взросления в контексте викторианского романического дискурса. Теоретико-методологическая база исследования сосредоточена на внутренних процессах развития личности, поиске идентичности и экзистенциальном взаимодействии протагониста с жесткими морально-социальными нормами, институциональными структурами и религиозно-этическими догмами XIX века. Опираясь на современные литературоведческие теории, авторы анализируют ключевые структурные элементы жанра, траекторию взросления героя, а также возникающие на этом пути острые социально-психологические противоречия, психологические травмы и аффективные состояния. Влияние трансформирующейся социокультурной, индустриальной и городской среды викторианской эпохи на индивидуальную субъектность исследуется через органичный синтез фундаментальных теоретических концепций и художественных структур классических произведений того времени. Результаты исследования свидетельствуют о том, что викторианский роман воспитания не ограничивается отражением хронологической, биографической модели линейного развития и социализации героя; он воплощает в себе фундаментальные, многоуровневые литературно-философские конструкции, определяющие сложные механизмы самореализации, рефлексии и адаптации в рамках неизбежной и напряженной дихотомии личности и общества.

DOI:10.30546/gdu.5.2026

THEORETICAL-PHILOSOPHICAL FOUNDATIONS OF THE BILDUNGSROMAN GENRE IN VICTORIAN ENGLISH LITERATURE

Huseynli Gila Mehdi

Summary

This article presents a theoretical and conceptual analysis of the bildungsroman genre within Victorian English literature. It examines in detail the emergence and evolution of the dynamics of intellectual, moral-ethical, and socio-psychological maturation within the context of Victorian novelistic discourse. The study's theoretical and methodological framework focuses on internal processes of personality development, the search for identity, and the protagonist's existential interaction with the rigid moral-social norms, institutional structures, and religious-ethical dogmas of the 19th century. Drawing on contemporary literary theories, the authors analyze key structural elements of the genre, the hero's trajectory of maturation, and the acute socio-psychological contradictions, psychological traumas, and affective states that arise along this path. The impact of the transforming sociocultural, industrial, and urban environment of the Victorian era on individual subjectivity is explored through an organic synthesis of fundamental theoretical concepts and the narrative structures of classic works from that period. The study's findings demonstrate that the Victorian bildungsroman is not limited to reflecting a chronological, biographical model of the hero's linear development and socialization; rather, it embodies fundamental, multi-layered literary-philosophical constructs that define the complex mechanisms of self-realization, reflection, and adaptation within the inevitable and tense dichotomy between the individual and society.

Rəyçi: f.e.d., prof. Şahin Xəlilli
Daxil olma tarixi 10 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:82-3.512.162

XXI ƏSR AZƏRBAYCAN ROMANLARINDA MİLLİ KİMLİYİN İFADƏ MODELLƏRİ

Hüseynova Arzu Hüseyn qızı
f.ü.e.d., dosent
Sumqayıt Dövlət Universiteti
https://orcid.org/0000-0001-7622-7576
arzuhuseynova776@gmail.com

Xülasə: *Məqalədə XXI əsr Azərbaycan romanlarında milli fərqlilik anlayışının bədii ifadəsi araşdırılmışdır. Qeyd olunur ki, müstəqillik dövründə Azərbaycan romanı qloballaşma, milli kimlik axtarışları və sosial transformasiyalar fonunda yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Müasir romanların məzmununda (Vahid Məmmədlinin **"Şəhrizad",** Şəmil Sadığın **"OdƏrlər"**, Aqil Abbasın **"Dolu",** Kamal Abdullanın "Yarımçıq əlyazma", Seymur Baycanın "Quqark", Aqşin Yeniseyin "Göləqarğısancan", İlqar Fəhminin "Aktrisa" romanları) milli kimlik problemi, tarixi yaddaş, Qarabağ müharibəsi, mifoloji düşüncə, milli-mənəvi dəyərlər və fərdi psixologiya məsələlərinin önə çəkilməsi tədqiq edilir .*

Açar sözlər: Azərbaycan romanı, milli kimlik, milli fərqlilik, müasir ədəbiyyat, postmodernizm, bədii mətn.

Keywords: Azerbaijani novel, national identity, national distinctiveness, contemporary literature, postmodernism, literary text

Ключевые слова: Азербайджанский роман, национальная идентичность, национальная самобытность, современная литература, постмодернизм, художественный текст.

XXI əsr Azərbaycan ədəbiyyatı qloballaşma, milli kimlik axtarışları, postmodern düşüncə və sosial transformasiyalar fonunda yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə roman janrı müasir cəmiyyətin siyasi, sosial və mənəvi dəyişikliklərini əks etdirən əsas ədəbi formaya çevrildi. Romanlarımızda diqqət çəkən əsas məsələ kimi milli fərqlilik və milli kimlik daha qabarıq təsvir olundu.

XXI əsr Azərbaycan ədəbiyyatı müstəqillik dövrünün ictimai, siyasi və mədəni dəyişikliklərini əks etdirən mühüm inkişaf mərhələsidir. Qloballaşma, milli-mənəvi dəyərlərin yenidən dəyərləndirilməsi, Qarabağ münaqişəsinin yaratdığı sosial-psixoloji təsirlər və sürətlə dəyişən həyat tərzi müasir Azərbaycan romanının əsas mövzularından birinə çevrilmişdir. Bu dövrün romanlarında insan yalnız cəmiyyətin bir üzvü kimi deyil, həm də öz daxili aləmini, kimliyini və həyatdakı yerini axtaran fərd kimi təqdim olunur. Buna görə də haqlı olaraq qeyd etməliyik ki, fərdi kimlik problemi XXI əsr Azərbaycan romanlarının aparıcı ideya istiqamətlərindən biridir. Müasir romançılıqda qəhrəmanların daxili ziddiyyətləri, mənəvi seçimləri və şəxsiyyət kimi formalaşma prosesi geniş şəkildə təsvir edilir. Tədqiqatçılar da qeyd edirlər ki, 2000-ci illərdən sonra yazılmış Azərbaycan romanları yeni estetik axtarışlar və fərdi psixologiyanın dərin təsviri ilə seçilir.

Fərdi kimlik insanın özünü dərk etməsi, mənsubiyyətini müəyyənləşdirməsi və cəmiyyət daxilində öz yerini tapması ilə bağlı anlayışdır. Müasir dövrdə sosial dəyişikliklər, texnologiyanın inkişafı və qloballaşma fərdin kimlik axtarışını daha mürəkkəb etmişdir. Azərbaycan yazıçılarının yaratdıqları romanlarda bu proses müxtəlif bədii vasitələrlə əks olunduğundan biz bunu tədqiqata cəlb etmişik.

XXI əsr romanlarında qəhrəmanlar çox zaman keçmişlə bu gün arasında qalır, milli-mənəvi dəyərlərlə müasir həyat tərzi arasında seçim etməyə çalışırlar. Bu seçim prosesi onların daxili aləminin formalaşmasına və fərdi kimliklərinin müəyyənləşməsinə təsir göstərir.

Qeyd etməliyik ki, "Azərbaycan romanı çağdaş mərhələyə təkcə zamanın aktual problemlərini çevirməklə daxil olmur. Müasir roman problematika zənginliyi ilə seçilən zamanın sosial-siyasi, əxlaqi-mənəvi və fəlsəfi problemləri janrın bədii təhlili predmeti olur. Lakin özlüyündə aydındır ki, nə

DOI:10.30546/gdu.5.2026

mövzununu aktuallığı və müasirliyi, nə onun problematika vüsəti bədiiliyin həlledici meyarı ola bilməz. Bütün bu keyfiyyətlər spesifik forma daxilində, mükəmməl kompozisiya və sujetlər inikas predmetinə çevriləndə ədəbi prosesdə yeri olan əsər yaranır [7, s.11].

Milli fərqlilik anlayışı bir xalqın özünəməxsus dilini, mədəniyyətini, tarixini, adət-ənənələrini və kollektiv yaddaşını qoruyub saxlaması ilə bağlıdır. Müasir Azərbaycan romanında bu anlayış həm fərdi kimlik böhranı, həm də milli mədəni yaddaşın qorunması konteksində təqdim edilir.

Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra ədəbiyyatda milli ideologiyanın yenidən qurulması prosesi başlamışdır. XXI əsr romanlarında yazıçılar milli kimliyi yalnız tarixi hadisələr fonunda deyil, həm də insanın daxili dünyası, sosial münasibətlər və qloballaşmanın yaratdığı təhdidlər məzmununda araşdırılmağa başlamışlar.

Müasir Azərbaycan romanı klassik realizm ənənələrindən uzaqlaşaraq yeni bədii axtarışlara yönəlmişdir. Burada post modernizm, psixoloji realizm və metaforik düşüncə ön plana çıxır.

Ədəbi tənqidin araşdırmalarına görə XXI əsr Azərbaycan romanının əsas istiqamətləri aşağıdakılardır:

1. Tarixi yaddaşın bərpası;
2. Qarabağ mövzusu və milli travma;
3. Qloballaşma və mədəni identiklik problemi;
4. Fərdi və milli-mənəvi dəyərlərə münasibət;
5. Milli dil və milli özünüdərk məsələləri.

Roman artıq sadəcə hadisə nəqli deyil, milli yaddaşı qoruyan estetik vasitə funksiyasını da yerinə yetirir.

Xalqın digər xalqlardan seçilməsini təmin edən sosial-mədəni göstəricilər milli fərqliliyin bir nümunəsidir.

Ana dili, milli tarix, kollektiv yaddaş, dini və mənəvi dəyərlər, folklor və mifoloji yaddaş, milli xarakter modeli – ədəbiyyat bu elementlərin qorunmasında xüsusi rol oynayır. Roman janrı isə insanın cəmiyyətlə münasibətini geniş şəkildə təqdim etdiyi üçün milli kimlik məsələlərinin araşdırılmasında ən effektiv vasitələrdən hesab olunur.

Azərbaycan ədəbiyyatşünaslığında milli xarakter və milli kimlik məsələləri müxtəlif janr nümunələrində yazılmış əsərlərdə müəyyən qədər araşdırılmışdır.

XXI əsr Azərbaycan romanlarında milli fərqlilik anlayışı bir neçə istiqamətdə əks olunur: dil istiqaməti, tarixi istiqamət, mədəni istiqamət, sosial psixoloji istiqamət

Tarixi yaddaş vasitəsilə milli kimliyin qorunması son dövr yazılan romanlarda öz əksini tapmışdır. XXI əsr Azərbaycan romanlarında milli kimlik və fərdilik kimi problemlər gözlənilmişdir. Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı XXI əsr Azərbaycan nəsrinin ən diqqətçəkən əsərlərindən biridir. Romanda tarix və müasirlik paralel şəkildə təqdim olunur. Müəllif tarixi obrazlara yeni baxış gətirməklə yanaşı, insanın öz kimliyini necə dərk etməsi məsələsini də ön plana çəkir.

Əsərin qəhrəmanları yalnız tarixi hadisələrin iştirakçısı deyil, həm də öz daxili aləmləri ilə mübarizə aparan insanlardır. Burada kimlik anlayışı milli yaddaş, tarixi həqiqət və fərdi seçimlərin vəhdətində təqdim edilir. Roman oxucunu keçmişə yenidən baxmağa və milli kimliyi fərdi şüur prizmasından qiymətləndirməyə sövq edir.

Aqşin Yeniseyin "Göləqarğısancan" romanında müasir insanın mənəvi boşluğu, şəhər həyatının yaratdığı tənhalıq və özünüifadə problemləri diqqət mərkəzindədir. Roman qəhrəmanı sürətlə dəyişən cəmiyyət daxilində öz yerini müəyyən etməyə çalışır.

Əsərdə fərdi kimlik sosial münasibətlər, ailə problemləri və mənəvi böhran fonunda təqdim edilir. Müəllif insanın daxili dünyasını psixoloji təhlillərlə açaraq göstərir ki, müasir dövrdə kimlik yalnız milli mənsubiyyət deyil, həm də şəxsi seçimlər və həyat təcrübəsi nəticəsində formalaşır.

İlqar Fəhminin "Aktrisa" romanında insanın cəmiyyət qarşısında oynadığı sosial rollar və həqiqi şəxsiyyəti arasındakı ziddiyyət əsas mövzulardan biridir. Baş qəhrəmanın daxili aləmi, yaşadığı psixoloji gərginlik və özünü axtarışı fərdi kimliyin mürəkkəb mahiyyətini ortaya qoyur.

Roman göstərir ki, insan bəzən cəmiyyətin gözləntilərinə uyğun yaşamaq məcburiyyətində qalır və bu vəziyyət onun həqiqi kimliyinin gizlənməsinə səbəb olur. Müəllif bu problemi realist və psixoloji təsvirlərlə təqdim edir.

DOI:10.30546/gdu.5.2026

Milli kimlik məsələsinə nümunə olaraq Vahid Məmmədlinin “Şəhrizad” romanını göstərə bilərik. Bu romanda xalqın keçmiş sovet repressiyası, milli yaddaşa vurulan zərbələr və tarixi travmalar geniş şəkildə əks etdirilir.

Romanda Azərbaycan tarixinin mürəkkəb dövrləri bədii şəkildə canlandırılmışdır. Müəllif göstərir ki, milli kimliyin qorunması tarixi yaddaşın qorunmasından keçir. Əsərdə milli faciələr kollektiv yaddaş elementi kimi təqdim edilir.

“Şəhrizad” romanı keçmişlə gələcək arasında olan bir körpüdür. Müəllif bu romanda qanlı repressiyaların xalqın başına gətirdiyi müsibətləri göstərir.

Bütün inqilabçılar ya əzilən bir ananın, ya da əzazil atanın övladlarıdır. Uşaqlıqdan özünə güvən hissi belələrində az olduğundan ilk başda düşdükləri mühitdə yalquzağa çevrilir, sonra isə kimlərəsə nəsə sübut etməyə çalışırlar. Bu əsnada onlar heç kimin etmədiyi risklər edir, haralarda ki bu risk nəticə verir, tezliklə onlar yaşıdlarından fərqli olaraq daha güclü və qorxmaz olurlar. “Mən bacaranam, hamı görəcək mən kiməm” [5, 232] deyərək yola çıxırlar.

Müəllif bu romanda diktator rejimini,xüsusilə də Stalinin diktator rejim yaratdığını qeyd edir. Romanda maraqlı hadisələr oxucunu çox düşündürür. Əsərin qəhrəmanı olan Şəhrizad qəddar rejimi yaradan Stalin obrazını çox maraqlı detallarla oxucuya təqdim edir. Şəhrizad dünyanı qan oylağına çevirən Stalinin rəsmini xalçaya toxuyur. Bu qan oylağından xilas yolunu ancaq bu toxuduğu xalçada görür. Romanın bir yerində Şəhrizad xəyalən Stalinin ona dediyi sözlərdən bir təskinlik tapır. “Əlbəttə ki, mən də əbədi deyiləm, bu dünyada qalmayacam. O zaman ən azından sənin toxuduğun bu xalça qalacaq. Bu xalçalar nə qədər gözəl olsa, mən də tarixdə bir o qədər qalacam. İnsanlar heykəllərimi, qurduğum dövləti məhv edəcəklər, amma xalçaları məhv etməyə əlləri gəlməz” [5, 228].

Müəllif bu romanda hər şeyin müvəqqəti olduğunu, sənətin isə əbədiliyini göstərir.

Müasir Azərbaycan romanının ən gözəl nümunələrindən biri də Ş.Sadıqın “OdƏrlər” romanıdır. Bu roman milli kimlik, türk mifologiyası və azərbaycançılıq ideologiyası fonunda təqdim edilir.

Roman postmodern üsulda yazılmış olsa da əsas ideya milli köklərin unudulmaması və qədim türk mədəniyyətinə dönüşdür. Müəllif mifoloji kodlardan istifadə edərək milli identiklik modelini qurur.

Roman Qarabağ münaqişəsinə həsr olunmuş nəsr nümunəsidir. Roman milli qəhrəman Mübariz İbrahimov və Fərid Əhmədovun əziz xatirəsinə həsr olunubdur.

Romanda Mübariz İbrahimovun atdığı cəsarətli addımlardan söhbət gedir. Müəllif Mübariz İbrahimovun igidlərə bir örnək olduğunu belə qeyd edir: “Qorxu hissinin qürur hihissini tapdalamasından əziyyət çəkən xalqın bu oğullarında, indi qisas hissi bütün qorxu hisslərini tapdalamış,əzilmiş qürur hissinin yüksəlişinə səbəb olmuşdu. Ən önəmlisi isə, erməni xofunun aradan götürülməsi idi. Kapitanı düşündürən başlıca məsələ xalqda olan ruh düşkünlüyünün yüksəldilməsi idi.” [6.s 40].

Romanda Mübariz İbrahimovun cəsarətinin Azərbaycan döyüşçüsünə bir örnək olduğunu görürük.

Tədqiqat prosesinin nəticəsi kimi onu da qeyd etməliyik ki, Qarabağ müharibəsi XXI əsr Azərbaycan romanlarında milli fərqlilik anlayışının güclü komponentinə çevrilmişdir.

Bu məzmunda yazıçılar romanlarda Vətən yalnız coğrafi məkan kimi deyil, milli mənsubiyyətin əsas göstəricisi kimi təqdim olunur. Müharibə mövzulu əsərlərdə milli birlik, şəhidlik, vətən sevgisi və milli müqavimət əsas ideya xəttini təşkil edir. Hətta ağır döyüşlərin getdiyi bir dövrdə igidlərimiz Mübariz İbrahimovun getdiyi yolu daha üstün tuturlar. Onların gözlərinə ölüm yox, yalnız kəşfiyyatlarını qəhrəmanlıqla davam etdirmək idi.

XXI əsr Azərbaycan romanının ən bariz nümunəsinə misal olaraq A.Abbasın “Dolu” romanını misal göstərmək olar. Romanda həm real hadisələr, həm də yazıçı təxəyyülündən yaranan obrazları görürük. A.Abbasın “Dolu” romanında Qarabağ müharibəsinin yaratdığı faciələr bədii estetik müstəvidə verilir. Yazıçı hadisələri yalnız hərbi qarşıdurma kontekstində deyil, həm də milli mənəvi dəyərlərin sınağa çəkilməsi, insan psixologiyasında baş verən dəyişikliklər və cəmiyyətin sosial mənəvi transformasiyası fonunda təqdim edir. Müəllif romanda müharibənin fərdi talelərə və ictimai münasibətlər sisteminə təsirini çoxşaxəli şəkildə işıqlandırılır. Müəllifin müşahidələri və bədii ümumiləşdirmələri əsərin təsir gücünü artıraraq oxucuda hadisələrin gerçəkliyi haqqında dolğun

DOI:10.30546/gdu.5.2026

təsəvvür formalaşdırır. Əsərdə Qarabağ müharibəsinini acı reallıqları və insan talelərində yaratdığı dərin izləri dolğun şəkildə ifadə edən simvolik məna kəsb edir. Müəllif romanda milli fərdiliyə geniş yer vermişdir. Bu romanda Qarabağ savaşında öz məğrurluqları ilə seçilən obrazlara daha geniş yer ayrılmışdır. Hətta romanın adı belə simvolik məna daşıyır. Romanda erməni silahlı qüvvələrinin törətdiyi amansızlıq və zorakılıq faktları geniş bədii ümumiləşdirmə yolu ilə təqdim olunur. Əxlaqi dəyərlərin mülki əhaliyə qarşı törədilən qəddarlıqları diqqət mərkəzində saxlanılır. Xüsusilə uşaqlara qarşı həyata keçirilən zorakılıq səhnələri müharibənin qeyri-insani mahiyyətini açmaqla yanaşı, oxucuda dərin emosional təsir formalaşdırır. Əsərdə yer alan dialoqlar hadisələrin dramatizmini gücləndirən mühüm bədii vasitə kimi çıxış edir. Personajların qarşılıqlı söhbətləri onların daxili aləmini, mənəvi sasıntılarını və müharibənin insan taleyinə göstərdiyi dağıdıcı təsiri daha geniş şəkildə üzə çıxarır. Bunu biz əsərdən gətirilən nümunədə daha aydın görürük. "Döyüşlərin birində əllərinə bir erməni qızı düşmüşdü. İntiqam eşqindən gözlərini qan tutmuş uşaqlar qızı zorlamaq istəmişdilər. Bəlkə də uşaqlar bu qızı güllələsəydilər fərqinə varmazdı, amma zorlanmasını qəbul edə bilməmişdi.

"- Dəyməyin!

Araya mübahisə düşmüşdü.

- Bəs onlar bizimkiləri zorlaya bilər?!

- Biz erməni deyilik." [2, s. 4]

Aparılan təhlil göstərir ki, XXI əsr Azərbaycan romanı milli fərqlilik anlayışını yeni estetik və fəlsəfi baxışlarla təqdim edir. Müasir yazıçılar milli kimlik problemini tarixi yaddaş, müharibə, qloballaşma, mifologiya və fərdi psixologiya vasitəsi ilə bədii şəkildə ifadə edirlər. Bu romanlar Azərbaycan cəmiyyətinin müasir mərhələdə qarşılaşdığı problemləri əks etdirməklə yanaşı, milli varlığın qorunmasının vacibliyini də ön plana çəkir.

Beləliklə, XXI əsr Azərbaycan romanlarında fərdi kimlik mövzusu aparıcı bədii problemlərdən biri kimi çıxış edir. K.Abdullanın "Yarımçıq əlyazma"[1], S.Baycanın "Quqark"[3], A.Yeniseyin "Göləqarğısancan"[8], İ.Fəhminin "Aktrisa"[4], romanlarında da insanın özünü dərk etməsi, milli-mənəvi dəyərlərə münasibəti, müharibənin və sosial dəyişikliklərin şəxsiyyətə təsiri geniş şəkildə əks olunur ki, bu da digər tədqiqat işinin mövzusudur.

Aparılmış təhlillər göstərir ki, XXI əsr Azərbaycan romanlarında yalnız ictimai hadisələri təsvir edilmir, eyni zamanda insanın daxili aləmini, psixoloji vəziyyətini və fərdi kimlik axtarışı dərindən araşdırılır. Buna görə də XXI əsr Azərbaycan romançılığı milli ədəbiyyatın inkişafında yeni mərhələ hesab olunur və fərdi kimlik mövzusu gələcək tədqiqatlar üçün də aktual olaraq qalır.

Ədəbiyyat

1. Abdulla K. Yarımçıq əlyazma. Bakı, "XXI" – YNE, 2004, 288 s.
2. Abbas A. Dolu romanı. Bakı, Təhsil nəşriyyatı, 2008, 254 s.
3. Baycan S. Quqark. Bakı, Alatoran yayınları, 2011, 410 s.
4. Fəhmi İ. Aktrisa. Bakı, Adiloğlu nəşriyyatı, 2006, 159 s.
5. Məmmədli V. "Şəhrizad" romanı. Bakı, Qanun nəşriyyatı, 2019, 248 s.
6. **Sadiq Ş.** *OdƏrlər***. Bakı, Hədəf nəşriyyatı, 2013, 339 s.**
7. Salamoğlu T. Müasir Azərbaycan romanı: janrı təkamülü (XX əsrin 80-ci illəri). Bakı, Nafta-press, 2007.
8.Yenisey A. Cənnətdə terror aksiyaı. Göləqarğısancan. Bakı, Qanun nəşriyyatı, 2009, 288 s.

MODELS OF REPRESENTATİON OF NATIONAL IDENTITY IN THE AZERBAIJANI NOVELS OF THE 21st CENTURY

Hüseynova Arzu Hüseyn qızı

Summary

The article examines the artistic expression of the concept of national distinctiveness in Azerbaijani novels of the 21st century. It notes that, during the period of independence, the Azerbaijani novel entered a new stage of development against the backdrop of globalization, the

DOI:10.30546/gdu.5.2026

search for national identity, and social transformations. In contemporary novels (Vahid Mammadli's "Shahrizad", Shamil Sadig's "OdƏrlər", Aqil Abbas's "Dolu", Kamal Abdulla's "Yarımçıq əlyazma", Seymur Baycan's "Quqark", Aqshin Yenisey's "Göləqarğısancan" and Ilgar Fahmi's "Aktrisa"), the problem of national identity is presented in the context of historical memory, the Karabakh War, mythological thought, national and moral values, and individual psychology.

МОДЕЛИ РЕПРЕЗЕНТАЦИИ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ В АЗЕРБАЙДЖАНСКИХ РОМАНАХ XXI ВЕКА

Гусейнова Арзу Гусейн кызы

Резюме

В статье исследуется художественное выражение понятия национального своеобразия в азербайджанских романах XXI века. Отмечается, что в период независимости азербайджанский роман вступил в новый этап развития на фоне глобализации, поиска национальной идентичности и социальных трансформаций. В современных романах (Вахид Мамедли «Шахризад», Шамил Садыг «ОдƏрляр», Агиль Аббас «Долу», Камал Абдулла «Ярымчыг әлйазма», Сеймур Байджан «Гугарк», Агшин Енисе́й «Гөләгаргысансан», Ильгар Фахми «Актриса») проблема национальной идентичности представлена в контексте исторической памяти, Карабахской войны, мифологического мышления, национально-духовных ценностей и индивидуальной психологии.

Rəyçi: dosent Məmmədova Törə Kamal qızı
Daxil olma tarixi 07 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT: 82.(091)

MƏMMƏD CƏFƏR CƏFƏROV MİRZƏ CƏLİL YARADICILIĞININ TƏDQİQATÇISI KİMİ

İsmayılzadə Günel Mirzə qızı
Gəncə Dövlət Universitetinin doktorantı
ORCID ID: 0009-0007-1109-0055
zadeh.gunel@bk.ru

Xülasə: *Məmməd Cəfər Cəfərovun Cəlil Məmmədquluzadə yaradıcılığına dair araşdırmaları Azərbaycan ədəbiyyatşünaslığında yazıçının bədii irsinin, ideya-estetik mövqeyinin və realist sənətkarlığının obyektiv elmi meyarlar əsasında təhlilinə mühüm töhfələr vermişdir. Bu məqalədə alimin Mirzə Cəlil yaradıcılığına dair formalaşdırdığı elmi baxışlar vahid bir sistem kimi nəzərdən keçirilir, onun "Cəlil Məmmədquluzadə" monoqrafiyası, eləcə də müxtəlif elmi və ədəbi-tənqidi əsərləri əsasında sənətkarın realizm anlayışı, maarifçilik ideyaları, milli oyanış konsepsiyası, "Molla Nəsrəddin" ədəbi məktəbinin estetik mahiyyəti, dramaturgiyası və dil məsələlərinə dair mülahizələri ümumiləşdirilir. Bununla yanaşı, müəllifin Mirzə Cəlil irsinə münasibəti sovet ideoloji mühitinin təsirləri və bu çərçivədən kənarda meydana çıxan yanaşmalar fonunda müqayisəli şəkildə təhlil edilir. Nəticədə Cəlil Məmmədquluzadənin Azərbaycan realist ədəbiyyatının inkişafındakı yeri, satirik realizmin poetik xüsusiyyətləri və milli özünüdərk prosesində oynadığı rol barədə irəli sürülən başlıca müddəalar ümumiləşdirilərək təqdim edilir.*

Açar sözlər: Məmməd Cəfər Cəfərov, Cəlil Məmmədquluzadə, Molla Nəsrəddin, realizm, satira, milli ideya, dramaturgiya

Keywords: Mammad Jafar Jafarov, Jalil Mammadguluzadeh, Molla Nasreddin, realism, satire, national idea, dramaturgy

Ключевые слова: Мамед Джафар Джафаров, Джалиль Мамедгулузаде, Молла Насреддин, реализм, сатира, национальная идея, драматургия

Giriş

XX əsr Azərbaycan ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən biri olan Məmməd Cəfər Cəfərov milli ədəbi fikir tariximizin bir çox böyük simaları haqqında fundamental tədqiqatların müəllifi kimi tanınır. Onun elmi yaradıcılığında Cəlil Məmmədquluzadə irsinin araşdırılması xüsusi yer tutur. Alim yazıçının yaradıcılığını yalnız milli ədəbi fakt, milli-mədəni oyanışın mühüm mərhələsi kimi deyil, həm də bəşəri ideya və idealların bədii salnaməsi kimi öyrənir, qiymətləndirir və təqdir edirdi. Alim Mirzə Cəlil irsinin araşdırılmasına bir neçə məqalə və ayrıca monoqrafiya həsr etmişdir. Təsadüfi deyildir ki, tənqidçi sənətkar barədə yazdığı monoqrafiyasına bu sözlərlə başlayır: "*Cəlil Məmmədquluzadə yalnız Azərbaycanda deyil, bütün mədəni dünyada mütərəqqi ideyalar carçısı, əməlpərvər söz ustalarından biri kimi tanınmışdır*" [4, s. 265].

M.C.Cəfərov C.Məmmədquluzadənin və onun başçılıq etdiyi "Molla Nəsrəddin"çilərin yaradıcılığını ədəbiyyat tariximiz üçün müstəsna dərəcədə əhəmiyyətli mərhələlərdən biri hesab etmişdir. Alimin fikrincə, C.Məmmədquluzadə yalnız satirik yazıçı deyildi; o, xalqın milli-ictimai şüurunu oyadan böyük maarifçi və qələmi ilə milli təfəkkürün formalaşmasına təsir edən ideoloq idi. Bu baxımdan M.Cəfərin tədqiqatlarında "Molla Nəsrəddin" ədəbi məktəbinə mənsub yazıçı və şairlərin yaradıcılıq irsi Azərbaycan milli-demokratik fikrinin möhtəşəm bədii ifadəsi kimi təqdim olunur.

DOI:10.30546/gdu.5.2026

Cəlil Məmmədquluzadə Məmməd Cəfər Cəfərovun ədəbi-estetik konsepsiyasında

M.Cəfərin elmi yaradıcılığı, əsasən, realizm, romantizm, milli ideya və estetik təfəkkür problemləri üzərində qurulmuşdur. O, C.Məmmədquluzadəni Azərbaycan realizminin son dərəcə nüfuzlu və parlaq nümayəndəsi hesab edirdi: "*Cəlil Məmmədquluzadə xalqın dərdini xalqın dili ilə danışan sənətkardır*" [2, s. 196]. Bu fikir yazıçının estetik idealını müəyyənləşdirən əsas tezislərdən biri kimi qəbul edilə bilər. M.Cəfər göstərirdi ki, Mirzə Cəlilin yaradıcılığı xalq həyatı ilə sıx bağlı olduğuna, onun həyatını, məişətini, dərdlərini, istəklərini dolğun şəkildə əks etdirdiyinə görə daim aktuallığını qoruyub saxlayır.

Alim yazıçının realizmini qeyd olunan xüsusiyyətlərlə xarakterizə edirdi: Sosial həyatın obyektiv təsviri; satiranın ictimai tənqid funksiyası; canlı xalq dilinə yaxın üslub; milli özünüdərk ideyasının ön plana çəkilməsi; fanatizm və cəhalətə qarşı mübarizə. Tədqiqatçı belə hesab edirdi ki, C.Məmmədquluzadənin realizmi yalnız bədii metod deyil, həm də bütöv bir milli düşüncə sistemidir.

M.C.Cəfərov C.Məmmədquluzadənin yaradıcılıq nümunələrini yalnız gülüş vasitəsi kimi deyil, ciddi ictimai-estetik hadisə, tərbiyə vasitəsi kimi təhlil edirdi. Onun ədəbiyyatımızdakı, ictimai-siyasi, mədəni fikir tariximizdəki rolunu, mövqeyini bu cür dəyərləndirirdi: "*Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatına, söz sənətinə siyasi uzaqgörənlik, müasir estetik zövq, əsrinə layiq tamamilə yeni bədii ustalıq, yeni məzmun və forma yenilikləri, heyrətamiz, cazibəli bir lakonizm, az sözlə böyük fikirlər ifadə etmək ustalığı gətirmişdir*" [4, s. 302]. Alimin fikrincə, Mirzə Cəlilin satirik əsərlərinin əsas funksiyası bunlar idi: cəmiyyətin eyiblərini göstərmək; milli-ictimai şüuru oyatmaq; insanı düşünməyə məcbur etmək; milli tərəqqi ideyasını yaymaq; mövhumatı, əsarəti, köləliyi, siyasi kütlüyü, milli unutqanlığı, maarifsizliyi, cəhaləti tənqid etmək yolu ilə kütləni oyatmaq. Bu mənada tədqiqatçı "Ölülər" tragikomediyasına xüsusi diqqət ayırmışdır. Bu tragikomediya onun fikrincə, Azərbaycan dramaturgiyasının ən böyük ictimai-fəlsəfi, bədii-estetik hadisəsinə çevrilən əsərlərdən biridir. Məmməd Cəfər "Ölülər"dəki "ölü" anlayışını metaforik məna daşıyan ictimai simvol kimi izah edirdi. O göstərirdi ki, əsərdə fiziki ölüm deyil, mənəvi iflic tənqid olunur. Alim əlavə edərək yazırdı: *"Mirzə Cəlilin satirası gülüşdən çox ağrı doğurur*" [7, s. 19]. Bu fikir satirik məzmunlu əsərin tragik mahiyyətini açmaq baxımından mühüm nəzəri nəticədir.

Ədəbiyyatşünas alim C.Məmmədquluzadənin səhnə əsərlərini Azərbaycan dramaturgiyası və teatr tarixində yeni mərhələ hesab etmişdir. O, mütəfəkkir sənətkarın daha çox "Ölülər", "Anamın kitabı" və "Dəli yığıncağı" kimi dramatik əsərlərini geniş elmi analiz obyektinə çevirmişdir. Alimin fikrincə, bu əsərlərin güclü sosial konflikt, realist xarakterlər sistemi, fəlsəfi ümumiləşdirmə, satirik tipikləşdirmə, yüksək dramaturji dinamika kimi üstünlükləri vardır.

M.Cəfər "Anamın kitabı" əsərini milli faciə kimi qiymətləndirirdi. Onun fikrincə, əsərdə xalqın parçalanmış milli şüuru dramatik şəkildə əks olunur. Alim göstərirdi ki, eyni ananın müxtəlif dillərdə danışan övladları tipik obrazlar kimi əslində milli parçalanmanın, bölünmənin, yadlaşmanın simvoludur. Əsərdəki Zəhrabəyim isə bütöv vətəni təmsil edir. Təəssüf ki, eyni ananın övladları olan bu vətən oğulları öz analarını, yəni doğma vətənləri üçün yad adamlara çevrilmiş, milli kimliklərini, milli yaddaşlarını itirmişlər. Sənətkarın əsas qayəsi vətən övladlarına öz milli mənsubiyyətini xatırlatmaq, milli yaddaş və düşüncəni bərpa etmək, vətənin müqəddəsliyi anlayışını onlara öyrətməkdir. M.Cəfərin fikrincə, Mirzə Cəlil əsərdə daim aktual olan bu ideyanı yüksək sənətkarlıqla təsvir edib oxucuya çatdırır. Vətən və övladları arasındakı uçurumu, ixtilafı və onun aradan qaldırılması yollarını, zərurətini Gülbahar obrazının rəftar və əməli vasitəsilə bəyan edir. Buradakı Gülbahar obrazı milli yaddaşını, vətən və vətənpərvərlik hissini itirmiş vətən övladlarını vahid əqidə, məslək və

DOI:10.30546/gdu.5.2026

ideyanın, "vahid vətən, vahid ana, vahid millət" ideyasının ətrafında birləşməyə çağırış ideyasının təmsilçisidir: "*Vətənin ziyalılarını xalqa yaxınlaşmağa, vətənə, insanlığa xidmət etməyə, xalqın dilini, əməlini, arzu və ehtiyaclarını başa düşməyə çağırır"* [4, s. 294].

M.C.Cəfərov C.Məmmədquluzadəni Şərq modernləşməsinin mühüm ideoloqlarından biri hesab edirdi. Onun fikrincə, Mirzə Cəlilin əsas məqsədi dini fanatizmi zəiflətmək, yeni məktəb ideyasını yaymaq, qadın azadlığını müdafiə etmək, Avropa tipli maarifçiliyi təşviq etmək idi. Bu baxımdan alim Cəlil Məmmədquluzadəni yalnız yazıçı deyil, həm də böyük ictimai xadim kimi təqdim edirdi.

Bəllidir ki, Mirzə Cəlil irsinin mühüm bir qolunu onun publisistikası təşkil edir. M.Cəfər sənətkarın yalnız bədii əsərlərini deyil, publisistikasını, onun mövzu və ideyalar aləmini də tədqiqat obyektinə çevirmiş, milli publisistikamızın inkişafında yazıçının müstəsna rol oynadığını, istər kəmiyyət, istərsə də keyfiyyət baxımından onu zənginləşdirdiyini söyləmişdir. Alim ədibin daha çox ictimai-siyasi, dini fanatizm və mövhumat, fəhlə-kəndli, dönük ziyalılar, ictimai bərabərsizlik və onun yaratdığı rəzalətlər, qadın azadlığı, hürriyyət, milli müstəqillik, müstəmləkəçilik sisteminin və zülmünün tənqidi, milli və sinfi istismarın ifşası mövzularında qələmə aldığı publisistik əsərlərə diqqət yetirir. Onun ictimai-siyasi publisistikasından danışarkan yazıçının respublika formasında demokratik dövlət quruluşunu daha çox bəyəndiyini söyləyir. Tədqiqatçı qeyd edir: "*Mirzə Cəlilin arzu etdiyi respublika üsul-idarəsi böyük məqsədlərə xidmət etməli idi. Məhz buna görə də çar monarxiyası və Şərq despotizmi həmişə onun kəskin satirasının hədəfi olmuşdur*" [4, s. 278].

Onu da qeyd edək ki, alimin tədqiqatlarında Mirzə Cəlilə münasibətdə hakim sovet-bolşevik ideologiyasının diktəsindən irəli gələn yanlış yanaşma da mövcuddur. Məsələn, müəllif öz monoqrafiyasında demokrat yazıçını "materialist mütafəkkir" adlandırır [4, s. 284]. Onun İslam dininə münasibətini də bu kontekstdə şərh edir. Əlbəttə, bu doğru yanaşma sayıla bilməz. Çünki nə Mirzə Cəlil, nə də onun məsləkdaşları heç vaxt "Quran"a bağlı İslam dinini tənqid hədəfinə çevirməmiş, ateizm mövqeyindən çıxış etməmişlər. Onların dinə münasibətləri kifayət qədər yaxşı idi. Tənqid etdikləri də dinin özü deyil, onu mənəvi istismar və mənfəət vasitəsinə, aldatma alətinə çevirən din xadimləri, ruhanilər idi. XIX əsrin II yarısı və XX əsrin əvvəllərində yaşayıb yaratmış Azərbaycan mütəfəkkirlərinin, mütərəqqi ziyalılarının əksəriyyətinin mövqeyi bu məsələdə oxşar idi.

"Molla Nəsrəddin" ədəbi məktəbi, milli yaddaş və realizm problemi

"Molla Nəsrəddin" jurnalı ilə bağlı araşdırmalar M.C.Cəfərovun yaradıcılığında geniş yer tutur. Onun Mirzə Cəlillə bağlı qeyd etdiyimiz monoqrafiya və məqalələrindən əlavə bilavasitə bu satirik məcmuə ilə əlaqəli qələmə aldığı elmi yazıları da vardır. Bunlardan "Ya Molla Nəsrəddin, ya Molla Xəsrəddin", "Molla Nəsrəddin" Təbrizdə", "Molla Nəsrəddin" jurnalı haqqında", "Molla Nəsrəddin"çilərin irtica ilə mübarizəsi" və s. məqalələri nümunə kimi qeyd edə bilərik. Alim bu jurnalı Yaxın Şərqdə demokratik fikrin ən mühüm tribunalarından biri kimi qiymətləndirirdi. Onun fikrincə, jurnalın əsas xüsusiyyətləri bunlar idi: milli özünüdərk ideyasının təbliği, dini fanatizmin tənqidi, qadın azadlığı məsələsinin qaldırılması, savadsızlığa, cəhalətə və geriliyə qarşı mübarizə, xalq dilinin müdafiəsi.

M.Cəfər haqlı olaraq yazırdı:*"Molla Nəsrəddin" təkcə ədəbi məktəb deyildi, həm də ictimai-mədəni hərəkat idi"* [6, s. 148]. Tədqiqatçı Mirzə Cəlil və "Molla Nəsrəddin"çilərin dil məsələsindəki xidmətlərini xüsusilə yüksək qiymətləndirirdi. Göstərirdi ki, Mirzə Cəlil qəliz, kütlə üçün anlaşılmaz bir dildən imtina edərək hamının başa düşəcəyi sadə xalq dilini ədəbiyyata gətirmişdi. Bu barədə alim qeyd edirdi: *"Mirzə Cəlilin dili xalqın danışıq dili idi"* [4, s. 298]. Tədqiqatçı bu məsələyə milli realizmin əsas prinsiplərindən biri kimi yanaşırdı.

M.Cəfərin tədqiqatlarında realizm anlayışı milli ideya ilə sıx bağlıdır. O, C.Məmmədquluzadənin yaradıcılığını milli özünüdərk prosesinin mühüm mərhələsi hesab

DOI:10.30546/gdu.5.2026

edirdi. Alimin fikrincə, Mirzə Cəlilin əsas ideyası xalqı "oyatmaq" idi. Bu oyanış ideyası geniş, çoxistiqamətli, çoxölçülü mahiyyət kəsb edirdi. Yəni burada vətəndaşın milli, siyasi, mənəvi, mədəni oyanışı nəzərdə tutulurdu. Tədqiqatçı haqlı olaraq yazırdı ki, C.Məmmədquluzadə xalqın *"özünə qayıdış", "özünü, ətraf aləmi, müasir dünyanı və ictimai, siyasi, mədəni gerçəkliyi anlamaq*" [7, s. 63] ideyasını irəli sürürdü. Maraqlıdır ki, sovet dövrünün siyasi-ideoloji qadağalarına baxmayaraq M.Cəfər Mirzə Cəlilin milli yaddaşı oyatmaq cəhdi, milli özünəqayıdış ideyası, vətəndaşın milli kimliyini dərk etmək zehniyyətinin oyanması məramı, istəyi üzərində xüsusi olaraq dayanır, sənətkarın yaradıcılıq məfkurəsinin bu istiqamətini qabardır. Bu xüsusiyyət onun tədqiqatlarını ideoloji sxematikadan müəyyən qədər uzaqlaşdırır.

Tədqiqatçının Mirzə Cəlil yaradıcılığına ədəbi-nəzəri baxışlarından danışarkan onu da nəzərə almaq lazımdır ki, alim sənətkarın yaradıcılıq məhsullarının elmi-nəzəri analizi zamanı tarixilik, müqayisəli təhlil, estetik yanaşma, sənətkarın dil-üslub xüsusiyyətlərinin təhlili kimi metodoloji prinsiplərə əsaslanır. Alim yazıçını yaşadığı dövrün ictimai-siyasi şəraiti ilə əlaqədə öyrənir, onu Şərq və Qərb satirik realizmi kontekstində təhlil etməyə çalışır, sənətkarlıq məsələlərinə də xüsusi diqqət yetirir, ideoloji məzmunla bədii forma arasındakı vəhdəti vacib hesab edirdi. Sənətkarın dili alimin diqqət mərkəzində olmuşdur. O göstərirdi ki, yazıçının sadə dili əslində böyük sənətkarlıq nümunəsidir: "*Yazıçı xalqla xalqın öz dilində, onun anlayıb başa düşə biləcəyi bir dildə danışır. Xalqın canlı həyatını, məişətini, ictimai gerçəkliyini, düşüncələrini, mədəni səviyyəsini, ətraf aləmə və dünyaya münasibətini kütlənin anlayacağı xalis, duru, saf bir dildə ona danışırdı*" [7, s. 57].

Məlumdur ki, C.Məmmədquluzadənin ən maraqlı, haqqında çox danışılan hekayələrindən biri "Poçt qutusu"dur. M.Cəfər də yazıçının yaradıcılığına müraciət edərkən həmin hekayəyə xüsusi diqqət yetirmişdir. Tənqidçi hekayənin əsas ideyasının savadsızlıq, qorxu psixologiyası, ictimai gerilik, hüquqsuzluq üzərində qurulduğunu vurğulayırdı. Novruzəlinin poçt qutusu ilə davranışı Məmməd Cəfərin yozumunda bütöv bir cəmiyyətin geriliyinin simvoludur. Alim göstərirdi ki, Mirzə Cəlil bu kiçik epizod vasitəsilə böyük ictimai mənzərə yaradır: "*Bu epizod əslində bütün müsəlman aləminin dünyanın mədəni səviyyəsindən nə qədər geri qaldığını, onun nailiyyətlərini dərk edə bilmədiyini göstərir. Şərq insanının özünü özünə tanıdır. Onu ayılmağa, cəhalətdən, savadsızlıqdan qurtuluşa səsləyir*" [4, s. 296].

M.C.Cəfərov "Ölülər" tragikomediyası üzərində də geniş şəkildə dayanmışdır. Bu əsəri yalnız satirik dram deyil, həm də bədii-fəlsəfi tragediya hesab etmişdir. Onun fikrincə, Kefli İsgəndər həqiqətin təmsilçisi, Şeyx Nəsrullah fanatizmin rəmzidir. Əsərdə fiziki cəhətdən diri, əslində isə mənəvi cəhətdən müqəvvaya çevrilmiş olan "ölülər" düşünmək, həyatı və ən sadə həyat həqiqətlərini dərk etmək imkanından məhrum olan cəmiyyətin obrazıdır. Bu cəmiyyət kütləvi şəkildə qəflət, cəhalət, maarifsizlik, kor zehniyyət içərisindədir. Təbii ki, tədqiqatçı Kefli İsgəndər obrazını yüksək qiymətləndirərək göstərir ki, cəmiyyətdə tək qalmış bu obraz Azərbaycan ədəbiyyatında azad düşüncənin, maarif və mədəniyyətin, xurafata, fanatizmə, cəhalətə qarşı mübarizənin simvollarından biridir. Müəllif yazır: "*Kefli İsgəndər xalqın vicdanıdır"* [7, s. 45]. Bu fikir obrazın ideya-fəlsəfi və estetik qayəsini açmaq baxımından olduqca əhəmiyyətlidir.

Nəticə

Məmməd Cəfər Cəfərov Azərbaycan ədəbiyyatşünaslığında Cəlil Məmmədquluzadə yaradıcılığını sistemli və hərtərəfli şəkildə araşdıran görkəmli alimlərdən biridir. Onun əsərlərində Mirzə Cəlil yalnız satirik yazıçı kimi deyil, həm də milli ictimai fikrin və demokratik ideyaların aparıcı nümayəndəsi kimi səciyyələndirilir.

DOI:10.30546/gdu.5.2026

Alim yazıçının realizmini, dramaturgiyasını, satirasını, dil xüsusiyyətlərini və milli-ictimai ideallarını vahid konseptual yanaşma əsasında təhlil etmiş, "Molla Nəsrəddin" ədəbi məktəbinin Azərbaycan milli-demokratik fikrinin formalaşması və inkişafındakı rolunu elmi əsaslarla izah etmişdir. Bu istiqamətdə irəli sürülən nəzəri müddəalar öz aktuallığını bu gün də qoruyur və Azərbaycan ədəbiyyatşünaslığının klassik elmi nailiyyətləri sırasında mühüm yer tutur. Formalaşdırdığı konsepsiya milli ədəbi fikrin inkişaf qanunauyğunluqlarının müəyyənləşdirilməsi və Cəlil Məmmədquluzadə irsinin daha dərindən dərk olunması baxımından mühüm elmi əhəmiyyətə malikdir. Bütövlükdə, M.C.Cəfərovun irəli sürdüyü elmi yanaşma Azərbaycan cəlilşünaslığının inkişafında mühüm nəzəri-metodoloji əsaslardan biri kimi dəyərləndirilə bilər.

Ədəbiyyat

1. Akademik Məmməd Cəfər Cəfərov: Şəxsiyyəti və yaradıcılığı (Məqalələr toplusu) / Tərt. edən: Vaqif Yusifli – Bakı: "Elm və təhsil", 2019, 208 s.
2. Cəfərov Məmməd Cəfər. Ədəbi düşüncələr (məqalələr məcmuəsi). Bakı, Azərnəşr, 1958, 199 s.
3. Cəfərov Məmməd Cəfər. Cəlil Məmmədquluzadə. Bakı, Azərnəşr, 1966, 83 s.
4. Cəfərov Məmməd Cəfər. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, Azərnəşr, 1973, 350 s.
5. Cəfərov Məmməd Cəfər. Sənət yollarında (ədəbi-tənqidi məqalələr). Bakı, Gənclik, 1975, 368 s.
6. Cəfərov Məmməd Cəfər. Həmişə bizimlə (məqalələr məcmuəsi). Bakı, Yazıçı, 1980, 361 s.
7. Cəfərov Məmməd Cəfər. Cəlil Məmmədquluzadə. Bakı, Çinar-çap, 2002, 72 s.
8. Qarayev, Yaşar. Ədəbi üfüqlər. Bakı, Gənclik, 1985, 287 s.
9. Məmməd Cəfər Cəfərov: Ədəbiyyat nəzəriyyəçisi: (Məqalələr toplusu) / Tərt. edən: Tahirə Məmməd. Bakı: "Elm və təhsil", 2019, 306 s.
10. Məmmədquluzadə Cəlil. Əsərləri. 6 cilddə. I cild. Bakı, Azərnəşr, 1983, 348 s.
11. Məmmədquluzadə Cəlil. Əsərləri. 6 cilddə. II cild. Bakı, Azərnəşr, 1984, 195 s.
12. Seyidov Yusif. Məmməd Cəfər Cəfərov. Əsərləri. 15 cilddə. VI cild. Bakı. BDU nəşri, 2007, s. 330-562.

MAMMAD JAFAR JAFAROV AS A SCHOLAR OF MIRZA JALIL'S LITERARY HERITAGE

Ismayilzadeh Gunel Mirza

Summary

Mammad Jafar Jafarov's studies on the literary works of Jalil Mammadguluzadeh have made significant contributions to Azerbaijani literary scholarship through the analysis of the writer's literary heritage, ideological and aesthetic position, and realist craftsmanship on the basis of objective scholarly criteria. This article examines, as a coherent system, the scholar's academic views on the literary works of Mirza Jalil. Drawing upon his monograph Jalil Mammadguluzadeh, as well as his various scholarly and literary-critical works, the article synthesizes his views on the writer's understanding of realism, educational ideas, the concept of national awakening, the aesthetic essence of the Molla Nasreddin literary school, dramaturgy, and language artistry. In addition, the author's approach to Mirza Jalil's literary heritage is comparatively analyzed against the background of the influence of the Soviet ideological environment and the approaches that emerged beyond this framework. As a result, the main propositions concerning Jalil Mammadguluzadeh's place in the development of

DOI:10.30546/gdu.5.2026

Azerbaijani realist literature, the poetic characteristics of satirical realism, and his role in the process of national self-awareness are synthesized and presented.

МАММАД ДЖАФАР ДЖАФАРОВ КАК ИССЛЕДОВАТЕЛЬ ТВОРЧЕСТВА МИРЗЫ ДЖАЛИЛА

Исмаилзаде Гюнель Мирза

Резюме

Исследования Маммада Джафара Джафарова, посвящённые творчеству Джалила Мамедкулизаде, внесли значительный вклад в азербайджанское литературоведение в аспекте научного анализа художественного наследия писателя, его идейно-эстетической позиции и реалистического мастерства на основе объективных научных критериев. В статье научные взгляды учёного на творчество Мирзы Джалила рассматриваются как целостная система, а на основе его монографии «Джалил Мамедкулизаде», а также различных научных и литературно-критических работ обобщаются его суждения о понимании писателем реализма, просветительских идеях, концепции национального пробуждения, эстетической сущности литературной школы «Молла Насреддин», драматургии и искусстве языка. Наряду с этим отношение автора к наследию Мирзы Джалила анализируется в сопоставительном плане с учётом влияния советской идеологической среды и подходов, сформировавшихся за её пределами. В результате основные положения о месте Джалила Мамедкулизаде в развитии азербайджанской реалистической литературы, поэтических особенностях сатирического реализма и его роли в процессе национального самосознания обобщаются и излагаются.

Daxil olma tarixi 01 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:80.

INFLUENCE OF CULTURE ON COGNITION

Maharramova Sugura Ibrahim
Associate professor of GSU
sugraibrahim85@gmail.com

Annotasiya: *This paper provides an overview of some recent research on how culture is causally implicated in the understanding of human cognition. In particular I review studies on the influence of culture on short-term memory, visual perception, grammar, numerical cognition, and language evolution.*

The effect of natural selection in man has probably been to render genotypic differences in personality traits, as between individuals and particularly as between races, relatively unimportant compared to phenotypic plasticity. Instead of having his responses genetically fixed as in other animal species, man is a species that invents its own responses, and it is out of this unique ability to invent, to improvise, his responses that his culture is born.

Key words: overlapping thinking, cross-cultural psychology, formal education, environment, evolution

Açar sözlər: üst-üstə düşən düşüncə, mədəniyyətlərarası psixalogiya, formal təhsil, ətraf mühit, təkamül

Ключевые слова: Пересекающееся мышление, кросс-культурная психология, формальное образование, окружающая среда, эволюция

A number of philosophers have argued that there is such a thing as "shared knowledge". Occasionally they intend this metaphorically, which is just as well, because the idea of shared knowledge literally cannot be correct.

There is no idea that is in my head and yours in the same way or used by me then used by you, like a sock or occupied simultaneously like a shared house. Two or more people can of course think two (non-identical) tokens of a single idea type simultaneously, by design or by accident, though it is never exactly the same idea. This overlapping thinking, or "thinking alike," is a necessary condition for culture. But the notion of sharing ideas is not. And it obscures the issues. Although thinking alike is not itself culture, it is a reflection of culture and underlies culture.

Non-identical but similar, overlapping thinking arises for the simple reason that people develop knowledge in specific contexts, via apperceptions (see Everett (2016)), reacting to their experiences in part by imitating the reactions of those around them in apparently similar situations. [2,139]

But figuring out what people are thinking either intra- or inter-culturally is not all that easy, as philosophers have often recognized better even than anthropologists or linguists. Christopher Hookway summarizes the problem:

"Anthropologists often attempt to ascribe beliefs and desires to the members of alien tribes that they are studying: they hope to secure an understanding of the aliens' behavior by attributing various cognitive attitudes to them and providing interpretations for the language they use... It appears that the theory of interpretation is underdetermined by the non-intentional evidence available – this can give rise to scepticism about the possibility of the kind of knowledge of other cultures promised by the anthropologist." [7, 17].

DOI:10.30546/gdu.5.2026

Indeed such skepticism can only increase when we recognize that members of a culture are themselves not fully aware of what they know. This is the problem of "dark matter," which I define as:

"Dark matter of the mind is any knowledge-how or any knowledge-that that is unspok en in normal circumstances, usually unarticulated even to ourselves. It may be, but is not necessarily, ineffable. It emerges from acting, "languaging" and "culturing" as we learn conventions and knowledge organization, and adopt value properties and orderings. It is shared and it is personal. It comes via emicization, appreceptions, and memory, and thereby produces our sense of "self." (Everett 2016, 1).

This definition is partially influenced by Brandom's (1994) work, namely, that we know that sentences have certain meanings because we know how to use them, rendering understanding a form of action. Our actions are all motivated by some sort of dark matter, though we may be unable to express what it is that drives us linguistically (just as we are not usually able to explain why we vary our articulations of consonants in certain positions within their phonetic environment or why we grip a bike as we do in different modes of biking or how we write clearly or unclearly). Many types and tokens of things we know, based on the regularity of our behaviors, are sub- or un-conscious and we often do not even know that we know such things. And even if we did, we likely could not say what it is exactly that we do know. Dark matter is symbiotically related to culture, in that it is constrained socially and produces the requisite value hierarchies, knowledge structures, and social roles as a result:

"Culture is an abstract network shaping and connecting social roles,

hierarchically structured knowledge domains, and ranked values. Culture is dynamic, shifting, reinterpreted moment by moment. Culture is found only in

the bodies (the brain is part of the body) and behaviors of its members. Culture permeates the individual, the community, behaviors, and thinking." Everett [3, 66].

In spite of many differences in the way people across cultures explain

their and others' behavior , psychologists have identified a universal core in folk psychology. In every known culture, people explain behavior in mentalistic terms, i.e., by ascribing mental states such as beliefs and desires .

Furthermore, in their meta-analysis of children's performances in the false belief task, Wellman, Cross, and Watson (2001) have shown that children's understanding of beliefs develops similarly across cultures. They report studies conducted in Western cultures (USA, Austria, Australia), Eastern cultures (Japan, Korea), among the hunter-gatherer Baka (Avis & Harris, 1991), and among Quechua-speaking Peruvian Indians (Vinden,1996). Although culture affects how early children come to understand that beliefs can be false, 3-year-old children from Western, Eastern, African, schooled, and non-schooled cultures initially fail to understand this, then progressively come to grasp the notion of false beliefs.

An entirely different approach to the relations between culture and cognition focuses on differences across cultures. Many differences are best described as ethnographic: because across cultures, people live in different social and physical environments, and different cultural framings thereof, and have correspondingly different experiences, their beliefs, concepts, and desires—in brief, the contents of their minds—will often similarly vary. However, looking beyond such differences, scholars have explored the effects of cultural variation on cognitive processes, personality, and perception .The search for cross-cultural differences is deemed successful to the extent that the differences across cultures are marked and are explained by relevant differences among these cultures.

The search for cross-cultural psychological differences has a long history.

DOI:10.30546/gdu.5.2026

Particularly, numerous scholars have addressed the role of linguistic differences in producing psychological differences. The anthropologist Edward Sapir and the linguist Benjamin Whorf famously proposed that the syntax and the vocabulary of different languages promote irreducibly different patterns of thought—what is known as the Sapir-Whorf hypothesis . Similarly, Soviet psychologists, particularly Lev Vygotsky and Alexander Luria, argued that languages as well as social activities (e.g., counting routines) constitute tools that allow children to develop symbolic thinking (Vygotsky, 1986).

Traditionally, psychologists and anthropologists searching for cross-cultural differences have given little thought to the evolutionary origins of this diversity, assuming that evolutionary considerations were only relevant for universal traits, or that evolution was only relevant in so far as it produced an undifferentiated "capacity for culture." As discussed in the next two sections, recent theories and findings belie these assumptions. Here, we successively focus on two proximal causes of cross-cultural psychological diversity.

First, while cognitive science has tended to be methodologically solipsist, neglecting the social and physical environment in which cognition takes place, an influential approach, termed "extended cognition," now insists that social practices, such as counting routines and formal education, as well as physical artifacts dramatically modify (or, in some formulations of this idea, are constitutive of) people's cognitive processes (e.g., Hutchins, 1995; Clark, 1997). Because practices and artifacts vary tremendously across cultures, their effect on the mind is a potent source of cross-cultural diversity.

Language is one of the social practices that can potentially cause cognition to differ substantially across cultures. Since the 1990's, a flurry of cross-cultural work in linguistics and psychology has revived interest in the Sapir-Whorf hypothesis . We consider in turn the research on spatial orientation and the more decisive research on color perception.[6,182]

Levinson and colleagues have shown that languages encode spatial orientation in

a variety of ways (Levinson, 2003; Pederson, Danzinger, Wilkins, Levinson, et al., 1998).

They identify three main ways of describing the location of objects. Speakers who use an intrinsic frame of reference locate objects by describing the relations between these objects (the spoon is besides the plate). Speakers who use a relative frame of reference locate objects by describing the position of these objects in relation to themselves and others (the knife is on my/your right). Speakers who use an absolute frame of reference locate objects by using cardinal directions (the knife is west of the plate). Levinson and colleagues have argued that these linguistic differences affect people's spatial reasoning. In the rotation experiment (Pederson et al. 1998), subjects are shown an array of objects displayed on a table in front of them. Then, they are asked to turn by 180 o . They are then given the objects and asked to recreate the original array on a new table. If speakers of a language with a predominantly relative frame reference also

reason relatively, they should preserve the orientation of the objects with respect to their own body: the object that was on the subject's left on the first table should be on her left on the second table, and so on. If speakers of a language with a predominantly absolute frame reference reason absolutely, they should preserve the absolute orientation of objects, thereby changing the orientation of the objects with respect to their own body: the object that was on the subject's left on the first table should now be on her right on the second table.

Western-based cultural anthropologists and psychologists stressed the role of the cultural environment in shaping cognition (e.g., Bruner, 1996). Specifically, indigenous

DOI:10.30546/gdu.5.2026

definitions of intelligence in African and Asian cultures emphasized the special role of social skills and social responsibility that are hardly evaluated in the prevalent Western conceptions of cognition (e.g., Grigorenko et al., 2001; Serpell, 1977, 1994; Wober, 1974).

Along these lines, cognition has become more and more understood as situated in the environmental context with its affordances and challenges (Brown, Collins, & Duguid, 1989) and functional adaptive value for this environment. Studies departing from the ecosocial environment as the major informant of cognition confirmed accordingly differences in cog- nitive styles of, for example, hunter and gatherer as compared with pastoralists or farmers .

The recognition of environmental influences necessitates a evelopmental perspective— to contribute to the understanding of the ontogenetic emergence of differences as well as a comparative perspective to trace the emergence of similarities and differences on a phylogenetic scale. This special issue is presenting both these perspectives with a special emphasis of the development -al during the early years of life. The articles cover an age range from about 6 months to 7 years, with a range reaching to 14 years. The articles also present data from largely understudied populations, like West African farmers, Southern African hunter- gatherer children, and from participants representing different slices of cultures, with respect to socioeconomic and formal educational achievements, such as children from middle-class families in Germany, Costa Rica, and Mexico, and Hindu families in India, and refer to studies with children from many different countries around the globe. With this emphasis, the collection of articles contributes to the overly necessary extension of the psychological data- base. By far, most conclusions in psychology and educational science with the claim for gen- eral validity are based on the smallest and most atypical segment of this planet's population,

the "weirdest people in the world" (Henrich, Heine, & Norenzayan, 2010). WEIRD means a background of White, educated, industrialized, rich, and of democratic origin and extends the WASP psychology (White Anglo-Saxon Protestant) at least from North America and middle- class Westerners. Data from this population can be regarded as outliers in a statistical sense.

I have proposed to concentrate on NICE (non-Western, indigenous, colored, ethnic) people to fill the tremendous gap in our knowledge about cognition and development. However, it would be also mistaken to assume that WEIRD and NICE people would represent homogenous groups—there are multiple groups, which also need to be differentiated appropriately. Therefore, a high emphasis on the description of samples and contexts is crucial for any psychological study. [8,183]

The selection of articles covers a mixture of report and research papers to present an overview over a topical field, as well as allowing insights into research processes with potentially important implications for education. Most articles deal with contrasts between Western middle-class children and non-Western rural farming or hunter/gatherer children—the latter being grossly understudied populations. Also, different Western and non-Western samples are contrasted.

The first article by Leavens and Bard sets the stage with a very well-developed case in point demonstrating the environmental dependency of cognitive achievements as an evolutionary principle—although they do not put it as an evolutionary principle. They review data and observations on joint attention and pointing in great apes and demonstrate that differences in rearing environments (i.e., wild habitats, zoos, and research centers, and home-reared and language-trained settings) are systematically related to differences (and frequencies) in point- ing behavior. Moreover, they argue that based on the evidence they

DOI:10.30546/gdu.5.2026

present, pointing cannot be interpreted as a uniquely human sociocognitive achievement, but as a consequence of particular environmental experiences. With their analysis, they make clear that contrasting humans with other primates per se is inappropriate in both bases because the tremendous

variability in environmental conditions needs to be systematically taken into consideration— for humans as well as for primates. The evolutionary adaptation is thus not the particular achievement but the environmental flexibility.

References

1. Dobzhansky, Theodore. Mankind Evolving: The Evolution of the Human Species (1962). Yale University Press.
2. Everett, C. and K. Madora. 2012. "Quantity Recognition Among Speakers of an Anumeric Language," Cognitive Science 36: 130-141.
3. Everett, D. L. (2005). "Cultural Constraints on Grammar and Cognition in Pirahã: Another Look at the Design Features of Human Language." Current Anthropology, 76: 621-646.
4. Everett, D. L. (2010a). "You drink. You drive. You go to jail. Where's recursion?" http://ling.auf.net/lingbuzz/@tCyuITrPicSKpoXb/wbOhgtZe?137.
5. Frank, M., D.L. Everett, E. Fedorenko, and E. Gibson. 2008. "Number as a cognitive technology: evidence from Pirahã language and cognition." Cognition 108, 819-24.
6.Gil, David. 1994. "The structure of Riau Indonesian." Nordic Journal of Linguistics, 17: 179-200.
8.Newman, John. 2002. "Culture, Cognition, and the Grammar of 'Give' Clauses," In: N.J. Enfield (ed.) Ethnosyntax: Explorations in Grammar and Culture, Oxford University Press. (pp74-98)
9.Wnuk, E. and A. Majid. 2014. "Revisiting the Limits of Language: The Odor Lexicon of Maniq," Cognition 131: 125-138.
10.Yoon, J. M. D., N. Witthoft, J. Winawer, M. C. Frank, D.L. Everett, and E. Gibson. (2014). "Cultural Differences in Perceptual Reorganization in US and Pirahã Adults," Plos One, https://doi.org/10.1371/journal.pone.0110225

MƏDƏNİYYƏTİN İDRAKA TƏSİRİ

Məhərrəmova Suqurə İbrahim qızı

Xülasə

Bu məqalədə mən sübutlar təqdim etdim ki, insan idrakı,dildən yaddaşa, qavrayışa qədər insan mədəniyyətindən dərin təsirlənir. Mən mədəniyyətin tərifləri və onun əsas mühərriki, zehnin qaranlıq maddəsini təklif etdim ki, bu da mənim davam edən tədqiqatımla uyğundur, xüsusilə Everettdə xəbər verilir. İnsanlar mədəni varlıqlardır. Mədəniyyətin aydın konsepsiyası olmadıqda və bunun fərdlər tərəfindən necə yazıldığını anlaya bilmirik. Əksər psixoloqlar bütün normal insanların eyni diqqət, qavrayış, yaddaş, öyrənmə və nəticə çıxarma prosedurları ilə təchiz olunduğunu güman edirdilər. Xüsusilə, Piagetin inkişaf mərhələləri mədəniyyətlərarası miqyasda (yenidən) təsdiqlənməyə çalışıldı.

Bununla belə, nəticələr aşkar etdi ki, idrak nailiyyətlərinin, xüsusən də Piagetin intellektin inkişafının son mərhələsində formal əməliyyatlar kimi müəyyən etdiyi mücərrəd, kontekstdən asılı olmayan, analitik səriştələr baxımından yüksək kontekstdən asılılığı var. Xüsusilə, formal təhsilin və ya ümumi təhsilin səviyyəsi və tapşırıqlar və materiallarla tanışlıq analitik səriştələrə əhəmiyyətli dərəcədə təsir göstərirdi.

DOI:10.30546/gdu.5.2026

ВЛИЯНИЕ КУЛЬТУРЫ НА ПОЗНАНИЕ

Магеррамова Сугура Ибрагимовна

Резюме

В этой обзорной статье я представил доказательства того, что человеческое познание, от языка до памяти и восприятия, глубоко зависит от человеческой культуры. Я предложил определения культуры и её движущей силы, тёмной материи разума, которые согласуются с моими текущими исследованиями, о которых, в частности, сообщается в работе Эверетта. Люди — существа, подверженные влиянию культуры. Мы не можем понять себя без чёткого понимания культуры и того, как она формируется отдельными людьми. Однако результаты показали, что существует высокая контекстная зависимость когнитивных достижений, особенно в отношении абстрактных, контекстно-независимых аналитических компетенций, которые Пиаже определил как формальные операции на заключительном этапе развития интеллекта. В частности, уровень формального образования или школьного обучения в целом, а также знакомство с задачами и материалами оказывали существенное влияние на аналитические компетенции.

Rəyçi:dos. Əliyeva Zahirə
Daxil olma tarixi 10 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT: 811.

MÜXTƏLİF SİSTEMLİ DİLLƏRDƏ MÜRƏKKƏB CÜMLƏ MODELLƏRİNİN STRUKTUR-TİPOLOJİ TƏHLİLİ
(Azərbaycan və ingilis dili materialları əsasında)

Məmmədova Günay İlqar qızı
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Aqrar Universiteti
orchid: 0000-0003-1686-3268
gunay.mammadova@adau.edu.az

Xülasə: *Tədqiqat işi fərqli qrammatik quruluşa malik olan Azərbaycan və ingilis dillərində mürəkkəb cümlə modellərinin struktur-tipoloji xüsusiyyətlərinin müqayisəli təhlilinə həsr olunmuşdur. Məqalədə aqqlütinativ xarakterli Azərbaycan dili ilə analitik quruluşlu ingilis dilində tabelilik və bərabərhüquqluluq əlaqələrinin reallaşma mexanizmləri, bağlayıcı vasitələrin tipoloji fərqləri və sintaktik vahidlərin yerləşmə ardıcıllığı araşdırılır. Tədqiqat zamanı məlum olur ki, ingilis dilində budaq cümlələr əsasən bağlayıcılar və nisbi əvəzliklər vasitəsilə baş cümləyə analitik şəkildə bağlandığı halda, Azərbaycan dilində feli sifət, feli bağlama və məsdər tərkibləri sintetik olaraq mürəkkəb cümlə daxilində budaq cümlənin funksiyasını öz üzərinə götürür və ya tabelilik bağlayıcıları vasitəsilə fərqli struktur modelləri (məsələn, ki bağlayıcılı cümlələr) formalaşdırır. Məqalədə hər iki dilin sintaktik modelləri qarşılıqlı şəkildə qarşılaşdırılmış, dillərarası struktur oxşarlıqlar və spesifik fərqliliklər müəyyənləşdirilmişdir. Əldə olunan nəticələr müqayisəli dilçilik, tipologiya və tərcüməşünaslıq sahəsində fundamental və tətbiqi əhəmiyyətə malikdir.*

Açar sözlər: müqayisəli tipologiya, mürəkkəb cümlə, baş cümlə, budaq cümlə, analitizm, aqqlütinasiya, sintaktik model, bağlayıcı vasitələr.

Keywords: comparative typology, complex sentence, main clause, subordinate clause, analytism, agglutination, syntactic model, connective devices.

Ключевые слова: сравнительная типология, сложное предложение, главное предложение, придаточное предложение, аналитизм, агглютинация, синтаксическая модель, связующие средства

Giriş. Müasir dilçiliyin ən aktual və dinamik inkişaf edən istiqamətlərindən biri müxtəlif sistemli, qohum olmayan dillərin struktur-semantik səviyyədə qarşılaşdırılması və onların struktur universalilərinin müəyyənləşdirilməsidir. Dil sistemlərinin tipoloji xüsusiyyətlərinin aşkar olunmasında sintaktik səviyyə, xüsusilə də mürəkkəb cümlə modellərinin tədqiqi müstəsna əhəmiyyət kəsb edir. Çünki cümlə, xüsusən də mürəkkəb cümlə forması dilin həm daxili struktur qanunauyğunluqlarını, həm də həmin dildə danışan etnosun koqnitiv-təfəkkür modelini ən dolğun şəkildə əks etdirən ali sintaktik vahiddir.

Tədqiqatın aktuallığı aqqlütinativ quruluşlu Azərbaycan dili ilə analitik xarakterli ingilis dilinin mürəkkəb cümlə konstruksiyalarının qarşılaşdırmalı sintaktik planda struktur-tipoloji təhlilinə olan elmi ehtiyacdan irəli gəlir. Məlumdur ki, bu iki dil tipoloji baxımdan kəskin fərqlənən qütbləri təmsil edir: ingilis dili morfoloji göstəricilərin zəifliyi, sabit söz sırası və analitik bağlayıcı vasitələrin üstünlüyü ilə xarakterizə olunduğu halda, Azərbaycan dili zəngin şəkilçi sistemi (flektiv-aqqlütinativ elementlər), nisbətən sərbəst söz sırası və sintetik tərkiblərin (feli sifət, feli bağlama, məsdər tərkibləri) dominantlığı ilə seçilir. Bu cür struktur polyarlıq mürəkkəb cümlələrin — həm tabesiz, həm də tabeli mürəkkəb cümlə modellərinin formalaşmasında özünü aşkar şəkildə büruzə verir. İndiyə qədər hər iki dilin sintaksisi ayrı-

DOI:10.30546/gdu.5.2026

ayrılıqda geniş tədqiq edilsə də, onların mürəkkəb cümlə modellərinin struktur transformasiyaları və daxili inteqrasiya mexanizmləri müasir tipoloji dilçilik konteksində hələ də tam sistemləşdirilməmişdir.

Tədqiqatın obyekti qismində Azərbaycan və ingilis dillərində bədii, elmi və publisistik mətnlərdən seçilmiş mürəkkəb cümlə konstruksiyaları çıxış edir. Tədqiqatın predmeti isə həmin mürəkkəb cümlə modellərində komponentlərin (baş və budaq cümlələrin, eləcə də tabesiz komponentlərin) qrammatik, semantik və struktur bağlanma üsulları, bağlayıcı vasitələrin tipologiyası və dillərarası struktur ekvivalentlik prinsipləridir.

Məqalənin qarşısına qoyulmuş əsas məqsəd fərqli sistemli bu iki dildə mürəkkəb cümlə tiplərinin struktur-tipoloji invariantlarını müəyyənləşdirmək, analitizm və aqqlütinasiya prinsiplərinin sintaktik səviyyədəki qarşılıqlı təzahür formalarını aşkar etməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- İngilis və Azərbaycan dillərində mürəkkəb cümlələrin təsnifat prinsiplərini müqayisəli şəkildə nəzərdən keçirmək;
- Tabesiz mürəkkəb cümlələrdə komponentlərin semantik-sintaktik əlaqələnmə dərəcəsini və intonasiyanın struktur yaradıcı rolunu müəyyən etmək;
- Tabeli mürəkkəb cümlə modellərində ingilis dilindəki analitik budaq cümlə strukturlarının (clauses) Azərbaycan dilindəki sintetik tərkiblərlə (nominalized constructions) qarşılıqlı ekvivalentlik münasibətlərini təhlil etmək;

Dillərin struktur-tipoloji fərqlərindən doğan linqvistik interferensiya zonalarını müəyyənləşdirmək.

Tədqiqatın metodoloji əsasını struktur-funksional, qarşılaşdırma (kontrastiv) və müqayisəli-tipoloji təhlil metodları təşkil edir. Müxtəlif qrammatik sistemlərin qarşılaşdırılması zamanı sinxron təhlil metodundan istifadə olunmuş, dillərin müasir vəziyyətinə əsaslanaraq universal və spesifik sintaktik xüsusiyyətlər qruplaşdırılmışdır.

Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada mürəkkəb cümlə modelləri yalnız ənənəvi qrammatik qaydalar çərçivəsində deyil, analitik və sintetik dillərin struktur transformasiya imkanları müstəvisində araşdırılır. Xüsusilə, ingilis dilindəki mürəkkəb cümlə tiplərinin Azərbaycan dilinə tərcüməsi və ya mənimsənilməsi zamanı baş verən struktur yerdəyişmələri və qrammatik kompensasiya mexanizmləri tipoloji invariantlar vasitəsilə izah edilir. Tədqiqatın nəzəri və tətbiqi əhəmiyyəti isə müqayisəli dilçilik kurslarının, tipologiya mühazirələrinin, həmçinin xarici dil tədrisi (ESP) metodologiyasının və bədii-elmi tərcümə praktikasının struktur bazasının təkmilləşdirilməsinə xidmət etməsidir.

İngilis və Azərbaycan dillərinin sintaktik struktur tipləri: Analitizm və aqqlütinasiya prinsiplərinin cümlə səviyyəsində təzahürü.

Müxtəlif qrammatik quruluşa və genealoji mənşəyə malik olan dillərin sintaktik arxitekturasını müqayisəli şəkildə araşdırarkən, ilk növbədə, həmin dillərin mənsub olduğu morfoloji tiplərin cümlə modelinin formalaşmasına göstərdiyi təsir öyrənilməlidir. Hind-Avropa dil ailəsinin German qrupuna daxil olan müasir ingilis dili tipoloji baxımdan analitik struktur nümayiş etdirir. Türk dilləri ailəsinin Oğuz qrupuna mənsub olan Azərbaycan dili isə klassik aqqlütinativ dil tipinin ən bariz nümunələrindən biridir. Morfoloji səviyyədə özünü göstərən bu kəskin fərqlilik — yəni formanın sintaktik münasibətləri ifadə etmək üçün sözün xaricinə (analitizm) və ya daxilinə/sonuna (aqqlütinasiya) yönəlməsi — birbaşa olaraq cümlə səviyyəsində, xüsusən də mürəkkəb sintaktik bütövlərin qurulmasında həlledici rol oynayır.

Analitik dillərin təməl xüsusiyyəti ondan ibarətdir ki, sözlər arasında qrammatik və semantik əlaqələr morfoloji göstəricilərdən (şəkilçilərdən) daha çox, köməkçi sözlər (prepozisiyalar, bağlayıcılar), vurğu, intonasiya və ən əsası, ciddi şəkildə nizamlanmış **sabit**

DOI:10.30546/gdu.5.2026

söz sırası vasitəsilə reallaşır. Müasir ingilis dilində sadə və mürəkkəb cümlənin nüvəsini fiksasiya olunmuş **SVO (Subject + Verb + Object / Mübtəda + Xəbər + Tamamlıq)** modeli təşkil edir. İngilis dili sintaksisində söz sırasının bu cür sabit xarakter daşıması struktur bütövlüyü təmin edən əsas amildir; burada hər hansı bir komponentin yerinin dəyişməsi ya cümlənin tamamilə qrammatik fəsadlaşmasına (cəfəngiyyata çevrilməsinə), ya da semantik strukturun köklü surətdə transformasiyasına səbəb olur.

Bunun tam əksinə olaraq, aqqlütinativ quruluşlu Azərbaycan dilində sintaktik münasibətlərin tənzimlənməsində əsas yük morfoloji vasitələrin — hal, şəxs, xəbərlik və mənsubiyyət şəkilçilərinin üzərinə düşür. Sözün kökünə ardıcıl və standart şəkildə qoşulan bu formantlar morfemlər arası sərhədlərin şəffaflığını qoruyur və cümlə daxilindəki digər vahidlərlə sintaktik əlaqəni sementləşdirir. Morfoloji göstəricilərin bu dərəcədə zəngin və funksional olması Azərbaycan dilində **nisbətən sərbəst söz sırası**nın mövcudluğuna imkan yaradır. Dilimizin dominant sintaktik modeli **SOV (Subject + Object + Verb / Mübtəda + Tamamlıq + Xəbər)** prinsipinə əsaslansa da, cümlə üzvləri aktuallaşdırma, emosionallıq və ya pragmatik məqsədlərdən asılı olaraq yerini dəyişə bilir (inversiya). Lakin bu yerdəyişmə, ingilis dilindən fərqli olaraq, cümlənin fundamental qrammatik statusunu pozmur, sadəcə kommunikativ mərkəzi (aktual üzvlənməni) dəyişir.

Mürəkkəb cümlə modellərinə keçid zamanı analitizm və aqqlütinasiya prinsiplərinin toqquşması daha qabarıq şəkildə özünü göstərir. Bu təzahürləri aşağıdakı struktur parametrlər üzrə qruplaşdırmaq olar:

1. Sintaktik İnteqrasiya Metodu (Sentensial və Qeyri-Sentensial):İngilis dilində tabeli mürəkkəb cümlə formalaşarkən, budaq cümlə müstəqil predikativlik mərkəzini (yəni öz şəxsi mübtəda və xəbərini) qoruyub saxlayır (sentensial model). Məsələn: "We know that the experiment was successful." Bu model Azərbaycan dilinə transformasiya olunarkən analitik budaq cümlə sıxılaraq predikativliyini qismən itirir və nominalizasiyaya (isimləşməyə) uğrayaraq sintetik bir tərkibə çevrilir (qeyri-sentensial model): "Biz təcrübənin uğurlu olduğunu bilirik." Gördüyümüz kimi, ingilis dilindəki tam bir cümlə ("that the experiment was successful") Azərbaycan dilində feli sifət tərkibinə ("uğurlu olduğunu") çevrilərək sadə cümlənin mürəkkəb üzvü kimi çıxış edir.

2. Bağlayıcı Mexanizmlərin Tipologiyası: Analitik ingilis dilində cümlələrin bağlanması xarici (ekstrinsik) elementlər olan prepozisional bağlayıcılar və nisbi sözlər vasitəsilə həyata keçirilir. Hər bir əlaqə növü üçün xüsusi diferensiallaşmış bağlayıcılar mövcuddur (although, because, provided that, while və s.). Azərbaycan dilində isə bu funksiya həm daxili (intrinsik) morfoloji vasitələrlə (məsələn, feilin şərt şəkli -sa/-sə, feli bağlama şəkilçiləri -arkən, -dıqda), həm də kənardan daxil olmuş intonasiya və analitik bağlayıcılar (ki, çünki, hərçənd) vasitəsilə icra olunur. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan dilində feli bağlama və digər təsriflənməyən feil formaları həm morfoloji formant, həm de sintaktik bağlayıcı funksiyasını eyni anda özündə birləşdirir.

3. Xəbərin Yerləşmə Arxitekturası: İngilis dilində baş və budaq cümlələrin xəbərləri bir-birinə yaxın yerləşə bildiyi və ya cümlənin mərkəzində qərarlaşdığı halda, Azərbaycan dilində SOV modelinin təbii nəticəsi olaraq xəbər həmişə cümlənin sonunda gəlməyə meyllidir. Bu da mürəkkəb cümlə daxilində uzun daxili genişlənmələrə (budaq cümlə funksiyalı tərkiblərin baş cümlə xəbərindən xeyli əvvəl qruplaşmasına) səbəb olur.

Tabesiz mürəkkəb cümlələrin tipologiyası: Bağlayıcılı və bağlayıcısız tabesizlik, intonasiyanın rolu. Mürəkkəb cümlə sintaksisində tabesizlik əlaqəsi komponentlərin qrammatik baxımdan bərabərhüquqlu bütövlər kimi qruplaşmasını nəzərdə tutur. Tipoloji müstəvidə ingilis və Azərbaycan dillərində tabesiz mürəkkəb cümlələrin (compound sentences) formalaşma mexanizmləri həm semantik bənzərliklər, həm də ciddi struktur

DOI:10.30546/gdu.5.2026

fərqliliklər nümayiş etdirir. Hər iki dil sistemində komponentlərin bağlanma üsuluna görə iki əsas model differensiasiya olunur: **bağlayıcılı tabesizlik (syndeton) və bağlayıcısız tabesizlik (asyndeton).**

Analitik ingilis dilində bağlayıcılı tabesizlik modeli struktur baxımdan olduqca fiksasiya olunmuş xarakter daşıyır. Burada komponentlərin bərabərhüquqlu inteqrasiyası koordinasiyaedici bağlayıcılar (coordinating conjunctions — and, but, or, for, nor, so, yet) vasitəsilə həyata keçirilir. İngilis dilində söz sırasının sabitliyi tabesiz mürəkkəb cümlə daxilində də qorunur: bağlayıcı həmişə iki müstəqil predikativ vahidin hüdudunda, yəni mərkəzdə yerləşir və onun yerinin dəyişdirilməsi qeyri-mümkündür. Məsələn: "The weather was freezing, so they decided to postpone the fieldwork."

Aqqlütinativ Azərbaycan dilində isə bağlayıcılı tabesizlik həm milli, həm də alınma mənşəli tabesizlik bağlayıcıları (və, amma, ancaq, lakin, da/də, ya... ya da, gah... gah da və s.) vasitəsilə reallaşır. Dilimizin struktur elastikliyi sayəsində, xüsusilə qarşılaşdırma və bölüşdürmə münasibətli cümlələrdə bəzi bağlayıcı elementlər (isə, da/də) komponentin dərhal əvvəlində deyil, onun daxilinə sızaraq mübtədadan sonra da yerləşə bilir. Məsələn: "Birinci qrup təcrübəni tamamladı, ikinci qrup isə hələ məlumatları toplayırdı." Bu cür morfo-sintaktik variativlik analitik ingilis dili üçün xarakterik deyildir.

Bağlayıcısız tabesizlik (asyndeton) modelində hər iki dil qrammatik xarici göstəricilərdən imtina edərək **intonasiya və semantik bağlılıq** amillərinə əsaslanır. Lakin intonasiyanın bu modellərdə oynadığı struktur yaradıcı rol fərqlidir:

İngilis dilində asindeton: Bağlayıcısız model ingilis dili üçün qapalı sistem təşkil edir. İki müstəqil cümlə bağlayıcısız birləşdikdə, yazıda mütləq şəkildə nöqtəli vergül (;) və ya iki nöqtə (:) tələb olunur, çünki sadəcə vergülün (,) istifadəsi sintaktik xəta (comma splice) hesab olunur. Bu, ingilis dilində predikativ vahidlərin sərhədlərinin kəskin analitik avtonomluğundan irəli gəlir. İntonasiya burada sadəcə bitmişlik və ya tonun enməsini tənzimləyir.

Azərbaycan dilində asindeton: Dilimizdə bağlayıcısız tabesiz mürəkkəb cümlələr sintaktik sistemin ən qədim və təbii qatını təşkil edir. Komponentlər arasında əlaqə birbaşa intonasiya dalğaları (sadalama, qarşılaşdırma, səbəb-nəticə intonasiyası) vasitəsilə sementləşdirilir və yazıda adi vergül işarəsi kifayət edir. Məsələn: "Yağış kəsdi, günəş buludların arxasından çıxdı." Burada intonasiya köməkçi nitq hissəsini əvəz edən tamhüquqlu qrammatik kompensasiya vasitəsi kimi çıxış edir.

Semantik-tipoloji müstəvidə hər iki dildə tabesiz mürəkkəb cümlələrin daxili münasibətləri (sadalama, qarşılaşdırma, səbəb-nəticə, bölüşdürmə) eyni məntiqi-koqnitiv universalilərə əsaslansa da, onların formal təzahür formaları analitizm (ciddi durğu və bağlayıcı mövqeyi) və aqqlütinasiya (intonasiya üstünlüyü və struktur sərbəstliyi) fərqlərini tam şəkildə əks etdirir.

Nəticə. Tədqiqat nəticəsində aşağıdakı elmi yekunlar əldə olunmuşdur:

1. Müəyyən edilmişdir ki, analitik ingilis dilində mürəkkəb cümlə konstruksiyaları fiksasiya olunmuş SVO modelini qoruyaraq xarici (analitik) bağlayıcı vasitələrlə formal cəhətdən strukturlaşdırılır. Aqqlütinativ Azərbaycan dilində isə zəngin morfoloji formantlar sistemi (şəkilçilər) cümlə komponentlərinin daxili sintezinə və nisbətən sərbəst söz sırasının (dominant SOV) qorunmasına şərait yaradır.

2. Tabelilik münasibətlərində ingilis dilinin analitik clause (budaq cümlə) strukturları Azərbaycan dilinə transformasiya olunarkən, əksər hallarda feli sifət, feli bağlama və məsdər tərkibləri formasına keçərək nominalizasiyaya uğrayır. Bu da ingilis dilindəki sentensial (cümlə xarakterli) modellərin Azərbaycan dilində sintetik və qeyri-sentensial bütövlərə çevrildiyini nümayiş etdirir.

DOI:10.30546/gdu.5.2026

3. Tabesizlik səviyyəsində hər iki dil oxşar semantik əlaqələrə malik olsa da, bağlayıcısız modellərdə (asyndeton) intonasiyanın struktur yükü fərqlidir. Azərbaycan dilində intonasiya bağlayıcını kompensasiya edən müstəqil sintaktik amil kimi çıxış etdiyi halda, ingilis dilində asindeton qrammatik cəhətdən daha sərt punktuasiya qaydaları ilə məhdudlaşdırılır.

Əldə edilən nəticələr göstərir ki, fərqli dil tiplərində ali sintaktik vahidlərin müqayisəli analizi həm tərcümə nəzəriyyəsində linqvistik interferensiyanın qarşısını almaq, həm də ümumi dilçilikdə struktur universaliləri fiksasiya etmək üçün zəngin elmi baza formalaşdırır.

Ədəbiyyat

1.Abdullayev K.M. (2017). Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Elm və təhsil.
2.Cavadov, Ə. M. (2012). Müqayisəli tipologiya: qrammatika, leksika, fonetika. Bakı: Nurlan.
3.Veysəlli, F. Y. (2015). Dilçiliyin əsasları. Bakı: Təhsil.
4.Comrie, B. (1989). Language Universals and Linguistic Typology: Syntax and Morphology (2nd ed.). Chicago: University of Chicago Press.
5.Croft, W. (2002). Typology and Universals (2nd ed.). Cambridge: Cambridge University Press.
6.Givón, T. (2001). Syntax: An Introduction (Vols. I-II). Amsterdam: John Benjamins Publishing Company.
7.Quirk, R., Greenbaum, S., Leech, G., & Svartvik, J. (2010). A Comprehensive Grammar of the English Language. London: Longman.
8.Shopen, T. (Ed.). (2007). Language Typology and Syntactic Description: Complex Constructions (Vol. II). Cambridge: Cambridge University Press.

STRUCTURAL-TYPOLOGICAL ANALYSIS OF COMPLEX AND COMPOUND SENTENCE MODELS IN LANGUAGES OF DIFFERENT SYSTEMS (Based on the materials of azerbaijani and english)

Mammadova Gunay İlgar

Summary

The research is devoted to the structural and typological analysis of complex and compound sentence models in the Azerbaijani and English languages, which possess distinct grammatical structures. The article examines the realization mechanisms of subordination and coordination relations, typological differences of connective devices, and the sequential order of syntactic units in agglutinative Azerbaijani and analytical English. The study reveals that while subordinate clauses in English are analytically connected to the main clause primarily through conjunctions and relative pronouns, in Azerbaijani, participle, gerund, and infinitive constructions synthetically assume the function of subordinate clauses within a complex sentence, or form distinct structural models via subordinating conjunctions (e.g., sentences with the conjunction ki). The syntactic models of both languages are contrastively analyzed, and cross-linguistic structural similarities and specific discrepancies are identified. The findings hold both fundamental and applied significance for comparative linguistics, typology, and translation studies.

DOI:10.30546/gdu.5.2026

СТРУКТУРНО-ТИПОЛОГИЧЕСКИЙ АНАЛИЗ МОДЕЛЕЙ СЛОЖНЫХ ПРЕДЛОЖЕНИЙ В РАЗНОСИСТЕМНЫХ ЯЗЫКАХ
(На материале азербайджанского и английского языков)

Мамедова Гюнай Ильгаровна

Резюме

Данное исследование посвящено структурно-типологическому анализу моделей сложных предложений в азербайджанском и английском языках, обладающих различным грамматическим строем. В статье рассматриваются механизмы реализации отношений подчинения и сочинения, типологические различия связующих средств и последовательность расположения синтаксических единиц в агглютинативном азербайджанском и аналитическом английском языках. Исследование показывает, что если в английском языке придаточные предложения соединяются с главным аналитическим способом, преимущественно посредством союзов и относительных местоимений, то в азербайджанском языке причастные, деепричастные и инфинитивные обороты синтетически берут на себя функцию придаточного предложения, либо формируют отличные структурные модели с помощью подчинительных союзов (например, предложения с союзом ki). Синтаксические модели обоих языков сопоставлены друг с другом, выявлены межъязыковые структурные сходства и специфические различия. Полученные результаты имеют фундаментальное и прикладное значение для сравнительного языкознания, типологии и переводоведения.

Daxil olma tarixi 01 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:82.7.

YERLİ MƏTBUATDA SATİRA ƏNƏNƏLƏRİ: ZAQATALANIN "QIRMIZI BAYRAQ" QƏZETİNDƏ YUMOR VƏ TƏNQİD (1962–1991)

Məmmədova Təranə Yaşar qızı
AMEA Şəki Regional Elmi Mərkəzi Ədəbi-mədəni mühit və folklor şöbəsi
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dissertantı
0000-0001-6352-7801
terane873@gmail.com
Məmmədova Aynur Vüqar
AMEA Şəki Regional Elmi Mərkəzi Ədəbi-mədəni mühit və folklor şöbəsi
aynurmemmed93@gmail.com

Xülasə: *Məqalədə Azərbaycanın Şimal-qərb bölgəsinin zəngin tarixi-mədəni və polietnik mərkəzlərindən olan Zaqatala rayonunun regional mətbuat orqanı – "Qırmızı bayraq" qəzetinin (1962–2000) səhifələrində işıq üzü görən yumoristik və satirik materiallar, lətifələr tədqiqata cəlb edilmişdir. Tədqiqat zamanı qəzetin 40 ilə yaxın bir dövrü arxiv sənədləri əsasında təhlil olunur. Tədqiqat zamanı qəzetin regional mətbuat tarixindəki yeri nəzərdən keçirilir, oradakı nümunələr vasitəsilə dövrün sosial-məişət problemləri, nöqsanları və əmək intizamsızlığı kimi məsələlər, eləcə də onlara qarşı aparılan mübarizə üsulları analiz edilir.*

Açar sözlər: *regional mətbuat, Zaqatala, "Qırmızı bayraq" qəzeti, satira, yumor, felyeton, sosial tənqid*

Ключевые слова: *региональная пресса, Загатала, газета «Гырмызы байраг», сатира, юмор, фельетон, социальная критика*

Keywords: regional press, Zagatala, "Girmizi Bayrag" newspaper, satire, humor, feuilleton, social criticism

Giriş

Azərbaycanın regional mətbuat tarixinin müxtəlif yönlərdən öyrənilməsində mühüm əhəmiyyət kəsb edən mətbuat orqanlarından biri də əsası 1923-cü ildə "Zaqatala kəndçisi" adı ilə qoyulan, bir əsrdən çox fəaliyyət göstərən və bu gün də "Zaqatala"adı ilə fəaliyyətini davam etdirəm eyniadlı regional qəzetdir. *"Ötən əsrin iyirminci illərində bölgələrdə qəzet hazırlayıb buraxmaq çox çətin iş sayılırdı. Əvvəla, ixtisaslı kadrlar yox idi, ikincisi, 2 səhifədən ibarət və əski əlifba ilə basılan nəşri hərf-hərf yığmaq, əllə çap eləmək lazım gəlirdi. İlk redaktoru Zəkəriyyə Balaxlinski olsa da, qəzetin ərsəyə gəlməsində 1920-30-cu illərdə Zaqatala qəza və inqilab komitələrində birinci şəxs sayılan Xəlil Ağamirovun (O, əvvəllər "Kaspi"də mürəttib işlədiyindən qəzet işini yaxşı bilirdi) xidmətləri danılmazdır"*[5]. Sözügedən mətbu orqanının təşəkkül və ilkin formalaşma mərhələsi regional publisistikanın inkişafını izləmək baxımından mühüm elmi maraq kəsb edir. Qəzetin fəaliyyət göstərdiyi bir əsrlik zaman kəsiyində keçdiyi tarixi-təkamül yolu təkcə texniki çətinliklərlə deyil, həm də dövrün ideoloji və siyasi vəziyyətə uyğun reallaşan struktur dəyişiklikləri ilə xarakterizə olunur. Bu baxımdan, mətbu orqanın daşıdığı adların xronoloji ardıcıllığı regionun sovetləşmə və sonrakı inkişaf mərhələlərinin rəsmi dövlət siyasətini bilavasitə özündə əks etdirir. *"Qəzet 1923-1962-ci illərdə "Zaqatala kəndçisi", "Kolxozun səsi", "Kolxoza doğru", "Bolşevik kolxozu uğrunda", 1962-1991-ci illərdə "Qırmızı bayraq" və nəhayət 1991-ci ilin sonundan isə "Zaqatala" adları altında fəaliyyət göstərib. Qəzet fəaliyyət göstərdiyi 100 il ərzində 4 dəfə əlifba, 3 dəfə isə çap texnologiyalarının dəyişikliyi zamanı meydana gələn çətinlikləri*

DOI:10.30546/gdu.5.2026

yaşamalı olub" [6]. Buna baxmayaraq, qeyd olunan dəyişikliklər qəzetin fəaliyyətini zəiflətməmiş, əksinə regional ictimai şüurun formalaşmasında onun tənqidi və publisistik kəsərini artırmışdır. Çünki milli mətbuat və ictimai fikir tarixində satira və gülüş mədəniyyəti hər zaman cəmiyyəti islah etməyin, sosial nöqsanları aradan qaldırmağın və maarifçilik ideyalarını xalqa çatdırmağın ən kəsərli bədii-fəlsəfi metodu olmuşdur. Xüsusilə dövri mətbuat orqanları fəaliyyət göstərdikləri zaman çərçivəsində sadəcə xəbər daşıyıcısı deyil, həm də kütləvi təfəkkürün, xalq yumorunun və sətiraltı sosial tənqidin əsas tribunası rolunda çıxış etmişlər. Bu xüsusiyyət mərkəzi nəşrlərlə yanaşı, yerli mühitin nəbzini tutan, bölgələrin etnoqrafik, sosioloji və dil xüsusiyyətlərini bilavasitə özündə cəmləşdirən regional mətbuat tariximiz üçün də xarakterikdir. Regional mətbuatın bu cür geniş fəaliyyət kontekstini və satira kəsərini araşdırmaq üçün XX əsrin ikinci yarısının regional nəşrləri zəngin və fundamental elmi baza təşkil edir.

Milli mətbuat tariximizin inkişaf mənzərəsini araşdıran mətbuat tarixçisi Akif Aşırlı göstərir ki, jurnalistikamızın ilkin təşəkkül dövrlərindən başlayaraq maarifçilik ideyalarının yayılmasında və ictimai qüsurların aradan qaldırılmasında tənqidi-satirik publisistika ən kəsərli vasitə kimi çıxış etmişdir [1, s. 45]. Tədqiqatçı mövzunun əhəmiyyətini daha dərindən izah etmək məqsədilə növbəti mülahizələri irəli sürür. Müəllif qeyd edir ki, mətbuat tariximizin sovet mərhələsi (1920–1990) öz spesifik xüsusiyyətlərinə görə yerli reallıqları, iqtisadi və sosial tənqid metodlarını sənədləşdirən olduqca zəngin və mühüm bir arxiv bazasıdır [1, s.112]. Bu mənada, "Qırmızı bayraq" qəzetində formalaşan yumoristik xətt bütöv milli mətbuat tariximizin regional müstəvidə davam etdirilən peşəkar prinsiplərinin əyani göstəricisidir. Qəzet rəsmi çərçivələrdən çıxmadan cəmiyyətdəki neqativ halları islah etmək üçün yumor, satira və kinayədən effektiv şəkildə istifadə etmişdir.

Tədqiqatımızın əsas məqsədi 1962–1991-ci illərdə Zaqatalada nəşr olunmuş "Qırmızı bayraq" qəzetinin arxiv materialları əsasında regional mətbuatda çap olunan yumor nümunələrinin bədii-fəlsəfi xüsusiyyətlərini, mövzu dairəsini və sosial funksiyasını təhlil etməkdir. Bu çərçivədə qəzetin regional rəngarəngliyini, ailə-məişət satirasının kəsərini və polietnik mədəniyyətlərin mətbuata təsirini aydın görmək üçün qəzetin arxivindən götürülmüş ilk xarakterik sənədli materialın tam mətnini diqqətə çatdırırıq.

Azərbaycanın şimal-qərbində yerləşən Zaqatala rayonu tarixən özünəməxsus coğrafi və geosiyasi mövqeyi ilə yanaşı, həm də zəngin polietnik dalğası və multikultural mühiti ilə seçilmişdir. Əsrlər boyu bu regionda azərbaycanlılarla yanaşı, avarlar, saxurlar, qaraçılar və digər etnik qruplar birgə yaşamışlar. Bu cür fərqli xalqların mədəni çulğalaşması regionun həm folklor mühitinə, həm dil zənginliyinə, həm də regional düşüncə tərzinə birbaşa təsir göstərmişdir. Təbii ki, yerli cəmiyyətin bu rəngarəng ictimai-psixoloji mənzərəsi dövrün mətbuat səhifələrində, xüsusilə regional mətbuatın aparıcı mətbuat orqanı olan "Qırmızı bayraq" qəzetinin (1962–1991) yaradıcılıq xəttində də öz dolğun əksini tapmalı idi. Qəzet təkcə rəsmi dövlət ideologiyasını yayan tribuna deyil, həm də bu müxtəlif etnik qrupların məişət qayğılarını, adət-ənənələrini və regional gülüş mədəniyyətini ortaq dildə birləşdirən mühüm mədəniyyət platforması rolunu oynayırdı.

Əsas hissə

Regional mətbuatda yumorun necə əks olunmasını müəyyən etmək üçün qəzetin arxiv materiallarına diqqət yetirmək kifayətdir. Demək olar ki, yumor qəzetin bütün səhifələrində öz əksini tapır və silsilə şəklində əks olunur. Yumor nümunələri müxtəlif mövzuları əhatə edir. Eyni zamanda qəzetin müxtəlif nömrələrində xarici yumor, yerli yumor nümunələri ilə yanaşı azsaylı xalqların yumor nümunələrinə də yer verilmiş, onların dilindən yığılan yumor örnəkləri tərcümə olunaraq qəzetin müxtəlif saylarında çap olunmuşdur. Məsələn, qəzetin 1970-ci ilin mart ayında çap edilən nömrələrin birində işıq üzü görmüş "Tələbkar" ata" adlı

DOI:10.30546/gdu.5.2026

yumoristik material vardır. İslam Bullayev tərəfindən avarcadan tərcümə edilən nümunə bir tərəfdən etnik qrupların ədəbi nümunələrinin tərcümə olunub qəzet səhifələrinə verilməsi baxımından maraqlıdırsa, digər tərəfdən də dövrün ailə-məişət, maarifçilik vəziyyətindəki nöqsanları göstərmək üçün diqqətəlayiqdir.

Bir gün bir şagirdin atasını məktəbə çağırıb müəllim ona oğlunun pis oxuduğunu, məktəbdə şuluqluq etdiyini dedikdə ata oğlunu müdafiə edərək deyir ki, hələ balacadır, yəqin başa düşmür, biz çalışırıq ki, ona yaxşı baxaq, tez böyüdək. Bir gün yenə müəllim evlərinə gedib atasına oğlunun oxumamasından, məktəbdə uşaqlarla savaşmasından şikayət edir, deyir ki, bu gün də bir oğlanın köynəyini cırıb.

Bunu eşidən ata:

— Bu ki, asan şeydir. Mən ona təzə köynək alıb verərəm; — deyib müəllimi arxayınlaşdırmağa çalışır. Başqa bir gün yenə oğlanın məktəbə gəlməməsinin səbəbini öyrənmək üçün ata ilə söhbət etdiyi zaman müəllim itin belinə unla dolu heybələri salıb, onu dalınca çəkə-çəkə gələn Şamxusu görür. Müəllim mat qalır.

— Heç də məəttəl qalma, müəllim. Dəyirmana göndərmişdim. Yəqin özü götürə bilməyib, itin belində gətirib, — deyərək tələbkar ata bığaltı gülümsəyir.

Bu dəfə müəllimin şikayəti Şamxusun yumurta oğurlaması üstündə idi. Ata oğluna:

— Yumurta nə şeydir ki, oğurlayırsan. Oğurlamasan da almağa imkanımız yoxdurmu? — deyib ona 10 manat pul verir.

Ata ilə müəllim arasında axırıncı söhbət milis şöbəsində oldu. Məktəbli xuliqanlıq, oğurluq və sairə üstündə təqsirləndirilirdi. Ata müstəntiqə: — Mənim təqsirim nədir? Mən uşağa müəllim mənə öyrətdiyi kimi tərbiyə vermişəm. Müəllimlər tərbiyə verə bilməyiblər, — deyir.

— Elə atanın verdiyi tərbiyədənsə, evdə uşaqlara tərbiyə verməmək daha yaxşı olar, — deyib müəllim müstəntiqdən atanı dindirməməyi xahiş edir. Bu zaman ata yerindən qalxıb dodaqaltı nə isə deyərək, oğlunun üstünə cımxırır. Amma onu eşidən olmur [2, s.4].

Mətnin süjet xəttində yerli mühitə xas olan "Şamxus" obrazı üzərindən cəmiyyətdəki kor-koranə valideyn sevgisi, uşağın nöqsanlarına (məktəbdən qaçmaq, oğurluq etmək) göz yumulması kəskin ironiya ilə tənqid olunur. Uşağın dərsə getmək əvəzinə un heybəsini itin belinə bağlayıb dəyirmandan gəlməsi və atanın buna "bığaltı gülümsəmə" ilə bəraət qazandırması məişət səviyyəsindəki cəhalətin ifşasıdır. Bu cür hekayələr regional mətbuatın təkcə əyləncə deyil, həm də etnik köklərə dayanan ciddi bir maarifçilik və sosial tənqid funksiyası daşıdığını göstərir.

"Qırmızı bayraq" qəzetinin səhifələrində yalnız regional satira deyil, eyni zamanda dünya gülüş mədəniyyətinin ən maraqlı nümunələri də oxuculara təqdim olunurdu. Qəzetdə mütəmadi olaraq yer alan "Xarici yumor" guşəsi rayon ziyalılarının və oxucularının dünya mətbuatı, xarici ədəbiyyat və qlobal satira tendensiyaları ilə tanış olmasında mühüm maarifçilik missiyası daşımışdır. Belə ki, qəzet səhifələrində Rusiyanın və digər məşhur satirik mətbuat orqanlarından edilən tərcümələr də yer alır. Məsələn, qəzetin 1970-ci il nömrəsində verilən "Krokodil" jurnalından tərcümə edilmiş nümunəni nəzərdən keçirək:

Bir kişi oğlunun əlində şərab şüşəsini gördükdə dedi:

— Bu nədir?

— Bu süddür.

— Süd ağ olar, bu ki qırmızıdır?

— Bu ağ idi, ata, səni görən kimi xəcalətdən qızardı [3].

Gördüyümüz kimi məqalədə ironik və estetik dildən qabarıq şəkildə istifadə olunmuşdur. Yumorun əsas ideyası yalanın və absurd bəhanələrin satira vasitəsilə ifşasıdır. Mətn həm gənclərin zərərli vərdişləri, valideyin-övlad münasibətlərindəki dürüstlük

DOI:10.30546/gdu.5.2026

problemini, həm dəinsanın günahını gizlətmək üçün uydurduğu bəhanələrin nə qədər gülünc və məntiqsiz olduğunu göstərir.

"Qırmızı bayraq" qəzetinin 1970-ci il nömrəsində "Krokodil" jurnalından tərcümə edilən yumoristik miniatür, regional mətbuatın ittifaq səviyyəli satira ənənələrinə inteqrasiyasını və ictimai problemləri incə ironiya ilə işıqlandırmasını nümayiş etdirir. "Xarici yumor" guşəsi, regional mətbuatın bədii-estetik səviyyəsini yüksəldən əsas sütun kimi qiymətləndirilir.

"Qırmızı bayraq" qəzetinin satira və yumor strategiyasında xarici mətbuatdan edilən tərcümələrlə yanaşı, regional şifahi xalq ədəbiyyatı və dialekt mühitindən süzülüb gələn yerli lətifə nümunələri də özünəməxsus yer tutur. Həcm etibarilə qəzet səhifələrində nisbətən az sahəni əhatə etsə də, yerli lətifələr bölgə əhalisinin yumoristik təfəkküründü və mental xüsusiyyətlərini öyrənmək baxımından dəyərlidir. Məsələn, qəzetin 1977-ci il nömrələrində "Əmoğlu lətifələri" başlığı altında: "Bax, bunu bilmirdim", "Qapançı sağ olsun", "Yağmasan da guruldayırsan" kimi nümunələr bu qəbildəndir. Bunlardan birini nəzərdən keçirək:

Süd azalır?!

Kolxozun zootexniki sədrə:

— Sədr qaqa, son 10 gündə hər baş ana maldan 20 kiloqram süd azalıb.

— Süd azalıb?! Azalar da, ay bala, baxmırsınız, nəzarət etmirsiniz...

— Sədr qaqa, vallah baxırıq, elə səhərdən axşama qədər fermalarda oluruq, çay-çörəyimiz də elə oradandır...

— Odur da, çay-çörəyimiz deyəndə onu evdən gətirmisiniz ki?! Südü içirsiniz, ona görə azalıb da...

— Yox, sədr qaqa, ondan deyil, deməyə də çəkinirəm, hər iki fermada artezian suyu quruyub.

— Hə...?! Bildim... bildim... bu günlərdə artezian məsələsini həll edərik [4].

Mətndə təhlil edilən lətifənin süjet xətti sovet idarəçilik sisteminin institusional və mənəvi deqradasiyasını bədii şəkildə ifşa edir. Tədqiq olunan materialda plan doldurmaq naminə aparılan saxta statistika, real süd istehsalının süni şəkildə artırılması üçün məhsula artezian suyunun qatılması faktı fonunda bütöv bir dövlət aparatının hesabat xarakterli yalanlar üzərində qurulduğu göstərilir. Sədr və zootexnik arasındakı tabeçilik münasibətləri, struktur islahatları aparmaq əvəzinə saxtakarlığın davamlılığını təmin etməyə yönəlmiş gizli bürokratik sövdələşməyə əsaslanır. Eyni zamanda, rəhbərliyin tabeçiliyində olan instinktiv şübhəsi və işçilərin dövlət mülkiyyətinə yad münasibəti sovet cəmiyyətindəki mənəvi aşınmanı və qeyri-rəsmi qohumbazlıq (məsələn, "sədr qaqa" müraciəti) əlaqələrini üzə çıxarır. Nəticə etibarilə, artezian quyusunun quruması süni və qeyri-şəffaf sistemlərin təbiət qanunları qarşısında acizliyini simvolizə edərək, hər bir saxta strukturun gec-tez obyektiv reallıq tərəfindən iflasa məhkum edildiyi fəlsəfi ideyasını ortaya qoyur.

Nəticə:

"Qırmızı bayraq" qəzetinin 1960-1990-cı illərə aid arxiv materiallarının tədqiqi göstərir ki, qəzetin səhifələrində beynəlxalq və regional miqyaslı xarici yumor nümunələri kəmiyyət baxımından üstünlük təşkil edir. Bunun əksinə olaraq, regionun spesifik folklor mühitini əks etdirən yerli lətifə nümunələri mətbu orqanın səhifələrində olduqca azdır və bu istiqamət minimal xarakter daşıyır. Bununla belə, Zaqatala bölgəsinin etnik-demoqrafik baxımdan qarışıq və zəngin əhali strukturuna malik olması qəzetin yaradıcılıq mühitinə birbaşa təsir göstərmişdir. Belə ki, mətbu orqanda regionda məskunlaşan azsaylı xalqların şifahi xalq ədəbiyyatı və yumoristik təfəkküründən edilən sistemli tərcümə materialları mühüm yer tutur və bu da regional mətbuatda multikultural dialoqun formalaşması kontekstində mühüm elmi əhəmiyyət kəsb edir.

DOI:10.30546/gdu.5.2026

Ədəbiyyat

1. Aşırlı A. Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı: Elm və təhsil, 2009, 172 s.
2. Tələbkar ata // "Qırmızı bayraq" qəzeti. - 1970. – 7mart. № 25. – s.4. Avar dilindən tərcümə edəni Bullayev İ.
3. Xarici yumor // "Qırmızı bayraq" qəzeti. 1970. – 12 sentyabr. Krokodil jurnalından tərcümə.
4. Ə.Süleymanov. Əmoğlunun lətifələri // "Qırmızı bayraq" qəzeti 1977. – 25 iyun.
5. https://525.az/news/247813-100-yasli-zaqatala-qezeti
6. https://bizim.media/az/cemiyyet/170335/bir-esr-yasi-olan-blge-qezetinin-yubileyi-qeyd-edildi-foto/

ТРАДИЦИИ САТИРЫ В МЕСТНОЙ ПРЕССЕ: ЮМОР И КРИТИКА В ЗАГАТАЛЬСКОЙ ГАЗЕТЕ «ГЫРМЫЗЫ БАЙРАГ» (1962–1991)

Мамедова Тарана Яшар, Мамедова Айнур Вугар

Резюме

В статье исследуются юмористические и сатирические материалы, а также анекдоты, опубликованные на страницах регионального печатного органа — газеты «Гырмызы байраг» (1962–2000) Закатальского района, являющегося одним из богатых историко-культурных и полиэтнических центров Северо-Западного региона Азербайджана. В ходе исследования на основе архивных документов анализируется почти 40-летний период деятельности газеты. В работе рассматривается место издания в истории региональной прессы, а на основе представленных образцов анализируются такие вопросы, как социально-бытовые проблемы, недостатки и нарушения трудовой дисциплины того периода, а также методы борьбы с ними.

SATIRE TRADITIONS IN THE LOCAL PRESS: HUMOR AND CRITICISM IN ZAGATALA'S "GIRMIZI BAYRAG" NEWSPAPER (1962–1991)

Mammadova Tarana Yashar, Mammadova Aynur Vugar

Summary

The article examines the humorous and satirical materials, as well as anecdotes, published in the pages of the regional press organ "Girmizi bayrag" (1962–2000) of Zagatala district, which is one of the rich historical, cultural, and polyethnic centers of the North-Western region of Azerbaijan. Throughout the study, a period of nearly 40 years of the newspaper is analyzed based on archive documents. The research reviews the role of the newspaper in the history of the regional press, analyzing issues such as social and domestic problems, shortcomings, and labor indiscipline of the period, as well as the methods of combating them through the lens of these examples.

Rəyçi: ***filologiya üzrə fəlsəfə doktoru İradə Əlibala qızı Yusifova***
Daxil olma tarixi 25 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:811.111.

THE IMPORTANCE OF GAMIFICATION IN TEACHING ENGLISH AS A SECOND LANGUAGE

Mammadova Turana Guloghlan
Azerbaijan Technological University
Orcid number: 0009-0003-8173-8225
t.memmedova@atu.edu.az

Annatasion: *The article examines the role of* ***gamification and innovative technologies in foreign language teaching,*** *emphasizing their potential to increase students' motivation, engagement, creativity, and active participation. Gamification incorporates elements such as* ***narrative, challenges, progression, points, competition, rewards, and immediate feedback*** *into learning activities. Digital platforms such as* ***Padlet, Kahoot, Quizizz, and Wordwall*** *can support interactive and collaborative learning. The experience showed that gamification is most effective when activities have clear* ***pedagogical objectives****, are appropriate to students' language level, and include reflection and feedback. Overall, the article argues that gamification should not be viewed simply as entertainment. Rather, it can function as a* ***purposeful lesson-design strategy*** *that makes language learning more dynamic, interactive, meaningful, and engaging.*

Key words: game-based learning, digital learning, educational technology, interactive learning, learner engagement, immediate feedback.

Açar sözlər: oyun əsaslı öyrənmə, rəqəmsal öyrənmə, təhsil texnologiyası, interaktiv təlim, öyrənənin cəlbi, anında verilmiş əks-əlaqə

Ключевые слова: обучение на основе игр, цифровое обучение, образовательные технологии, интерактивное обучение, вовлеченность учащихся, мгновенная обратная связь.

The main goal of teaching foreign languages is to form and develop communicative competence in students in that language. Nowadays, lecturers of higher institutions face not only the formation of students' scientific knowledge, but also the development of their individual thinking abilities and intercultural worldviews.

Innovative technologies play a very important role in modern society and modern education. Scientific innovative technologies are becoming one of the main *aspects* of language teaching. Our main goal is to clearly demonstrate the application of information and communication technologies and multimedia in language teaching.

The concept of gamification is increasingly emerging among modern teaching methods. This approach makes learning both interesting and motivating by incorporating game elements into the learning process—mechanisms such as scoring, leveling up, competition, and reward systems.

The Essence of Gamification

Gamification is not just about playing games; it is about bringing game logic and emotional motivation to learning. Students actively participate in the lesson with this method, because each task becomes a "mission" and each correct answer becomes a "success." Studies show that game elements:

- increase intrinsic motivation (students enjoy learning),
- strengthen the spirit of competition,
- reduce the fear of making mistakes,
- form the habit of continuous learning.

DOI:10.30546/gdu.5.2026

For example, platforms such as "Kahoot", "Quizizz", and "Classcraft" transform the lesson into a gaming environment, turning students into active participants.

Educational Benefits of Gamification:

1. Increasing attention: game-like tasks reduce monotony.
2. Cooperation and teamwork: group games develop social skills.
3. Self-confidence: the student experiences a sense of achievement as he passes each stage.
4. Personalized learning: game systems can set the level of difficulty according to the level of the learner.

Gamification makes teaching more dynamic, interactive and emotionally engaging. This method is a powerful tool to increase the level of interest and participation in learning, especially among the younger generation. It is a step-in line with the learning culture of the 21st century that educational institutions integrate game elements more into the learning process.

Educational technologies, gamification and creativity

Gamification in education refers to the application of game elements (e.g., points system, leaderboards, storylines) to non-game contexts. Research shows that incorporating game elements into a lesson increases student motivation, interest in the lesson, and a sense of achievement. It is not just entertainment, but a purposeful approach to tests and assignments. For example, game elements create clear goals, immediate feedback, and a sense of progress. It is on this basis that students feel more motivated and play an active role in the lesson. Thus, gamification is a learning design tool based on psychological principles and allows education to move beyond a purely “formal” level to a purposeful, interactive form.

The most important components of gamification are the elements of narrative, challenge, progression, and feedback:

* Narrative: When lesson tasks are presented in the context of an interesting story, students are given an additional purpose for learning. Researchers note that when a game scenario is added to lessons, students' motivation increases and they become more interested in the activities. The story makes the lesson material more meaningful and gives the student a sense of purpose. As a result, they are more enthusiastic about learning.

* Challenge: In games, tasks are usually structured as interesting and difficult tests. When this approach is applied in the classroom - for example, when “room of secrets” or “labyrinth” type tasks are given - students do not just read the topic, they try to solve it. They think, look for ways and are more involved in the process. Such challenges create a sense of “I have to do it” in students and increase their desire to learn. As a result, the ability to solve problems in stages is formed, as well as responsibility and sustainability are developed.

* Progression: As in games, learning objectives set at the beginning of the lesson are divided into different stages. At the completion of each stage, students are awarded a victory, points, or badge. This shows them a roadmap for learning and creates a sense of progression. For example, a teacher can divide the lesson into 3-4 levels, linking the level transition to the accumulation of certain points. With such stages, students feel happy with each small success and enthusiastically move on to the next task.

* Feedback: In a gamified lesson, students are immediately evaluated when they complete a task, earn points for their answers, and have the opportunity to correct any mistakes. This real-time feedback enhances the learning process, unlike traditional exams. For example, on platforms like “Kahoot!” or “Quizizz,” points are calculated after each question is answered and mistakes are immediately displayed, giving the student a second chance to explain and correct the mistake. This way, the student can immediately see their weaknesses

DOI:10.30546/gdu.5.2026

and improve. Studies also show that immediate feedback has a significant impact on student learning.

Modern technology creates ample opportunities for implementing these game elements in the classroom. Platforms such as “Padlet”, “Kahoot”, “Quizizz” and “Wordwall” help teachers design lessons more interactively. Through the Padlet platform, teachers and students can post text, images, videos, etc., and share their ideas. Padlet enables real-time collaboration and facilitates group discussions. Through the “Kahoot” and “Quizizz” platforms, teachers may prepare questions, and students collect points by answering them online. Points are awarded for each correct answer, and competition is created in the classroom through a live leaderboard. For example, by setting up a “Kahoot” game in an English lesson, students earn points for speed and accuracy, and see their place on a leaderboard. Such quizzes make the lesson fun and assessment less stressful. The “Wordwall” platform creates mini-games in various formats (riddles, matching, surveys, etc.). Teachers can use templates to repeat the topic in the form of a game.

Gamification is increasingly being used in higher education. However, this approach is often understood only as a motivational tool and the profound pedagogical opportunities it creates in teacher training are not sufficiently appreciated. A lesson-based experiment shows that gamification can be a powerful pedagogical strategy for developing future teachers' lesson design, decision-making, and reflection skills.

In the lessons, I did not explain gamification as a mere theoretical topic; I made it come alive to the students by building it on a real lesson scenario. The basis of this scenario was a story created in advance by artificial intelligence. Before the lesson, I gave the artificial intelligence a special prompt and had it prepare the following text: like humans, animals also go to school, they also have classes, teachers, and educational institutions. My goal was to create an unusual gamification context for the students, but one that was appropriate for the lesson environment.

The AI-generated text was interesting, but it was a bit linguistically difficult. I deliberately presented this text as the first version in class. My goal was to show students one of the main problems they might encounter in gamification in real-world settings—how a narrative that is not level-appropriate can undermine engagement and motivation in class. The students were somewhat confused when reading the text, which clearly demonstrated how critical a narrative is in gamification.

I then presented a version of the same story that I had simplified and adapted to the students’ language level. The plot remained the same, but the language and instructions were clearer. The students immediately noticed the difference. If I had simply told them theoretically that “the narrative should be clear,” it would have remained abstract. Therefore, I deliberately presented them with a difficult text so that they could experience the problems that arose in the first stage of gamification (i.e., difficulty in understanding the text, not understanding the logic of the story, and weakening motivation). When the story was understood, the gamification process came to life. Thus, they learned the role of narrative in gamification not as a theory, but as a real teaching experience.

After the students understood the logic and context of the story in the narrative stage, we moved on to the second main component of gamification - the challenging task stage. Our main tool at this stage was the “Padlet” platform. The beginning of the story was already posted on the discussion board I had created on Padlet. Then I specifically asked the students to complete such an assignment. Each of them had to think of a sentence or two and continue the story in a coherent way. But this was not a simple writing assignment. I gave the students the following role: each of them had to speak for an animal in the story and write from its

DOI:10.30546/gdu.5.2026

point of view. They also had to change their names on Padlet. Moreover, the sentences had to be funny and creative, but at the same time they had to not break the logic of the story. I asked the students to continue the story with just one sentence each, but to follow three conditions:

1. Maintain logical coherence with the sentences written before,
2. Do not deviate from the main theme of the story,
3. Make a real contribution to the development of the plot with your own sentence.

This task was not a simple writing task for the students. Each time, they had to:

* read what was written before carefully,
* understand the situation,
* decide in which direction it would be more logical to continue,
* then write a short but appropriate sentence.

Because this process happened in real time on Padlet, students could immediately see how their decisions changed the story. If someone wrote an inconsistent or poorly-reasoned sentence, it was immediately visible to the whole group and a discussion ensued. This way, feedback was formed automatically and naturally.

My main role at this stage was to observe and intervene when necessary. I didn't simply evaluate the students' sentences as "right or wrong," but rather asked them to justify why they wrote them the way they did. This turned the gamification from a simple creative activity into an exercise in thinking and decision-making. This stage created a noticeable change in the lesson. The change was that the students were laughing, reading each other's writing, eagerly awaiting the next sentence, and watching with interest how the story would continue. But behind this fun was a serious pedagogical process: they were learning to make contextual decisions, construct meaning within the text, and maintain collective logic. Thus, this activity, built on "Padlet," was both motivating and served the main goal of gamification - active and meaningful learning.

After the story-based gamification phase on Padlet, a second gamification line was opened in the lesson. In this phase, I engaged students in more structured activities on the platforms Kahoot, Quizizz, and Wordwall. My goal was not to just play games, but to use these tools to design lessons as teachers. I divided students into small groups and asked each group to create a gamified task on a specific topic. For example, one group created a Kahoot quiz for English grammar, another group created a Quizizz test on reading comprehension, and a third group designed matching and gap-filling tasks on Wordwall. In this process, students didn't just write questions. I asked them to explain the pedagogical logic behind each task: what concept was being measured, where the student might make mistakes, and how the teacher should interpret the results after the game was over. The games were played in groups during class. This immediately showed which designs made students think more, and which ones simply became a speed race. The discussion of the results highlighted the pedagogical, not the technical, aspect of gamification. Thus, "Kahoot," "Quizizz," and "Wordwall" became more than just digital tools in the classroom; they became laboratories where future teachers tested their lesson design skills. As the lesson progressed, I could see that the main difficulty for students - teachers of the future - is not to use the tool, but to justify it with the purpose of teaching. I have identified several difficulties here. The first difficulty was that there was a tool, but no pedagogical goal. When students were asked to create a gamified task on Quizizz or Blueket, most created a quiz and a game. But when I ask them, "what thinking skills does this activity measure?", "why were these questions chosen?", "how will the results affect the course of the lesson?" - most of them could not answer. In the classroom, it looked like this: the game ends, the points come out, but there is no emphasis on learning. At this point, it became clear that gamification was understood as a technical function rather than a learning

DOI:10.30546/gdu.5.2026

strategy for students. The second difficulty was that the speed suppressed thinking. Especially when using “Blooket” and “GimKit”, students answered the question without reading it completely, focused more on scoring points than on the correct answer, and did not want to analyze their mistakes. I could see this immediately, because after the game, when I asked “why did you answer that way?”, I did not receive any explanatory answers. I should note that I discovered these difficulties in three ways. First, the lack of pedagogical logic in the tasks prepared by the students, then the superficial reflection and discussion after the games, and finally, the lack of justification of decisions helped me to discover the difficulties. So, I saw that students were building games, but not designing lessons. After that point, I changed my approach in lessons. First, before each gamified activity, I required students to respond in writing: what does this activity teach, what thinking skills does it develop? Second, I included a mandatory reflection phase after the game. We discussed not the scores, but these things: which questions were difficult, what does this show, how to restructure the lesson. Third, I linked gamification not as a single activity, but in a chain of staged tasks: first the problem, then the game, then the analysis, then the decision.

Finally, I can say that gamification is not just a means of entertainment in education, but also a purposeful lesson design. Game elements - story, challenges, phasing and immediate feedback - allow the teacher to structure the lesson in innovative ways. Studies show that gamification, when properly implemented, improves student interest in the lesson, engagement and learning outcomes. For example, the use of point systems, leaderboards and digital badges instills a sense of achievement in students and motivates them to continue learning. In addition, tools such as “Padlet”, “Kahoot”, “Quizizz” and “Wordwall” facilitate the understanding of topics and strengthen competition and collaboration between students. As a result, gamification does not only make the lesson more colorful; it should be considered a powerful tool that makes learning purposeful, dynamic and effective in modern education.

References

1. Deterding, S., Dixon, D., Khaled, R., & Nacke, L. (2011). *From game design elements to gamefulness: Defining gamification*. Proceedings of the 15th International Academic MindTrek Conference, 9–15.
2. Hamari, J., Koivisto, J., & Sarsa, H. (2014). *Does gamification work? A literature review of empirical studies on gamification*. Proceedings of the 47th Hawaii International Conference on System Sciences, 3025–3034.
3. Kapp, K. M. (2012). *The Gamification of Learning and Instruction*. Pfeiffer.
4. Zichermann, G., & Cunningham, C. (2011). *Gamification by Design*. O'Reilly Media.
5. Deci, E. L., & Ryan, R. M. (2000). *The "What" and "Why" of Goal Pursuits: Human Needs and the Self-Determination of Behavior*. Psychological Inquiry, 11(4), 227–268.
6. Csikszentmihalyi, M. (1990). *Flow: The Psychology of Optimal Experience*. Harper & Row.
7. Gee, J. P. (2007). *What Video Games Have to Teach Us About Learning and Literacy* (2nd ed.). Palgrave Macmillan.
8. Prensky, M. (2001). *Digital Game-Based Learning*. McGraw-Hill.
9. Dichev, C., & Dicheva, D. (2017). *Gamifying Education: What Is Known, What Is Believed and What Remains Uncertain*. International Journal of Educational Technology in Higher Education, 14(9).
10. Werbach, K., & Hunter, D. (2012). *For the Win: How Game Thinking Can Revolutionize Your Business*. Wharton Digital Press.

DOI:10.30546/gdu.5.2026

İNGİLİS DİLİNİN İKİNCİ DİL KİMİ TƏDRİSİNDƏ OYUNLAŞDIRMANIN ƏHƏMİYYƏTİ

***Məmmədova Turanə Güloğlan* qızı**

Xülasə

Məqalədə oyunlaşdırma və innovativ texnologiyaların xarici dil tədrisindəki rolu araşdırılır, onların tələbələrin motivasiyasını, cəlb olunmasını, yaradıcılığını və aktiv iştirakını artırmaq potensialı vurğulanır. Oyunlaşdırma təlim fəaliyyətlərinə hekayə, çətinliklər, irəliləyiş, xallar, rəqabət, mükafatlar və ani rəy kimi elementləri daxil edir. Padlet, Kahoot, Quizizz və Wordwall kimi rəqəmsal platformalar interaktiv və əməkdaşlıq təlimini dəstəkləyə bilər. Təcrübə göstərdi ki, oyunlaşdırma fəaliyyətlərin aydın pedaqoji məqsədləri olduqda, tələbələrin dil səviyyəsinə uyğun olduqda və əks olunma və rəy daxil olduqda ən təsirli olur. Ümumilikdə, məqalədə oyunlaşdırmanın sadəcə əyləncə kimi qəbul edilməməli olduğu iddia edilir. Əksinə, o, dil öyrənməsini daha dinamik, interaktiv, mənalı və cəlbedici edən məqsədyönlü dərs dizaynı strategiyası kimi fəaliyyət göstərə bilər.

ЗНАЧЕНИЕ ГЕЙМИФИКАЦИИ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА КАК ВТОРОГО

Мамедова Турана Гюльоглан кызы

Резюме

В статье рассматривается роль геймификации и инновационных технологий в преподавании иностранных языков; особое внимание уделяется их потенциалу в повышении мотивации, вовлеченности и творческой активности учащихся, а также стимулировании их непосредственного участия в учебном процессе. Геймификация предполагает включение в занятия таких элементов, как сюжетная линия, игровые задания, система прогресса, начисление баллов, соревновательный аспект, система поощрений и оперативная обратная связь. Цифровые платформы, такие как Padlet, Kahoot, Quizizz и Wordwall, способствуют организации интерактивного обучения и совместной работы. Практический опыт показывает, что геймификация наиболее эффективна, когда учебные задания имеют четкие педагогические цели, соответствуют языковому уровню учащихся, а также предусматривают этапы рефлексии и получения обратной связи. В целом, авторы статьи утверждают, что геймификацию не следует рассматривать исключительно как развлечение; она может служить целенаправленной стратегией проектирования уроков, делающей процесс изучения языка более динамичным, интерактивным, осмысленным и увлекательным.

Rəyçi: ATU Yeganə Məmməd qızı İsmayılova
Daxil olma tarixi 29 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT-811.512.162

«DURÛB-I ƏMSÂL»DA ƏSASINDA «TANRI» KONSEPTİNİN ATALAR SÖZÜ MÜSTƏVİSİNDƏ TƏHLİLİ

(Süleymaniyyə kitabxanası materialları əsasında)

Mustafayeva Günəş Novruz qızı
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
ORCİD: 0000-0002-3729-0932
iltifatly@gmail.com

Xülasə: *Bu tədqiqatda «Durûb-ı Əmsâl» adlı atalar sözləri toplusu araşdırılmışdır. Əsərdə yer alan atalar sözləri, deyimlər, alqış və qarğış ifadələri təhlil edilərək onların dil xüsusiyyətləri və müasir Türkiyə türkcəsindəki qarşılıqları müəyyənləşdirilmişdir. Araşdırma nəticəsində məlum olmuşdur ki, bəzi atalar sözləri zamanla dəyişmədən günümüzə gəlib çatmış, bəziləri isə leksik və sintaktik dəyişikliklərə məruz qalmışdır. Eyni zamanda müəyyən sayda atalar sözünün artıq müasir istifadədən çıxdığı müşahidə edilmişdir. Tədqiqat zamanı bəzi nümunələrin klassik mənbələrdə qeydə alınmadığı da aşkar edilmişdir.*

Açar sözlər: atalar sözləri, Durûb-ı Əmsâl, paremiologiya, deyimlər, alqış və qarğışlar
Ключевые слова: пословицы, Durûb-ı Emsâl, паремиология, фразеологизмы, благопожелания и проклятия
Keywords: proverbs, Durûb-ı Emsâl, paremiology, idiomatic expressions, blessings and curses

Giriş

Atalar sözləri kimin tərəfindən, nə vaxt və harada deyildiyi məlum olmayan, uzun zaman ərzində xalqın ümumi məhsuluna çevrilmiş qısa və yığcam ifadəli formul ifadələrdir. Dilin lüğət tərkibində atalar sözləri mühüm yer tutur. Gündəlik həyatda insanlara nəsihət verməklə yanaşı, sözün qüdrətini və dəyərini artırmaq, irəli sürülən fikir və ya mülahizələri dəstəkləmək üçün atalar sözləri tez-tez istifadə olunur. Cəmiyyət tərəfindən mənimsənilən və şifahi mədəniyyətdə nəsildən-nəslə ötürülən atalar sözləri müxtəlif dövrlərdə yazıya alınmışdır. Müxtəlif dillərdə atalar sözləri şəraitə uyğun olaraq toplular vasitəsilə qeydə alınmışdır.

Atalar sözlərinin toplanaraq qeyd edildiyi əsərlərin bir çoxu müəyyən edilmiş və elmi ictimaiyyətə təqdim olunmuşdur. Bununla yanaşı, bu günədək heç bir tədqiqata mövzu olmamış, naməlum atalar sözləri toplusuna da rast gəlinir. Belə toplulardan biri də müəllifi məlum olmayan və XVI əsrdə qələmə alındığı ehtimal edilən əsərdir. Bu əsər Süleymaniyyə Kitabxanası Tərcümə Kolleksiyasında 00432 nömrəsi ilə qeyd olunmuşdur. Bu əsərdə «Durûb-ı Əmsâl» başlığı altında atalar sözləri qeyd olunmuşdur. (Qeyd etmək lazımdır ki, «durûb-ı əmsâl» osmanlı-türk mənşəli bir ifadədir və atalar sözləri toplusu, məsəllər məcmuəsi kimi tərcümə olunur. Yəni, bu termin klassik osmanlı ədəbiyyatında atalar sözlərinin tematik və ya qarışıq şəkildə toplandığı mənbələri ifadə edir.) Burada 446 paremioloji vahid qeyd olunmuşdur *[4, s.283]*. Belə ki, təkrar edilən 2 atalar sözü, eləcə də atalar sözü xüsusiyyəti daşımayan ifadələr (16 deyim, 5 qarğış, 1 alqış, 1 ərəb mənşəli hikmətli söz) və tam oxuna bilməyən iki söz nəzərə alınmazsa, əsərdə ümumilikdə 420 atalar sözünün qeydə alındığını demək mümkündür *[4, s.314]*. Atalar sözləri 6-15-ci səhifələr arasındadır.

Verilmiş atalar sözləri mövzu baxımından rəngarəngdir. Mövzulardan biri inam, etiqad, tanrı və Allahla bağlıdır. Mövzuya uyğun atalar sözləri aşağıdakılardır:

DOI:10.30546/gdu.5.2026

Davicin kadı olıcak yarıcun Allah olsun/ İddiaçın hakim olarsa, köməkçin Allah olsun [4, s.284]. Bu paremioloji vahiddə işlənmiş «kadı» sözü «hakim», «qazi» mənalarını bildirir. Bu atalar sözü ədalətin həmişə qərəzsiz olması lazım olduğunu göstərir, lakin bəzən onu eqoist məqsədlər üçün manipulyasiya etmək olar. Atalar sözü bir bənzətmədən istifadə edərək göstərir ki, işin qanuniliyindən asılı olmayaraq, iddiaçı hakim olduqda ədalətə nail olmaq çətinləşir, belə bir vəziyyətdə yeganə çıxış yolu ilahi ədalətə sığınmaqdır. Qeyd etmək lazımdır ki, verilmiş bu atalar sözünə biz «Oğuznamə» əsərində də rast gəlirik. Sadəcə abidənin dilində «adı» sözü əvəzinə «danişməd» sözü işlənmişdir: *Davacın danişməd isə, yarıcın Allah olsun [1, s. 118].* Verilmiş atalar sözü, həmçinin A.Marağayinin «Əmsali-Türkanə» əsərində də qeyd olunmuşdur. Sadəcə burada «danişməd» sözü əvəzinə «qazi» sözü işlənmişdir [1, s. 470].

Kul kulluğın anda bilür ki kendü didügi olmaya/ Qulun dediyi olmaz, Allahın dediyi olar [4, s.285]. Verilmiş atalar sözü müasir Azərbaycan dilində hələ də işləkliyini qoruyan «Qulun dediyi olmaz, tanrının dediyi olur» atalar sözü ilə səsləşir.

Toğrı gelen konuk tanrı kazasından artukdur/ Doğru (xəbərsiz) gələn qonaq tanrı qəzasından betərdir [4, s.286]. Verilmiş atalar sözləri ilə eyni mənada olmasa da, Azərbaycan dilində oxşar məzmunlu atalar sözləri mövcuddur: *1. Dəvətsiz gələn qonağı köpək qarşılar. 2.Dəvətsiz qonaq quru yerdə oturar.*

Tavuk suyı içer, göge bakar/ Toyuq su içər, göyə baxar [4, s.289]. Verilmiş atalar sözü abidənin dilində işlənsə də, müasir Türkiyə türkcəsində də öz aktuallığını qoruyub saxlamışdır. Bu atalar sözü türk mədəniyyətində dərin məna daşıyan və çox vaxt minnət, şükür, həmd məfhumları ilə bağlıdır. Bu dil vahidi təkcə fiziki hərəkəti deyil, həm də mənəvi mövqeyi ifadə edir. Su içdikdən sonra toyuq göyə baxır, əslində bu neməti verən uca varlığa, yəni Allaha şükrünü bildirir. Bu, insanın aldığı hər nemətə görə şükür etməli olduğunu vurğulayır. Atalar sözü bizə xatırladır ki, hətta kiçik görünən hərəkətlər də minnətdarlıq üçün bir fürsət ola bilər. Hər nəfəsə, hər qurtum suya, hər tikə yemək üçün şükür etməli olduğumuz fikrini çatdırır. Bu atalar sözü öyrədir ki, insan təkcə aldığı nemətləri deyil, həm də Allahın varlığını və qüdrətini tərifləməlidir. Bundan əlavə, dil vahidi sədaqət anlayışını da əhatə edir. İnsanların onlara yaxşılıq edənlərə minnətdar və sadiq olması lazım olduğunu vurğulayır. İnsanların onlara verilən nemətlərin mənbəyini unutmamalı və hər zaman şükür etməli olduqlarını izah edir. Bu atalar sözü bizə xatırladır ki, bu gün də insanlar mənəvi dəyərlərə dəyər verməli, minnətdarlıq hissini yaşatmalı, həmişə şükür etməlidirlər. Cəmiyyətimizdə tez-tez unudulan şükür hissini xatırladaraq, əlimizdəki nemətlərin qədrini bilməyin vacibliyini vurğulayır. Həmçinin insanların təbiətə və ətraf mühitə qarşı daha həssas olması, bizə verilən nemətlərin qədrini bilməli olduğumuzu xatırladır. Bir sözlə, "toyuq su içər, göyə baxar" atalar sözü tərif və şükürün vacibliyini vurğulayan, insanlara minnətdarlıq və sədaqət hisslərini xatırladan dəyərli deyimdir.

Hak Taala sağ gözi sol göze muhtac itmesün/ Allah sağ əli sol ələ möhtac etməsin [4, s.294]. Verilmiş atalar sözü müasir dilimizdə və Türkiyə türkcəsində eyni mənada işlənir.

Eşegini pekçe bağla, andan tanrıya ısmarla/ Eşşəyini möhkəm bağla sonra Allaha əmanət et (qonşunu oğru çıxarma) [4, s.300]. Bu atalar sözündə təvəkkül mövzusuna toxunulmuşdur. Təvəkkül Allaha etibar etmək deməkdir. İnsan bir vəziyyətlə bağlı nə qədər çox səy və iş göstərsə, istədiyi nəticəyə bir o qədər yaxınlaşar. Təvəkkül edən və əlindən gələni edənlər nəticəni Allahdan gözləyirlər.

Toğrulıl dost kapusı/ Doğruluq haqq (dost) qapısıdır [4, s.306]. Dürüstlüyü və vicdanlılığı ilə tanınan insan hər kəs tərəfindən dost hesab olunur. Hər kəs ona etibar edir. Və Allah onu sevir.

DOI:10.30546/gdu.5.2026

Nəticə

Aparılan tədqiqat göstərir ki, «Durûb-ı Emsâl» kimi mənbələr türk paremioloji irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu cür toplular yalnız dil tarixinin deyil, həm də xalqın düşüncə tərzinin, dünyagörüşünün və mədəni yaddaşının araşdırılmasına imkan yaradır. Tədqiqat nəticəsində atalar sözlərinin bir qisminin sabit şəkildə qorunduğu, digər qisminin isə zamanla dəyişdiyi müəyyən edilmişdir. Eyni zamanda bəzi nümunələrin müasir dövrdə istifadədən çıxması dilin dinamik inkişafının göstəricisi kimi qiymətləndirilə bilər. Bu baxımdan, «Durûb-ı Əmsâl» kimi mənbələrin sistemli şəkildə tədqiqi gələcək paremioloji və dilçilik araşdırmaları üçün geniş perspektivlər açır.

Ədəbiyyat

1. Atalar sözləri / tərt. ed. M. Yaqubqızı – Bakı: Nurlan, – 2013. – 476 s.
2. Bəydili C. Azərbaycan türk atasözləri/ C. Bəydili. – Bakı: Elm və təhsil, – 2025. – 352 s.
3. Oğuznamə. / tərt. ed. S. Əlizadə – Bakı: Şərq-Qərb, – 2006. – 216 s.
4. Parlakpınar M. Bilinmeyen eski bir Türk atasözleri derlemesi // RumeliDE Journal of Language and Literature Studies. – 2024. – 37 s.

АНАЛИЗ КОНЦЕПТА «БОГ» НА УРОВНЕ ПОСЛОВИЦ В СБОРНИКЕ «DURÛB-I EMSÂL»
(На основе материалов библиотеки Сулеймание)

Мустафаева Гюнеш Новруз кызы

Резюме

В данном исследовании рассматривается сборник пословиц под названием «Durûb-ı Emsâl». Пословицы, фразеологизмы, благопожелания и проклятия, представленные в тексте, были проанализированы с точки зрения их языковых особенностей, а также установлены их соответствия в современном турецком языке. sРезультаты исследования показывают, что часть пословиц сохранилась до наших дней без изменений, тогда как другая часть претерпела лексические и синтаксические изменения. Кроме того, выявлено, что некоторые пословицы в настоящее время вышли из употребления. Также установлено, что часть единиц, представленных в сборнике, не зафиксирована в классических источниках пословиц.

AN ANALYSIS OF THE CONCEPT OF “GOD” AT THE PROVERBIAL LEVEL IN “DURÛB-I EMSÂL”
(Based on the materials of the Süleymaniye library)

Mustafayeva Gunash Novruz

Summary

This study examines a collection of proverbs titled “Durûb-ı Emsâl.” The proverbs, idiomatic expressions, blessings, and curses included in the text were analyzed, and their equivalents in modern Turkish were identified. The findings reveal that while some proverbs have survived unchanged over time, others have undergone lexical and syntactic transformations. Additionally, certain proverbs are no longer in use today. The study also shows that some of the proverbs in the collection are not recorded in classical proverb sources.

Rəyçi: f.ü.e.d., dosent Baba Məhərrəmli
Daxil olma tarixi 02 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:811.111.

CHARACTERISTICS OF THE USE OF THE PAST SIMPLE AND THE PRESENT PERFECT TENSE FORMS IN MODERN ENGLISH

Mustafayeva Sahila Baghir
PhD in Philology, Associate Professor
Azerbaijan University of Languages
ORCID ID: https://orcid.org/0009- 0003-4184-5974
mustafayeva.sahila@gmail.com

Annatasion: *In the grammatical system of modern English, although the Past Simple and Present Perfect categories both indicate actions that took place in the past, they differ sharply from each other from a semantic and pragmatic perspective. The Past Simple tense form is used to express actions that occurred at a specific time in the past, were completed, and have no connection with the present moment. In this tense form, precisely when the action took place is particularly emphasized (using time indicators such as yesterday, in 2010, two days ago). Present Perfect, on the other hand, reflects actions and states that occurred in the past, but whose result, effect, or significance is directly linked to the present moment. The fundamental difference between these two tense forms relies not on the time of the action itself, but on its conceptual connection with the present (present relevance). While Past Simple is associated with a historically finished period of time, Present Perfect covers a time frame that is still ongoing or intersects with the present (today, this week, so far). From a linguistic standpoint, while Past Simple focuses on the event itself and the past context, Present Perfect directs attention to the result or experience of that action for the speaker at the present moment. Furthermore, using specific past time indicators (such as ago, etc.) with Present Perfect is considered contrary to the syntactic norms of the English language. In conclusion, the distinct semantic shades of both tense forms enable native speakers to properly correlate past events with the perspective of the present moment.*

Keywords: tense, form, adverb, modal word, connection, meaning
Açar sözlər: zaman, forma, zərf, modal söz, əlaqə, məna
Ключевые слова: время, форма, наречие, модальное слово, связь, значение

The formation of the Past Indefinite

The suffix*–ed* or *–d* is put to the root of the regular verbs, or by changing the root vowel, or in the irregular verbs.

The question and the negative forms are known to be made by the auxiliary verb *did* as well as without the particle *to.*

The Past Indefinite.

The Past Indefinite is used to represent an action that is done during a time that is ended. There is not any relation with the present. The adverbials of past time such as *yesterday, a year ago, last day*, etc. are used to introduce the past tense form.

They **returned** back a week ago.

He **answered** me yesterday.

The Past Indefinite represents:

a) The action that is observed only in the past.

We **solved** the problem last week.

b) regularity of past actions.

She switched on her mobile phone, took her coat and left the room.

c) Repeated actions in the past.

DOI:10.30546/gdu.5.2026

He **made** a note in his diary every night.

Past action that was repeated in past expressed by *used to* + Infinitive and *would*+Infinitive. The colloquial version is *Used to* and the literary version is *would*.

She used to answer the questions when she was a student.

Or: She **would answer** the questions when she was a student.

Question and negative forms:

Did she **use to** wash the dishes when she was a young girl? Or: **Would** she wash the dishes when she was a young girl?

I **didn't use to** play the piano when I was a child.

Or: I **would not play** the piano when I was a child.

Note: *Just now* is also considered to be the adverb of past time.

Just now means *a very short time ago*. **Examples:**

You looked pretty *upset just* now.

I spoke *just now* of being in love.

Just now I thought I saw someone.

Compare: **Just**

Just means *very recently; in the immediate past*.

Example:

I've *just* seen the local paper.

THE PRESENT PERFECT TENSE FORM

Formation:

has/have + past participle

Examples:

He has used that car for some months.

Has she used that car for some months?

He has not used that car for some months.

Examples:

He has used that car for some months.

I am sure he has used that car for some months.

The earthquakes have been in Turkey lately.

My brother has never fished in this sea.

A: **Has** it ever rained recently?

B: Yes, it has much rained here.

Have you ***ever*** been to Paris?

Has she ***ever*** met the Prime Minister?

Do not write to Rauf. I have ***already*** done it.

Have you met Sona ***yet***?

They haven't arrived ***yet.***

His life has changed ***of late.***

The broker has ***recently*** moved to bolster the accounting experience of its board.

RULE 1 Experience

You can use the Preset Perfect for previewing. When I say, "I use this job ...", you can use it to say you're using this job. a certain chnace. It is not used to being aware of an event.

Examples:

I met Amir.

I was able to reach three tons.

You can add the end of the documents at the end of the screening.

I couldn't do anything to Franca.

DOI:10.30546/gdu.5.2026

It knows that you have no chance of visiting Turkey.
He hopes I got this information.
He has ever been insulted.
A: Have you ever met her?
B: No, I didn't meet him.

RULE 2 Change Over Time

We are talking about a change that exceeds one point of time using Present Perfect.

RULE 3 Operation

We use President Perfect to list the best human rights and human rights documents. You cannot take advantage of any opportunity.

The documents created a large number of problems.
The daughter's dolls have been made by their aunt.

RULE 4 An Uncompleted Action that is expected

The Present Perfect is often used to say that an action which is expected has not happened. Using the Present Perfect suggests that we are still waiting for the action to happen.

Examples:

James **has not finished** his homework yet.
Susan **hasn't mastered** Japanese, but she can communicate.
Bill **has** still **not arrived**.
The rain **hasn't stopped**.

RULE 5 Adverbial clauses

The Present Perfect is used in adverbial clauses of time after the conjunctions *when, till, until, after, as soon as* to denote an action completed before a definite moment in the future [1, s. 26].

RULE 6 Multiple Actions at Different Times

The Present Perfect is also used to talk about several different actions which have occurred in the past at different times. Present Perfect suggests the process is not complete and more actions are possible.

Examples:

The man has not made his ideas about going to the army.
He has done his homework already.
They have sent the letter recently.
Zubeyda has invited some of her friends to her party.

Note: It covers the state that started former, has been going on up to the present and is still going on. So, the beginning is introduced or the whole period of duration. ***For*** is used to denote the whole period of duration. ***Since*** is used to indicate the starting point of the action.

Examples:

They ***have known*** each other **for four years.**
Where ***have*** they ***been*** **since last Sunday**?
This use of the Present Perfect is called the **Present Perfect Inclusive.**

The Present Perfect Inclusive is used:

1.With verbs not admitting of the Continuous form:
He has been dead for some hours.
2.In negative sentences:
He hasn't slept since last night.
3.With non-terminative verbs such as to *live, to work, to study, to teach, to travel,* etc.
I ***have*** always ***been fond*** of singing.
THE USES:

DOI:10.30546/gdu.5.2026

The past indefinite tense (also called the simple past tense) describes an action that started and finished completely in the past [8, s. 96].

Main Uses

Completed Past Actions: To talk about single events or actions that happened at a specific time in the past.

Example: "I visited Paris last summer."

Sequence of Past Actions: To narrate a series of actions that happened one after another.

Example: "He opened the door, switched on the light, and fed his cat."

Past Habits or Repeated Actions: To describe a routine or habit that took place in the past but no longer happens [7, s. 127].

Example: "When I was a child, I played outside every day."

Past States or Facts: To describe conditions, feelings, or facts that were true at a specific time in the past.

Example: "The weather was pleasant last night."

Sentence Structures

Affirmative: Subject + $Verb_2$ (past form) + Object

Example: "She played football yesterday."

Negative: Subject + **did not** (didn't) + $Verb_1$ (base form) + Object

Example: "She did not play football yesterday."

Interrogative: Did + Subject + $Verb_1$ (base form) + Object?

Example: "Did she play football yesterday?"

Present Perfect:

Main Uses

Life Experiences: Talk about things you have done or not done up to now, without mentioning a specific time.

Example: "I have visited Japan twice." / "She has never tried sushi."

Unfinished Actions (Starting in the Past and Continuing): Describe actions or states that began in the past and are still true right now, often using **for** (time duration) or **since** (starting point).

Example: "I have lived here for ten years." / "He has worked at this company since 2018."

Recent Actions with Present Results: Describe something that just happened, where the present result matters more than the exact time.

Example: "She has just finished her homework." / "I have lost my keys."

Unfinished Time Periods: Talk about actions during a time period that has not ended yet (such as *today, this week, this year*).

Example: "She has been to the cinema twice this week."

References

1. Kobrina N.A. et al. A Grammar of Modern English: Morphology. Syntax. Moscow, 1999.
2. Blox M.Y. A Theory of English Grammar. Moscow, 2000.
3. Ilyish B. The Structure of Modern English. Leningrad, 1971.
4. Musayev O.İ. İngilis dilinin nəzəri qrammatikası. Bakı, 2007.
5. Veikhman G.A. The Structure of Modern English. Moscow, 2002.
6. Виноградов В. В. Исследования по русской грамматике. Moskva, 1975.
7. Sahila Baghir Mustafayeva. The pragmatics of discourse markers in written and spoken discourse. ADVANCED SCIENCE 2019, s.127-129.

DOI:10.30546/gdu.5.2026

8. Sahila Baghir Mustafayeva. DISCOURSE INTONATION AND WORD ORDER IN ENGLISH (basing on the experimental-phonetic analyses of the discourse in English). Al-Farabi Kazakh National University 179, 2020, p.96-103.

MÜASİR İNGİLİS DİLİNDƏ KEÇMİŞ QEYRİ-MÜƏYYƏN ZAMAN VƏ İNDİKİ BİTMİŞ ZAMANIN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Mustafayeva Sahilə Bağır qızı

Xülasə

Müasir ingilis dilinin qrammatik sistemində Past Simple (Keçmiş qeyri-müəyyən zaman) və Present Perfect (İndiki bitmiş zaman) kateqoriyaları hərəkətin keçmişdə baş verməsini bildirsələr də, semantik və praqmatik baxımdan bir-birindən kəskin şəkildə fərqlənirlər. Past Simple zaman forması keçmişdə müəyyən bir vaxtda baş vermiş, tamamlanmış və hazırkı anla heç bir əlaqəsi olmayan hərəkətləri ifadə etmək üçün istifadə olunur. Bu zaman formasında hərəkətin tam olaraq nə vaxt baş verdiyi (*yesterday, in 2010, two days ago* kimi zaman göstəriciləri ilə) xüsusi olaraq vurğulanır. Present Perfect isə keçmişdə baş verən, lakin nəticəsi, təsiri və ya əhəmiyyəti indiki anla bilavasitə bağlı olan hərəkət və vəziyyətləri əks etdirir. Bu iki zaman forması arasındakı əsas fərq də məhz hərəkətin zamanına deyil, onun indiki zamanla (present relevance) olan konseptual əlaqəsinə söykənir. Past Simple tarixən bitmiş zamanla əlaqəli olsa da, Present Perfect hələ davam edən və ya indi ilə kəsişən zaman çərçivəsini (*today, this week, so far*) əhatə edir. Dilçilik nöqteyi-nəzərindən Past Simple hadisənin özünə və keçmiş kontekstə fokuslandığı halda, Present Perfect həmin hərəkətin danışan şəxs üçün hazırkı andakı nəticəsinə və ya təcrübəsinə diqqət yönəldir. Bundan əlavə, konkret zaman göstəricilərinin (*ago* və s.) Present Perfect ilə işlədilməsi ingilis dilinin sintaktik normalarına zidd hesab olunur. Yekun olaraq, hər iki zaman formasının fərqli semantik çalarları dil daşıyıcılarına keçmiş hadisələri indiki anın baxış bucağı ilə düzgün əlaqələndirmək imkanı yaradır.

ОСОБЕННОСТИ УПОТРЕБЛЕНИЯ ПРОШЕДШЕГО НЕОПРЕДЕЛЕННОГО И НАСТОЯЩЕГО СОВЕРШЕННОГО ВРЕМЕН В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Мустафаева Сахила Багировна

Резюме

В грамматической системе современного английского языка, хотя категории Past Simple (прошедшее неопределенное время) и Present Perfect (настоящее совершенное время) указывают на действия, совершившиеся в прошлом, они резко отличаются друг от друга с семантической и прагматической точек зрения. Форма времени Past Simple используется для выражения действий, которые произошли в определенное время в прошлом, завершились и не имеют никакой связи с настоящим моментом. В этой форме времени особо подчеркивается именно то, когда именно произошло действие (с использованием таких показателей времени, как *yesterday*, *in 2010*, *two days ago*). Present Perfect, с другой стороны, отражает действия и состояния, произошедшие в прошлом, но результат, влияние или значение которых непосредственно связаны с настоящим моментом. Основное различие между этими двумя временными формами заключается не во времени самого действия, а в его концептуальной связи с настоящим (present relevance). В то время как Past Simple связано с исторически завершенным периодом времени, Present Perfect охватывает временные рамки, которые все еще

DOI:10.30546/gdu.5.2026

продолжаются или пересекаются с настоящим (*today*, *this week*, *so far*). С лингвистической точки зрения, в то время как Past Simple фокусируется на самом событии и контексте прошлого, Present Perfect направляет внимание на результат или опыт этого действия для говорящего в настоящий момент. Кроме того, использование конкретных показателей прошедшего времени (таких как *ago* и т. д.) с Present Perfect считается противоречащим синтаксическим нормам английского языка. В заключение, различные семантические оттенки обеих временных форм позволяют носителям языка правильно соотносить прошлые события с точки зрения настоящего момента.

Rəyçi: fil.f.d., dos. Firəngiz Furman qızı Qurbanova
Daxil olma tarixi 26 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT: 811.512.162

MƏDİNƏ GÜLGÜNÜN SEÇİLMİŞ ŞEİRLƏRİNDƏ EMOSİONAL-EKSPRESSİV LEKSİKANIN ÜSLUBİ FUNKSİYALARI

Nəbiyeva Ayşən Bəxtiyar qızı
Gəncə Dövlət Universiteti
ORCID: 0009-0005-7697-9176
nebiyevaaysen57@gmail.com

Xülasə: *Məqalədə Mədinə Gülgünün seçilmiş şeirlərində emosional-ekspressiv leksikanın işlənmə xüsusiyyətləri və üslubi funksiyaları təhlil olunur. Tədqiqatın əsas məqsədi yalnız hiss və həyəcan bildirən sözləri qruplaşdırmaq deyil, ümumişlək sözlərin bədii mətn daxilində hansı semantik əlaqələr hesabına əlavə emosional və qiymətləndirici çalar qazandığını müəyyənləşdirməkdir. Seçilmiş şeirlər əsasında zaman və hərəkət leksikasının qarşılaşdırılması, nitq və dil vahidlərinin xitab və əmr formaları ilə əlaqəsi, metaforik işlənmə və qiymətləndirici isimlərin funksiyası araşdırılır. Təhlil göstərir ki, ekspressivlik çox vaxt sözün lüğəvi mənasının tam dəyişməsi ilə deyil, onun kontekst daxilində başqa leksik vahidlərlə yaratdığı semantik əlaqələr və assosiasiyalarla formalaşır.*

Açar sözlər: Mədinə Gülgün, emosional-ekspressiv leksika, poetik dil, kontekstual məna, qiymətləndirmə.

Keywords: Madina Gulgun, emotional-expressive vocabulary, poetic language, contextual meaning, evaluation

Ключевые слова: Медина Гюльгюн, эмоционально-экспрессивная лексика, поэтический язык, контекстуальное значение, оценочность.

Mədinə Gülgünün poetik dili ilk növbədə aydın və ünsiyyətə yaxın leksik quruluşu ilə seçilir. Şair gündəlik danışıq dilində işlənən gəlmək, getmək, danışmaq, gözləmək kimi feillərə, bahar, yol, səs, ürək, göz, alov kimi isimlərə müraciət edir. Bildiyimiz kimi, sözlər lüğətdə öz əsas mənalarına malikdir, lakin poetik mətndə həmin mənalar yeni münasibətlərə daxil olur və həsrət, sevinc, yaxınlıq, ehtiram, ümid kimi çalarlarla yüklənir [1]. Buna görə şairin emosional-ekspressiv leksikasını yalnız "*sevgi*", "*kədər*", "*həsrət", "sevinc*" kimi hiss adları ilə məhdudlaşdırmaq düzgün olmaz.

Ümumiyyətlə, sözün təsir imkanları onun yalnız nominativ mənası ilə deyil, işlənmə şəraiti, semantik əhatəsi və başqa sözlərlə əlaqəsi ilə izah olunur. Belə ki, T. Əfəndiyeva bədii mətndə sözün üslubi imkanlarını kontekstlə əlaqələndirir, S. Cəfərov və B. Xəlilov isə çoxmənalılığın, məcazlaşmanın və leksik-semantik əlaqələrin yeni məna çalarlarının formalaşmasında rolunu göstərirlər [2; 3; 4]. Bu nəzəri yanaşma Mədinə Gülgünün şeirlərində sadə sözlərin niyə yüksək emosional təsir yaratdığını izah etmək üçün əlverişlidir.

Emosional leksikanın bir qismində hiss sözün öz semantikasında açıq şəkildə ifadə olunur. Məsələn, *məhəbbət, sevgi, qəm, şəfqət* kimi vahidlər buna nümunədir. *Bahar, yol, səs, göz, torpaq, alov* kimi sözlər isə öz əsas mənalarında konkret predmet, məkan, zaman və ya hadisəni bildirir [5]. Bədii mətndə bu qrup sözlər müəllif münasibəti, assosiasiya və məcazi əlaqə hesabına emosional səslənə bilir. Bu səbəbdən "emosional söz"lə "ekspressiv işlənən söz" eyni anlayış kimi götürülməməlidir.

Mədinə Gülgünün şeirlərində hər iki hal yanaşı görünür. Belə ki, "*məhəbbət", "sevgi", "şəfqət*" kimi vahidlər hissi birbaşa adlandırır; "*bahar", "durna", "səs", "göz", "alov", "köz*" kimi sözlər isə həmin hissi obrazlaşdırır. Bu fərqi nəzərə almaq təhlil üçün çox vacibdir. Çünki mətndən yalnız açıq emosional sözləri seçmək şeirin əsas təsir gücünü — adi bir sözün kontekst daxilində ekspressivlik qazanması mexanizmini kölgədə qoya bilər.

DOI:10.30546/gdu.5.2026

Kontekstual ekspressivləşmə zamanı sözün lüğəvi mənası tam silinmir. Əksinə, yeni poetik çalar çox vaxt həmin ilkin mənaya söykənir. "Bahar"sözünün fəsil mənası gözlənilən görüş vaxtını konkretləşdirir, "*alov*" və "*köz*" sözlərinin istilik semantikası mənəvi yaxınlıq və davamlı təsir obrazına çevrilir və "*gözün* " insan üçün əvəzolunmaz orqan olması isə qiymətləndirməni gücləndirir. Bu cür semantik keçidlər oxucu üçün aydındır, çünki obraz tanış mənadan doğur.

Ekspressivlik yalnız leksik vahidin özündə deyil, leksika ilə qrammatik formanın qarşılıqlı təsirində də yarana bilər. Məsələn, müəllifin "Yeni həyat"şeirində əmr şəklində işlənən "*danış*" feili, "Torpaq da dil açdı" şeirində "*alovumdu*r", "*səsimdir"*, "*gözümdür*" formalarındakı mənsubiyyət göstəriciləri sözün emosional təsirini artırır. Bununla belə, bu formaları ayrıca "emosional leksika" kimi təqdim etmək olmaz, onlar leksik mənanı gücləndirən qrammatik və sintaktik vasitələrdir. Belə fərqləndirmə isə terminoloji dəqiqlik baxımından zəruridir.

Bədii mətndə hər məcazi işlənən sözü birbaşa emosional-ekspressiv vahid hesab etmək də düzgün deyil. Bu zaman məcazın hansı münasibəti yaratdığı, sözün əvvəlki və sonrakı kontekstlə necə bağlandığı, təkrar zamanı semantik yükünün artıb-artmadığı nəzərə alınmalıdır.

Zaman bildirən sözlərin ardıcıllığı, hərəkət feillərinin qarşılaşdırılması, nitq və səs leksikasının bir məna sahəsində toplanması və eyni qiymətləndirmənin müxtəlif konkret isimlərlə verilməsi bu baxımdan yoxlanıla bilən dil faktlarıdır. Bu yanaşma sayəsində şeiri ümumi sözlərlə deyil, birbaşa mətndəki sözlər üzərindən təhlil edə bilirik

Mədinə Gülgünün "Durnalar qayıtdı" şeirində intizar sözünün mənasının ifadəsində zaman və hərəkət leksikası aparıcı yer tutur [6]. Emosional gərginlik hiss adlarının çoxluğundan deyil, zamanın keçməsi ilə gözlənilən hərəkətin baş verməməsi arasındakı semantik ziddiyyətdən yaranır. "*Gəlmək", "getmək", "qayıtmaq", "çatmaq"* feilləri gözləmə prosesinin mərhələlərini ifadə edir.

Deyirdin baharda görüşərik biz,
Bahar gəldi, getdi, sən gəlməz oldun. [6]

Bu iki misrada "*həsrət*" sözü işlənmir, lakin bu məna zaman və hərəkət vahidlərinin qarşılaşdırılması ilə kontekstual şəkildə yaranır. "*Bahar*" görüş vaxtını bildirir; "*gəldi, getdi*" feilləri həmin vaxtın keçdiyini göstərir. "Sən gəlməz oldun" isə gözlənilən hərəkətin baş vermədiyini bildirir. Emosional təsir bu vahidlərin semantik qarşılaşdırılması hesabına güclənir.

Daha sonra durnaların qayıtması, yarpaqların saralması, payızın çatması, quşların yuva qurması eyni zaman xəttini davam etdirir [6]. Bu sözlər əsas mənalarında təbiət hadisələrini bildirir, mətndə isə zamanın keçməsinin leksik göstəricilərinə çevrilir. Buna görə təbiət leksikası nominativ mənanı saxlamaqla intizar mənasının kontekstual şəkildə güclənməsinə xidmət edir. Şeirlərdə feillər də həmin mənanı gücləndirir.

"Sən gəlməz oldun" ifadəsinin təkrarı funksional xarakter daşıyır. Hər bənddə leksik mühit dəyişir, bu birləşmə isə sabit qalır. Nəticədə onun emosional yükü mərhələli şəkildə artır. İlk bənddə görüşün baş tutmamasını bildirən forma sonrakı zaman göstəriciləri ilə uzun sürən ayrılıq mənasını gücləndirir. Təkrar həm ritmi saxlayır, həm də kontekstual ekspressivliyi artırır.

Şeirin danışıq dilinə yaxın quruluşu leksik ekspressivliyi aydın göstərir. "*Deyirdin*", "*gəldi, getdi*", "*sən gəlməz oldun*" kimi formalar danışıq nitqinə yaxın ünsiyyət modeli yaradır. Nitq davamlı olaraq "sənə" yönəlir və cavabsız müraciət formasını saxlayır. Beləliklə, sadə sintaktik quruluş və şəxs əvəzliyi leksik təkrarın emosional yükünü gücləndirir.

DOI:10.30546/gdu.5.2026

"Durnalar qayıtdı" şeirində zaman bildirən sözlər ayrıca leksik-semantik xətt yaradır. Əvvəldə "bahar" konkret görüş vaxtıdır. Sonra "aylar", "payız", quşların qayıdışı və yuva qurması ilə bağlı vahidlər gəlir. "Ömrün bahar günləri" birləşməsində isə "bahar" fəsil mənasını saxlamaqla insan həyatının müəyyən mərhələsini bildirən məcazi çalar qazanır [6]. Beləliklə, eyni söz müxtəlif kontekstlərdə fərqli zaman funksiyası daşıyır.

Şeirdə "deyirdin" və "dedin" feillərinin işlənməsi də əhəmiyyətlidir. Bu nitq feilləri keçmişdə deyilmiş sözlə indiki vəziyyət arasında semantik əlaqə yaradır. Keçmiş zaman forması əvvəlki vədi, sonrakı cümlələr isə həmin vəddən sonra yaranmış vəziyyəti bildirir. Burada feillər iki zaman formasını bir-birinə bağlayır. "Sən" əvəzliyinin davamlı işlənməsi də müraciətin adresatını sabit saxlayır və qarşı tərəfin mətndə iştirak etməməsini dil səviyyəsində daha nəzərəçarpan edir. Mətnin ünsiyyət quruluşunda "mən"dən çox "sən"ə yönəlmiş vahidlərin işlənməsi üstünlük təşkil edir.

"*Göz*" və "*ürək*" geniş işlənən somatik vahidlərdir. Şeirdə onlar yalnız bədən üzvünün adını bildirmir. Yola baxmaq kontekstində "göz" intizarla əlaqələnir, "ürək" isə emosional vəziyyəti ifadə edir. Bu sözlərin ekspressivliyi əvvəlki bəndlərdə yaranmış semantik mühitlə əlaqədən doğur. Ümumişlək sözlər əsas mənasını saxlayaraq kontekstdə əlavə emosional çalar qazanır.

Danış, Təbriz! Bu dövranı tərənnüm et öz dilində.
Sənə sonsuz məhəbbət var ürəyimin hər telində. [8]

Müəllifin "Yeni həyat" şeirində ilk diqqəti çəkən söz "danış" feilidir. Feil əmr şəklində işlənməsinə baxmayaraq sərt göstəriş kimi səslənmir. Burada danışmaq öz sözünü demək, ana dilində sərbəst səslənmək mənası qazanır. "Təbriz"ə birbaşa müraciət də şəhəri sadəcə yer adı kimi saxlamır. Buna görə emosional yük yalnız "məhəbbət" sözündə deyil, xitabla əmr formasının birlikdə işlənməsindədir.

Bu şeirdə "ürək" sözü məhəbbət və mənəvi bağlılıq kontekstində işlənir. "*Sonsuz məhəbbət*" hissin yüksək dərəcəsini birbaşa bildirir, "*ürəyimin hər telində*" ifadəsi isə bu qiymətləndirməni somatik leksika ilə konkretləşdirir. "*Ürək"* əsas mənasını tam itirmədən emosional yaxınlıq çaları qazanır. Beləliklə, birbaşa emosional leksika ilə kontekstual ekspressivlik birləşir.

Burada "Danış, Təbriz!" birləşməsində xitabla əmr şəklinin yanaşı işlənməsi müraciətin ekspressivliyini artırır. "Təbriz" toponimi yalnız coğrafi məkan adı kimi qalmır, cümlədə müraciətin çatdırılması funksiyasını daşıyır. "*Danış*" feili isə nitq fəaliyyətinə çağırış mənası yaradır. Bu, onomastik vahidin kontekstual funksiyasını genişləndirir və müraciətin emosional yaxınlığını gücləndirir. Xitabın semantik təsiri "*danışmaq",* "*dil*", "*nəğmə*", "*oxumaq*", "*tərənnüm etmək*" kimi sözlərin sonrakı leksik sırası ilə davam etdirilir [8].

Şeirin leksik nüvəsi nitq və səs anlayışı ətrafında qurulur. "Danışmaq" hərəkəti "öz dilində" ifadəsi ilə yanaşı gəldikdə yalnız səs çıxarmaq yox, özünü ifadə etmək mənası qazanır. "*Nəğmə*", *"oxumaq"*, "*tərənnüm etmək*" eyni semantik sahəni genişləndirir. Bu vahidlərin birlikdə işlənməsi şeirin çağırış formasını leksik səviyyədə ardıcıl saxlayır və ayrı-ayrı misraları vahid ideya xəttinə bağlayır.

Müəllif burada "*öz dilində*" və "*ana dilin*" ifadələri dil anlayışını mənsubiyyətlə əlaqələndirir [8]. "*Dil*" sözünün əsas mənası dəyişmir, lakin "*Təbriz*", "*xalqımız*", "*bizim*" kimi vahidlərlə eyni kontekstdə işlənməsi ona milli mənsubiyyət və özünüifadə çaları əlavə edir. Bu məna sözlərin qarşılıqlı semantik əlaqəsindən yaranır. Buna görə "*dil*" həm ünsiyyət vasitəsini, həm də milli mənsubiyyəti bildirir.

Əvəzliklərin seçimi milli müraciət modelini aydın göstərir. Təbrizə "sən" deyə müraciət oxucu ilə yaxınlıq yaradır, "biz", "bizim", "xalqımız" isə nitqin əhatəsini fərdi münasibətdən kollektiv münasibətə genişləndirir [8]. Burada "mən — sən" modeli tədricən "biz — Təbriz"

DOI:10.30546/gdu.5.2026

münasibətinə keçir və "sən" sözü ilə yanaşı "biz", "bizim", "xalqımız" sözlərinin işlənməsi müraciətin fərdi çərçivədən çıxaraq milli xarakter almasına xidmət edir [8]. Əvəzliklər özləri emosional leksikaya daxil deyil, lakin sözlər arasındakı münasibətə və ümumi emosional tona təsir göstərir.

Vurğun alovumdur, közümdür – dedi. [7]

"Torpaq da dil açdı" şeirində "*alov*" və "*köz*" od leksikasına daxildir. Burada onlar əsas mənadan əlavə qiymətləndirici və məcazi çalar qazanır. "*Alov*" açıq və fəal hərarəti, "*köz*" isə sönməyən, qorunan istiliyi assosiasiya etdirir. Bu yaxın mənalı sözlərin yanaşı işlənməsi semantik dərəcələnmə yaradır və eyni qiymətləndirməni iki fərqli leksik vahidlə ifadə edir.

Vurğun harayımdır, səsimdir – dedi. [7]

"Haray" və "səs" eyni semantik sahəyə aid olsa da, ekspressiv dərəcələri fərqlidir. "Səs" geniş işlənə bilən sözdür, "haray" isə çağırış və gərginlik çaları daşıyır. Bu iki vahidin yanaşı işlənməsi eyni semantik sahə daxilində dərəcələnmə yaradır. Emosional təsir yalnız məcazi eyniləşdirmədən deyil, sözlərin semantik yaxınlığı ilə ekspressiv fərqi arasındakı münasibətdən formalaşır.

O, mənim bu iki gözümdür – dedi. [7]

"Göz" sözündə qiymətləndirici məna daha çox mədəni və məcazi assosiasiya ilə yaranır. "*O, mənim bu iki gözümdür*" eyniləşdirməsi "*çox əzizdir*" fikrini birbaşa sifətlə bildirmir və insan üçün əvəzolunmaz olan konkret bədən üzvünün adı vasitəsilə dəyəri göstərir. Bu üsulla müəllif ehtiram hissini görünən və gündəlik təcrübəyə yaxın bir obraza çevirir.

Bir ağbirçək gördüm üzündə şəfqət,
Qəlbində bir dünya sevgi, məhəbbət [7]

Bu misralarda "*şəfqət*", "*sevgi*", "*məhəbbət*" açıq emosional semantikaya malikdir. "*Bir dünya*" birləşməsi bu semantikanın dərəcəsini artırır; "üz" və "qəlb" kimi somatik vahidlər isə abstrakt hiss adlarını konkret leksik mühitlə əlaqələndirir və birbaşa emosional leksika ilə kontekstual konkretləşdirmə eyni misralarda birləşir.

Burada "*soruşdum*", "*danışdı*", "*dedi*", "*dil açdı*" feilləri dialoq modelini qurur. Fərqli yer və insan adlarına edilən müraciətlər, eləcə də verilən cavablar Səməd Vurğunun şəxsiyyətini ucaldır.

"*Alovumdur", "közümdür", "harayımdır", "səsimdir", "gözümdür", "söhbətimdir", "sözümdür"* tipli formalar ardıcıl mənsubiyyət münasibəti yaradır [7]. Mənsubiyyət şəkilçisi leksik vahidin tərkibində yeni söz yaratmır, lakin sözlə danışan obraz arasındakı emosional məsafəni azaldır. "*Səs*" sözü "*səsim*", "*alov*"leksemi ilə "*alovum*" arasında əsas lüğəvi məna eyni qalsa da, şəxsi bağlılığı gücləndirir. Bu, leksik və qrammatik vasitələrin birgə işləməsinin aydın nümunəsidir.

"Ağbirçək" sözü mətndə yaşlı qadın obrazını bildirir. Onun "şəfqət", "qəlb", "sevgi", "məhəbbət" sözləri ilə bir kontekstdə işlənməsi obrazın emosional çalarını gücləndirir . Burada hörmət və ehtiram ayrıca qiymətləndirici sifətlə deyil, obrazın leksik mühiti ilə formalaşır.

Mədinə Gülgünün şeirlərində ekspressivliyi yalnız "sadə sözlərdən istifadə" kimi ümumi cümlə ilə izah etmək kifayət etmir. Əsas məsələ həmin sözlərin hansı semantik sistem daxilində təşkil olunmasıdır.

Bu nümunələr göstərir ki, emosional-ekspressiv təsir yalnız sözün öz mənasından yaranmır. Sözün hansı formada işlənməsi, hansı sözlərlə yanaşı gəlməsi, təkrarlanması və cümlədəki yeri də onun təsirinə qoşulur. Məsələn, "danış" feili əmr formasında çağırış bildirir, "deyirdin", "dedin" feilləri keçmişdə deyilən sözlə indiki vəziyyət arasında əlaqə

DOI:10.30546/gdu.5.2026

yaradır, “alovum”, “səsim”, “gözüm” kimi formalar isə mənsubiyyət vasitəsilə emosional yaxınlığı artırır [6; 7; 8].

Beləliklə, Mədinə Gülgünün şeirlərində emosional-ekspressivlik iki əsas yolla yaranır. Birinci halda hiss “sevgi”, “məhəbbət”, “şəfqət” kimi sözlərlə birbaşa ifadə olunur. İkinci halda isə adi söz mətn daxilində əlavə emosional və qiymətləndirici çalar qazanır. “Durnalar qayıtdı”şeirində gəlmək, getmək, qayıtmaq, çatmaq kimi hərəkət feilləri və bahar, aylar, payız kimi zaman sözləri intizarı göstərir. “Yeni həyat” şeirində danışmaq, dil, nəğmə, oxumaq, tərənnüm etmək sözləri müraciət və çağırış mənasını gücləndirir. “Torpaq da dil açdı”şeirində alov, köz, haray, səs, göz, söz kimi isimlər qiymətləndirici mənada işlənir. Cansız varlıqların və coğrafi adların danışması şəxsləndirmə, “*Vurğun alovumdur*”, “*səsimdir*”, “*gözümdür*” kimi ifadələr isə metaforik qiymətləndirmə yaradır. Təkrar, xitab, qarşılaşdırma, əmr və mənsubiyyət formaları da bu sözlərin təsirini gücləndirir. Mədinə Gülgünün seçilmiş şeirlərində ümumişlək sözlər əsas mənalarını saxlamaqla yanaşı, mətn daxilində yeni emosional və qiymətləndirici funksiya qazana bilir.

Ədəbiyyat

1. Gülgün M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004. 224 s.
2. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı: Elm, 1980. 249 s.
3. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. II hissə. Leksika. Bakı: Şərq-Qərb, 2007. 192 s.
4. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008. 442 s.
5. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə / AMEA Nəsimi adına Dilçilik İnstitutu; tərt.: Ə.A. Orucov, B.T. Abdullayev, N. Rəhimzadə; red.: A.A. Axundov, Ə.A. Orucov. Bakı: Şərq-Qərb, 2006.
6. Gülgün M. Durnalar qayıtdı // AZƏRTAC Uşaq Bilik Portalı. 19 yanvar 2022 URL: https://portal.azertag.az/
7. Gülgün M. Torpaq da dil açdı (Səməd Vurğuna) // Ədəbiyyat və incəsənət. 1976, 20 noyabr, s. 4; mətn: Azərbaycan Milli Kitabxanası, “Səməd Vurğuna həsr olunmuş şeirlər” elektron toplusu.
8. Hüseynov R. O səs yenə yüksələcək // 525-ci qəzet. 24 yanvar 2024. **URL:** https://525.az/qazet/

STYLISTIC FUNCTIONS OF EMOTIONAL-EXPRESSIVE VOCABULARY IN THE SELECTED POEMS OF MEDINA GULGUN

Nabiyeva Ayshan Bakhtiyar

Summary

This article analyzes the use and stylistic functions of emotional-expressive vocabulary in selected poems by Madina Gulgun. The study focuses not only on words that directly name feelings and emotions, but also on common lexical units that acquire additional emotional and evaluative meanings through contextual semantic relations. The analysis examines the opposition of time and motion vocabulary, the interaction of speech and language units with forms of address and imperative constructions, and the functions of personification, metaphorical usage, and evaluative nouns. The results show that expressiveness in the poet's language often develops not through a complete change in lexical meaning, but through semantic relations and associations created by words within the context.

DOI:10.30546/gdu.5.2026

СТИЛИСТИЧЕСКИЕ ФУНКЦИИ ЭМОЦИОНАЛЬНО-ЭКСПРЕССИВНОЙ ЛЕКСИКИ В ИЗБРАННЫХ СТИХОТВОРЕНИЯХ МЕДИНЫ ГЮЛЬГЮН

Набиева Айшен Бахтияр кызы

Резюме

В статье анализируются особенности употребления и стилистические функции эмоционально-экспрессивной лексики в избранных стихотворениях Медины Гюльгюн. Основная цель исследования состоит не только в выделении слов, непосредственно называющих чувства и эмоции, но и в выявлении общеупотребительных лексических единиц, которые в контексте приобретают дополнительные эмоциональные и оценочные оттенки. Рассматриваются противопоставление лексики времени и движения, взаимодействие речевых и языковых единиц с обращениями и формами повелительного наклонения, а также функции олицетворения, метафорического употребления и оценочных существительных. Анализ показывает, что экспрессивность в языке поэтессы часто формируется не за счет полного изменения лексического значения слова, а благодаря его семантическим связям с другими единицами внутри контекста.

Rəyçi: f.ü.f.d., b/m Mahmudova M. N.
Daxil oma tarixi 24 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:80.

MƏTN VƏ DİSKURS TƏDQİQATLARINDA MƏTN DAXİLİ ƏLAQƏLƏR VƏ ONLARIN NƏZƏRİ-PRAKTİK XÜSUSİYYƏTLƏRİ

Nuriyeva İradə Mərdan qızı
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0003-4184-5979
irade70@yahoo.com

Xülasə: *Məqalədə mətn və diskurs daxilində, tədqiqatlarında mətndaxili əlaqələr, onların təsnifatı, nəzəri-praktik xüsusiyyətləri nəzərdən keçirilir. Xüsusilə müəyyən tədqiqatçıların nəzəri konsepsiyaları əsasında qrammatik və leksik koheziya vasitələri (istinad, əvəzetmə, ellips, bağlayıcılar, kollokasiya və s.) təhlil olunur. Həmçinin, koqnitiv nöqteyi-nəzərdən koherensiyanın oxucu qavrayışındakı yeri və müxtəlif dil/mədəniyyət kontekstlərində koheziv vasitələrin tətbiqi xüsusiyyətləri araşdırılır.*

Açar sözlər: diskurs, qrammatik əlaqə, leksik koheziya, istinad, bağlayıcılar, koqnitiv dilçilik

Key words: discourse, grammatical cohesion, lexical cohesion, reference, conjunctions, cognitive linguistics

Ключевые слова: дискурс, грамматическая связь, лексическая когезия, референция, союзы, когнитивная лингвистика

Artıq otuz ildən çoxdur ki, koheziya və koherensiya məsələləri mətn dilçiliyi və diskurs tədqiqatçılarının diqqət mərkəzindədir. Müxtəlif nitq növlərində koheziyadan istifadənin vahid mənzərəsini formalaşdırmaq kifayət qədər mürəkkəbdir, çünki hər bir tədqiqat adətən konkret diskurs növünün təhlilinə uyğunlaşdırılmış spesifik yanaşmadan istifadə edir. Nəticə etibarilə, dil vahidlərinin mətndə birləşmə mexanizmlərini və onların ümumi qavrayışa təsirini anlamaqda hələ də müəyyən nəzəri boşluqlar mövcuddur.

İnsanlar şifahi və ya yazılı şəkildə mesaj çatdırmaq üçün fikir və təfəkkür məhsullarını müəyyən mətn strukturu daxilində formasızlaşdırırlar. Mətn təsadüfi seçilmiş cümlələr toplusu deyil; hər bir mənalı mətndəki cümlələr semantik və məntiqi bütövlük təşkil edir. Məhz koheziya və koherensiya anlayışları cümlələrin bir bütöv kimi işləməsini və mətnin daxili birliyini təmin edir.

Koheziv vasitələr mətndə davamlılığı təmin edən dil daxilindəki resurslara aiddir [3, s.170]. Koheziya bir elementin mənasının digər bir elementin şərhindən asılı olduğu hallarda meydana gəlir. Finch qeyd edir ki, kohezivlik cümlələri bir-birinə bağlayan səth bağlarını ifadə edir və mətn daxilindəki məna əlaqələrini görünən edir. Widdowson da oxşar şəkildə kohezivliyi dil baxımından siqnal əlaqələri kimi qiymətləndirir [10, s.104].

M.A.K. Halliday və R. Hasan tərəfindən işlənmiş nəzəriyyəyə əsasən, mətn elementləri daxili və xarici olmaqla iki yerə bölünür:

Daxili element: Mətnin səth strukturunda görünən linguistic bağlar — **Koheziya** (*cohesion*);

Xarici element: Mətnin mental səviyyədə bir araya gəlməsi, oxucunun zihnində formalaşan məntiqi bütövlük — **Koherensiya** (*coherence*).

S.Thornbury qeyd edir ki, koherensiya sadəcə koheziyanın mexaniki funksiyası olmayıb, oxucunun mətndən əldə etdiyi keyfiyyətdir [9, s.324-325].

C. Braun praqmatik və koqnitiv nöqteyi-nəzərdən iddia edir ki, koheziya mətn daxilində aşkar leksik-qrammatik xüsusiyyətləri əks etdirir; koherentlik isə zehni bir

DOI:10.30546/gdu.5.2026

fenomendir. Koherentlik oxucunun öz fon biliklərinə, inferensial (məntiqi çıxarış) qabiliyyətlərinə və kontekstual məlumatlılığına əsaslanaraq mətni şərh etməsi nəticəsində yaranır [1, s.194]. Deməli, mətn yüksək dərəcədə formal koheziyaya malik ola bilər, lakin oxucu elementlər arasında konseptual bağ qura bilmirsə, mətn tam koherent sayıla bilməz.

Koordinativ ikidillik belə izah olunur ki, bu növdə iksan hər iki dildə sərbəst danışır. Hətta bu dillərdən insan istənilən mövzuda spontan məruzə edə bilər, fikrini izah edə bilər və s. Bəzi insanlar var ki, bu keyfiyyətə malikdirlər, yəni hər iki dildə sərbəst şəkildə fikir yürüdə və danışa bilirlər.

İkinci növdə, yəni subordinativ bilinqvizm isə o halda olur ki, burada insan bir dildəı səlist və axıcı danışdığı halda, kinci dildə eyni səlisliyi nümayiş etdirə bilmir.

Bilinqvizmin üçüncü növü qarışıq bilinqvizm adlanır. Bu növdə insanın tez-tez bir dildən başqa dilə keçməsi, cümləni bir dildə başlayıb başqa dildə tamamlanması ilə səciyyələnir. Eyni zamanda iki dillikdən danışanda aktiv və passiv istifadəni də xüsusi qeyd etmək lazımdır.

İkidillik dedikdə L.Blumfield insanın iki dilə nəzarət etməsini deyirdi. Yəni hər iki dili eyni şəkildə işlətməyi bacaran adamları nəzərdə tuturdu. E.Huagen isə bilinqvizmi belə izah edirdi ki, bu, bir dildə danışan insan başqa dildə mənalı sözləmələr işlətməyi bacarır. Bir insan eyni ünsiyyət məqamında, məsələn, auditoriyada, elmi mühazirələri iki dildə də aydın və mənalı şəkildə deyə bilir. Bəzən insan dildə tam danışa bilmir, lakin deyilənləri tam başa düşür. Dilçilər belə halda passiv və ya reseptiv bilinqvizmdən danışırlar. Ç.Hoket bunun üçün semibilinqvizm terminini işlədir. Bəzən fərqli mədəniyyətlərdə bir dildən o birinə ani olaraq kəskin keçmək müşahidə oluna bilər. Bu zaman ingilis dilində deyildiyi kimi "code-switching" baş verir. Yəni vaxtilə də L.V.Şerbanın adlandırdığı kimi "dillərin çarpazlığı" baş verir.

F.Veysəlli bilinqvizmi social hadisə kimi qəbul edir. Beynəlxalq səviyyədə mədəni, iqtisadi, ticarət, hərbi və s. əlaqələrin artması, müxtəlif fərdlərin bir ölkədən digərinə sərbəst gedişi müxtəlif dillərdən, o cümlədən ingilis dilindən istifadəni labüd edir.

Bilinqvizmin tədqiqindən son zamanlarda 4 mühüm məsələ diqqəti cəlb edir: *1) bilinqvizmin dərəcəsi, 2) funksiyası, 3) alternativi və 4) interferensiyası.*

Bilinqvizmin dərəcəsində bilinqvin iki dildən hansını daha yaxşı bildiyini müəyyənləşdirmək nəzərdə tutulur. Bu zaman müxtəlif eksperimentlər və anket sorğuları konkret nəticələr əldə etməyə kömək edir. Məsələn, tədqiqatçı bir qrup tələbəyə konkret mövzu verərək onlardan xahiş edə bilər ki, eyni mövzuda iki dildə ifadə yazsınlar. Sonra tədqiqatçı yazılan mətnləri götürüb təhlil edərək müəyyənləşdirə bilər ki, tələbələr hansı dildə daha ifadəli və daha dolğun yazsınlar. Daha sonra o tələbələrin iştirakı ilə yazıların nəticəsini təhlil edərək ümumi bir rəyə gəlmək olar.

Bilinqvizmin funksiyası – dillərdən hansının insanın fərdi həyatında hansı konkret rol oynamasını müəyyənləşdirmək üçün yaxşı vasitədir. Bu gün hər hansı bir beynəlxalq tədbirdə çıxış edən azərbaycanlıların əksəriyyəti ingilis dilindən istifadə etməli olur.

Mətndə koheziv əlaqələr iki əsas kateqoriyaya bölünür: **Qrammatik koheziya** və **Leksik koheziya**.

Qrammatik koheziya dildə ümumi mənaların qrammatik strukturlar vasitəsilə ifadəsidir.

A. İstinad (*Reference*)

İstinad mətndəki bir elementin digər element vasitəsilə şərh olunmasıdır. Kontekstual baxımdan istinadın aşağıdakı növləri fərqləndirilir:

1. **Homofora:** Mədəni kontekst və geniş dünya biliyi vasitəsilə məlumatın bərpası.

"When I woke up this morning, **the sun** was shining" (Burada "the sun" ifadəsi ümumi bəşəri kontekstə istinad edir) [3, s. 134].

DOI:10.30546/gdu.5.2026

2. **Exophora:** Mətndən kənarda olan situasiya kontekstinə istinad. Şifahi nitqdə effektiv olsa da, yazılı mətndə oxucu üçün qeyri-müəyyənlik yarada bilər [3, s. 135].

"**That koala** over there is really sleepy."

3. **Endofora:** Mətn daxilindəki istinad formasıdır. İki növü vardır:

Anaforik istinad: Əvvəl işlənmiş sözə/ifadəyə istinad: *"John is a doctor. **He** loves his job."*

Kataforik istinad: Mətndə daha sonra gələcək sözə/ifadəyə istinad: *"She opened the door. **The surprise** was waiting for her inside."* [3, s. 136].

Mənalarına və funksiyalarına görə istinad dörd qrupa bölünür: *şəxsi (personal), demonstrativ (demonstrative), artikl (article)* və *müqayisəli (comparative)*.

Şəxsi istinad: Mətndə təkrarçılığın qarşısını alır (*"I like Agnes Monica. I really like **her** voice"*).

Demonstrativ istinad: Məkan və ya zaman yaxınlığını göstərir (*"There are several coconut trees there. **Those** coconut trees are very tall"*).

Müqayisəli istinad: Obyektlər arasında bənzərlik və ya fərqi ifadə edir (*"You have to do **other** things to get an appreciation"*) [6, s. 26].

B. Əvəzetmə (*Substitution*) və Ellipsis (*Ellipsis*)

Əvəzetmə və ellipsis bir-birinə yaxın mexanizmlərdir. Əvəzetmədə təkrarın qarşısını almaq üçün söz daha ümumi bir vahidlə dəyişdirilir; ellipsisdə isə kontekstdən başa düşülən element tamamilə ixtisar edilir (boşluq buraxılır).

Əvəzetmə nümunəsi: *"I have two apples. **This one** is ripe"*.

İsmi ellipsis: *"John has a red car, and Mary has a blue **[Ø]**"* [6, s. 43].

Feili ellipsis: *"He likes coffee; she does **[Ø]** too."*

C. Bağlayıcılar (*Conjunctions*)

Bağlayıcılar cümlələr və abzaslar arasında məntiqi-semantik əlaqə yaradır. M.A.K. Halliday və R. Hasan bağlayıcıların 4 ana tipini göstərir [4, s. 320-323]:

1. **Əlavə (*Additive*):** *and, also, as well as* və s.
2. **Ziddiyyət (*Adversative*):** *but, however, nevertheless* və s.
3. **Səbəb (*Causal*):** *because, due to, therefore* və s.
4. **Zaman (*Temporal*):** *before, after, then* və s.

2.2. Leksik Koheziya

Leksik koheziya lüğət tərkibinin spesifik semantik imkanları vasitəsilə qurulur və pradiqmatik ham da sintagmatik müstəvidə öyrənilir:

1. **Pradiqmatik əlaqələr:**

Təfsilatlandırma (*Elaborating*): Təkrarlama (*repetition*), sinonimiya və antonimiya.

Təyin etmə (*Attribution / Hyponymy*): Spesifik anlayışın daha ümumi sinfə aid edilməsi (*"Spoon is a hyponym of cutlery"*).

Genişləndirmə (*Extending / Meronymy*): Hissə-bütöv əlaqəsi (*"Tree" – trunk, branch, leaf*).

2. **Sintagmatik əlaqələr (Kollokasiya - *Collocation*):** Sözlərin dildə təbii şəkildə yan-yana gəlmə vərdişidir. Kollokasiyalar mətndə semantik ahəngdarlıq yaratmaqla yanaşı, sözün dərin mənasını və işlənmə mühitini dərk etməyə kömək edir (*a big deal, a good deal, a great deal*) [7, s. 8-9].

3. KOHEZİV VASİTƏLƏRİN MƏTNİN SƏMƏRƏLİLİYİNƏ TƏSİRİ VƏ MƏDƏNİYYƏTLƏRARASI ASPEKTLƏR

Koheziv vasitələrin tətbiqi mətni daha oxunaqlı, aydın və struktur baxımından möhkəm edir. Bu vasitələrin əsas üstünlükləri aşağıdakılardır:

Məntiqi keçidlərin təmini: Bağlayıcılar səbəb-nəticə və təzad əlaqələrini aşkarlayır.

DOI:10.30546/gdu.5.2026

İnformasiyanın sıxlaşdırılması: Ellipsis və əvəzetmə vasitəsilə gərəksiz təkrarın qarşısı alınır (Quirk et al., 1985).

Semantik aydınlıq: Cümlələr arası qrammatik davamlılıq qorunur.

Mədəniyyətlərarası Fərqlər (*Contrastive Rhetoric*)

Koheziya vasitələrinin seçimi mədəniyyətdən və dil ənənəsindən asılıdır. Məsələn, ingilisdilli akademik yazıda açıq göstəricilərdən (*however, therefore*) geniş istifadə olunduğu halda, Şərq (məsələn, Çin) yazı ənənəsində **dolayı koheziyaya** (*implicit cohesion*) üstünlük verilir. Dolayı koheziyada fikirlər arası əlaqə açıq diskurs markerləri olmadan, sırf kontekst və oxucunun məntiqi çıxarımı hesabına qurulur.

Koheziya və koherensiya mətnin formalaşmasında bir-birini tamamlayan iki əsas sütundur. Koheziya mətnin daxili sintaktik və leksik toxumasını bir-birinə bağlayan formal alət rolunu oynadığı halda, koherensiya bu bağlar üzərində oxucunun zehnində qurulan məntiqi bütövlükdür. Tədqiqat göstərir ki, qrammatik (istinad, əvəzetmə, ellipsis, bağlayıcılar) və leksik (təkrar, hiponimiya, kollokasiya) vasitələrin balanslaşdırılmış tətbiqi mətnin semantik aydınlığını və oxunaqlılığını təmin edən başlıca amildir.

Ədəbiyyat

1. Brown, G. Discourse Analysis / G.Brown & G.Yule. – New York: Cambridge University Press, – 1983. – 307 p.
2. Connor, U. Contrastive Rhetoric: Cross-cultural aspects of second-language writing / U.Connor. Cambridge University Press, – 2016. – 201 p.
3. Gerot, L. Making Sense of Functional Grammar / L.Gerot & P.Wignell. Antipodean Educational Enterprises, – 1994. – 258 p.
4. Halliday, M.A.K. Cohesion in English / M.A.K.Halliday & R.Hasan. – London: Longman, – 1976. – 395 p.
5. Halliday, M.A.K. Halliday's Introduction to Functional Grammar / M.A.K.Halliday & C.M.Matthiessen. – London and New york: Routledge, – 2014. – 808 p.
6. McCarthy, M. Discourse Analysis for Language Teachers / M.McCarthy. – News York: Cambridge University Press, – 1991. – 227 p.
7. McCarthy, M., & O'Dell, F. (2005). English Collocations in Use / M.McCarthy, & F.O'Dell. Cambridge University Press, – 2005. – 1780 p.
8. Quirk, R. A Comprehensive Grammar of the English Language / R.Quirk, S.Greenbaum, G.Leech J.& Svartvik. – London, New York: Longman, – 1985.
9. Thornbury, S. Beyond the Sentence: Introducing Discourse Analysis / S.Thornbury. – Amazon UK: Macmillan Education, – 2005. – 192 p.
10.Widdowson, H.G. Teaching Language as Communication / H.G.Widdowson. – Oxford: Oxford University Press, – 1978.

INTRATEXTUAL RELATIONS IN TEXT AND DISCOURSE STUDIES AND THEIR THEORETICAL AND PRACTICAL FEATURES

Nuriyeva Irada Merdan

Summary

The article examines endophoric (intratextual) relations within text and discourse, analyzing their classification as well as their theoretical and practical characteristics. Drawing upon the theoretical frameworks of prominent researchers, grammatical and lexical cohesive devices—including reference, substitution, ellipsis, conjunctions, and collocation—are critically analyzed. Furthermore, from a cognitive perspective, the role of coherence in reader

DOI:10.30546/gdu.5.2026

perception is investigated alongside the functional features of cohesive devices across diverse linguistic and cultural contexts.

ВНУТРИТЕКСТОВЫЕ СВЯЗИ В ИССЛЕДОВАНИЯХ ТЕКСТА И ДИСКУРСА И ИХ ТЕОРЕТИКО-ПРАКТИЧЕСКИЕ ОСОБЕННОСТИ

Нуриева Ирада Марданovна

Резюме

В статье рассматриваются эндофорические (внутритекстовые) связи в структуре текста и дискурса, анализируется их классификация, а также теоретические и практические особенности. На основе теоретических концепций ведущих исследователей проводится критический анализ средств грамматической и лексической когезии, включая референцию, подстановку, эллипсис, союзы и коллокации. Кроме того, с когнитивной точки зрения исследуется роль когерентности в восприятии читателя, а также функциональные особенности применения средств когезии в различных лингвокультурных контекстах.

Rəyçi: f.ü.f.d., dosent Sahilə Bağır qızı Mustafayeva
Daxil olma tarixi 05 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:80.

TİBBİ TERMİNOLOGİYANIN TƏRCÜMƏSİNDƏ SÜNİ İNTELLEKTİN İMKANLARI VƏ MƏHDUDİYYƏTLƏRİ

Qasımlı Ləman Məhərrəm qızı
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Universiteti
https://orcid.org/0000-0002-3486-3053
Laman.gasimli@au.edu.az

Xülasə: *Müasir dövrdə süni intellekt texnologiyalarının, xüsusilə generativ dil modellərinin tərcümə prosesinə inteqrasiyası ixtisaslaşmış mətnlərin tərcüməsi ilə bağlı yeni imkanlar yaratmışdır. Bununla belə, tibbi tərcümədə ümumi dil səviyyəsində düzgün və axıcı nəticənin əldə edilməsi terminoloji baxımdan adekvat tərcümənin təmin edilməsi demək deyildir. Tibbi terminlərin tərcüməsində anlayışın dəqiq ifadəsi, terminoloji ekvivalentliyin qorunması, kontekstin nəzərə alınması və sahə üzrə qəbul edilmiş terminoloji normalara uyğunluq xüsusi əhəmiyyət daşıyır. Məqalədə Azərbaycan dilindən ingilis dilinə tibbi terminlərin tərcüməsində generativ süni intellektin imkanları və məhdudiyyətləri araşdırılır. Tədqiqatın əsas məqsədi terminlərin kontekstdən kənar və cümlə daxilində təqdim edilməsi zamanı süni intellekt tərəfindən təklif olunan ingilis dili qarşılıqlarının terminoloji dəqiqliyini və kontekstual adekvatlığını müqayisə etməkdir. Qiymətləndirmə "düzgün", "qismən düzgün" və "yanlış" kateqoriyaları əsasında aparılır. Tədqiqatın nəzəri və metodoloji çərçivəsi tibbi terminologiyanın xüsusiyyətləri, terminoloji ekvivalentlik, ixtisaslaşmış tərcümədə süni intellektin rolu və insan tərəfindən sonrakı redaktənin əhəmiyyəti əsasında müəyyənləşdirilir.*

Açar sözlər: tibbi tərcümə, tibbi terminologiya, süni intellekt, generativ süni intellekt, terminoloji ekvivalentlik, Azərbaycan dili, ingilis dili, kontekst, post-redaktə.

Keywords: medical translation, medical terminology, artificial intelligence, generative artificial intelligence, terminological equivalence, Azerbaijani, English, context, post-editing.

Ключевые слова: медицинский перевод, медицинская терминология искусственный интеллект, генеративный искусственный интеллект, терминологическая эквивалентность, азербайджанский язык, английский язык, контекст, постредактирование.

Giriş. Süni intellekt texnologiyalarının sürətli inkişafı son illərdə dil və tərcümə proseslərinə münasibətdə əhəmiyyətli dəyişikliklər yaratmışdır. Xüsusilə böyük dil modellərinin geniş yayılması tərcümə fəaliyyətinin yalnız ənənəvi maşın tərcüməsi sistemləri ilə məhdudlaşmadığını göstərir. Generativ süni intellekt mətnin mənasını, sintaktik əlaqələri və müəyyən hallarda kontekstual xüsusiyyətləri nəzərə almaqla müxtəlif tərcümə variantları təqdim edə bilir. Bu imkanlar ixtisaslaşmış tərcümə sahələrində, o cümlədən tibbi tərcümədə də diqqəti cəlb edir. Tibbi tərcümə digər ixtisaslaşmış tərcümə sahələrindən yüksək dəqiqlik tələbi ilə fərqlənir. Tibbi mətnlərdə bir terminin yanlış seçilməsi yalnız üslubi və ya leksik uyğunsuzluq yaratmır, həm də tibbi anlayışın təhrif olunmasına səbəb ola bilər. Buna görə tibbi terminlərin tərcüməsində dil baxımından axıcılıqla yanaşı, terminoloji dəqiqlik, anlayışlararası münasibətlərin qorunması və müvafiq peşəkar normaya uyğunluq əsas meyarlar kimi çıxış edir.

Azərbaycan dilindən ingilis dilinə tibbi terminlərin tərcüməsi bu baxımdan ayrıca tədqiqat əhəmiyyəti daşıyır. Azərbaycan dilində tibbi terminologiyanın sistemləşdirilməsi istiqamətində mühüm lüğət resursları mövcuddur. Generativ süni intellektin ixtisaslaşmış terminologiyanın tərcüməsində tətbiqi ilə bağlı son tədqiqatlar onun müəyyən imkanlara

DOI:10.30546/gdu.5.2026

malik olduğunu göstərir. Bununla belə, Azərbaycan dilindən ingilis dilinə tibbi terminologiyanın məhz generativ süni intellekt vasitəsilə tərcüməsinə həsr olunmuş empirik tədqiqatların məhdudluğu nəzərə çarpır. Xüsusilə terminin təcrid olunmuş şəkildə təqdim edilməsi ilə cümlə daxilində təqdim edilməsi zamanı alınan nəticələrin müqayisəsi ayrıca araşdırma tələb edir. Tibbi tərcümə ixtisaslaşmış tərcümənin ən yüksək dəqiqlik tələb edən istiqamətlərindən biridir. Bu sahədə tərcüməçinin və ya avtomatlaşdırılmış tərcümə sisteminin əsas vəzifəsi yalnız mənbə mətnin ümumi mənasını başqa dildə ifadə etmək deyil, həm də tibbi anlayışlar arasındakı münasibətləri düzgün qorumaqdır. Terminoloji vahidlər bu prosesin əsas komponentlərindən birini təşkil edir.

Terminoloji ekvivalentlik bir dildəki terminlə digər dildə həmin anlayışı ifadə edən termin arasında funksional və konseptual uyğunluğun yaradılmasını nəzərdə tutur. Lakin belə uyğunluq həmişə sözbəsöz qarşılıq əsasında müəyyənləşmir. Eyni anlayış müxtəlif dillərdə struktur, leksik-semantik və ya terminoloji baxımdan fərqli şəkildə ifadə oluna bilər. Bu səbəbdən tibbi terminlərin tərcüməsində yalnız lüğəvi uyğunluğa deyil, terminin süni intellektd olduğu sahəyə və konkret kontekstdəki funksiyasına da diqqət yetirilməlidir.

Tibbi terminologiyanın digər mühüm xüsusiyyəti beynəlxalq termin elementlərinin geniş yayılmasıdır. Latın və yunan mənşəli terminoloji komponentlər bir çox dillərin tibbi terminoloji sistemlərində ümumi xüsusiyyətlər formalaşdırır. Bununla belə, beynəlxalq terminlərin mövcudluğu avtomatik şəkildə tərcümənin asan olması demək deyil. Xüsusilə milli dildə formalaşmış terminlərin ingilis dilində standart peşəkar ekvivalentinin müəyyənləşdirilməsi əlavə terminoloji bilik tələb edir. Azərbaycan–ingilis tibbi terminologiyası baxımından O. Abdullayevin lüğəti mühüm istinad mənbələrindən biridir [1]. Lüğətdə təxminən 40000 söz və söz birləşməsinin təqdim olunması onun Azərbaycan dilində tibbi terminlərin ingilis dili qarşılıqlarının müəyyənləşdirilməsi üçün əhəmiyyətli resurs olduğunu göstərir. Bununla yanaşı, lüğət ekvivalentin müəyyənləşdirilməsi üçün başlanğıc istinad mənbəyi kimi nəzərdən keçirilməli, müasir tibbi istifadənin və beynəlxalq terminoloji normaların ayrıca yoxlanılması da nəzərə alınmalıdır. Generativ süni intellekt ənənəvi qayda əsaslı və ya statistik maşın tərcüməsi sistemlərindən müəyyən xüsusiyyətlərinə görə fərqlənir. Böyük dil modelləri geniş mətn məlumatları əsasında dil nümunələrini öyrəndiyindən, onlar yalnız ayrı-ayrı sözlərin deyil, sözlərarası əlaqələrin və kontekstin də nəzərə alındığı tərcümələr yarada bilirlər. Bu xüsusiyyət xüsusilə çoxmənalı tibbi terminlər baxımından əhəmiyyətlidir.

Məsələn, Azərbaycan dilində “tutma” sözü müxtəlif tibbi kontekstlərdə fərqli anlayışlara uyğun gələ bilər. “Epileptik tutma” ifadəsində ingilis dilində *seizure*, digər kontekstlərdə isə *attack* və ya başqa terminoloji qarşılıqlar mümkün ola bilər. Buna görə termini ayrıca təqdim etməklə cümlə daxilində təqdim etmək arasında nəticə fərqinin araşdırılması süni intellektin kontekstual emal imkanlarını qiymətləndirmək üçün əlverişli üsuldur.

Müasir tədqiqatlar göstərir ki, ixtisaslaşmış terminologiya dil modellərinin tərcümə keyfiyyətində xüsusi rol oynayır. Tibbi tərcümədə yalnız dil modelinin nəticəsinə əsaslanmaq məqsədəuyğun hesab edilmir. Tibbi terminlərin tərcüməsində süni intellektin kifayət qədər yüksək nəticələr göstərə bildiyi, lakin terminoloji əhatənin tam olmadığı və ekspert yoxlamasının vacibliyi vurğulanır. Beləliklə, generativ süni intellekt tibbi terminlərin tərcüməsində tərcüməçi üçün alternativ və sürətli dil vasitəsi kimi çıxış edə bilər. Lakin onun nəticəsi terminoloji istinad mənbələri və mütəxəssis biliyi ilə müqayisə edilməlidir. Bu baxımdan insan–süni intellekt əməkdaşlığı tibbi tərcümənin daha real və perspektivli modeli kimi görünür [2;321].

DOI:10.30546/gdu.5.2026

Sabit terminlərin tərcüməsində süni intellektin imkanları. Anatomik terminlərin tərcüməsini araşdırmaq və müqayisə etmək tədqiqat baxımından əsaslı əhəmiyyət daşıyır. Bu qrupda "qaraciyər – liver", "mədəaltı vəzi – pancreas", "öd kisəsi – gallbladder", "onurğa beyni – spinal cord", "qalxanabənzər vəz – thyroid gland" və "böyrəküstü vəz – adrenal gland" kimi terminlər yer alır. Bu tip terminlərin əsas xüsusiyyəti onların tibbi sistemdə nisbətən sabit anlayışlara uyğun gəlməsidir. Buna görə belə terminlərin generativ süni intellekt tərəfindən tanınması və ingilis dilində geniş qəbul edilmiş qarşılıqlarının təqdim edilməsi gözlənilən nəticələr sırasında yer alır. Lakin terminoloji baxımdan burada da müəyyən fərqlər mümkündür. Məsələn, Azərbaycan dilində "qalxanabənzər vəz" ifadəsinin ingilis dilində *thyroid gland* şəklində verilməsi həm leksik, həm də terminoloji baxımdan uyğun qarşılıqdır. Bu halda sözbəsöz tərcümə prinsipi deyil, ingilis tibbi terminologiyasında qəbul olunmuş ekvivalentdən istifadə edilməlidir. Eyni vəziyyət "mədəaltı vəzi" terminində də müşahidə olunur. Burada mənbə dilin strukturunun mexaniki şəkildə saxlanılması əvəzinə ingilis dilindəki standart *pancreas* termini seçilməlidir. Bu nümunə tibbi terminologiyada formal uyğunluqla terminoloji ekvivalentliyin eyni anlayış olmadığını göstərir. Bu baxımdan generativ süni intellektin üstünlüklərindən biri onun yalnız morfoloji komponentlərə əsaslanmadan hazır terminoloji vahidi təqdim edə bilməsidir. Lakin belə nəticə yalnız istinad mənbəyi ilə yoxlandıqda elmi baxımdan etibarlı hesab edilə bilər. [5]

Xəstəlik və patologiya terminlərinin tərcüməsi. Xəstəlik və patologiya terminləri terminoloji baxımdan daha mürəkkəb qrup təşkil edir. "Şəkərli diabet", "arterial hipertenziya", "ürək çatışmazlığı", "böyrək çatışmazlığı", "ağciyər ödemi" və "qaraciyər sirrozu" kimi terminlər yalnız ayrı-ayrı sözlərin deyil, müəyyən tibbi anlayışın ifadəsidir. Burada süni intellektin imkanları iki səviyyədə qiymətləndirilə bilər. Bir tərəfdən, geniş yayılmış xəstəlik adlarının düzgün tanınması nisbətən asandır. Digər tərəfdən, modelin terminə verdiyi alternativlər arasında tibbi baxımdan daha standart və daha az standart variantın fərqləndirilməsi tələb oluna bilər. Bu məqam generativ süni intellektin "dil baxımından düzgün" nəticə ilə "terminoloji baxımdan üstün" nəticə arasında fərqi hər zaman avtomatik müəyyənləşdirə bilmədiyini göstərən mühüm aspektdir.

Diaqnostik terminlərin tərcüməsi. Diaqnostik terminlər arasında "maqnit-rezonans tomoqrafiyası", "kompüter tomoqrafiyası", "elektrokardioqrafiya", "biopsiya", "qan təzyiqinin ölçülməsi" və "ultrasəs müayinəsi" kimi vahidlər seçilmişdir. Bu terminlərdə abreviaturaların, beynəlxalq termin elementlərinin və tam termin–qısaltma münasibətlərinin qorunması xüsusi əhəmiyyət daşıyır. Məsələn: *Xəstəyə beyin nahiyəsinin maqnit-rezonans tomoqrafiyası aparılmışdır.* İngilis dilində terminoloji baxımdan gözlənilən qarşılıq *magnetic resonance imaging (MRI)* şəklindədir. Burada süni intellektin yalnız *magnetic resonance tomography* kimi formal ekvivalent yaratması kifayət hesab edilə bilməz. Çünki tibbi tərcümədə mənbə dildəki terminoloji strukturun saxlanılması deyil, hədəf dildə qəbul edilmiş peşəkar terminologiyanın seçilməsi əsasdır.

Kontekstin terminoloji seçimə təsiri. Tədqiqatın ən mühüm istiqamətlərindən biri kontekstdən asılı terminlərin tərcüməsidir. Bu qrupa "axıntı", "tutma", "ifrazat", "zədələnmə" və "ocaqlı" kimi vahidlərin daxil edilməsi məqsədəuyğundur. Məsələn, "axıntı" termini müxtəlif tibbi situasiyalarda fərqli ingilis dili qarşılıqları tələb edə bilər. Qulaqdan və ya yaradan gələn maye üçün *discharge*, drenaj prosesi ilə bağlı kontekstdə isə *drsüni intellektnage* kimi terminlər meydana çıxa bilər. Buna görə termini ayrıca təqdim etdikdə alınan cavab ilə tibbi cümlə daxilində alınan cavabın fərqlənməsi gözləniləndir. Bu baxımdan generativ süni intellektin potensial üstünlüyü onun cümlə səviyyəsində semantik əlaqələri nəzərə almaq imkanında görünür [5: 476]..

DOI:10.30546/gdu.5.2026

Süni intellektin üstünlükləri və məhdudiyyətləri. Aparılan nəzəri və metodoloji təhlil əsasında generativ süni intellektin Azərbaycan–ingilis tibbi terminologiyasının tərcüməsində bir sıra imkanlarını müəyyənləşdirmək mümkündür. İlk növbədə, sürət mühüm üstünlükdür. Böyük həcmli terminoloji materialın ilkin tərcüməsinin qısa müddətdə hazırlanması mümkündür. Bu xüsusiyyət xüsusilə tibbi mətnlərin ilkin emalı və tərcüməçinin iş yükünün azaldılması baxımından əhəmiyyətlidir. İkinci üstünlük alternativlərin təqdim edilməsidir. Generativ sistem müəyyən termin üçün bir neçə mümkün qarşılıq təklif edə və kontekst əsasında onların arasında seçim edə bilər. Başqa bir üstünlük kontekstual emal imkanlarıdır. Müasir tədqiqatlar göstərir ki, prompt və kontekst nümunələrinin düzgün qurulması tibbi tərcümə nəticələrinə təsir edə bilər. Digər üstünlük insan–maşın əməkdaşlığı üçün imkan yaratmasıdır. Tibbi tərcüməçi süni intellekt tərəfindən hazırlanmış ilkin variantı yoxlaya, terminoloji uyğunsuzluqları düzəldə və yekun mətni sahə standartlarına uyğunlaşdıra bilər. Tibbi tərcümədə insan ekspertizasının qorunması müxtəlif empirik tədqiqatlarda da vurğulanır. Bununla yanaşı, bir sıra məhdudiyyətlər də nəzərə alınmalıdır.

Əsas problemlərdən biri terminoloji qeyri-sabitlikdir. Eyni anlayış müxtəlif kontekstlərdə müxtəlif formalarda təqdim edilə bilər. Bu, xüsusilə sinonimlər və yaxın anlayışlar arasında seçim zamanı özünü göstərə bilər. Başqa bir məhdudiyyət kontekstdən asılılığın düzgün müəyyənləşdirilməməsi ehtimalıdır. Çoxmənalı terminlərdə süni intellektin seçdiyi qarşılıq ümumi dil baxımından məqbul olsa da, konkret tibbi kontekstə uyğun olmaya bilər. Digər problem standart terminlə sözbəsöz tərcümənin qarışdırılmasıdır [3;76]. Tibbi terminlərin bir hissəsində mənbə dilin strukturunu saxlayan tərcümə hədəf dildə qəbul edilmiş terminoloji ekvivalent hesab olunmur.

Nəticə. Azərbaycan dilindən ingilis dilinə tibbi terminologiyanın tərcüməsində generativ süni intellektin imkanları və məhdudiyyətlərinin araşdırılması göstərir ki, bu texnologiya ixtisaslaşmış tərcümə prosesində əhəmiyyətli yardımçı vasitəyə çevrilə bilər. Xüsusilə standart anatomik terminlər, geniş yayılmış xəstəlik adları və beynəlxalq terminoloji vahidlər üzrə sürətli ilkin tərcümə imkanları diqqəti cəlb edir. Bununla yanaşı, tibbi terminlərin tərcüməsində yalnız dil baxımından düzgünlük kifayət etmir. Terminoloji ekvivalentliyin qorunması, hədəf dildə qəbul edilmiş tibbi terminin seçilməsi və terminin konkret kontekstdə düzgün funksionallaşdırılması əsas şərtlərdir. Xüsusilə çoxmənalı və kontekstdən asılı terminlərdə bu məsələ daha qabarıq şəkildə özünü göstərir. Araşdırmanın nəzəri və metodoloji nəticələri əsasında belə qənaətə gəlmək mümkündür ki, generativ süni intellekt tibbi tərcümədə tərcüməçinin əvəzedicisi deyil, onun fəaliyyətini dəstəkləyən alət kimi daha səmərəli istifadə oluna bilər. Süni intellekt tərəfindən yaradılmış terminoloji qarşılıq etibarlı tibbi lüğətlər, terminoloji bazalar və müvafiq sahə mütəxəssisinin biliyi ilə yoxlanıldıqda onun praktik dəyəri artır Bu baxımdan tibbi tərcümədə gələcək tədqiqatların daha geniş Azərbaycan–ingilis terminoloji korpusları, müxtəlif generativ modellər, fərqli prompt strategiyaları və mütəxəssis qiymətləndirməsi əsasında aparılması məqsədəuyğundur.

Ədəbiyyat

1. Abdullayev, O. M. (2002). *Azərbaycanca-ingiliscə tibb lüğəti: 40000-ə yaxın söz və söz birləşməsi*. Bakı: Nurlar NPM, 416 s.
2. Kim, S., Sung, M., Lee, J., Lim, H., & Gimenez Perez, J. (2024). Efficient terminology integration for LLM-based translation in specialized domsüni intellektns. *Proceedings of the Ninth Conference on Machine Translation*, 636–642.
3. Mutal, J., Rubino, R., & Bouillon, P. (2025). Factors affecting translation quality in in-context learning for multilingual medical domsüni intellektn. *Proceedings of the Tenth Conference on Machine Translation*, 161–179.

DOI:10.30546/gdu.5.2026

4. Noll, R., Berger, A., Kieu, D., et al. (2025). Assessing GPT and DeepL for terminology translation in the medical domsüni intellektn: A comparative study on the human phenotype ontology. *BMC Medical Informatics and Decision Making, 25*, 237. https://doi.org/10.1186/s12911-025-03075-8
5. Silveira, D., Sánchez-Torrón, M., & Moniz, H. (2024). Generating subject-matter expertise assessment questions with GPT-4: A medical translation use-case. *Proceedings of the 25th Annual Conference of the European Association for Machine Translation*, 628–635.

OPPORTUNITIES AND LIMITATIONS OF ARTIFICIAL INTELLIGENCE IN TRANSLATING MEDICAL TERMINOLOGY

Qasimli Leman Maharram

Summary

In recent years, the integration of artificial intelligence (AI) technologies, particularly generative language models, into the translation process has opened up new possibilities for translating specialized texts. However, in the field of medical translation, producing a fluent and linguistically accurate translation does not necessarily mean that the terminology is also accurate. Medical terminology requires particular attention to the precise expression of concepts, the preservation of appropriate terminological equivalents, the role of context, and compliance with the terminology accepted within the relevant medical field. This study explores the possibilities and limitations of generative AI in translating medical terms from Azerbaijani into English. The main aim of the study is to examine whether AI provides equally accurate English equivalents when medical terms are presented separately and when they are used in complete sentences. The translations are evaluated in three categories: correct, partially correct, and incorrect. The theoretical and methodological framework of the study is based on the main characteristics of medical terminology, the concept of terminological equivalence, the role of AI in specialized translation, and the importance of human post-editing. By examining actual translation examples, the study seeks to provide a clearer picture of both the strengths and limitations of generative AI in Azerbaijani–English medical terminology translation.

ВОЗМОЖНОСТИ И ОГРАНИЧЕНИЯ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА ПРИ ПЕРЕВОДЕ МЕДИЦИНСКОЙ ТЕРМИНОЛОГИИ

Гасумлы Леман Магеррамович

Резюме

В последние годы внедрение технологий искусственного интеллекта (ИИ), в частности генеративных языковых моделей, в процесс перевода открыло новые возможности для перевода специализированных текстов. Однако в сфере медицинского перевода беглый и лингвистически точный перевод не всегда означает, что терминология передана верно. Медицинская терминология требует особого внимания к точному выражению понятий, сохранению соответствующих терминологических эквивалентов, роли контекста и соблюдению терминологии, принятой в соответствующей медицинской области.В настоящем исследовании рассматриваются возможности и ограничения генеративного ИИ при переводе медицинских терминов с азербайджанского языка на английский. Основная цель исследования-выяснить, обеспечивает ли ИИ одинаково точные английские эквиваленты, когда медицинские термины представлены отдельно и когда они употребляются в полных предложениях.

DOI:10.30546/gdu.5.2026

Переводы оцениваются по трём категориям: правильный, частично правильный и неправильный. Теоретико-методологическая основа исследования включает основные характеристики медицинской терминологии, понятие терминологической эквивалент ности, роль ИИ в специализированном переводе и значение постредактирования человеком. Анализируя реальные примеры перевода, исследование стремится нагляднее показать как сильные стороны, так и ограничения генеративного ИИ при переводе медицинской терминологии с азербайджанского языка на английский.

Rəyçi: fil.ü.f.d., dos., F.Salayeva
Daxil olma tarixi 08 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:81.

AZƏRBAYCAN DİLİNİN DİALEKTLƏRİNİN KORPUS ƏSASLI TƏDQİQİ: MÖVCUD DİL RESURSLARI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Qədirova Gülçöhrə Qədir qızı
Azərbaycan Universiteti
ORCID ID: 0009-0009-5866-5471
gulchohra.gadirova@au.edu.az

Xülasə: *Bu iş Azərbaycan dilinin dialekt və şivə materialının korpus dilçiliyi baxımından necə öyrənilə biləcəyi sualına həsr olunub. Son onilliklərdə dilçilikdə çöl-tədqiqatı ilə yanaşı, geniş mətn massivlərinin rəqəmsal mühitə köçürülməsi və proqram təminatı vasitəsilə kəmiyyət təhlili aparılması getdikcə daha çox yer tutur. Azərbaycan dilçiliyi dialektoloji baxımdan kifayət qədər zəngin irsə malikdir — bunu Ə. Abdullayev, T. Hacıyev, Q. Kazımov kimi dilçilərin əsərləri sübut edir; buna baxmayaraq, toplanmış materialın axtarıla bilən, annotasiyalı rəqəmsal korpus şəklində birləşdirilməsi işi hələ çox geridədir. Burada ingilisdilli, ərəbdilli, çindilli və almandilli mühitdə formalaşdırılan dialekt korpuslarının təcrübəsi nümunə kimi götürülür, paralel olaraq Azərbaycan dili üçün son vaxtlar hazırlanan açıq mənbəli dil modelləri və leksik-korpus infrastrukturu ilə bağlı layihələr nəzərdən keçirilir. Yazının əsas qayəsi — mövcud resursları qiymətləndirərək Azərbaycan dilinin gələcək dialekt korpusu üçün real inkişaf yollarını göstərməkdir. Bunun üçün təsviri, müqayisəli-tipoloji və təhlil-sintez üsulları tətbiq edilib. Aparılan araşdırma vahid, annotasiyalı, açıq girişli dialekt korpusunun formalaşdırılmasının zəruri olduğunu göstərir; buna görə də sonda konkret elmi-təşkilati addımlar təklif olunur.*

Açar sözlər: dialektologiya, korpus dilçiliyi, Azərbaycan dili, dialekt korpusu, rəqəmsal dil resursları, milli korpus, dil texnologiyaları

Key words: dialectology, corpus linguistics, Azerbaijani language, dialect corpus, digital language resources, national corpus, language technologies

Ключевые слова: диалектология, корпусная лингвистика, азербайджанский язык, диалектный корпус, цифровые языковые ресурсы, национальный корпус, языковые технологии.

GİRİŞ

Hazırkı dövrdə dil elmi getdikcə daha çox rəqəmsal alətlərə söykənir. Korpus dilçiliyi artıq özbaşına bir sahə olmaqdan başqa, leksikologiyaya, qrammatikaya, üslubiyyata, dialektologiyaya da yeni qapılar açıb. Milyonlarla sözlük mətn toplusunun toplanması, işarələnməsi (annotasiyası) və rəqəmlərlə ölçülməsi indi dilçiyə bir vaxtlar mümkün olmayan miqyasda nəticə çıxarmağa şərait yaradır.

Dialekt materialı isə hər bir xalqın keçmişini, məişətini, düşüncə tərzini özündə saxlayan ən dəyərli qaynaqlardan sayılır. Amma şəhərləşmə, media və məktəb dilinin təsiri nəticəsində yerli danışıq tərzləri get-gedə arxa plana keçir, bəzən isə tamamilə unudulmaq təhlükəsi ilə qarşılaşır. Ona görə bu material vaxtında yazıya alınmalı, qorunmalı və elmi dövriyyəyə buraxılmalıdır — bu, sadəcə nəzəri maraq deyil, həm də mədəni məsuliyyət məsələsidir. Xarici ölkələrdə dialekt materialının korpus halına salınması artıq adi hala çevrilib, bizdə isə bu iş hələ yeni-yeni başlayır.

Mövzunun günün məsələsi olmasının bir neçə səbəbi var. Əvvəla, əlimizdə kifayət qədər dialektoloji material (lüğət, atlas, monoqrafiya) olsa da, bu material hələ maşınla oxuna bilən formaya keçirilməyib. Sonra, süni intellekt sürətlə inkişaf etdiyi bir vaxtda, Azərbaycan dili kimi az öyrənilmiş dillər üçün açıq dil resursuna tələbat da artır. Üstəlik, xarici təcrübədə

DOI:10.30546/gdu.5.2026

toplanan bilik hələ Azərbaycan materialına kifayət qədər tətbiq edilməyib — bu boşluğu doldurmaq lazımdır.

Yazının məqsədi budur: Azərbaycan dilinin dialekt materialının korpus əsaslı öyrənilməsi üçün əldə olan resursları nəzərdən keçirmək, dünyada bu sahədə toplanmış təcrübəni öyrənmək və bunun əsasında Azərbaycan dili üçün real inkişaf yolları göstərmək.

Bu məqsədə çatmaq üçün bir neçə vəzifə qarşıya qoyulub: birincisi, Azərbaycan dialektologiyasının nəzəri bazasına nəzər salmaq; ikincisi, korpus dilçiliyinin əsas prinsiplərini yığcam şəkildə göstərmək; üçüncüsü, dünyanın müxtəlif bölgələrində yaradılan dialekt korpuslarını nümunə kimi götürmək; dördüncüsü, Azərbaycan dili üçün son vaxtlarda ortaya çıxan rəqəmsal resursları qiymətləndirmək; beşincisi, isə bütün bunlardan çıxış edərək konkret təkliflər irəli sürmək.

İşin yeniliyi ondadır ki, Azərbaycan dilçiliyində indiyədək dialektologiya ilə korpus dilçiliyi bir yerdə, sistemli şəkildə müqayisə olunmayıb — burada milli ənənə ilə beynəlxalq təcrübə üz-üzə qoyulur. Metod olaraq təsviri-müqayisəli təhlil əsas götürülüb. Mənbə bazasını isə Azərbaycan dilçiliyinin klassik əsərləri, korpus dilçiliyi üzrə tanınmış nəşrlər və 2023–2026-cı illərdə işıq üzü görmüş yeni məqalələr təşkil edir.

ƏSAS HİSSƏ

1. Azərbaycan dilçiliyində dialektologiyanın nəzəri-metodoloji əsasları

Azərbaycan dilçiliyində dialektologiyanın kökü çox əvvəllərə gedib çıxır və bu sahədə xeyli iş görülüb. Belə fundamental işlərdən biri kimi Ə. Z. Abdullayevin qələmə aldığı dialektologiya kitabını [1] göstərmək olar — burada dialekt bölgüsü prinsiplərindən tutmuş fonetik, leksik, qrammatik xüsusiyyətlərin təsnifatına qədər geniş material var. Bundan başqa, A. A. Axundovun tərtib etdiyi dialektoloji lüğət [3] leksik materialın toplanıb sistemə salınması baxımından çox dəyərlidir; düşünürük ki, bu lüğət elə bu gün belə dialekt materialının rəqəmsallaşdırılması üçün başlanğıc nöqtəsi ola bilər.

Digər tərəfdən, AMEA-nın hazırladığı dialektoloji atlas [4] dialekt xüsusiyyətlərinin ərazi üzrə necə yayıldığını xəritə vasitəsilə göstərir. Bizim fikrimizcə, bu cür atlaslar məkan məlumatlarına söykənən (geospatial) rəqəmsal korpusların qurulması üçün hazır model rolunu oynaya bilər, çünki hər bir dialekt cizgisinin coğrafi koordinatla bağlanması interaktiv xəritələrin yaradılmasını asanlaşdırır. T. İ. Hacıyevin iki kitabı — dialekt və şivələrə həsr olunmuş əsər [11] ilə ədəbi dilin tarixinə dair monoqrafiya [12] — dialektlərin ədəbi dillə necə qarşılıqlı təsirdə olduğunu, tarixi inkişaf yolunu izah edir və materialın zaman kəsimində necə dəyişdiyini anlamaq üçün lazımlı zəmin yaradır. Q. Ş. Kazımovun dərslik xarakterli əsəri [16] isə dialekt faktlarının ümumi dil sistemi çərçivəsində necə şərh oluna biləcəyinə nümunə göstərir.

Yuxarıda sadalanan mənbələr onu göstərir ki, Azərbaycan dialektologiyasında material toplamaq, təsnif etmək və lüğət tərtib etmək işi xeyli irəli gedib. Ancaq bütün bu material demək olar ki, yalnız kağız üzərindədir — lüğət, atlas, monoqrafiya şəklində qalır və hələ kompüterin oxuya biləcəyi, axtarış aparıla biləcəyi rəqəmsal korpus halına salınmayıb. Bizcə, məhz bu boşluq zəngin material bazasının müasir texnologiyalarla tam işlənməsinə mane olan əsas amildir.

2. Korpus dilçiliyi: nəzəri-metodoloji çərçivə

Korpus dilçiliyi dedikdə, real dil istifadəsini əks etdirən, elektron formatda saxlanılan böyük mətn toplularının öyrənilməsi başa düşülür. Bu sahənin təməl daşlarından sayılan Sinclairin işində [25] konkordans üsulunun — yəni sözün real kontekstdə necə işləndiyinin izlənməsinin — dil vahidlərinin öyrənilməsində nə qədər əhəmiyyətli olduğu göstərilir. Biber, Conrad və Reppenin birgə yazdığı kitab [7] isə korpus təhlilinin dil strukturuna necə tətbiq edildiyini addım-addım izah edir.

DOI:10.30546/gdu.5.2026

Bənzər şəkildə, McEnery, Xiao və Tononun [22], eləcə də McEnery ilə Hardienin birgə əsəri [21] korpus qurarkən nələrə diqqət yetirmək lazım olduğunu — nümunə seçimini, balansı, işarələməni — ətraflı şərh edir. Bakerin kitabında [5] isə korpus üsullarının diskurs təhlili ilə necə birləşdirilə biləcəyi göstərilir ki, bu, dialekt materialının sosial kontekstdə oxunması üçün faydalı ola bilər. Ayrıca, Griesin [10] təqdim etdiyi statistik yanaşmalar korpus məlumatlarının rəqəmlərlə ölçülməsinə imkan verir — belə metodlar dialekt fərqlərinin kəmiyyətcə qiymətləndirilməsində əvəzsizdir.

Deməli, korpus dilçiliyi artıq sınaqdan keçmiş, hazır bir alət dəsti təklif edir: material toplama qaydaları, işarələmə sxemləri, konkordans üsulu və statistik təhlil. Qalan iş isə bu alətləri Azərbaycan dilinin dialekt materialına necə uyğunlaşdırmaqdan ibarətdir.

3. Dünya təcrübəsində dialekt korpuslarının yaradılması

Dünya dilçiliyində dialektologiya ilə korpus dilçiliyinin birləşdirilməsi artıq yeni sayılmır. Chambers və Trudgillin birgə yazdığı kitab [9] dialekt fərqlərinin necə təsnif edildiyini, hansı üsullarla öyrənildiyini göstərir və bu gün belə sahənin başlıca dərsliyi hesab olunur. Bealın əsəri [6] ilə Kortmannın tərtib etdiyi toplu [17] ingilis dilinin bölgə variantlarını sistemli təsvir edir, Britainin redaktə etdiyi kitab [8] isə Britaniya adalarındakı dil müxtəlifliyinə geniş nəzər salır. Trudgillin sosiolinqvistika kitabı [26] isə göstərir ki, dialekt fərqləri təkcə coğrafiyaya deyil, yaş, cins, təhsil kimi sosial amillərə də bağlıdır — deməli, gələcək korpusda bu tip metadatanın da yeri olmalıdır.

Son iki-üç ildə çıxan işlərə baxsaq, dialekt korpusları qurmaq üçün artıq kifayət qədər konkret texniki yol xəritələri mövcuddur. Məsələn, Hamad, Khalilia və Jarrarın "Konooz" adlı layihəsi [13] bir neçə ərəb dialektini əhatə edən korpus yaradıb və bunu adların (şəxs, yer, təşkilat) avtomatik tanınması üçün istifadə edib — yəni dialekt fərqləri süni intellekt alqoritmləri ilə də emal oluna bilir. Alahmari və həmkarlarının işi [2] isə maraqlı bir yol tutub: Səudiyyə dialektlərini ayırd etmək üçün mahnı sözlərindən istifadə ediblər, bu da göstərir ki, korpus üçün material həmişə "rəsmi" mətnlərdən götürülmür. Zhao, Ding və Minin Hangzhou dialektinə dair tədqiqatı [28] isə bir addım da irəli gedərək dərin öyrənmə və rəqəmsal əkiz texnologiyasından istifadə edib — nəticədə korpus təkcə yazı deyil, səs və başqa məlumat növlərini də əhatə edib.

Lonergan və həmkarlarının az resurslu dillərdə dialekt tanınması üzrə işi [18] bir qədər tənqidi sual qaldırır: mövcud balanslaşdırılmış korpuslar həqiqətən kifayətdirmi? Bu sual, açığı, Azərbaycan dili kimi rəqəmsal resursu az olan dillər üçün də çox yerindədir. Albelalinin "KIND" adlı məlumat toplusu [27] isə fərqli yol göstərir — dialekt materialını toplamaq üçün geniş ictimaiyyətin köməyinə (crowdsourcing) müraciət olunub, bu da az xərclə çox material toplamağa imkan verir. Oberkircher və həmkarlarının "Saar-Voice" layihəsi [24] isə Almaniyanın Saarbrücken bölgəsi üçün çoxdanışıqlı nitq korpusu yaradıb, bu, dialekt fonetikasının öyrənilməsi üçün əvəzsiz mənbədir.

Bütün bu nümunələri bir yerə yığsaq, bir neçə ümumi meyl aydın görünür: sadə mətn korpusundan çoxmodallı (mətn+səs+video) korpusa keçid; çöl işi ilə yanaşı geniş ictimaiyyətdən və qeyri-ənənəvi mənbələrdən (mahnı, sosial media) istifadə; işarələmədə maşın öyrənməsindən faydalanmaq; və nəhayət, korpusun balanslı, hər kəsi təmsil edən şəkildə qurulmasına diqqət.

4. Azərbaycan dili üçün mövcud rəqəmsal və korpus resursları

Son bir neçə ildə Azərbaycan dili üçün də rəqəmsal resurslar sahəsində hərəkət başlayıb. Isbarov və həmkarlarının işi [15] Azərbaycan dili üçün açıq mənbəli əsas dil modelləri yaratmağa yönəlib; bu, süni intellekt texnologiyalarının Azərbaycan dilinə gətirilməsi baxımından qiymətli addımdır, hərçənd bu modellər hələlik dialektlər arasında fərq qoymağı bacarmır. Nourmohammadi Khiarak və həmkarlarının ingilis-Azərbaycan

DOI:10.30546/gdu.5.2026

paralel korpusu [23] isə dil öyrətmə texnologiyaları üçün paralel material yaratmaq təcrübəsini göstərir — bu üsul, prinsip etibarilə, gələcəkdə dialekt ilə ədəbi dili qarşı-qarşıya qoyan paralel korpus üçün də tətbiq oluna bilər.

Mammadli, Mahmudov və Tahirovun iki fərqli jurnalda — "Turkology" [19] və "Linguistic Researches" [20] — dərc etdirdikləri işlər Azərbaycan dilinin milli korpusunu və leksik bazasını qurma cəhdini əks etdirir. Bu, sözün əsl mənasında, Azərbaycan dilçiliyində korpus infrastrukturuna doğru atılan ilk ciddi addımlardan biridir; ancaq diqqətlə baxsaq görürük ki, bu layihələr ədəbi dil materialına köklənib, dialekt hissəsi isə hələ ayrıca işlənməyib. Həbibovanın məqaləsi [14] bu boşluğu qismən doldurur — orada korpus dilçiliyi metodları, o cümlədən konkordans üsulu Azərbaycan materialına necə tətbiq edilə biləcəyi göstərilir, beləliklə, bu iş metodoloji körpü rolunu oynayır.

Bu bölmədə toplanan faktlar aydın bir şəkil çəkir: Azərbaycan dili üçün korpus infrastrukturu getdikcə formalaşır, lakin hələ ki ədəbi dil normasına söykənir, dialekt materialını əhatə etmir. Beləliklə, bir tərəfdə zəngin, amma kağız üzərində qalan dialektoloji irs (əvvəlki bölməyə bax), digər tərəfdə isə müasir, amma dialekti nəzərə almayan rəqəmsal infrastruktur var — bu ikisi arasındakı boşluq, yəni axtarıla bilən dialekt korpusu, hələ doldurulmayıb.

5. Azərbaycan dialekt korpusunun yaradılması: imkanlar və perspektivlər

İndiyə qədər deyilənlərdən çıxış edərək, Azərbaycan dilinin dialekt korpusu üçün bir neçə real addım təklif etmək olar. İlk növbədə, əlimizdə olan çap mənbələrini — dialektoloji lüğəti [3], atlası [4], monoqrafiyaları [1], [11] — rəqəmsal formaya keçirmək, mətni, metadatanı və işarələməni bir yerdə saxlayan struktura salmaq lazımdır; bu, nisbətən az xərc tələb edən, amma effektli başlanğıc ola bilər. İkinci addım kimi, Konooz [13] və KIND [27] layihələrinin göstərdiyi kimi, təkcə sahə işi ilə kifayətlənməyib, geniş ictimaiyyətin köməyindən (crowdsourcing) də istifadə etmək olar — bu, xüsusən dünyanın müxtəlif yerlərinə səpələnmiş azərbaycandilli icmalardan material toplamaq üçün əlverişlidir.

Üçüncü olaraq, Saar-Voice [24] və Hangzhou dialekti [28] üzrə işlərdən görünür ki, korpusa təkcə yazılı mətni deyil, səsi də daxil etmək vacibdir — çünki dialekt fərqləri çox vaxt qrammatikadan çox tələffüzdə özünü büruzə verir. Dördüncü tövsiyə isə budur: Isbarov və həmkarlarının [15] açıq dil modelləri təcrübəsinə əsaslanaraq, yaradılacaq korpus gələcəkdə dialektləri tanıyan dil modellərinin öyrədilməsi üçün material kimi istifadə oluna bilər — bunun həm elmi, həm də praktik (nitq tanınması, maşın tərcüməsi) faydası var.

Beşinci tövsiyə — Mammadli, Mahmudov və Tahirovun [19], [20] başladığı milli korpus işini davam etdirərək, gələcək dialekt korpusunu bu infrastrukturun bir hissəsi (alt-korpus) kimi qurmaq daha ağlabatandır, çünki bu, həm resurslara qənaət edər, həm də iş ardıcıllığını pozmaz. Son olaraq, Griesin [10] göstərdiyi statistik üsulları və McEnery ilə Hardienin [21] işarələmə qaydalarını tətbiq etmək yaradılacaq korpusun beynəlxalq standartlara cavab verməsini təmin edər.

Sadalanan addımların həyata keçməsi üçün AMEA-nın müvafiq institutları, universitetlər və dil texnologiyaları üzrə çalışan mütəxəssislər arasında əməkdaşlıq qurulmalıdır. Yalnız bu cür birgə səy həm maliyyə, həm də bilik baxımından nəticə verə bilər.

NƏTİCƏ

Bu araşdırma göstərdi ki, Azərbaycan dilçiliyində dialekt materialının toplanması və lüğət şəklinə salınması işi kifayət qədər inkişaf edib, amma bu material hələ müasir korpus dilçiliyinin tələb etdiyi rəqəmsal, işarələnmiş formata keçirilməyib — bu iş hələ ilk addımlarındadır. Xarici ölkələrin təcrübəsinə baxsaq — ərəb, çin, alman, irland dilləri üzrə son layihələr daxil olmaqla — görürük ki, dialekt korpusu qurarkən çoxmodallı yanaşma, geniş ictimaiyyətin köməyi və maşın öyrənməsi metodları yaxşı nəticə verir.

DOI:10.30546/gdu.5.2026

Azərbaycan dili üçün yaradılan açıq dil modelləri və milli korpus layihələri yaxşı zəmin olsa da, bunların heç biri hələ dialekt tərəfini əhatə etmir. Ona görə düşünürük ki, mövcud çap materiallarının rəqəmsallaşdırılması, yeni sahə materialının toplanması, mətn və səsi birlikdə işarələmə, sonda isə bütün bunların milli korpus infrastrukturuna qoşulması — Azərbaycan dilçiliyi üçün gündəmdə duran prioritet vəzifədir. Belə bir korpus təkcə nəzəri dilçilik üçün deyil, dil texnologiyalarının (nitq tanınması, maşın tərcüməsi, dil modelləri) inkişafı üçün, həm də milli dil irsinin gələcək nəsillərə ötürülməsi üçün strateji əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Abdullayev, Ə. Z. (1966). Azərbaycan dialektologiyası. Bakı: Maarif.
2. Alahmari, S., Atwell, E., Alsalka, M., & Saadany, H. (2025). SADSLyC: A corpus for Saudi Arabian multi-dialect identification through song lyrics. *Proceedings of the 4th Workshop on Arabic Corpus Linguistics (WACL-4)*, pp. 38–43. https://aclanthology.org/2025.wacl-1.4/
3. Axundov, A. A. (red.). (2007). Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb.
4. A.M.E.A. (1990). Azərbaycan dilinin dialektoloji atlası. Bakı: Elm.
5. Baker, P. (2006). *Using Corpora in Discourse Analysis*. London: Bloomsbury.
6. Beal, J.C.(2010). *An Introduction to Regional Englishes*. Edinburgh: E.U. P.
7. Biber, D., Conrad, S., & Reppen, R. (1998). *Corpus Linguistics: Investigating Language Structure and Use*. Cambridge: Cambridge University Press.
8. Britain, D. (2007). *Language in the British Isles*. Cambridge: Cambridge University Press.
9. Chambers, J. K., & Trudgill, P. (1998). *Dialectology* (2nd ed.). Cambridge: Cambridge University Press.
10. Gries, S. Th. (2021). *Statistics for Linguistics with R*. Berlin: De Gruyter.
11. Hacıyev, T. İ. (1990). Azərbaycan dilinin dialekt və şivələri. Bakı: Maarif.
12. Hacıyev, T. İ. (2012). Azərbaycan ədəbi dili tarixi. Bakı: Elm.
13. Hamad, N., Khalilia, M., & Jarrar, M. (2025). Konooz: Multi-domain multi-dialect corpus for named entity recognition. *Findings of ACL 2025*.
14. Həbibova, K. (2025). Corpus Linguistics and Concordance: Methodological Approaches and New Applications. *Linguistic Researches*.
15. Isbarov, J., Huseynova, K., Mammadov, E., Hajili, M., & Ataman, D. (2024). *Open Foundation Models for Azerbaijani Language*. arXiv.
16. Kazımov, Q. Ş. (2019). Müasir Azərbaycan dili. Bakı: Elm və Təhsil.
17. Kortmann, B. (red.). (2004). *A Handbook of Varieties of English*. Berlin: Mouton de Gruyter.
18. Lonergan, L., Qian, M., Ní Chiaráin, N., Gobl, C., & Ní Chasaide, A. (2023). Towards dialect-inclusive recognition in a low-resource language: Are balanced corpora the answer? *Proceedings of Interspeech 2023*, pp. 5082–5086. https://doi.org/10.21437/Interspeech.2023-2528
19. Mammadli, N., Mahmudov, M., & Tahirov, İ. (2025). National Corpus and Lexical Infrastructure: The Experience of Building the Azerbaijani Language Lexical Database. *Turkology*.
20. Mammadli, N., Tahirov, İ., & Mahmudov, M. (2025). National Corpus and Lexical Infrastructure: The Experience of Building the Azerbaijani Language Lexical Database. *Linguistic Researches*.
21. McEnery, T., & Hardie, A. (2012). *Corpus Linguistics: Method, Theory and Practice*. Cambridge: Cambridge University Press.

DOI:10.30546/gdu.5.2026

22. McEnery, T., Xiao, R., & Tono, Y. (2006). *Corpus-Based Language Studies*. London: Routledge.
23. Nourmohammadi Khiarak, J., Ahmadi, A., Akbari Saeed, T., Asgari-Chenaghlu, M., Atabay, T., Baghban Karimi, M. R., Ceferli, I., Hasanvand, F., Mousavi, S. M., & Noshad, M. (2024). Enhancing language learning through technology: Introducing a new English-Azerbaijani (Arabic script) parallel corpus. *Proceedings of the New Trends in Translation and Technology Conference (NeTTT 2024)*, pp. 103–115. https://doi.org/10.26615/issn.2815-4711.2024_010
24. Oberkircher, L. S., Alabi, J., Klakow, D., & Trouvain, J. (2026). Saar-Voice: A multi-speaker Saarbrücken dialect speech corpus. *Proceedings of the First Workshop on Dialects in NLP — A Resource Perspective*, pp. 12–23. https://doi.org/10.63317/2xvbjjktadtu
25. Sinclair, J. (1991). *Corpus, Concordance, Collocation*. Oxford: Oxford University Press.
26. Trudgill, P. (2000). *Sociolinguistics: An Introduction to Language and Society*. London: Penguin.
27. Yamani, A. Z., Alziyady, R., AlYami, R., Albelali, S. A., Abouhagar, L., Almulhim, J., Alsulami, A., Alfarraj, M., & Al-Zaidy, R. (2024). The KIND Dataset: A Social Collaboration Approach for Nuanced Dialect Data Collection. *Proceedings of the 18th Conference of the European Chapter of the Association for Computational Linguistics: Student Research Workshop*, pp. 32–43. https://doi.org/10.18653/v1/2024.eacl-srw.3
28. Zhao, Y., Ding, Y., & Min, X. (2024). Construction of a Multimodal Dialect Corpus Based on Deep Learning and Digital Twin Technology: A Case Study on the Hangzhou Dialect.

CORPUS-BASED RESEARCH OF AZERBAIJANI DIALECTS: EXISTING LANGUAGE RESOURCES AND DEVELOPMENT PROSPECTS

Qadirova Gulcoxra Qadir

Summary

This paper looks at how Azerbaijani dialect material could be studied through corpus-linguistic methods. Azerbaijani linguistics has a long tradition of dialectological work — dictionaries, atlases, monographs — yet none of this material has so far been turned into a searchable, digitally annotated corpus. Drawing on recent corpus-building projects from English-, Arabic-, Chinese- and German-speaking contexts, together with newly published (2024–2025) digital resources for Azerbaijani such as open foundation models and national corpus initiatives, the paper weighs what already exists against what a future Azerbaijani dialect corpus would need. Descriptive and comparative methods were used throughout. The paper argues that building a unified, openly accessible, annotated dialect corpus should be treated as a priority for Azerbaijani linguistics, and sketches practical steps toward it: digitising existing print sources, gathering new material through crowdsourcing, annotating both text and speech, and linking the resulting corpus to the emerging national corpus infrastructure.

DOI:10.30546/gdu.5.2026

КОРПУСНОЕ ИССЛЕДОВАНИЕ АЗЕРБАЙДЖАНСКИХ ДИАЛЕКТОВ: СУЩЕСТВУЮЩИЕ ЯЗЫКОВЫЕ РЕСУРСЫ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ

Кадирова Гюльчохра Кадир кызж

Резюме

В статье рассматриваются возможности изучения азербайджанского диалектного материала с применением методов корпусной лингвистики. В азербайджанском языкознании существует давняя традиция диалектологических исследований, представленная словарями, атласами и монографиями, однако до настоящего времени эти материалы не были преобразованы в доступный для поиска цифровой корпус с лингвистической разметкой. Опираясь на современные проекты по созданию корпусов в англоязычной, арабоязычной, китайскоязычной и немецкоязычной среде, а также на недавно опубликованные (2024–2025 гг.) цифровые ресурсы азербайджанского языка, включая открытые базовые языковые модели и национальные корпусные инициативы, автор анализирует существующие возможности и определяет требования к будущему корпусу азербайджанских диалектов. В исследовании применяются описательный и сравнительный методы. Обосновывается необходимость рассматривать создание единого, общедоступного и аннотированного диалектного корпуса в качестве одного из приоритетных направлений развития азербайджанского языкознания. Кроме того, предлагаются практические шаги по его созданию: оцифровка существующих печатных источников, сбор нового языкового материала с привлечением широкого круга участников, аннотирование письменных текстов и устной речи, а также интеграция создаваемого корпуса в формирующуюся инфраструктуру национального корпуса азербайджанского языка.

Rəyçi: fil.ü.f.d. Qasımlı Ləman Məhərrəm qızı
Daxil olma tarixi 12 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:80.

ATTENTION-GRABBING TECHNIQUES IN JOURNALISTIC TEXTS

Guliyeva Fazila Fazil
Azerbaijan State Agrarian University
ORCİD 0000 0002 7259 1394
fazilaguliyeva8826@adau.edu.az

Annotation. *A journalistic text is a journalistic work aimed primarily at informing readers about current events in the country and around the world. Every day, editorial staff create numerous text publications that satisfy the audience's need for information. However, due to the diversity of media, it is quite common for different publications to publish materials on the same topic, especially if the text is devoted to a current event. Every media outlet strives to increase traffic: to retain existing readers and attract new ones, since the larger the audience, the more offers from advertisers. Consequently, media outlets become more competitive and in demand. However, increasing competition leads to an increasingly fierce battle for readers' attention. This problem is relevant for both little-known and large media outlets. One way to promote and increase media traffic is to use attention-grabbing techniques.*

Key words: journalistic text, attention-grabbing techniques, mass media, media influence, emotional and figurative means.

Ключевые слова: журналистский текст, приемы привлечения внимания, средства массовой информации, влияние СМИ, эмоциональные и образные средства.

Açar sözlər: jurnalist mətni, diqqət çəkən üsullar, kütləvi informasiya vasitələri, media təsiri, emosional və məcazi vasitələr.

Introduction.

Modern media texts are quite inventive in creating linguo-creative techniques, which is driven by the need to constantly search for expressive, as well as emotional and figurative means. The primary communicative task of informing the reader is complicated by the need to influence them. Thus, the specific language of modern media is determined not only by the informational function but also by the goal of media influence. It is precisely the influence function that determines the development of linguistic strategies in modern media, designed to generate complex reactions that include emotional background, connotations, and, in the broadest sense, correct the world existing in the recipient's consciousness. This explains authors' fascination with language play.

Main part.

The success of any journalistic piece depends largely on the reader's interest in reading the text. The headline influences the reader's initial perception of the publication, as well as their desire to read the material. A large number of journalists around the world work daily to create effective headlines. They use a wide range of different expressive means.

Methods for attracting attention can be divided into two categories: techniques related to the basic characteristics of a journalistic text (extralinguistic), and techniques related directly to language (linguistic). The first group includes, among other things, brevity, quotes, numbers, and brand names.

Brevity. Researchers argue that brevity can help authors retain reader attention. Headlines that use fewer than ten words attract more attention than longer ones because they are concise and eye-catching.

DOI:10.30546/gdu.5.2026

Use of quotations. Quotations lend credibility to the text.

Furthermore, quotations are one of the most common attention-grabbing techniques in modern journalistic headlines. It is important to add that, a headline placed in quotation marks is 28% more memorable. For example, an interview is best presented through the interviewee's direct speech. Quotations are also used within the text itself to retain the audience's attention.

Use of Numbers. Research shows that headlines with numbers are clicked on 15-20% more often than headlines without them. However, using numbers in the materials themselves can also attract attention. They make the text more credible and informative in the eyes of the reader.

Brand names. Brand names include the names of organizations, famous people, and the like. Brand names are traditionally considered in advertising discourse and are used both in headlines and throughout the text to attract attention.

There are also linguistic techniques for attracting attention, more characteristic of headlines. These include phraseological units, transformed expressions, foreign vocabulary, modal words, and constructions.

Phraseologisms. Phraseologisms are lexically indivisible, stable phrases.The specificity of phraseological unit headlines is that they provide a figurative characterization and evaluation of the published material without revealing its content. Moreover, phraseological units can also be found in journalistic material itself. They perform a characterizing, expressive, and descriptive function.

Transformed expressions. Transformed expressions are characterized by the expansion of a previously known phrase by introducing additional words or by changing a single word within the expression. According to I.Y.Svintsova, changes to phraseological units help avoid cliches, since in these cases the phraseological unit acquires a new shade of meaning, an unexpected connotation. Furthermore, transformed phraseological units and other transformed expressions enhance the reader's impression of the text and, provided they are used in the headline, prepare the audience to receive relevant and interesting information.

Foreign-language vocabulary. According to media researchers, the use of foreign-language vocabulary is one of the linguistic means.

Highlighting the headline within the text. Furthermore, foreign vocabulary, both in the headline and throughout the text itself, is considered a means of enhancing linguistic expressiveness and conveying national flavor.

Modal words and constructions. Modal words are a category of words, most often verbs, that express attitude toward an action, the goal setting, and the statement's relevance to reality. This attention-grabbing technique is typical for the headlines of journalistic texts and is directly related to the impact of the headline on the reader. At the same time, modal words and constructions enrich the text itself, imparting a subjective attitude toward the content of the statement.

However, the headline is only the first part of the text that the audience encounters. Attention-grabbing techniques are also important for the rest of the material: the media strive to retain existing readers and attract new ones, which is impossible to achieve without high-quality, attention-grabbing content. Extralinguistic attention-grabbing techniques, more characteristic of journalistic text publications, include information content, the topic being discussed, the presence of an opinion leader, and stylistic diversity.

Informativeness. The informativeness of a text is the degree of semantic and substantive novelty of the material for a potential reader, which is embodied in the topic and the author's concept. As E.P.Prokhorov wrote, the criterion of informativeness has three

DOI:10.30546/gdu.5.2026

necessary conditions: originality (originality and novelty of the information communicated to the audience; information intended to evoke specific memories), decodability (the accessibility of the message, the ability to understand it by the audience in accordance with the journalist's intention), relevance (the value and significance of the information communicated to the audience). If a text is filled with useful information, it is capable of generating interest in the audience. Thus, information itself can be a means of attracting attention.

Topic of discussion. A journalistic text written on a topic of discussion is likely to elicit a greater response from readers than a piece written on a less prominent topic. Audiences seek to obtain new information about the topic under discussion and learn a unique perspective on a pressing issue.

Using an opinion leader as a subject or expert in a piece. By including an opinion leader's commentary in a journalistic piece, readers not only trust the information provided but also gain interest. Therefore, using an opinion leader is one way to increase reach and traffic to a media outlet.

Stylistic heterogeneity. Stylistic heterogeneity is a means of reaching different social strata. A single journalistic piece may use linguistic units characteristic of literary-journalistic, journalistic, and colloquial styles. However, it is worth noting that the specific selection of linguistic means is most often determined by a mass, linguistically neutral audience. As for linguistic devices for attracting attention, which are more characteristic of journalistic text publications, these include emotional-evaluative vocabulary, expressive vocabulary, clichés, neologisms, and occasionalisms.

Emotional-evaluative vocabulary. Emotional-evaluative vocabulary is linguistic units that express a person's positive or negative emotional assessment of the subject matter. Journalists use this technique to attract readers' attention to both the material itself and a specific sentence within the text.

Expressive vocabulary. Expressive vocabulary serves to express the author's feelings, mood, and subjective attitude toward the subject matter. This category includes all sorts of tropes: epithets, metaphors, personification, metonymy, and others. Like emotionally evaluative words and phrases, expressive constructions serve to draw the audience's attention to both the text itself and a specific sentence within the material.

Cliché. A cliché (pattern) is a formulaic phrase that is easily reproduced in certain contexts. Clichés diminish the originality of a text, but they can also be seen as a way to attract attention. The distinctive feature of media texts is the intelligibility and comprehensibility of information, which is designed to elicit an immediate response from the reader. This is partly achieved through clichés.

Neologisms. A neologism is a word that has recently appeared in the language. New words make a text more contemporary and help avoid clichés. However, at the same time, the use of neologisms is not always successful. This occurs when new words are used to suit linguistic fashion. In this case, their use degrades the quality of the text and complicates its comprehension by the reader.

Occasionalisms. Occasionalisms are individual neologisms created by the author, according to existing linguistic word-formation patterns and used exclusively in a specific context, as a lexical device of artistic expression or language play.

Thus, the inclusion of various linguistic units whose purpose is to impart expressiveness to the material in journalistic text not only allows for the material to be original, but also to break down stereotypes in its perception, not fulfilling the reader's communicative expectations, stimulating a comprehensive understanding of media reality. Attention-grabbing

DOI:10.30546/gdu.5.2026

techniques can be roughly divided into two categories: techniques related to the basic characteristics of journalistic text (extralinguistic), and techniques that relate directly to language (linguistic). Some techniques are more characteristic of headlines, while others are more characteristic of the texts themselves.

Literature

1.Жажиева Р.С., Шишкина А.В. (2014). Газетный заголовок: рекламный аспект // Вестник Адыгейского государственного университета. Серия 2: Филология и искусствоведение. №.4 (149). С. 150-154.
2.Исмайлова Л.Г. (2014). Использование фразеологизмов в официальных СМИ Азербайджана // Коммуникология. Т. 8. № 6. С. 147-158.
3.Кубашичева С.К., Читао Л.Р. (2015). Особенности перевода заголовковсовременных английских СМИ // Вестник Адыгейского государственного университета. Серия 2: Филология и искусствоведение. № 2 (153). С. 59-62.
4.Незговоров С.В. (2023). Роль заголовка в публицистических портретных материалах региональной прессы конца XX века (на примере архангельской областной газеты «Правда Севера») // Вестник Череповецкого государственного университета. №5 (116). С. 188-199.
5.Панова Е.Ю. (2017). Креативизация журналистского текста как риторический прием (на материале колонок региональной прессы) // Вестник Челябинского государственного университета. № 6 (402). С. 68-76.
6.Прохоров Е.П. (2011). Введение в теорию журналистики. М.: Аспект Пресс.
7.Ремчукова Е.Н. (2010). Некоторые коммуникативные и стилистические особенности креативных феноменов в СМИ // Zmogus Kalbos Erdveje. № 6. С. 466-471.
8.Свинцова И.Ю. (2015). Интерпретация заголовка российских СМИ при обучении иностранцев русскому языку // Теоретические и прикладные аспекты современной науки. № 8-2. С. 136-145.

JURNALİSTİK MƏTNLƏRDƏ DİQQƏT CƏLB EDƏN TEXNİKALAR

Quliyeva Fazilə Fazil

Xülasə

Jurnalistik mətn, əsasən oxucuları ölkədə və dünyada baş verən cari hadisələr barədə məlumatlandırmağa yönəlmiş bir jurnalist işidir. Redaksiya heyəti hər gün auditoriyanın informasiyaya olan ehtiyacını ödəyən çoxsaylı mətn nəşrləri yaradır. Lakin, medianın müxtəlifliyinə görə, nəşriyyatlar çox zaman cari hadisəyə həsr olunan eyni mövzuda materiallar dərc edir. Hər bir media orqanı trafikin artırılmasına çalışır: mövcud oxucuları saxlamaq və yenilərini cəlb etmək, çünki auditoriya nə qədər böyükdürsə, reklamçılardan təkliflər bir o qədər çoxdur. Nəticədə, media orqanları daha rəqabətli və tələbkar olur. Lakin artan rəqabət oxucuların diqqəti uğrunda getdikcə şiddətli mübarizəyə gətirib çıxarır. Bu problem həm az tanınan, həm də böyük media orqanları üçün aktualdır. Media trafikini təşviq etməyin və artırmağın bir yolu da diqqət çəkən üsullardan istifadə etməkdir.

DOI:10.30546/gdu.5.2026

ПРИЕМЫ ПРИВЛЕЧЕНИЯ ВНИМАНИЯ В ЖУРНАЛИСТИЧЕСКИХ ТЕКСТАХ

Гулиева Фазиля Фазиль

Резюме

Журналистский текст-это журналистская работа, направленная прежде всего на информирование читателей о текущих событиях в стране и мире. Ежедневно редакции создают множество текстовых публикаций, удовлетворяющих потребность аудитории в информации. Однако из-за разнообразия СМИ довольно часто разные издания публикуют материалы на одну и ту же тему, особенно если текст посвящен текущему событию. Каждое СМИ стремится увеличить трафик: удержать существующих читателей и привлечь новых, поскольку чем больше аудитория, тем больше предложений от рекламодателей. Следовательно, СМИ становятся более конкуренто способными и востребованными. Однако растущая конкуренция приводит к все более ожесточенной борьбе за внимание читателей. Эта проблема актуальна как для малоизвестных, так и для крупных СМИ. Один из способов продвижения и увеличения трафика СМИ — использование приемов привлечения внимания.

Rəyçi: Məmmədov Azad Yəhya oğlu
Daxil olma tarixi 12 oktyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:811.

AZƏRBAYCAN DİLİNDƏ AQRAR TERMİNOLOGİYANIN VƏ TƏBİƏT HADİSƏLƏRİNİN FRAZEOLOJİ VAHİDLƏRDƏ, ATALAR SÖZLƏRİNDƏ DAŞIDIĞI KOQNİTİV SEMANTİKA

Salmanova Sahilə Ağahüseyn qızı, Əliyeva Lilpar Qəşəm qızı
Azərbaycan Dövlət Aqrar Universiteti
orchid: 0000-0003-2004-7730; orchid: 0000-0003-1568-4348
lilpar.aliyeva@adau.edu.az
salmanovasahile7@gmail.com

Xülasə: *Tədqiqat işi Azərbaycan dilinin frazeoloji fondunda və atalar sözlərində reallaşan aqrar terminologiyanın və təbiət hadisələrinin koqnitiv-semantik xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuşdur. Məqalədə dil və təfəkkürün qarşılıqlı əlaqəsi müstəvisində etnosun koqnitiv dil mənzərəsi araşdırılır, insanın ətraf mühiti mənimsəmə modelinin dil vahidlərinə köçürülmə mexanizmləri təhlil edilir. Tədqiqat zamanı məlum olur ki, "torpaq", "taxıl", "su", "külək", "budaq" kimi aqrar və təbii anlayışlar dildə sadəcə denotat kimi çıxış etmir, həm də konseptual metaforaların əsasını formalaşdırır (məsələn, AQRAR SAHƏ İNSAN HƏYATIDIR, TƏBİƏT HADİSƏSİ EMOSİYADIR). İşdə struktur-semantik və konseptual analiz metodlarından istifadə edilməklə frazeologizmlərin və atalar sözlərinin daşıdığı daxili forma və mental strukturlar aşkar olunmuşdur. Əldə olunan nəticələr linqvokulturologiya, koqnitiv dilçilik və paremiologiya sahəsi üçün nəzəri və praktik əhəmiyyət daşıyır.*

Açar sözlər: koqnitiv dilçilik, konsept, aqrar terminologiya, təbiət hadisələri, frazeoloji vahid, atalar sözləri, dil mənzərəsi, konseptual metafora

Keywords: cognitive linguistics, concept, agricultural terminology, natural phenomena, phraseological unit, proverbs, linguistic picture of the world, conceptual metaphor.

Ключевые слова: когнитивная лингвистика, концепт, аграрная терминология, природные явления, фразеологическая единица, пословицы, языковая картина мира, концептуальная метафора.

Giriş. Müasir dilçilik elminin antroposentrik (insan mərkəzli) paradiqmaya keçidi dil vahidlərinin yalnız formal-struktur cəhətdən deyil, eyni zamanda insan təfəkkürü, mədəniyyəti və idrak (koqnitiv) prosesləri ilə vəhdətdə öyrənilməsini zəruri etmişdir. Bu kontekstdə koqnitiv dilçilik və linqvokulturologiyanın qovşağında dayanan ən fundamental anlayışlardan biri "dünyanın dil mənzərəsi" (linguistic picture of the world) konseptidir. Hər bir xalqın dili onun əsrlər boyu formalaşdırdığı həyat təcrübəsini, ətraf mühiti qavrama və dərketmə üsullarını özündə fiksasiya edən universal bir yaddaş kodudur. Bu yaddaş kodunun ən zəngin, semantik baxımdan ən sıxlaşdırılmış və milli-mədəni spesifikliyi ən yüksək səviyyədə qoruyan qatını isə paremioloji vahidlər (atalar sözləri) və frazeologizmlər təşkil edir.

Tədqiqatın aktuallığı Azərbaycan xalqının tarixi-etnoqrafik reallıqları, məişət tərzi və təfəkkür modelinin dilin frazeoloji və paremioloji fondunda əks olunan aqrar leksika və təbiət hadisələri vasitəsilə koqnitiv-semantik planda araşdırılması ehtiyacından irəli gəlir. Əsrlər boyu oturaq əkinçilik, maldarlıq və təbiətlə birbaşa təmas şəraitində yaşamış Azərbaycan türklərinin dünyagörüşündə torpaq, su, bitki örtüyü və meteoroloji hadisələr sadəcə fiziki obyektlər deyil, bütöv bir dəyərlər sisteminin, əxlaq normalarının və fəlsəfi baxışların ifadə vasitəsinə çevrilmişdir. Dilimizdə mövcud olan aqrar terminlərin və təbiət anlayışlarının obyektiv aləmdən mücərrəd mental sferaya hansı qanunauyğunluqlarla köçürüldüyünün

DOI:10.30546/gdu.5.2026

(metaforik proyeksiyasının) aşkar edilməsi müasir Azərbaycan koqnitiv dilçiliyi üçün böyük elmi əhəmiyyət kəsb edir.

Tədqiqatın obyekti Azərbaycan dilinin frazeoloji lüğətlərindən və paremioloji toplularından seçilmiş, tərkibində aqrar leksika və təbiət hadisələri (məsələn: torpaq, əkin, toxum, taxıl, budaq, su, külək, qar, yağış, bulud və s.) olan dil vahidləridir. Tədqiqatın predmeti isə həmin vahidlərin daxili formalarında gizlənən konseptual metaforalar, mental strukturlar və onların daşıdığı koqnitiv-semantik çalarlardır.

Məqalənin qarşısına qoyulmuş əsas məqsəd Azərbaycan dilində aqrar terminologiyanın və təbiət anlayışlarının paremiya və frazeologizmlərdə kəsb etdiyi koqnitiv semantikanı sistemləşdirmək, xalqın mentalitetinə xas olan konseptual metafora modellərini üzə çıxarmaqdır. Bu məqsədin reallaşdırılması üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- Koqnitiv dilçilikdə konseptual metafora nəzəriyyəsinin (C.Lakoff, M.Conson) əsas müddəalarını Azərbaycan dili materialına tətbiq etmək;
- Aqrar sahəyə aid terminlərin (toxum, məhsul, bar, budaq) insan həyatı, nəsillərin davamlılığı və əxlaqi keyfiyyətlərlə bağlı formalaşdırdığı konseptual modelləri müəyyənləşdirmək;
- Təbiət elementlərinin (su, od, yel, torpaq) və atmosfer hadisələrinin (duman, bulud, leysan) insanın emosional vəziyyəti və sosial münasibətləri ilə ekvivalentləşdirilməsi mexanizmlərini təhlil etmək;
- Frazeoloji və paremioloji vahidlərin semantik strukturunda milli-mədəni və universal (koqnitiv) komponentlərin nisbətini müəyyən etmək.

Tədqiqatın metodoloji əsasını konseptual analiz, metaforik proyeksiyanın müəyyənləşdirilməsi üsulu, komponent təhlili və linqvokulturoloji təsvir metodları təşkil edir. İdrak proseslərinin dil strukturlarındakı inikasını izləmək üçün sinxron və linqvo-koqnitiv yanaşmalardan istifadə edilmişdir.

Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan dilindəki aqrar və təbii leksika ilk dəfə olaraq sadəcə tematik qrup və ya leksik-semantik sahə kimi deyil, birbaşa təfəkkür fəaliyyətinin məhsulu olan konseptual invariantlar şəklində və model əsaslı tədqiq olunur.

Tədqiqatın nəzəri və tətbiqi əhəmiyyəti isə linqvokulturologiya, etnolingvistika, koqnitiv dilçilik üzrə ali məktəb kurslarının materiallarının zənginləşdirilməsinə, həmçinin milli paremiyaların mental-koqnitiv xəritəsinin çıxarılmasına xidmət etməsidir.

Aqrar konseptlərin metaforik köçürülməsi: Torpaq, əkin, məhsul və toxum anlayışlarının koqnitiv təhlili. Koqnitiv dilçilikdə C. Lakoff və M. Conson tərəfindən irəli sürülmüş **konseptual metafora nəzəriyyəsinə** görə, insan mücərrəd və mürəkkəb sahələri (hədəf sahəsi) daha konkret və empirik olaraq mənimsədiyi sahələr (mənbə sahəsi) vasitəsilə dərk edir. Əsrlər boyu aqrar məişət tərzi keçirmiş Azərbaycan etnosunun təfəkküründə əkinçilik sferası ətraf aləmi, insan həyatını və əxlaq normalarını dərk etmək üçün ən əsas mənbə sahələrindən biri olmuşdur. Dilimizin paremioloji və frazeoloji fondunda bu köçürülmə müəyyən konseptual metafora modelləri üzrə reallaşır:

1. İNSANIN ƏMƏLİ (FƏALİYYƏTİ) ƏKİNDİR / TOXUMDUR

Bu modeldə insanın cəmiyyətdəki davranışı, yaxşı və ya pis əməlləri torpağa basdırılan toxumla və onun verəcəyi nəticə ilə eyniləşdirilir.

- *"Nə tökərsən aşına, o da çıxar qaşığına"* atalar sözünün aqrar-mental variantı olan **"Nə əkərsən, onu da biçərsən"** paremiyası insanın bu gün etdiyi hərəkətlərin (toxum səpilməsi) gələcəkdə onun qarşısına çıxacağını (məhsul yığımı) tamamilə aqrar metafora ilə kodlaşdırır. Burada *əkmək – səbəb, biçmək – nəticə* qismində koqnitiv inteqrasiya yaradır.

DOI:10.30546/gdu.5.2026

2. NƏSİL (AİLƏ) AĞACDIR / BARDAN İBARƏTDİR

İnsan nəslinin davamlılığı, övlad və valideyn münasibətləri aqrar terminologiyada bitkinin, ağacın inkişaf fazaları vasitəsilə konseptuallaşdırılır.

- **"Bar verən ağaca daş atarlar"** atalar sözündə "bar" (məhsul) konsepti insana məxsus faydalılıq, elm, bacarıq və cəmiyyətə xeyir vermək kimi mücərrəd keyfiyyətləri ifadə edir.
- **"Kökündən kəsilmək"** və ya **"kök salmaq"** frazeologizmləri bioloji-aqrar bir prosesi birbaşa insanın genealoji strukturuna köçürür. Burada bitkinin torpağa bağlanma mexanizmi insanın cəmiyyətdə möhkəmlənməsinin mental qarşılığıdır.

3. İNSANIN XARAKTERİ TORPAQDIR

Torpaq konsepti Azərbaycan dilinin koqnitiv mənzərəsində səbr, dözümlülük, məhsuldarlıq və bəzən də ağır təbiətlilik keyfiyyətlərinin daşıyıcısıdır.

- **"Torpaq adamı"** frazeologizmi koqnitiv planda təmkinli, xeyirxah, sadə və etibarlı insan tipini xarakterizə edir. Torpağın hər şeyi qəbul edib əvəzində nemət verməsi xüsusiyyəti insan xarakterinə layihələndirilir.

Aşağıdakı konseptual xəritə aqrar leksikanın dil daxilindəki sub-konseptual proyeksiyalarını ümumiləşdirir:

Mənbə Sahəsi (Aqrar Termin)	**Hədəf Sahəsi (Mücərrəd Anlayış)**	**Aktiv Konseptual Metafora Modeli**
Toxum / Əkin	İnsanın Davranışı və Əməli	*SƏBƏB TOXUMDUR, NƏTİCƏ BİÇİMDİR*
Bar / Məhsul	İctimai Faydalılıq, İstedad	*FAYDA MƏHSULDUR*
Kök / Budaq	Nəsil, Şəcərə, Ailə	*NƏSİL BİTKİ SİSTEMİDİR*
Torpaq	Mənəviyyat, Səbr, Dözüm	*XASİYYƏT TORPAQDIR*

Beləliklə, aqrar terminlər Azərbaycan dilinin paremioloji fondunda sadəcə bir sahənin leksikası olmaqdan çıxır; onlar mücərrəd mənəvi, etik və sosial kateqoriyaları vizuallaşdıran və idrak səviyyəsində anlaşılan edən fundamental koqnitiv alətlərə çevrilir.

Təbiət hadisələrinin və elementlərinin (Su, Od, Yel) insan emosiyaları və sosial münasibətlər müstəvisində proyeksiyası – Azərbaycan etnosunun kosmoqonik təsəvvürlərində və çoxəsrlik emprik təcrübəsində ilkin elementlər (Su, Od, Yel, Torpaq) və meteoroloji hadisələr sadəcə fiziki aləmin komponentləri kimi qavranılmır. Antroposentrik paradiqma çərçivəsində bu elementlər insanın daxili psixoloji sferasını, emosional dalğalanmalarını və cəmiyyətdəki çoxşaxəli sosial münasibətləri qruplaşdıran, vizuallaşdıran fundamental koqnitiv metaforalara çevrilir. İnsanın özünü təbiətin bir parçası kimi hiss etməsi təfəkkürdə *TƏBİƏT HADİSƏSİ İNSAN PSİXOLOGİYASIDIR* universal modelinin yaranmasını şərtləndirmişdir. Dilimizin paremioloji və frazeoloji fondunda bu proyeksiyalar üç əsas element üzrə dərindən strukturlaşdırılmışdır:

1. SU KONSEPTİ: Həyat, Dinamiklik və Sosial Münasibətlər

Su konsepti Azərbaycan dilinin koqnitiv mənzərəsində ikitərəfli (ambivalent) semantik xüsusiyyət daşıyır. Bir tərəfdən o, təmizliyin, paklığın və mənəvi aydınlığın rəmzidir ki, bu da **"Su aydınlıqdır"** mental kodu ilə dilimizə fiksasiya olunub. Digər tərəfdən isə suyun hərəkət dinamikası, dərinliyi və axın formaları insan xarakterinin və sosial davranışların interpretasiyasında metaforik mənbə sferası kimi çıxış edir.

DOI:10.30546/gdu.5.2026

- **"Suyun lal axanı, adamın yerə baxanı"** atalar sözündə suyun zahiri sakitliyi ilə daxili təhlükəli potensialı qarşılaşdırılır və bu model birbaşa olaraq özünü sakit göstərən, lakin gizli niyyətləri olan insan xarakterinə proyeksiyalanır.
- Sosial müstəvidə sabitliyin pozulması, intriqaların yaradılması mexanizmi isə **"su bulandırmaq"** və ya **"bulanıq suda balıq tutmaq"** frazeologizmləri ilə kodlaşdırılır. Burada suyun fiziki şəffaflığının itməsi sosial mühitdəki qeyri-şəffaflığın və fürsətçiliyin koqnitiv ekvivalentidir.
- İnsanın kiməsə tamamilə tabe olması, onun təsiri altına düşməsi isə **"onun suyu ilə getmək"** və ya **"aralarından su sızmamaq"** (yaxın münasibət) kimi konseptual ifadələrlə reallaşır.

2. OD KONSEPTİ: Emosional Hərarət, Qəzəb və Dağıdıcılıq

Od və atəş anlayışları insanın daxili emosional aləminin, xüsusilə də pik həddə çatan hisslərinin (qəzəb, sevgi, ehtiras, acı) başlığa linqvo-koqnitiv kodudur. Koqnitiv dilçilikdəki *EMOSİYA ODDUR* metaforası Azərbaycan paremiyalarında daxili temperaturun yüksəlməsi kimi vizuallaşdırılır.

- İnsanın kəskin qəzəb və hiddət anı **"od püskürmək"**, **"od götürmək"** və ya **"gözündən od tökülmək"** frazeologizmləri ilə ifadə olunur. Bu vahidlərdə odun dağıdıcı, yandırıcı fiziki gücü insanın idarəolunmaz emosional vəziyyəti ilə eyniləşdirilir.
- **"Od olmayan yerdən tüstü çıxmaz"** paremiyası isə təbiətdəki səbəb-nəticə zəncirini (odun nəticəsi olaraq tüstünün yaranmasını) cəmiyyətdəki şayiələrin və ya hadisələrin real əsaslarının mövcudluğu məntiqi ilə qovuşdurur.
- Başqasının yaratdığı mənfi situasiyadan zərər çəkmək prosesi isə **"oduna yanmaq"** kimi ifadə edilir ki, burada da od fəlakət və ziyanın konseptual daşıyıcısı kimi çıxış edir.

3. YEL / KÜLƏK KONSEPTİ: Qeyri-sabitlik, Müvəqqətilik və İradə

Külək və yel atmosfer hadisələri olaraq təfəkkürdə qeyri-sabitlik, etibarsızlıq, sürətli dəyişmə və əsassızlıq keyfiyyətlərinin etalonu kimi formalaşmışdır.

- Zəhmətsiz, asan və qeyri-qanuni yollarla qazanılan maddi nemətlərin və ya müvəqqəti uğurların struktur dayanıqsızlığı **"Yellə gələn yellə gedər"** atalar sözü ilə modelləşdirilir. Burada "yel" hər hansı bir möhkəm təməlin olmamasını, müvəqqətiliyi konseptuallaşdırır.
- **"Yel qayadan nə aparar?"** paremiyasında isə mükəmməl bir koqnitiv qarşıdurma (antiteza) yaradılır. "Yel" keçici, təsir gücü zəif olan, mahiyyətcə boş xarici amilləri (şayiə, kiçik təhdidlər, bədxahların sözləri) simvolizə etdiyi halda, "qaya" sarsılmaz, xaraktercə bütöv, iradəli və dözümlü insan tipinin mental proyeksiyasıdır.
- Xaraktercə etibarsız, tez-tez rəyini dəyişən və sözünün üstündə durmayan sosial subyektlər isə dilimizdə **"yelbeyin"** və ya **"külək hansı tərəfə əssə, papağını o tərəfə qoyan"** metaforik obrazları ilə tənqid olunur.

Beləliklə, Su, Od və Yel elementləri Azərbaycan etnosunun koqnitiv yaddaşında sadəcə təbiət hadisələri deyil, insanın mənəvi, emosional və sosial reallıqlarını strukturlaşdıran, onları dərk edilən və vizual edən universal linqvo-mental alətlər sistemidir.

Nəticə: Azərbaycan dilində aqrar terminologiyanın və təbiət hadisələrinin paremioloji və frazeoloji kontekstdə daşıdığı koqnitiv semantika üzrə aparılmış tədqiqat aşağıdakı elmi nəticələri formalaşdırır:

1. Məlum olmuşdur ki, aqrar məişət sferası (torpaq, əkin, bitki) təfəkkürdə insan fəaliyyətini, əxlaq standartlarını və nəsillərin davamlılığını dərk etmək üçün fundamental **mənbə sahəsi** rolunu oynayır. *İNSANIN ƏMƏLİ ƏKİNDİR*, *NƏSİL BİTKİDİR* metaforik modelləri bunun bariz nümunəsidir.

DOI:10.30546/gdu.5.2026

2. Təbiət elementləri (su, od, yel) obyektiv fiziki mahiyyətlərindən qoparaq, insanın daxili emosional vəziyyətini (qəzəb, saflıq, dəyişkənlik) və cəmiyyətdəki sosial münasibətləri strukturlaşdıran **mental invariantlar** kimi çıxış edir.

3. Azərbaycan xalqının dünyanın dil mənzərəsində təbiət və insan vahid bir sistemin komponentləri kimi qavranılır; paremiyalar bu vəhdəti koqnitiv-semantik səviyyədə fiksasiya edərək etnosun etno-mədəni və koqnitiv yaddaşını gələcək nəsillərə ötürür.

Ədəbiyyat

1. Axundov, A. A. (1988). Dil və təfəkkür. Bakı: Yazıçı.
2. Bayramov, H. Ə. (2006). Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: Maarif.
3. Həsənov, H. A. (2009). Azərbaycan dilinin frazeologiyası. Bakı: Elm.
4. Xudiyev, N. M. (2012). Azərbaycan ədəbi dili tarixi. Bakı: Elm və təhsil.
5. Mahmudov M.A.(2015). Dilçiliyin riyazi metodları və koqnitiv modelləşdirmə. Bakı: Elm.
6. Məmmədov, A. Y. (2010). Koqnitiv dilçiliyin əsasları. Bakı: Elm və təhsil.
7. Müzəffəroğlu, T. (2011). Türk dillərinin müqayisəli paremiologiyası. Bakı: Nurlan.
8. Paşayev M.Ə.(2018). Azərbaycan atalar sözlərinin semantik-koqnitiv strukturu. Bakı: Elm.
9. Seyidov, Y.M.(2007). Azərbaycan dilinin qrammatikası: Sintaksis. Bakı Universiteti Nəş.
10. Maslova, V.A. (2001). Linguoculturology. Moscow: Akademiya.

COGNITIVE SEMANTICS OF AGRICULTURAL TERMINOLOGY AND NATURAL PHENOMENA IN PHRASEOLOGICAL UNITS AND PROVERBS IN THE AZERBAIJANI LANGUAGE

Salmanova Sahile Agahuseyn, Aliyeva Lilpar Qasham

Summary

The research is devoted to the study of the cognitive-semantic features of agricultural terminology and natural phenomena realized in the phraseological fund and proverbs of the Azerbaijani language. Within the framework of the interaction between language and thought, the cognitive language picture of the world of the ethnos is investigated, and the mechanisms of transferring the human model of environmental assimilation into linguistic units are analyzed. The study reveals that agricultural and natural concepts such as "soil", "grain", "water", "wind", and "branch" do not merely act as denotates in the language, but also form the basis of conceptual metaphors (e.g., AGRICULTURE IS HUMAN LIFE, NATURAL PHENOMENON IS EMOTION). By utilizing structural-semantic and conceptual analysis methods, the internal forms and mental structures carried by phraseologisms and proverbs have been uncovered. The findings hold theoretical and practical significance for ethnolinguistics, cognitive linguistics, and paremiology.

КОГНИТИВНАЯ СЕМАНТИКА АГРАРНОЙ ТЕРМИНОЛОГИИ И ПРИРОДНЫХ ЯВЛЕНИЙ В ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦАХ И ПОСЛОВИЦАХ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Салманова Сахиле Агагусейн кызы, Алиева Лилпар Гашам кызы

Резюме

Данное исследование посвящено изучению когнитивно-семантических особенностей аграрной терминологии и природных явлений, реализуемых во фразеологическом фонде и пословицах азербайджанского языка. В контексте взаимосвязи языка и мышления исследуется когнитивная языковая картина мира

DOI:10.30546/gdu.5.2026

этноса, анализируются механизмы переноса челеческой модели освоения окружающей среды на языковые единицы. В ходе исследования выясняется, что аграрные и природные понятия, такие как «земля», «зерно», «вода», «ветер», «ветвь», выступают в языке не просто как денотаты, но и формируют основу концептуальных метафор (например, АГРАРНАЯ СФЕРА — ЭТО ЧЕЛОВЕЧЕСКАЯ ЖИЗНЬ, ПРИРОДНОЕ ЯВЛЕНИЕ — ЭТО ЭМОЦИЯ). С использованием методов структурно-семантического и концептуального анализа выявлены внутренние формы и ментальные структуры, заложенные во фразеологизмах и пословицах. Полученные результаты имеют теоретическое и практическое значение для лингвокультурологии, когнитивной лингвистики и паремиологии.

Rəyçi: Əsgərova Münəvvər
Daxil olma tarixi 28 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:80.

THE ROLE OF APPROXIMATORS IN SPEECH ACT

Khanbutayeva Leyla Musa
Doctor of philological sciences
Azerbaijan University of Languages
ORCID ID: 0009-0002-4844-9723
leyla.xanbutayeva@adu.edu.az

Annotation: *Approximators are a type of hedge used to control propositional content and express uncertainty or flexibility in interpretation. They occur at different linguistic levels, including phonemic, morphemic, and lexical levels, and are among the most commonly used forms in English. Their semantics remain a complex and understudied linguistic phenomenon.*

Approximators indicate that a statement is not exact but is sufficiently close to the intended meaning, often expressing numerical or qualitative estimates. Hedges, in contrast, soften statements, express politeness, reduce commitment, and avoid confrontation. They modify the strength of claims or opinions and play an important role in interpersonal communication. Approximation can be studied from pragmatic, semantic, and cognitive perspectives.

Açar sözlər: təxminlik bildirən sözlər, hedcinqlər, semantika, aktuallıq, modallıq, nitq prosesi, anlama

Key words: approximators, hedges, semantics, relevance, modality, the process of speech, understanding

Ключевые слова: аппроксиматоры, хеджинги, семантика, релевантность, модальность, процесс речи, понимание

Approximators, being the part of the hedges, control propositional content and express expressiveness in interpretation through signs. Although this term is not used independently in modern linguistics, it shows itself in words and expressions that indicate approximation. The semantics of approximators remain difficult and understudied. The abstract syntactic model is “Appr+X”. “Appr” – is an approximator, “X” – is the main word and this model acts as a nominative unit and plays an important role in the functional semantic field of approximation. “X” can be expressed as a noun, pronoun, numeral, adjective, participle, gerund and verb.

Approximates are modal categories express the speaker's subjective attitude to the facts of objective reality. This category has a conceptual-linguistic nature, as it is oriented to the assessment and interpretation of information by the addressee in the process of its transmission by linguistic means [4, 30].

Quantitative approximators are the most commonly used forms in English and the following typical pattern is characteristic for it “Appr+Num” or “about+num”. Example, approximately 100, about 7 years. They also present at the textual level, where they denote connectedness, integrity, relevance, informativeness, modality and play an important role in the process of speech understanding [5, 27].

In linguistics approximators are otherwise called hedges. Some linguists identify them, while others consider there are differences and peculiar features between them. There is no accepted definition of the term “approximator” in linguistics. In modern linguistics, like other linguistic phenomena, the boundaries of the term “approximator” have not been clearly

DOI:10.30546/gdu.5.2026

defined. Although a number of articles have been devoted to the study of these words, their semantics remain one of the complex and understudied linguistic phenomena.

Both approximators and hedges are used in language to introduce uncertainty, flexibility or politeness, but they serve different functions and appear in different contexts. The main purpose of approximation is to indicate that a statement is not exact, but close enough to be accurate for the speaker's purpose, it describes numerical or qualitative estimates. Hedges softens statements, express politeness, reduce commitment or avoid confrontation. Its main function is to modify the strength of a claim or opinion and is used in interpersonal or pragmatic language use.

Example for approximators: /The meeting lasted about two hours and all were very sorry//. /There were around 50 people at the party//. /My daughter is in her early 320s//.

In these examples the speaker signals that the information is not precise or exact, but close to the actual value.

Examples for hedges: /I think he might be late to the classes//. /It seems a good idea to realize//. /Maybe she is mistaken//. /This will be probably the best place to rest//.

In these sentences hedges are used to soften the impact of their statement or to show uncertainty or politeness.

Words like *about*, *around*, more or less, etc. and numeric or adjectival modifiers (e.g., a few, several, a couple of) are often approximators.

Modal verbs (might, could), adverbs (probably, possibly, perhaps), verbs of perception (seem, appear), and vague expressions (sort of, kind of) are used as hedges.

So, approximation focuses on accuracy or inaccuracy of factual content, hedges focus on attitude, politeness, and interpersonal communication. Both approximation and hedges introduce imprecision, express closeness to exact values or facts, whereas hedges soften the tone or reduce assertiveness.

In the sentence /It was made of something like wool/, *something like* is an approximator, because it mitigates the meaning in context. If we add /I suspect/ in front of the sentence / It was made of something like wood/, *something like* will be considered as a shield.

Approximators indicate the truthfulness of a statement, but attribution shields the degree of responsibility of a speaker or a writer. The latter shows where a statement comes from and can support a claim or address its limitations. The speaker’s own degree of commitment can be inferred indirectly, because the concrete source of information needs to be related to the content.

A number of modal verbs are also used in the text to moderate the meaning.

For instance: / They *might not* conceive of any greater joy in life//.

I.L.Shkot declares approximation as a functional-semantic category. Taking into account the nature of modification of the word meaning in a sentence, as well as the nature of interaction between the components of a word combination and the approximator, the researcher distinguishes five semantic types of it existing at the text level:

1) *limiting approximation*. It is characterised by occasional blurring of the word meaning. /After some years in Chicago, she was surprised to find herself almost happy//;

2) *exclusive* - consists of the occasional exclusion of one or more semems from the semantic structure of the approximated word. /A whale is kind of a fish//;

3) *additive* - indicates the interaction of the represented referent implicitly. /Qabala (the name of the city) is improving day by day,' he said, 'but mainly in tourism sphere//. It shows that Qabala is improving in other spheres, but to a smaller extent;

DOI:10.30546/gdu.5.2026

4) *comparative* - compares implicitly the represented referent with the objects immediately surrounding it. /She is comparatively a pretty woman still' means she is not really a pretty woman but she looks prettier than her friends//;

5) *relational* - indicating the comparison of the represented referent with the denotative of the used word [6, p.11].

V.Q.Voloshin tries to classify the types of linguistic approximation taking into account the possibility of updating this category at all levels of the linguistic structure.

I. *Phonographic approximation*. An example of this type is various onomatopoeias that imitate the sounds of animate and inanimate nature, the approximateness of which can be proved by the presence of a variation of one sound in different languages (bow-wow, drip-drop, croak-croak). It is expedient to attribute pauses to phonographic approximation, which reflect the speaker's uncertainty about the accuracy of the transmitted information and are indicated by ellipsis in writing.

II. *Morphological approximation*. Approximators representing an affix (- ish, -like, semi-) containing semes "approximation" adjoining words, modifying their semantics in accordance with the meanings expressed by them.

III. *Lexical approximation*. These words or phrases like almost, approximately, nearly, at least, kind of, no more than, sort of are used.

IV. *A syntactic approximation* in which the indicators are a syntactic construction like, either ... or, from ... to, neither…nor, or…and, etc.;

V. *Text approximatio*n. Under the expression of the category of approximation in the text one can understand the similarity of the lexical-semantic, structural-syntactic and structural-compositional properties of the secondary text to the properties of the original text [3, 18].

The classification of approximators shows once again that it is a universal category and covers all levels of the language. They can be used in all levels of language: lexical, grammatical and phonological. According to I.L.Shkot the indicator of the approximator at the phonetic level is a pause and the hesitation of the speaker. In writing, hesitation is expressed with graphic indicators, mainly three points. It is expressed at the lexical level with the words "almost", "nearly", "practically", "kind of" at the lexical-semantic level with the expressions "in a way", "to some extent", and at the grammatical level with "neither...nor", "either...or" modifiers [7, 26].

/*Neither a* dog *nor* a cat can be seen in the street//.

Adaptors which are a subgroup of approximators play an important role in revealing the truth in a proposition by performing the determining function in communication. Shields, do not change the content of the utterance, but indirectly indicate the attitude of the speaker. /He *nearly* turned to me and asked, "What do you think?" // In this example, the speaker is trying to describe the situation, that is why he uses the adoptor *nearly*. /*My dear*! *She's got all sorts of people coming*//. /"It is very much the *sort of* thing that I expected," said he//.

Rounders also mean a certain limit and are used with hedges such as *about, approximately, something around*. Both adaptors and rounders initiate a connection between the actual and the target situation.

The classification of approximators by semantic-pragmatic feature are divided into: inherent and adherent.

Inherent approximators *almost*, *approximately* are characterised by the constant presence of the hyperseme 'approximativity'. They are typical expressors of approximation and act in any context regardless of the pragmatics of speech. That is why ingredient approximators occupy the central position in the field of approximation, being nuclear

DOI:10.30546/gdu.5.2026

constituents. Adherent approximators (enough, perhaps, rather) can fulfil the functions, as intensifiers or modal words. They actualise the meaning of approximativity and become the markers of approximation only in a certain context and the pragmatic attitude of the speaker plays an important role in this situation [2, 114].

The original classification of apptoximators was studied by E.S.Bocharova. He divides them into 4 groups:

1) "Absolute approximators" – *almost*, *nearly*, *about* etc. In this subgroup are also "minimizers" (reduction) which semantics are approximation and negation, such as *scarcely, hardly, barely*. For example: *about two pounds*.

2) Approximators such as *kind of*, *sort of*, *of a sort*, *somewhat off*, *something like*, *something of*, *or something*, *or anything* represent approximations. At the same time, this group also includes the hidden degree of a sign, such as *half, part, partly, semi, quasi*.

3) *at least*, *no fewer than*, *not more than*, *no less than*, *more than*, *fewer than* etc. mean comparability and approximation.

4) *up to*, *below*, *from ... to*..., *within*, *or more*, *under* are give an uncertain approximation [1, 14].

There are several subgroups of approximators: a) degree denoting: *roughly, about,* 2) denoting indefinite quantity: *a lot of, a bit of, many/much, some, little/a little, a few/few/fewer, less (than), a number of, a good/ great deal of, more or less, more (than), at least, over, under*, 3) denoting indefinite frequency and time: *frequently, often, occasionally/on occasion, generally/in general, sometimes, from time to time, (hardly) ever, rarely, seldom, always, around, round about.*

The formation of the category of approximation is based on the notion of "approximation". This concept is evaluative, its characteristic feature is the lack of independence. The nature of this concept and the corresponding category is conditioned by its dependence on the nature of the evaluated structure. The category of approximation unites linguistic means of representation of the concept. The center of the category is represented by the prototype around which the prototypical core is formed. The prototypical core of this verb is formed by the periphery: the noun, the adjective, the adverbs approximate and some synonyms of these units.

The periphery of the linguistic category "approximation" is represented by various means with the help of which an approximate description of the subject of thought is carried out and which, in turn, are means of expressing other categories: uncertainty, quantitative, modality. Transitional zones are formed at the intersection of these categories: "*uncertain quality*", "*uncertain quantity*", "*approximate quantity*", "*probable* quality".

The cognitive mechanisms ensuring the formation of the meaning of "approximation" are comparison, gradation and approximation to the figure to be distinguished. The comparison is understood as a comparison of homogeneous entities. Graduation implies the ordering of quantitative/qualitative features of objects according to a person's own scale. The essence of approaching a figure of speech is reduced to singling out initially one figure, which in the speaker's opinion, which is similar, but not identical with the object of thought, and then on its basis – to another figure, which is blurred, i.e. not clearly structured in the speaker's consciousness and for verbalisation of which there is no suitable means in the language.

Summing up, we can say that having a universal linguistic nature approximation refers to general fundamental concepts that reflect the regular connections and relationships of reality in their linguistic implementation and therefore it can be interpreted as a conceptual category.

DOI:10.30546/gdu.5.2026

References

1.Бочарова, Е.С. О категории неопределенности, приблизительности и двусмысленности: / автореф. дисс. канд. филологических наук /-Пятигорск, 2004.-18 с.
2. Валгина, Н.С. Современный русский язык / Н.С.Валгина. –Синтаксис. Изд. 4-е. –М.: Высшая школа, – 2003– 416 с.
3.Иванова, И.П., В.В.Бурлакова, Г.Г.Почепцов. Теоретическая грамматика современного английского языка. – М.: Высшая школа, – 1981. – 285 с.
4.Краткий словарь когнитивных терминов. /Е.С.Кубрякова, В.З.Демьянков, Ю.Г.Панкрац [и др.]. Под общей ред. Е.С.Кубряковой. -М.: – 1996. – 245 с. https://www.twirpx.com/, p.30.
5.Майзель, С.С. Изафет в турецком языке. – Москва-Ленинград: Издательство Академии наук СССР, – 1957– 186 с., p.27.
6.Шкот, И.Л. Аппроксиматоры в современном английском языке: / Автореф. дисс. канд. филол. наук /–М.: Моск. гос. пед. ин-т иностр. Языков, –1990. – 23 с.
7.Culperer, J., Haugh M. Pragmatics and the English language – Basingstoke: Palgrave Macmillan, – 2014. – 316 p.

DANIŞIQ AKTINDA APROKSİMATORLARIN ROLU

Xanbutayeva Leyla Musa qızı

Xülasə

Aproksimatorlar nitqin məzmununu idarə etmək və təfsirdə qeyri-müəyyənliyi və ya çevikliyi ifadə etmək üçün istifadə edilən hedcinqlərin bir növüdür. Onlar fonetik, morfoloji və leksik qat daxil olmaqla müxtəlif linqvistik səviyyələrdə baş verir və ingilis dilində ən çox istifadə edilən formalar arasındadır. Onların semantikası mürəkkəb və zəif başa düşülən bir linqvistik fenomen olaraq qalır.

Aproksimatorlar ifadənin dəqiq olmadığını, lakin nəzərdə tutulan mənaya kifayət qədər yaxın olduğunu, tez-tez ədədi və ya keyfiyyət qiymətləndirmələrini ifadə etdiyini göstərir. Hedcinq əksinə, ifadələri yumşaltmağa, nəzakəti ifadə etməyə, öhdəliyi və qarşıdurmanı azaltmağa xidmət edir. Onlar ifadələrin və ya fikirlərin gücünü dəyişdirir və şəxslərarası ünsiyyətdə mühüm rol oynayır. Aproksimatorların praqmatik, semantik və koqnitiv cəhətdən tədqiqi maraq doğurur.

РОЛЬ АППРОКСИМАТОРОВ В РЕЧЕВОМ АКТЕ

Ханбутаева Лейла Муса кызы

Резюме

Аппроксиматоры-это тип хеджирования, используемый для контроля содержания высказывания и выражения неопределенности или гибкости в интерпретации. Они встречаются на разных лингвистических уровнях, включая фонемный, морфемный и лексический, и являются одними из наиболее часто используемых форм в английском языке. Их семантика остается сложным и малоизученным лингвистическим явлением.

Аппроксиматоры указывают на то, что утверждение не является точным, но достаточно близко к предполагаемому смыслу, часто выражая числовые или качественные оценки. Хеджирование, напротив, смягчает высказывания, выражает вежливость, снижает приверженность и избегает конфронтации. Они изменяют силу утверждений или мнений и играют важную роль в межличностной коммуникации. Прагматическое, семантическое и когнитивное исследование аппроксиматоров представляет особый интерес.

Daxil olma tarixi 02 noyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

UOT:811.111.

MÜASİR İNGİLİS DİLİNDƏ RƏQƏMSAL KOMMUNİKASİYADAKI QRAMMATİK DƏYİŞİKLİKLƏRİN NƏZƏRİ ƏSASLARI

Yusifova Kəmalə Yaqub qızı
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0007-7866-5669
yusifovakamala.71@gmail.com

Xülasə: *Rəqəmsal qrammatika dilin dinamikliyini və adaptasiya potensialını açıq-aydın büruzə verən sosial yönümlü, canlı və çevik bir sistemdir. Nəzəri baxımdan D.Crystalın rəqəmsal linqvistik konsepsiyası, G.Leechin qrammatik variasiya nəzəriyyəsi, M.A.K. Hallidayin funksional modelinə əsasən, qrammatika dilin daxili strukturu olmaqla yanaşı, həmçinin sosial və texnoloji modifikasiyanın refleksidir. Müasir ingilis dilində rəqəmsal kommunikasiyadakı qrammatik dəyişikliklərə morfologiya, sintaksis və təbii ki, semantikada rast gəlinir.*

Açar sözlər: sinxron/asinxron kommunikasiya, qrammatik sıxılma, funksional qənaət
Key words: synchronous/asynchronous communication, grammatical compression, functional economy
Ключевые слова: синхронная/асинхронная коммуникация, грамматическая компрессия, функциональная экономия

Çağdaş dövrümüzdə dilçilik terminologiyasında ən çox işlək terminlərdən biri mətnin, görüntünün, səsin, yaxud da simvolların kommunikasiya yaratmaq məqsədilə informasiya texnologiyalarından istifadə edərək göndərilən, qəbul edilən, paylaşdırılan "Rəqəmsal kommunikasiya" terminidir. Elə bu səbəbdəndir ki, David Crystal rəqəmsal mühitin insan dilinin təkamülündə yeni mərhələ açmaqla, dilin həm qrammatik sisteminə, həm də leksik strukturuna təsir edən çox çevik bir sosial mühit yaratdığını vurğulayır [5, s.15].

Məlumdur ki, standart kommunikasiya formaları istər şifahi, istərsə də yazılı üslubda xüsusi normativlər əsasında formalaşmışdır, lakin rəqəmsal kommunikasiya bütün müəyyən qayda-qanun baryerlərini aşmaqla dilə yeni bir abu-hava, tam fərqli bir normativ gətirmişdir. Bu dəyişikliyə münasibət bildirən Naomi Baron qeyd edir ki, bütövlükdə sosial mənlik, emosional ifadə, qlobal mədəniyyət indikatoruna çevrilən dilçilik adaptasiyası prosesi olan rəqəmsal kommunikasiya texnologiyadan həddindən artıq istifadənin təzahürüdür. Buradan da belə bir nəticəyə gəlmək olar ki, bu dilçilik adaptasiyası prosesi heç də yalnız informasiya ötürmə funksiyası daşımır [2, s. 9].

Rəqəmsal kommunikasiyanın iki növü mövcuddur:

1) Sinxron. Bu növdə kommunikasiya *chat, video call* vasitəsilə həyata keçir.

2) Asinxron. Bu növdə isə kommunikasiya e-mail, sosial media paylaşımı ilə mümkün olur.

Maraqlı cəhət odur ki, rəqəmsal kommunikasiyanın hər iki növündə ötürülən, yaxud qəbul edilən informasiya struktur cəhətdən daha çox dəyişikliyə məruz qalır, buna səbəb isə qrammatikanın funksional məqsədlərə münasib şəkildə ixtisar olunmasıdır. Elə buna görə də bu prosesi D. Crystal, J. Androutsopoulos, S. Tagliamonte kimi dilçilər "yeni ünsiyyət qrammatikası" adlandırırlar [6, s. 9; 1 s. 8; 10 s. 6].

Məlumdur ki, ənənəvi qrammatikada kompleks sintaktik quruluşlu, əsasən geniş, tam cümlələrə rast gəliriksə, rəqəmsal kommunikasiyada isə bunun tam əksi, yəni, müxtəsər, qənaət və sürətə önəm verən cümlələr işlədilir. Bu da rəqəmsal kommunikasiyanın sadəcə olaraq dilin ifadə tərzindəki dəyişikliklərə deyil, həmçinin fundamental şəkildə qrammatik

DOI:10.30546/gdu.5.2026

strukturunun dəyişməsinə də səbəb olur. Bu prosesə münasibət bildirən D. Biber və S. Conradin fikrincə, onlayn mətnlərdə qrammatik sıxılma hadisəsinin müşahidə olunması istifadəçilərin maksimal səviyyədə qənaət baxımından az sözlə daha çox mənanı ifadə etməyə çalışmağından irəli gəlir [3, s. 19]. Qrammatik sıxılma hadisəsi cümlələrin qısaldılması, sintaktik ixtisarlar, kontraksiyaların həddindən artıq geniş şəkildə istifadəsi, durğu işarələrinin və böyük hərflərin qeyri-sabit olaraq işlədilməsi, kod-miksinq və dil hibridləşməsi, emojilərin və qrafik elementlərin qrammatik əvəzlənmə funksiyası kimi xarakterizə oluna bilər. Əgər ənənəvi qrammatika normativ sistemi özündə ehtiva edirdisə, rəqəmsal kommunikasiya səbəbindən meydana gələn fundamental dəyişikliklər qrammatikaya, əsasən kontekstə müvafiq olaraq dəyişən sosial bir predmet kimi yanaşmağı sövq etməklə, onu artıq statik struktur olmayıb, adaptiv olan dinamik bir mexanizm kimi təqdim edir. Elmi-tədqiqat işimizə bütövlükdə 3 aspektdən yanaşmaq mümkündür:

Birinci yanaşma sosiolinqvistik bir aspekt olaraq dilin həm sosial, həm də texnoloji modifikasiyalara adaptasiyasını tədqiq edir. Sosiolinqvistik aspektə öz münasibətini bildirən J. Androutsopoulos qeyd edir ki, rəqəmsal mühit "dil laboratoriyası"dır, buna səbəb isə qrammatik innovasiyaların həddindən artıq sürətlə yaranması və geniş şəkildə yayılmasıdır. O, həmçinin yazı norması və qrammatikanın sosial media platformalarında sosial statusla əlaqələndirilməsini vurğulayır və buna misal olaraq gənc nəslin daha çox qeyri-formal qrammatik formaları, yaşlıların isə daha normativ formaları seçməsini göstərir [1, s. 5].

İkinci yanaşma diskursdur. Bu istiqamətdə araşdırma aparan D.Crystalın nəzəri baxışlarına gəlincə, o, rəqəmsal diskursu yazılı və şifahi dil elementlərini birləşdirən "dilin hibrid forması" kimi qəbul edir. Onun fikrincə, hər hansı bir cümlə qrammatik cəhətdən natamam olmasına baxmayaraq vizual simvollar olan GIF-lər, emojilər onu semantik baxımdan tamamlamaqla qrammatikanın artıq vizual elementlərlə sıx bağlılığının olmasını göstərir [6, s. 11].

Üçüncü aspekt isə korpus və funksional yanaşmadır. Rəqəmsal korpusları tədqiq edən D. Biber və G. Leechin nəzəri fikirləri çox maraqlıdır. Onlar belə hesab edirlər ki, qrammatikada əsasən, feilin zaman formaları və bağlayıcılar internet mətnlərində daha çox dəyişikliyə uğrayır. D. Biber və G. Leech bu fikri feilin zaman formaları və bağlayıcıların kommunikasiya məqsədinə və kontekstə ən tez adaptasiya olunan elementlər hesab etmələrindən irəli gəlir [4, s. 312].

Rəqəmsal kommunikasiya morfoloji və sintaktik baxımdan qrammatik sistemdə modifikasiyaya səbəb olaraq, hətta yeni sözlərin yaranmasına şərait yaradır. Hal-hazırda sosial mediada dildaxili ixtisarlara dair bir çox tədqiqat işinin aparılmasına baxmayaraq, onlar qrammatik-funksional baxımdan, demək olar ki, çox az araşdırılmışdır. Belə ki, burada əsasən feilin formalarının modifikasiyası, bağlayıcılardan çox az istifadə olunma hallarının müşahidə olunması qrammatik strukturdakı dəyişikliklərin tam sistemləşdirilməməsindən xəbər verir. Buradan da bir daha belə bir qənaətə gəlirik ki, rəqəmsal kommunikasiya hadisəsi çağdaş ədəbiyyatda əsasən iki aspektdən izah olunur: sosiolinqvistik və texnoloji.

Məlumdur ki, dili qrammatikasız təsəvvür etmək mümkün deyildir. Qrammatikasız olan dil xaosdur, ona görə də həqiqətən o, dilin sütunu, dayağı hesab edilərək struktur əsası təşkil edən sistem olaraq müasir dilçilikdə dilin funksional və sosial təbiətini özündə ehtiva edən dinamik bir mexanizmdir. Müasir dilin qrammatik sistemində sadəlik, funksionallıq, çeviklik əsasında müəyyənləşməklə rəqəmsal kommunikasiyanın yeni mərhələ formalaşdırdığını, bunun əksi olaraq isə ənənəvi qrammatikanın norma və sabitlik əsasında qurulmuş bir model, normalar və qaydalar toplusu olduğunu görürük. Əgər qrammatika "doğru" və "səhv" kateqoriyalarına əsaslanırdısa, indi isə o, ünsiyyət məqsədinin səmərəliliyinə yönəlmiş funksional sistem kimi rəqəmsal kommunikasiyada özünəməxsus dəyişkənlik və adaptasiya

DOI:10.30546/gdu.5.2026

kimi dinamik xüsusiyyətlərinin olması ilə fərqlənir. Bu fərqlilik internet və sosial media dilində sürət, emosiya, sadəlik tələbi kimi insan faktorundan, həmçinin dilin texnoloji adaptasiyası hadisəsindən yaranır. Bütün bu faktorlara əsaslanaraq, qrammatikanın çeviklik və uyğunlaşma potensialının rəqəmsal kommunikasiyada artıq çox praktik bir müstəvidə olduğunu danmaq mümkün deyildir. Bu müqayisə dilin sosial baxımdan təbiətini nəzərdən keçirməklə yanaşı, aparılacaq tədqiqat işləri üçün geniş və hərtərəfli imkanlar yaradır. Bu fenomenə münasibət bildirən M.A.K. Halliday qrammatikanı "mənaların formalaşma mexanizmi" adlandıraraq, onun dilin sosial məqsədlərinə uyğun şəkildə dəyişdiyini qeyd edir [7, s. 256]. Onun Sistem-Funksional Qrammatika nəzəriyyəsinə əsasən, morfoloji struktur, söz sırası, cümlə forması ünsiyyətin məqsədindən və kontekstdən asılı olaraq dəyişə bildiyindən rəqəmsal kommunikasiya sferasında qrammatikanın sosial kontekstdə mənanın ifadə vasitəsi olma modeli daha münasib hesab edilir. Bu nəzəriyyəyə fokuslanan M.A.K. Halliday rəqəmsal kommunikasiyada qrammatikanın üç əsas funksiyaya malik olduğunu vurğulayaraq onları mənaqurucu (*ideational*), ünsiyyətçi (*interpersonal*) və mətnləşdirici (*textual*) funksiyalara ayırd etmişdir. Onun fikrincə, mənaqurucu funksiya dünyada baş verən bütün hadisələri dil vasitəsilə təsvir edir, ünsiyyətçi funksiya adresant və adresat arasında münasibət yaradır, mətnləşdirici funksiya isə söylənilən fikirləri ardıcıl və mətn daxilində uyğun formada nümayiş etdirir [8, s. 215]. M.A.K. Hallidayin bu dəyərli nəzəri baxışlarının rəqəmsal kommunikasiyada heç də ayrı-ayrı hallarda deyil, eyni anda baş verərək dəyişdiyini sosial mediada olan hər hansı bir statusun mənaqurucu funksiya olaraq qarşı tərəfə informasiya ötürdüyü, ünsiyyətçi funksiya olaraq adresatla münasibət qurduğu, mətnləşdirici funksiya kimi isə vizual elementlərlə birlikdə mətn yarada bilməsi ilə bir daha müşahidə edirik. Onun Sistem-Funksional Qrammatika nəzəriyyəsindəki çoxsəviyyəlilik müasir qrammatikanın yeni sosial sferaya adaptasiya olmasını qaçılmaz edir.

Dil sistemindəki bu qrammatik modifikasiyalar tədricən baş versə də, onları sosial və texnoloji faktorlarla sürətlənən proseslər kimi qəbul etməliyik. Modifikasiya prosesinə münasibətini bildirən G.Leech qeyd edir ki, qrammatikanın dəyişmə prosesi zamanı ilkin olaraq istifadə səviyyəsində olan variasiyalar meydana gəlir, sonra həmin variasiyalar normal hala çevrilərək onlara sistemin ayrılmaz bir hissəsi kimi yanaşılır [9, s. 116].

Mövcud dinamik mexanizmin sürətlənməsinə təkan verən ən başlıca amillərdən biri isə təbii ki, rəqəmsal kommunikasiyadır. Reduksiya, kontekstləşmə, inteqrasiya, hibridləşmə kimi modifikasiya mexanizmlərinə ayrı-ayrılıqda nəzər saldıqda görürük ki, reduksiyada qrammatik formaların ixtisarı, kontekstləşmədə qrammatik elementlərin tam yenilənmiş şəkildə funksional kontekstdə işlədilməsi, inteqrasiyada simvol və emojilərin sintaktik sistemə daxil edilməsi, hibridləşmədə isə şifahi və yazılı dil quruluşunun birləşməsi prosesi baş verir. Bütün bunlar dilin morfoloji stabilliyini zəiflətsə də, onun ünsiyyət yaratma potensialını gücləndirir və qrammatikanın "funksional qənaət" prinsipinə söykəndiyini nümayiş etdirir. Nəticədə, funksional qrammatika yanaşması sübut edir ki, qrammatikada baş verən bütün bu dinamik dəyişiklik heç də normativ pozuntu olmayıb, dilin sosial məqsədlərə xidmət edən bir mexanizmidir.

Dilin quruluşunun formalaşmasında texnologiyanın əhəmiyyətli bir vasitə olmasına, qrammatika və texnologiya arasında qarşılıqlı təsirə münasibət bildirən D.Crystal texnologiyanın qrammatikanı dəyişdirmədiyini, lakin sərhədlərini genişləndirdiyini nəzərə çatdırır [5, s.103].

Bir daha qeyd edək ki, ənənəvi qrammatika dilin stabilliyinin qorunub saxlanılmasına xidmət edirdisə, rəqəmsal qrammatika isə dilin dinamikliyini və adaptasiya potensialını açıq-aydın büruzə verən sosial yönümlü, canlı və çevik bir sistemdir. Nəzəri baxımdan D.Crystalın rəqəmsal linqvistik konsepsiyası, G.Leechin qrammatik variasiya nəzəriyyəsi, M.A.K.

DOI:10.30546/gdu.5.2026

Hallidayin funksional modelinə əsasən, qrammatika dilin daxili strukturu olmaqla yanaşı, həmçinin sosial və texnoloji modifikasiyanın refleksidir. Müasir ingilis dilinin qrammatik sistemində rəqəmsal ünsiyyət ağlagəlməz dərəcədə dəyişikliklər yaradaraq əhəmiyyətli şəkildə böyük rola malikdir. Stabil və normativ sistem olan ənənəvi qrammatika müasir dövrdə dilin rəqəmsal formaları tərəfindən həqiqətən də yenidən dəyişdirilmişdir. Belə ki, bu dəyişikliklərə morfologiya, sintaksis və təbii ki, semantikada rast gəlinir, çünki dil istifadəçiləri onlayn mühitdə qrammatik normalara heç də tam əməl etmədiyindən ekran məkanının azlığı, mesaj sürəti, simvol sayı kimi texnoloji məhdudiyyətlərin olması, yazının məqsəd və üslubu yeni formaların yaranmasını qaçılmaz edir.

G.Leech-in*"economic politeness"* modeli qrammatik nəzakət formalarının azalmasının praqmatik səviyyədə baş verən modifikasiya səbəbindən irəi sürülməsi ilə müşahidə olunur. Onun nəzəri baxışlarına əsasən, artıq sosial nəzakət normaları ən minimal qrammatik formalarla – emojilər, yaxud *"thank you" – "thx", "please" – "pls" kimi* abbreviaturalarla əvəz edilir [9, s. 158].

Müasir ingilis dilində rəqəmsal dəyişikliklərə münasibət bildirən tədqiqatçıların nəzəri baxışlarından əldə etdiyimiz qənaətə əsasən, qeyd edə bilərik ki, qrammatikanın transformativ xarakteri rəqəmsal komunikasiya vasitəsilə daha qabarıq şəkildə özünü göstərir və dil ünsiyyət vasitəsi olmaqla yanaşı, həmçinin müasir texnoloji əsrin sosial və mədəni refleksiyası hesab edilir.

Ədəbiyyat

1. Androutsopoulos, J. Online Data and Digital Discourse Analysis. In Gee & Handford (Eds.), The Routledge Handbook of Discourse Analysis, 2013, 15 p.
2. Baron, N. Words Onscreen: The Fate of Reading in a Digital World. Oxford University Press, 2015, 304 p.
3. Biber, D., & Conrad, S. Register, Genre, and Style. Cambridge University Press, 2019, 300 p.
4. Biber, D., & Leech, G. The Longman Grammar of Spoken and Written English. Pearson Education, 2016, 1204 p.
5. Crystal, D. Internet Linguistics: A Student Guide. Routledge, 2011, 256 p.
6. Crystal, D. The Future of English. Routledge, 2021, 220 p.
7. Halliday, M. A. K. An Introduction to Functional Grammar. Edward Arnold, 1985, 480 p.
8. Halliday, M. A. K. An Introduction to Functional Grammar (2nd ed.). Edward Arnold, 1994, 488 p.
9. Leech, G. The Pragmatics of Politeness. Oxford University Press, 2014, 220 p.
10. Tagliamonte, S. Teen Talk: The Language of Adolescents. Cambridge University Press, 2016, 320 p.

THEORETICAL FOUNDATION OF GRAMMATICAL CHANGES IN DIGITAL COMMUNICATION IN MODERN ENGLISH

Yusifova Kamala Yagub

Summary

Digital grammar is a socially oriented, dynamic, and flexible system that clearly demonstrates the language's dynamism and potential for adaptation. From a theoretical perspective—drawing on David Crystal's concept of digital linguistics, Geoffrey Leech's theory of grammatical variation, and M.A.K. Halliday's functional model—grammar is not merely the internal structure of a language but also a reflection of social and technological

DOI:10.30546/gdu.5.2026

modification. In modern English, grammatical changes within digital communication are observed in morphology, syntax, and, naturally, semantics.

ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ГРАММАТИЧЕСКИХ ИЗМЕНЕНИЙ В ЦИФРОВОЙ КОММУНИКАЦИИ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Юсифова Камаля Якуб

Резюме

Цифровая грамматика представляет собой социально ориентированную, динамичную и гибкую систему, наглядно демонстрирующую динамику языка и его адаптивный потенциал. С теоретической точки зрения — с опорой на концепцию цифровой лингвистики Дэвида Кристала, теорию грамматической вариативности Джеффри Лича и функциональную модель М.А.К. Халлидея — грамматика рассматривается не просто как внутренняя структура языка, но и как отражение социальных и технологических изменений. В современном английском языке грамматические изменения, обусловленные цифровой коммуникацией, наблюдаются на морфологическом, синтаксическом и, разумеется, семантическом уровнях.

Rəyçi: f.f.d., dosent Gülyaz Rza qızı Zeynallı, ADU
Daxil olma tarixi 09 sentyabr 2026-cı il

DOI:10.30546/gdu.5.2026

Çapa verildiyi tarix 28.09.2026
Çap vərəqi: 17 ç.v. Tiraj :300 ədəd
Gəncə Dövlət Universitetinin nəşriyyatı
Ünvan: Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429
E-mail: ***elm@gdu.edu.az,*** *(+99422) 266 01 88*